Azərbaycan ilə Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günü-gündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir... Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır... Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bu gün Sovetlər Birliyi dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah nə olacağını heç kəs bu gün qabaqcadan deyə bilməz. Elə Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər. Bu gün əlində möhkəm tutduğu millətlər ovuclarından qaça bilər.

Dünya yeni bir tarazlığa çata bilər, elə o zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostluğumuzun idarəsində dini bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq.

Mustafa Kamal Atatürk
Türkiyə Cümhuriyyətinin qurucusu

HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ

Altı cilddə

TÜRKİYƏ

Birinci kitab

Azərbaycan Respublikası Prezidentinin
...əsinin
KİT... ANASI

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.12.2004-cü il tarixli 898 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

ÇAŞIOĞLU
2005

66.3(5Azə)8
Ə 64

AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ VƏ NURLU XATİRƏSİNƏ İTHAF OLUNUR

Müəllif - tərtibçilər: ***Qaley Allahverdiyev***
XİN-in müşaviri,
filologiya elmləri doktoru

Vəhdət Sultanzadə
XİN-in müşaviri

Məsləhətçi-rəyçi: ***Novruz Məmmədov***
Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri,
Fövqəladə və Səlahiyyətli Səfir

Redaktoru: ***Mübariz Qurbanlı***
Milli Məclisin deputatı,
tarix elmləri namizədi, dosent

"TEKFEN HOLDİNQ"*in qurucu rəhbərləri* ***Nihat Göktyiqitə, Necati Akçağlılara, Feyyaz Berkerə,*** *prezidenti* ***Erhan Önerə*** *və Azərbaycandakı təmsilçisi* ***Bataçar Baysala*** *"Heydər Əliyev və Şərq" kitabının I-V cildlərinin çapa hazırlanmasında göstərdikləri əvəzsiz köməklik üçün dərin minnətdarlığımızı bildiririk.*

Müəlliflər

H 0803010100-981
082-05

© "Çaşıoğlu" nəşriyyatı, 2003
© "Çaşıoğlu" nəşriyyatı, 2005

AZERBAYCAN CUMHURBAŞKANI HAYDAR ALİYEV

Anadolu Türkleri ve Azeriler tek bir halktır. Türkiye, Azerilerin, Azerbaycan da bizim öz vatanımızdır. Dilimiz, dinimiz, töremiz, ninnilerimiz, şarkılarımız, türkülerimiz, destanlarımız ve kahramanlarımız birdir.

1989 yılında Sovyetler Birliği`nin kendiliğinden dağılmaya başlaması sonucu 18 Ekim 1991`de Azerbaycan`ın bağımsızlığı kesinleşmiş, Türkler ve Azeriler tek bir halk olmakla beraber, iki bağımsız devlete sahip olmuşlardır.

Azerbaycan`ı bağımsız olur olmaz ilk tanıyan Türkiye, ilk büyükelçi gönderen Türkiye, ilk büyükelçilik açan Türkiye`dir. Türkiye bunu yaparaq, «Azerbaycan`ın elemi, bizim elemimizdir, Azerbaycan`ın sevinci, bizim sevincimizdir» diyen Büyük Atatürk`ün ruhunu şadetmişdir.

Azerbaycan`ın bağımsızlığını ilan etmesinin üzerinden geçen on yılı aşan süre içerisinde, bölgesinde ve dünyada sözü dinlenen, dostluğu aranan, çağdaş ve kalkınmış bir devlet haline gelmesinde Azeri halkının çabaları yanında Sayın Haydar Aliyev`in tarihi şahsiyetinin, üstün yönetim anlayışının, uzak görüşlülüğünün ve karizmasının yeri çok büyüktür. Sayın Aliyev`in üstün çabaları sayesindedir ki, bugün Azerbaycan egemen ve bağımsız bir devlet olarak uluslararası camiada muteber bir yer kazanmıştır.

Ben Azerbaycan`a en çok gelen devlet adamlarından biriyim; her gelişimde gelişmesine şahit olmuşumdur. Adeta sokakların şekli değişmiştir, insanların yüzü değişmiştir. Hem insanlar, hem sokaklar daha gülümser hale gelmiştir. Geleceğe ve kendi devletlerine olan ümit Azerbaycan`da yeşermiştir. Bu, Azerbaycan`da kardeşleri olan Türkler için, gurur verici bir olaydır.

Sayın Haydar Aliyev`in esas hizmeti, Sovyetlerin dağılması öncesinde Nahçıvan`a dönmesidir, Azerbaycan`a dönmesidir. Dönmüştür, Azerbaycan`ın fevkalade zor bir zamanında görev almıştır ve Azerbaycan büyük bir istikrarsızlığın içerisindeyken, Azerbaycan`ı bu istikrarsızlıktan çıkarmış ve bugüne getirmiştir.

Sayın Aliyev, kendi ülkesinde ve bölgede büyük bir lider olduğunu göstermiştir. Bunun kıymeti, herkesçe takdir edilmektedir.

Engin tecrübesi, dirayeti, kararlılığı, ileri görüşlülüğü, barış severliği, Azerbaycan`a ve Azerbaycan halkına olan sonsuz sevgisi, Türk tarihine, kültürüne ve Türklüğe bağlılığı ve vatanperverliği her türlü övgünün üstündedir.

Sayın Haydar Aliyev`in liderliğini, devlet adamlığını, Azerbaycan`ın demokratik, saygı duyulan, anayasal düzene sahip bir devlet haline getirilmesinde oynadığı tarihi rolü takdirle karşılıyorum.

Bağımsızlığın ilk gününden itibaren, her zaman, her meselede Azerbaycan`ın yanında olan Türkiye, bundan böyle de Azerbaycan`ın yanında olmaya devam edecektir. Ülkenin ve benim kalbim her zaman Azerbaycan`la birlikte atacaktır!...

Kardeşim Haydar Aliyev`e sağlık dolu nice yıllar diliyorum.

Mutlu bir Azerbaycan mutlaka olacaktır. Çünkü Azerbaycan sevgisi bir alevdir, bir meşaledir.

«El bilir ki sen benimsin,
Yurdum, yuvam, meskenimsin,
Annem, doğma vatanımsın,
Ayrılır mı gönül candan,
Azerbaycan, Azerbaycan.»

S. Demirel

Süleyman Demirel

Türkiye Cumhuriyyetinin 9. Cumhurbaşkanı

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV

Anadolu türkləri və azərilər vahid bir xalqdır. Türkiyə azərilərin, Azərbaycan da bizim öz vətənimizdir. Dilimiz, dinimiz, köklərimiz, laylalarımız, şərqilərimiz, mahnılarımız, dastanlarımız və qəhramanlarımız birdir.

1989-cu ildən Sovet İttifaqının dağılmağa başlamasının nəticəsi kimi 18 oktyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyi qəti olaraq müəyyənləşdi. Beləliklə türklər və azərilər vahid bir xalq olmaqla bərabər iki müstəqil dövlətə sahib oldular.

Azərbaycan müstəqil olar-olmaz onu ilk tanıyan, ora ilk səfir göndərən, orda ilk səfirlik açan Türkiyə oldu. Türkiyə bunları edərək «Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir» deyən Böyük Atatürkün ruhunu şad etdi.

Azərbaycan müstəqilliyini elan etdiyi on il ərzində, bu ölkənin yerləşdiyi regionda və dünyada sözü dinlənilən, dostluğu axtarılan, müasir və inkişaf etmiş bir dövlət halına gəlməsində, azəri xalqının əməyi və zəhməti ilə yanaşı cənab Heydər Əliyevin tarixi şəxsiyyət olmasının, yüksək idarəçilik qabiliyyətinə malik olmasının, uzaqgörənliyinin və xarizmasının yeri və rolu çox böyükdür.

Mən Azərbaycana ən çox gələn dövlət rəhbərlərindən biriyəm və hər gəlişimdə də onun inkişaf etməsinin şahidi olmuşam. Sanki küçələrin şəkli dəyişmiş, insanların üzü dəyişmişdir. Həm küçələrin, həm də insanların çöhrəsində təbəssüm yaranmış, gələcəyə və öz dövlətlərinə ümid və inam artmışdır. Azərbaycanda baş verən bu dəyişikliklər qardaşları türklər üçün qürurverici bir hadisədir.

Cənab Heydər Əliyevin əsas xidməti, Sovetlərin dağılmasından bir az öncə Naxçıvana, Azərbaycana dönməsidir. O, Azərbaycana

dönmüş, ölkənin fövqəladə ağır bir dövründə vəzifə başına gəlmiş, Azərbaycan böyük bir istiqrarsızlıqdan çıxararaq bu günkü sabitliyə çatdırmışdır.

Heydər Əliyev öz ölkəsində və regionda böyük bir lider olduğunu sübut etmişdir. Bu hamı tərəfindən qəbul edilmiş bir həqiqətdir.

Zəngin təcrübəsi, qeyrəti, qətiyyətliliyi, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz sevgisi, türk tarixinə, mədəniyyətinə və türkçülüyə bağlılığı, vətənpərvərliyi misilsizdir.

Cənab Heydər Əliyevin liderliliyini, dövlətçiliyini, Azərbaycanın demokratik, konstitusiyalı quruluşa malik olan bir dövlət halına gətirilməsində oynadığı tarixi rolu təqdirəlayiq hesab edirəm.

Müstəqilliyin ilk günündən etibarən hər zaman, hər məsələdə Azərbaycanın yanında olan Türkiyə, bundan sonra da Azərbaycanın yanında olmaqda davam edəcəkdir. Ölkənin və mənim qəlbim hər zaman Azərbaycanla birlikdə döyünəcəkdir.

Qardaşım Heydər Əliyevə sağlıqla dolu uzun ömür diləyirəm.

Xoşbəxt bir Azərbaycan mütləq olacaqdır. Çünki Azərbaycan sevgisi bir alovdur, bir məşəldir.

«El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan.»

Süleyman Dəmirəl

Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti

ÖN SÖZ

Əsrimiz inteqrasiya və vahid, ümumbəşəri dəyərlər əsasında birləşmək əsridir. Belə taleyüklü, dövlətlərin və xalqların sonrakı inkişaf perspektivlərini müəyyənləşdirən məsuliyyətli dövrdə planetimizdə məskunlaşmış bütün fərqli sivlizasiyalar öz aralarında dialoqun zəruriliyini və həyati əhəmiyyətini getdikcə daha dərindən dərk etməkdədirlər. Sivilizasiyalararası dialoq eyni zamanda öz daxilindəki altsivilizasiyaların, tarixin müxtəlif keşməkeşlərində bir-birindən ayrı düşmək məcburiyyətində qalmış lokal və milli mədəniyyətlərin, etno-siyasi strukturların qarşılıqlı münasibətlərindəki tərəqqini və inteqrsiyanı da ifadə edir. Bütün bu və digər, sadalamaqla bitməyən amillər Azərbaycan-Türkiyə dostluğunun, görkəmli dövlət xadimi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təbirincə desək «bir millət-iki dövlətin» münasibətlərini xeyli dərəcədə müəyyən edir.

Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq tellərinin tarixi olduqca qədimdir və min illər öncədən başlayan ortaq tarixə söykənir. Bu ortaq tarixə nəzər yetirdiyimiz zaman görərik ki, tarixin hətta ən amansız, iki qardaş xalqı üz-üzə qoymaq cəhdlərinin üçüncü qüvvələr tərəfindən ən qatı formada təşviq edildiyi dövrlərində belə Azərbaycan-Türkiyə münasibətləri öz qardaşlıq, doğmalıq mahiyyətini bir an belə olsun itirməmiş zamanın sınağından şərəflə çıxmışdır. Belə məkrli cəhdlər XV-XVI əsrlərdə özünü xüsusilə qabarıq formada biruzə verir. Ağqoyunlu-Osmanlı, Səfəvi-Osmanlı müharibələri nə qədər dini-məzhəb qılıfına büründürülməyə çalışılsa da, indi hər kəsə yaxşı məlumdur ki, bütün bu qardaş qırğınları öz intibah dövrünə qədəm qoymuş Avropanın və Qərb diplomatiyasının məkrli oyunundan başqa bir şey deyilmiş. Osmanlı qarşısında davam gətirə bilməyən Avropanın yalnız Səfəvi-Osmanlı müharibələri nəticəsində azad nəfəs almaq imkanına malik olduğunu həm o dövrün, həm müasir zamanın bir çox görkəmli Qərb tarixçiləri etiraf etməkdədirlər. Lakin o dövr tarixini diqqətlə nəzərdən keçirsək görərik ki, əslində ən dramatik məqamlarda belə iki qardaş xalq arasında xalq diplomatiyası bir an belə olsun kəsilməmiş, mədəni, hətta iqtisadi əlaqələr bütün süni maneələrə baxmayaraq ardıcıl surətdə davam etmişdir. Bütün orta əsrlər boyu iki qardaş xalq dünya mədəniyyətinə Nəsrəddin Tusi və Fərabi kimi elm korifeylərini, Nizami, Füzuli, Nəsimi, Yunis Əmrə, Mövlana kimi sənət fədailərini, dünya memarlığının incilərini yaratmış Əcəmi və memar Sinan kimi

dühaları bəxş etmişlər. Bütün bu və digər adlarını sadalamaqla bitməyən nəhəng şəxsiyyətlər ordusunu bir-birindən ayrı şəkildə araşdırmaq, öyrənmək, onlar arasındakı mədəni-mənəvi varislik əlaqələrini görə bilməmək demək olar ki, qeryi-mümkündür. Bu nadir şəxsiyyətlərin təkcə Azərbaycan və Türkiyə xalqının deyil, bütün türk aləmənin və dünya sivilizasiyasının elmi-mədəni irsinin formalaşmasında, ümumbəşəri dəyərlərin yaradılması, idealizə edilməsi və insanlara çatdırılması istiqamətində gördükləri işlər o qədər irimiqyaslıdır ki, onların əsərləri bu gün də bəşər mədəniyyətinin inciləri arasındadır və klassik mahiyyət daşıyır. XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və iki yerə parçalanması heç şübhəsiz iki qardaş xalq arasında əsrlərdən bəri mövcud olan sıx əlaqələrə ciddi zərbə vurdu. Lakin getdikcə Avropada baş verən siyasi, iqtisadi və mədəni inqilablar Osmanlı imperiyasında olduğu kimi çarizmin ucqar rayonlarından olan Azərbaycanı da öz təsiri altına aldı. Milli özünüdərkin və milli şüurun formalaşması prosesi bu dövrdə iki qardaş xalqın yenidən, bütün məhdudiyyətlərə baxmayaraq yaxınlaşmasına təkan verdi. Osmanlı İmperiyasının müxtəlif ali məktəblərində təhsil almış, milli təfəkkürə, azad və demokratik düşüncəyə malik bütöv bir ziyalılar ordusu yaranmağa başladı.

Beləliklə, Rusiyada baş verən 1917-ci il hadisələrindən sonra Azərbaycanda da azadlıq, hürriyyət ideyalarının daşıyıcıları olan milli-demokratik ziyalılar, vətənpərvər insanlar 1918-ci ilin 28 mayında Azərbaycan Demokratik Respublikasını elan etdilər. Lakin tarixin bütün dövrlərində olduğu kimi məkrli qonşularımız olan ermənilər öz xarici himayədarlarının yaxından dəstəyi ilə əzəli Azərbaycan torpaqlarına, hətta Bakı şəhərinə təcavüz edərək xalqımıza qarşı soyqırım siyasətini həyata keçirməyə başladılar. Müstəqillik yolunda kövrək addımlarını atan, hələ milli silahlı qüvvələrə sahib olmayan gənc Azərbaycan dövlətinin ciddi sınaqlara məruz qaldığı belə məsuliyyətli bir dövrdə Osmanlı dövləti öz qardaş yardımını göstərərək 1918-ci il 4 iyunda bağlanmış Batumi müqaviləsi əsasında öz hərbi qüvvələrini Qafqaza göndərdi. Qardaş türk ordusunun verdiyi yüzlərlə şəhid Azərbaycanın istiqlalını fəlakətdən xilas etdi və Bakını yenidən paytaxt kimi öz həqiqi sahiblərinə qaytardı.

Azərbaycan xalqı heç vaxt Türk xalqının etdiyi bu qardaş yardımını unutmamış, qəhrəman türk əsgərinə öz qəlbində əbədi xatirə abidəsi ucaltmışdır. Türk xalqının beynəlxalq imperializmə qarşı apardığı qurtuluş müharibəsində Azərbaycan xalqı da özünün siyasi, iqtisadi və mənəvi dəstəyini əsirgəməmiş, daim onunla birlikdə olmuşdur. Azərbaycanın müstəqilliyinə son qoyan 70 illik Sovet əsarəti iki xalqın qardaşlıq münasibətlərinə

formal əngəllər yaratsa da əsrlərin sınağından çıxmış bu əlaqələr öz təbiiliyini və mənəvi saflığını Azərbaycanın 1991-ci ildə dövlət müstəqiliyinin bərpasına qədər qoruyub saxlaya bildi. Nəhayət iki qardaş xalq öz dostluq münasibətlərinin yeni mərhələsinə qədəm qoydular.

Azərbaycan-Türkiyə münasibətləri ölkəmizdə siyasi hakimiyyətin, xüsusilə də diplomatiyamızın səriştəsiz adamların əlində olması ucbatından ilk vaxtlar xaotik və sistemsiz xarakter daşıyırdı. Yalnız 1993-cü ilin iyununda görkəmli dövlət xadimi, türk dünyasının böyük oğlu Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıtmasından sonra iki dövlət arasındakı qarşılıqlı münasibətlər beynəlxalq sistemin konyunkturasına uyğun, realist və praqmatik əsaslar üzərində, lakin milli zəminə sadiq şəkildə formalaşmağa başladı. Bu əlaqələr iki dövlət başçılarının qardaş ölkələrə etdikləri qarşılıqlı səfərlərlə daha da möhkəmlənmiş, Türkiyə-Azərbaycan dostluğunun mahiyyəti daha fundamental əsaslar üzərində qurulmuşdur. Bu gün Azərbaycan-Türkiyə münasibətləri beynəlxalq siyasətdə mövcud olan bütün əməkdaşlıq meyarları ilə üst-üstə düşür və mahiyyət etibarilə strateji səciyyə daşıyır.

Hər şeydən əvvəl Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini birmənalı və qeyd-şərtsiz dəstəkləyən ölkə olaraq Türkiyə Azərbaycan üçün olduqca qiymətli müttəfiqdir. Türkiyə Azərbaycana bu münaqişənin həllində hərtərəfli qardaşlıq yardımı göstərir və ölkəmizin haqq səsinin dünyaya çatdırılmasında əvəzedilməz rol oynayır. Böyük Mustafa Kamal Atatürkün «Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir» sözlərini Azərbaycana münasibətdə bir prinsip kimi qəbul edən türk xarici siyasəti beynəlxalq arenada ölkəmizin etibarlı partnyoruna çevrilmişdir.

Azərbaycan-Türkiyə əməkdaşlığı hər iki dövlətin üzvü olduqları beynəlxalq təşkilatlarda daha qabarıq gözə çarpır. Belə ki, BMT, AŞ, İƏT, İKT və s. kimi təşkilatların işində hər iki ölkənin nümayəndə heyətləri vahid mövqedən çıxış edərək bir sıra uğurlara birgə imza atmaqdadırlar. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev bu münasibətləri və əməkdaşlığı belə xarakterizə edir: «Azərbaycanla Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günü-gündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir... Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır... Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq».

Azərbaycanla Türkiyə arasında mövcud olan iqtisadi əlaqələr yüksələn xətt üzrə davam edir. Türkiyənin iş adamları yeni

iqtisadi münasibətlərə keçid dövrü yaşayan Azərbaycan iqtisadiyyatına külli miqdarda sərmayə qoyaraq, yeni iş yerləri, xidmət və istehsal sahələri açaraq qardaş ölkənin iqtisadi inkişafının təməllərini möhkəmləndirməkdədir. Azərbaycan iqtisadiyyatının bütün sahələrində türk investorlarının fəaliyyəti diqqəti cəlb edir. Bu gün hər iki dövlət Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmrələrinin əsasını qoymaqla strateji partnyorluğun keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşlar. Hər iki strateji layihə çox mühüm iqtisadi- siyasi əhəmiyyət daşımaqla yanaşı, Azərbaycan-Türkiyə dostluğunun sarsılmazlıq simvoluna çevrilmişlər.

Azərbaycan-Türkiyə mədəni əməkdaşlığı öz səviyyəsinə və miqyasına görə olduqca mühüm əhəmiyyət daşımaqdadır. Belə ki, dili, dini, adət-ənənələri eyni olan iki qardaş xalqın folkloru, incəsənəti, ədəbiyyatı və digər mədəni atributları qarşılıqlı vəhdət halındadır və təbii bir inteqrasyia prosesi yaşamaqdadır. Azərbaycan Türkiyə mədəni əlaqələri həmçinin bütün Türk dünyasını özündə birləşdirən TÜRKSOY beynəlxalq təşkilati çərçivəsində olduqca səmərəli şəkildə və durmadan inkişaf etməkdədir.

«Heydər Əliyev və Şərq» (Türkiyə Cümhuriyyəti) kitabının müəllif-tərtibçiləri də bütün bu yuxarıda sadalanan məsələləri xronoloji ardıcıllıqla, təhlili bir formada oxucuya çatdırmaqdadırlar. Bu kitab həm də iki qardaş ölkənin müasir əlaqələrini araşdıran tarixçilər üçün əvəzsiz mənbə rolunu oynamaqdadır. Geniş oxucu kütləsinə iki qardaş xalqın qarşılıqlı əməkdaşlıq məsələlərini və bu əlaqələrdə Heydər Əliyev şəxsiyyətinin rolunu tarixi faktlar və dolğun məqalələrlə çatdıran bu kitab əminik ki, müəlliflərin son kitabı olmayacaq. Onların yaradacaqları yeni-yeni əsərlər gələcək nəsillər üçün tarixi mənbə olmaqla yanaşı Azərbaycan-Türkiyə münasibətlərinə aid gələcəkdə yazılacaq kitablar üçün qiymətli sənədli irs və onu yazanlar üçün ilham mənbəyi olacaqdır. Çünki Azərbaycan-Türkiyə dostluğu əbədidir. Türkiyənin sabiq Prezidenti Süleyman Dəmirəlin dediyi kimi: «Müstəqilliyin ilk günündən etibarən hər zaman, hər məsələdə Azərbaycanla birgə olan Türkiyə bundan sonra da Azərbaycanla birgə olmağa davam edəcəkdir. Bu bizim qardaşlığımızın təbii bir nəticəsidir. Türkiyə ilə Azərbaycan, iki qardaş ölkə, sivlizasiyaya doğru, yaxşı, gözəl günlərə doğru yürüməkdə davam edəcəkdir».

Mübariz Qurbanlı

Azərbaycan Respublikasının
Milli Məclisinin deputatı

ÖN SÖZ

Türkiye Cumhuriyeti ve Azerbaycan Cumhuriyeti, dünyanın siyasi ve ekonomik yönlerden ən hassas bölgelerinden birinde, 21. yüzyılın karşılarına çıkardığı fırsatların eşiğinde yer alan iki kardeş ülkedir. Bu iki ülkenin halkları, çok özel tarihi ve kültürel bağlarla birbirine kenetlenmiş olmanın yanısıra, aynı milletin çocuklarıdırlar. Türk Milleti'nin iki ayrı Devlet kurmuş bu çocukları, aralarındaki benzersiz bağlardan aldıkları enerji ve ülkelerinin büyük potansiyelleriyle, geleceklerine güvenle bakmaktadırlar. Türkiye ve Azerbaycan arasındaki ilişkiler bütün Türk dünyası için lokomotif işlevi görecek niteliktedir.

21. yüzyılın hızla degişen dinamikleri ülkelerin ve toplumların kalkınma yolunda vakit kaybetmeden ve yapılması gerekenleri yapma yolunda kararsızlığa düşmeden hareket etmelerini gerektirmektedir. Azerbaycan Cumhuriyeti, Cumhurbaşkanı Sayın Haydar Aliev'in dirayetli yönetimi altında bu bilinçle ve büyük bir şevkle çalışırken, bir yandan da 21. yüzyıla damgasını vuran değerlerle hiçbir surette bağdaşmayan ve sonuçsuz kalmaya mahkum bir saldırganlık zihniyetiyle de mücadele etmektedir. Bu insanlık ayıbı, Azerbaycan'ın topraklarının yüzde yirmisini işgal altına sokmuş ve bir milyon insanı topraklarından edilmiş kaçkınlar durumuna düşürmüşdür. Ancak Azerbaycan, bu zorluklara rağmen, bir Devlet için çok kısa sayılabilecek 11 yıl içinde birçok güçlüğün üstesinden gelerek, demokratikleşme ve ekonomik kalkınma yolunda çok önemli adımlar atmıştır. Bu başarılı çizgi, Azerbaycan'ın toprak bütünlügüne hak ettiği saygının gösterileceğinin de qarantisini oluşturmakdadır.

Azerbaycan'ın bu gelişmesi Türk halkına qurur vermektedir, çünkü Azerbaycan'ın yükselmesi, Türkiyen'in yükselmesi demektir.

Azerbaycan Cumhuriyetin'in bağımsızlığını tanıyan ve onunla diplomatik ilişkiler kuran ilk ülke olan Türkiye Cümhuriyeti, bu sürecin başından etibaren, olması gereken yerde, yani Azerbaycan'ın yanında yer almıştır. Aradan geçen 11 yıl içinde bir yandan Azerbaycan'la ilişkilerini her alana yaymaya çalışırken, diğer yndan da Azerbaycan'ın siyasi, sosyal, ekonomik gelişmesine katkıda bulunarak, uluslararası toplum içinde bağımsız ve egemen bir Devlet olarak hak ettiği yeri alması için çaba göstermiştir.

18 Eylül 2002 tarihinde Cumhurbaşkanımız Sayın Ahmed Necdet Sezer'in de katılımıyla Bakü'de temeli atılan Bakü-Tiflis-Ceyhan petrol boru hattı, Türkiye-Azerbaycan kardeşliğinin ve ortak çalışmalarının bir ürünüdür. Bakü-Erzurum-Tiflis doğalqaz boru hattının da gerçekleşmesiyle, iki ülke arasındaki dostluk ve işbirliği ilişkileri çelik bir bağla daha da kuvvetlendirilmiş olacakdır.

Bugün gelinen noktada, Türkiye ve Azerbaycan, birbirlerinin üzüntüsünü kendi kalbinde hisseden, birbirlerinin başarılarıyla onurlanan iki halkı, iki Devleti ve tek bir milleti ifade etmektedir. İki Devlet arasındaki ilişkiler değişen koşullardan ve zamandan etkilenmeyerek, ortak yararlar ve ulusal çıkarlar doğrultusunda gelişerek sürecekdir. Devletlerimiz ebediyete kadar yanyana yaşayacaktır. Hedefimiz, barış ve refah içinde bir geleceğe ülkelerimizin birlikte kavuşmasıdır.

Bu düşüncelerle, Türkiye-Azerbaycan ilişkilerine ve Cumhurbaşkanı Sayın Haydar Aliyev'in bu ilişkilerin gelişmesine yapdığı değerli katkılara ilişkin önemli bir başvuru belgesi teşkil edecek bu eserin ortaya çıkmasında emeği geçen herkese tebriklerimi sunuyorum.

A. Ünal Çeviköz

Turkiye Cumhuriyetin'in Bakü'deki Böyükelçisi

ÖN SÖZ

Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası siyasi və iqtisadi baxımdan dünyanın ən həssas bölgələrinin birində, XXI əsrin qarşılarına çıxartdığı fürsətlərin kənarında yer alan iki qardaş ölkədir. Bu iki ölkənin xalqları, xüsusi tarixi və mədəni bağlarla bir-birinə bağlanmış olmaqla yanaşı, eyni millətin övladlarıdırlar. Türk millətinin iki ayrı dövlət qurmuş bu övladları, aralarındakı misilsiz əlaqələrdən aldıqları enerji və ölkələrinin böyük potensialları ilə gələcəklərinə inamla baxırlar. Türkiyə və Azərbaycan arasındakı əlaqələr bütün Türk dünyası üçün hərəkətverici qüvvə vəzifəsini yerinə yetirmək iqtidarındadır.

XXI əsrin sürətlə dəyişən dinamikası ölkələrin və xalqların öz inkişafı üçün vaxt itirmədən, görülməsi lazım olan işləri görmək üçün gərəkli olan addımların atılması yolunda qətiyyətlə hərəkət etmələrini tələb edir. Azərbaycan Respublikası, hörmətli Prezident Heydər Əliyevin müdrik rəhbərliyi altında bu yolda böyük bir həvəslə çalışır, digər tərəfdən də XXI əsrin damğasını vurduğu dəyərlərlə heç bir şəkildə əlaqələnməyən və nəticəsiz qalmağa məhkum olan bir təcavüzkarlıq psixologiyası ilə də mübarizə aparır. Bu insanlığa zidd anlayış Azərbaycanın torpaqlarının yüzdə iyirmisini işğal altına salmış və bir milyon insanı torpaqlarından çıxarılmasına səbəb olaraq onları qaçqın vəziyyətinə salmışdır. Ancaq Azərbaycan bu çətinliklərə baxmayaraq, bir dövlət üçün çox qısa sayıla biləcək 11 il ərzində bir çox çətinliyin öhdəsindən gələrək demokratikləşmə və iqtisadi inkişaf yolunda çox önəmli addımlar atmışdır. Bu müvəffəqiyyətli xətt, Azərbaycanın ərazi bütövlüyünə layiqincə hörmət göstəriləcəyinin də təməlini təşkil edir.

Azərbaycanın bu inkişafı ilə Türk xalqı fəxr edir, çünki Azərbaycanın yüksəlməsi Türkiyənin yüksəlməsi deməkdir.

153

İşlər İdarəsinin
KİTABXANASI

Azərbaycan Respublikasının müstəqilliyini tanımış və onunla diplomatik əlaqələr quran ilk ölkə olan Türkiyə Cümhuriyyəti, bu prosesin başlanğıcından bəri, lazım olan yerdə Azərbaycanın yanında olmuşdur. Aradan keçən 11 il ərzində Türkiyə bir tərəfdən Azərbaycanla əlaqələrini hər sahəyə yaymağa çalışır, digər tərəfdən də Azərbaycanın siyasi, sosial, iqtisadi inkişafına yardım göstərərək beynəlxalq aləmdə Azərbaycanın müstəqil və suveren bir dövlət kimi layiqli yerini alması üçün səy göstərir.

18 sentyabr 2002-ci il tarixində hörmətli Prezidentimiz Əhməd Necdət Sezərin də iştirakı ilə Bakıda təməli qoyulan Bakı Tbilisi Geyhan neft boru xətti Türkiyə-Azərbaycan qardaşlığının və ortaq çalışmalarının bir məhsuludur. Bakı-Ərzurum-Tbilisi təbii qaz boru xəttinin həyata keçirilməsi ilə iki ölkə arasındakı dostluq və əməkdaşlıq əlaqələri polad bağlarla daha da möhkəmlənəcəkdir.

Bu gün gəldiyimiz nöqtədə, Türkiyə və Azərbaycan bir-birinin üzüntüsünü öz qəlbində hiss edən, bir-birlərinin müvəffəqiyyətləri ilə qürurlanan iki xalqı, iki dövləti və tək bir milləti ifadə edir. İki dövlət arasındakı əlaqələr dəyişən şərtlərdən və zamandan asılı olmayaraq, ümumi fayda və Milli mənafelər istiqamətində inkişaf edərək davam edəcək. Dövlətlərimiz əbədiyyətə qədər çiyin-çiyinə yaşayacaq. Məqsədimiz, ölkələrimizin əmin-amanlıq şəraitində firavan gələcəyə bir yerdə qovuşmasıdır.

Bu düşüncələrlə, Türkiyə-Azərbaycan əlaqələri və Prezident Heydər Əliyevin bu əlaqələrin inkişafındakı mühüm rolu mövzusuna müraciət edən, bu əsərin ərsəyə gəlməsində əməyi olan hər kəsi təbrik edirəm.

Ə. Ünal Çeviköz

Türkiyə Cümhuriyyətinin Bakıdakı
Fövqəladə və Səlahiyyətli səfiri

AZƏRBAYCANI DÜNYAYA TANIDAN LİDER

1993-cü ilin iyunu Azərbaycan tarixində çətin, ağır və qarışıq bir dövr olmuşdur. Azərbaycana həm daxildən həm də xaricdən təhlükələr artmışdır. O dövrdə hakimiyyətdə olanlar Azərbaycanı çıxılmaz bir durumda qoymuşdular. Respublikanı bu vəziyyətdən çıxarmaq üçün dəmir iradəsi olan güclü şəxsiyyət lazım idi. Belə bir vaxtda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev xalqının çağırışı ilə Bakıya gəldi. Hər zaman xalqın inancını doğruldan bu şəxsiyyət yenə də xalqın istəyi ilə onım bütün ağrılarını çiyinlərinə götürdü və 1993 ilin iyun ayının 24-də Prezident səlahiyyətlərinin ona verilməsinə razılıq verdi.

Bir türk olaraq biz kənarda yaşasaq da qəlbimiz hər zaman Azərbaycanla bir idi. Heydər Əliyevin Azərbaycana gəlişi bizim narahatlıqlara da son qoydu. İnandıq ki, Azərbaycan bir dövlət kimi yaşayacaq, onun müstəqilliyinə heç bir qüvvə mane ola bilməyəcək. Bu dövr elə bir çətin dövr idi ki, onu dəf etmək üçün Heydər Əliyev kimi güclü şəxsiyyət lazım idi. Bu çətinliklərə, narahatçılığa ancaq o, son qoya bilərdi.

Heydər Əliyevin gücü öz xalqına arxalanmasında, xalqına bağlanmasında idi. Xalq isə ona inanırdı. Ona görə də, o, Azərbaycana yönəlmiş bütün təhlükələri sovuşdura bildi. Ölkəsinə qarşı yönəlmiş bütün çirkin yürüşlərə son qoydu.

1993 ildən sonra az vaxtda Azərbaycanda çox böyük işlər görüldü, respublikanın bütün sahələrini əhatə edən köklü dəyişikliklər, dərin islahatlar həyata keçirildi və bu gün də davam etməkdədir. Bu ardıcıl müdrik siyasət nəticəsində ölkə böhrandan çıxdı, Azərbaycan xalqı faciədən uzaqlaşdı, respublikada əmin-amanlıq yarandı, daxili çəkişmələrə və vətəndaş qarşıdurmasına son qoyuldu, Azərbaycan xalqının həyatında yeni dirçəliş dövrü başlandı.

Azərbaycan özünün milli neft strategiyası və konsepsiyasını gerçəkləşdirməyə başladı, xarici dövlətlərin lider neft şirkətləri ilə imzalanan müqavilələr, o cümlədən Əsrin Müqaviləsi onun dünya iqtisadiyyatına qovuşmasını təmin etdi. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində xarici sərmayədarların Azərbaycana olan inamları artdı, onlar Azərbaycanda sərmayə yerləşdirməyə başladılar. Dünya Azərbaycanı tanıdı, Azərbaycan da dünyaya inteqrasiya oldu. Ölkə iqtisadiyyatına milyardlarla xarici yatırımlar yönəldildi.

Bu gün Azərbaycana sərmayə yerləşdirmək istəyənlərin sayı gündən günə artır. Bu sərmayələr yalnız böyük gəlirlər gətirən

neft sektoruna deyil, eyni zamanda Azərbaycan iqtisadiyyatının sahələrinə də (rabitə, maşınqayırma, maşın sənayesi, yeyinti, xidmət və s.) qoyulur. Nəticədə xarici sərmayənin ümumi həcmində qeyri-neft sektorunun payı son illər daha da artmışdır.

1998-ci ildə Bakıda İpək Yolu ilə bağlı beynəlxalq konfrans keçirildi. Bakı-Tbilisi-Ceyhan boru xəttinin çəkilişi başlandı. BTC Azərbaycanı böyük dövlətlərlə bərabərləşdirdi. Azərbaycan Qafqaz bölgəsində geosiyasi məsələlərə təsir edən bir dövlət kimi tanındı.

Bu gün beynəlxalq aləmdə Azərbaycan öz sözü ilə tanınan bir dövlət kimi qəbul olunur. BTC boru xətti Azərbaycanın problemlərinin həllinə müsbət təsir edəcəkdir. Bu xətt Azərbaycan iqtisadiyyatında inkişafın ana xətti olacaqdır. Eyni zamanda türk dövlətlərini birləşdirən bir vasitə, iqtisadiyyatda yüksəlişin təminatçısı olacaqdır.

Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. Respublika dünyanın 190-a qədər ölkəsi ilə diplomatik münasibətlər qurmuşdur. 140-dan çox ölkə ilə əməkdaşlıq etməkdədir. Azərbaycanın şansı günü-gündən güclənir. Bunların hamısı Ümummilli Lider Heydər Əliyevin böyük siyasəti nəticəsində əldə olunmuşdur.

Ümummilli Lider hörmətli Heydər Əliyev çox böyük bir şəxsiyyətdir. Onun siyasəti nəticəsində çətin imtahanından çıxan Azərbaycan xalqı artıq öz inkişafı ilə dünyanın diqqət mərkəzindədir. İnanırıq ki, bir neçə ildən sonra böyük ölkələr Azərbaycanla sıx əlaqələr yaratmağı özlərinə şərəf biləcəklər, çünki bu gün Azərbaycanın çox bacarıqlı, Heydər Əliyev siyasətinin davamçısı, sivil dövlət başçısı var. Bu, möhtərəm Prezident İlham Əliyevdir. Onun başçılığı ilə Azərbaycanın daha da irəliyə gedəcəyinə inanıram və güvənirəm. Bu Turkiyə - Azərbaycan əlaqələrinə də aiddir.

Yerinə yetirilən və həyata keçiriləcək işlər möhtərəm Heydər Əliyevin cızdığı yoldur. İnanırıq ki, möhtərəm İlham Əliyev Ümummilli Lider Heydər Əliyevdən viras qalan siyasi xətti qoruyacaq və daha da irəliyə aparacaqdır. Onun atası möhtərəm Heydər Əliyev kimi qısa zamanda böyük işlər həyata keçirəcəyinə inanırıq. O, səs-küysüz, lakin çox böyük işlər görməkdədir və onların hamısı Azərbaycan xalqının inkişafı naminə, gələcəyi naminədir.

Ümummilli Lider Heydər Əliyevin adının əbədiləşdirilməsi üçün onun etdiklərini açıqlayan kitabların çoxaldılması və yayılması bu günün tələbini əks etdirən bir zərurətdir. Biz də bu mövzuya həsr olunmuş 5 cildlik "Heydər Əliyev və Şərq" kitabının hazırlanmasına və çapına sponsorluq etdiyimizə görə böyük xoşbəxtlik və fərəh duyuruq.

Dr.Bataçar Baysal

TEKFEN-in Azərbaycan təmsilçisi

Türkiyə Cümhuriyyəti

Azərbaycan türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin birbirinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir türk respublikası yaxşı istifadə etməlidir.

Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

QISA ARAYIŞ

Rəsmi adı - Türkiyə Cümhuriyyəti

Ərazisi - 780.580 km²

Əhalisi - 67.308.928 (əhalinin son siyahıya alınması 2002-ci ilin iyulunda keçirilmişdir)

Paytaxtı - Ankara (5.300.000 min)

Ərazisi inzibatı cəhətdən 81 valiliyə bölünür:

Ərzurum, Ağrı, Artvin, Bingöl, Əlazığ, Ərzincan, Ərzurum, Qirəsun, Ordu, Gümüşanə, Qars, Muş, Rizə, Trabzon, Tuncelı, Diyarbakır, Bitlis, Xakkari, Mardin, Sirt, Şanlı Urfa, Van, Adana, Adıyaman, Qaziantəp, Hatay, İçəl, Qəhrəmanmaraş, Malatya, Kayseri, Qırşəhər, Növşəhər, Sivas, Tokat, Yozqat, Ankara, Amasya, Bolu, Çankırı, Çorum, Kastamonu, Samsun, Sinop, Zonquldaq, Konya, Afyon, Qarahisar, Kütahya, Əskişəhər, Nigdə, Konya, Kırklarəli, Çanakqala, Balıkəsir, Bursa, Biləcik, Kocəli, Təkirdağ, Sakarya, İstanbul, İzmir, Aydın, Antalya, Burdur, Dənizli, İsparta, Manisa, Muğla, Uşaq və s.

Rəsmi dili - Türk dili

Pul vahidi - Türk lirəsi

Milli bayramı - 29 oktyabr (Müstəqillik günü 1923-cü ildən etibarən qeyd olunur).

Türkiyə Böyük Millət Məclisinin (TBMM) 23-cü çağırışının tərkibi (seçkilər 3 noyabr 2002-ci ildə keçirilmişdir):

AKP (Ədalət və İnkişaf Partiyası) - 365 deputat.

CHP (Cümhuriyyət Xalq Partiyası) - 177 deputat.

DYP (Doğru Yol Partiyası)- 1 deputat.

Müstəqil - 7 deputat

cəmi: 550 deputat

Dövlət quruluşu

Türkiyə Cümhuriyyəti parlamentli respublikadır.

Dövlət başçısı

Prezident Parlament tərəfindən 7 il müddətinə bir dəfə seçilir. Prezidentin fəaliyyət qabiliyyəti olmadıqda və ya vəfat etdikdə onun səlahiyyətlərini TBMM-in sədri icra edir.

Qanunverici hakimiyyət

Qanunverici hakimiyyəti birpalatalı Parlament tərəfindən həyata keçirilir. TBMM gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Tərkibi 550 deputatdan ibarətdir. Deputatlar partiya siyahıları üzrə proporsional sistem ilə seçilir.

İcraedici hakimiyyət

İcraedici hakimiyyət Baş nazirin başçılıq etdiyi Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Baş nazir Prezidentin təklifi ilə Parlament tərəfindən 4 turdan ibarət səsvermə yolu ilə seçilir. Nazirlərin siyahısı Baş nazirin təklifi ilə Parlamentdə müzakirə edilir və təsdiq üçün Prezidentə təqdim olunur.

Məşvərət orqanı

Ölkənin Məşvərət orqanı Milli Təhlükəsizlik Şurasıdır. Tərkibi, bir qayda olaraq, ümumi seçkilərdən sonra müəyyən edilir. Son tərkibi 3 noyabr 2002-ci ildə, ümumi seçkilərdən sonra təşkil olunub. Tərkibinə ölkə Prezidenti, Baş nazir, hökumətdə təmsil olunan siyasi partiyaların sədrləri, Daxili və Xarici İşlər nazirləri, Təhlükəsizlik təşkilatı və ordu rəhbərliyi daxildir. Şura ölkənin daxili və xarici siyasətinə dair hökumətə tövsiyyələr verir.

Nəqliyyat

Dəmir yolları - 8.607 min kilometrdən ibarətdir.

Avtomobil yolları - 382.059 min kilometrdən ibarətdir.

Dəniz limanları - İstanbul, İzmir, İskəndərun, Trabzon, Aybalıq, Bandırma, Marmaris, Antalya, Quşadası, Yumurtalık, Anamur, Sinop, Zonquldak və Bodrum əsas dəniz limanları hesab olunur. Dəniz limanlarının ümumi sayı 27-dir.

Hava limanları - Ümumi sayı 120-dir. İstanbul, İzmir, Trabzon, Adana, Ankara, Antalya, Hatay, Bodrum beynəlxalq hava limanları hesab edilir.

TÜRKİYƏ TARİXİNDƏN SƏHİFƏLƏR

Türkiyənin hər bir azərbaycanlının qəlbində xüsusi, yalnız ona məxsus bir yeri vardır. Türk xalqının etnik, mədəni, din və dil cəhətdən yaxınlığı, bu ölkənin Azərbaycan xalqının tarixindəki rolu bu yaxınlığı şərtləndirən əsas amillərdir. Ölkələrimizin tarixi sərhədlər nöqteyi nəzərindən bir-birindən nisbətən uzaq olmasına baxmayaraq, xalqlarımızın bir-birinə mənəvi və mədəni cəhətdən qovuşması türklərin də, azərbaycanlıların da həmişə ürəklərini isindirmişdir. Coğrafi, siyasi və digər sərhədlərin heç vaxt heç bir çərçivəyə sala bilmədiyi türklük- vahid bir millətə mənsub olmağımızla fəxr etmə hissini yaratmışdır.

İlk Azərbaycan demokratik dövlətinin yaranması (1918-1920-ci illər) və ərazi bütövlüyünün formalaşmasının özü bir sıra hərbi-siyasi kolliziyalara məruz qalan, dövlət quruluşunu dəyişdirən Türkiyənin hərtərəfli iştirakı olmadan yarana bilməzdi. Azərbaycan dövlətinin yenidən bərpası mərhələsində və Azərbaycan xalqının müasir tarixində də bu ölkənin rolu çox yüksək və əvəzsizdir.

Bizə dil və mədəni baxımdan yaxın olan bu ölkə özü nədən ibarətdir? O əvvəllər necə idi və indi necədir? Türkiyənin Azərbaycanının xarici siyasətində yeri və rolu nədən irəli gəlir? Azərbaycan Respublikasının Prezidenti, möhtərəm, cənab Heydər Əliyev nəyə görə bu ölkəyə bu qədər diqqət verir və siyasətimizdə xüsusi yer ayırır?

Məlumdur ki, Türkiyə Qərbdən Şərqə doğru təxminən 1450 km, şimaldan cənuba doğru isə 480 km uzanır. Quru sərhədinin uzunluğu 2632 km, dənzi sərhədlərinin uzunluğu 5483 km, sahil xəttinin uzunluğu isə 7168 kilometrdir. Ölkənin Avropa hissəsinə düşən sahə 23761 kv.km-dir. Türkiyə şimali-şərqdə Qafqazla, şərqdə İranla, cənubi-şərqdə İraq və Suriya, şimali-qərbdə Bolqarıstan və Yunanıstanla həmsərhəddir. Şimalda Qara dəniz cənubi-qərbdə Mərmərə dənizi, qərbdə Egey dənizi, cənubda Aralıq dənizi ilə əhatələnir. Bosfor və Dardanel boğazları, Mərmərə dənizi Türkiyənin Avropa hissəsini Asiya hissəsindən ayırır. Asiya hissəsinə düşən sahəsi 756816 kv. km-dir.

Onu da qeyd eləmək yerinə düşərdi ki, Türkiyənin Azərbaycanla quru sərhədinin uzunluğu 11 km-dir.

Türkiyədə əhalinin orta sıxlığı hər km^2 83 nəfər adamdır. Əhalinin daha cox sıxlıq təşkil etdiyi yerlər - İstanbul şəhəri və sahilboyu regionlardır. Əhalinin 90%-ni təşkil edən türklərdən başqa burada kürdlər, azərbaycanlılar, yunanlar, ərəblər, ermənilər və yəhudilər də yaşayırlar.

Ölkədə dövlət dili olan türk dilindən başqa, kürd və ərəb dilləri də işlənilir. Türkiyədə islam dini hakim dindir. Müsəlmanlar əhalinin 99,8%-ni təşkil edir. Xristian və yəhudi təbəqələri əhalinin 0,2%-ni təşkil edir. Ölkənin paytaxtı Ankara şəhəridir. Türkiyənin böyük şəhərləri - İstanbul (əhalisi 7,3 mln), Ankara (əhalisi 5,3 mln), İzmir (əhalisi 1,7 mln), Adana (əhalisi 931 min), Bursadır (əhalisi 835 min).

Türkiyə - əsasən dağlıq ölkədir. Ərazisinin çox hissəsi Kiçik Asiya yaylasındadır. Kiçik Asiya yaylası şimaldan Pont dağları, cənubdan və şimaldan Tavr dağ sistemi ilə əhatələnir. Türkiyənin Mərkəzi hissəsini Anadolu yaylası tutur. Kiçik Asiya yaylasının qərb hissəsi paralel dağ silsilələrdən ibarətdir. Türkiyədə ən yüksək zirvə Böyük Ağrıdağdır. Hündürlüyü 5165 m-dir. Türkiyə ərazisi yüksək seysmikliyə malikdir.

Dəniz sahilləri boyunca uzanan Pont dağları dənizdən 30 km məsafədə yerləşərək dəniz səviyyəsindən 1850-2150 m yüksəkliyə qədər ucalır, Sinopdan şərqə doğru isə 3000-3700 m yüksəlir. Qara dənizin sahilləri düz olmasa da, hamar və yumşaqdır, həm də təbii limanların olmaması ilə səciyyəvidir. Sinop və Samsun arasında yeganə bir körfəz yerləşir. Sahil boyunca bir neçə kilometrlik düzənlik zonası uzanır. Bir neçə yerdə o bilavasitə dənizə daxil olan dağ qolları ilə bölünür.

Qara dəniz ətrafı ilə müqayisədə Egey və Mərmərə dənizlərinin sahilləri (Egey Anadolusu) xeyli alçaq yüksəkliklərdən ibarətdir. Onun sahil zonası bir sıra körfəzlərlə və daşlı yarımadalarla kəsilir, eyni zamanda mürəkkəbləşir. Bu məntəqədə çoxlu adalar, sahilin içərilərinə doğru irəliləyən və daxili rayonlara daxil olma imkanlarını təmin edən buxtalar mövcuddur..

Dağlararası enişlərdə Gediz və Böyük Menderes çaylarının geniş və düz vadiləri yerləşir. Buradakı ovalıqların torpaqları ölkənin ən münbit torpaqları sırasına daxildir.

Faydalı qazıntıları: xromit, boksit, volfram, civə, mis, daş kömür, qonur kömür, neft, dəmir filizi, mərmər və s.

Əsas çayları: Çorox, Qızıl İrmaq, Böyük Menderes və s. Dəclə, Fərat, Kür və Araz çaylarının yuxarı axımları Türkiyə ərazisindədir.

Böyük gölləri şorsulu Van və Tuz gölləridir.

Ərazisinin təqribən 25% meşəlikdir.

Heyvanları: vəhşi qoyun, bezoar keçisi, nəcib maral, cüyür, çöldonuzu, canavar, ayı, vəhşi eşşək və s.

Milli parklar: Uludağ, Qaratəpə-Aslantas.

Türkiyə dövlətinin yarandığı Kiçik Asiya-Anadolu ərazisi qədim zamanlarda və erkən orta əsirlərdə bir sıra dövlətlərin tərkibində olmuşdur (Hett dövləti, Lidiya, Midiya, Əhəmənilər dövləti, Makedoniyalı İskəndərin imperiyası, Selevkilər dövləti, Pont padşahlığı, Qədim Roma və Bizans və s.).

Anadolu ərazisində ilk sivilizasiya - bizim eradan əvvəl 1900-cü ildən 1200-cü ilə qədərki dövrü əhatə edən hettlerin sivilizasiyasıdır. B.e.ə. XII əsrdə, "Dəniz tayfaları" tərəfindən Kiçik Asiya və Suriyanın alınması zamanı bu sivilizasiya süqut edib. Sonra frigiyalılar (finikiyalılar) Anadolu ərazisində iki əsr mövcud olan çarlıq yaratmışdılar. Bu zaman Egey dənizinin sahilində bir neçə yunan koloniyası (müstəmləkəsi) də yaradılmışdı.

Bu ərazilərdə b.e.ə. VII əsrdə kimmerlərin dövləti, yüz il sonra isə lidiyalıların krallığı yaradılmışdır.

B.e.ə. VI əsrdən başlayaraq b.e.ə. 333-cü ilə qədər Kiçik Asiyanın böyük hissəsi Əhəmənilər imperiyasına daxil olmuşdur. Bu ərazilər 333-cu ildə Makedoniyalı İskəndərin imperiyasının bir hissəsinə çevrildi və iki əsrdən sonra isə Roma imperiyasının nəzarəti altına düşdü.

V əsrdə Roma imperiyasının süqutundan sonra İstanbul (o vaxtkı Konstantinopol) təqribən 1000 il Bizans imperiyasının paytaxtı oldu, lakin yerdə qalan bütün Anadolu bu vaxt türk - islam sülalələrinin hakimiyyəti altında idi. XIV əsrdə Osmanlı imperiyasının yüksəliş illəri başlandı və 1453-cü ildə Osmanlı dövləti II Mehmet Fatehin rəhbərliyi ilə İstanbulu (Konstantinopolu) fəth etdi. Osmanlı imperiyasının inkişaf mərhələsi başlandı. Beləliklə, müasir Türkiyə, regionda 400 il ərzində hökm sürən qüdrətli bir imperiyanin mərkəzinə çevrildi.

Orta əsrlər qərb və rus tarixşünaslığında Osmanlı imperiyasının tarixi çox vaxt məqsədyönlü şəkildə saxtalaşdırılmış, ölkə işğalçı, təcavüzkar bir dövlət kimi qələmə verilmişdir. Lakin çox az qeyd edilir və unudulur ki, məhz osmanlılar 1492-ci ildə İspaniyadan qovulan yüz minlərlə yəhudilərə öz ərazilərində yer vermişlər. Demək olar ki, heç vaxt xatırlanmır və əhəmiyyət verilmir ki, XV əsrin ortalarında Ədirnə sultanı II Murad taxtı ataraq özünü incəsənətin və fəlsəfənin inkişafına həsr etmək qərarına gəldi və yorulmadan Qərb üçün misli olmayan bir ənənənin banisinia çevrildi, Qərb və Şərq dünyası üçün Kiçik Asiyada misli görünməyən məktəblərin və akademiyaların bünövrəsini qoydu. 50 il o tarixdən öncə, Muradın babası Bəyazid reformasiyanın məhv olduğu və inkivizasiya tonqallarının yandığı bir dövrdə dini səbr və siyasi tolerantlığın möcüzələrini göstərmişdi. O, xristian, yəhudi və islam dinlərinin elementlərini özündə birləşdirən vahid bir dövlət dini yaratmağa cəhd göstərmiş, dünya dövlətinin nə vaxtsa onu həyata keçirəcəyinə əmin olmuşdur.

Avropa tarixçiləri daha çox Böyük Süleymanı (1520-1566) xatırlamağı sevmirlər. Belə ki, onun dəniz qüvvələrinin komandanı Xeyrəddin Barbarossa İspaniyanın və İtaliyanın

dəniz sahillərini viran etdiyi bir vaxtda, o, öz sarayında fəlsəfi müzakirələr və müsabiqələr keçirir, poetik disputlar təşkil edir, yarışların qaliblərini onlara ən məşhur qoşun başçılarının qibtə edə biləcəyi mükafatlarla mükafatlandırırdı.

Təəssüflər olsun ki, avropalıların təsəvvüründə Osmanlı imperiyası müharibənin və ərazi ekspansiyasının bir rəmzi kimi qalır. Buna qədər, əlbəttə "türk barbarlığı" haqqında danışan, yalançı erməni alimlərinin və onların çılğın çağrışlarının təsiri altına düşən tədqiqatçı alimlərin "osmanlı təhlükəsi, Avrasiya təpəlikləri tərəfindən, monqol çöllüklərindən gələn son təhlükə" barədə söylədikləri əfsanələr hələ də Avropanın xatirindədir.

Türklərin və Türkiyənin tarixi şərəfli bir tarix olmuşdur. Özünü ona aid edən hər bir insan onun əsas mərhələlərini yada salarkən fəxr və qürur duyur. Axı hələ 1396-cı ildə Dunay üzərində yerləşən Nikopol yaxınlığındakı döyüşdə Bayazid 100.000 ingilis, fransız, alman və flomand səlibçilərini darmadağın etdi. 1430-cu ildə II Murad Salonki şəhərini ələ keçirdi. 1453-cü ildə iyun ayının əvvəllərində II Mehmet Müqəddəs Sofiyada ona hədiyyə olunan Konstantinopol şəhəri haqqında dua etdi. 1526-cı ildə Sulltan Süleyman Budapeşti birləşdirdi və yalnız vaxtında yetişən Polşa kralı Yan Sobesskinin simasında 1683-cü ildə Vyana xilas edildi.

Orta əsrlərdə Azərbaycan - Osmanlı münasibətlərinə gəlincə, bunlar dünya tarixinin həmin dövrünə xas olan və bərəkətli torpaqların sahibi olmağa çalışan sultanların və şahların cəngavərlik nümunələri və biri-birinin qarşısında hərbi əzəmət nümayişi ilə səciyələnir. Bu orta əsrlər cəmiyyətinin qaranlıq dövrlərini yaşayan bütün insan cəmiyyətinin insani-ruhi xüsusiyyəti idi.

Osmanlı imperiyasının Ağqoyunlu dövləti və Səfəvi imperiyası ilə hərbi toqquşmaları ümumbəşər sisteminin siyasi və fəlsəfi görüşlərinin aydın bir ifadəsi olmuşdur.

XVII əsrin sonu - XVIII əsrin əvvəlləri Osmanlı imperiyasının tənəzzül dövrü olmuşdur. Bu zaman I Pyotrun ordusunun 1711-ci ildə Prutda mühasirə olunması, Azov qalasının qaytarılması, həmçinin Morey və bir sıra Egey adalarını venesiyalılardan 1715-1718-ci il müharibəsində geri alınması kimi bir sıra nailiyyətlərə baxmayaraq, 1716-1718-ci illərdə Avstriya ilə aparılan müharibə məğlubiyyətlə qurtarmış, Pojaresk müqaviləsinin şərtlərinə uyğun olaraq bir sıra ərazilər itirilmişdir. 1724-cü il müqaviləsinə uyğun olaraq imperiya İranın və Qafqazın Xəzəryanı vilayətlərindən imtina etməyə məcbur olmuşdur.

Ancaq qələbə və məğlubiyyətlərin tarixi ilə Osmanlı imperiyasının qoyduğu irs sona çatmır. Bu səltənət özünə görə orijinal və qəribəliklərlə dolu bir aləm idi. Bu ölkə son yüzil-

liklər həmişə Qərbi Avropa ilə mübarizə aparmış, yalnız XIX əsrdə bu döyüşü uduzmuşdur. Yüzlərlə ləhcə və dillər bu qəribə ölkənin ənginliklərində bir-birinə qovuşurdu. Bunların əks - sədası indi də Mövlananın Orxan Pamuk tərəfindən şərh edilən rəvayətlərində eşidilməkdədir.

Bəli, insanlar bu böyük torpaqlarda səyahət edirdilər. Belqradda deyilən ifadə Dəməşqdə də səslənirdi, şairin nitqi onu Qahirədən Salonkiyə, oradan İstanbula və Antioxiyaya gətirib çıxardırdı. Hətta ən uzaq şəhərciklər və kəndlər heç vaxt tamamilə əyalət olaraq qalmırdılar. Osmanlı Türkiyəsinin müxtəlif dillərə və mədəniyyətlərə sahib olan insanları bir yerə toplamaq, onlardan vəhdət təşkil etmək qabiliyyəti o dövrün möcüzəsi, böyük türk qəlbinin müxtəlif dinlərə və millətlərə açıqlığının təntənəsi idi.

Gənc Cakomo Kazanova İstanbulda həmişəlik qalmaq istəyirdi. O özü yazır ki, o əsl türk ola bilərdi, xalatda gəzib öz hərəmini əyləndirə bilərdi. Kiyev rahibi Pansiy Veliçkovski Dunaya keçmiş, məhz sultana məxsus olan ərazilərdə məhşur monastrın əsasını qoymuşdu.

Yarım əsr sonra rus inqilabçısı və yazıçısı Vasili Kelsiyev osmanlı xidmətində möcüzəyə oxşar bir sıçrayış etmiş, təxminən on il Rumıniyadakı Tulça vilayətinin valisi olmuşdur. Sultana təkcə yanıçarlar deyil, kazaklardan ibarət hərbi hissələr də sədaqətlə xidmət edir, onun yolunda canlarını qoyurdular. Türk sultanları və paşaları başqa mədəniyyətlərin özünəməxsusluğunu dəyərləndirir və bu ənənəni qorumağa çalışırdılar.

Əlbəttə, dövlətin qanunlarına görə müsəlmanı yoldan çıxarıb yəhudi və ya xristian dininə iman gətirənləri ölüm cəzası gözləyirdi. Lakin Kelsiyev rəsmi dövlət xidmətində məmur olmaq üçün heç də Peyğəmbərin dinini qəbul etmək məcburiyyətində deyildi.

XIX əsrin ortalarında İstanbulu təssəvürümüzə gətirmək çox da çətin deyil. "Kolokol" jurnalının əməkdaşı və Gertsenin dostu peterburqlu Vasili Kelsiyev, polyak üsyançısı krakovlu Stanislav Podlyaski, Kabuldan gələn ilahiyyətçi, xətib və filosof Cəmaləddin-əl-Əfqani bir şəhər meydanında yaşayır və bir nəşriyyatda çalışırdılar. Üçü də osmanlı ləhcəsində danışır və biri-birini gözəl başa düşürdülər. Biri əski təriqətçilərdən, o biri isə sultanın protektoratı altında Polşanın yenidən bərpa edilməsi haqqında kitab yazırdı. Üçüncüsü isə panislamizmin əsas müddəalarını formalaşdırırdı.

Tədqiqatçılar qeyd edirlər ki, XVI əsrin ikinci yarısında Böyük Süleymanın qəfil ölümündən sonra Osmanlı imperiyasının böhranlı vəziyyəti çox erkən başlamışdır. Lakin, əgər bir imperiya ki, üç yüz il müddətinə dağılırsa, onda onun necə də böyük qüdrətə, gücə malik olduğunu görməmək mümkün deyil.

Maraqlıdır ki, mədəniyyətin belə bir vəziyyəti türk xalqının vəziyyəti

ilə qəribə bir şəkildə səsləşirdi. Türklər həm torpaq becərir, həm malqara otarır və eyni zamanda dövləti də idarə edir və vuruşurdular.

Cəmiyyətin orta təbəqəsini isə, xüsusən şəhər əhalisini ticarətlə məşğul olan əcnəbi xalqların nümayəndələri - ermənilər, yunanlar, yəhudilər təşkil edirdi. Onların icmaları sanki dövlət içində dövlət idi. Lakin ümumimperiya səviyyəsində onların hüquqları olduqca məhdud idi.

Bunun nəticəsində kapitalizmin başlanğıcında ölkədə sahibkarlıqla məşğul olan tapılmadı - paşalar üçün bu məqbuledilməz, kəndli üçün isə ağlasığmaz bir şey sayılırdı. Etnik azlıqların nümayəndələri isə öz ənənəvi imkanları hüdudlarından kənara çıxa bilməzdilər.

Krım müharibəsindən sonra 1856-cı ildə bağlanan Paris sülh müqaviləsinə uyğun olaraq Türkiyə Avropa dövlətlərinin sıralarına daxil edildi. Ancaq türklər yalnız bunun ağır bəhrəsini gördülər. Artıq 1875-ci ildə dövlət borcu milyardı ötdü ki, bu da ölkənin maliyyə iflasını sürətləndirdi. Sənaye və ticarət də böhranlı vəziyyətə düşdü.

Xaricilər yerli məmurlara tabe olmurdular, öz qayda-qanunları ilə yaşayır, ölkədə özlərini sərbəst hiss edirdilər. Osmanlı imperiyası Avropa anlayışındakı "müstəqilliyin" mahiyyətindən tamamilə xəbərsiz idi və bu ölkədə xristian dövlətlərinin maraqlarını rəsmən Rusiya və Fransa qoruyurdu.

Dövləti hissələrə parçalayırdılar və artıq osmanlıların süqutu göz qabağında idi.

Bir tərəfdən Rəşid paşanın Tənzimat proqramına uyğun olaraq XIX əsrin ortalarından başlayan islahatlar və hələ XIX əsrin əvvəllərində II Əbdülhəmidin konstitusiyası ilə həyata keçirilmiş olan qanunlar böyük çətinliklər yaradırdı. Imperiya islahatlara çox zəif uyğunlaşırdı və hər bir dəyişiklik idarə etmənin böhranına gətirib çıxarırdı. O biri tərəfdən isə XIX əsrin sonunda və XX əsrin əvvəllində yeni bazarların axtarışı ilə məşğul olan vəhşi dünya kapitalizminin nəzərindən getdikcə zəifləyən bu imperiya heç cür qaça bilməzdi. Əksinə o get-gedə Avropa siyasətçilərinin iştahını artırırdı. Yalnız diplomatik hiylə ilə Osmanlılar Almaniya, Avstrya-Macarıstan, İngiltərə, Fransa və Rusiya arasındakı ziddiyyətlərdən istifadə edərək, imperiyanın islahı üçün vacib olan vaxtı qazana bilirdilər. Lakin mövcud olan zəif mövqe diplomatiyada uğursuzluqlara aparıb çıxarırdı.

Türkiyədə müasirliyə doğru meylin olması və Avropa dövlətləri tərəfindən ölkəni dağıtmaq və onu hissələrə bölmək cəhdinə qarşı müqavimətin göstərilməsi nəticəsində Türkiyədə gənc-türklər hərəkatı başlandı.

Həmişəki kimi, inqilab mətbuatdan başlandı. Namiq Kamal bəyin və onun həmfikirlərinin çılğın, fəqət vətənpərvər məqalələri xalqı düşüncələrdən hərəkətə gətirdi. Yeni Osmanlıların (gənc-türklər) gizli cəmiyyətləri ölkənin bütün vilayətlərində təsis edildi.

1908-ci ildə Makedoniyada yerləşən hərbi hissənin zabitləri Konstitusiyanın yerinə yetirilməsi tələbi ilə üsyan etdilər. Parlament seçkiləri keçirildi. Gənc-türklər hökumət yaratdılar və onların tanınmış lideri Ənvər Paşa Müdafiə naziri və Xarici İşlər naziri vəzifəsinə təyin edildi.

Lakin əsaslı islahatların aparılması üçün artıq vaxt qalmamışdı. İnqilabdan dərhal sonra Bolqarıstan öz müstəqilliyini elan etdi. 1912 və 1913-cü il Balkan müharibələri yeni uğursuzluqların əsasını qoydu. İstanbul az qala Avropada olan sonuncu ərazilərini də itirəcəkdi. Yalnız yaxın keçmişdə müttəfiq olan yunanların, serblərin və bolqarların arasındakı ziddiyyətlər və çəkişmələr vəziyyəti bir az düzəltməyə, Ədirnənin qaytarılmasına şərait yaratdı. Lakin bi-rinci dünya müharibəsi Türkiyənin də qapılarını döydü.

Bu muharibədə Türkiyə Almaniyanın tərəfində çıxış etirdi. Ona görə də Kayzer imperiyasının məğlubiyyəti həmçinin, Osmanlı imperiyasının məğlubiyyəti demək idi.

Bu bəlkə də, Türkiyə tarixinin ən faciəli dövrlərindən biri idi, lakin bu tarixi hadisə müasir dünyada Azərbaycan və Türk xalqının milli dövlətçiliyin möhkəmləndirilməsi uğrunda apardıqları tarixi mübarizədə həmişə bir-birinə qarşılıqlı yardım göstərməyə hazır olduqlarını meydana çıxarırdı.

Bu illərin sınağı nəinki Türkiyədən, hətta Azərbaycandan da yan ötmədi. Erməni quduzluğuna və hədyanlığına qarşı mübarizə aparan Azərbaycan xalqı yardım üçün əllərini özü ağır vəziyyətdə olan Türkiyəyə uzatdı və təmənnasız yardım gördü.

1918-ci ilin may ayında Naxçıvan, Şərur və Dərələyəz qəzalarının xüsusi nümayəndə heyəti Kərim xan İrəvanlının başçılığı ilə general Mehmet Vehib Paşa ilə görüşərək, Andranikin başçılıq etdiyi erməni hücumunun qarşısının alınmasını ondan xahiş etdi. 1918-ci ilin iyun ayında 9-cu və 11-ci türk diviziyaları Uluxanlıdan Naxçıvana qədər yürüş etdi. 4 iyun 1918-ci ildə türk qoşunları Naxçıvana daxil oldu.

Naxçıvan üzərində türk bayrağını sancaraq, bu ərazinin Türkiyənin nəzarəti altına keçməsini bəyan edən türk hərbçiləri, şəhərin yeni general-qubernatorunu da təyin etdi. Bununla yanaşı türk zabitlərinin yardımı ilə Naxçıvanın hərbi dəstələri formalaşdırıldı və bu prosesə rəhbərlik edən şəxs məhz 1-ci ordu korpusunun komandiri Kazım Qarabəkir Paşa oldu. 19 yaşından tutumuş bütün kişi əhalisi orduya səfərbərlik edildi. Naxçıvan ordusu ilə türk ordusunun birgə səyləri nəticəsində Andranikin daşnak dəstələri Azərbaycan torpağından qovuldu.

Lakin türk ordusunun Azərbaycana yardımı bununla bitmirdi. Türk islam ordusu Azərbaycan dövlətçiliyi-

ni də xilas edərək, 1918-ci ilin 15 sentyabrında erməni hərbi birləşmələrinin nəzarəti altında olan Bakını azad etdi və Azərbaycan Demokratik Respublikası hökumətinin paytaxtda yerləşməsini təmin etdi. Bu yolda çoxlu qurbanlar verdi. Hazirda, Azərbaycanın paytaxtı Bakının ən gözəl yerlərindən biri olan Şəhidlər Xiyabanında onların şərəfinə möhtəşəm bir abidə yaradılmış, yanındaca böyük bir məscid kompleksi inşa edilmişdir. Qədirbilən xalqımız türk əsgərlərinin əziz xatirəsini həmişə hörmətlə yad edir. Al-əlvan əkkillər ilin hər bir vaxtında demək olar ki, bu məqbərənin üzərindən əksik olmur.

O ağır günlərə geri qayıdaraq deyə bilərik ki, "Aqamenon" adlı ingilis hərb gəmisindən eşidilən Şopenin matəm marşı elə bil ki, Osmanlı imperiyasının dəfnini elan etdi. 600-illik tarixdən böyük bir dövrü özündə ehtiva edən Osmanlı dövləti əbədiyyətə qovuşurdu. 1918-ci ilin oktyabrında imzalanmış Mudros müqaviləsinə görə Türkiyə I Dünya müharibəsində məğlub oldu və Ərəbistandan tutmuş Qafqaza qədər ərazi Antanta hərbi bloкuna daxil olan ölкələrin nəzarətinə keçdi.Sülhün şərtlərinə görə Türkiyə eyni zamanda Qafqazdan qoşunlarını çıxarmalı, qələbə çalmış dövlətlərə Qara dənizə çıxış üçün şərait yaratmalı və Antanta qoşunları tərəfindən İstanbulun və boğazların işğalına razılıq verməli idi.

Bununla belə vəziyyət yenə də pisləşməyə doğru dəyişirdi. 1919-cu ildə yunan desantı İzmirdə əməliyyatlara başladı və Kiçik Asiyaya doğru irəllədi, yunan və türk xalqları arasında münasibətlər son dərəcə gərginləşdi. 1920-ci ildə İstambulda milli qarşıdurma vüsət aldı. İngilislər şəhərə qoşun yeritdi...

Lakin böyük və şərəfli türk dövlətçilik ənənəsi Mustafa Kamal kimi böyük şəxsiyyətin mey danı çıxmasını zərurətə çevirdi. Artıq 1919-cu ildə bu liderin rəhbərliyi altında türk xalqı milli mücadilənin əsasını qoyaraq, öz dövlətçiliyi uğrunda mübarizəyə başladı.

Mustafa Kamal paşa 19 may 1919-cu il tarixində hərbi və dövlət xarakterli tapşırıq alaraq 9-cu ordunun müfəttişi kimi Anadoluya gəldi. Bu zaman, orada müstəqillik uğrunda mübarizə adı altında çıxış edən "Şərqi Anadolunun hüquqlarının müdafiə cəmiyyəti" artıq fəaliyyət göstərirdi. Qısa zaman ərzində Mustafa Kamal bu cəmiyyətin sədri oldu.

1919-cu ilin iyul-avqust aylarında keçirilmiş Ərzurum Konqresi "Şərq vilayətlərinin bütövlüklə Osmanlı imperiyasının tərkibindən ayrılmasının qeyri-mümkünlüyü" haqqında qərar qəbul etdi. Türkiyə üzərində Amerikan mandatına üstünlük verən İstambul təslimçilərindən fərqli olaraq, Ərzurum Konqresi Şərqi Anadolu üzərində hər hansı bir mandatın olmasını rədd etdi.

1919-cu il sentyabr ayının 4-dən 12-nə kimi keçirilən Sivas Konqresində də Amerikan mandatına üstünlük verənlər məğlubiyyətə uğradılar. Konqres Türkiyə ərazisinə məxsus olan hər hansı bir hissənin işğalına və oraya müdaxilə olunmasına qarşı qətiyyətli bəyanatlar verdi, türk torpaqlarının azad olunması uğrunda mübarizə aparılacağını bildirdi.

1919-cu ilin sonundan başlayaraq, Mustafa Kamalın rəhbərlik etdiyi "Nümayəndələr komitəsi" artıq Anadoluda müəyyən səlahiyyətlərə malik olan vahid hakimiyyət təşkil edirdi.

1920-ci ilin yazında Mustafa Kamal Ankarada, işğalçıları qovmaq və vətənin müstəqilliyini bərpa etmək məqsədi ilə Türkiyə Böyük Millət Məclisini çağırdı. Bundan sonra azadlıq və müstəqillik uğrunda ölüm-dirim mübarizisi başlandı. Üç il ərzində kamalçılar yunanları məğlub etməyə və inqilisləri ölkədən çıxartmağa nail oldular.

1923-cü ildə sultanlığın ləğv edildiyi və Türkiyə Cümhuriyyətinin yaradıldığı elan olundu.

Türkiyə və millət qarşısında göstərdiyi xidmətlərə görə Mustafa Kamala xalq Atatürk adını verdi və bu şəxsiyyətin xidmətləri sayəsində Türkiyə yeni mərhələyə - sivil dünyaya inteqrasiya yoluna, inkişafa və qələbələrə qədəm qoydu. O, yeni Türkiyə yaratdı, dövlətin yeni milli ideologiyasını qurdu, etatizmin, iqtisadi dirçəlişin, mənəvi və mədəni yeniləşmənin, təhsil islahatının, ordu quruculuğunun bünövrəsini yaratdı.

Atatürkün ideyaları və prinsipləri hər bir türkün həyat tərzinin əsasını təşkil etdi. Və ən yeni tarixdə bu dövlətdə üsyanlar və edamlar, böhranlar və vətəndaş münaqişələri müşahidə olunsa da, türk dövlətçiliyi öz möhkəm sütununu qoruyub saxladı. Buna görə xalq öz əbədi liderinə minnətdardır. Atatürkün dünyada hər bir türkün qəlbində xüsusi yeri var. Onun rəsmlərinə və heykəllərinə Türkiyənin hər bir küçəsində, hər bir türkün evində rast gəlmək olar.

Məhz Mustafa Kamal tərəfindən əsası qoyulmuş dövlətçilik prinsipləri və Atatürk diplomatiyası bu dövləti daim bütün xətalardan və beynəlxalq münaqişələrdən qorudu. Türkiyənin II Dünya müharibəsi zamanı tutduğu mövqe bu fikri tam əks etdirir. Türkiyənin Qərbin yeni siyasi-iqtisadi sistemlərinə inteqrasiyası, yeni beynəlxalq sistemdə fəal iştirakı və tərəqqipərvər dünyanın tərkib hissəsi qismində çıxış etməsi Atatürk siyasətinin təzahürü və bəhrəsidir. ABŞ-ın Prezidenti Harri Trumenin 1947-ci ildə Konqresdə bəyan etdiyi prinsip - "işğaldan qorunmaq üçün azad xalqlara yardımın göstərilməsi tezisi" Türkiyəyə beynəlxalq aləmin və ilk növbədə Qərbin dəstəyini şərtləndirdi.

Artıq 1952-ci ildə Türkiyə NATO-ya və 1955-ci ildə SENTO-ya üzv qəbul edildi. 1959-cu ildə isə rəsmi Ankara ABŞ-la hərbi əməkdaşlıq haqqında saziş imzalayaraq, dünyanın ən qüdrətli dövlətinin hərbi bazalarının Türkiyə ərazisində yerləşməsinə im-

kan verdi. Türkiyə ilə hərbi əməkdaşlıq Qərbin hərbi-siyasi strategiyasının başlıca prinsipini təşkil etdi.

Türkiyə dövləti daim öz milli maraqlarını ümumstrateji maraqlardan üstün tutdu. Məhz keçmişdə, o cümlədən birinci dünya müharibəsində buraxılan səhvlərin təhlili, Türkiyəni yeni bəlalardan, iflasdan xilas etdi. Türkiyə öz siyasətində Atatürkün vəsiyyətini heç vaxt unutmadı - "Ölkədə sülh - cahanda sülh" şüarı ölkə siyasətçiləri üçün əbədi və unudulmaz bir tezisə çevrildi.

Həm 50-ci, həm də 60-cı illərdəki ölkədaxili siyasi mübarizənin təfərrüatları da Atatürk prinsiplərinin türk siyasətində yenilməzliyinə dəlalət edir. 1950-ci ildə Atatürk tərəfindən hələ 1923-cü ildə yaradılmış Cümhuriyyət Xalq Partiyası ilk dəfə Parlament seçkilərində məğlub oldu. Hakimiyyətə Demokrat Partiyası gəldi və onun rəhbərləri Bəyar və Ədnan Menderes ölkəyə rəhbərlik etməyə başladılar. Onlar müvafiq olaraq Prezident və Baş nazir postlarını tutdular. Bu cütlüyün yürütdüyü siyasət nəticəsində, ölkəyə xarici kapital sürətlə cəlb olundu və bu özəl türk kapitalının marqlarına xələl gətirərək, ölkədə sosial gərginliyin baş qaldırmasına səbəb oldu.

Bununla yanaşı, yeni iqtidar demokratik təşkilatların nümayəndələrinə qarşı repressiyalar keçirdi və irticaçı islam qüvvələri ilə sövdələşməyə getdi. Bəyar-Menderes hökumətinə qarşı böyük narazılıq Türkiyədə irimiqyaslı xalq hərəkatının başlanmasına şərait yaratdı və artıq 1960-cı ilin aprel ayında küçə və meydanlarda fasiləsiz keçirilən kütləvi aksiyalar ölkəni silkələdi. Bu proses 27 may 1960-cı il dövlət çevrilişi ilə bitdi. Atatürk prinsiplərini bərpa etmək şüarı altında ordu generalları Demokrat Partiyası hökumətini devirdi və hakimiyyət Milli Birlik Komitəsinin sədrinin - general Gürelin əlində cəmləşdi.

1961-ci ildə yeni Konstitusiya (Ana Yasa) qəbul olundu. Ölkənin əsas qanunu bəzi məhdudiyyətlərlə yanaşı siyasi partiyaların təsis olunmasını, siyasi və mülki azadlıqları da nəzərdə tuturdu. 1961-ci ilin oktyabrında keçirilmiş Parlament seçkilərindən sonra ölkədə siyasi fəallıq yenidən artdı. Məhz bu zaman milli kapitalın maraqlarını müdafiə edən Ədalət Partiyası yaradıldı. Bu partiya əski Demokrat Partiyasının varisi idi.

Fəqət siyasi qüvvələr arasında gedən qızğın çəkişmələr nəticəsində heç bir partiya parlamentdə üstünlük qazana bilmədi. 1965-ci ildə keçirilmiş Parlament seçkiləri, nəhayət, Ədalət Partiyasının gücünü nümayiş etdirdi və bu, partiya lideri Süleyman Dəmirəlin rəhbərliyilə yeni birpartiyalı hökumətin qurulmasına imkan yaratdı.

1960-cı il çevrilişindən sonra ölkənin xarici siyasətində də irəlliləyişlər müşahidə olundu. Yeni hökumət xarici siyasət prioritetlərini qorumaqla, ABŞ, NATO, SENTO ilə münasibətləri möhkəmləndirməklə yanaşı, ölkə maraqlarının qorunması prioritetinə də daha böyük önəm verdi.

Müasir türk tarixinin xronologiyasına nəzər salmaq kifayətdir ki, münaqişəli vəziyyətlərdə türk dövlətinin müdrik və ağıllı mövqeyinin şahidi olasan. II Dünya müharibəsi başa yatdıqdan sonra türk hərbi qüvvələri bir neçə dəfə BMT-nin və NATO-nun bayrağı altında fəaliyyət göstərən sülhməramlı qüvvələrin tərkibində (1950-ci il - Koreya, 1992-ci il - Somali, 1993-cü il - Bosniya Hersoqovina və 2001-ci il - Əfqanıstan) iştirak etmişlər. Türk ordusunun Kiprdəki əməliyyatları və Şimali İraqda kürd terrorçu dəstələrinə qarşı apardığı mübarizə istisna təşkil edir. Lakin hər iki halda Türkiyə dünya ictimaiyyəti tərəfindən dəstək almışdı. Birinci halda yunan hərbi xuntasının - Qara Polkovniklərin hərbi qiyamının və onların "enozis" (adanın yunanlaşdırılması) ideyasının qarşısı alınmışdı. İkinci halda isə BMT-nin qətnaməsinə uyğun olaraq beynəlxalq terrorizmə qarşı mübarizə çərçivəsində bu tədbir həyata keçirilmişdi..

Ötən əsrin 60-70-ci illərdə Türkiyədə aparılmış islahatlar nəticəsində yeni sənaye sahələri yarandı. Energetika, qara və əlvan metallurgiya, kimya, neftayırma və maşınqayırma kimi yeni sahələr inkişaf etdi..

Lakin Türkiyə də səciyyəvi iqtisadi böhrandan xilas ola bilmədi. İnflyasiya və valyuta ehtiyatlarının tükənməsi dövlətdə ciddi iqtisadi böhrana yol açdı. İqtisadi böhran, sosial gərginlik, siyasi vəziyyətin ağırlaşması və sağ ekstremist təşkilatların, sol terrorçu ittifaqların fəallaşması yenə də ölkəni çaxnaşmalar məngənəsinə sürüklədi. Ölkədə vəziyyət xeyli ağırlaşdı.

1980-ci ildə görkəmli siyasi xadim və iqtisadçı Turqut Özal tərəfindən başlanılmış "Xilas" proqramı dövlət və siyasi strukturlar tərəfindən dəstək almadı, əksinə bu işə xələl gətirə biləcək siyasi təşəbbüslər ölkəni siyasi böhrana gətirib çıxardı.

1980-ci ilin sentyabrında hərbi elita növbəti çevriliş edərək, Milli Təhlükəsizlik Şurasını və Türk Hərbi qüvvələrinin qərargah rəisi Kənan Evreni hakimiyyətə gətirdi. Yeni hərbi iqtidar T.Özalın iqtisadi islahatlarına yol açmaq məqsədilə ölkədə sabitliyi bərqərar etdi. T.Özal hökumətə daxil edildi.

1983-cü ildə hərbi vəziyyətə son qoyuldu və Parlament seçkiləri keçirildi. Hakimiyyət yenidən mülki şəxslərə təhvil verildi. Hakimiyyətə gəlmiş T.Özalın Ana Vətən Partiyası iri türk sənaye və bank kapitalının marqlarının ifadəçisi olduğunu rəsmən bəyan etdi.

T.Özalın özü isə 1983-cü ildən 1989-cu ilə qədər Baş nazir kürsüsündə əyləşdi. Sonra isə o Prezident vəzifəsini tutaraq əməli işlərlə ölkənin inkişafını təmin etdi və iqtisadi dirçəlişdə yeni tarixi mərhələnin əsasını qoydu.

1963-cü ildən Türkiyə Avropa

Birliyinin assosiativ üzvüdür. Dünyanın aparıcı iqtisadi ekspertlərinin fikrincə, Türkiyə bu qurumda tam hüquqlu üzv qismində təmsil olunarsa qısa müddət ərzində Qərbi Avropanın aparıcı ölkələrinin səviyyəsinə yüksələ bilər..

Lakin Türkiyənin bu quruma tam hüquqlu üzv olmaq üçün etdiyi müraciətlər həm 1987-ci, həm də 2002-ci illərdə müsbət cavab tapmamışdır.

Türkiyə həm də BMT, BVF, İƏT, İKT və bir çox digər beynəlxalq siyasi və iqtisadi təşkilatlarda təmsil olunur.

Bu günkü Türkiyənin təhsil sistemi də çox inkişaf edib. Ölkədə 27 ali təhsil müəssisəsi işləyir. Bunların sırasında İstanbul, Bosfor, Ankara, Orta Şərq, Bilkənd və digər universitetlər dünyada şöhrət tapıb.

Tarix davam edir. Dünyanın ən qüdrətli hərbi-patriarxal, fövqəldövlət statusunu, intensiv və keyfiyyətli inkişafa, dinamik və müasir iqtisadiyyata malik dövlət statusuna dəyişərkən türk xalqı çox şeyləri itirdimi sualına heç kəs birmənalı cavab vermək iqtidarında deyil. Təbii ki, əski qüdrətin əbədiləşməsi işi siyasətçilərin deyil, şair və rəssamların qayğısına çevrilməlidir.

Lakin əski mədəni ənənə ilə müasir həyat arasındakı məsafə o qədər də böyük olmamalıdır. Çünki böyük keçmiş zəmanətli sabaha aparan qüdərtli körpüdür. Böyük imperiyaların nəfəsini bugünkü Türkiyədə hiss etməmək olmur.

Müasir Türkiyənin ərazisində islam dünyası, pravoslav Avroasiya sivilizasiyası yerləşir. İstanbul isə bütün yolların kəsişdiyi yerdədir. Onsuz Avroasiya qitəsinin vahidliyini təsəvvürə gətirmək qeyri-mümkündür.

Bizim fikrimizcə, müasir Türkiyə Avroasiyanın əsas nöqtəsidir və əzəmətidir. Ümid etmək olar ki, ən yaxın zamanlarda Türkiyə Avroasiyada nəinki geostrateji üstünlüyünü, hətta iqtisadi, texnoloji və mədəni dominantlığını əldə edəcək.

Türk xalqının şanlı keçmişi, böyük mədəniyyəti və qoyduğu tarixi miras buna münbit şərait yaradır.

Ötən əsrin son illəri, həm Türkiyə üçün, həm də Azərbaycan üçün olduqca mühüm bir tarixi mərhələ idi.

Türkiyənin xarici siyasət doktrinasında əsas vəzifələrdən biri müstəqil Azərbaycan dövləti ilə münasibətləri inkişaf etdirməkdir.

Bu ölkə ilə münasibətlər Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir, çünki dövlətlərimizi və xalqlarımızı birləşdirən siyasi, iqtisadi və mədəni tellər, vahid dilə, mədəniyyətə və keçmişə əsaslanır.

Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra istiqlaliyyətimizi ilk tanıyan dövlət məhz Türkiyə oldu. 9 noyabr 1991-ci ildə rəsmi Ankara müstəqilliyimizi tanıdı, 14 yanvar 1992-ci ildə isə dövlətlərimiz arasında diplomatik münasibətlər quruldu.

Bu diplomatik hadisə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının əsasını qoyaraq, iki dövlət arasında siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə, bir sözlə bütün sahələrdə əməkdaşlığın yaranmasını şərtləndirdi.

Türkiyə yeganə dövlətdir ki, Ermənistanın Azərbaycana qarşı işğalını rəsmi surətdə pisləyib və Dağlıq Qarabağ probleminin ədalətli şəkildə tənzimlənməsi tələbini irəli sürüb. Türkiyə var qüvvəsiylə ölkəmizin ərazi bütövlüyünün bərqərar olunmasına çalışır.

Ölkələrimiz arasında çoxşaheli əməkdaşlıq möhkəm hüquqi zəminə əsaslanır, məqsəd və məramlarımızın, mədəni və tarixi əlaqələrimizin dönməzliyini təmin edir, inkişaf etdirir.

Hələ 28 dekabr 1994-cü ildə Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisinin sədri Hüsaməddin Cındoruk un Azərbaycana rəsmi səfəri zamanı iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq haqqında saziş imzalandı. 1995-ci ilin aprelində ikitərəfli saziş Türkiyənin neft konsorsiumunda payının artırılmasına imkan yaratdı və türk neft şirkətinin payı 1.75%-dən 6.75% qədər çoxaldı. Ümumilikdə, Türkiyə ilə Azərbaycan arasında 84 saziş imzalanıb və bu hüquqi baza ölkələrarası münasibətlərin inkişafına yeni-yeni üfüqlər açır..

Türkiyənin Azərbaycana göstərdiyi əvəzedilməz dəstəyi ilk növbədə, hərbi qüvvələrimizin möhkəmlənməsində türk zabitlərinin iştirakında və yardımında görünməkdədir. Türk dövləti peşəkar zabit korpusumuzun formalaşması işində müstəsna rol oynayır.

İki qardaş ölkə arasında münasibətləri həm Türkiyə Cümhuriyətinin Prezidenti Əhməd Necdət Sezər, həm də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev dəfələrlə öz çıxışlarında xarakterizə ediblər.

Azərbaycan Respublikası Milli Məclisinin üzvləri ilə görüşü zamanı etdiyi çıxışında Əhməd Necdət Sezər demişdir ki, o, ölkəmizə Qafqazda strateji müttəfiq kimi baxır və belə hesab edir ki, iqtisadiyyatın inkişafı üzrə dünyada mühüm yer tutan Türkiyənin Azərbaycanla əməkdaşlığı hər iki dövlət üçün əlverişlidir.

Bir daha, iki qardaş ölkə arasında dövlətlərarası iqliminin hazırkı vəziyyətini qiymətləndirərkən, onu XVI əsrin məşhur italiyan şairi Torkvato Tassonun hikmətli sözləri ilə çox gözəl xarekterizə etmək olar. Ona görə dostluq - insana istiqamətlənən bir limandir; o ruhun möhkəmlənməsini və təmkinliyini özündə əks etdirir, eyni zamanda o - rahat və sərbəst həyatın başlanğıcıdır.

Bəli, qardaş xalqların dostluğu məhz belə bir limandır və müasir Azərbaycan dövlətinin yenidən təşəkkül tapması və inkişafı prosesində onun çətin və əzablı yollar keçərək bütün maneələri dəf etməsi bizi ruhlandırır.

PARLAMENTLƏRARASI ƏLAQƏLƏR

Son zamanlarda dövlətlərarası münasibətlərdə yaradılmış Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələri intensiv olaraq inkişaf etməyə başlamışdır. Azərbaycan və Türkiyə arasında parlamentlərarası dialoq dövlətlərarası qardaşlıq əlaqələrinin, ikitərəfli siyasi, iqtisadi, humanitar münasibətlərin inkişafından, qanunvericilik sahəsində təcrübə mübadiləsi və beynəlxalq Parlamntment təşkilatlarında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsindən ibarətdir. Bu nöqteyi-nəzərdən, Parlament nümayəndələrinin qarşılıqlı mübadiləsi faktoru çox mühüm rol oynayır. Bu səfərlər zamanı, tərəflər mövcud olan qarşılıqlı maraqların perspektivlərini, parlamentlərarası əlaqələrin effektivliyi haqqında fikir mübadiləsi aparır, maraqlandıran məsələləri müzakirə edirlər və əməkdaşlığın formalarını aydınlaşdırırlar.

Son illərdə Azərbaycan və Türkiyə arasında parlamentlərarası münasibətlər xüsusi əhəmiyyət kəsb etmişdir. Türkiyə Böyük Millət Məclisinin Sədri H.Cindorukun səfəri(26-28 dekabr 1994-cü il) iki ölkənin Ali qanunverici orqanları arasında yaranan yeni münasibətlərə başlanğıc olmuş və bunun la da əməkdaşlığımızın səmərəli olmasına təkan vermişdir. Səfər zamanı parlamentlərarası əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. İmzalanmış sənədə əsasən, tərəflər qanunvericilik sahəsində parlamentlərarası informasiya xidmətinin hazırlanması üçün qarşılıqlı yardım haqqında yerli görüşlərin, konfransların, elmi praktiki seminarların və mühazirələrin, eyni zamanda insan hüquqları sahəsində, cinayətkarlıqla mübarizə, mühacirət siyasəti, iqtisadiyyat, energetika, nəqliyyat və mühafizə vasitələrilə bağlı olan bu və ya digər sahələri əhatə edən məsələlər ətrafında mütəmadi olaraq məsləhətləşmə-lərin keçirilməsini öz öhdəliklərinə götürmüşlər.

Azərbaycan Respublikasının Milli Məclisinin nümayəndələri Türkiyə Böyük Millət Məclisinin 75-illik yubleyinə həsr olunmuş təntənəli tədbirdə iştirak etmişlər. Prezident S.Dəmirəlin, Baş nazir T.Çillərin və M.Yılmazın Azərbaycana rəsmi səfərləri zamanı (1995-1996-cı illər), Türkiyə Parlamentinin nümayəndələri onları müşayiət edirdilər. Bu səfər zamanı, Türkiyə parlamentariləri Milli Məclisdə səmərəli görüşlər keçirmiş və faydalı söhbətlər aparmışlar. Eyni zamanda parlamentlərarası əməkdaşlıq sahəsində konkret məsələlər müzakirə edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Türkiyə Azərbaycanda siyasi, iqtisadi islahatların və demokpatik quruculuğun hə-

yata keçirilməsində oz dəstəyini ifadə etmişdir. Belə əməkdaşlıq çərçivəsində, Türkiyə parlamentariləri pespublikamızın tarixində ilk dəfə olaraq Milli Məclisdə və Azərbaycan Konstitusiyasının qəbulu üzrə referendum (12 noyabr 1995-ci il) zamanı keçirilən demokratik seçkilərdə müşahidəçi kimi iştirak etmişlər.

Azərbaycan və Türkiyə Parlamentlərinin nümayəndələri beynəlxalq Parlamntment təşkilatlarında da sıx əməkdaşlıq edirlər. Azərbaycan və Türkiyə Parlamentləri Qara Dəniz İqtisadi Əməkdaşlıq Parlament Məclisinin bünövrəsini qoyanlardan biri olmuşdur və bu regional Parlament təşkilatında yekdil mövqedən çıxış edirlər.

Bakı şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin 7-ci geniş sessiyası keçirilmişdir. TBMM-in nümayəndə heyəti və rəhbəri Q.Qenci sessiyanın işində iştirak etmişdir.

Parlamentlərarası nümayəndə heyyətləri həmçinin ATƏT-in Parlament Assambleyasında və Avropa Şurasının Parlament Şurasında da sıx əməkdaşlıq edirlər. Türkiyə parlamentarilərinin nümayəndə heyyətlərinin köməyi ilə, başda deputat U.Qurkan olmaqla, Ottavada (1995-ci il) və Stokholmda (1996-cı il) keçirilmiş ATƏT-in Parlament Assambleyasının sessiyasında, Ermənistan-Azərbaycan münaqişəsi zəminində Azərbaycanın ədalətli mövqeyini əks etdirən qətnamə qəbul olunmuşdur.

1996-cı ilin iyun ayında Avropa Şurası Parlament Assambleyasındaa Azərbaycanın Milli Məclisinin nümayəndələri xüsusi dəvət olunmuş statusu almış, bunun nəticəsində, hər iki dövlətin nümayəndə heyyətləri bu nüfuzlu beynəlxalq təşkilatla səmərəli əməkdaşlıq əldə etmək imkanına malik olmuşlar. 1996-cı ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyasının sessiyasında iştirak etdiyi zaman, Azərbaycan Respublikası Milli Məclisinin Sədri M.Ələsgərov Türkiyə nümayəndə heyətinin bu təşkilatdakı rəhbəri olan İ.Cemlə görüşmüşdür və onunla ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmişdir.

1996-cı ildə Azərbaycan Respublikasının Milli Məclisinin "Yerli özünüidarəetmə" məsələləri üzrə komissiya üzvləri Türkiyəyə getmişlər və bələdiyyə sisteminin fəaliyyəti ilə bağlı olan praktiki təcrübə ilə tanış olmuşlar.

TBMM-in yardımı ilə Azərbaycan Respublikasının Milli Məclisində müasir tələblərə cavab verən Parlament kitabxanası yaradılmışdır.

1997-ci ilin mart ayında Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Murtuz Ələsgərovun dəvətilə Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Mustafa Qələmli Azərbaycan Respublikasına səfər etmişdir.

1997-ci ilin may ayında Azərbaycan Respublikası Milli Məclisin Sədri cənab Murtuz Ələsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə

rəsmi səfərdə olmuşdur.

2000-ci ilin fevral ayında Milli Məclis Sədrinin dəvətilə Türkiyə Böyük Millət Məclisinin sədri cənab İldırım Akbulut Azərbaycan Respublikasına səfər etmişdir.

2000-ci il 14 mart tarixdə Milli Məclisin Sədri Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan Dostluq Qrupunun Sədri Şamil Ayrımı qəbul etmişdir.

2000-ci il 29 may tarixdə Milli Məclisin Sədri Türkiyənin Xarici İşlər naziri İsmayıl Cemi qəbul etmişdir.

2001-ci ilin iyulunda Milli Məclis Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfər etmiş, səfər zamanı Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Ömər İzgi, Baş nazirin müavinləri cənab Mesut Yılmaz və Dövlət Bahçeli, Türkiyə Prezidenti Əhməd Necdət Sezer və digər rəsmi şəxslər ilə görüşlər keçirilmişdir.

2002-ci ilin 6-10 fevral tarixlərində Milli Məclis Sədrinin dəvəti ilə Türkiyə Böyük Millət Məclisinin Sədri Ömər İzgi Azərbaycan Respublikasına səfər etmişdir.

2002-ci il 24 aprel tarixdə Milli Məclisin Sədri Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrımı qəbul etmişdir.

2002-ci il 3 may tarixdə Milli Məclisin Sədri Türkiyə Cümhuriyyəti Ədliyyə naziri Hikmət Sami Türkü qəbul etmişdir.

2002-ci il 10 iyul tarixdə Milli Məclisin Sədri Türkiyə Cümhuriyyətinin Quru Qoşunları Komandanı, Ordu generalı Hilmi Özkökü qəbul etmişdir.

Beləliklə, parlamentlərarası əlaqələrimiz də günü-gündən genişlənməkdədir.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTLƏRİ

1. Müstafa Kamal Atatürk -	1923-1938
2. İsmət İnönü -	1938-1950
3. Cəlal Bayar -	1950-1960
4. Camal Gürsel -	1961-1966
5. Cövdət Sunay -	1966-1973
6. Fəxri Korutürk-	1973-1980
7. Kənan Evren -	1982-1989
8. Turqut Özal -	1989-1993
9. Süleyman Dəmirəl -	1993-2000
10. Əhməd Necdət Sezər -	2000-

MUSTAFA KAMAL ATATÜRK
(Həyatından səhifələr)

1881 - Atatürkün Səlanikdə anadan olması.

1886 - Atatürkün ibtidai təhsilinə başlaması (az müddət məhəllə məktəbinə getmiş, sonra çağdaş təhsil verən Şəmsi əfəndinin məktəbinə keçərək, ibtidai məktəbi burada bitirmişdir).

1893 - Atatürkün Səlanik hərbi Rüşdiyyəyə daxil olması. (Atatürk qısa bir müddət Səlanik Mülkiyyə Rüşdiyyəsində təhsil aldıqdan sonra təhsilini hərbi Rüşdiyyədə davam etdirmiş və 1896-cı ildə bu məktəbi bitirmişdir. Məktəbin riyaziyyat müəllimi gənc tələbəsinin adına "Kamal" sözünü əlavə edir).

1896 - Müstafa Kamalın Manastr Hərbi İdadisinə daxil olması. Oranı 1899-du ildə bitirmişdir.

13 mart 1899 - Atatürkün İstanbul Hərbi məktəbinin piyada sinifinə yazılması.

10 fevral 1902 - Atatürkün leytenant rütbəsi ilə hərbi məktəbi bitirməsi və təhsilini Hərbi Akademiyada davam etdirməsi.

11 yanvar 1905 - Qərargah yüzbaşısı rütbəsi ilə Hərbi Akademiyanı bitirməsi.

5 fevral 1905 - Qərargah təcrübəsi üçün Şamdakı 5-ci Orduya göndərilməsi.

Oktyabr 1906 - Atatürkün bəzi dostları ilə Şamda gizli şəraitdə "Vətən və Hürriyət" cəmiyyətini yaratması.

13 oktyabr 1907 - Atatürk Şamdan, mərkəzi Manastrda olan 3-cü Ordunun qərargahına göndərilir. (Bu qərargahın Səlanikdəki şöbəsində xidmət etmişdir).

13 aprel 1909 - Atatürkün 3-cü Ordu Səlanik Ehtiyyat Diviziyası qərargah rəisi təyin edilməsi.

22 sentyabr 1909 - Səlanikdə "İttihad və Tərəqqi" qurultayının toplanması (Mustafa Kamal burada çıxış edib ordunun siyasətə qarışmaması fikrini müdafiə etmişdir).

6 sentyabr 1910 - Səlanikdəki 3-cü Ordu Zabiti Təlimgahı komandanlığına gətirilməsi.

14 sentyabr 1911 - Mustafa Kamalın Səlanikdəki 38-ci Piyada alayın komandanlığından İstanbulda Baş Qərargaha göndərilməsi.

15 oktyabr 1911 - Atatürkün könüllü olaraq jurnalist Mustafa Şərif adıyla Liviyaya getməsi.

19 dekabr 1911 - Ədhəm paşanın yerinə Tobruk rayonunun komandanı təyin olunmuşdur.

30 dekabr 1911 - Mustafa Kamalın Dərnəyə gəlişi və Dərnə yaxınlığındakı Şərq könüllülər komandanlığını qəbul etməsi.

12 mart 1912 - Mustafa Kamalın Dərnə komandanlığına təyin edilməsi.

25 noyabr 1912 - Mustafa Kamalın Geliboluda yerləşən Dardanel boğazı Ordu Birləşməsi Komandanlığının əməliyyat şöbəsi rəisliyinə təyin edilməsi.

27 oktyabr 1913 - Atatürkün Sofiya hərbi attaşeliyinə təyin edilməsi.

11 yanvar 1914 - Sofiya attaşeliyinə əlavə olaraq, Belqrad və Çetine hərbi attaşesi vəzifəsi də tapşırılmışdır.

20 yanvar 1915 - Mustafa Kamalın Təkirdağda təşkil ediləcək 19-cu diviziyanın komandirliyinə təyin edilməsi.

25 aprel 1915 - İngilislərin Səddülbahir və Ariburnu bölgəsinə qoşun çıxarması və Mustafa Kamalın komandirlik etdiyi 19-cu diviziyanın onları geriyə çəkilməyə məcbur etməsi.

8 avqust 1915 - Mustafa Kamalın fon Sanders tərəfindən Anafartalar qrupu komandirliyinə təyin edilməsi.

9-10 avqust 1915 - Mustafa Kamalın komandanlığı altında olan qüvvələrin ingilislərə hücumu və onları geriyə oturtması.

27 yanvar 1916 - Mustafa Kamalın Ədirnədə yerləşən 16-cı korpusun komandirliyinə təyin edilməsi.

11 mart 1916 - Mustafa Kamalın qərargahı Diyarbəkirə köçürülən 16-cı korpus komandirliyinə təyin edilməsi.

İyun 1916 - 16-cı korpus qərargahının Diyarbəkirdən Silvana köçürülməsi.

3 avqust 1916 - Mustafa Kamalın tabeliyindəki qüvvələrin Bitlis və Muş istiqamətində hücuma keçməsi.

8 avqust 1916 - Bitlis və Muşun

düşmən işğalından azad edilməsi.

16 dekabr 1916 - Mustafa Kamalın Sekarata gələrək 12-ci Ordu Qərargahında komandan vəkilliyi vəzifəsinə başlaması.

16 mart 1917 - 2-ci Orduya komandan təyin olunmuşdur.

14 may 1917 - Mustafa Kamalın ikinci dəfə Muşu ruslardan azad etməsi.

5 iyul 1917 - Mustafa Kamalın general fon Falkenhaynın komandası altındakı "İldırım" ordular qrupunun tərkibinə daxil olan və Hələbdə yerləşən 7-ci Orduya komandan təyin edilməsi.

7 noyabr 1917 - İstanbulda Baş Qərargahda vəzifəyə təyin edilmişdir.

15 dekabr 1917 - Vəliəhd Vəhdəddinin müşaiyətçisi kimi Almaniyada səfərdə olmuşdur.

31 oktyabr 1918 - Mustafa Kamalın "İldırım" ordular qrupuna komandan təyin edilməsi

30 aprel 1919 - Mustafa Kamalın 9-cu Ordu müfəttişiliyinə təyin edilməsi.

16 may 1919 - Gəmi ilə İstanbuldan Anadoluya yola düşmüşdür.

19 may 1919 - Atatürkün Samsuna çıxması.

21 iyun 1919 - İstanbuldakı bir sıra nufuzlu adamlara məktubla müraciət edərək onları milli mübarizəyə dəvət etmişdir.

22 iyun 1919 - "Amasiya təlimatı"nın yayılması.

3 iyun 1919 - Mustafa Kamalın Ərzuruma gəlməsi

8-9 iyun 1919 - Rəsmi və hərbi vəzifələrindən istefa verməsi.

23 iyun 1919 - Mustafa Kamalın sədrliyi ilə Ərzurum Konqresinin açılması.

7 avqust 1919 - Mustafa Kamalın Ərzurum Konqresi Təmsilçilər Heyətinin sədr seçilməsi.

4 sentyabr 1919 - Mustafa Kamalın sədrliyi ilə Sivas Konqresinin işə başlaması.

7 noyabr 1919 - Mustafa Kamalın İstanbulda toplanması nəzərdə tutulan Millət Məclisinə Ərzurumdan millət vəkili seçilməsi.

27 dekabr 1919 - Mustafa Kamalın Ankaraya gəlməsi və təntənəli surətdə qarşılanması. O, bütün təşkilatlara Ankaraya gəldiyini və Təmsilçilər heyəti mərkəzinin Ankarada yerləşdiyini bildirən teleqram vurmuşdu.

16 mart 1920 - Antanta dövlətləri tərəfindən İstanbulun həqiqi işğalı və Mustafa Kamalın millətə bəyənatla müraciət etməsi.

24 aprel 1920 - Mustafa Kamalın Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi.

Avqust 1920 - Türkiyənin ilk xarici diplomatik təmsilçisi Memduh Şövkət bəyin Bakıda fəaliyyətə başlaması.

10 yanvar 1921 - Birinci İnönü zəfəri.

1 aprel 1921 - İkinci İnönü zəfəri.

5 avqust 1921 - Mustafa Kamala 3 ay müddətinə Baş komandanlıq və Məclisin səlahiyyətlərinin verilməsi.

19 sentyabr 1921 - Baş komandan Mustafa Kamal paşaya Türkiyə Böyük Millət Məclisi tərəfindən marşal hərbi rütbəsi və "Qazi" titulunun verilməsi.

13 oktyabr 1921 - Qars müqaviləsinin imzalanması.

20 oktyabr 1921 - Türkiyə Böyük Millət Məclisi hökuməti ilə Fransa hökuməti arasında "Ankara müqaviləsi"nin imzalanması.

23 oktyabr 1921 - Ankarada Azərbaycan səfirliyinin açılması.

9 sentyabr 1922 - Türk qoşunlarının İzmirə girməsi.

29 yanvar 1923 - Mustafa Kamalın Lətifə xanımla evlənməsi. (1925-ci il avqustun 5-də ayrılmışlar).

11 sentyabr 1923 - Xalq Partiyasının yaranması və Mustafa Kamal paşanın onun baş katibi seçilməsi.

13 oktyabr 1923 - Ankaranın paytaxt elan olunması.

29 oktyabr 1923 - Türkiyə Cümhuriyyətinin elanı və Mustafa Kamalın Prezident seçilməsi.

21 noyabr 1923 - Türkiyə Böyük Millət Məclisi tərəfindən Mustafa Kamalın İstiqlal medalı ilə təltif edilməsi.

20 aprel 1924 - İkinci Konstitusiyanın qəbul edilməsi.

1 iyun 1927 - Qurtuluş savaşından sonra Mustafa Kamalın İstanbula ilk gəlişi.

15 oktyabr 1927 - Cümhuriyyət Xalq Partiyasının II Böyük qu-

rultayının açılması və Mustafa Kamalın 36 saat 33 dəqiqə çəkən Böyük nitqinin oxunması.

1 noyabr 1927 - Mustafa Kamalın ikinci dəfə ölkə Prezidenti seçilməsi.

10 aprel 1928 - Dinin dövlətdən ayrılması (Konstitusiyadan "Türkiyə Respublikasının dövlət dini islam dinidir" maddəsinin çıxarılması).

4 may 1931 - Mustafa Kamalın üçüncü dəfə Prezident seçilməsi.

12 iyul 1932 - Türk Dil Qurumunun yaradılması.

24 noyabr 1934 - Mustafa Kamala "Atatürk" soyadı verilməsi haqqında Türkiyə Böyük Millət Məclisinin qanunu.

1 mart 1935 - Atatürkün dördüncü dəfə respublika Prezidenti seçilməsi.

26 may 1938 - Atatürkün son dəfə Ankaradan İstanbula gəlməsi (ölənə qədər İstanbulda qalmışdar).

5 sentyabr 1938 - Dolmabaxça sarayında Atatürkün öz xətti ilə vəsiyyətini yazması (1938-ci il oktyabrın 6-da notariusa təqdim olunan vəsiyyətnamə 1938-ci il noyabırın 28-də açılmışdır).

10 noyabr 1938 - Dolmabaxça sarayında gözlərini əbədi olaraq həyata yummuşdur.

10 noyabr 1953 - cənazəsi Etnoqrafiya Muzeyindəki müvəqqəti qəbirdən Anıtqəbirə-Atatürk Mavzoleyinə köçürülmüşdür.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR (Tərcümeyi-hal)

13 sentyabr 1941-ci il - Afyonda anadan olmuşdur.

1958-ci il - Afyon Litseyini bitirmişdir.

1962-ci il - Ankara Universitetinin Hüquq fakültəsini bitirmişdir.

1962-ci il - Ankarada hakim işləmişdir.

1962 - 1972-ci illər - Diclədə hakim işləmişdir

1972 - 1982-ci illər - Yerköydə hakim işləmişdir.

1977 - 1978-ci illər - Ankara Univresitetinin hüquq fakültəsində mülki hüquq üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1982 - 1983-ci illər - Kassasiya Məhkəməsinin istintaq hakimi işləmişdir.

7 mart 1983-cü il - Kassasiya Məhkəməsinin üzvü olmuşdur.

27 sentyabr 1988-ci il - Konstitusiya Məhkəməsinin üzvü olmuşdur.

6 yanvar 1998-ci il - Konstitusiya Məhkəməsinin sədri olmuşdur.

5 may 2000-ci il - Prezident seçilmişdir.

Evlidir, 3 övladı var.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN (Tərcümeyi-hal)

1954-cü ildə İstanbulda anadan olmuş, orta təhsilini bu şəhərdə almışdır.

1981-ci ildə Mərmərə Universitetində menecment üzrə bakalavr dərəcəsini almışdır.

Universitetdə oxuduğu zaman siyasətlə yaxından maraqlanan R.T.Ərdoğan, 1985-ci ildə "Rifah" partiyasının İstanbul şöbəsinin sədri vəzifəsinə seçilmişdir. Bu müddət ərzində o, partiyanın yeni strukturu üzərində çalışmış və bu model bir sıra partiyalar üçün nümunə olmuşdur və "Rifah" partiyasına 1995-ci ildə ümumi seçkilərdə qələbə qazandırmışdır.

1994-cü ildə R.T.Ərdoğan İstanbul bələdiyyəsinin sədri vəzifəsinə seçilmiş, bu şəhərin bir çox sosial problemlərini həll etməyə nail olmuşdur.

Bu vəzifədə çalışdığı zaman çıxışlarının birində söylədiyi şerə görə vəzifəsindən kənarlaşdırılmış, məhkəmənin qərarı ilə beş ay müddətinə həbs edilmiş və siyasi fəaliyyəti qadağan edilmişdir.

2001-ci ilin avqust ayında yaradılan Ədalət və İnkişaf partiyasının sədri vəzifəsinə seçilmişdir.

3 noyabr 2002-ci ildə keçirilmiş seçkilərdə partiya qələbə qazanaraq hakimiyyətə gəlmişdir.

30 dekabr 2002-ci ildə Prezident Ə.N.Sezər Parlamentin ona ikinci dəfə təqdim etdiyi və R.T.Ərdoğana TBMM-ə əlavə seçkilərdə iştirak etmək hüququnu verən konstitusiya düzəlişlərini təsdiq etmişdir. Fevralda keçirilən əlavə seçkilərdə R.T.Ərdoğan Parlament deputat seçilmişdir.

O artıq Türkiyənin Baş naziri təyin olunmuşdur. 59-cu hökumətə başçılıq edir.

Evlidir, 4 övladı var.
İngilis dilini bilir.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏND ARİNC (Tərcümeyi-hal)

1948-ci ildə - Bursa şəhərində anadan olmuşdur.

1970-ci ildə - Ankara Universitetinin hüquq fakültəsini bitirmiş, bir müddət Manisa şəhərində vəkil işləmişdir.

1995-ci ildə - Ümumi seçkilərdə "Rifah" partiyasından Parlamentə seçilmiş, Parlamentin hüquq və Türkiyə-Avropa İttifaqı müştərək komissiyalarında çalışmışdır.

1999-cu ildə - İkinci dəfə "Fəzilət" partiyasından Parlamentə seçilmiş, Məclisin xarici işlər üzrə komissiyasının üzvü olmuşdur.

"Fəzilət" partiyası bağlandıqdan sonra AKP-nin əsas ideoloqu kimi partiyanın Parlamentdəki fraksiyasına rəhbərlik etmişdir.

Evlidir, iki övladı var.
İngilis dilini bilir.

TÜRKİYƏ CÜMHURİYYƏTİ XARİCİ İŞLƏR NAZİRİ, BAŞ NAZİRİN MÜAVİNİ ABDULLAH GÜL (Tərcümeyi-hal)

29 oktyabr 1950-ci ildə Kayseri şəhərində anadan olmuşdur.

1975-ci ildə İstanbul Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir.

1976-1978 - İngiltərənin universitetlərində təhsilini davam etdirmişdir .

1978 - Doktorluq dissertasiyasını müdafiə etmişdir.

1978 - Sakarya Universitetinin müəllimi.

1983-1991 ciddədə İslam İnkişaf Bankında işləmişdir.

1991 - Mərmərə Universitetində beynəlxalq iqtisadiyyat üzrə dosent işləmişdir.

1991 - "Rifah" partiyasından Parlamentə millət vəkili seçilmişdir.

1995 - Parlamentə ikinci dəfə seçilmişdir.

1999 - "Fəzilət" partiyasından üçüncü dəfə millət vəkili seçilmişdir.

14 avqust 2002-ci il - AKP-nin təsisçilərindən biri olmuşdur.

19 noyabr 2002-ci il - Baş nazir vəzifəsinə təyin olunmuşdur.

İngilis və ərəb dillərini bilir. Evlidir, üç övladı var.

ƏDALƏT VƏ İNKİŞAF PARTİYASI (AKP) (Qısa arayış)

AKP (Adalet ve Kalkınma Partisi) 14 avqust 2001-ci ildə yaradılmışdır. Partiyanın əsasını təşkil edən 53 millət vəkili, bağlanılan "Fəzilət" partiyasının daxilində fəaliyyət göstərən "islahatçılar" qanadını təmsil edirdilər. Bu qanadın önündə gələn A.Gül, B.Arınç, Ə.Şenər və digərləri AKP-nin seçkilərdən əvvəl Parlamentdəki fraksiyasında fəaliyyət göstərirdilər.

"Rifah" və "Fəzilət" partiyalarından fərqli olaraq, AKP proqramının xarici siyasət hissəsində xüsusi üstünlük Avropa İttifaqı ilə münasibətlərin inkişafına verilmiş, ABŞ-la strateji əməkdaşlıq prinsipləri və NATO çərçivəsində tərəfdaşlıq əsas tutulmuşdur. Proqramda həmçinin AKP-in Şərq istiqamətindəki siyasətinə də önəmli yer verilmişdir.

Regionumuza gəlincə, AKP-nin və nəticə etibarı ilə 58-ci hökumətin proqramında qeyd olunmuşdur ki, "Türkiyə, bütün qonşu dövlətlərlə, heç bir dövlətin mənafelərinə zərər gətirməmək şərti ilə, əlaqələrin inkişaf etdirilməsinin tərəfdarıdır".

Proqramın daxili siyasəti əks etdirən bölümündə, 58-ci hökumətin bir sıra beynəlxalq maliyyə strukturları ilə, o cümlədən Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığının daha da gücləndirilməsi nəzərdə tutulmuşdur. Ayrıca, bəzi təxirə salınmaz və ölkə üçün son dərəcə böyük əhəmiyyət kəsb edən iqtisadi islahatların dərhal aparılmasının vacibliyi vurğulanmışdır.

AKP-nin dövlət idarəetmə təcrübəsi azdır. Bu səbəbdən hökumətin tərkibində Ana Vətən Partiyasından AKP-yə keçmiş bir sıra şəxslər vardır. AKP-nin gələcək fəaliyyətini şərh edən siyasi müşahidəçilərin bəziləri partiyanın bir müddətdən sonra "mərkəzin sağı" və ya "mərkəz" partiyasına çevriləcəyinin mümkünlüyünü istisna etmirlər. Digərləri isə, AKP-nin sonda "milli görüş" (yəni N.Ərbakanın mövqeyinə) prinsiplərinə qayıdacağı ehtimalını irəli sürürlər.

3 noyabr 2002-ci il seçkilərindən sonra hakimiyyətə gələn və bir partiyalı hökuməti təşkil edən AKP-nin Türkiyə Böyük Millət Məclisindəki deputatlarının sayı 365 nəfərdən ibarətdir.

Partiyanın sədri Rəcəb Tayyib Ərdoğandır. O, hazırda Türkiyənin 59-cu hökümətinə başçılıq edir.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Beynəlxalq münasibətlər sisteminin ümumi qəbul edilmiş prinsip və normalarına əsaslanan və bu əsaslar üzərində bütün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq əldə edilməsi məqsədi ilə müəyyənləşdirilən Türkiyə Respublikasının xarici siyasət xəttində, ABŞ və Qərb dünyasının digər aparıcı dövlətləri ilə münasibətlər mühüm yer tutur.

Türkiyə, bu dövlətlərlə münasibətlərini inkişaf etdirməklə, ölkənin iqtisadi-sosial inkişafına, xarici sərmayədarların ölkəyə axınına, güclü müştərək müəssisələrin yaradılmasına, bank-maliyyə sisteminin təkmilləşdirilməsinə, hərbi potensialının artırılması və müasirləşdirilməsinə nail olmuş, ən əsası isə bölgədə əhəmiyyətli nüfuza malik olan inkişaf etmiş bir dövlət halına gəlmişdir. Bu münasibətlərin inkişaf etdirilməsi üçün, Türkiyə ilk növbədə özünün əlverişli geostrateji imkanlarından səmərəli istifadə etmişdir. Xarici siyasətin həyata keçirilməsində məhz geostrateji imkanların mühüm amil kimi səmərəli istifadəsi, bir sıra nüfuzlu dövlətlərlə əldə edilən yüksək səviyyəli münasibətlər dünyada gedən prosesləri yaxından təqib etməyə və mühüm beynəlxalq məsələlərin həllində iştirak etməyə Türkiyə üçün geniş imkanlar açmışdır.

ABŞ və İngiltərə kimi dövlətlər ilə əldə edilmiş xüsusi münasibətlər nəticəsində Türkiyə bu dövlətlərin strateji müttəfiqlərinə çevrilmiş, 1952-ci ildə isə NATO hərbi blokuna qoşulması və bu blokda ABŞ-ın ən yaxın müttəfiqinə çevrilməsi ilə bölgədə özünün hərbi nüfuzunu xeyli artırmışdır.

Bütün bu münasibətlər, Türkiyənin vacib problemlərindən olan PKK terrorizmi ilə mübarizədə, Kipr probleminin həlli prosesində, Avropa Birliyinə üzv olmaq cəhdlərində, Qafqazda, Balkan və Orta Asiya bölgələrində əldə edilmiş mövqelərinin möhkəmləndirilməsində də səmərəli şəkildə istifadə edilir.

BMT, NATO, ATƏT, QDİƏB, İƏT, İKT və digər beynəlxalq təşkilatlarda fəal iştirak etməklə özünün beynəlxalq siyasi nüfuzunun daha da möhkəmləndirilməsinə, ümumdünya problemlərinin həllində yaxından iştirak etməyə nail olan Türkiyənin, ölkə iqtisadiyyatının yüksəlişi məqsədi ilə dünya miqyaslı iqtisadi strateji əhəmiyyət kəsb edən layihələrdə də yaxından iştirak etmək üçün xarici siyasətində fəallıq göstərdiyi müşahidə edilir. Buna misal olaraq, Bakı-Ceyhan neft boru kəməri, Bakı-Ərzurum qaz kəməri, Trans-Xəzər və

Trans-Qafqaz neft-qaz kəmərləri vasitəsi ilə hidrokarbon ehtiyatlarının Türkiyə üzərindən Qərbə daşınması layihələrinin, tarixi İpək Yolunun bərpası işində iştirakı məsələlərinin müzakirələrində Türkiyə-Azərbaycan, Türkiyə-ABŞ, Türkiyə-İngiltərə, Türkiyə-Qazağıstan, Türkiyə-Türkmənistan və s. münasibətlərini qeyd etmək olar. Türkiyə, bu məsələlərin müzakirələrində məhz özünün ikitərəfli münasibətləri əsasında ABŞ və bir sıra aparıcı Qərb dövlətlərinin dəstəyini əldə etmişdir.

Türkiyə xarici siyasətində Avropa Birliyi ilə münasibətlər əsas istiqamətlərdəndir. Türkiyənin uzun illərdən bəri Avropa Birliyinə üzv olmaq cəhdləri qonşu dövlət olan və Kipr problemi ilə bağlı ikitərəfli münasibətlərdə vaxtaşırı gərginlik müşahidə olunan Yunanıstan tərəfindən maneələrlə qarşılanır. Lakin, bununla belə bu təşkilata hələ ki, üzv olmayan Türkiyə, uzun zamandır ki, "defakto" Avropa Birliyinin daxilindədir. Avropada yaşayan 3 milyondan artıq türk Avropa Birliyinə üzv olan dövlətlərin xəzinəsinə hər il təxminən 49,7 milyard ekyu gəlir gətirir. Bu amil, Gömrük Birliyinə üzv olan Türkiyə üçün ənun Avropa Birliyinə qəbul olunması prosesində böyük zəmindir.

Ankara, Orta Şərqdəki sülh prosseslərinin müsbət nəticələnməsinə mühüm əhəmiyyət verməklə yanaşı, bu regionda Türkiyə-İsrail hərbi əməkdaşlığına xüsusi əhəmiyyət verməkdədir. Ölkə izlədiyi xarici siyasətində strateji maraqlara üstünlük verdiyini bir daha nümayiş etdirərək İsrail dövləti ilə xüsusi münasibətlər yaratmağa nail olmuşdur ki, bu da bir sıra cəhətdən Türkiyənin bu dövlətlə qarşılıqlı faydalı əməkdaşlığına şərait yaratması ilə bərabər Türkiyənin bölgədəki nüfuzunun artmasının göstəricisidir. Türk ordusunun yeni hərbi texnalogiya vasitəsi ilə müasirləşdirilməsində İsrailin müvafiq firma və şirkətlərinin iştirakı, Türkiyə-İsrail münasibətlərinə güclü təkan vermişdir. Bu əlaqələrin inkişafı ərəb dövlətlərinin narahatçılığına, İslam Konfransı Təşkilatına üzv olan bir sıra ölkələr tərəfindən Türkiyənin tənqid olunmasına səbəb olmuş, lakin Misir və Səudiyyə Ərəbistanı Krallığtı kimi islam dövlətləri ilə xüsusi münasibətləri bu təşkilat ilə münasibətlərdəki gərginliyin aradan qaldırılmasına yardım etmişdir.

Türkiyə, Orta Şərq regionunda özünün ənənəvi müttəfiqi olan Misir və İordaniya ilə hərtərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verməkdədir. Suriya ilə (PKK terror təşkilatına dəstək verən, A.Öcalanı uzun müddət ərzində öz ərazisində saxlayan, bu faktdan Türkiyəyə qarşı bir təsir vasitəsi kimi istifadə edən Dəməşq, həm də Türkiyəyə qarşı torpaq iddiaları irəli sürməkdədir) yaranmış böhranın həll olunmasında Misir Ərəb Respublikasının Prezidenti H.Mübarəkin böyük rolu olmuşdur.

İran ilə münasibətlərdə son za-

manlar gərginlik getdikcə zəifləməkdədir. Bununla yanaşı Tehranda keçirilən İran, Yunanıstan və Ermənistan Xarici İşlər nazirlərinin toplantısı və bu toplantıda Türkiyənin əleyhinə səslənən iddialar Ankaranın ciddi narahatçılığına səbəb olmuşdur.

Ankaranın, son zamanlar Bağdada qarşı siyasəti bölgədə vaxtaşırı ciddi gərginliyə səbəb olan bu ölkənin BMT-nin qərar və qətnamələrinə uyğun şəkildə hərəkət etməsindən ibarətdir. Ankara həmçinin İraqın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmamazlığını dəstəkləyir. Türkiyə İraqın şimalında müstəqil kürd dövlətinin yaradılması ehtimalından narahatçılığını bildirərək, buna qarşı bütün imkanlarını istifadə edəcəyini bəyan edir.

XX əsrin əvvələrindən bəri, həm Şərq dövlətləri, İslam dünyası ilə ortaq din faktorundan faydalanaraq sıx münasibətlər əldə edən, həm də Qərbə doğru inteqrasiya siyasəti izləyərək bir sıra inkişaf etmiş dövlətlərlə yüksək səviyyəli münasibətlər yaratmağa nail olan Türkiyə, ərəb və islam dünyası ilə sıx əlaqələrini nəinki qoruyub saxlamış, habelə bu münasibətlərin daha da inkişaf etdirilməsinə nail olmuşdur. Bu dövlətlərlə ikitərəfli münasibətlərini qarşılıqlı surətdə inkişaf etdirməyə davam edən Türkiyə əsrin sonlarında, dünyada baş verən geosiyasi prosesləri dərhal qiymətləndirərək özünün xarici siyasətində dinamizm nümayiş etdirir. Türkiyə Rusiya və MDB-yə daxil olan yeni yaranmış müstəqil dövlətlərlə münasibətlərin hərtərəfli inkişafına da mühüm əhəmiyyət verməkdədir. Türkiyə xarici siyasətinin bu istiqamətində Azərbaycan və digər türkdilli Orta Asiya dövlətləri ilə, Qafqaz xalqları ilə münasibətlərə xüsusi əhəmiyyət verir. Onun ortaq dil və din birliyinə malik olması bu dövlətlərlə münasibətlərinə xüsusi təkan vermişdir. Qafqaz və Orta Asiyanın malik olduğu təbii-coğrafi məkanın əhəmiyyətini dolğun şəkildə qiymətləndirən Türkiyə, xarici siyasətini bu bölgədə qarşılıqlı maraqlardan faydalanmağa, siyasi-iqtisadi və strateji üstünlüyün əldə edilməsinə istiqamətləndirmişdir.

TÜRKİYƏ - RUSİYA MÜNASİBƏTLƏRİ

Böyük Moskva knyazı İvan Vasilyeviçin 1492-ci ildə Osmanlı Sultanı II Bəyazidə göndərdiyi etimadnamə ilə əsası qoyulan Türkiyə-Rusiya münasibətlərinin tarixi 500 illik bir dövrü əhatə edir. Bu müddət ərzində hər iki dövlət bir-biri ilə mübarizə, müharibələr aparmaqla yanaşı, həm də fəal ticarət aparmışlar. Hər iki dövlət avrasında ticarət əlaqələri ənənəvi şəkildə birinci dərəcəli əhəmiyyət daşımışdır. Bu da Böyük İpək Yolu amilinin bu iki dövləti bir araya gətirməsi səbəbi ilə təbii hesab olunur.

1920-ci ildə Sovet Rusiyası yeganə ölkə idi ki, Kamal Atatürkün hökumətinə əvəzsiz şəkildə 10 milyon qızıl manatla yardım etmişdi ki, bu da Yunanıstanla əsas döyüşlərdən əvvəl 200 minlik türk ordlusunun təchiz olunmasına sərf edilmişdi. Qələbədən sonra Türkiyə Gümhuriyyəti elan olunmuşdu. 1921-ci ildə Rusiya Türkiyənin müstəqilliyini tanıyaraq onunla diplomatik münasibətlər yaratmış, Dostluq və Qardaşlıq haqqında müqavilə imzalamışdı.

XX əsr Türkiyə-Rusiya əlaqələri əlamətdar hadisələrlə zəngindir. Bunlara 1934-cü ildə Rusiya tərəfindən Türkiyəyə faizsiz 8 milyon dollar məbləğində kredit verilməsi, ölkə iqtisadiyyatında dövlət sektorunun əsası hesab edilən 15 sənaye obyektinin tikilməsi aiddir. İskəndərunda mettallurgiya, Seydişəhərdə aliminium və digər zavodlar indiki dövrə qədər tək Türkiyədə deyil, həm də bölgədə ən iri müəssisələrdən hesab olunur. Qarşılıqlı münasibətlərdə Moskva və Ankara yaranan hər bir gərginliyin hər iki ölkəyə yalnız ziyan vura biləcəyini dərk edirlər. Türkiyə və Rusiya arasında münasibətlər ümumiyyətlə sabit inkişaf edir, lakin bəzi obyektiv və subyektiv səbəblərdən asılı olararq hələ də tam istənilən səviyyəyə yetişməmişdir.

Bir vaxtlar dünyanın ən aparıcı dövlətlərindən biri olan SSRİ dövlətinin dünya siyasi xəritəsindən silinməsi, Ankaraya, yeni qonşuları, ilk növbədə isə keçmiş SSRİ-nin türkdilli dövlətləri ilə münasibətlərində özünün xüsusi strategiyasını yaratmağa imkan verdi. Bu dövlətlərlə Türkiyə arasında əlaqələrin əsası 1991-ci ildə, Türkiyə Prezidenti T.Özalın zamanında qoyulmuşdur. O, XXI yüzilliyin türklərin əsri olacağını bəyan etmişdi. 1992-ci ilin fevral ayında Türkiyə Respublikasının o zamankı Baş naziri Süleyman Dəmirəlin təşəbbüsü ilə həmin ilin oktyabr ayında Ankarada türkdilli dövlət başçılarının ilk görüşü keçirildi və bir çox Rusiya tədqiqatçıları bu görüşü Türkiyənin qeyd olunan doktrina çərçivəsində türkdilli dövlətlərlə

inteqrasiyası istiqamətində ilk addımı kimi qiymətləndirdilər. Gələcək isə göstərdi ki, Ankara bu qardaş dövlətlərlə birləşmək xətti deyil, sadəcə olaraq siyasi və iqtisadi sahədə əməkdaşlığı genişləndirmək xətti izləyir.

Türkiyənin Qafqazda və Orta Asiyada MDB dövlətləri ilə yaxınlaşması NATO tərəfindən dəstəklənmişdir. Belə ki, NATO-nun keçmiş Baş katibi Manfred Verner bəyan etmişdi ki, "Ankara NATO-nun Orta Asiyada maraqlarını qoruyur". Vaşinqton isə Ankaranın bölgədə İranın yerini tutması və bölgə dövlətləri, ilk növbədə isə MDB dövlətləri üçün inkişafın sivil modeli olması istiqamətində çıxış etdiyini bildirirdi. Türkiyənin fəallığı Rusiya tərəfindən ehtiyatla qarşılanır və siyasi münasibətlərdə nəzərə çarpan gizli gərginlik də məhz bununla izah olunur.

Moskva ilə Ankara arsında digər problem, 1936-cı il Montre Konvensiyası ilə tənzimlənən Qara Dəniz boğazları problemidir. Türkiyə bu sənədlə faktiki olaraq Bosfor və Dardanelda nəqliyyat hərəkətinin tənzimlənməsi hüququnu ona vermiş olan 24-cü maddəsinə əsaslanaraq, 1982-ci ildən etibarən boğazlarda gəmi hərəkətinin azadlığı hüququnun reqlamentli şəkildə azaldılması cəhdlərinə başlamışdır.

1994-cü ilin 1 iyul tarixindən Türkiyə "Boğazlar ərazisində və Mərmərə dənizində dəniz gəmiçiliyinin reqlament qaydaları"nı tətbiq etməyə başladı. Rusiya dərhal Türkiyəni dəniz gəmiçiliyi hüququ üzrə ümumi qəbul edilmiş beynəlxalq normaları və azad gəmiçilik barədə Montre Konvensiyasının əsas prinsiplərini pozmaqda ittiham etdi. Rusiyanın bu bəyanatına qarşı Türkiyə, qəbul etdiyi qaydaların Montre Konvensiyasına, beynəlxalq dənizçilik qaydalarına tam uyğun olduğunu və boğazlarda qəza və təhlükələrin xeyli azalmasına təsir etdiyi bildirdi.

Xəzərin enerji ehtiyatlarının nəqli məsələsi də iki dövlət arasında digər bir problemdir. Ankara, "qara qızılın" öz ərazilərindən Aralıq dənizinə çıxarılmasını nəzərdə tutan Bakı-Ceyhan layihəsinin həyata keçirilməsinə çalışır.

Çeçenistandakı müharibədə Rusiya ilə Türkiyə arasında münasibətləri müəyyən dərəcədə gərginləşdirmişdi. Moskva bəyan etmişdi ki, Türkiyədəki çeçen diasporası, bir sıra ictimai təşkilatlar Dudayev tərəfdarlarına maddi yardımlar, Qroznı şəhərinə isə könüllülər göndərilir. Türkiyənin, "Rusiyanın ərazi bütünlüyünə hörmət etməsi və onun daxili işlərinə qarışmaması" barədə mövqeyini bəyan etməsi ilə yanaşı, türk qəzetləri Tansu Çillərin Baş nazir olduğu zamanlarda Qroznuya yardım etdiyi barədə yazılar vermişlər.

Ankara öz növbəsində Moskvanı Dumanın geosiyasi fəaliyyətinə, "Kürdüstan Parlementi" ilə ilə mütəmadi görüşlərinə görə ittiham edirdi. Rusiya rəsmi dairələrinin, kürd kartından istifadə etmədikləri barədə açıqlamalarına Türkiyə inanmırdı.

Türkiyə və Rusiyanın Kipr probleminin həlli istiqamətində də mövqeləri qarşı-qarşıyadır. Lakin, mövqelərinin müxtəlifliyi hər iki dövlətin diplomatik idarələrinin məsələ ilə əlaqədar vaxtaşırı məsləhətləşmələr aparmasına mane olmur. 1997-ci ilin əvvəlində, ikitərəfli münasibətlərdəki problemlərə daha bir məsələ əlavə olundu. Rusiya ilə Kipr arasında Nikosiyaya S-300 zenit-raket qurğularının satılması barədə müqavilə imzalandıqdan sonra Ankara, qurğuların adaya yerləşdiriləcəyi təqdirdə onları məhv edəcəyini bəyan etdi. Türkiyə Moskvanı habelə, raket satışı ilə əlaqədar olaraq Kiprdə və Şərqi Aralıq dənizində gərginliyin artırılması ilə ittiham edir, Moskva isə kontraktın ticarət mahiyyəti daşıdığını və BMT üzvü olan suveren bir dövlətlə bağlandığını irəli sürür. Bununla da S-300-lərin Kiprə satılması Türkiyə-Rusiya arasında hərbi əlaqələrin də inkişaf etdirilməsinə mənfi təsirini şübhəsiz ki, göstərmişdir.

Son dövrlərdə Türkiyə-Rusiya əməkdaşlığının əsası 1992-ci ildə Moskvada imzalanmış "Qarşılıqlı münasibətlərin əsasları" barədə müqavilə təşkil edir. Məhz bu müqavilə, hər iki ölkənin bu gün əsas sayılan iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə imkan vermişdir. Türkiyə Sənaye və İş Adamları Cəmiyyətinin (TÜSİAD) məruzəsində bildirildiyi kimi, Yaxın Şərq və Afrikada ixrac və podrat işlərinin həyata keçirilməsindən sonra Türkiyənin özəl sektoru öz diqqətini Avroasiyaya yönəltmişdir. Bu bölgə, qısa müddət ərzində Türkiyə üçün Avropa İttifaqından sonra ikinci mühüm bazara çevrilmişdir.

TÜSİAD-ın bildirdiyinə görə Rusiya ilə ticarət münasibətləri elə bir səviyyəyə çatmışdır ki, Rusiya iqtisadiyyatında kiçik bir dəyişiklik Şərqi Avropanın birja bazarlarından daha artıq surətdə İstanbul birja fonduna öz təsirini göstərməyə başlamışdır. Rusiya iqtisadiyyatının Türkiyə tərəfindən sürətlə öyrənilməsi, bu ölkədə fəaliyyət göstərməyə çalışan digər ölkələri xeyli qabaqlamağa imkan yaratmışdır. TÜSİAD cəmiyyətinin daha sonra qeyd etdiyinə görə, bəzi siyasi və iqtisadi hadisələrin təsiri nəticəsində Türkiyə iqtisadiyyatının bir sıra sektorları 90-cı illərin ortalarında ciddi problemlərlə qarşılamışdır. Bu hal, Rusiya ilə bağlanılmış müqavilələrin, iki ölkə arasındakı qarşılıqlı əlaqələrin həcminə, Rusiya daxilində iqtisadi şəraitə, ikitərəfli münasibətlərdə siyasi qeyri-sabitliyə, 1996-cı ildə Rusiyada yeni gömrük qaydalarının tətbiq edilməsinə, xarici iqtisadi fəaliyyətdə monopoliyanın ləğv edilməsindən sonra xarici kompaniyaların fəaliyyətinin artmasına uyğun gəlməməsi ilə izah olunur. TÜSİAD habelə, Rusiya ilə əməkdaşlığın inkişafını əhəmiyyətli hesab edən Türkiyədən fərq-

li olaraq, Rusiya üçün Türkiyənin birinci dərəcəli tərəfdaş hesab edilmədiyinə diqqət çəkir. Belə ki, fərdi ticarət nəzərə alınmazsa, Türkiyə, Rusiyanın ticarət tərəfdaşları arasında ilk onluğa belə daxil deyildir.

Türkiyənin Rusiyadakı birbaşa investisiyalarının məbləği 100 milyon dollara qədərdir. Bu invesitisiyalar əsasən müştərək müəssisələr üçün kapital qoyuluşlarına, sənaye və digər obyektlərin tikintisinə aiddir.

Siyasi təhlilçilərin fikirlərinə görə, Türkiyə və Rusiya yeni yüzillikdə bölgədə və bəlkə də dünyada ən iri ticarət tərəfdaşlar ola bilərlər. Mülahizələrə görə, yeni əsrdə illik əmtəə dövriyyəsinin 10 milyard dollardan artıq olması ehtimalı bu qənaətə gəlməyə əsas vermişdir. Elə bu yaxınlarda Qara dənizin dibi ilə çəkilən qaz kəməri xətti buna ən gözəl misaldır.

Hər iki dövlət arasında olan siyasi problemlər isə, heç də həlli mümkün olmayan məsələlər hesab edilmir. Rusiya XİN-nin fikrinə görə, vaxtaşırı meydana gələn müəyyən mübahisəli məsələlərin həlli, uzunmüddətli ikitərəfli maraqlar zəminində həll edilməlidir.

TÜRKİYƏ - ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ

Türkiyə həmişə BMT, ATƏT və İƏT təşkilatlarının himayəsi altında keçirilən konfranslarda, forumlarda və bütün beynəlxalq sammitlərdə Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda apardığı mübarizəni müdafiə edir, eyni zamanda Ermənistanı təcavüzkar dövlət kimi ifşa edir və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş bütün torpaqlarının qeydşərtsiz azad olunmasını tələb edir. Türkiyə regionda yeganə ölkədir ki, Ermənistanla diplomatik əlaqələr yaratmamışdır.

Lakin, bununla yanaşı, son zamanlarda, xüsusilə 1996-cı ilin yazından başlayaraq Türkiyə mətbuatı ilk öncə çox ehtiyatla, daha sonradan isə yavaş-yavaş, qonşu Ermənistanla şərq sərhəd məntəqəsi olan Qars şəhəri vasitəsilə iqtisadi-ticarət əlaqələrinin təşkili üçün mövcud olan imkanlar haqqında Türkiyə ictimaiyyətinin rəyini qabaqcadan öyrənməyə çalışırdı. Azərbaycanla Türkiyə arasında müvəffəqiyyətlə inkişaf edən əlaqələrin mövcud olduğu bir dönəmdə, belə neqativ hadisələri anlamaq üçün ilk öncə Türkiyə mətbuatında və digər xarici informasiya mənbələrində verilən xəbərlərə müraciət edək.

"Sabah" qəzeti özünün 13.07.96 - cı il tarixli nömrəsində Türkiyə və Ermənistan arasında "H-50" adlı humanitar hava dəhlizinin açılışı haqqında məlumat verir. Məlumatda qeyd olunur ki, bununla Türkiyə "ermənilər ağıllandırmaq" ümidi ilə özlərini aldadırlar. Belə ehtimal olunurdu ki, bu dəhlizin açılışı zamanı Türkiyənin bəzi qərb müttəfiqləri də iştirak edəcəkdir.

"Milliyət" qəzeti 12.04.96-cı il tarixli nömrəsində Ermənistan Prezidentinin müşaviri Libaridyanın Ankaraya səfəri haqqında məlumat verir. Qəzet yazır ki, erməni diplomatı L.Ter-Petrosyanın məktubunu Prezident S.Dəmirələ təqdim edəcəkdir.

"Hürriyyət" qəzeti 30.04.96-cı il tarixli nömrəsində xəbər verir ki, bir qrup türk iş adamları Ermənistanla sərhəddə Alican adlanan məntəqənin açılışı ilə əlaqədar olaraq qızğın kompaniyaya başlamışlar. Xəbər verilirdi ki, L.Ter-Petrosyanın qardaşı varlı biznesmen Telman Ter-Petrosyan Xarici İqtisadi Əlaqələr Təşkilatının dəvəti ilə tezliklə İstanbulda olacaqdır. Səfər Türkiyə və Ermənistan arasında nəzərdə tutulan ticarət münasibətləri ilə əlaqədar idi. Qəzetin müxbiri qeyd etmişdir ki, "Ermənistanla iqtisadi-ticarət münasibətlərinin inkişaf etdirilməsi, Azərbaycan və Ermənistan arasında gedən danışıqlar prosesinin sürətlən-

dirilməsinə təkan verəcəkdir".

"Cumhuriyyət" qəzeti 02.08.96-cı il tarixli nömrəsində yazır ki, Ermənistan Prezidentinin qardaşı T.Ter-Petrosyan bu qəzetə verdiyi müsahibəsində, Ermənistan və Türkiyə arasında iqtisadi-ticarət münasibətlərinin inkişafı üçün sərhəd məntəqəsinin açılmasının zəruri olduğunu qeyd etmişdir. Qəzetdə həmçinin məlumat verilirdi ki, T.Ter-Petrosyan türk firmalarından biri ilə 100 min ton sementin Ermənistana göndərilməsi üçün qeyri-rəsmi kontrakt bağlamaq niyyətindədir.

Həmin qəzetin 07.08.96-cı il tarixli nömrəsində qeyd olunurdu ki, "Ermənistan qeyri-rəsmi olaraq Ankaranı lobbiləşdirir". Qəzet "Ermənistan Prezidentinin qardaşı T.Ter-Petrosyanın Türkiyə paytaxtına gəlişi" başlığı altında məlumatı öz oxucularına təqdim edir. Səfər zamanı qonaqlar Türkiyə parlamentariləri, biznesmenləri və kütləvi informasiya vasitələrinin nümayəndələrilə danışıqlar aparmışlar və Türkiyə tərəfindən ticarət üçün sərhəddin açılması haqqında qərar qəbul etməsinə çalışmışlar.

Başqa bir yazıda göstərilir ki, Ermənistan Prezidentinin qardaşı T.Ter-Petrosyanla yanaşı, A.Vartanyan (Ermənistan biznesmenləri İttifaqının Sədri) və 10 iş adamından ibarət qrup İstanbula gəlmişdilər. Ermənistandan olan qonaqlar Türkiyədəki erməni kilsəsinin başçısı Ş.Sivançyanla görüşmüşlər. Bu danışıqlarda həmçinin fransız mənşəli erməni olan S.Özararat da iştirak etmişdir. Qeyd olunur ki, məhz o, türk-erməni dialoqunun təşəbbüskarı olmuşdur və Paris şəhərində Ermənistan Prezidenti L.Ter-Petrosyanla A.Türkeşin görüşünü təşkil etmişdir. Məhz o, Ermənistanı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında təmsil edir. Qonaqlar, həmçinin Milliyətçi Hərəkat Partiyasının Sədr müavini T.Türkeşlə (A.Türkeşin oğlu), Doğru Yol Partiyasından olan Türkiyə Parlamentinin deputatı Ç.Kamhilə və həmçinin İstanbulun rayonlarından biri olan Esenyurdun bələdiyyə Sədri Q.Çapanla görüşmüşlər.

Xəbər verilirdi ki, Türkiyəyə gələn bu nümayəndə heyyəti "İNTEKNO" kompaniyası tərəfindən dəvət olunmuşdur (1987-ci ildə Pensilvaniya ştatında yerləşən Pitsburq şəhərində qeydiyyatdan keçmişdir və Türkiyədə filiala malik idi, sonralar isə 1991-ci ildən türk firması kimi fəaliyyət göstərməyə başlamışdır). Erməni biznesmenlərinin bu firmaya gəlişindən sonra "texnologiyaların hazırlanması" üzrə beynəlxalq simpozium təşkil olunmuşdur. Yuxarıda göstərilən nümayəndə heyəti İstanbuldakı görüşlərdən sonra, sərhəd yaxınlığında olan Türkiyənin Qars şəhərinə yollanmış və orada rəsmi dairələrlə və iş adamları ilə görüşlər keçirmişlər.

Misir mütəxəssislərinin rəyinə əsasən, son bir neçə il ərzində Türkiyə iş adamları böyük ölçüdə - milyardlarla ABŞ dolları həcmində Rusiyaya sərmayə qoymağa çalışırlar. Belə bir fikir var ki, erməni dəstəyi olmadan buna nail olmaq qeyri-mümkündür və məhz bu biznesmenlər bugün Türkiyə hökumətində erməni maraqlarını lobbiləşdirir ki,bu da nəticə etibarı ilə Ankaranı Ermənistanla sərhəddi açmağa və onunla sərhəd yaxınlığında ticarət yaratmağa məcbur edəcəkdir.

"Radikal" qəzetinin 17.11.96-cı il tarixli nömrəsində "Türkeşin rəyi" başlığı adı altında, Ermənistan Prezidentinin tərcüməçisi və müşaviri olan, hansısa M.Boçalyan haqqında bir məqalə nəşr olunmuşdur. Məqalənin müəllifi təsdiq edirdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması Türkiyə və Ermənistan arasında sərhəd yaxınlığında ticarətin açılışı məsələsi ilə bağlı deyil. Məqalədə, həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması problemi Türkiyənin Kiprdəki vəziyyəti ilə müqayisə olunurdu. Boçalyanın dediyinə əsasən, Milliyətçi Hərəkat Partiyasının Sədri A.Türkeş və onun oğlu T.Türkeş (bu partiyanın sədr müavini) Ermənistanla Türkiyənin iqtisadi-ticarət münasibətlərinin bərqərar olunmasına tərəfdardırlar.

"Armenpres" agentliyinin 19.12.96 -cı il tarixdə verdiyi məlumata əsasən, keçən ilin dekabr ayının 19-da İqdır vilayətinin başçısı Ş.Uzun onu müşaiət edən şəxslərlə birgə, Ermənistanın Ararat rayonuna məxsus olan Ararat şəhərinə baş çəkmişlər və bu rayonun qubernatoru D.Dadoyanla və Ermənistan Prezidentinin qardaşı T.Ter-Petrosyanla danışıqlar aparmışlar. Görüş zamanı Ermənistan və Türkiyə arasında sərhəd məntəqələrinin açılışı və iqtisadi-ticarət münasibətlərinə başlanılması imkanları müzakirə olunmuşdu.

"Axşam" və "Hürriyyət" 11.03.97-ci il tarixli nömrələrində Yerevan və Trabzon arasında hava xəttinin açılışı haqqında məlumat verir. Xəbərdə göstərilir ki, uçuş reysləri YAK-40 tipli təyyarələr vasitəsilə, özəl anonim aviakompaniya olan "QOLDEYR" tərəfindən həyata keçirilir. Ancaq Ankaradakı səlahiyyətli təşkilatlara istinad edən Türkiyənin Bakıdakı səfirliyi bəyan etmişdir ki, müvafiq icazə üçün heç bir aviokompaniya dövlət təşkilatlarına müraciət etməmişdir.

Bəzi qəzetlərdə Yerevan və Trabzon arasında turist avtobuslarının fəaliyyəti haqqında da məlumatlar getmişdir.

Lakin heç də bütün qəzetlər bu əlaqələri alqışlamır. Məsələn, "Sabah" və "Türkiyə" (28.03.97) qəzetlərin verdiyi məlumatda deyilirdi ki, Kahıthanədə (İstanbul) Polis İdarəsinin açılış tədbirində çıxış edən Türkiyənin Daxili İşlər naziri M.Akşener bəyan etmişdir ki, "heç bir erməni şeytanı bizim aramızda ziddiyyət yarada bilməz" və eyni zamanda, bu sözləri Kürd terrorçu təşkilatının lideri olan A.Öcalana da aid etmiş-

dir. Lakin qəzetlər onu da yazırlar ki, son nəticədə, o, Türkiyədəki erməni icmasının nümayəndə heyətini qəbul edərək ("Hürriyyət", "Sabah" qəzetləri 03.04.97), özünün üzürxahlığını onlara bildirmiş və o, "Asala" adlı terrorçu təşkilatı nəzərdə tutduğunu qeyd etmişdir.

"Qlobal" qəzeti 28.03.97-ci il tarixli nömrəsində Yerevanda QDİƏT-ın beynəlxalq parlamentlərarası Assambleyası çərçivəsində 8-ci Komitəsinin iclasının (iqtisadi-ticarət, texnologiya və digər məsələlərin müzakirəsi olunması) keçirilməsi haqqında məlumat verir. Komitənin işində Türkiyə Böyük Millət Məclisinin deputatı R.Zaimoğlu iştirak etmişdir.

Ermənistanın XİN-in mətbuat mərkəzi (03.04.97) Ermənistanın Xarici İşlər naziri A.Arzumanyanın Fransanın Xarici İşlər naziri Erve de Şaretlə görüşləri və danışıqları haqqında məlumat verərkən bildirmişdir ki, söhbət zamanı Ermənistan və Türkiyə sərhədlərinin açılması məsələsinə də toxunulmuşdur. Məlumatda qeyd olunur ki, Fransa xarici siyasət idarəsinin başçısı bəyan etmişdir ki, "sərhədlərin açılması məsələsi nəinki Ermənistan-Türkiyə münasibətləri planında, həmçinin bütün xalqlar və region ölkələri üçün vacibdir".

Bütün bu informasiyaları təhlil edərkən, əminik ki, bəzi qəzetlər tərəfindən başlanan bütün bu təbliğat kampaniyası Azərbaycanla olan dostluq və əməkdaşlıq siyasətinə xələl gətirməyəcək.

Belə ki, Türkiyə rəhbərləri və rəsmi şəxsəri dəfələrlə bəyan etmişdilər ki, erməni-Azərbaycan münaqişəsi öz həllini tapmayınca, Ermənistanla sərhəd yaxınlığında məntəqələrin açılması və bunun nəticəsində Türkiyə-Ermənistan iqtisadi-ticarət münasibətlərinin yaradılması məsələsi qeyri-mümkündür. Bundan əlavə Türkiyə içtimaiyyətinin əksəriyyəti və kütləvi informasiya vasitələri Türkiyə-Ermənistan arasında ikitərəfli əlaqələrin olmasını mənfi hal kimi qarşılayırlar.

Ermənilərin "soyqırım" məsələsini beynəlxalq ictimaiyyət qarşısında qaldırmaq cəhdləri də mənfi qarşılanılır. Məsələnin çözülməsi üçün hər iki tərəfdən qeyri-rəsmi komissiyanın təşkili, onların görüşlərinin nəticəsiz qurtarması onu göstərir ki, erməni tərəfi heç də öz mənfur fikirlərindən əl çəkmək niyyətində deyildir.

Tarixin sınaqlarından keçən Türkiyə-Azərbaycan dostluğu bu məsələni də uğurla adlayıb keçəcəkdir. Bunu Bakıya səfəri zamanı 59-cu hökumətin başçısı Rəcəb Tayyib Ərdoğanın bəyənatları da sübut edir.

Azərbaycan - Türkiyə əlaqələri tarixindən

Böyük Mustafa Kamal Atatürkün sözləri yadıma düşür. O deyirdi: "Azərbaycan gülərsə biz də gülərik, Azərbaycan üzülərsə biz də üzülərik."

Mən Azərbaycan xalqının iradəsini ifadə edərək deyirəm ki, Türkiyə gülərsə Azərbaycan da güləcək, Türkiyə inciyərsə, sıxılarsa, ağlayarsa Azərbaycan da inciyəcək, sıxılacaq, ağlayacaqdır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

XX əsr böyük təlatümlər və sınaqlar əsri olmuşdur. Bu sınaqlar həm Türkiyədən, həm də Azərbaycandan yan ötməmiş, hər iki ölkədə köklü dəyişikliklərə səbəb olmuşdur. Ancaq Tanrıya çox şükür ki, hər iki qardaş xalq onları dəf edərək sınaqlardan uğurla çıxmış, əsrin sonunda isə strateji müttəfiqə çevrilmişlər. Bilindiyi kimi həm Türkiyənin, həm də Azərbaycanın xarici siyasət doktrinasında əsas vəzifələrdən biri qardaş xalq və dövlətlə münasibətləri inkişaf etdirməkdir. Hər iki ölkə üçün qarşılıqlı münasibətlər böyük əhəmiyyət kəsb edir, çünki dövlətlərimizi və xalqlarımızı birləşdirən siyasi, iqtisadi və mədəni tellər, vahid dilə, mədəniyyətə və keçmişə əsaslanır.

Türkiyə-Azərbaycan əlaqələrinə nəzər salarkən hər şeydən əvvəl onu xatırlatmaq lazımdır ki, bolşevik çevrilişindən sonra hələ 1917-ci ilin noyabr ayının 24-də Xüsusi Komitə-

nin Tiflisdə Güney Qafqazdan olan bütün siyasi qüvvələrin iştirakı ilə müşavirəsi keçirilmişdir. Burada Ümumrusiya Müəssislər Məclisi toplanana qədər Güney Qafqazın özünü müstəqil idarə etməsi haqqında qərar qəbul edilmişdir.

Brest-Litovski sülhündən sonra bölgədə yeni şərait yarandı. 1918-ci ilin aprel ayının 22-də Zaqafqaziya Federativ Respublikasının yaradıldığı elan edildi. Lakin Seymdə yaranan ixtilaflar nəticəsində gürcülər öz müstəqilliklərini elan etdilər. Bunun ardınca Azərbaycan nümayəndələri Milli Şura yaratdılar və bu şura mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi barədə bəyannamə qəbul etdi.

Qafqazın üç respublikasının Batumda Osmanlı nümayəndləri ilə ayrı-ayrılıqda apardığı danışıqlar nəticəsində iyunun 4-də Osmanlı Türkiyəsi ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında ayrı-ayrılıqda müqavilə imzalandı. Azərbaycan dövləti adından müqaviləni Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici İşlər naziri M.N.Hacınski, Osmanlı tərəfindən isə Ədliyyə naziri Xəlil bəy, Şərq Cəbhəsi komandanı Vəhib Paşa imzaladılar. Dostluq müqaviləsinin şərtlərinə əsasən iki ölkə arasında sülh və möhkəm dostluq münasibətləri bərqərar edildi. Osmanlı hökuməti öz üzərinə götürdü ki, qaydaqanun yaradılmasında və ölkənin təhlükəsizlik məsələlərinin həllində Azərbaycana əlindən gələn yardımı göstərəcəkdir.

Hələ bu hadisələrdən bir az öncə erməni daşnaklarının zülmündən inləyən xalq, xüsusilə də Naxçıvan və Qərbi Azərbaycan mahallarının əhalisi Kərim xanın başçılığı ilə böyük bir nümayəndə heyəti təşkil edərək 1918-ci ilin may ayında general Mehmet Vahab Paşaya müraciət etdilər. Əhalinin xahişi Andronikin quduz dəstələrindən və erməni işğalından onların xilas olunması idi. Bütün bunları nəzərə alan Türk komandanlığı cəbhələrdə vəziyyətin o qədər də qənaətbəxş olmamasına və qoşunların çatışmamasına baxmayaraq 1918-ci ilin iyun ayında 9-cu və 11-ci türk diviziyalarına qardaş Azərbaycan xalqı qarşısında öz xilaskarlıq missiyasını yerinə yetirmək barədə əmr verdi. 4 iyun 1918-ci ildə türk qoşunları Naxçıvana daxil oldu və indiki Ermənistan ərazilərinin - o zamanki Azərbaycan torpaqlarının böyük bir hissəsini erməni quldurlarından azad etdi.

Bu ərazilərin Türkiyənin nəzarəti altına keçməsini bəyan edən türk hərbçiləri, Naxçıvana yeni general-qubernator belə təyin etdilər. Bununla yanaşı türk zabitlərinin yardımı ilə müstəqil Azərbaycanın hərbi hissələri yaradılmağa başlanıldı. Əhali səfərbərliyə alındı. Bu prosesə rəhbərlik edən şəxs məhz 1-ci ordu korpusunun komandiri məşhur Kazım Qarabəkir Paşa idi. Bu yerlərin camaatının dilindən o indi də düşmür. Xalq onu və onun rəhbərlik etdiyi türk qoşun dəstələrini özünün xilaskarı sayırdı. Məhz bu qəhraman sərkərdənin, Naxçıvan ordusu ilə türk ordusunun birgə səyləri nəticəsində Andranikin daşnak dəstələri Azərbaycan torpağından qovuldu. Xalq rahat nəfəs almağa başladı.

İyunun 16-da Azərbaycan Milli Şurası və Müvəqqəti Hökuməti Gəncəyə köçdü.

İyunun 24-də isə artıq 7 nəfərlik Azərbaycan nümayəndə heyəti İstanbulda idi. İlk növbədə onlar "İstiqlal bəyannaməsi"ni bu ölkənin rəhbərlərinə təqdim etdilər. Məqsəd həm də Dördlər ittifaqı dövlətləri və Qafqazda yeni yaranmış dövlətlərin nümayəndələrinin konfranslarında iştirak etmək idi. İstanbul konfransının baş tutmasına baxmayaraq nümayəndə heyətimiz bəzi faydalı işlər görməyə nail oldu. Osmanlı hökuməti on il müddətinə ölkəmizə 2 milyon lirə həcmində borc verməyi qərara aldı. Azərbaycan pullarının çapı da İstanbulda başlandı. Türkiyə Azərbaycana dərslik və müəllim göndərməyə razılıq verdi. Hərbi yardım məsələsi də həll edildi. Batum müqaviləsinin 4-cü bəndinə müvafiq olaraq Ənvər Paşa Azərbaycana lazımi hərbi qüvvə göndərəcəyini vəd etdi.

Bir şeyi də xatırlatmalıyıq ki, elə Azərbaycan dövlətinin ilk diplomatik addımları da İstanbul görüşlərində atıldı. Ölkəmizin nümayəndə heyəti Dördlər ittifaqı ölkələri və başqa xarici dövlətlərin nümayəndələri ilə danışıqlar apararaq vacib təmaslar qurdu. Ölkəmizin mövqeyi dünya ictimaiyyətinə çatdırıldı. Ən başlıcası isə qardaş Türkiyə ilə hərtərəfli münasibətlərin inkişafının təməl daşı qoyuldu.

Bakıda Xalq Komissarları Soveti adı altında qurulan yad rejim Milli hərəkatı ləğv etmək üçün iyunun 6-da Gəncə üzərinə hücuma keçdi. Bolşeviklərə qarşı 600 nəfərlik bir dəstə dururdu. Bunu nəzərə alan Milli hökumət hərbi vəziyyət elan etdi və "Əlahiddə Azərbaycan korpusu"nun yaradılması barədə qərar qəbul etdi.

Osmanlı dövləti isə bir tərəfdən müttəfiqi Almaniyanın əks reaksiyasından ehtiyat edərək, digər tərəfdən isə Azərbaycana yardım barədə verdiyi vədə əməl etmək üçün onunla guya bağlı olmayan yeni qoşun bölməsi - Qafqaz İslam Ordusu yaratdı və onun başına Nuru Paşanı təyin etdi.

Azərbaycan hərbi hissələri və Qafqaz İslam Ordusu sentyabrın 14-də Bakı üzərinə hücuma başlayaraq artıq 15-də paytaxtı azad etdilər. Beləliklə, Türk İslam Ordusu yenicə yaradılmış Azərbaycan ordusunun hissələri ilə birlikdə Azərbaycan dövlətçiliyini də xilas edərək Azərbaycan Demokratik Respublikası hökumətinin paytaxtda yerləşməsini təmin etdi.

Sentyabrın 17-də hökumət Gəncədən Bakıya köçdü və qısa bir zaman içərisində Azərbaycan hökumətinin hakimiyyəti bütün ölkəyə yayıldı. Türklərin gəlməsiylə həm də tüğyan edən ermənilərə tutarlı cavab vermək, silaha qarşı silah çıxartmaq im-

kanı yaratdı. Erməni zülmünə və qəsbkarlığına, işğalçılıq siyasətinə qarşı hökumət səviyyəsində mübarizə aparmaq imkanı əldə edildi.

Rusiya diplomatik vasitələrlə Bakını əlində saxlamaq üçün Almaniya ilə siyasi alver edir, Osmanlı-Almaniya ziddiyətlərindən istifadə etməyə çalışırdı. Lakin şəhərin fəthindən sonra bölşeviklər gizli niyyətlərini açıqlamağa məcbur oldular, Türkiyəyə nota verərək onu Brest-Litovsk müqaviləsini sistematik şəkildə pozmaqda ittham etdi və müvafiq bəndlərin öz qüvvəsini itirdiyini bildirdi.

Sentyabrın 24-də Rusiya səfiri İoffe Osmanlı dövlətinin Baş naziri Tələt Paşadan Bakının boşaldılmasını, vurulan zərərin isə ödənilməsini tələb etdi. "Türklərin hər hansı bir sahəni Sovet Rusiyasına təslim etməyəcəklərini və Qafqazdakı millətlərin daxili işlərinə əsla qarışa bilmədiklərini" bildirən Tələt Paşa bu tələbi rədd etdi.

Türklər sentyabrın 28-də Berlində gedən danışıqlarda gizli bir protokol imzalayaraq Almanları etirazlarından əl çəkməyə razı sala bidilər. Beləliklə, ağır günlərini yaşayan Azərbaycan Osmanlı dövlətinin simasında öz müttəfiqini və hamisini tapdı. Sonralar bu Azərbaycan türklərinin fiziki varlığının qorunması və Azərbaycanın türk yurdu kimi qalmasında mühüm tarixi rol oynadı. Bu ağır günlərdə gələcək qardaşlığın, müttəfiqliyin əsası qoyuldu.

Türkiyə Azərbaycanı həmişə müstəqil və dost görmək istəmişdir. 1921-ci ilin oktyabrında türklər deyirdilər: "Dünya müharibəsində tökdüyümüz qanlardan bizim üçün ən qiymətlisi Azərbaycanın müstəqilliyi uğrunda tökdüyümüz qandır... Bizimlə tarix, din, dil, mənşə və xalqın düşüncə tərzinə görə qardaş olan Azərbaycanın müstəqilliyi bizim üçün milli qürurdur, öz müstəqilliyimiz qədər qiymətlidir. Müstəqillik bizim azərbaycanlı qardaşlarımızın təkcə çoxdan gözlədikləri hüquqları deyildir, həm də Bakı şəhərinin qumlarında və daşlarında həlak olan Anadolu oğullarının əsəridir". **(Musa Qasımov, Mahir Abdullayev. Beynəlxalq münasibətlər tarixi. (XX əsr, 1-ci hissə, 1900-1945-ci illlər), Bakı, 1998. səh.129).**

Qazi Mustafa Kamal Paşa Ankaraya gələn Azərbaycan nümayəndəsi İ. Əbilova demişdi: **"Bizim azərbaycanlı qardaşlarımızın kədəri və sevinci bizim şəxsi kədərimizin və sevincimizin mənasıdır".**

Mustafa Kamal Paşa hələ 1920-ci il dekabrın 1-də Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşaya, Moskvadakı səfiri Fuad Paşaya, Bakıdakı səfiri Mahmud Şövkət bəyə və Tiflisdəki türk səfiri Kazım bəyə göndərdiyi 472 saylı teleqramda deyirdi: **"Azərbaycanın tamamilə və qətiyyətlə müstəqil bir dövlət olmasına tərəfdarıq və bunun üçün ruslarla yaxşı münasibət saxlamaq və onları şübhələndirməmək şərti ilə**

lazımi addımlar atılacaqdır. Bu xüsusda məmləkətin neft və sair kimi iqtisadi mənbələrinə özünün sahib olması şərti ilə yenə eyni cür çalışılacaqdır. Rusların Azərbaycanda etdikləri hərəkətlərin bütün islam aləminin bolşevikləri yoxlamaları üçün meyar olacağını ruslara başa salmağa çalışılacaqdır."

Türklər bolşevikləri və onların qurduqları hakimiyyəti bu cür təsvir edirdilər: **"Ümumiyyətlə, Sovet Rusiyası indi Azərbaycan üçün tərbiyəçi və müəllim deyil, qarətçidir. Azərbaycan milli dirçəlişə möhtacdır. Azərbaycandakı bolşevik hökuməti isə yadelli hökumətdir".**

Türkiyənin müstəqil Azərbaycan istəklərini bütün faktlar təsdiq edir. 1921-ci ilin 16 martında Rusiya-Türkiyə müqaviləsi imzalanması üçün danışıqlar gedərkən türklər Qafqazdakı hər bir dövlətlə, o cümlədən Azərbaycanla ayrılıqda müqavilə imzalamaq istəyini bildirmiş, lakin ruslar buna etiraz etmişdilər. Qars müqaviləsinin stenoqrammalarından da görünür ki, Azərbaycanı müstəqil bir dövlət görmək məsələsində türklər dəfələrlə israr etmiş, ancaq öz niyyətlərinə çata bilməmişlər.

Türk nümayəndə heyətinin başçısı Kazım Qarabəkir Paşa Moskvanın Qafqaz respublikalarını müstəqil tanıdığına görə türklər də onlarla müstəqil müqavilələr bağlamaq istədiklərini bildirir, bu barədə birbaşa Mustafa Kamal Paşadan göstəriş aldıqlarını söyləyirdi.

Lakin Türklər Rusiyanın gücü və təkidləri qarşısında bu istəklərindən geri çəkilməli oldular və 1921-ci ilin oktyabrın 13-də 20 maddədən və üç əlavədən ibarət olan Qars müqaviləsi bağlandı. Azərbaycan üçün bu müqavilədəki maddələrdən ən mühümi 5-ci maddə idi. Ona görə Qafqaz respublikaları və Türkiyə Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasına (verilməsinə yox) razı olduqlarını bildirirdilər.

Beləliklə Naxçıvanın Muxtariyyəti daxili müqavilə ilə yox, beynəlxalq müqavilə (13 oktyabr 1921-ci il, Qars müqaviləsi) ilə təsdiqləndi, istər Qars, istərsə də onun əsasını təşkil edən Moskva müqaviləsində (Rusiya ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında) Naxçıvanın muxtar statusu ilə bağlı xüsusi maddə daxil edildi (Moskva müqaviləsi, maddə 3 - "Razılığa gələn hər iki tərəf Naxçıvan vilayətinin hazırkı müqavilənin 1 (s) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaratmasına razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştlə getməməlidir"), Qars müqaviləsinin 5-ci maddəsində göstərildi ki, "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaratmasına razıdırlar".

Beləliklə bu müqavilələrin mət-

nindən də göründüyü kimi özü milli azadlıq mübarizəsi aparan Türkiyənin belə çətin anlarda belə Azərbaycana dayaq olması, dəstək verməsi xalqımız üçün unudulmazdır.

16 mart 1921-ci ildə Moskva və Türkiyə arasında dostluq müqaviləsi imzalandıqdan sonra Azərbaycanın Türkiyədə diplomatik nümayəndəliyinin açılmasına qərar verilir. Bu vəzifəyə təyin olunan İbrahim Əbilov 15 oktyabr 1921-ci ildə öz etimadnaməsini Mustafa Kamal paşaya təqdim edir. Azərbaycanın diplo-matik nümayəndəliyi həmin tarixdən etibarən 23 fevral 1923-cü ilə qədər - İ. Əbilovun qəflətən vəfatına qədər Türkiyədə fəaliyyət göstərir. Bundan sonra Azərbaycanın Türkiyəyə səfiri təyin olunmur və onun vəzifəsini SSRİ-nin - mərkəzi hökumətin nümayəndəsi icra etməyə başlayır. Siyasi əlaqələr kəsilir. İqtisadi və mədəni əlaqələr isə artıq birbaşa yox, SSRİ ilə aparılır, və onun tərkib hissəsi olan Azərbaycanın rolu və yeri isə günbəgün azaldılır, demək olar ki, yox dərəcəsinə çatdırılır.

Ancaq qəlblərdə və ürəklərdə yaşayan dostluq heç vaxt yox olmur. Ümumi tarix, mədəniyyət, adət və ənənələlər kimi başlıca faktorlar öz işini görür. Tonqalın üstünü kül bassa da, onun içindəki alov heç vaxt sönmür.1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini əldə etdikdə bu qardaşlıq tonqalı yenidən gur alovla yanmağa başladı. 70 ildə ürəklərdə qalan arzularımız yenidən çin olmaq imkanı tapdı.

Lakin onu da deməliyik ki, Türkiyənin Azərbaycanı tanıması, özü də hamıdan əvvəl tanıması heç də asan iş deyildi. Qarşıda böyük çətinliklər və əngəllər dururdu. Dünyanın super dövlətlərindən biri olan Sovet İttifaqı ilə qarşı-qarşıya gəlmək məsələsi dururdu. Bu çətin və ağır, həm də hər iki ölkə üçün taleyüklü olan bu günlər barəsində Azərbaycanın tanınmasında həlledici rollardan birini oynamış, Türkiyənin Çindəki sabiq səfiri, professor Bilal Şimşir belə xatırlayır: " Mən 10-12 il bundan əvvəl Çində səfir idim. Oradan qayıdandan sonra Xarici İşlər Nazirliyində Balkanlardan Yaponiyaya qədər əraziləri əhatə edən idarəyə baş müdir təyin edildim. Mən bu təyinatı alan kimi birdən-birə tarixi hadisələr baş verdi. Azərbaycana gəlincə, o 23 sentyabr 1990-cı ildə öz suverenliyini elan etdi. Xronoloji baxımdan əlaqələrimizin tarixi üç hissəyə bölünür. Birinci hissə 1990-cı ilin 23 sentyabrından 1992-ci il 23 yanvara qədər olan müddəti əhatə edir (Mətndə beladir. Müəlliflər). Yəni Azərbaycan BMT-də öz bayrağını sancana qədər mən bu prosesin içində idim. Azərbaycan bayrağını Nyu-Yorkda sancanda məndə vardım.

Mən Azərbaycanla protokolu imzalayan şəxsəm. Önəmli hadisələrin, tarixi hadisələrin tam mərkəzində olan insanam. Bu barədə bir çox xatirələrim var ki, onları özümlə qəbrə aparmaq istəməzdim. Ancaq

burada, vaxt məsələsi çox gərgin olduğu üçün onların yalnız bir neçəsini deyib keçəcəyəm. Azərbaycanın öz müstəqilliyini elan etməsi Türkiyə baxımından iki nəticə verdi:

1. Burada biz Baş konsulluq açdıq, ki bu da Bakıda ilk Başkonsulluq idi.

2. 15-16 mart 1991-ci ildə bizim Prezident Özal Azərbaycanı ziyarət etdi və bu ziyarət əsnasında bir çox anlaşmalar da imzalandı. Mən o nümayəndə heyətinin tərkibində deyildim, lakin mənim köməkçim (müavinim) iştirak etmişdi.

Mən o nümayəndə heyətinə "Azərbaycanda türk əlifbasının tarixi" adlı bir kitab verdim. Azərbaycanda, Bakıda 1922-ci ildə Türk dünyasında ilk latın əlifbası "Yeni yol" qəzetində dərc olunmuşdu. Mənə sonralar dedilər ki, bizim arxivimizdə bu olmamışdır. Mən bunları arxivə götürərkən demək istədim ki, Azərbaycanda əlifba söhbəti qədimdir. Onun Fətəli xan Axundovdan başladığını xatırlatdım və Prezident Özalın təyyarəsi ilə bunları buraya göndərdik.

...30 avqust 1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdi. 30 avqust bizdə Qələbə bayramıdır. Biz bu günü o il qoşa bayram kimi keçirdik və bundan az keçmədi ki, üç adamlıq bir nümayəndə heyətinin başında dövlət məni Bakıya göndərdi. 12 sentyabr 1991-ci ildə biz Türkiyə adından gəldik... Məsul şəxslərlə görüşlər keçirtdik... Geri qayıdan kimi Prezident Özal məni çağırdı. Nə edəcəyik? - deyə soruşdu. Mən də ona: "iki şey edəcəyik", deyə cavab verdim:

Birincisi onların (MDB nəzərdə tutulur) bütün prezidentləri ilə görüşməyimiz lazımdır. Biz bütün Türk respublikalarını dolaşdıq və Qırğızıstana qədər getdik, onların hamsını Türkiyəyə dəvət etdik, çünki onlar ilk ziyarətlərini Türkiyəyə eləmək istəyirdilər.

İkincisi isə artıq vaxtdır. Onların müstəqilliyini tanımağımız lazımdır.

Sonra yazılı bir təqdimat da verdik ki, müstəqilliklərini tanımaq lazımdır. Ancaq bu belə bir çətin məsələ idi ki, 41 illik dövlətimizə xidmət etdiyim zaman içərisində bu təqdimatı (raportu) mən ən çətini sayıram. Çünki onun nə ilə nəticələnəcəyini bilmirdik. Bundan Azərbaycana zərər gələrmi? Türkiyəyə zərər gələrmi? Moskva nə edəcək, dünya nə edəcək və bu nə ilə nəticələnəcək? Bu məsələ son dərəcə çətin bir məsələ idi. Ancaq bunlara baxmayaraq biz Azərbaycanın və digər Türk respublikalarının müstəqilliyinin tanınmasının lazım olduğu qənaətinə gəlmişdik. Azərbaycan bu işdə özü belə tərəddüd edirdi. Bizi tanıyın deyə hələ bizə rəsmən müraciət etməmişdi. Ancaq 1991-ci ilin 29 oktyabrda Azərbaycanın Ali Soveti (Məclisi) qərar çıxartdı ki, bizim müstəqilliyimizi tanımaq üçün biz dünya dövlətlərinə müraciət edəcəyik. Azərbaycandan bir millət vəkili belə TBMM-ə göndə-

rildi. Sonra oktyabr - noyabr ayının əvvəllərində Baş nazir Həsən Həsənov Türkiyəyə gəldi, bizi tanıyın dedi və biz hərəkətə keçdik.

1991-ci ilin oktyabr ayının 9-da Atatürkün vəfat etməsinin ildönümü münasibətilə mənim Orta Şərq Texniki Universitetində bir mühazirəm var idi. Məni oradan təcili çağırdılar. Bizim nazir, müşavir, mənim köməkçim və Nazirin mətbuatla əlaqə üzrə köməkçisi Candan Azər altı saat Azərbaycanın müstəqilliyinin tanınması məsələsini müzakirə etdik. Biz necə bir açıqlama verəcəyik? Bu altı saat ərzində nazir üç dəfə Nazirlər Kabinetinə getdi. Məsələ çox çətin bir məsələydi, çox çətin mövzuydu. Bəlkə heç kəs bilmir, NATO Azərbaycanın tanınmasına qarşı çıxırdı. Biz hələ müşavirədəykən Amerika səfirliyindən bir məktub aldıq. Orada göstərilirdi ki, gəlin əvvəlcə məsələni NATO-da müzakirə edək, sonra tanımaq barədə düşünərik. Sovet İttifaqının səfiri Albert Çernışov və onun müavini (köməkçisi) Valter Şoniya Azərbaycanı tanımayın, - deyə mənim yanıma gəldilər. İngilislər isə tanımağı gözləyin dedilər. Türkiyə yalnız qalaraq, yalnız da Azərbaycanın müstəqilliyini tanımağa qərar verdi. Bundan sonra 9 oktyabrın axşamı Baş nazir qısa bir açıqlama verdi. Ertəsi gün Xarici İşlər naziri bizim hazırladığımız açıqlamanı KİV nümayəndələri qarşısında oxudu. İndi bu vahid bir məsələdir. Ancaq biz o tarixdə üç pilləli, üç mərhələli, üç addımlı bir siyasət istəyirdik.

Birinci addım - tanıma olmalıydı. İkinci addımda diplomatik əlaqələr qurmaq, protokol və anlaşma (saziş) imzalamaq. Sazişi hazırlayarkən bir masa arxasına gəlir, hansı problemləri olduğunu, məsələləri olduğunu bir yerdə müzakirə edir, aradan götürdükdən sonra diplomatik əlaqələri qururuq.

Məsələn biz Ermənistanı tanıdıq, ancaq 10 ildir ki, belə bir protokol imzalamadıq, əlaqə qurmadıq, diplomatik əlaqələr mövcud deyildir, konsulluq yoxdur, səfirlik yoxdur, çünki hələ də masa üzərində təmizlənməsi lazım gələn məsələlər vardır.

Üçüncü addım - tanıdıqdan sonra orada nümayəndəlik və ya səfirlik açmaqdır. Siyasət budur. Avropa qəzetləri bunu türk modeli kimi adlandırdılar. Ancaq sonralar başqaları da bizim modeli təqlid etdilər. Azərbaycanla əlaqədar bu üç şərt çox tez alındı. Artıq 1991-ci ilin dekabr ayının 25-də Məclisdə bizim Xarici İşlər Nazirliyinin büdcəsi də daxil olmaqla büdcə məsələləri müzakirə edilirdi. Biz də bürokratlar olaraq nazirin arxasında gizlənərək məsələnin həllini gözləyirdik. Bu arada mənə bir teleqramma gəldi ki, bir qonşu ölkə də, yəqin adını təqribən müəyyənləşdirə bilərsiniz -Bakıda səfirliyini açmaq istəyir. Mən nazirə öz qeydimi təqdim etdim. Orada qeyd edilirdi ki, gərək biz öz səfirliyimizi açaq və başqasına bu birinciliyi buraxmayaq. Bu önəmliliyi biz başqa bir dövlətə

buraxa bilmərik. Və nazir elə o gün, bu da bir cəsarət istəyən işdir - hökumətlə məsələni müzakirə etmədən Məclis önündə dedi ki, biz əvvəlcə konsulluq açdıq, gözləyirdik, ancaq vəziyyət sürətlə dəyişdi. Biz Bakıda öz səfirliyimizi açmağa qərar verdik və başqa qonşu dövlətə fürsət vermədən tezliklə onu açmaq istəyirik. Altan Karamanoğlu Ankarada vida ziyafətlərini verərkən, qar, qış, qiyamət düşdü, o ayağını sındırdı və xəstəxanaya düşdü. Məni iki vəzifəni icra etmək üçün təcili olaraq Bakıya göndərdilər. Onlardan birisi Azərbaycanla diplomatik əlaqələri başlamaq üçün protokol imzalanması məsələsi idi. İkinci vəzifə Altan Karamanoğlunun etimadnaməsini onun əvəzindən Prezidentə təqdim etmək idi. Diplomatiya tarixində o vaxta qədər belə şey olmamışdı və bu məsələ bu günə qədər gizli idi, yalnız birinci dəfədir ki, burada onu açıqlayıram. Açığını deyim ki, protokolu imzalamaq məsələsi də heç də asan iş olmadı. Azərbaycanlılar bizə kökə ötürürdülər. Biz altı saat bu məsələni müzakirə etdik. Biz öz mətnimizi hazırlamaq üçün əvvəlcə Hüseyn Sadıqovla danışdıq, izah elədik, mətnə düzəlişlər verdik. Sonra mən bizim konsulluğa qayıtdım. O vaxt Mehmet Əli Bayar orada konsulluq işlərini icra edən müvəqqəti işlər vəkili idi. Ona tapşırdım ki, yazı makinasında mətni yazsınlar, imzalamağa gələcəyəm. Konsulluqda işim var. Ankaraya bildirəcəyəm ki, işi qurtarmışın. Bu vaxt Bayar mənə telefon etdi ki, azəri tərəfi, məsələdən vaz keçdi, mətni qəbul etməyir. Daha üç saat müzakirələr apardıq... Nəhayət onu imzaladıq... Sonra mən etimadnaməni də təqdim etdim... Beləcə o tarixdən bizim səfirin işə başladığı hesab edilir. Beləliklə də bizim səfir duayen oldu." Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr olunmuş elmi-praktik konfrans. (materiallar) 14 yanvar 2002-ci il. Bakı, 2002. səh.24-28.

Beləliklə də ölkələrimiz arasında diplomatik əlaqələr yenidən quruldu və əməkdaşlığımızın yeni mərhələsi başlandı.

Yenə də qardaş Türkiyə bizi imperiya buxovundan xilas etmək məqsədi ilə cəsarətlə öz yardım əllərini uzatdı. Bizi həmişəlik olaraq xilas etdi, müstəqilliyimizi beynəlxalq aləmdə rəsmiləşdirmək üçün heç nədən, heç kimdən çəkinmədən özü üçün də ağır və təhlükəli olan bu addımı atdı.

Yeri gəlmişkən onu da xatırlatmalıyıq ki, Azərbaycanın və türk respublikalarının BMT-yə qəbul edilməsində də Türkiyənin önəmli yeri və rolu olmuşdur. 1992-ci ilin fevral ayında Türkiyənin Baş naziri Dəmirəl ABŞ-a səfəri zamanı BMT-nin Baş katibliyinə ölkəmizi və digər türk respublikalarınən bu beynəlxalq təşkilata qəbul edilməsi barədə təşəbbüslə müraciət etmiş, bu təşəbbüs BMT-nin Təhlükəsizlik Şurasında bu barə-

də müzakirələrin başlanmasına səbəb olmuş, son nəticədə Azərbaycan və digər türk respublikaları BMT-nin üzvlüyünə qəbul edilmişlər.

Beləliklə həyat onu bir daha sübut etdi ki, qəlblərdə və ürəklərdə yaşayan dostluq heç vaxt yox olmur. Ümumi tarix, mədəniyyət, adət və ənənələr kimi başlıca faktorlar öz işini görür. Tonqalın üstünü kül bassa da, onun içindəki alov heç vaxt sönmür. 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini əldə etdikdə bu qardaşlıq tonqalı yenidən gur alovla yanmağa başlamışdır. 70 ildə ürəklərdə qalan arzularımız yenidən çin olmağa başlamışdır.

Heç də təsadüfi deyildir ki, SSRİ dağıldıqdan sonra Azərbaycanı birinci tanımaq istəyən, bunun üçün inanılmaz cəhdlər göstərən və ən nəhayət ilk dəfə tanıyan ölkə elə qardaş Türkiyə oldu. Türkiyə rəsmi olaraq Azərbaycan Respublikasının müstəqilliyini 9 noyabr 1991-ci ildə tanıdı və 14 yanvar 1992-ci ildə onunla diplomatik əlaqələri bərpa etdi.

Türkiyədə Azərbaycanın Səfirliyi 1992-ci ilin avqust ayında, İstanbulda Baş Konsulluq 1993-cü ilin yanvar ayından fəaliyyətə başladı. Turkiyənin Azərbaycandakı Səfirliyi isə 1992-ci ilin yanvar ayında açıldı.

Danılmaz faktdır ki, Türkiyənin heç nədən çəkinməyərək ilk dəfə Azərbaycanın müstəqilliyini tanıması ona yardım etmiş, eyni zamanda ölkələrimiz arasında daha sıx və səmərəli əməkdaşlıq üçün zəmin yaratmış və beynəlxalq ictimaiyətin bəzi ölkələri tərəfindən Azərbaycanın tanınması prosesini sürətləndirmişdir.

Müstəqilliyə nail olduqdan sonra Azərbaycan-Türkiyə əlaqələri BMT, ATƏT və digər beynəlxalq təşkilatların nizamnamələrinin prinsiplərinə uyğun şəkildə inkişaf etmiş, bərabərlik, qarşılıqlı inam, birbirlərinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyü və suverenliyə hörmət etmək prinsiplərinə əsaslanmışdır. Hərtərəfli siyasi əməkdaşlığın inkişaf etdirilməsinin təmin olunmasına istiqamətlənmişdir.

Bizim ölkələr arasında ümumi strateji maraqların mövcudluğu, regiondakı vəziyyətimizin geostrateji bənzərliyi, həmçinin bir çox regional və beynəlxalq məsələlərin həllinə olan baxışlarda prinsipial ayrılıqların olmaması ölkələrimizi ideal müttəfiqlik etməyə sövq edən məsələlərdəndir. Türkiyənin dünya siyasətindəki yerindən, rolundan və nüfuzundan maksimum istifadə edilməsi imkanlarının mövcudluğu, onun bir çox beynəlxalq təşkilatlardakı güclü və nüfuzlu mövqeyi, eyni zamanda ABŞ və digər Qərbi Avropa ölkələri ilə sıx müttəfiqlik əlaqələri müstəqilliyimizin möhkəmləndirilməsi və ölkəmizin, onun problemlərinin beynəlxalq aləmə çıxarılması üçün vacib olan faktorlardandır. Nəhayət türk dünyasına mənsub olan ölkələrin siyasi və iqtisadi gücünün birləşdirilməsi, onların dünya siyasətində yerinin və rolunun artırılması məsələləri də ölkələrimizi birgə səylər göstərməyə sövq edir.

İlk öncə, müstəqil Azərbaycan və Türkiyə Respublikası arasında əlaqələrin hərtərəfli inkişafı üçün liderlərimiz tərəfindən zəruri addımlar atıldı. Buna misal olaraq, 22 mart 1992-ci ildə - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin xüsusi dəvəti ilə Türkiyəyə rəmsi səfər etdi. Səfər zamanı Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal və Baş Naziri Süleyman Dəmirəl ilə təkbətək görüşlər keçirtdi. Heydər Əliyevlə Süleyman Dəmirəl arasında söhbət və danışıqlar zamanı Türkiyə tərəfindən Baş nazirin müavini Ərdal İnönü, Xarici İşlər naziri Hikmət Çətin, Milli Müdafiə naziri Nevzat Ayaz, Daxili İşlər naziri İsmət Sezgin, Kənd Təsərrüfatı naziri Nəcməddin Cevhəri, dövlət nazirləri Cavit Çağlar, Əkrem Ceyhun, Ömer Barutçu, Türkiyə Böyük Millət Məclisinin deputatı Münif İslamoğlu iştirak etmişlər. Nəhayət burada olarkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, o cümlədən Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılmasını və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə əməkdaşlıq protokolunu imzalamışdır. Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri göz önünə alınaraq bütün sahələrdə daha yaxın əməkdaşlıq edilməsi məqsədi ilə ümumi razılığa gəlinmişdir. Bu ziyarət ölkələrimiz arasındakı əlaqələrə böyük təkan vermişdir. Bundan sonra da Heydər Əliyev hələ Naxçıvanda olarkən Türkiyəyə bir neçə dəfə səfər etmiş, əlaqələrimizin genişlənməsi və möhkəmləsi üçün əlindən gələni əsirgəməmişdir.

Daha sonra Türkiyə Respublikasının Baş naziri S.Demirəl 1992-ci ilin mayında Naxçıvana, Türkiyənin Cümhuriyyəti T.Özal isə (1993) Bakıya rəsmi səfərlər etdilər, geniş danışıqlar apardılar. Bu səfərlərlər zamanı Türkiyənin keçmiş SSRİ-nin türkdilli respublikaları ilə əlaqələrinin gücləndirilməsi və inkişaf edilməsində Azərbaycanın iştirakı barəsində də söhbət getmiş, bu sahədə müəyyən müsbət addımlar atılmışdı. Azərbaycanın regional diplomatiyada bağlayıcı amil rolunu oynaması Azərbaycan-Türkiyə Birgə Kommunikəsində də öz əksini tapmışdı. Umumi fikrə görə ilk öncə Türkiyə-Azərbaycan-Türkmənistan-Kazaxıstan-Qırğızıstan-Özbəkistan siyasi-iqtisadi oxunun yaradılması nəzərdə tutulurdu ki, burada da Azərbaycana həlledici rollardan biri ayrılırdı. Məqsəd - Mərkəzi Asiya respublikalarını Rusiyanın təsiri altından çıxarmaq, Tür-

kiyənin lider rolunu oynayacağı bloku yaratmaqdan ibarət idi. Lakin son nəticədə Türkiyənin bu niyyətlərinin həyata keçirilməsi qismət olmadı və yuxarıda göstərilən "ox", qarşısında digər məqsəd və vəzivələr duran Türkdilli dövlət başçılarının saminitinə çevrildi.

Onu da qeyd etmək lazımdır ki, Türkiyənin rəsmi dairələri kimi, ictimaiyyəti də ilk dövrlərdə AXC-nin hakimiyyətə gəlməsini müsbət qiymətləndirirdi. Lakin, o vaxtkı Azərbaycan rəhbəliyi tərəfindən təcrübəsiz, səriştəsiz, uzağı görməyən siyasət yürüdülməsi, aparılan, geniş "türk eyforiyası", romantik volyuntarizm, emosional çıxışlar, mövcud vəziyyətin düzgün olmayan və qeyri obyektiv qiymətləndirilməsi, AXC yüksək funksionerlərinin düşünülməmiş və ehtiyatsız bəyanatları, Türkiyəyə münasibətdə gənc respublikanın düzgün olmayan xarici siyasətinin formalaşmasına gətirib çıxartdı. Hər kəsə və hər şeyə kortəbii yanaşma, türk bürokratik strukturunun tam surətini çıxarma, türk iqtisadiyyatı modelinin həddindən artıq şişirdilməsi, respublikanın maraqlarına etinasızlıq göstərmək ona gətirib çıxardı ki, Azərbaycan rəhbərliyinin yuxarı təbəqələrinə Türkiyədən uzaqda olan insanların, diletantların, heç vaxt rəhbərlik etməkdə səriştəsi olmayan insanların axını başlandı ("Azərbaycan Mədəniyyət Dərnəyi"nin rəhbərlərinən biri olan D.Unalın aqrar məsələləri üzrə Prezidentin müşaviri təyin olunması və yaxud F.Demirqolun Milli Məclisdə üzdəniraq məşhur "müşavir" vəzifəsinə təyin olunması).

Heydər Əliyevin hakimiyyətə gəlişini Türkiyədə ilk dövrlərdə birmənalı qəbul etmədilər. Bu ölkə ictimaiyyətinin Azərbaycandakı dəyişikliyə olan mənfi münasibəti fonunda və səs-küylü, bəzən isə məqsədyönlü kompaniyalarda, bəzi kütləvi informasiya vasitələrinin qalxmasında (bu planda xüsusilə "Azərbaycan" jurnalı, Azərbaycan Mədəniyyət Dərnəyi təşkilatı xeyli işləmişdir) özünü biruzə verirdi. Lakin Türkiyə rəhbərliyi və rəsmi dairələrin böyük əksəriyyəti, xüsusilə də Prezident S.Dəmirəl və Baş nazir T.Çillər bəyan etdilər ki, Bakıdakı dəyişiklik suveren və müstəqil Azərbaycanın daxili işidir.

Təcrübəli, uzaqgörən və məşhur dünya miqyaslı siyasətçi Heydər Əliyevin Azərbaycana hakimiyyətə gəlişi ilə Türkiyənin müəyyən dairələri anladılar ki, Azərbaycanla manipulyasiya siyasətinə son qoymaq lazımdır. Azərbaycan dövlət başçısının müstəqilliyimizin, suverenliyimizin, respublikamızın ərazi bütövlüyünün möhkəmlənməsinə yönəlmiş müdrik və uzaqgörən siyasəti Türkiyənin Azərbaycana qarşı olan münasibətini müsbət tərəfə dəyişməsinə kömək etdi. Azərbaycanda demokratik və iqtisadi islahatların həyata keçirilməsi yolunda ölkəmizin başçısının böyük xidmətlərini və nəzərə çarpan rolunu qeyd edən, Türkiyə Prezidenti S. Dəmirəl respublikamızın içtimaiyyəti qarşısında çıxış edərək, dedi - "Biz Azərbaycan Prezidentinin, möhkəm əzmlə və inamla öz ölkəsinin gələcəyə doğru irəliləməsi yolunda atdığı addımları görürük".

Hazırkı Azərbaycan hökumətinə münasibətdə Türkiyə içtimaiyyətində rəylərin dəyişməsinin sübutu olaraq, Türkiyənin Baş nazirləri T.Çillər və M.Yılmaz, Türkiyə Silahlı Qüvvələrinin Qərargah Rəisləri D.Günəş və İ.Qaradayi, Xarici İşlər nazirləri H.Çətin, M.Soysal və Ə.İnöni kimi dövlət xadimlərinin Bakıya səfərləri zamanı bu cür müsbət mülahizələr səslənilirdi. "Əsrin Kontrakt-ının" imzalanması mərasimində Türkiyə nümayəndəsinin rəhbəri, dövlət naziri N.Cefhərinin sözlərini xüsusilə qeyd etmək lazımdır. O demişdi: "Azərbaycanın zəngin sərvəti olan neftini əldə edə biləcək və belə ağır və çətin işləri həyata keçirə biləcək qabiliyyətə malik olan Azərbaycan Prezidenti Heydər Əliyevə haqq qazandırmaq lazımdır".

Bu qısa müddətdəki Azərbaycan-Türkiyə əlaqələrini təhlil edərkən, bu faktı təsdiq etmək lazım gəlir ki, Türkiyənin kütləvi informasiya vasitələri Azərbaycanın daxili və xarici siyasəti əleyhinə daima iştirak edən hücum faktorunun əsas iştirakçılarından olmuşdu. Onların səyləri nəticəsində Türkiyə ictimiyyəti arasında belə bir fikir formalaşmağa başlamışdı ki, Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra hər iki ölkə arasında soyuq münasibətlər yaranacaq. Lakin həm Bakıda, həm də rəsmi Ankarada anlayırdılar ki, Türkiyə və Azərbaycan arasında sonrakı ikitərəfli əlaqələrin dərinləşməsi və tərəqqisi hüquq bərabərliyi prinsiplərinə, qarşılıqlı inama və bir-birilərinin daxili işlərinə qarışmamağa əsaslananmalıdır və ölkələrimiz arasındakı siyasi dialoqun fəallaşması siyasətinin özulü olmalıdır. Aydındır ki, Türkiyə respublikamızda siyasi stabilliyin olmasında daim maraqlı olmuşdur.

Yeri gəlmişkən türk KİV-nin ölkəmizin başçısına olan münasibəti haqqında da bir neçə söz demək burada yerinə düşərdi.

Bütövlükdə, Türkiyə kütləvi informasiya vasitələri Heydər Əliyevin hakimiyyətə gəlişini mənfi qarşıladı. Lakin, bir aydan sonra türk mətbuatında gedən məlumatlarda müsbətə doğru irəliləyişlər əks olundu. Bu ilk növbədə, saxta "prezident" Ə.Hümbətovun "Qondarma Talış-Muğan Respublikası"nın müstəqilliyini elan etməsi, Azərbaycanın cənubunda baş verən hadisələrlə əlaqədar idi. Heydər Əliyevin respublikanın ərazi bütövlüyünün, müstəqilliyinin qorunması və möhkəmləndirilməsi üçün atdığı addımlar, verdiyi bəyanatlar və bu qiyamın qarşısının alınması üçün gördüyü mühüm işlər, onun müdrik, uzaqgörən və operativ siyasəti türk mətbuatına cox böyük təsir göstərdi. Lənkəranda baş verən hadisələrlə bərabər, Gəncədə "polkovnik"

S.Hüseynovun rəhbərliyi ilə baş verən qiyamın qarşısının alınması üçün Azərbaycanın dövlət başçısının apardığı siyasət, AXC hökumətinin həyata keçirdikləri yöndəmsiz tədbirlərindən və Elçibəyin Gəncədə "polkovnik" S.Hüseynovu ələ ala bilmək cəhdindən tamamilə fərqlənirdi, çünki Heydər Əliyev ən güclü mövqeyə malik idi. O, xalqa arxalanırdı. Öz xalqına xidmət etmək üçün Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin, suverenliyinin qorunması və möhkəmləndirilməsinə yönəlmiş məqsədyönlü siyasəti Türkiyə içtimaiyyəti qarşısında xoş təəssurat bağışlayırdı ki, bu da öz növbəsində Türkiyə mətbuatına çox böyük təsir göstərirdi. Türkiyə mətbuatının yayım tərzi dəyişməyə başladı. Türkiyə kütləvi informasiya vasitələri 1994-cü ilin oktyabr hadisələrini Prezident Heydər Əliyevi artıq Elçibəylə müqayisə etmədən əks etdirirdilər. Bir az keçmədi ki, sonuncunu artıq heç kim yada salmırdı. Qəzetlər S.Hüseynovun qiyamını yatıran respublikamızın dövlət başçısının hərəkətinə, onların fikrincə desək, "Ali sinfin məharəti"nə heyran olmuşdular. Azərbaycan hökumətinin apardığı siyasətin Türkiyə və Azərbaycan arasında ticarət və iqtisadi münasibətlərin inkişafına yönəldilməsini, türk sərmayəsinin respublikamıza cəlb olunması üçün Prezident Heydər Əliyevin hüquqi, demokratik və dünyəvi dövlət qurması, bu haqda verdiyi bəyanatlar Azərbaycana qarşı münasibətdə Türkiyə mətbuatının mövqeyini dəyişdirdi. ATƏT-in Lissabon Sammitində Azərbaycan diplomatiyasının qələbəsini Türkiyə mətbuatı böyük sevinclə qarşıladı. Portuqaliyanın paytaxtında Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan nümayəndə heyyətinin müvəffəqiyyətlərini vurğulayan Türkiyə qəzetləri aşağıdakı başlıqlarla çıxmışdılar: - "Lissabonda Azərbaycanın müvəffəqiyyəti", "Prezident Əliyev və onun komandası qələbə çaldı", "Ermənistan sarsıdıcı zərbə aldı" (1996-cı ilin dekabr ayında nəşr olunan "Hürriyyət", "Sabah", "Milliyət" və digər qəzetlər).

Beləliklə, əminliklə etiraf etmək lazımdır ki, Türkiyə mətbuatında respublikamıza qarşı münasibətin tamamilə dəyişməsində əsas katalizator Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fəaliyyəti oldu.

Beləliklə, tədricən Türkiyənin özündə də anlamağa başladılar ki, ölkəni ağır iqtisadi və sosial vəziyyətdən, siyasi böhrandan çıxartmağa yalnız Heydər Əliyevi qabildir və bu yolda Azərbaycan xalqı onu özünə lider seçmişdir. Az keçmədən bunu həmçinin Türkiyənin "dördüncü hakimiyyət" nümayəndələri olan kütləvi informasiya vasitələri də görməyə başladılar və bir danılmaz faktı tanımağa məcbur oldular ki, "ancaq Heydər Əliyev Azərbaycan dövlət maşınını idarə edə bilər".

Ölkələrimiz arasında yeni yaranan əlaqələrin dönüş nöqtəsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin fevralında Ankaraya rəsmi səfəri zamanı olmuşdur. Bu səfər xüsusilə Türkiyə-Azərbaycan münasibətlərinin yeni inkişaf mərhələsi ilə əlamətdar olmuşdur və yüksək səviyyəli səmərəli əlaqələr Türkiyə və Azərbaycan arasında münasibətlərin möhkəmləndirilməsində böyük rol oynamışdır. Prinsip etibarilə Heydər Əliyev Türkiyə-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafında yeni tövhələrini bəxş etdi, eyni zamanda siyasi, iqtisadi və digər sahələrdə hərtərəfli əməkdaşlığın xüsusi dinamizlə inkişafına təkan verdi.

Xüsusilə qeyd etmək lazımdır ki, səfər zamanı Heydər Əliyevin etdiyi çıxışlar və bəyanatlar bütün diplomatik korpuslarda, cəmiyyətdə, ziyalılarda və türk rəsmi dairələrində unudulmaz təəssürat yaratdı. Türkiyə Parlamentinin deputatları qarşısında çıxış edərək və Azərbaycanın MDB-yə daxil olma faktına toxunaraq (bu fakt türk qəzetlərində yayılmış əsas kritik hədəfə səbəb oldu), pespublikamızın başçısı dəfələrlə vurğulayırdı: "Bunları qeyd etmək istərdim. Keçən ilin sentyabr ayında Azərbaycan MDB-yə daxil olmuşdur. Bir neçə türk qəzetləri birmənalı olaraq bu hadisəni Azərbaycanın müstəqilliyinin itirilməsi kimi şərh edirlər. Bu belə deyil. Biz MDB-yə daxil olmaqla heç nə uduzmuruq. Əksinə, MDB-yə daxil olmaq Azərbaycanın iqtisadi inkişafı üçün müəyyən bir şans verir. Bundan başqa, bu Azərbaycana imkan verir ki, MDB-yə üzv olan ölkələrə Ermənistanın təcavüzkarlığı haqqında məlumatlandırsın".

Həmin səfər çox əhəmiyyətli rol oynadı və Azərbaycan Respublikası Prezidentinin dərin təfəkkürü, onun qeyri-adi erudisiyası və yüksək intellekta malik olması, praqmatizmi, fenomenal yaddaşı, həmçinin öz ölkəsinin işıqlı gələcəyinə olan sarsılmaz inamı, Türkiyə ictimaiyyətini psixaloji cəhətdən son dərəcə heyrətləndirdi.

Dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, respublikada tam siyasi sabitliyə nail olan Prezident Heydər Əliyevin fəaliyyəti nəticəsində investisiya və kapital qoyuluşlarını tənzimləyən normativ aktların Milli Məclisdə qəbul olunması Azərbaycan Respublikasında türk kapitalının qoyuluşu üçün müəyyən bir zəmin yaratdı.

Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı (1995-ci ilin dekabrı), respublika Prezidenti Heydər Əliyev Azərbaycan və Türkiyə biznesmenləri qarşısında çıxış edərək və Türkiyənin işgüzar dairələrinin nümayəndələrinə müraciət edərək: "Mən sizi Azərbaycanın kənd təsərüfatına və sənayesinə sərmayə qoymağa çağırıram. Mən sizin bütün çətinliklərinizi başa düşürəm. Lakin buzu sındırmaq, bürokratiya maneələrinə qalib gəlmək və gələcəyə baxmaq lazımdır."

Bu çağırış Azərbaycana türk sərmayəsinin qoyulmasında həlledici rol oynadı və Azərbaycan-Türkiyə birgə müəssələrinin sayı qısa müddət ərzində 1400-ə çatdı. Respublika rəhbərliyinin düzgün və düşünülmüş siyasəti nəticəsində, türk biznesmenləri Azərbaycan iqtisadiyyatına iri həcmli sərmayələr qoymağa başladılar (Beynəlxalq Neft Konsorsiumunda Türkiyənin iştirakı, Azərbaycan-Türkiyə birgə bankının açılışı, "Baybanka", "Koka-Kola" istehsalı üzrə zavod, pambığın və yunun emalı üzrə böyük birgə müəssələrin açılması və.s).

Buna baxmayaraq, etiraf etmək lazımdır ki, Mərkəzi Asiya respublikalarına qoyulan türk sərmayələrinin həcmi, Azərbaycan Respublikasına qoyulan türk sərmayələrinin həcmindən yüksək idi.

Bütövlükdə, Azərbaycan-Türkiyə əlaqələrinin hazırkı vəziyyətini müsbət qiymətləndirmək olar.

Türkiyənin Xəzərdə neft yataqlarının istismarı üzrə Beynəlxalq Konsorsiuma və "Əsrin Kontraktı" (1994-cü il sentyabr) adlanan neft kontraktına daxildir. Bu Azərbaycan və Türkiyə arasında ikitərəfli münasibətlərin dərinləşdirilməsi və inkişafında mühüm hadisə oldu. Lakin, tezliklə neft kontraktı imzalandıqdan sonra, Konsorsiumun digər üzvlərinə nisbətən Türkiyəyə kiçik pay düşməsi haqqında Türkiyənin müxalifət partiyalarında və məbuatının müəyyən bir hissəsində xəbərlər yayıldı. Bütün bunlar tərəfləri məsələyə diqqətsiz qoya bilməzdi və bu da onların müfaviq reaksiya vermələrinə gətirib çıxardı. Bu istiqamətdə müəyyən addımlar atıldı. Bunun nəticəsində Bakıya (1995-ci il aprel) Baş nazir T.Çillər gəldi və "Beynəlxalq Neft Konsorsiumunda 1.75%-dən 6.75%-ə qədər Türkiyənin payının artırılması haqqında Saziş imzalandı.

Ölkələrimiz beynəlxalq səhnədə də birgə fəaliyyət göstərir, vahid mövqe nümayiş etdirirlər. Respublikamızın xarici siyasətinin mühim prioritetlərindən biri həm regional planda, həm də dünya miqyasında Azərbaycanın maraqlarına ziyan gətirməyən tərzdə Ermənistan-Azərbaycan münaqişəsinin optimal həllinin axtarışından ibarətdir. Qeyd etmək lazımdır ki, müxtəlif səviyələrdə olan müşavirələrdə, konfranslarda və bütün beynəlxalq forumlarda, həmçinin BMT, ATƏT və İKT kimi təşkilatlarda Türkiyə hər zaman, xüsusilə, Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra, Azərbaycan Respublikasının maraqlarına uyğun olaraq hərəkət edir, Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı Ermənistanın təcavüzünü kəskin olaraq pisləyir, respublikamızın bütün işğal olunmuş ərazilərinin danışıqsız və təxirə salınmadan azad olunmasını, azərbaycan qaçqınlarının öz doğma evlərinə qayıtmalarını tələb edir. Bu minvalla, Türkiyə ilə birgə fəaliyyət sayəsində Azərbaycan beynəlxalq səviyyədə müvəffəqiyyətlərə nail oldu. Şübhəsiz ki, bunları qeyd edərkən, Ermənistan-Azərbaycan münaqişəsinə dair Təhlükəsizlik Şurası Sədrinin 7 bəyanatını və BMT TŞ-nın 4 qətnaməsini, İKT-nin qətnamələrini, ATƏT-in Lissabon və Budapeşt Sammitindəki qətnamələrini və qərarlarını, o cümlədən Lissabon Sammitində ATƏT Sədrinin və ATƏT-in mövqeyini əks etdirərək yekun sənədin və bəyanatın özünə üç başlıca bəndinə daxil edilməsini xüsusi vurğulamaq lazımdır.

Azərbaycan və Türkiyə arasında geniş siyasi əlaqələrin mövcudluğu, onların kordinə edilməsi, münasibətlərimizin genişləndirilməsi və dərinləşdirilməsi, eyni zamanda, bizim regionun gələcəyi sahəsində bütün beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərməyimiz danılmaz bir həqiqətdir və gələcəyə ümidlə baxmağa imkan verir.

Türk birliyinin yaradılmasında da ölkələrimizin birgə səyləri davam etməkdədir. SSRİ-nin tənəzzülündən və keçmiş sovet respublikaları öz müstəqilliklərini əldə etdikdən sonra, vahid məqsədləri həyata keçirmək naminə, Avrasiyada inkişaf, stabillik və təhlükəsizlik sistemi yaratmaq məqsədilə, ümumi tarixə, dilə, dinə və mədəniyyətə malik olan region ölkələri arasında münasibətləri inkişaf etdirmək və təkmilləşdirmək üçün Türkiyə Prezidenti T.Özal təşəbbüslə çıxış etdi və 1992-ci ilin oktyabr ayının 30-31-də Ankara şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə dövlətlərinin başçılarını bu məqsədləri müzakirə etmək üçün bir yerə topladı.

Prezident T.Özalın təşəbbüsü bu dövlətlərin başçıları tərəfindən böyük məmnuniyyətlə qarşılandı və bu Sammit türkdilli region dövlətləri bir masa arxasına gətirdi və yüksək səviyyəli əlaqələrin yaranmasına təkan verdi. Sonralar mütamadi olaraq yüksək səviyyədə keçirilən belə görüşlər tərəfləri biri-birlərinə daha da yaxınlaşdırdı.

Ankarada toplaşmış dövlət başçıları böyük məmniyyətlə, müxtəlif sahələrdə çoxtərəfli və ikitərəfli əməkdaşlığımızın inkişaf etdirilməsi arzusunu təsdiqlədilər. Qeyd etdilər ki, müxtəlif regional və beynəlxalq məsələlərdə mövqelərimizin birbirinə uyğun gəlməsi beynəlxalq təşkilatlarda qarşılıqlı əməkdaşlıq üçün faydalıdır. Sammit iştirakçıları regional əməkdaşlığın bir sıra aspektlərini müzakirə edərək, öz ölkələri arasında sonrakı münasibətlərin dərinəşdirilməsi və inkişaf etdirilməsi üçün zəmin yaratmağı qərara aldılar. Etiraf etmək lazımdır ki, bir sıra qonşu dövlətlərin ehtiyatlı reaksiyalarının birmənalı şəkildə aradan qaldırılmaq, etnik prinsiplər üzrə regional hərbi-siyasi blok yaratmaq üçün faktiki olaraq sıfırdan başlamaq lazım gəlirdi.

Respublikamızın əvvəlki rəhbərliyi tərəfindən buraxılmış ciddi səhv-

lər nəticəsində bəzi ölkələrin Sammitin keçirilməsinə neqativ münasibəti, birgə qəbul olunmuş "Ankara Bəyannaməsində" əks olunmuşdur. Burada Ermənistan-Azərbaycan münaqişəsinə deməк olar ki, toxunulmadı.

Nəticə etibarı ilə, görüş iştirakçıları arasında yeni münasibətlərin yaranması üçün əsil şərait, Prezident Heydər Əliyevin iştirak elədiyi və İstanbul şəhərində keçirilən II Sammitdə (1994-cü il 18-19 oktyabr) öz əksini tapdı. Dövlət başçılarının görüşləri və söhbətləri zamanı beynəlxalq və regional problemlərə, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına dair, fikir mübadiləsinin aparılmasına xüsusi diqqət yetirilirdi. Ankara Bəyannaməsindan fərqli olaraq "İstanbul Bəyannaməsi"nin mətnində "güc vasitəsi ilə sərhədlərin dəyişdirilməsinə yol verməmək" və "BMT TŞ-nın qəbul etdiyi qətnamələrə uyğun olaraq Azərbaycan və Ermənistan arasındakı münaqişənin sülh yolu ilə nizama salınmasının zəruriliyi" maddələri öz əksini tapdı. Fikir mübadiləsi nəticəsində Sammit iştirakçılarının bu məsələ ətrafında baxışlarının eyni olması üzə çıxardı. Beləliklə, erməni-azərbaycan münaqişəsinin nizama salınması probleminə dair Sammit iştirakçılarının mövqelərinin birmənalı olaraq dəyişməsi, Sammit iştirakçıları tərəfindən Azərbaycanın mövqeyinin dəstəklənməsinin üzə çıxması ölkəmizin - onun lideri Heydər Əliyevin uğru oldu.

"Manas" adlı türk eposunun 1000-illik yubleyinə həsr olunmuş türkdilli dövlət başçılarının III Sammiti, Bişkek şəhərində (1995-ci il 28-29 avqust) keçirildi və "Bişkek Bəyannaməsi"nin imzalanması ilə sona çatdı. Sammitdə, iştirakçı dövlətlərinin Prezidentlərinin qəbul etdikləri sənəddə "beynəlxalq münasibətlərdə ATƏT və BMT Nizamnaməsində əks olunan, güc yolu ilə dövlət sərhədlərinin dəyişdirilməsinə yol verilməməsi və ərazi bütövlüyü prinsiplərinə riayət edilməsi, istənilən anda separatizmin meydana çıxmasının qarşısının alınması, BMT TŞ-nın müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycan və Ermənistan arasındakı münaqişənin sülh yolu ilə nizama salınmasının zəruriliyinin təsdiqlənməsi" bir daha vurğulandı.

Əmir Teymurun 660-illik yubleyi münasibəti ilə türkdilli dövlət başçılarının IV Sammiti Daşkənd şəhərində (1996-cı il 21-22 oktyabr) keçirildi. Daşkənd Sammitində qəbul olunmuş Bəyannamənin 15-ci maddəsində deyilirdi: "Dövlət başçıları BMT TŞ-nın müvafiq qətnaməsinə uyğun olaraq Azərbaycan və Ermənistan arasındakı münaqişənin sülh yolu ilə nizama salınmasının zəruriliyini təsdiq etdilər və qeyd etdilər ki, əgər bu münaqişə nizama salınmazsa, dünyada baş verən proseslərə, eyni zamanda regionda təhlükəsizliyin və inamın möhkəmləndirilməsinə zərər gətirəcək".

Etiraf etməк lazımdır ki, Sam-

mitdə iştirak edən dövlət başçılarının mütəmadi olaraq yüksək səviyyədə keçirdikləri görüşlər zamanı, Sammit ölkələri iştirakçıları arasında inteqrasiya prosesinin gücləndirilməsi açıq-aydın nümayiş olundu və regionda demokratik islahatların bərpa olunması təsdiq olundu. Yuxarıda qeyd olunan IV Sammitin əsaslarını təhlil edərək, qeyd etməк lazımdır ki, bu Sammitin təşəbbüskarı Türkiyə hesab olundu, lakin Azərbaycan Respublikası Prezident Heydər Əliyevin başçılığı ilə İstanbul görüşündən başlayaraq, öz mövqeyinin möhkəmləndirilməsində bir çox nailiyyətlər əldə etdi və bu forumun iştirakçıları arasında öz mövqeyini möhkəmlətdi, taleyüklü məsələlərimizin bu forumlardada dəstəklənməsinə nail oldu.

Sonrakı sammitlərdə də bu mövqe daha da möhkəmləndi, siyasi və iqtisadi əlaqələr daha da gücləndirildi.

Beləliklə, Türkiyənin qardaşlıq dəstəyi nəticəsində ölkəmiz beynəlxalq aləmdə tanınmağa, onun haqq mövqeyi dəstəklənməyə başlandı.

Möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının təbirincə desək, **"Türkiyə dövləti bizim xilaskarımız olub. Və qədirbilən Azərbaycan xalqı bunu heç bir zaman unutmayacaq".**

PREZİDENT HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KONSEPSİYASINDA TÜRKİYƏ

Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur...

Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə - Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyev yalnız Azərbaycanın, ümumən azərbaycanlıların rəhbəri deyil, dünyanın gələcəyi üçün məsuliyyət daşıyan böyük ictimai-siyasi xadimdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə dövlətimiz milli dəyərlər üzərində qurulur və millətin dövləti kimi formalaşır. O, xalqımızın dünyada geniş şöhrət qazanmış və tanınmış milli lideridir. Onun başçılıq etdiyi, siyasi komplimentarizm prinsiplərinə əsaslanan siyasətimiz Qərblə yanaşı öz nəzərlərini dil, tarix, din, mədəni baxımdan yaxın olduğu Şərq ölkələrinə yönəldərək, ilk növbədə qardaşımız, dostumuz, həm də yaxın qonşumuz olan Türkiyə ilə sıx münasibətlər qurmağa çalışır.

Onu da deməliyik ki, Türkiyə ilə əlaqələrimizin tarixi çox qədimdir. Eyni kökə, dinə, dilə və mədəniyyətə malik olan xalqlarımız əsrlərlə, min illərlə bərabər olub, sevinci və kədəri birgə bölüşdürmüş, ağır anlarda bir-birlərinə arxa, dayaq olmuşlar. Qədim dövrlərdən mövcud olan qarşılıqlı rəğbət, sevgi-məhəbbət bugünkü dostluğa və qardaşlığa, çoxtərəfli və çoxcəhətli əlaqələrə gətirib çıxartmışdır.

Öz müstəqilliyini qazandıqdan

sonra geostrateji mövqeyinə görə Qərb və Şərq, Şimal və Cənub arasında ideal körpü yaradan, zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycan öz coğrafi mövqeyindən məharətlə istifadə edərək qonşularla - birinci növbədə qardaş Türkiyə ilə əlaqələrimizi qurmağa və möhkəmlətməyə yönəltdi.

Dövlətimizin xarici siyasət konsepsiyasını açıqlayan Prezident Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında aşağıdakıları bildirmişdir: "Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir... Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir" (Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s. 205 - 207).

Prezidentimizin andiçmə mərasimində söylədiyi bu nitq xarici siyasətimiz üçün proqram xarakteri daşıyır və onun müddəaları başqa ölkələrlə yanaşı, Türkiyə ilə də bağlı ardıcıl surətdə həyata keçirilməkdədir.

Heydər Əliyevin rəhbərliyi ilə bütün dövlətlərlə, o cümlədən türk dünyasına məxsus olan dövlətlərlə qonşuluq, dostluq və qardaşlıq münasibətləri bərpa edilərək bəziləri ilə olduqca yüksək səviyyəyə çatdırıldı. Axı türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir...Onda hələ lap uşaqlıqdan türkçülüyə, türklərə və o dövrdə yeganə müstəqil türk respublikası olan Türkiyəyə böyük sevgi və məhəbbət olmuş, bu dövlət onun nəzərlərini həmişə özünə çəkmişdir.

Heydər Əliyev qədim türk torpağı olan Naxçıvanda dünyaya gəlmişdir. O, Türkiyəni bir də ona görə

sevmişdir ki, bütün Türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün Türk dünyasına yollar uzanırdı. Özünü türk hesab edən hər bir şəxs bu ölkənin uğurları ilə sevinir, qüsurları, problemləri ilə mübarizəsində onunla həmfikir olmağa, kömək etməyə çalışırdı. Ona görə də Azərbaycan Prezidenti Türkiyədə baş tutan, xüsusilə də türk dövlət başçılarının görüşlərinə böyük əhəmiyyət verirdi. Əmin idi ki, orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, prezidentlərin ünsiyyəti respublikamızın həm iqtisadi, həm mədəni, həm elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır.

Azərbaycan Prezidenti bu fikri daha da inkişaf etdirib 2-ci Zirvə toplantısında demişdi: «Bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin.»

Heydər Əliyevin gəncliyi 30-cu illərdə hələ Azərbaycanda "türk" sözü qadağan olunan bir dövrdə keçmişdi. Lakin Azərbaycan orta məktəblərində Türkiyə ilə müqavilə əsasında Azərbaycana gəlmiş türkiyəli mütəxəssislərin 20-ci illərdə tərtib etdikləri proqramlar, dərsliklər bu və ya digər dərəcədə qüvvədə idi. Vətənini sevən müəllimlər də vardı... Heydər Əliyev də təhsilini belə bir məktəbdə almış, 30-cu illərin təbəddülatlı ideyalar mühitində böyümüşdü...

Heydər Əliyevdə türkçülük duyğuları gənc yaşlarından orta məktəb şagirdi ikən oyanmışdı. O zaman türkçülüyü əsasən Türkiyəyə yeganə müstəqil türk dövlətinə maraq müəyyən edirdi.

Dövlətimizin başçısı sonralar xatırlayırdı ki, "cocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm, türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət - iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən - indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın, məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi... Ancaq mən "Çalıquşu"nu 13-14 yaşımda oxumuşdum. O məni heyran etmişdi". Heydər Əlliyev daha sonra xatırlayır: "Bir "Çalıquşu" deyil, biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhaq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin əsərləri indi də gözümün qabağındadır. Yəni mənim gənc yaşlarımda bu da təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatdır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım"...

Gələcəyin böyük Azərbaycan və ümumən türk dövlət xadimini Türkiyəyə (həm yaxın, həm də əl çatmayan, uzaq məmləkətə!) hələ ilk gəncliyindən bağlayan hisslər onu həyatının heç bir dövründə, mərhələsində tərk etməmişdi: "... Biz Türkiyə ilə Azərbaycan arasında həyat körpüsünü, Ümid körpüsünü yaradanda da mən bu hissiyatları yaşadım. O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq"... (Nizami Cəfərov. Heydər Əliyev. Bakı,2002. səh. 10 - 12).

Heydər Əliyev ölkəmizin rəhbərliyinə gəldikdən sonra xarici siyasətimizin əsas istiqamətləri, prioritetləri müəyyənləşdirildi, qarşı tərəflər aydınlaşdırıldı, qarşılıqlı münasibətlərin dərinləşərək şəxsi və dövləti münasibətlərə çevrilməsi, dövlətlərarası münasibətlərin bəzi anlarda şəxsi dostluq münasibətlərinə dönməsi mərhələsi başlandı. Buna misal olaraq qeyd etmək olar ki, Heydər Əliyev cənabları və Süleyman Dəmirəl arasındakı hələ Sovetlər dövründə baş verən tanışlıq sonradan möhkəm dostluğa çevrildi və mövcud olan Türk-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə böyük yardım göstərdi. Onu da qeyd etməliyik ki, bu böyük dostluğun əsası Süleyman Dəmirəl Baş nazir kimi 1967-ci ildə (sentyabr ayının ortaları) SSRİ-yə gələrkən onun Bakı ziyarəti zamanı qoyulmuşdu. Ürfan Ülkü özünün "Qızıl ulduzdan hilala" kitabında bu görüşü təsvir etmişdir. O, Əli Həsənovla birgə yazdığı "Süleyman Dəmirəl" adlı kitabında bu ilk görüş haqqında belə yazır: "Bakını ziyarət edərkən Dəmirəl Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinin başına yeni təyin edilən general Heydər Əliyevlə tanış olur. Biri kommunist, digəri anti-kommunist olan, ancaq dilləri, dinləri, irqləri, ürəkləri Türk ürəyi olan bu iki insan arasında dost-

luq qurulur. Ayrı-ayrı və rəqib rejimlərdə olmalarına baxmayaraq onlar bir-birlərini çox yaxşı başa düşmüşdülər.

Aradan 25 il keçdikdən sonra Heydər Əliyev bu tarixi tanışlıq anını belə izah edir: "Baş nazir Süleyman Dəmirəllə Bakıda qarşılaşarkən uzun-uzun saatlar danışdıq və bir-birimizi çox sevdik. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri kimi 25 il sonra Türkiyəni ziyarət edərkən Dəmirəllə yenidən görüşdüm".

Beləliklə, Azərbaycan öz müstəqilliyini elan etdiyi andan Süleyman Dəmirəl hökuməti ölkəmizə böyük dəstək verməyə başlamış, onun simasında türk siyasətçiləri də hər an bizim yanımızda olduqlarını nümayiş etdirmişlər.

Tarix və alınyazısı bu iki insanı Sovt İttifaqı tarixə qovuşduqdan və türk respublikaları öz müstəqilliklərini qazandıqdan sonra yenidən bir araya gətirdi. O tarixi günlərdə ikisinin də bir-biri ilə paylaşacaq çoxlu xatirələri (anısı), ortaq dəyərləri və gələcək ümidləri vardı ki..."(İrfan Ülkü, Əli Həsənov. Süleyman Dəmirəl. səh.121).

Yuxarıda adı çəkilən və Süleyman Dəmirəlin 75 illiyinə həsr olunmuş bu kitaba ön söz yazan Prezidentimiz onu özünün sadiq dostu saymış, sözün əsl mənasında Böyük türklüyü ilə fərqlənən bu tarixi şəxsiyyəti türkçülüyün, türk torpaqlarının və dövlətlərinin misilsiz təəssübkeşi adlandırmışdır. (Yenə orada, səh.20). Yazıda Prezidentimiz xüsusi olaraq qeyd edir ki, 1920-ci ildə biz bir-birimizdən ayrıldıqdan sonra Türkiyənin heç bir dövlət adamı Azərbaycanı ziyarət etməmişdi. 1967-ci ildə həyata keçirdiyi ziyarətlə o, Türkiyə Cümhuriyyətinin qurucusu Ulu Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci sevincimizdir" vəsiyyətinə böyük sədaqət nümunəsi nümayiş etdirmişdir.

Görkəmli alimimiz, Atatürk Mərkəzinin rəhbəri Nizami Cəfərovun yazdığı kimi «...Müşahidələr göstərir ki, Süleyman Dəmirəl Azərbaycan Prezidentinin ən çox qiymətləndirdiyi, hətta özünə qardaş hesab etdiyi türk dövlət başçılarından, dünya ictimai-siyasi xadimlərindən biri (və bəlkə də birincisi)dir. Heydər Əliyevin Süleyman Dəmirələ müraciətən dediyi aşağıdakı sözlər bunu bir daha sübut edir: "Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil dünya birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz".

Heydər Əliyev daha sonra demişdir: "Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan Respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda 25 il bundan öncə siz Türkiyənin Baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz.

Heydər Əliyev Süleyman Dəmirəli "böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi" qiymətləndirmiş, "türk dünyasının, türk dövlətlərinin bir-birinə daha yaxın olması" yolunda hələ çox işlər görəcəyinə əminliyini ifadə etmişdir... *(Nizami Cəfərov. Heydər Əliyev. Bakı, 2002. səh. 37 - 38)*

Heydər Əliyevin Türkiyənin o zamankı Prezidenti Turqut Özalla da yaxın və səmimi münasibətləri olmuşdur. 1993-cü ilin aprelində, Turqut Özal vəfat edərkən onun haqqında özünün aşağıdakı səmimi sözlərini belə ifadə etmişdir: "Mən şəxsən Turqut Özalı 10 ilə yaxın bir dövrdür ki, yaxından tanıyıram. Bizim yaxın münasibətlərimiz, dostluq əlaqələrimiz olub. Mən dəfələrlə onunla görüşmüşəm. Görüşlərimizdə, söhbətlərimizdə həmişə çox yüksək zəka sahibi, çox böyük təcrübəli siyasi, ictimai və dövlət xadimi olduğunun şahidi olmuşuq. Mərhum Prezident hər dəfə bizi çox böyük hörmət və ehtiramla qəbul edib. Türkiyənin Naxçıvana xüsusi münasibətini qeyd etmişdir".

Ölkəmizin başçısı siyasətimizin prioritet istiqamətlərini dəqiqləşdirərkən İKT-yə daxil olan bütün dövlətlərin dəstəyini qazanmağı və sıx siyasi-iqtisadi əlaqələr qurmağı, başda Türkiyə olmaqla türkdilli dövlətlərin siyasi-iqtisadi-mədəni inteqrasiyası proseslərində fəal iştirak etməyi, bütün qonşu dövlətlərlə mehriban münasibətlər yaratmağı ön plana çəkmişdi.

Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev özünün türklük düşüncəsinin ən azı üç tarixi əlamətini açıqlamışdır. Bunlar aşağıdakılardır:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;

2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışılması;

3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

...Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Tür-

kiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "XX əsrin bəşəriyyətə verdiyi böyük dühalardan" saymışdır.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə ilk rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir...

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəllə, Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır.

Onu da xatırlatmaq lazımdır ki, Azərbaycan Şərq və Qərbin arasında yerləşdiyinə görə siyasətimizin təməl prinsiplərindən biri avropalaşma, Şərq və Qərb mədəniyyətlərinin sintezindən ibarət çağdaş mədəniyyət yaratmaq, Şərq və Qərb arasındakı strateji mövqeyimizdən istifadə edərək siyasi, iqtisadi, elmi və mədəni körpü olmaq, Avropaya inteqrasiya olmaqdır. Bunların hamısı isə Türkiyədən başlanır.

Şərq dünyası və onun başçıları ilə Prezidentimizin əlaqələri hələ 70-ci illərdən qurulmağa və formalaşmağa başlamış, ölkəmiz öz müstəqilliyini qazandıqdan sonra isə indiki real konturlarını almışdır.

Ziddiyyətlərlə və qarşıdurmalarla zəngin olan belə bir regionda yerləşən Azərbaycanın dövlət suverenliyini əldə etməsi onun qarşısında maksimum şəkildə milli dövlət maraqlarına cavab verə bilən özünün xarici siyasət doktrinasını hazırlamaq kimi çətin və çoxtərəfli bir vəzifə qoydu. Bu Azərbaycanla etnik, dini və mədəni sahələrdə yaxın olan Yaxın və Orta Şərq ölkələrinə, xüsusilə də Türkiyəyə aiddir.

Regionda yerləşən bütün bu dövlətlərlə yaxın əlaqələr saxlamaq, onları inkişaf etdirib möhkəmləndirmək ölkəmiz üçün çox vacibdir. Öz vacibliyinə və bizim üçün strateji əhəmiyyətinə görə Türkiyə xarici və daxili siyasətimizdə başlıca yerlərdən birini tutur. Onun dəstəyi və mənəvi yardımı gənc Azərbaycan Respublikasının xarici siyasəti üçün çox önəmlidir. Bu siyasətdə Türkiyə çox mühüm, bəlkə də həlledici rol oynayır. Etnik, dil və din cəhətdən bizə çox yaxın olan bu ölkə ilə əlaqələrimiz strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu ölkə dünya birliyi dövlətlərindən birinci olaraq 1991-ci ilin noyabr ayının 9-da Azərbaycanın suverenliyini tanımış, 1992-ci ilin yanvar ayının 14-də isə diplomatik əlaqələrini yaratmış, ən çətin anlarda arxamızda dayanaraq bizə dayaq olmuşdur. Daha bir müstəqil türkdilli dövlətin dünya xəritəsində öz layiqli yerini tutması üçün əlindən gələni edən bu ölkənin rəhbərliyi və xalqı ən böyük minnətdarlığa layiqdir.

Heç vaxt unutmaq olmaz ki, bizim üçün çətin anlarda Türkiyə həmişə Azərbaycanın haqq işini dəstəkləmiş, bəzən öz maraqlarından belə keçərək bizə yardım əlini uzatmaq üçün imkanı xaricində olan addımlar belə atmışdır. Onların bizə verdikləri kreditləri, beynəlxalq təşkilatlarda bizi dəstəklədiklərini, Qarabağ probleminin həlli üçün əllərindən gələni etdiklərini, diplomatik nümayəndəliklərimizin açılmasında etdikləri yardımları unutmaq olmaz.

Lakin bu heç də bizim dövlət maraqlarımızın Türkiyənin dövlət maraqları ilə tam şəkildə üst-üstə düşdüyünə dəlalət etmir. Bir şeyi yaddan çıxartmaq olmaz ki, Türkiyə müstəqil dövlətdir və onun öz maraqları var. Dünya siyasətinin bir çox problemləri üzrə mövqelərimizin üst-üstə düşməsinə baxmayaraq, onlarda ziddiyyətli anlar da mövcuddur. Müstəqilliyə yenicə qədəm qoyan gənc dövlətimizin xarici siyasət konsepsiyasını yaradarkən anlaşılmazlıqlara və münasibətlərin korlanmasına yol verilməsin deyə bunlar başa düşülməli, romantik illüziyalar kənara qoyulmalı və xarici siyasətimizdə nəzərə alınmalı idi. Bazar iqtisadiyyatına keçid mərhələsində Türkiyənin iqtisadi inkişaf modelinin Azərbaycanda tətbiqi, Türkiyənin işgüzar dairələrilə Azərbaycanın özəl sektoru arasında təmasların yaradılması, Azərbaycana Türkiyənin maliyyə potensialının cəlb olunması əlaqələrin inkişaf etdirilməsi istiqamətində böyük rol oynamışdır. Türkiyənin aparıcı ölkələr və ABŞ ilə münasibətləri, Qərb bazarının Azərbaycan üçün açılması, Qərb kapitalının Azərbaycana cəlb olunmasında da əhəmiyyətli faktorlardan olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasını birmənalı şəkildə dəstəkləyən Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolunda atdığı diplomatik addımlar, BMT, ATƏT, NATO və İKT kimi beynəlxalq təşkilatlarda bu məsələyə daha obyektiv mövqenin formalaşmasına təsir göstərmişdir. Əməkdaşlığın ilk illərindən başlayaraq, iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmış, bir çox sahələrdə saziş, protokol və müqavilələr imzalanmışdır. 1992-ci ilin avqust ayından Ankarada Azərbaycan Respublikasının Səfirliyi, 1993-cü ildən isə İstanbulda Baş Konsulluğu fəaliyyət göstərir. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Bu dövlət regionda və dünyada ən yaxın dostumuz, ən böyük və qüdrətli müttəfiqimizdir. Buna görə də yuxarıdakıları nəzərə almaqla yanaşı, dostluğumuzu və müttəfiqliyimizi qoruyub saxlamaq, daha da gücləndirmək diplomatiyamızın əsas məqsədlərindən və vəzifələrindən biridir.

Heydər Əliyev 1991-ci ildə Naxçıvana gəldikdən və onun rəhbərliyi-

nə seçildikdən sonra Türkiyə ilə əlaqələr köklü şəkildə dəyişdi və böyük bir canlanma baş verdi. O dövrdə müdrik rəhbərimiz bu əlaqələri daha çox Azərbaycanın xarici siyasətinin tərkib hissəsi kimi görürdü. O, özünün 16 sentyabr 1992-ci il Ali Məclisin sessiyasındakı çıxışında qətiyyətlə bildirmişdi ki, **"Naxçıvanın İran və Türkiyə ilə əlaqələri Azərbaycanın İran və Türkiyə ilə əlaqələrinin tərkib hissəsidir... Bunlar hamısı Azərbaycanın xarici siyasətinin hissələridir"**

1991

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən ilk gündən Muxtar Respublikanın qayğıları və problemləri ilə məşğul olmağa başlamış, bunun üçün bir çox vasitələrə əl atmış, ölkəmiz və Naxçıvan ətrafında olan bütün blokada növlərini dağıtmağa, kənarlaşdırmağa çalışmışdır. Ən başlıcası isə o informasiya blokadasının dağıdılması üçün hər bir kiçik fürsətdən istifadə etmişdir. Qardaş Türkiyədən 1991-ci ilin oktyabr ayında gələn ilk informasiya qaranquşlarının - Türkiyənin "Zaman" qəzetinin Azərbaycan üzrə müxbiri Yılmaz Poladın və Mərmərə Eyitim və Kültür Vəkfinin Azərbaycandakı təmsilçisi Hilmi Öneyni Muxtar Respublikaya gəlməsini eşidən kimi onları qəbul etmiş, onlarla 50 nəfər gəncin Türkiyə universitetlərinə göndərilməsi, Naxçıvan şəhərində açılacaq kollec, eləcə də təhsil və mədəniyyət sahəsində görüləcək müştərək işlər barəsində müzakirələr aparmışdır.

Heydər Əliyev "Zaman" qəzeti üçün müsahibə vermiş və bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Türkiyə ilə əlaqələrə böyük ümid bəsləyir. İnanırıq ki, Türkiyə Cümhuriyyəti bizə iqtisadi böhrandan çıxmaqda da kömək edəcək.

Onun bu sözləri qardaş Türkiyədə bir çağrışa çevrilmiş və artıq 1991-ci il oktyabrın 12-də Naxçıvan elektrik enercisi ilə təchizatını təmin etmək məsələlərini öyrənmək üçün bir qrup türk mütəxəssisi Naxçıvan şəhərinə gəlmişdir. 15 meqavatt gücündə Almaniyada istehsal edilmiş 7 dizel stansiyasının quraşdırılması və Ağrı şəhərindən Sədərəyədək yüksək gərginlikli elektrik xəttinin çəkilməsi məsələləri müzakirə obyekti olmuş, qonaqları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev şəxsən qəbul etmişdir. Məsələnin tezləşdirilməsini onların qarşısına bir vəzifə kimi qoymuşdur.

Oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ali Məclisinin Sədri Heydər Əliyev respublikanın blokadadan çıxarılması yolunda görülən tədbirlərdən danışmış və bildirmişdir ki, o, sessiyaya Türkiyədən və İran İslam Respublikasından gəlmiş qonaqları dəvət etmişdir ki, onlar Muxtar Respublikanın vəziyyəti ilə yaxından tanış ola bilsinlər və Məclisdə qoyulan məsələləri öz ölkələrinin rəhbərlərinə çatdıra bilsinlir. Heydər Əliyev qonaqların Ali Məclisin sessiyasında iştirak etməsinin Türkiyə və İranla əlaqələrimizin genişləndirilməsinə kömək edəcəyinə əmin olduğunu qətiyyətlə bildirmişdir.

Ancaq vəziyyət ağır olaraq qalmaqda idi. Çünki Türkiyə ilə birbaşa əlaqə saxlamaq imkanından Naxçıvan məhrum idi. Bütün əlaqələr İran vasitəsilə saxlanılır, gətirilən mallar İrandan keçirilərək gətirilirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisin sessiyasında Ali Məclisinin Sədri Heydər Əliyev bunları nəzərə alaraq Türkiyə ilə əlaqələri sürətləndirmək və nəqliyyat vasitələrinin birbaşa gedib-gəlməsi üçün tədbir görülməsi barədə məsələ qaldırdı. Və onun birbaşa rəhbərliyi və tapşırıqları əsasında 1991-ci il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərində müvəqqəti körpü salındı. Nəhayət, müvəqqəti olsa da Türkiyə ilə birbaşa quru yol əlaqələri yaradıldı. Bu əlaqələrimizi yaratmaq və canlandırmaq üçün Heydər Əliyev tərəfindən atılan ilk müvəffəqiyyətli addımlardan biri idi. Onu da demək lazımdır ki, müvəqqəti körpünün açılışı zamanı hər iki tərəfdən on minlərlə insan iştirak etmişdi.

70 illik sərt sərhəd rejimi, sərhəd boyunca çəkilmiş iki-üç cərgəli tikanlı məftil hasar insanları sərhədin o biri tərəfində yaşayan qohumları ilə əlaqə saxlamaq imkanından, normal ünsiyyətdən məhrum etmişdi Körpünün açılması insanlarda o qədər böyük əhval-ruhiyyə, sevinc yaratmışdı ki, onların bir hissəsi çayın o tayında yaşayan qohum-əqrəbaları ilə görüşmək üçün Türkiyəyə, bir hissəsi isə Azərbaycana keçmişdi. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Bakı şəhərindən gəlmiş Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri çıxış etmişdilər.

Azərbaycanla Türkiyə arasında müvəqqəti körpünün açılması böyük fərəhləndirici hadisəyə çevrilmişdi. Körpünün istifadəyə verilməsi ilə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında iqtisadi və mədəni əlaqələr yeni mərhələyə qədəm qoymuşdu.

Artıq noyabrın 9-da həmin körpü vasitəsi ilə Muxtar Respublikaya Türkiyənin "Qızıl Ay" cəmiyyətinin xətti ilə ilk yardım - 126 ton ərzaq gətirilmişdi.

Bununla əlaqədar Qars vilayəti valisinin vəkili İsmət Bahadırlar başda olmaqla Naxçıvana gəlmiş nümayəndə heyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdi.

Heydər Əliyev Türkiyə tərəfindən göstərilən humanitar yardım üçün Türkiyə Cümhuriyyətinə və xalqına dərin təşəkkür etmiş və hər

iki tərəf arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsindən razı qaldığını bildirmişdi.

Burada Heydər Əliyev Türkiyə nümayəndə heyəti ilə birlikdə gəlmiş müxbirlərin suallarına ətraflı cavablar və Türkiyə televiziyası üçün müsahibə vermişdi.

Bundan sonra da ölkələrimiz arasındakı yüksək səviyyəli əlaqələr daha da genişlənmiş, artıq noyabrın 20-də Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Qars əski millət vəkili Səbri Araz, iş adamları Sönməz Qaradağ və Zəfər Qaradağ Naxçıvana gəlmiş, Muxtar Respublikanın Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişlər. Qonaqlar Prezident Turqut Özal və Baş nazir Məsud Yılmazın səmimi salamlarını çatdırmış, Türkiyədə Azərbaycana və Naxçıvana böyük maraq göstərildiyini bildirmişlər. Göstərmişlər ki, Naxçıvan son vaxtlar Azərbaycanda gedən bütün demokratik dəyişikliklərin təşəbbüskarı və təkanvericisidir. Ona görə də biz Naxçıvanı Azərbaycanın qan damarı, nəfəs borusu hesab edirik. Naxçıvanlılar Heydər Əliyevin başçılığı ilə mübarizə aparmağı, öz haqlarını tələb etməyi bacarırlar. Bu, əsl türk xasiyyətidir, türk mərdliyidir.

"Həsrət körpüsü"nə ermənilər də can atırlar. Türkiyə ilə Ermənistan arasında körpü salmaq istəyirlər. Lakin Qarsa, Qarabağa, Naxçıvana göz dikən ermənilərlə heç bir əlaqə yaratmaq olmaz. Başqa ölkələrdə türklərə qarşı terrorçuluq edənlərə heç bir rəğbət ola bilməz.

Heydər Əliyev Naxçıvanın Azərbaycanın qan damarı, nəfəs borusu olması fikirləri ilə razılaşaraq bildirmişdir ki, bu sözləri yalnız Naxçıvanı ürəkdən sevənlərin dilindən eşitmək olar. Yeni salının körpünün "Könül körpüsü" kimi adlandırılmasının da bizim ürəyimizdən olduğunu söyləmişdir.

Heydər Əliyev demişdir ki, indiki şəraitdə xalqın fikrini bilmək, duymaq çox zəruridir. Bunun üçün isə həmişə xalqın içində olmaq lazımdır. Mən öz xalqımı yaxşı tanıyıram. Çünki özümü heç vaxt ondan ayrı hiss etməmişəm. Həmişə xalqın içində olmuşam. Bizim xalq isə düzgünlüyü sevən, öz haqq işi uğrunda mübarizə aparan xalqdır. Nə gizlədək, 70 il ərzində bəzi yerlərdə adamlar o qədər mütiləşiblər ki, onlar xəyallarına belə gətirə bilmirlər ki, insan öz haqını döyüşə-döyüşə ala bilər. Çox yaxşı haldır ki, naxçıvanlılar bu işdə nümunə göstərirlər. Bildiyiniz kimi, Azərbaycan öz müstəqilliyini elan edib, Türkiyə bu müstəqilliyi tanıyıb və bunun üçün mən sizə, Türkiyənin Prezidentinə və Baş nazirinə öz minnətdarlığımı bildirirəm. Onu da qeyd etmək istəyirəm ki, bu müstəqillik də Naxçıvanda başlayıb. Bu ilin mart ayında Sovetlər birliyinin tərkibində qalmaq üçün referendum keçirildi. Lakin naxçıvanlılar qəti olaraq bildirdilər ki, biz bu birliyin tərkibinə girməyəcəyik. Sonrakı hadisələr bi-

zim haqlı olduğumuzu dönə-dönə göstərdi. Tək Azərbaycan deyil, keçmiş imperiyanın tərkibində olan respublikaların əksəriyyəti öz müstəqilliklrini elan etdilər.

Heydər Əliyev demişdir ki, mən Kommunist Partiyasının liderlərindən biri olmuşam. Lakin həmişə öz xalqımın keçmişini, bu gününü və gələcəyini düşünmüşəm, ona xidmət etmişəm. İstər Azərbaycanın rəhbəri olarkən, istərsə də Moskvada yüksək rəhbər vəzifədə işləyərkən həmişə bizə qarşı ögey münasibət bəslənildiyini görmüşəm. Avropa ideoloqları, rus millətçiləri türk xalqını parçalamaq üçün pantürkizm, turançılıq ideyalarını ortaya atmışlar. Xalqımızın ən böyük oğulları bu ideyaların qurbanı olmuşlar. Azərbaycan xalqının böyük oğlu, türk aləmi üçün ən böyük şəxsiyyətlərindən biri olan Hüseyn Cavid də bu bədnam ideyanın qurbanı olub. Bizim Türkiyə ilə yaxınlşmağımızı rus imperiyası çox təhlükəli hal kimi qiymətləndirirdi. Siz çox düzgün olaraq qeyd etdiniz ki, Berlin divarı sökülərək almanların birləşməsinə şərait yaradıldığı halda, nə üçün türk xalqları arasında yaxınlaşmanı çox təhlükəli sayırlar? Bunun cavabı aydındır. Bədxahlarımız xristianlığı müsəlmanlığa qarşı qoyurlar.

Bütün bunlara qarşı durmaq üçün biz birləşməliyik. Qars müqaviləsi bu işdə çox böyük əhəmiyyət kəsb edir.

Dörd ildir ki, ermənilər Azərbaycana qarşı torpaq iddiası edirlər. Halbuki, bizim onlara qarşı böyük torpaq iddialarımız olmalıdır. Azərbaycanın 114 min kvadrat kilometr ərazisindən indi cəmi 86 min kvadrat kilometr qalmışdır. 28 min kvadrat kilometr torpağımız əldən gedib. Lakin Azərbaycanın Prezidenti Moskvada çıxış edərək deyir ki, bizim Ermənistana qarşı heç bir torpaq iddiamız yoxdur. Bəs Azərbaycanın qədim torpaqları olan Zəngəzuru, Göyçəni biz necə unuda bilərik? Vəziyyəti belə görən həyasızlaşmış ermənilər indi gözlərini Qarabağa, Naxçıvana dikiblər. Mən 14 il Azərbaycanın rəhbəri olmuşam. Lakin həmin müddətdə bir qarış da olsun Azərbaycan torpağı ermənilərə verilməyib. Lakin sonralar bu proses yenə də davam edib. İki il bundan qabaq Sədərək rayonundakı Kərki kəndi də ermənilər tərəfindən ilhaq edildi. Lakin o kəndi geri qaytarmaq üçün Azərbaycan rəhbərliyi heç bir iş görmür.

Ermənilərin Türkiyəyə qarşı olan torpaq iddialarına toxunaraq göstərmişdir ki, onlar öz ərazilərini Şərqi Ermənistan, türk torpaqlarını isə Qərbi Ermənistan adlandırır və bunu bütün dünyaya yayırlar. Çox təəssüf ki, siz buna lazımi əhəmiyyət vermirsiniz. Siz ermənilərin türklərə qarşı olan qatı düşmənçiliyini bizimki qədər hiss etmirsiniz. Artıq 30 ildir ki, ermənilər guya türklər tərəfindən ermənilərin "soyqırımı" gününü qeyd edirlər. Hələ o vaxtlar Ermənistanda yaşayan azərbaycanlılar

həmin gün evdən bayıra çıxa bilmirdilər. Onları türk - düşmən adlandıraraq hədələyirdilər. Deyirdilər ki, siz o türklərin nəvələrisiniz. Bax, Azərbaycan belə bir təcavüzkar dövlətlə üz-üzə dayanıb.

Türklərə qarşı heç vaxt qatı düşmənçiliyini gizlətməyən ermənilər indi çətin vəziyyətə düşdüklərindən sizin insanpərvərliyinizdən istifadə etməyə çalışırlar. Onlar Türkiyə vasitəsilə Avropaya və dünyanın başqa qitələrinə yol açmaq fikrindədirlər. Lakin ermənilərin yağlı dilinə heç cür inanmaq olmaz. Bu vasitələrlə onlar öz azğınlıqlarını daha da genişləndirmək istəyirlər. Siz buna qətiyyən imkan verməməlisiniz.

Heydər Əliyev və Səbri Araz bu görüşdə, aparılan fikir mübadiləsindən razı qaldıqlarını demiş və əmin olduqlarını bildirmişlər ki, inkişaf etməkdə olan əlaqələr, münasibətlər daha da möhkəmlənəcək.

Bu müddətdən sonra da Türkiyə Cümhuriyyətinin Muxtar Respublikaya humanitar yardımı davam etmişdir. Noyabrın 29-da Türkiyənin İqdır şəhəri əhalisinin və valiliyinin naxçıvanlı qardaşlarına göndərdikləri ərzaq məhsulları 19 yük maşını ilə Muxtar Respublikaya gətirilmişdir.

Bununla əlaqədar Naxçıvana gəlmiş İqdır Bələdiyə idarsinin rəisi Əli Ağrını və Türkiyənin digər nümayəndələrinin Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Qonaqlarla söhbət zamanı Heydər Əliyev demişdir ki, Azərbaycanın, o cümlədən, Naxçıvan Muxtar Respublikasının əhalisi o tayın türk qardaşlarının yardımını ən əvvəl mənəvi yardım kimi qiymətləndirirlər. Çünki bu yardım Arazın hər iki tərəfindəki qardaşların görüşməsi, yaxınlaşması üçün bir vasitədir.

Ali Məclisin Sədri demişdir ki, qədim Naxçıvan sakinləri, bizim babalarımız, atalarımız, analarımız ayrı-ayrı vaxtlarda bizdən də çətin vəziyyətdə yaşayıblar və bütün çətinliklərdən mətanətlə çıxıblar. Çünki onlar öz diyarlarını həmişə ürəkdən sevmiş, onu qoruyub saxlamış, öz mərdliklərini nümayiş etdirmişlər. Ona görə də indiki çətinliklər bizi o qədər də narahat etmir. Əsas narahatçılığımız azad olmaqda, özümüzü azad bir millət kimi, azad bir xalq kimi bütün dünyada tanıtmaqda idi ki, biz də buna get-gedə nail oluruq. Bunun üçün bizim "Həsrət körpüsü", türk qardaşların isə "Könül körpüsü" adlandırdıqları körpü mühüm rol oynayır. Bu körpünü haqlı olaraq Azərbaycandan Şərqə açılan qapı adlandırırlar. Məhz buna görə də həmin körpü tikmək, iki sahili birləşdirmək bizim üçün başlıca məqsəd idi. Bundan sonra bir-birimizə gediş-gəliş artacaq, turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaranacaq. Göründüyü kimi, bu yardım kampaniyası olmasaydı, Türkiyədən bura belə axın da olmazdı. Bu yardım üçün mən bütün naxçıvanlılar adından sizə və sizin şəxsinizdə türk qardaşlarımıza bir daha öz dərin

minnətdarlığımı bildirirəm.

16 dekabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi altında ilk dəfə olaraq hər ilin 31 dekabrını Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan edilmişdir.

Dəfələrlə tarixi ədalətsizliyə məruz qalan, iqtisadi, siyasi və mədəni bütövlüyü, milli dövlət qurumu ləğv edilən, Azərbaycan türkləri müstəqillik və bütövlük yolunda mübarizələrini dayandırmadıqlarının rəmzi kimi, milli dövlət quruculuğu, milli və mənəvi bütövlük naminə bu günü həmişə qeyd etməyi ilk dəfə olaraq qərara almışlar.

Məclis göstərmişdir ki, sərhədlər söküldükdən sonra ilk dəfə olaraq Arazın o tayında, bu tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il dekabrın 31-i Dünya Azərbaycan türklərinin həmrəyliyi bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real nəticəsi kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü. Bütün bunları nəzərə alan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərar qəbul etdi. Bu tarixi qərar aşağıdakı kimidir:

1. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.

2. **31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü** kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.

3. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.

4. Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan EA Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününə həsr olunmuş elmi konfrans keçirsinlər.

5. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və onların ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

Bu qərarın dünya Azərbaycan

türklərinə çatdırılması təmin edilsin.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında qəbul edilən bu tarixi qərarla Dünya Azərbaycanlılarının birləşdirilməsi yolunda olduqca mühüm bir addım atıldı.

1992

Xalqımız özü ağır vəziyyətdə belə olsa da, qardaşlarına onların çətin günündə təskinedici söz deməyi, əlindən gələn köməyi etməyi bacarır.1992-ci ilin fevral ayının 1-də Türkiyədə baş vermiş qar uçqunu nəticəsində 200-ə yaxın adam həlak olarkən buna naxçıvanlılar da çox təəssüflənmişdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu faciə ilə əlaqədar fevralın 3-də Türkiyə Cümhuriyyətinin Prezidenti T.Özala telefonla zəng etmiş, Naxçıvan parlamenti, Muxtar Respublika əhalisi adından T.Özal cənablarına, bütün türk xalqına, həlak olmuş qardaşlarımızın ailələrinə baş sağlığı vermişdir. Elə həmin gün Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəl cənablarına rəsmi başsağlığı teleqramları göndərilmişdir.

Telefon söhbəti zamanı Baş nazir Süleyman Dəmirəl Araz çayı üzərindən salınan körpünün tikintisini sürətləndirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçiriləcəyinə söz vermişdir. Bu məsələ ilə bağlı Ali Məclisin Sədri Heydər Əliyev Baş nazir Süleyman Dəmirələ xüsusi məktub da göndərmişdir. Baş nazir Süleyman Dəmirəl həmçinin bildirmişdir ki, bu yaxınlarda Türkiyənin Naxçıvanla həmsərhəd rayonu Aralığa gəlmək fikrindədir və orada olan zaman Ali Məclisin Sədri Heydər Əliyevlə görüşmək istərdi.

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Naxçıvanda Baş konsulu Orxan Ərtoğruloğlunu onun xahişi ilə qəbul etmişdir.

Orxan Ərtoğruloğlu iki ölkə arasında qarşılıqlı maraq doğuran bəzi məsələlərə toxunmuş, Baş konsulun fəaliyyəti üçün yaradılan şəraitdən danışmışdır. Orxan Ərtoğruloğlu eyni zamanda bildirmişdir ki, Türkiyə Cümhuriyyəti bu həftənin sonundan başlayaraq humanitar yardım kimi Naxçıvan Muxtar Respublikasına 22 min ton mazut göndərəcəkdir. Muxtar Respublika rəhbəri ilə söhbətdə yardımın mənzil başına çatdırılması yolları müzakirə edilmişdir.

Heydər Əliyev Naxçıvanda olarkən belə ölkəmiz üçün əlindən gələni əsirgəməmiş, öz kömək və dəstəyini göstərmişdir. O qarışıq zamanda 97 nəfər Azərbaycan vətəndaşının Gürcüstan sərhədində qaldığını və çətinliklər çəkdiyini eşidən kimi dərhal tədbirlər görməyə başlamışdır. 1992-ci il martın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl ilə telefonla əlaqə saxlamış, Azərbaycan vətəndaşlarının Sədərəklə Aralıq arasındakı körpüdən Naxçıvan Muxtar Respublikasına yola salınmasını xahiş etmişdir. Beləliklə də Araz çayı üzərindəki körpü vasitəsilə 97 nəfər Azərbaycan vətəndaşının Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına gəlişinin təmin edilməsində gərəkli yardım göstərmişdir.

Heydər Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmişdir ki, Azərbaycanın qalan hissəsindən ayrı düşmüş, Ermənistanın ərazisi ilə əhatə olunmuş Naxçıvan Muxtar Respublikası çətin vəziyyətdədir. İqtisadi və kommunikasiya blokadası şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına humanitar yardım edilməsi günün ən vacib məsələlərindəndir.

Heydər Əliyev dəfələrlə bildirmişdir: **"Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxandan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk-islam dünyasına bir qapıdır".**

Elə bu qapını da Heydər Əliyev öz əlləri ilə açdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyev 1992-ci il martın 22-dən 24-dək Türkiyə rəhbərliyinin xüsusi dəvətilə ilk dəfə Türkiyəni ziyarət etdi.

Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxın qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı əməkdaşlıq protokolu imzalandı. Səfər zamanı Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələr nəzərə alınaraq hər sahədə daha yaxın əməkdaşlıq təşkil edilməsi ilə bağlı məsələlər müzakirə edilmiş, həm də məşhur Ankara Əməkdaşlıq protokolu imzalanmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi qarşılayan Süleyman Dəmirəl öz çıxışında bildirmişdi ki, hörmətli Heydər Əliyev dünya siyasətində möhtərəm bir şəxsdir. Keçmiş Sovet İttifaqında və Azərbaycanda yüksək dövlət işlərində çalışmışdır.

Naxçıvan bizim qonşumuzdur, əhalisi türkcə danışır. Türkiyə Cümhuriyyəti başlanğıcında, yəni Şərq tərəfində yerləşən Naxçıvan Muxtar Respublikasının statusunda bir dəyişiklik meydana gələrsə, müqaviləyə əsasən, burda Türkiyə öz sözünü deməlidir. Keçmiş Sovet İttifaqında meydana gələn dəyişikliklərin bir nümunəsi kimi Naxçıvanda əmələ gələn dəyişikliklərə Türkiyə birbaşa öz münasibətini bildirməlidir. Faktiki olaraq Türkiyə Naxçıvanın statusunda əmələ gələcək dəyişikliklərdə öz sözünü deməlidir.

Heydər Əliyevi Türkiyədə gör-

məkdən məmnunluğunu bildirən Süleyman Dəmirəl göstərmişdir ki, biz onunla Naxçıvanda və Azərbaycanda olan vəziyyətlə əlaqədar görşürük. **Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə ona borcludur. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük bir iş kimi qiymətləndirirəm. Azərbaycanda da sabitlik axtarırıq və ümid edirik ki, bu yaxınlarda** Azərbaycanda da siyasi sabitlik olacaq. Azərbaycan və Ermənistan arasında olan ixtilaf beynəlxalq zəmindədir. Bu zəmin əsasında əvvəlcə ölkənin daxili məsələsini həll edirlər. Odur ki, qardaşlarımıza deyirik: bu sabitlik təmin ediləcək. Bildiyiniz kimi, Ermənistan ilə Azərbaycan arasında olan münaqişədə əsas yeri Qarabağ tutur. Qarabağdakı türklər Qarabağdan qovulub çıxarılmış, Qarabağ türklərinə çoxlu əziyyətlər verilmiş, onlara qarşı vəhşiliklər edilmişdir. Bunlar bizi burada çox narahat edir. Bütün bunlar türk xalqını da, türk hökumətini də, türk dövlətini də narahat edir. Azərbaycan hadisəsi günümüzün mühüm fövqəladə mövzusudur.

Naxçıvanın isə bir sıra iqtisadi çətinlikləri var. Bu iqtisadi çətinlikləri aradan qaldırmaq üçün, ehtiyacları ödəmək üçün onlara kömək edəcəyik.

Çox dəyərli qardaşımı Türkiyədə görməklə məmnun və xoşbəxt olduğumu bir daha təkrar bildirmək istəyirəm.

Dəvətə görə təşəkkürünü bildirən Heydər Əliyev Ankarada, Türkiyədə özünü öz məmələkətimdəki kimi hiss etdiyini söyləmiş, Naxçıvan haqqında deyilən sözlərin onu çox həyəcanlandırdığını və sevindirdiyini xüsusi olaraq qeyd etmişdir. Demişdir ki, Naxçıvanın xüsusi bir statusunun olması, Türkiyənin Naxçıvan üçün zamin bir dövlət olması 70 il bundan əvvəl bağlanmış müqavilələrdə öz əksini tapıb. Ancaq bu statusun həyata keçirilməsi və indi bunun dünyada elan edilməsi Sizin kimi böyük şəxsiyyətə - Türkiyənin Baş naziri Süleyman Dəmirələ nəsib olmuşdur. Mən hesab edirəm ki, Naxçıvan xalqı, bütün Azərbaycan xalqı bundan çox məmnun qalacaq və bu sıxıntılar içərisində özlərini xoşbəxt hiss edəcəklər.

Dəmirəlin sözlərinin Azərbaycanda olan türklər üçün - Azərbaycan xalqı üçün çox lazım olduğunu bildirən Heydər Əliyev Dağlıq Qarabağ probleminin mahiyyətinin - torpaqların zəbt edilməsinin, ermənilər tərəfindən türklərin qovulub çıxarılmasının, kəndlərin dağıdılmasının, yandırılmasının - bunların hamısının birinci növbədə, ilk əvvəl Türkiyə vasitəsilə, Süleyman Dəmirəl kimi böyük siyasi xadimlərin vasitəsilə bütün dünya ictimaiyyətinə çatdırılmasının böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Göstərmişdir ki, indi

Azərbaycan çətin vəziyyətdədir. Türkiyənin açıqca, qorxmadan öz türk qonşusunu qorumaq və ona yardım etmək haqqındakı mühüm sözləri şübhəsiz ki, bütün başqa dövlətlərin rəhbərlərinə və beynəlxalq aləmə təsir edəcək. Mən heç də şübhə etmirəm ki, hörmətli Baş nazir, bütün türk millətini sevən insanların hamısı Azərbaycana yardım edəcəkdir. Azərbaycan türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin bir-birinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir türk respublikası yaxşı istifadə etməlidir. Hər bir türk, yəni, keçmiş Sovet İttifaqında yaşayan hər bir türk. Mən belə hesab edirəm.

İndi üzümü Türkiyəyə - ana Türkiyəyə tuturam. Siz qeyd etdiyiniz kimi, Naxçıvanda türklər yaşayır. Orda başqa bir millət yoxdur. 350 minlik əhalinin hamısı türkdür, hamısı türksevərdir. Türk tarixini, türk millətini, türk mədəniyyətini hamısı sevir. Bu, təsadüf deyil, çünki bunlar hamısı türkdür.

Ancaq 70 il Sovet quruluşunda bu millətin türk adını üstündən götürüb, onları millətini unutdurmağa çalışırdılar. Görürsünüz ki, 70 il az vaxt deyil. Bu dövrdə nə qədər təbliğ olundu ki, siz türk deyilsiniz, ancaq hər bir kəsin qəlbində türk millətinə mənsub olması hissi qaldı və fürsət olan kimi aşkara çıxdı. Bu, Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda daha açıq görsənir. Siz dediyiniz kimi, bütün səbəblərə görə Naxçıvan Ana Türkiyəyə - Anadolu Türkiyəsinə daha çox yaxındır.

İndi bu yaxılığı təmin etmək üçün bizə Sizin fəaliyyətiniz, yardımınız, bizimlə bu cür münasibətləriniz şübhəsiz, böyük şərait yaradır. Biz də Naxçıvanda çalışacağıq ki, bu şəraitdən istifadə edək. Və mən bir daha Sizə təşəkkürlərimi bildirmək istəyirəm. Bu fürsətdən istifadə edib bütün Türkiyədə olan qan qardaşlarıma öz salamlarımı və məhəbbətimi çatdırmaq istəyirəm. **Türkiyədə olan qardaşlarımı əmin etmək istəyirəm ki, Naxçıvanda olan türklər Türkiyənin həmişə dayağı kimi duracaqlar və bundan sonra Sizin yardımınız və köməyiniz vasitəsilə daha da inkişaf edəcəklər.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev öz çıxışında bu günü Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasının həyatında ən mühüm, ən tarixi gün adlandırdı. Göstərdi ki, Naxçıvan 1920-21-ci illərdə Qars, Moskva müqavilələri ilə Türkiyəyə bağlanmışdır.

Naxçıvanın Türkiyə ilə qədimdən çox insani, mədəni, iqtisadi və başqa əlaqələri olmuşdur. Bir sözlə, Naxçıvan qədim türk diyarıdır. Naxçıvanda türklər yaşayırlar.

Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə olmasını bütün naxçıvanlılar üçün böyük bir hədiyyə, böyük bir mükafat olduğunu söy-

lədi. Müqavilənin imzalanmasını tarixi bir sənəd kimi qiymətləndirdiklərini vurğuladı. Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi zaman Türkiyənin Azərbaycan Respublikasına və Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasına belə yaxından münasibət bəsləməsi, bu cür yardım etməsi, əlaqələrimizin yenidən yaradılıb möhkəmləndirilməsini nümayiş etdirdiyini bildirdi. Naxçıvan ilə Türkiyə arasında olan əlaqələri daha da inkişaf edəcəyinə əmin olduğunu qeyd etdi. Göstərdi ki, bu müqavilənin və müqavilədə göstərilən bütün maddələrin, o cümlədən Naxçıvan Muxtar Respublikasına yüz milyon dollar yardım edilməsi məsələlərinin hamısının həm siyasi, həm iqtisadi, həm də mənəvi əhəmiyyəti var. Mən çox bəxtiyaram ki, bu müqaviləni türk millətinin, türk dünyasının ən böyük siyasi xadimlərindən, şəxsiyyətlərindən biri olan hörmətli Süleyman Dəmirəllə imzalamışam. **Qars, Moskva müqavilələri tarixə daxil olduğu kimi, bu da tarixə daxil olacaq. Bütün bizim gələcək nəsillər, bütün türk dünyası, indi yüksəlməkdə olan türk dünyası, birləşmək arzusunda olan türk dünyası bu sənədi də öz tarixində həmişə araşdıracaq və sənədi imzalayanlara, xüsusilə, hörmətli Süleyman Dəmirələ və bütün türk qardaşlarına daim təşəkkürlərini bildirəcək.** Mən, hörmətli Baş nazir, Sizi əmin etmək istəyirəm ki, Sizin bu yardımınızdan çox səmərli, çox faydalı istifadə etməyə Sizə söz veririk və mən deyirdim ki, bu proqram yerinə yetirildikcə Naxçıvanın inkişaf etməsini Siz gördükcə, Naxçıvana öz qayğılarınızı, öz diqqətinizi daha da artıracaqsınız. Hörmətli Baş nazir, mən Sizi Naxçıvana dəvət edirəm. Naxçıvanlılar Sizi Naxçıvan torpağında, qədim türk diyarında görməklə özlərini xoşbəxt hesab edəcəklər. İlk vaxt, bu körpü qurtaran kimi, körpünün açılmasında Sizin iştirakınız bizim Naxçıvan və türk xalqı üçün böyük bir hadisə olar. Sizi Naxçıvana gəlməyiniz, naxçıvanlılarla görüşməyiniz onlar üçün böyük bir hədiyyə olacaq. Sizə şəxsən mənə və yoldaşlarıma, bizim hamımıza göstərilən bütün diqqət və hörmətiniz üçün, bizi bir qardaş kimi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm. Əmin etmək istəyirəm ki, bütün Azərbaycanda yaşayan türklər - Naxçıvan türkləri həmişə Türkiyə ilədir və bütün gələcək həyatlarını Türkiyə ilə bağlayırlar.

Beləliklə, bu səfər nəticəsində 24 mart 1992-ci ildə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ilk müqavilə imzalanmışdı. Bu müqavilənin şərtlərinə görə Naxçıvana 100 milyon dollar kredit veriləcək, Naxçıvan Muxtar Respublikası ilə telefon, televiziya əlaqələrinin yaradılmasını Türkiyə təmin edəcək, hər il 100 nəfər naxçıvanlı tələbə Türkiyə məktəblərində təhsil ala biləcəkdi. Bütün xərcləri də Türkiyə öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında Araz çayı üzərində qurulan körpü bir ay müddətində tikilib istifadəyə verilməsi qərarlaşdırılmışdır. Hava xəttinin açılması, dəmir yolunun çəkilməsi də müqavilədə nəzərdə tutulurdu. Bütün xərclər Türkiyə tərəfindən çəkilməli idi. Naxçıvan Muxtar Respublikasında müxtəlif müəssisələrə kapital qoyulması üçün təşəbbüslərin birləşdirilməsi məsələsi də irəli sürülmüşdü.

Səfərin ən əhəmiyyətli cəhətlərindən biri də o idi ki, Azərbaycanın bir hissəsi olan Naxçıvanın statusunda hər hansı bir dəyişiklik olarsa, Türkiyə bu məsələdə öz sözünü deyəcəyi barədə Baş nazir Süleyman Dəmirəl bəyanat verdi. Və bu bəyanat görüşlərin təntənəsi oldu, onun vasitəsi ilə Türkiyənin Naxçıvanın təhlükəsizliyinin qarantı olduğu bir daha təsdiqləndi ki, bu da ermənilərin Naxçıvandan birdəfəlik gözlərini çəkməsində böyük rol oynadı. Beləliklə də müdrik rəhbərimiz Heydər Əliyevin vaxtında atdığı düzgün addımlar Naxçıvanın və bütöv Azərbaycanın taleyində mühüm rol oynadı. Qardaşlığın və dostluğun bu müqavilə ilə rəsmi bünövrəsi qoyuldu.

Görüşlər zamanı Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə bağlı məsələlərə də toxunulmuşdu.

Söhbət və danışıqlar zamanı Türkiyə tərəfindən Baş nazirin müavini Ərdal İnönü, Xarici İşlər Naziri Hikmət Çetin, Milli Müdafiə naziri Növzat Ayaz, Daxili İşlər naziri İsmət Sezgin, Kənd Təsərrüfatı naziri Nəcməddin Cövhəri, dövlət nazirləri Cavad Çağlar, Ekram Ceyhun, Ömər Barutçu, Türkiyə Parlamentinin deputatı Münaf İslamoğlu iştirak etmişdilər.

Ankarada olarkən Heydər Əliyev Türkiyə Cümhuriyyətinin ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olan Məmməd Əmin Rəsulzadənin qəbirlərinə əklillər qoymuşdu. Ali Məclisin Sədri həmçinin İstanbul, Qars, İqdır şəhərlərinin tarixi abidələri, görməli yerləri ilə tanış olmuş, şəhər rəhbərləri ilə görüşüb danışıqlar aparmışdı.

Ankara Əməkdaşlıq protokolu 4 aprel 1992-ci il tarixdə Ali Məclis tərəfindən təsdiq edilmişdir.

Az keçmədən birgə əməkdaşlıq haqqında protokola uyğun olaraq telefon, faks, teleks kimi xəbər sistemlərinin qısa vaxtda qurulması üçün xüsusi bir proqram hazırlanması məqsədilə Türkiyənin "Teletaş" şirkətinin bir qrup nümayəndəsi Muxtar Respublikaya gəldi. Şirkətin hazırladığı proqramda Naxçıvan Muxtar Respublikasını beynəlxalq telefon rabitəsi ilə təmin etmək üçün burada 3 min nömrəlik mərkəzi avtomat telefon və 200 nömrəlik teleks stansiyalarının, Naxçıvanın Bakı ilə rabitəsinin daha da yaxşılaşdırılması məqsədilə 300 kanalı olan "Peyk" stansiyasının quraşdırılması, Muxtar Respublika ilə Türkiyə arasında ra-

diorele sisteminin kanal sayının 120-yə çatdırılması nəzərdə tutulurdu.

Aprelin 24-də isə Türkiyə Cümhuriyyəti Qars vilayətinin valisi Sıtkı Aslan və Türkiyə elektrik şirkətinin eksperti Tofiq Karasu Naxçıvana gəldilər. Elə həmin gün Qars vilayətinin valisini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etdi.

Heydər Əliyev bu səfəri Türkiyə görüşlərinin davamı kimi qiymətləndirdiyini söylədi. Bildirdi ki, protokolda nəzərdə tutulanların hamısının həyata keçirilməsi Ümid körpüsünün və Qarsın vasitəsilə olacaq. Ona görə də bu iki vilayətin rəhbərlərinin görüşməsi, danışıqlar aparmaları çox mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev vurğuladı ki, Qars müqaviləsi Naxçıvanla Türkiyə Cümhuriyyətinin könül birliyini nümayiş etdirən, Naxçıvanın sərhədlərini müəyyən edən və bunun üçün bir zəmin rolu oynayan müqavilədir. Ona görə də Türkiyə Cümhuriyyəti Naxçıvanı sadəcə qan qardaşları diyarı hesab etməklə kifayətlənməyərək onu Türkiyə ilə sıx tellərlə bağlı bir diyar hesab edir.

Beləliklə, Naxçıvanın blokadasının dağıdılması prosesinin möhkəm əsası qoyuldu və protokol işləməyə başladı. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış iş birliyi protokolunun 8-ci bəndinə uyğun olaraq Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin məsul işçiləri - nazirliyin Meliorasiya İdarəsinin rəisi Qadir Dəmirçi, Bitkiçilik İdarəsinin rəisi Fəhri Harmanşah və Heyvandarlıq İdarəsinin rəisi, doktor Erol Dəmirtel aprelin 21-dən 27-dək Muxtar Respublikaya gəldilər. Onlar Muxtar Respublikanın Şərur, Babək və Şahbuz rayonlarında kənd təsərrüfatının vəziyyəti ilə tanış oldular, Naxçıvan şəhərində kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrdə oldular.

Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev türkiyəli qonaqları qəbul etdi. Qonaqlar Muxtar Respublikada kənd təsərrüfatının vəziyyəti barədə və onun inkişafı üçün görüləcək işlər haqqında məlumat verdilər. Onlar qeyd etdilər ki, Muxtar Respublikanın kənd təsərrüfatının bəzi sahələri yaxşı vəziyyətdədir. Lakin onu bütünlükdə inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirilməlidir və onlar bu işdə lazım olan bütün köməkliyi göstərəcəklər.

Cari ilin payızında Muxtar Respublikaya təcrübədən keçirmək üçün 8 növ müxtəlif taxıl toxumu göndəriləcək. Həmin toxumların səmərəliliyi müəyyən edildikdən sonra Muxtar Respublika üçün kifayət qədər toxum ayrılacaq. Hazırda Muxtar Respublika kənd təsərrüfatının bitkiçilik sahəsində yaranmış gərginliyi nəzərə alaraq Türkiyə tərəfi Muxtar Respublikaya 850 ton göy daş və 5 min ton azot gübrəsi göndərilməsini təşkil edəcək.

Konserv zavodlarında şüşə qab-

TC-GAP

ların çatışmaması ilə əlaqədar 5 milyon ədəd 1 litrlik və 5 milyon ədəd 3 litrlik bankalar da göndəriləcək.

Bundan başqa, Muxtar Respublikada valyuta ilə satıla biləcək dərman bitkilərinin olmasını nəzərə alaraq onların xarici ixracatını təşkil etmək üçün mütəxəssislər göndərilməsi də nəzərdə tutulmuşdur.

Heyvandarlığın inkişaf etdirilməsi üçün də tədbirlər müəyyənləşdirilmişdir. Mexanikləşdirmə sahəsinə də köməklik göstəriləcək. Bu məqsədlə Türkiyə tərəfi Muxtar Respublikaya 1500 ədəd akkumlyator, pres bağlamaq üçün 120 ton ip, 100 min ədəd qayçı, 720 ədəd elektrik motoru, 40 ton elektrod, 10 ton karbid, 40 ədəd 50 at gücündə traktor göndərəcək.

Görüş zamanı Heydər Əliyev Muxtar Respublikada şəkər çuğunduru istehsalının perspektivləri ilə maraqlanmışdır. Qonaqlar qeyd etmişlər ki, Muxtar Respublikanın, xüsusilə, Şərur rayonunun torpağı çox münbitdir. Ona görə də burda şəkər çuğunduru əkinindən yaxşı məhsul götürmək olar. Şəkərlilik dərəcəsi 18-19 faiz olmaqla hər hektardan 500-600 sentner məhsul götürmək mümkündür.

Söhbət zaman Muxtar Respublika kənd təsərrüfatının bir sıra başqa sahələrinin inkişafı məsələlərindən də ətraflı danışılmışdır.

Qarşılıqlı əlaqələr genişlənməkdə davam etmişdir. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl 1992-ci il mayın 2-də Bakıya gəldikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefonla zəng etmişdir.

Baş nazir və Ali Məclisin Sədri arasında mehriban və dostcasına söhbət olmuşdur. Süleyman Dəmirəl Özbəkistana, Qazaxıstana, Qırğızıstana və Türkmənistana səfərləri haqqında öz təəssüratlarından danışmış, Bakı şəhəri sakinlərinin ona göstərdiyi hörmət və ehtirama görə öz razılığını bildirmişdir.

Heydər Əliyev yüksək qonağı Azərbaycana gəlişi münasibətilə salamlamış, Orta Asiya və Qazaxıstan səfərinin müvəffəqiyyətlə keçməsi münasibətilə onu təbrik etmişdir. Sonra Ali Məclisin Sədri Naxçıvandakı vəziyyət haqqında məlumat vermiş, 1992-ci il martın 24-də Ankarada Süleyman Dəmirələ Naxçıvana gəlməsi haqqında təqdim edilmiş dəvəti bir daha xatırlatmışdır.

Süleyman Dəmirəl bu dəvəti məmnuniyyətlə yerinə yetirəcəyini söyləmiş və bildirmişdir ki, may ayının sonunda Türkiyə ilə Azərbaycan arasındakı körpünün açılışı zamanı Naxçıvana gələcəkdir.

Aradan bir az müddət keçdikdən sonra Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefon etmiş və bildirmişdir ki, Amerika Birləşmiş Ştatlarından Türkiyəyə beş təyyarə ərzaq malları və tibbi ləvazimat gəlib və bunların hamısını "Qızıl

Ay" cəmiyyəti vasitəsi ilə Naxçıvan Muxtar Respublikası əhalisinə yardım kimi göndərilməsi qərara alınıb.

Onu da qeyd eləmək lazımdır ki, artıq 1992-ci il aprel ayının 20-dən başlayaraq ərzaq malları və tibbi ləvazimat avtomobillərlə Naxçıvana daşınırdı. May ayının 4-də axırıncı maşınlar Muxtar Respublikaya gəlmişdi.

Bu müddət ərzində Muxtar Respublikaya 258 ton 400 kq ərzaq, 32 ton 800 kq dərman, 6 ton 498 kq tibbi ləvazimat, 4 min ədəd odeyal gətirilmişdi. Bu da o dövr üçün böyük dəstək, böyük qayğı idi.

Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev yardımın Naxçıvana gətirilməsi ilə məşğul olan Türkiyə Cümhuriyyəti "Qızıl Ay" cəmiyyətinin Naxçıvan üzrə Yardım Komitəsinin sədri Şəfəq Lotarı qəbul etmişdir.

Şəfəq Lotar Ali Məclisin Sədri Heydər Əliyevə gətirilmiş yardımlar haqqında məlumat vermiş, səmimi qəbul üçün minnətdarlığını bildirmişdir.

Ali Məclisin Sədri Türkiyə Cümhuriyyəti hökumətinə, Baş nazir Süleyman Dəmirələ, "Qızıl Ay" cəmiyyətinə yardım üçün təşəkkürünü bildirmiş, Naxçıvan əhalisinin salamını və minnətdarlığını Türkiyə xalqına çatdırmağı xahiş etmişdir.

18 may 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisin Rəyasət Heyəti Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il Ankara əməkdaşlıq protokolunun həyata keçirilməsi işlərini təşkil etmək üçün Türkiyə Cümhuriyyətinə nümayəndə heyəti göndərilməsi barədə qərar qəbul etmişdir.

May ayının ortalarında Naxçıvanın Ermənistanla sərhədlərində vəziyyət olduqca gərginləşməyə başlamışdır. Türkiyə hökuməti bu barədə bəyanat qəbul etmiş, Naxçıvanı təcavüzkarlar qarşısında tək qomayacağını bildirmişdir. Bunun əksinə olaraq marşal Şaposnikov da başqa bir bəyanatla çıxış etmişdir. 21 may Azərbaycanın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərinformun müxbiri ilə söhbətində Naxçıvan-Ermənistan sərhədində vəziyyətin kəskinləşməsinin və Türkiyənin buna münasibətinin guya üçüncü dünya müharibəsinə gətirib çıxara biləcəyi ilə bağlı marşal Şaposnikovun verdiyi bəyanatı düşünülməmiş bəyanat adlandırmışdır.

Heydər Əliyev qeyd etmişdir:

- Çox güman ki, marşal Şaposnikov Naxçıvanın statusu haqqında 1921-ci ildə Rusiya ilə Türkiyə arasında imzalanan və hələ heç kimin ləğv etmədiyi Qars müqaviləsini unutmuşdur. Ali Məclisin Sədrinin dediyinə görə, Baş komandan onu da yaddan çıxarmışdır ki, bölgədə Rusiya hərbi birləşmələri var və onlar suveren Azərbaycanın bir hissəsinə

qarşı Ermənistanın təcavüzünü dəf etməkdə Azərbaycan xalqına kömək göstərməkdən boyun qaçırırlar.

Heydər Əliyev bildirmişdir ki, Muxtar Respublika rəhbərliyinin Ermənistanla sərhəddə vəziyyətin inkişafından son dərəcə narahat olduğu və bu vəziyyəti yaxşılaşdırmaq üçün hər şeyi etdiyi bir vaxtda təkcə marşalın düşünülməmiş bəyanatı deyil, bu gün Rusiyanın Dövlət Katibi Gennadi Burbulisin və Müdafiə naziri Pavel Qraçovun Ermənistanda apardığı danışıqlar da təəccüb doğurur. Naxçıvan parlamenti rəhbərinin dediyinə görə, onların Ermənistan Prezidenti Levon Ter-Petrosyanla, ona mötəbər mənbələrdən məlum olan görüşünə jurnalistləri buraxmamışlar. Lakin o əmindir ki, Yerevanda, bağlı qapılar arxasında Türkiyənin Naxçıvandakı hadisələrə münasibəti ilə bağlı məsələlər müzakirə edilir.

Elə həmin gün Naxçıvan Muxtar Respublikasının rəhbəri Heydər Əliyev Londonun "Deyli teleqraf" qəzetinin müxbirinə demişdir: **"Mən hərbi gərginliyin artırılmasının əleyhdarıyam, lakin Ermənistan yenə də bu cür hərəkət etsə, kömək üçün Türkiyəyə müraciət etməkdən başqa çarəm qalmayacaqdır".**

Heydər Əliyev xatırlatmışdır ki, 1921-ci ildə Qarsda imzalanmış müqaviləyə əsasən Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır.

Bölgədə vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə mayın 21-də Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Nazirliyin böyük elçisi Ömər Ərsunun başçılıq etdiyi nümayəndə heyətinin məqsədi Sədərək bölgəsində Ermənistanın torpaqlarımıza davam edən təcavüzünün nəticələri və bununla bağlı Muxtar Respublikada yaranmış vəziyyətlə tanış olmaq idi.

Elə həmin gün böyük elçi Ömər Ərsun və onu müşayiət edən şəxsləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Ali Məclisin Sədri Muxtar Respublikanın Sədərək və Şərur bölgələrinə erməni ordusunun 1992-ci il mayın 18-dən başlamış və bu günədək davam edən silahlı təcavüzü, bu bölgələrdə atəşin dayandırılması ilə bağlı görülən tədbirlər, o cümlədən Ermənistanın rəhbərliyi ilə apardığı telefon danışıqları haqqında ətraflı məlumat vermiş, böyük elçini maraqlandıran suallara cavab vermişdir.

Qəbuldan sonra bu günlər Muxtar Respublikada olan xarici jurnalistlərin böyük dəstəsi üçün mətbuat konfransı keçirilmişdir. Ali Məclisin Sədri müxbirlərin çoxsaylı suallarına cavab vermişdir.

Bu məsələlərlə bağlı Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin geniş iclasını çağırmış, son hadisələrlə bağlı vəziyyət müzakirə olunmuşdur. Əlavə tədbirlər həyata keçirilməsi qərara alınmışdır.

Heydər Əliyev göstərmişdir ki, yaranmış vəziyyətlə əlaqədar biz dünya ictimaiyyətinə müraciət etməli olduq. Bildiyiniz kimi, elə may ayının 18-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl, Xarici İşlər naziri Hikmət Çətin, Baş nazirin birinci müavini Ərdal İnönü Naxçıvana telefon etdilər, lazımi məlumatlar aldılar və o gündən indiyə qədər biz Türkiyənin rəhbərliyi ilə daim əlaqədəyik. Baş nazir Süleyman Dəmirəlin göstərişi ilə böyük elçi Ömər Ərsun başda olmaqla Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndələri bir neçə gündür ki, Naxçıvandadırlar. Biz bir neçə dəfə onlarla görüşmüşük. Bu gün də mən onlarla geniş söhbət etdim. Xarici ölkələrdən, eyni zamanda Rusiyadan bura çoxlu müxbirlər gəliblər və onların vasitəsilə mayın 18-də Naxçıvanda yaranmış vəziyyəti bütün dünya ictimaiyyətinə çatdırırıq. Bunun özü bizim üçün böyük nailiyyətdir. Çünki son dörd il ərzində Dağlıq Qarabağda gedən müharibə ilə əlaqədar həmişə Azərbaycanı günahlandırmışlar. Mətbuat orqanları, dünya ictimaiyyəti, o cümlədən Rusiya ictimaiyyəti həmişə ermənilərin xeyrinə birtərəfli məlumatlar almışlar. Lakin bu dəfə bizim bütün diplomatik və siyasi fəaliyyətimiz dünya ictimayyətinə yaranmış vəziyyət barədə düzgün məlumat vermişdir ki, Ermənistan Azərbaycana hücum etmişdir. Bütün dünya informasiya orqanları da bu barədə məlumat verirlər. 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləyib. NATO da bu barədə bəyanat verib. Türkiyənin Nazirlər Kabineti may ayının 18-də gecə saat 12-nin yarısında toplaşaraq geniş bir bəyanat vermişdir. Bütün bunların nəticəsində biz dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yarada bildik və Ermənistanın təcavüzkar mövqeyini ifşa etdik. Dünən Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri də Naxçıvana gəlib. Biz onları Sədərəyə göndərdik. Çünki vuruşmanın birinci günü bizim döyüşçülərin bir neçəsi həlak olmuşdu. Ona görə də Qırmızı Xaç Cəmiyyətinin nümayəndələrindən xahiş etdik ki, bu işdə vasitəçilik etsinlər.

Belə bir vaxtda bizi həm Naxçıvanın müdafiəsi, həm iqtisadiyyatının inkişafı, həm də əhalinin maddi vəziyyəti çox dərindən düşündürür. Lakin bildiyiniz kimi daxili imkanlarımız çox məhduddur. Türkiyə bu günlər bizə yenə də hərtərəfli yardım göstərir. Bildiyiniz kimi, biz Sədərək vuruşmalarında yaralanmış 16 nəfəri müalicə olunmaq üçün Türkiyəyə göndərmişik. Əgər ehtiyac olsa yenə də göndərə bilərik. Bundan əlavə, Türkiyədən həkimlər də gəlib və hazırda bizim xəstəxanalarda yaralıları müalicə edirlər.

Dərman da göndərilib. Mən Baş nazir Süleyman Dəmirəllə telefonla danışarkən, o, bildirdi ki, "Qızıl Ay" Cəmiyyəti vasitəsilə Naxçıvana təcili yardım göndəriləcək.

Bütün bunları nəzərə alaraq biz belə fikrə gəlmişik ki, Naxçıvanın

Vahid İnkişaf və Müdafiə fondunun yaradılması təklifini sizin müzakirənizə verək. Bu fond mərkəzləşmiş şəkildə olsun. Onun bankda hesabı açılsın. Bütün Naxçıvanın inkişafına, müdafiəsinə yardım etmək istəyənlər öz vəsaitlərini bu fondun hesabına keçirsinlər. Fondun təşkil olunması və ondan istifadə edilməsi üçün komissiya yaradılsın. Əgər bu sahədə başqa təkliflər də varsa biz onları dinləməyə hazırıq.

İclasın sonunda müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilmişdir. Beləliklə də Naxçıvanın timsalında ölkənin müdafiə edilməsinin təşkili yolları o vaxt mövcud olan hakimiyyət nümayəndələrinə nümayiş etdirilmişdir.

28 may 1992-ci il tarixdə Sədərək körpüsünün açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəl xüsusi təyyarə ilə Naxçıvna gəldi. Ali qonaq salamlandıqdan və ona gül təqdim edildikdən sonra qədim Azərbaycan adəti üzrə Süleyman Dəmirəlin ayağı altında ağ qoç qurban kəsildi. Minlərlə naxçıvanlı qonağı salamlamaq üçün plakatlar və transparantlarla bura gəlmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qonağı qarşılayarkən vurğuladı ki, bu gün bütün Azərbaycan xalqının bayramıdır - biz respublikamızın istiqlaliyyət gününü qeyd edirik. Sizin səfəriniz həm də onunla sevindiricidir ki, bu gün Araz Sədərək körpüsünün açılışı olacaq. Bu, həqiqətən bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərə açmağa kömək edəcəkdir.

Qədim Naxçıvan torpağında olmağından hədsiz dərəcədə şad olduğunu söyləyən Süleyman Dəmirəl 60 milyonluq türk xalqının salamını Naxçıvanlılara yetirdi və əmin etdi ki, Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq. Biz kədəri və sevinci sizinlə birlikdə bölüşəcəyik.

Sonra avtomobil karvanı Naxçıvanın küçələri ilə Sədərək qəsəbəsinə doğru hərəkət etdi. Yol boyu ali türk qonağı on minlərlə naxçıvanlı salamlayırdı. Sədərəyə qədər olan adətən, bir saat-saat yarımlıq yolu bu dəfə ikiqat müddətə qət etmək lazım gəldi. S.Dəmirəl onu salamlayan yerli sakinlərin xahişi ilə bir neçə dəfə dayanmalı oldu.

Türkiyənin məşhur "Madsandış" yol tikinti şirkətinin Naxçıvan təmir-tikinti idarəsi ilə birlikdə inşa etdiyi Sədərək körpüsünün uzunluğu 288 metr, eni 12 metr, ümumi smeta dəyəri 5 milyon manat olmuşdu. Ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələni göstərən bu təntənəli gündə bura on minlərlə həm azərbaycanlı, həm də türk gəlmişdi. Körpü hər iki dövlətin çoxlu bayraqları, transparantlar, Türkiyənin ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Demokratik Respublikasının banisi Məmmə-

dəmin Rəsulzadənin portretləri ilə bəzədilmişdi. Mühüm nəqliyyat arteriyası olan körpünün açılışı münasibətilə təntənli mitinq keçirildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu münasibətlə demişdi: Bu gün bizim arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi. Bu gün biz Azərbaycan Demokratik Respublikasının banisi Məmmədəmin Rəsulzadəni, onun silahdaşlarını xatırlayır və onlara əbədi minnətdarlığımızı bildiririk. Naxçıvan özünün faciəli günlərini yaşayır. Naxçıvanla Ermənistan sərhəddində müharibə gedir. Naxçıvanın oğulları çətinliklərə baxmayaraq, öz doğma torpaqlarını müdafiə edirlər.

Heydər Əliyev həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş etdi. Sonra o, Muxtar Respublikaya yardım göstərdiyinə və onu müdafiə etdiyinə görə Türkiyə rəhbərliyinə minnətdarlığını bildirdi.

Türkiyənin Baş naziri S.Dəmirəl körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. O qeyd etdi ki, böyük türk dünyası artıq reallığa çevrilmişdir. Azərbaycanda demokratik proseslər gedir, öz qarşısında xeyirxah məqsəd - xalqının tərəqqisinə nail olmaq məqsədi qoyan demokratik hüquqi dövlət yaradılır. Türkiyə də demokratik dövlət yaratmağın çətin yolunu keçmişdir. S.Dəmirəl daha sonra dedi: mən əminəm ki, siz də öz məqsədlərinizə çatacaqsınız və torpağınıza sülh və əmin-amanlıq gələcəkdir. Biz bilirik ki, torpağınızda qardaşlarımızın qanı tökülür. Türkiyə heç vaxt sizi tək qoymayacaq. Biz Azərbaycanın suverenliyini, onun ərazi bütövlüyünü müdafiə edəcəyik. Hamı yadda saxlamalıdır ki, zorakılıq yolu ilə başqasının torpağını əlindən almaq olmaz. Bunu etmək istəyən hər kəs unutmamalıdır ki, hökmən ondan güclüsü tapılacaq.

S.Dəmirəl sözünə davam edərək dedi: Bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu, Avropa ilə Asiya arasında körpüdür, Avropa və Asiya ölkələrinin qarşılıqlı faydalı əlaqələrinə xidmət edə bilər. Baş nazir öz əməyi ilə bu günü yaxınlaşdıran inşaatçılara təşəkkürünü bildirdi.

Körpünün təntənəli açılışından sonra avtomobil karvanı Naxçıvana yollandı. Orda Türkiyənin Baş naziri və onu müşaiyət edən şəxslər Şəhidlər Xiyabanına getdilər və respublikanın müstəqilliyi uğrunda mübarizədə öz canlarını qurban verənlərin məzarlarına tər çiçəklər və əklillər qoydular.

Sonra Naxçıvanda Türkiyə Bankının açılışı oldu. Azadlıq meydanında S.Dəmirəlin respublika ictimaiyyəti ilə görüşü keçirildi.

Süleyman Dəmirəllə Heydər Əliyevin təkbətək görüşü də oldu. Görüş zamanı Heydər Əliyev Süleyman

Dəmirəlin 1967-ci il Bakı səfərinin şəkilləri yığılmış albomu Türkiyənin Baş nazirinə bağışladı. Albomu diqqətlə nəzərdən keçirən Süleyman Dəmirəl xoş xatirələrlə dolu o günləri yada salan bu albomu ona hədiyyə etdiyi üçün Heydər Əliyevə dərin minnətdarlığını bildirdi.

Axşam Türkiyənin Baş naziri S.Dəmirəl təyyarə ilə Ankaraya uçdu.

2 gündən sonra 1 iyun tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə ikinci dəfə Türkiyə paytaxtına getdi. Burada da yenə Naxçıvanın informasiya blokadasını yarmaq, təminatını gücləndirmək üçün əlindən gələni etdi. O günlər Türkiyənin "Cümhuriyyət" qəzeti xəbər verirdi ki, Naxçıvan parlamentinin sədri bildirmişdir ki, erməni tərəfi atəşi dayandırmaq haqqında sazişi pozaraq Muxtar Respublikanın yaşayış məntəqələrinə güclü hücumları davam etdirir. Erməni silahlı birləşmələri Ordubad rayonunda əslində ikinci cəbhə açaraq, rayonu top atəşinə tuturlar. Atəşin dayandırılmasına nail olmaq üçün Ermənistan rəhbərləri ilə vaxtaşırı telefonla əlaqə saxlayır. Naxçıvan Parlamentinin sədri respublikada yaranmış gərgin vəziyyətdən danışaraq demişdir ki, kəskin ərzaq, habelə yanacaq qıtlığı yaranmış, cəmi 3-4 günlük yanacaq ehtiyatı qalmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasına səfəri zamanı dövlət rəhbərləri və siyasi xadimlərlə görüşərək Muxtar Respublikanın iqtisadi və siyasi məsələlərini həll edə bildi..

Səfərin müsbət nəticələri ondan ibarət idi ki, yenə də ərzaq dolu yük maşınları dərhal Naxçıvana üz tutdu..

Heydər Əliyev iyunun 1-də Ankarada olarkən kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüş keçirtmişdir. İyunun 2-də Baş nazir Süleyman Dəmirəl nümayəndə heyətini qəbul etmişdir. Bundan öncə dövlət nazirləri Cavid Çağlar, Əkrəm Ceyhun və bir sıra başqa nazirlərlə görüşlər keçirilmişdir.

Baş nazirlə aparılan danışıqlar çox səmərəli olmuşdur. Danışıqların əsas mövzusu Türkiyənin Naxçıvana maddi yardım göstərməsi məsələsi idi. Bundan əvvəl mart ayında imzalanmış protokola əsasən Muxtar Respublika üçün ayrılmış 100 milyon dollar kreditdən istifadə edilməsi məsələsi də müzakirə edilmişdir. Hələ may ayının 20-də həmin məsələ ilə əlaqədar Muxtar Respublikanın nümayəndə heyəti Türkiyədə olmuş, kreditin açılması, ondan istifadə edilməsi və eyni zamanda həmin protokolla əlaqədar başqa məsələlərin həlli ilə məşğul olmuşdur. Bu sahədə müəyyən işlər görülmüşdür. Lakin kreditin açılması məsələsi tam həll edilməmişdir. Bu səfər zamanı aparılan danışıqlar nəticəsində isə bu mə-

sələ qısa bir müddətdə həll olunmuşdur. Naxçıvandakı vəziyyət haqqında Baş nazir Süleyman Dəmirələ və başqa nazirlərə geniş məlumat verilmiş, respublikanın bugünkü ehtiyacları və işlərin aparılması barədə söhbət getmişdir.

Türkiyənin Xarici İşlər Nazirliyində də Naxçıvandan gəlmiş nümayəndə heyəti ilə görüş olmuş, açılmış kreditdən 10 milyon dollar məbləğində ərzaq malları almaq üçün protokol imzalanmışdır.

Nümayəndə heyətinin başçısı Heydər Əliyev Naxçıvandakı vəziyyət, Ermənistanın Muxtar Respublikaya qarşı təcavüzkarlığı, sərhədlərdə olan vəziyyət haqqında Baş nazir Süleyman Dəmirələ və başqa nazirlərə, xüsusən Xarici İşlər naziri Hikmət Çətinə, habelə mətbuat nümayəndələrinə ətraflı məlumat vermişdir. Bütün bunlar da Türkiyə televiziyası və qəzetləri vasitəsilə geniş yayılmışdır.

Nümayəndə heyəti İzmirdə olarkən Türkiyə və xarici ölkələrin müxbirləri üçün mətbuat konfransı keçirmiş, Heydər Əliyev Azərbaycan dərnəklərinin üzvləri ilə görüşmüşdür.

Nümayəndə heyətinin başçısı Heydər Əliyev İzmirdə Türkiyənin Prezidenti Turqut Özalla da geniş, ətraflı söhbət aparmışdır. Türkiyə Prezidenti Naxçıvandakı vəziyyətlə ətraflı maraqlanmış, ona Muxtar Respublikada olan iqtisadi vəziyyət, Ermənistanın silahlı təcavüzü barədə hərtərəfli məlumat verilmişdir. Türkiyə Prezidenti əmin etmişdir ki, Naxçıvana hər cür yardım göstəriləcəkdir.

Mindən artıq nümayəndənin iştirak etdiyi iqtisadi konqresdə, əsasən, Türkiyənin inkişaf problemləri müzakirə olunmuşdur. Konqresin açılışı mərasimində Türkiyənin Prezidenti Turqut Özal çıxış etmiş və demişdir ki, SSRİ dağıldıqdan sonra regionda meydana gəlmiş yeni türkdilli və müsəlman dövlətləri ilə əməkdaşlığın yaxşı perspektivi açılır. Əgər biz bu imkandan istifadə edə bilsək, ağıllı və qarşılıqlı surətdə faydalı metodlarla əməkdaşlıq edə bilsək bu, bizim və ortaqlarımızın xeyrinə olar.

Konqresdə Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyev də çıxış etmişdir. Heydər Əliyevin çıxışı çox böyük rəğbətlə qarşılanmışdır.

Muxtar Respublikanın nümayəndə heyəti Ankarada olarkən Rusiya Federasiyası Ali Sovetinin sədri Ruslan Xasbulatov başda olmaqla Rusiyanın nümayəndə heyəti onun görüşünə gəlmiş, görüş zamanı Naxçıvandakı vəziyyət barədə ətraflı söhbət açmışdır.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İstanbulda, Ərzurumda, İqdırda və Türkiyənin bir sıra başqa şəhərlərində də olmuş, ictimaiyyətin nümayəndələri ilə görüşmüş, Naxçıvanın və Azərbaycanın problemlərindən söhbət açmış, gələcəyə böyük ümidlə baxdıqlarını söyləmişdir.

Səfər zamanı verilmiş kreditin açılması, Muxtar Respublikaya gediş-gəliş məsələləri həll olunmuşdur. Razılığa görə gediş-gəliş son dərəcə sadələşdirildi. Bizdə olan sovet pasportlarının içinə Türkiyədə artıq hazırlanıb gətirilmiş bir vərəqə əlavə olunurdu ki, onunla da hər bir Azərbaycan vətəndaşı sərbəst şəkildə o taya keçə bilirdi. Türkiyədə isə milli pasportlar olduğu üçün onlar öz pasportları ilə sərbəst surətdə Naxçıvana keçə bilirdilər.

Səfər barədə Ali Məclisə məlumat verən Heydər Əliyev bildirmişdir ki, Türkiyənin Prezidenti Turqut Özal da, Baş nazir Süleyman Dəmirəl də belə fikirdədirlər ki, bizim dövlətlər arasında gediş-gəliş vizasız olsun. Lakin İranda olduğu kimi, Türkiyə ilə də müəyyən məsafədə gediş-gəliş daha sadə olacaqdır. Əgər İranla razılaşmada bu məsafə 45 kilometr təşkil edirsə, Türkiyə ilə 100 kilometr təşkil edəcəkdir. Səfər zamanı Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də həll olunmuşdur.

İyunun 17-də Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçar Mayls Naxçıvana gəlmişdir. Elə həmin gün cənab Mayls Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

Heydər Əliyev qonağı səmimi salamlayaraq bu yaxınlarda Amerika Birləşmiş Ştatlarından Türkiyənin "Qızıl Ay" cəmiyyəti vasitəsilə Naxçıvana gödərilmiş humanitar yardım üçün ABŞ dövlət rəhbərlərinə və xalqına Muxtar Respublika əhalisi adından minnətdarlığını bildirmişdir.

Riçard Mayls bildirmişdir ki, Türkiyə ilə Naxçıvan arasında salınmış körpüyə və Ermənistanla sərhəddə yerləşən hərbi münaqişə zonalarına getmək fikrindədir.

9 iyul 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1992-ci il may ayının 28-də istifadəyə verilən Sədərək-Dilucu "Həsrət körpüsü"- "Ümid körpüsü"nü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək-Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirmiş və qeyd etmişdir ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, Araz çayının o tayında və bu tayında olan qardaş xalqların birbirinə yaxınlaşmasına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il avqust ayının 10-dan 14-ə qədər Türkiyəyə rəsmi səfər etmişdir. Bu onun Naxçıvanda olduğu vaxt ərzin-

də qardaş ölkəyə üçüncü səfəri idi.

Səfərin məqsədi Türkiyə ilə yaranan əlaqələri daha da möhkəmləndirmək, eləcə də İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmək olmuşdur. Bu dəfə də qardaş türk xalqı Heydər Əliyevi və onu müşaiyət edən nümayəndə heyətini hərarətlə qarşılamışdır.

Baş nazir Süleyman Dəmirəl mərasimdəki çıxışında bildirmişdir ki, İqdır, Sədərək-Dilucu körpüsü vasitəsi ilə bütün türk dünyasına pəncərə olacaqdır. Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qeyd etmişdir ki, bu qədim türk şəhəri Naxçıvanın gərgin günlərində onun yaxın köməkçisi olmuşdur. Bu gün İqdırın vilayət kimi tanınması bizim aramızda olan yaxınlığı daha da möhkəmləndirəcəkdir. İqdırın bugünkü sevincinə bütün naxçıvanlılar qoşulmuşdur. Daha sonra Heydər Əliyev Türkiyə hökumətinin Naxçıvana, eləcə də Azərbaycana göstərdiyi diqqəti yaranan əməkdaşlığın ən vacib cəhəti adlandırdı.

Heydər Əliyev İqdır şəhərində keçirilən təntənəli mərasimdən sonra Qars və Ankara şəhərlərində olmuşdur.

Səfər zamanı Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış İşbirliyi protokolunun əməli surətdə həyata keçirilməsi tədbirləri haqqında Türkiyənin Baş naziri Süleyman Dəmirəllə, dövlət nazirləri və nazirlər ilə danışıqlar aparmış, Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi blokada şəraitində yaşadığı, Ermənistanla sərhəd məntəqələrində silahlı münaqişə nəticəsində Naxçıvanın sosial-iqtisadi həyatında mövcud olan çətinliklər haqqında məlumat vermiş və Naxçıvanın Türkiyənin köməyinə ehtiyacı olduğunu bir daha bildirmişdir.

Danışıqlarda Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasına ayırdığı maliyyə kreditindən istifadə olunması üçün lazımi tədbirlərin həyata keçirilməsi müzakirə olunmuşdur.

Türkiyə hökuməti tərəfindən bildirilmişdir ki, Naxçıvanın əhalisinin təchizatı üçün ərzaq mallarının alınması məqsədilə ayrılmış maliyyə kreditinin on milyon Amerika dolları dəyərində olan hissəsindən istifadə etmək üçün lazımi qərar qəbul edilmişdir.

Bu danışıqlardan sonra Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikası üçün ayrılmış kreditin istifadə olunmasına başlamışdır. Bu kredit hesabına Muxtar Respublikaya 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü gətirilmişdir.

Türkiyənin "Qızıl Ay" cəmiyyətinin rəhbəri Kamal Dəmirlə görüşdə Naxçıvana bu cəmiyyət vasitəsilə yenə də yardım göstərilməsi xahiş olunmuşdur.

Bu xahiş nəzərə alınaraq 1992-ci il avqust ayının ikinci yarısında "Qızıl Ay" cəmiyyəti vasitəsilə Naxçıvana yardım olaraq 100 ton un, 2700 kq günəbaxan yağı, 7850 kq şəkər tozu, 9300 kq makaron, 1630 kq qovurma, 810 kq toyuq əti gətirilmişdir.

Ali Məclisin 16 sentyabr tarixində çağrılan iclasında bu səfər barədə məlumat verən Heydər Əliyev göstərmişdir ki, İqdıra vilayət statusu verilməsində məqsəd onun Türkiyənin Naxçıvana ən yaxın bölgəsi olmasında, əlaqələrimizin inkişafında önəmli rol oynamasındadır. İqdır bizə qonşu olduğuna görə Süleyman Dəmirəl məni də bu mərasimdə iştirak etməyə dəvət etmişdi. Onun dəvəti ilə orada olduq. Süleyman Dəmirəl ora öz ətrafında olan bütün hökumət üzvləri ilə gəlmişdi. Baş nazirin birinci müavini Ərdal İnönü, dövlət nazirləri İsmət Səzgin, Cavid Çağlar, Əhməd Ceyhun, bir neçə başqa nazirlər, millət vəkilləri, qonşu vilayətlərin nümayəndələri gəlmişdilər.

Orada mərasim çox böyük təntənə ilə keçdi. Proqramda əvvəldən bizim çıxışımız nəzərdə tutulmamışdı. Ancaq Baş nazir Süleyman Dəmirəli çıxışa dəvət edəndə o, məndən xahiş etdi ki, bir yerdə çıxış edək. Biz tribunaya qalxdıq. Süleyman Dəmirəl çıxış etdi, sonra məni təqdim etdi. Mən də çıxış etdim. Bu çıxışda da, sonrakı danışıqlarımızda da, mərasimdən sonra verilən ziyafət zamanı da nitq söyləmək lazım gəldi. Danışıqlarımızın hamısında da Azərbaycanla Türkiyə arasında münasibətlərin genişlənməsi və inkişaf etməsi haqqında söhbət getdi. Biz şübhəsiz ki, burada Naxçıvanın bir sərhəd bölgəsi kimi xüsusi rolunu qeyd etdik. Sonra Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə onunla birlikdə Qarsa getdik. Qarsda da böyük mitinq oldu. O mitinqdə də mən Süleyman Dəmirəlin dəvəti ilə iştirak etdim.

Sonra onunla Türkiyə hökumətinin digər rəhbərləri, nazirləri ilə birlikdə Ankaraya uçduq. Süleyman Dəmirəl dəvət etdi ki, gedib orada bizim Naxçıvanın Türkiyə ilə bağlanmış protokolu ilə əlaqədar məsələlərin bəzilərinin həll olunmasının ləngdiyinə görə o məsələlərə yerindəcə baxaq.

Ankarada olarkən Süleyman Dəmirəllə xüsusi görüşlərimiz oldu, ətraflı söhbət etdik və bu söhbətdə də Azərbaycanla Türkiyənin əlaqələrinin inkişaf etməsi, genişlənməsi, bu baxımdan Türkiyənin gələcəkdə də Naxçıvana yardım etməsi, 24 martda bağlanmış protokolun bütün maddələrinin həyata keçməsi haqqında danışıqlar oldu. O, bir neçə nazirə göstəriş verdi.

Bizim bu kreditin açılma prosesi cürbəcür banklardan keçir. Orada bank sistemi çox ciddi və mürəkkəb olduğuna görə bu, müəyyən vaxt tələb edir. Ona görə də Süleyman Dəmirəl dövlət naziri Əhməd Ceyhuna göstəriş verdi ki, o, bu işlə məşğul olsun. "Qızıl Ay" cəmiyyətinin prezi-

denti Kamal bəylə də görüşdüm. Süleyman bəy "Qızıl Ay" vasitəsilə bizə əlavə yardımlar göstərilməsi barədə tapşırıqlar verdi.

Mən belə hesab edirəm ki, bu səfər də Naxçıvan üçün, Türkiyə ilə Azərbaycan arasında münasibətlərin inkişafı üçün çox lazımlı səfər idi. Xüsusən Naxçıvana yardım işini təşkil etmək, kreditlə əlaqədar olaraq çətinlikləri aradan qaldırmaq üçün lazımlı idi.

Dünən Baş nazir Şəmsəddin Xanbabayev məruzəsində göstərdi ki, kreditlə əlaqədar ərzaq məhsulları artıq bizə gəlməkdədir. Bu, Türkiyə ilə apardığımız danışıqların və imzalanmış protokolun real nəticəsidir.

Heydər Əliyev çıxışına yekun vuraraq bildirdi ki, Naxçıvanın İran və Türkiyə ilə əlaqələrinin hamısı Azərbaycanın İran və Türkiyə ilə olan əlaqələrinin tərkib hissəsidir. Qoy heç kəs burada cürbəcür şayiələr yayıb camaatı aldatmasın ki, guya biz xüsusi işlər görürük. Mən dəfələrlə demişəm və bir də deyirəm ki, Naxçıvan Muxtar Respublikasının bu ağır dövründə kim Naxçıvana hansı yardımı göstərə bilərsə biz onu bəyənməliyik, onu alqışlamalıyıq və kömək göstərməliyik. Bu baxımdan indi Naxçıvana Türkiyənin və İranın xüsusi yardımını başqa cür hallandırmaq, onlara başqa cür don geyindirmək, başqa rəng vermək sadəcə olaraq naxçı vanlılara xəyanət etməkdir. Ona görə də mən bu cürbəcür şayiələri qərəzli, heç bir əsası olmayan şayiələr kimi tamamilə rədd edirəm və bildirmək istəyirəm ki, Muxtar Respublikanın Ali Məclisi və onun sədri burada heç bir xüsusi siyasət aparmırlar. Bunlar hamısı Azərbaycanın xarici siyasətinin tərkib hissəsidir.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, biz Türkiyədən kredit alandan bir az sonra cürbəcür şayiələr yaydılar, qəzetlərdə materiallar verməyə çalışdılar ki, guya bu kreditin 10 milyonunun hamısı bir firmaya verilib...O adamlar, görünür, qara fikirli, qaraqəlbli adamlardır. Onlar heç bir yaxşı işi istəmirlər. İstəmirlər ki, Naxçıvana bir yerdən bir kömək gəlsin. Mən bunu ancaq belə qiymətləndirə bilərəm. Mən arayış almışam və sizə çatdırıram ki, buraya gələn şəkər və düyü "Bem dış" anonim xarici ticarət şirkəti vasitəsilə gətirilib. Çiçək yağı və marqarin "İnva iç və dış" şirkəti vasitəsilə, ət, kərə yağı "Etex" anonim şirkəti vasitəsilə, un və buğda "Ekmin dış" anonim ticarət şirkəti vasitəsilə və yalnız makaron və toyuq əti "Madsan dış" firması vasitəsilə gətirilib.

Mən sizə dedim ki, Türkiyədə olarkən Baş nazir Dəmirəl də, xüsusən bu işlərlə məşğul olan Əhməd Ceyhun da çox təəccüblənib deyirdilər ki, biz sizə kömək edirik, amma sizin adamlar cürbəcür şayiələr yayırlar. Mən belə hesab edirəm ki, bu cür şayiələr yayan qəzetlərdə materiallar dərc etdirən adamlar Naxçıvana xeyir yox, böyük zərər vuran adam-

lardır. Bir daha qeyd edirəm, Naxçıvan azad iqtisadi zonadır. Kim, Naxçıvana nə gətirə bilərsə, gətirsin. Ticarətin qabağını almaq lazım deyil, əksinə, onu genişləndirmək lazımdır. Lakin bu ticarət işlərində vəzifəsindən sui-istifadə edən adamların qarşısı alınmalıdır. Əgər "Qızıl Ay" vasitəsilə, İranın "Hilal Əhmər" cəmiyyəti vasitəsilə gedən yardımlardan kimsə istifadə edib, onu sataraq qazanc əldə etmək istəyirsə və yaxud kredit vasitəsilə alınan malları kimsə qoyulan qiymətlərdən baha sataraq qazanc götürmək istəyirsə, onlar cinayətkardırlar. Belələrinə qarşı qətiyyətlə mübarizə aparmaq lazımdır.

Eyni zamanda, yalan və şayiələrə də uymaq lazım deyil. Hamı gərək bu işdə düzgün mövqe tutsun, təmizlik, düzlük, saflıq uğrunda mübarizə aparsın, xalq üçün bu ağır, çətin dövrdə düşdüyümüz vəziyyətdən çıxmaq üçün öz səyini əsirgəməsin.

Həmin toplantıda Muxtar Respublika Ali Məclisi və Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında mövcud sosial-iqtisadi vəziyyət, baş vermiş çətinliklərin aradan qaldırılması və qış mövsümünə hazırlıq tədbirləri haqqında mühüm qərar vermişdir. Qərarda göstərilir ki, 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvana yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif markalı akkumlyator, 10 ton karbit göndərmişdir. Həmin müqavilənin icrası ilə əlaqədar Türkiyə hökuməti tərəfindən ayrılmış kredit hesabına Muxtar Respublika əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə də artıq başlanmışdır. 15 sentyabr 1992-ci ilə qədər 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü Muxtar Respublikaya daxil olmuş, rayon əhalisi nəzərə alınmaqla, müvafiq qaydada bölünüb əhaliyə satışı təşkil edilmişdir.

Türkiyə Respublikasının "Qızıl Ay" və İran İslam Respublikasından "Hilal Əhmər" cəmiyyətlərindən bu ilin mart ayından Muxtar Respublikaya yardım olaraq 785 ton un, 56 ton yağ, 87 ton şəkər daxil olmuş və ərzaq komissiyası vasitəsi ilə qiymətləndirilmiş, əhaliyə satılmışdır.

1992-ci il sentyabrın 29-da Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin rəhbərliyinin, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin ləğv olunması və onun funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalanmışdır.

Beləliklə, Azərbaycan Respublikası ilə qonşu dövlətlər - İran və Türkiyə arasında Naxçıvan Muxtar Respublikası ərazisindəki 215 km məsafədə dövlət sərhədi Heydər Əliyevin səyləri və apardığı gərgin danışıqlar

nəticəsində Azərbaycanın 1-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunmağa başlanmışdır.. Bütün sərhəd məntəqələrində və keçmiş 41-ci sərhəd dəstəsi qərargahının üzərində Azərbaycan Respublikasının dövlət bayraqları qaldırılmışdır. İlk dəfə olaraq sərhəddə iki qardaş ölkənin əsgərləri görüşmüş, sərhədimiz qardaşlıq və dostluq sərhədinə çevrilmişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına başçılıq edərkən o təkcə siyasi və iqtisadi əlaqələrin genişlənməsinə deyil, həm də mədəni və elmi əlaqələrimizin inkişaf etməsinə çalışmışdır. Türkiyəyə təhsil almağa gedən ilk tələbə qrupu ilə oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda Muxtar Respublika Ali Məclisi, Nazirlər Kabineti rəhbərlərinin və Naxçıvan şəhər ictimaiyyəti nümayəndələrinin görüşü olmuşdur.

Görüşə həsr elilmiş yığıncağı Muxtar Respublikanın Baş naziri Ş.Xan-Babayev açaraq bildirmişdir ki, cari ilin mart ayının 22-24-də Türkiyə Respublikasında səfərdə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səfərin yekuları ilə bağlı imzaladığı işbirliyi protokolunda Muxtar Respublika ilə Türkiyə Respublikası arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişafına dair maddələrlə yanaşı daha bir maddə - hər il 100 nəfər naxçıvanlı gəncin Türkiyədə təhsil alması maddəsi də öz əksini tapmışdır. Naxçıvanlı gənclərin Türkiyə universitetlərində təhsil almaları üçün Ali Məclis sədrinin göstərdiyi təşəbbüs artıq öz bəhrəsini vermişdir. Türkiyənin Naxçıvana gəlmiş Yüksək Öyrətim Seçim Kurumunun səlahiyyətli nümayəndələri tərəfindən ilk dəfə test üsulu ilə seçim aparılmış və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul olunmuşdur.

Yığıncaqda Heydər Əliyev çıxış edərək toplaşmış tələbələri, onların valideynlərini, təhsil aldıqları məktəblərin müəllim kollektivlərini və Muxtar Respublika ictimaiyyətinin nümayəndələrini təbrik etmiş, bildirmişdir ki, bu gün qədim Azərbaycan diyarı Naxçıvanda biz yeni əlamətdar bir hadisənin iştirakçısıyıq. Naxçıvan Muxtar Respublikasından ilk dəfə olaraq Türkiyə Cümhuriyyətinin Ali məktəblərinə, universitetlərinə 75 nəfər naxçıvanlı gənc qəbul olumuşdur. Gəlin, Türkiyəyə yola düşən tələbələrə yaxşı yol, uğurlu təhsil, naxçıvanlı və azərbaycanlı adını yüksək tutmağı arzulayaq və əmin olduğumuzu bildirək ki, bu gün yaranan belə gözəl ənənə gələcəkdə də davam edəcək, naxçıvanlı gənclər bundan sonra Türkiyədə, Avropanın və dünyanın başqa ölkələrində təhsil almaq imkanları əldə edəcəklər.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, Azərbaycan Respublikası milli azadlığını, dövlət müstəqilliyini əldə edib və indi milli dövlət qurmaq prosesi ilə məşğuldur.

Bu, Azərbaycan üçün, Azərbaycan xalqı üçün yeni bir tarixi mərhələdir. Bu yeni mərhələdə şübhəsiz ki, Azərbaycan dövlətinin, xalqının qarşısında çox mühüm və mürəkkəb vəzifələr durur. Bu vəzifələrdən biri də Azərbaycanın bu günü və gələcəyi üçün yüksək təhsil, yüksək mədəniyyətə malik olan, müasir tələblərə cavab verən mütəxəssislər hazırlamaqdır. Bu işi, şübhəsiz ki, biz quru yerdə aparmırıq. Son 70 il müddətində Azərbaycanda bir çox Ali məktəblər fəaliyyət göstrib, mütəxəssislər hazırlanıb. Lakin bu gün də müstəqil Azərbaycan dövlətinin, iqtisadiyyatımızın, mədəniyyətimizin, elmimizin Azərbaycanı daha sürətlə gələcəyə aparmağa qabil olan mütəxəssislərə ehtiyacı var.

Keçən əsrin son dövründə və bizim əsrin əvvəllərində Azərbaycanın mütərəqqi fikirli adamları gəncləri Rusiyaya, Avropaya və Şərq ölkələrinə göndərib, onların ali təhsil almalarına şərait yaradırdılar. Bu adamlar sayca az olsalar da, Azərbaycanın mədəniyyətinin, elminin inkişaf etməsində çox böyük xidmətləri olmuşdur.

Bizim həmvətənimiz, naxçıvanlımız, dahi şair və dramaturq, filosof Hüseyn Cavid məhz Türkiyədə, İstanbulda təhsil almışdır. İstanbulda aldığı təhsil şübhəsiz ki, fitri istedadı ilə birlikdə ona bir dahi olmağa kömək etmiş, Azərbaycan xalqı üçün böyük ədəbi, mənəvi, mədəni və elmi irs qoyub getməsinə imkan yaratmışdır.

Daha bir uzaq vaxtı yada salaq. Böyük mütəfəkkir Mirzə Fətəli Axundov hələ XIX əsrin ikinci yarısında öz xalqını ümümbəşəri mədəniyyətə daha sıx bağlamaq məramında olaraq yeni əlifba layihəsi hazırlamış və onu məhz Türkiyəyə aparmışdır. Düzdür o, buna nail olmamış, lakin onun təşəbbü bizi Azərbaycan tarixində öz yerini tapmış və indi də biz onu böyük ehtiramla yad edirik.

70-ci illərdə Azərbaycanda yüksək təhsilli mütəxəssislər hazırlamaq üçün Moskvada Azərbaycan üçün hər il cəmi 50 yer ayırırdılar. Bu 50 yerin də yalnız 20-sini azərbaycanlılar tuturdu. Qalan 30-nu isə Azərbaycanda yaşayan ruslar, ermənilər, yəhudilər və başqa millətlərdən olan gənclər tuturdu. Bu fakt məni dəhşətə gətirirdi. Əvvəla nə üçün bu 50 yerin hamısını bizim azərbaycanlı gənclər tutmamalıdırlar? Digər tərəfdən nə üçün bizim respublika üçün cəmi 50 yer ayrılıb?

Bir şeyi bilmək lazımdır ki, əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşəri mədəniyyətə, bəşəri elmə yiyələnsin. Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı balaları Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Hindistanda, Çində belə təhsil alsınlar. Çünki öz içimizdə olan bilikər özümüzdədir və bunu heç kəs bizim əlimizdən ala bilməz. Ancaq

dünyanın cürbəcür ölkələrindəki təhsil sistemlərindən istifadə edərək, böyük elmi nailiyyətlərə müvəffəq olaraq xalqı daha da irəliyə aparmaq lazımdır.

Amma sizə bildirmək istəyirəm ki, mən o dövrdə gənclərimizin bir qisminin də Türkiyədə təhsil almasının çox həsrətində olmuşam. Çünki Türkiyə ilə Azərbaycan tarixən son dərəcə yaxın olublar. Bunu sübut etməyə ehtiyac yoxdur. Lakin o vaxtlar belə bir imkan yox idi.

Bir sözlə, hər dövrün öz imkanı, öz hökmü var. Məsələ də burasındadır ki, həmin imkanlardan səmərəli istifadə olunsun. İndi elə bir dövr gəlib çatıb ki, Azərbaycan müstəqil dövlətdir, bütün ölkələrlə müstəqil münasibətlər yaradır. Belə bir dövrdə şübhəsiz ki, başqa ölkələrdə və bizim üçün ən yaxın olan Türkiyədə də bizim gənclərin təhsil alması çox lazımdır. Ona görə yox ki, bu yeni dəbdir, yeni bir modadır. Yox. Ona görə ki, doğrudan da Türkiyənin institutlarında yüksək təhsil sistemi var. Orada hazırlanan mütəxəssislər Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanın gələcəyi üçün çox gərəklidir. Bax buna görə də bu ilin mart ayında mən Türkiyədə səfərdə olarkən Türkiyənin rəhbərləri, Prezident Turqut Özalla, Baş nazir Süleyman Dəmirəllə, Xarici İşlər naziri Hikmət Çətinlə, nazirlərlə danışıqlar apararkən Türkiyənin Azərbaycana, xüsusən Naxçıvana köməklik göstərməsi məsələlərini müzakirə edərkən bu təklifi ortaya atdım. Bəli, biz indi çox böyük böhran içərisindəyik. Ümumiyyətlə, Azərbaycan və xüsusən Naxçıvan blokada şəraitində, müharibə şəraitində, sosial-iqtisadi böhran içərisindədir. Bu gün adamlara adicə yaşayış şəraiti yaratmaq üçün un, ət, yağ, yanacaq və başqa zəruri mallar lazımdır. Bunlar bu gün üçün, sabah üçün, bir sözlə yaşamaq üçün lazımdır. Lakin biz yalnız bu günün tələbləri ilə yaşaya bilmərik. Biz bu gün sabahı, gələcəyi düşünməliyik.

Bütün bunları nəzərə alaraq mən Ankaradakı danışıqlarda xahiş etdim ki, bizim İşbirliyi Protokolunda nəzərdə tutulsun ki, Türkiyə hökuməti ilə də 100 nəfər naxçıvanlı gəncin orada təhsil almasını təmin etsin. Onlar bu təklifi çox məmnuniyyətlə qəbul etdilər və bu maddə bizim İşbirliyi Protokolunda öz əksini tapdı. Bu, Türkiyə hökuməti tərəfindən Azərbaycan xalqına və onun tərkib hissəsi olan Naxçıvan əhalisinə göstərilən böyük qayğıdır.

Bu gün Türkiyəyə gedən tələbələrlə görüşərkən, onları yola salarkən mən Naxçıvan əhalisi adından, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti adından Türkiyə hökumətinə, Türkiyənin Prezidenti Turqut Özala, Baş nazir Süleyman Dəmirələ və bu işdə bizə yardım edən nazirliklərin hamısına dərin minnətdarlığımızı və təşəkkürümüzü bildirmək istəyirəm.

Bu gün biz ilk addım atırıq.

Test imtahanlarından keçmiş tələbələri Türkiyəyə göndəririk. Lakin bu, gələcəkdə böyük bir sistemin bünövrəsidir. Heç şübhə yoxdur ki, bu ənənə davam edəcək, gələcəkdə biz Türkiyə hökuməti ilə danışıqlar aparıb onların sayını artıra biləcəyik. Beləliklə, biz Naxçıvanda gələcək nəsli daha yüksək səviyyədə hazırlamaq işini davam etdirəcəyik.

Mən sizə dedim ki, Moskvanın, Leninqradın, Kiyevin və başqa şəhərlərin ali məktəblərində oxumaq üçün ildə 500-600 nəfər azərbaycanlı gənc göndərildi. Lakin onların neçə nəfərinin Naxçıvandan olduğu xatirimdə deyil. Güman edirəm ki, 75 və ya 100 nəfər olmazdı. Mən o vaxt belə şeylərə fikir vermirdim. Mənim üçün fərqi yox idi, Azərbaycanın hansı yerindən olursa-olsun. Ancaq indi müqayisə edəndə görürsən ki, bir Naxçıvan üçün ildə 100 nəfərin, onun artıq 75 nəfəri yola düşür - Türkiyənin universitetlərində təhsil alması, mən sizi inandırıram ki, Türkiyənin bizə ayırdığı 100 milyon dollar kreditdən də, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətlidir.

Çünki bu işin qiymətini heç bir para ilə ölçmək olmaz. Bu, bizim xalqın gələcəyidir. Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. Bu bir də ona görə əhəmiyyətlidir ki, biz indi Azərbaycanda yeni dövlət qururuq və eyni zamanda yeni siyasi və iqtisadi sistem yaratmaq yolundayıq. Yeni siyasi və iqtisadi sistem, yeni sosial quruluş isə şübhəsiz ki, özünə uyğun mütəxəssislər tələb edir. Bu işdə isə Türkiyənin təcrübəsi çox böyükdür.

Mən güman edirəm ki, bizim indi Türkiyəyə təhsil almağa yola saldığımız naxçıvanlı gənclər bu böyük və şərəfli işin ilk qaranquşları kimi azərbaycanlı adını, Azərbaycan xalqının adını həmişə yüksək tutacaqlar.

Bizim gənclər birinci mərhələni keçiblər, ancaq qarşıda çox böyük həyat yolu durur: beş il Türkiyədə təhsil almaq. Biz arzu edərdik ki, gənclərimiz orada bütün imkanlardan istifadə edib yüksək elmə, yüksək ixtisasa yiyələnsinlər. Bilməlisiniz ki, siz oraya sadəcə olaraq təhsil almağa yox, Azərbaycanın gələcəyi üçün göndərilirsiniz. Ona görə də bütün universitetlərin imkanlarından istifadə edib yüksək təhsil almaq lazımdır. Siz orada Azərbaycan xalqına xas olan yüksək mədəniyyət, yüksək mənəviyyat nümunəsi göstərməlisiniz. Türkiyənin həyatında olan bütün müsbət nümunlərə, adət-ənələlərə yiyələnməlisiniz.

Bizim dilimiz birdir. Biz Naxçıvanda da türkük. Ancaq Türkiyənin türkcə dili var. Azərbaycanda azərbaycanca türk dili var. Bunların müəyyən fərqləri var. Biz güman edirik ki, bizim gənclər orada türk dilinə dərindən yiyələnəcəklər. Lakin onlar bununla kifayətlənməməlidirlər. Türkiyənin universitetlərində xarici dillərin tədrisi çox gözəl təşkil olunur. Mən həmişə böyük maraqla

və həsrətlə müşahidə edərdim ki, məsələn, Türkiyədə və ya İranda universitet bitirmiş bir gənc öz dilindən başqa, Avropa dillərindən də birini və ya ikisini bilir. Təəssüf ki, biz Azərbaycanda buna nail ola bilmədik. Ancaq Türkiyədə bu məsələ çox yaxşı qoyulub. Biz arzu edirik ki, gənclərimiz Türkiyənin universitetlərində bütün fənlərə dərindən yiyələnsinlər. Türk dilini, türk tarixini, türk ədəbiyyatını mükəmməl öyrənsinlər. Eyni zamanda ortada digər əcnəbi dilləri də öyrənməyə çalışsınlar. Çünki bu bizim müstəqil Azərbaycan üçün çox gərəkli, çox lazımlı bir şərtdir. Bizim gələcək nəsillər, gələcək kadrlar gərək öz dillərindən başqa, bir neçə dil bilsinlər. Kim nə qədər çox dil bilərsə, o qədər də biliyə sahib olar. Türkiyə universitetlərində belə bir imkan var. O universitetləri bitirən türk gəncləri başqa dilləri də öyrənirlər və biz arzu edirik ki, bizim gənclər də bunu etsinlər.

Ən nəhayət, indi bizim Türkiyə universitetlərinə yola salacağımız gənclər gərək Türkiyə ilə Azərbaycan, o cümlədən Naxçıvan arasında əlaqələrin daha da genişlənməsinə, inkişaf etməsinə çalışsınlar. Onlar bilməlidirlər ki, gənc olsalar da, üzərlərinə ali təhsil almaq kimi böyük vəzifə düşsə də, eyni zamanda onların hər biri Azərbaycan xalqının nümayəndəsidir. Ona görə də çalışmalıdırlar ki, Azərbaycanla, Naxçıvanla Türkiyənin əlaqələrinin genişlənməsinə öz paylarını versinlər.

Bir sözlə, biz hesab edirik ki, Türkiyəyə gedən bütün gənclər Türkiyə cəmiyyətinin, Türkiyə həyatının bütün sahələrinə qoşulmalıdırlar və bizim Azərbaycan üçün, Naxçıvan üçün orada gərəkli olan nə varsa hamısını gətirib Azərbaycanda, Naxçıvanda tətbiq etsinlər.

Mən bütün bunları qeyd edərək bir daha ona qayıtmaq istəyirəm ki, təhsil almaq istəyən hər bir şəxs yaxşı mütəxəssis də, yaxşı alim də ola bilər. Lakin bunların hamısı ilə yanaşı gərək yüksək mənəviyyatlı insan olasan.

Heydər Əliyev çıxışının sonunda bir daha Türkiyə hökumətinin başçılarına, xüsusən Baş nazir Süleyman Dəmirələ, naxçıvanlı gənclərin birinci qrupunun orda təhsil almasını təşkil etdiklərinə görə dərin təşəkkürünü, minnətdarlığını bildirdi və möhkəm əmin olduğunu bildirmişdir ki, Türkiyə hökuməti beş il müddətində bu gənclərin orada təhsil almaları üçün öz üzərinə götürdüyü bütün vəzifələri yerinə yetirəcək, bizim gənclər münasib şəraitdə yaşayıb oxuyacaqlar.

Oktyabrın 18-də Azərbaycan sərhəd qoşunlarının Naxçıvandakı birinci dəstəsinin yerləşdiyi şəhərcikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə Cümhuriyyəti Baş nazirinin müşaviri Əli Naci Tüncəl, şəhər ictimaiyyətinin nümayəndələri və gənc sərhədçilərin valideynləri hərbi andiçmə mərasimində iştirak emişlər.

Noyabrın 13-də Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi keçirilmişdir. Yubiley tədbirlərinə Bakıdan, Türkiyə və İran İslam Respublikasından nümayəndələr gəlmişdilər. Universitetin akt zalında təntənəli yığıncaq keçirilmişdir.

Yığıncağı universitetin prorektoru, dosent İsa Həbibbəyli açaraq qonaqları səmimi salamlamışdır.

Yığıncaqda çıxış edən Heydər Əliyev bildirmişdir ki, Naxçıvan Dövlət Universiteti sərbəst ali məktəbdir, Azərbaycanın bütün ali məktəbləri ilə əlaqələrini inkişaf etdirmək üçün o çox əlverişli imkanlara malikdir. Eyni zamanda dünyanın bütün ölkələrinin ali məktəbləri ilə, elmi mərkəzləri ilə əlaqə saxlamaq imkanları da var. Çox yaxşı haldır ki, bu sahədə artıq bir sıra addımlar atılmışdır. Qonşu İran İslam Respublikası və Türkiyənin ali məktəbləri ilə, elmi mərkəzləri ilə müəyyən əlaqələr yaradılıb. Bu gün Naxçıvan Dövlət Universitetinin yubiley mərasimində İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ali məktəbləri nümayəndələrinin və dövlət xadimlərinin iştirak etməsi buna canlı sübutdur.

Heydər Əliyev qarşıda duran vəzifələrdən danışarkən demişdir ki, universitetin kollektivi müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında daha fəal iştirak etməlidir və öz işini bu günün tələbləri səviyyəsində qurmalıdır. ...Bütün dünyada qazanılmış müsbət təcrübəyə inamla yiyələnməli və ondan səmərəli istifadə edilməlidir. Bu baxımdan Türkiyə və İran dövlətlərinin ali məktəbləri ilə əlaqələr bu işdə yardımçı olacaqdır...

Heydər Əliyev iştirakçıların nəzərinə çatdırmışdır ki, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında mart ayında imzalanmış İşbirliyi Protokolu əsasında 75 nəfər gənc bu il Türkiyənin universitetlərinə qəbul olunmuşdur... Bundan sonra Türkiyə hökuməti Muxtar Respublikamız üçün öz hesabına ildə 100 nəfər gəncin ali təhsil almasını təmin edəcəkdir.

...Bu dövrdə Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti Muxtar Respublikanın çox az olan daxili imkanlarından maksimum istifadə etməyə çalışır, qonşu dövlətlərlə - Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün lazımi tədbirlər həyata keçirirdilər.

Türkiyə Cümhuriyyəti tərəfindən ayrılmış kredit hesabına təkcə son dörd ayda Naxçıvana 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 182 ton zeytun yağı, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2,283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6 min ton un gətirilmişdi.

Bu yardımın nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək üçün göstərmək kifayətdir ki, keçən dörd

ay ərzində Bakıdan Naxçıvana cəmi 15 ton mal əti, 219 ton kərə yağı, 35 ton şəkər tozu, 164 ton düyü, 2 ton makaron, 3200 ton un gəlmişdi.

Ağır blokada şəraitinə baxmayaraq Dünya azərbaycanlılarının həmrəylik günü xüsusi olaraq qeyd edilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mərasimdə çıxış edərk bildirmişdir ki, sərhədlərin götürülməsi bundan sonra da Türkiyə və İran İslam Respublikası ilə Azərbaycan arasında, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişlənməsini təmin etmişdir. Bunun üçün çox işlər görülmüşdür... 3 il ərzində gedən proseslərin məntiqi nəticəsi bundan ibarətdir ki, bu addımlar Naxçıvan Muxtar Respublikasına çox böyük mənfəət verəcəkdir.

Bunların hamısı onu göstərir ki, bizim bugünkü bayram dünya azərbaycanlılarının həmrəyliyini təmin edərək eyni zamanda Azərbaycan Respublikası ilə İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti arasında əlaqələrin daha da genişlənməsinə şərait yaradır. Bunlar da Azərbaycan Respublikasının müstəqilliyinin təmin edilməsi üçün əsas şərtlərdən biridir.

Heydər Əliyevin Naxçıvanda apardığı uğurlu xarici siyasət gedişləri o vaxtlar hakimiyyətdə olanların bir çoxunun qibtə mərkəzində idi. Bəziləri artıq Bakının və Naxçıvanın xarici siyasətə müxtəlif mövqelərdən yanaşmasından söhbət belə açır, aranı qızışdırmaq üçün cəhdlər edirdilər. Ancaq Heydər Əliyev müdrik bir insan kimi bu siyasəti ümumi siyasətin tərkib hissəsi kimi görür, Naxçıvanda Türkiyə və İranla əlaqələr quranken bütöv Azərbaycan üçün çalışırdı. O, "Nezavisimaya qazeta"nın müxbirinin bu mövzuda verilən sualına cavab verərkən qətiyyətlə bildirmişdi ki, sualın məzmunu ilə tam razı deyildir. Naxçıvanın heç bir müstəqil xarici siyasəti ola bilməz. Lakin Azərbaycanın yeritdiyi xarici siyasət haqqında öz mövqeyini və ona münasibətini bildirmək hüququna malikdir. Bizim fikrimizcə, Azərbaycan özünə geopolitik vəziyyətini nəzərə alaraq dərin düşünülmüş və ehtiyatlı siyasət yeritməlidir. Azərbaycan qonşu ölkələrlə yalnız xoş münasibət yaratmağa çalışmalıdır. Bu hər bir dövlətin xarici siyasətinin əsas qanunudur.

Naxçıvana gəldikdə isə, biz 6 aydır ki, blokadadayıq. Dəmiryol əlaqələri, enerji, yanacaq və respublikanın başqa həyat təminatı ehtiyacının Azərbaycandan göndərilməsi kəsilmişdir. Belə ağır şəraitdə biz böhran vəziyyətindən həmsərhəd İran və Türkiyə ilə iqtisadi əlaqələr hesabına çıxırıq. İrandan bu yaxınlarda enerji və başqa yanacaq ehtiyatlarının təchizi başlanıb.

Artıq 4 aydır ki, Naxçıvan ərzağa öz minimal tələbatını demək olar ki, Türkiyənin Muxtar Respublikaya ayırdığı kredit, ondan aldığı mallar

hesabına ödəyir.

Zənnimcə, bizim bu əlaqələrimiz Azərbaycanın xarici siyasətinə zərrə qədər də zidd deyil. İran və Türkiyə ilə səmimi qonşuluq münasibəti Azərbaycana yalnız xeyir gətirə bilər.

1993

1993-cü ildə də əlaqələrimiz inkişaf yolu ilə getmişdir. Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilovla birlikdə buraya gəlmiş respublika Nazirlik və Baş İdarə rəhbərlərinin böyük bir qrupu ilə görüşmüşdür.

Heydər Əliyev son 9 ayda Ermənistan Respublikasının blokadaya aldığı Naxçıvan Muxtar Respublikasının düşdüyü ağır sosial-iqtisadi vəziyyət barədə danışmışdır. Ali Məclisin Sədri göstərmişdir ki, ərazicə Azərbaycandan ayrı düşən Naxçıvanın bütün kommunikasiya əlaqələri pozulub, Azərbaycandan ərzaq və yanacaq gətirmək çətinləşib. Əhali İrandan və Türkiyədən alınan yardımlar hesabına yaşayır. Bunlar isə tükənmək üzrədir.

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

Səfir Heydər Əliyevə ona üz vermiş ağır itki - qardaşı akademik Həsən Əlirza oğlunun vəfatı münasibətilə başsağlığı vermişdir.

İkitərəfli münasibətlərin bundan sonra da sıx əməkdaşlıq və mehriban qonşuluq zəminində inkişafı zərurətini qeyd edən Altan Karamanoğlu Türkiyə Cümhuriyyətinin Naxçıvana təyin olunmuş Baş konsulu Orxan Ərtoğruloğlunu Muxtar Respublika rəhbərinə təqdim etmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikasında Türkiyə Cümhuriyyətinin Baş konsulunun fəaliyyəti ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.

Muxtar Respublika Ali Məclisinin Sədri bildirmişdir ki, Naxçıvanda Türkiyə Cümhuriyyətinin rəsmi təmsilçisinə ciddi ehtiyac duyulur. Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımi səviyyədə inkişaf etdirilsin.

Sonra Ali Məclisin Sədri Altan Karamanoğlunun xahişi ilə Ermənistan Respublikası tərəfindən blokadaya alınan Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət barədə məlumat vermişdir.

Türkiyə Cümhuriyyətinin səfiri əmin etmişdir ki, bu məlumatı təcili olaraq təmsil etdiyi dövlətin rəhbərliyinə çatdıracaqdır.

Söhbətdə hər iki tərəfdə qarşı-

lıqlı maraq doğuran pasport və viza məsələlərindən, gömrük xidmətinin gücləndirilməsi sahəsində həyata keçiriləcək tədbirlərdən danışılmışdır.

Heydər Əliyev mart ayında Bakıda olmuş, burada Amerikanın, Fransanın, Türkiyənin, İranın, İngiltərənin və Rusiyanın səfirləri ilə görüşlər keçirtmiş, Naxçıvanın blokadadakı ağır vəziyyətindən danışmışdır. Geri döndükdən sonra, kreditin qalanının da verilməsi barədə Türkiyənin Baş naziri Süleyman Dəmirəllə telefon danışıqları aparmış, 12 mart 1993-cü il tarixdə müşavirə keçirmişdir. İclasda çıxış edən Heydər Əliyev göstərmişdir ki, bir ilə yaxın davam edən blokada bizə çox ağır zərbə vurmuşdur. Azərbaycanın başqa rayonlarına nisbətən bizim vəziyyətimiz bir də ona görə ağırdır ki, təchizat məsələləri çətinləşib. Ona görə də biz bu vəziyyətdən çıxış yolu axtarmalıyıq... Bu baxımdan biz Türkiyə və İran ilə iqtisadi əlaqələrimizi genişləndirməliyik.

Heydər Əliyev demişdir ki, yaranmış vəziyyət göstərir ki, biz bir daha gübrə almaq üçün Türkiyənin Kənd Təsərrüfatı nazirliyinə müraciət etməliyik. İstehsal olunmuş 7000 ton tütünün daşınması və satılması üçün qonşu Türkiyə və İranla əlaqə saxlamalıyıq

Göstərmişdir ki, keçən qışı çox çətinliklə başa vurduq. Azərbaycandan göndərilən, həmçinin Türkiyədən kredit hesabına alınan və İrandan gətirilən ərzaq hesabına əhalini təmin edə bildik. İndi biz daha gözləyə bilmərik ki, Türkiyədən, İrandan ərzaq məhsulları, ət, yağ, düyü, makaron gələcək və beləliklə də biz daim himayə altında olacağıq. Buna qətiyyən yol vermək olmaz. Ona görə də biz indi gərək hər qarış torpaqdan, hər bir imkandan səmərəli istifadə etməliyik.

Çıxışdan da göründüyü kimi Heydər Əliyev Naxçıvanın ağır anlarında qardaş Türkiyənin köməyindən həmişə istifadə etmiş, eyni zamanda öz imkanlarımızdan da səmərəli istifadə etməyin tərəfdarı olmuşdur.

Aprel ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə dördüncü işgüzar səfərə getmişdir.

Sədərək-Dilucu körpüsündə Heydər Əliyevi Aralıq qəzasının kaymakanı Həsən İpək qarşılamışdır.

Heydər Əliyev buradan İqdır vilayətinə getmişdir. Onu İqdırın valisi Ərdoğan İzgi, bələdiyyə başqanı Əli Ağrı və digər rəsmi şəxslər qarşılamışlar. Həmin gün vertolyotla İqdıra gələn Türkiyə Cümhuriyyətinin dövlət naziri Orxan Kilərçioğlu ilə Heydər Əliyevin görüşü olmuşdur. Səmimi və işgüzar söhbətdən sonra Heydər Əliyev və Orxan Kilərçioğlu İqdırın bələdiyyə idarəsinə gəlmiş, şəhərin mərkəzi meydanında keçirilən böyük mitinqdə iştirak etmişlər.

Dövlət naziri Orxan Kilərçioğlu mitinqdə çıxış edərək Türkiyə hökumətinin həyata keçirdiyi iqtisadi tədbirlərdən danışmışdır. Sonra o, Heydər Əliyevi səmimi salamlamışdır. Orxan Kilərçioğlu erməni ordusunun Azərbaycan torpaqlarının işğal etməsindən narahat olduğunu bildirmiş, suveren dövlətin ərazisinin işğalına son qoyulmasını tələb etmişdir.

Mitinq iştirakçıları tərəfindən hərarətli alqışlarla qarşılanan Heydər Əliyev İqdır əhalisinə, bütün türk xalqına səmimi salamlarını və xoş arzularını çatdırmışdır. "Həsrət körpüsü" istifadəyə veriləndən sonra xalqlarımızın bir-birinə daha da yaxınlaşdığından, əlaqələrin genişləndiyindən danışmışdır.

Heydər Əliyev Süleyman Dəmirəlin başçılıq etdiyi koalisyon hökumətin 500 günlük fəaliyyətini, bunun məntəqədə barış, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin yaratdığını bildirmişdir. Heydər Əliyev demişdir ki, Azərbaycan Respublikası, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə əlaqələrin genişlənməsinə çalışır. Bu, qardaş xalqların həyati mənafeyinə xidmət edir.

Ermənistan təcavüzünün qarşısını almaq üçün Azərbaycan xalqının qanlı döyüşlər aparmasından danışan Heydər Əliyev demişdir ki, xalq azğın işğalçıları geri oturdacaq, öz torpağını müdafiə edəcəkdir.

Meydandan "Erməni işğalçılarına ölüm!", "Azərbaycandan əlini çək" çağırışları uzun müddət kəsilməmişdir.

Heydər Əliyev və Orxan Kilərçioğlu son aylar Türkiyəyə gələn və İqdır vilayəti ərazisində yaşayan axıska türklərinin yanına getmişlər.

Qonaqlarla görüşə toplaşan axıska türkləri ilə mehriban söhbət olmuş, təntənəli yığıncaq keçirilmişdir. Yığıncaqda İqdırın valisi Ərdoğan İzgi, dövlət naziri Orxan Kilərçioğlu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev çıxış etmişlər.

Heydər Əliyev axıska türklərinin böyük bir qrupunun uzun müddət Azərbaycanda yaşadığından danışmış, öz yurdundan didərgin salınan axıska türklərinə qarşı yol verilən tarixi ədalətsizliyə son qoyulacağını bildirmiş, türk xalqlarının birliyinin vacibliyini qeyd etmişdir.

Axıska türkləri adından İbrahim Razigil çıxış edərək köçkünlərə göstərilən qayğı və diqqətə görə minnətdarlığını bildirmiş, Azərbaycan xalqının axıska türklərinə olan həmrəyliyi və mehribanlığı üçün Heydər Əliyevə üzərində "Tanrı, türkü qoru"! sözləri əks olunmuş xalça bağışlamışdır.

Orxan Kilərçioğlu və Heydər Əliyev axıska türklərinin yaşadıqları evlərə baxmış, onların sosial-məişət problemləri ilə maraqlanmışlar.

Günün ikinci yarısı Heydər Əliyevlə İqdırın valisi Ərdoğan İzgi arasında danışıqlar olmuşdur.

Qarşılıqlı anlaşma və mehribanlıq şəraitində keçən söhbət zamanı tərəfləri maraqlandıran məsələlərə toxunulmuşdur. Naxçıvana ərzaq və

digər yardımlar göstərilməsi barədə konkret təkliflərə baxılmışdır.

Türkiyə işgüzar dairələrinin və sahibkarların iştirakı ilə keçirilən söhbətdə qarşılıqlı iqtisadi əlaqələrin və sərhədyanı ticarətin genişləndirilməsi barədə razılıq əldə edilmişdir.

Heydər Əliyev Türkiyəyə səfəri ilə əlaqədar yerli mətbuat nümayəndələrinə və Türkiyə televiziyasına verdiyi müsahibədə səfərin işgüzar xarakter daşıdığını, Naxçıvanın iqtisadi və digər problemlərinin həlli ilə bağlı olduğunu bildirmişdir.

Həmin gün axşam Heydər Əliyev Naxçıvana qayıtmışdır.

Türkiyə Cümhuriyyətinə səfərdə Heydər Əliyevi Türkiyənin Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğlu və digər rəsmi şəxslər müşayiət etmişlər.

Uzun müddət iqtisadi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchizatında yaranmış çətinliklərlə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin "Qızıl Ay" cəmiyyətinin baş direktoru Kamal Dəmirlə telefon danışıqları aparmış, Naxçıvana yardım göstərilməsini xahiş etmişdir.

1992-cü il aprel ayının 15-də Kamal Dəmir bildirmişdir ki, "Qızıl Ay" cəmiyyəti 2 min 380 ton un, yağ, şəkər, düyü, makaron və digər ərzaq mallarının bu günlərdə Naxçıvan Muxtar Respublikasına göndərilməsini planlaşdırmışdır. Görüşlərin nəticəsi kimi artıq aprel ayının 16-da ərzaq malları yüklənmiş 7 böyük yük avtomobili Ankaradan Naxçıvana yola düşmüşdür.

Elə bu ağır günlərdə Naxçıvanda ərzaq qıtlığı ilə əlaqədar Heydər Əliyev ilə Türkiyə Cümhuriyyətinin Kənd Təsərrüfatı naziri Nəcməddin Cevhəri arasında telefon danışıqları olmuşdur.

Aprelin 16-da Nəcməddin Cevhəri Heydər Əliyevə məlumat vermişdir ki, Türkiyə Cümhuriyyətinin Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikasına 2 min ton buğda göndərmək haqqında qərar qəbul etmişdir.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Cümhuriyyəti Hökuməti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi arasında bağlanmış müqaviləyə əsasən Naxçıvan Muxtar Respublikasına kredit verilməsi məsələsi aprel ayında Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəllə aparılan danışıqların əsas məzmununu təşkil etmişdir. Bunun nəticəsində bu kreditin 25 milyon Amerika dolları məbləğində istifadə olunması haqqında Türkiyənin "Eksim bankı" qərar qəbul etmişdir. Ayrılmış kreditin 10 milyon dolları Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchiz edilməsinə yönəldilməsi nəzərə alınmışdır.

Başda Heydər Əliyev olmaqla Naxçıvan Muxtar Respublikasının əhalisi həmişə qədirbilən olmuş, həm yaxşı, həm də ağır günlərdə qardaş

Türkiyənin yanında olmağa çalışmışlar. - Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın qəflətən vəfatını eşidən xalq aprelin 19-da Naxçıvanda Türkiyənin Baş konsulluğunun yerləşdiyi binaya bir-birinin ardınca dəstə-dəstə gələrək türk aləminə baş vermiş ağır itki üçün - Türkiyə Cümhuriyyətinin Prezidenti, türk xalqları qarşısında böyük xidmətləri olan görkəmli dövlət xadimi Turqut Özalın vəfatı ilə əlaqədar Türkiyənin Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğluna öz dərin kədərlərini bildirmiş, canı bir, qanı bir qardaşlarımıza dərin hüznlə başsağlığı vermişdir.

Saat 12-də Heydər Əliyev başda olmaqla Muxtar Respublika Ali Məclisinin və Nazirlər Kabinetinin rəhbər işçiləri öz kədərlərini ifadə etmək və başsağlığı vermək üçün konsulluğa gəlmişlər. Heydər Əliyev matəm kitabına aşağıdakı sözləri yazmışdı: **"Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın vəfatı Naxçıvan Muxtar Respublikası əhalisinin böyük kədərinə səbəb olmuşdur. Beynəlxalq aləmdə böyük dövlət xadimi, İslam aləminin, türk dünyasının görkəmli şəxsiyyəti, Azərbaycan xalqının böyük dostu olmuş Turqut Özalın əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Türkiyə Cümhuriyyətinin hökumətinə, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin".**

Sonra Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğluna başsağlığı verərək demişdi:

- Prezident Turqut Özalın vəfatı bizim hamımızı sarsıtdı. Turqut Özalın vəfatı bütün türk dünyası üçün, bütün qədirbilən insanlar üçün çox ağır itkidir. Naxçıvan Muxtar Respublikasının əhalisi bu günlər matəm içərisindədir. Biz Türkiyədə olan qardaş-bacılarımızla birlikdə matəm keçiririk. Türkiyə Cümhuriyyətinin sürətlə inkişaf etməsində Turqut Özalın böyük xidmətləri hamımıza məlumdur. Bu, bir çox dövlətlər, xalqlar üçün, o cümlədən Azərbaycan üçün böyük örnəkdir. **Azərbaycan Respublikası və Azərbaycan xalqı Turqut Özalın qayğısını, hörmət və ehtiramını həmişə hiss etmiş və qiymətləndirmişdir.**

Turqut Özalın türk cümhuriyyətlərinə səfəri və xüsusən Azərbaycan Respublikasına gəlişi böyük bir tarixi hadisə olmuşdur. Bu səfər Azərbaycan Respublikasının belə ağır günlərində bizim üçün böyük mənəvi dayaq idi. Bunu xalqımız heç vaxt unutmayacaqdır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə sərhədboyu bağlı bir məntəqədir. Bildiyiniz kimi Muxtar Respublika son dövrdə çətin anlar keçirir. Ermənistanın təcavüzü nəticəsində Naxçıvan iqtisadi blokada şəraitində yaşayır. Bu dövrdə Turqut Özalın, Türkiyə Cümhuriyyətinin Baş nazirinin və başqa dövlət rəhbərlərinin Naxçıvan Mux-

tar Respublikasına xüsusi münasibəti və yardımı bizim ağır vəziyyətdən çıxmağımıza çox kömək etmişdir. Mən şəxsən Turqut Özalı 10 ilə yaxın bir dövrdür ki, yaxından tanıyıram. Bizim yaxın münasibətlərimiz, dostluq əlaqələrimiz olub. Mən dəfələrlə onunla görüşmüşəm. Görüşlərimizdə, söhbətlərimizdə həmişə çox yüksək zəka sahibi, çox böyük təcrübəli siyasi, ictimai və dövlət xadimi olduğunun şahidi olmuşuq. Mərhum Prezident hər dəfə bizi çox böyük hörmət və ehtiramla qəbul edib. Türkiyənin Naxçıvana xüsusi münasibətini qeyd etmişdir. Ona görə də bu günlər biz bir daha Türkiyə Cümhuriyyətinə öz minnətdarlığımızı bildiririk. Türkiyə Böyük Millət Məclisinə, Türkiyə hökumətinə və onun Baş naziri Süleyman Dəmirələ, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Bildirmək istərdik ki, bu ağır günlərdə Azərbaycan, o cümlədən bütün Naxçıvan əhalisi bir daha türk qardaşlarımızla bir yerdədir. Allah Turqut Özala rəhmət eləsin, qəbri nurla dolsun. Onun gördüyü işlər həm Türkiyədə və həm də türk dünyasında öz davamını tapacaqdır. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qardaşlıq və dostluq əlaqələri bundan sonra daha da möhkəmlənəcəkdir.

Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğlu Heydər Əliyevə və onun şəxsində bütün Naxçıvan əhalisinə, onların dərdinə şərik çıxdıqları üçün son dərəcə mütəəssir olduğunu bildirmiş və səmimi təşəkkür etmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il aprel ayının 19-dan 25-dək Türkiyə Cümhuriyyətində beşinci dəfə səfərdə olmuşdur. Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın Ankarada və İstanbulda keçirilən matəm mərasimlərində iştirak etmişdir.

Heydər Əliyev Turqut Özalın ailəsini ziyarət etmiş, mərhum prezidentin həyat yoldaşı Səmra Özala və ailə üzvlərinə ağır itki münasibətilə başsağlığı vermişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası adından Türkiyə Böyük Millət Məclisinin Sədri Hüsaməddin Cindoruğa və Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirələ başsağlığı vermişdir.

Ankarada olarkən Heydər Əliyev Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün buraya gəlmiş Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Gürcüstan Parlamentinin sədri, dövlət başçısı Eduard Şevarnadze, Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyan, Rusiya Federasiyası Baş nazirinin müavini Georgi Xica, İran İslam Respublikasının Xarici İşlər naziri Əli Əkbər Vilayəti ilə, digər dövlətlərin nümayəndə heyətlərinin başçıları ilə görüşmüş və söhbətlər etmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın dəfn mərasimi

başa çatdıqdan sonra Heydər Əliyev İstanbuldan Ankaraya qayıtmış, aprelin 23-də və 24-də Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və blokada ucbatından burada yaranmış problemlərin həlli ilə əlaqədar Türkiyə hökuməti nazirləri ilə işgüzar görüşlər keçirmişdir.

Heydər Əliyev aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 70-ci ildönümünə həsr olunmuş iclasında iştirak etmişdir.

Aprel ayının 24-də Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl Heydər Əliyevi qəbul etmişdir. Görüş zamanı Naxçıvan Muxtar Respublikasının iqtisadi problemləri və Naxçıvana maddi yardım məsələləri müzakirə olunmuşdur. 24 mart 1992-ci il tarixdə Ankarada imzalanmış işbirliyi protokoluna əsasən Türkiyə hökuməti tərəfindən Naxçıvan Muxtar Respublikasına ayrılmış kreditin 25 milyon Amerika dolları məbləğində hissəsinin yaxın günlərdən başlayaraq istifadə olunması haqqında qərar qəbul olunmuşdur. Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da sürətlə genişlənməsinə və inkişaf etməsinə bundan sonra da səy göstərəcəyini, Naxçıvan Muxtar Respublikasının problemlərinin həlli məsələlərini xüsusi diqqət mərkəzində saxlayacağını bildirmişdir. Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Kənd Təsərrüfatı naziri Nəcməddin Cevhəri və "Qızıl Ay" Cəmiyyətinin baş direktoru Kamal Dəmirlə də görüşmüş və danışıqlar aparmışdır. Naxçıvan Muxtar Respublikasına yardım məqsədilə Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2 min ton buğda və "Qızıl Ay" Cəmiyyəti tərəfindən 2 min 330 ton müxtəlif ərzaq malları göndərilməsi haqqında razılıq əldə edilmişdir. Yaxın vaxtlarda Türkiyə Cümhuriyyətinin Kənd Təsərrüfatı Nazirliyinin bir qrup mütəxəssisinin Naxçıvan Muxtar Respublikasına gəlməsi nəzərdə tutulmuşdur.

Aprel ayının 24-də Heydər Əliyev Ankarada Türkiyənin Ana Vətən Partiyasının başçısı Məsud Yılmazla görüşmüşdür. Tərəflər mühüm ictimai-siyasi proseslər haqqında fikir mübadiləsi aparmışlar.

Heydər Əliyev aprelin 25-də Naxçıvana qayıtmışdır.

16 may 1993-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Süleyman Dəmirəli Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə ürəkdən təbrik etmiş, bildirmişdir ki, müstəqil Azərbaycan Respublikasının qarşısında duran problemlərin həll olunmasına qardaşlıq münasibəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Ağır blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına daimi göstərdiyi qayğı və diqqətə görə ona dərin minnətdarlığını bildirmişdir.

Əmin olduğunu söyləmişdir ki, bundan sonra da Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə və inkişaf etməsinə səy göstərəcəkdir.

Bu andan sonra Azərbaycan - Türkiyə əlaqələrinin Naxçıvan mərhələsi tamamlanmış, məlum iyun hadisələrindən sonra Heydər Əliyev artıq bu əlaqələrdə təkcə Naxçıvanı deyil, bütov Azərbaycanı təmsil etməyə başlamışdır. Bununla da əlaqələrimizdə yeni böyük inkişaf mərhələsi, əsaslı dəyişikliklər dövrü başlamışdır.

1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə verilmişdir.

O, Azərbaycan Respublikasının adından bəyan etmişdir ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirmişdir ki, Azərbaycan demokratiya, siyasi plüralizm, və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan Respublikası insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir.

Azərbaycan dövləti adından bir daha bəyan etmişdir ki, ABŞ, Rusiya və Türkiyənin təşəbbüsü ilə ATƏM çərçivəsində göstərilən bütün cəhdlərin və qəbul olunmuş qərarların tərəfdarıyıq...

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev dövlət başında olduğu ilk anlardan qardaş Türkiyənin, ABŞ və Rusiya kimi böyük dövlətlərinin, BMT, ATƏM və dünya ictimaiyyətinin diqqətini Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə intensiv hücumları ilə yaranmış vəziyyətə cəlb edərək onları təcavüzün dayandırılması üçün lazımi tədbirlər görməyə çağırdı. Onun 5 iyul 1993-cü il tarixli bəyanatında deyilirdi:"... Belə bir vəziyyətlə barışmaq isə qətiyyən mümkün deyildir. Bunun qarşısını almaq üçün ABŞ, Rusiya və Türkiyə üzərlərinə götürdükləri missiyanı yerinə yetirməlidirlər və verdikləri vədlərə sadiq olmalıdırlar... Şəxsən mən bilavasitə Ermənistan Respublikasının rəhbərləri ilə, Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovla, ABŞ və Türkiyənin Azərbaycandakı səfirləri ilə telefon danışıqları aparmışam, təcavüzün dərhal dayandırılmasını xahiş etmişəm, məsələnin asudə, sülh yolu ilə həll edilməsinə dəvət etmişəm..."

Azərbaycanın başçısı kimi fəaliyyət göstərməyə başladıqdan sonra Heydər Əliyev fürsət düşən kimi qonşu ölkələrlə, o cümlədən Türkiyə ilə mövcud olan əlaqələrimizin daha da möhkəmləndirilməsinə çağırmışdır. "Sobesednik"in müxbirin müsahibədə "Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələr kara gəldiyini, Türkiyədən elektrik xətti çəkdiyimizi, ərzaq üçün 10 milyon dollar kredit, cürbəcür humanitar yardımlar aldığımızı" bildirən Heydər Əliyev başqa bir müsahibəsində ilk anlarda yaranmış vəziyyəti aşağıdakı kimi açıqlayırdı:

"...İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran Prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerji almağa başladıq. Eləcə də yanacaq və ərzaq... Türkiyə Prezidenti Dəmirəlin özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən onun yanına, Ankaraya uçdum. Mən Türkiyəyə yol çəkdirdim. Araz çayı üstündən körpü saldırdım və mal təchizatını təşkil etdim. Lakin başlıca nailiyyətim budur ki, mən Ermənistanla silahlı münaqişəyə yol vermədim. Vəziyyət çox gərgin idi, ciddi hadisələr baş verirdi, lakin mən çıxış yolu tapdım, nəticədə torpağımız al-qana boyanmadı. Mən çox sadə yaşayır, aza qane olurdum, məişət şəraitimiz ağır idi..."

Azərbaycanın İrana və Türkiyəyə güclü meyl göstərməsinə həsədlə baxanlara, din birliyi amilini az qala milli birlik amili kimi qələmə verənlərə cavab olaraq Heydər Əliyev göstərirdi ki, hər dövlətin öz xarici siyasəti var. Milli xüsusiyyətlər, din - bunlar da əhəmiyyətli amillərdir. Şəxsən mən milli hissləri dini hissləri qarışdırmazdım. Bu kateqoriyalar heç də hər cəhətdən oxşar deyildir, hərçənd əksər hallarda onları bəziləri az qala eyniləşdirməyə çalışırlar.

Bir vaxtlar bütün Qərb, elə Şərq də Sovet xalqlarının hamısına ən böyük şər kimi baxırdılar, səbəb də onların Allaha "inanmaması" idi. Adamlar, xalqlar Allaha, dinə üz tutduqları bir vaxtda bunu ayrı bir niyyət kimi də qələmə vermək olmaz. ...O ki qaldı milli xüsusiyyətlərə, burada hətta səthi etnoqrafik bilik hər şeyi ətraflı şəkildə izah edir. Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. İranda on milyonlarla azərbaycanlı yaşayır. Bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirir.

...Yetmiş ildən artıq bir müddətdə biz öz cənub qonşularından ayrı düşən Azərbaycan xalqı, inteqrasiya əhval-ruhiyyəsi bütün dünyaya hakim kəsildiyi bir vaxtda qonşularla normal münasibətlər qurmalıdır. Belə ki, Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir. Lakin təxminən 200 il Azərbaycan Rusiyanın tərkibində olmuşdur. Bu isə dərin iz buraxmışdır. Azərbaycanın həm Rusiya, həm Türkiyə, həm də digər dövlətlərlə yaxşı dostluq münasibətləri olmalıdır. Misal üçün, Qazaxıstanda,

Özbəkistanda, Türkmənistanda çoxlu azərbaycanlı yaşayır. Rusiyada onlar təqribən 2 milyon nəfərdir. Onların sayı Şimali Qafqazda xüsusilə daha çoxdur. Bütün bunlar ona dəlalətdir ki, son dərəcədə ağıllı xarici siyasət yeritmək lazımdır.

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyənin təkcə Naxçıvanın deyil, həm də bütövlükdə Azərbaycanın ərazi bütövlüyü üçün təminatçı olmağa hazırlığına da yüksək qiymət vermiş, hər hansı köməyi, kimin tərəfindən təklif edilməsindən asılı olmayaraq, Azərbaycanın razılıq hissi ilə qarşıladığını, bu münaqişənin aradan qaldırılması naminə bütün ölkələrlə, o cümlədən də Türkiyə ilə əməkdaşlıq etməyə hazır olduğumuzu dəfələrlə bəyan etmiş, göstərmişdir ki, Ermənistan silahlı birləşmələrinin son dərəcə təhlükəli, avantürist, təcavüzkar hərəkətləri münaqişəni beynəlmiləlləşdirməyə doğru aparır. Buna bizə çox yaxın olan qonşularımız, nə İran, nə də Türkiyə biganə qala bilməz... O, Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşılaşmasının Azərbaycan ilə Ermənistan arasındakı hərbi münaqişənin həllinə ümumən Qafqazda mövcud olan problemlərin, xüsusilə hərbi münaqişələrin aradan qaldırılmasına çox kömək edəcəyini düşündüyünü söyləmişdir.

Heydər Əliyev həmişə belə bir qənaətdə olmuşdur ki, həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, islam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək ölkəmiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır. O cümlədən - Şərq ölkələri - İran, Türkiyə, ərəb ölkələri ilə əlaqələrimizi genişləndirməliyik.

Türkiyə üçün Azərbaycan, Azərbaycan üçün isə Türkiyə dövlət siyasətinin məhək daşı, bünövrəsi, əsasıdır. Bu illər ərzində biz bu siyasətə, qardaşlığa, əməkdaşlığa, strateji müttəfiqliyə o qədər öyrənmiş, alışmışıq ki, çoxları üçün bu adi bir məsələ kimi görünür və demək olar ki, heç bir mübahisə doğurmur. Ancaq əslində bu heç də belə deyildir. Hər şey tədricən, yavaş-yavaş, zamanənin süzgəcindən keçərək, yüzlərlə gözə görünən və görünməyən maneələrlə üzləşərək indiki hala gəlib çatmışdır. Əlbəttə, bunun üçün iki xalq arasında mövcud olan ürəklərdənürəklərə gedən yollar, əsrlərdən keçib gələn həsrət, həmişə ürəklərdə və beyinlərdə kükrəyən türklük duyğusu az rol oynamamışdır. Ancaq rəhbərlərimizin və siyasətçilərimizin çəkdiyi cizgilər, qurduqları planlar, keçdikləri keşməkeşli yollar, gecəgündüz iki qardaş xalqın bir-birinə köməyinin və dəstəyinin istənilən səviyyəyə çatması, dövlətçiliyinin möhkəmlənərək dünya miqyasına çıxması üçün ölkələrimizin liderlərinin - Prezident Heydər Əliyevin və Prezident Süleyman Dəmirəlin gördüyü işlər iki qardaş dövlətin strateji müttəfiqlik mərtəbəsinə gəlib çatması yolunda həlledici rol oynamış və oynamaqdadır. Harada olurlarsa olsunlar, hansı vəzifədə çalışırlarsa çalışsınlar, liderlərimizin bir-biri ilə yaratdıqları xoş ünsiyyət, bir-birlərinə bəslədikləri inam və qəlblərində daşıdıqları qardaşlıq sevgisi bir bayraq olmuş, aparıcı rol oynayaraq xalqlarımızın daha da yaxınlaşmasına yardım etmişdir. Hələ 1967-ci ildə Bakıda əsası qoyulan əlaqələr onilliklərdən keçərək möhkəmlənmiş, xalqımız müstəqillik qazandıqdan sonra isə üzə çıxmış, həlledici həlqə rolunu oynamağa başlamışdır. Açıq deməliyik ki, Prezident Heydər Əliyev Türkiyə ilə əlaqələrimizə həmişə önəmli yer vermiş, çətin anlarda bu qardaş ölkədə, onun xalqında dəstək aramışdır. O, hələ 1992-ci ildə Naxçıvanda olarkən ağır günlərdə üzünü dostu Süleyman Dəmirələ və qardaş türk xalqına tutmuş, kömək diləmişdir.

Məhz onun səyləri nəticəsində məşhur Ümid körpüsü tikilmiş, blokada şəraitində olan Naxçıvan kömək almağa başlamışdır. O günləri Prezidentimiz özü belə xatırlayır: "Mən də o illəri xatırlayıram. 1990-cı ildə, - mən o vaxta qədər Moskvada yaşayırdım, - yanvarın 20-də Sovetlər Birliyi hökumətinin, Qorbaçov hökumətinin Azərbaycan xalqına etdiyi hərbi təcavüzdən, Azərbaycana böyük ordu hissələri göndərməsindən, Azərbaycanda müstəqillik, azadlıq arzuları ilə meydanlara, küçələrə toplaşmış günahsız insanları qırmasından sonra məndə o hökumətə, uzun illər üzvü olduğum Kommunist Partiyasına böyük nifrət hissi oyandı. Mən getdim, etiraz etdim, Sovet hökumətini, Sovet hökumətinin başçılarını məhkum etdim, suçlandırdım və Kommunist Partiyasının sıralarını tərk etdim. Bundan sonra Azərbaycana gəldim. Doğma Bakıda yaşamaq mənim üçün mümkün olmadı, Naxçıvana getdim. O vaxt Naxçıvan ağır vəziyyətdə idi. Ermənistanla Azərbaycan arasında olan münaqişə, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində Azərbaycanın böyük hissəsi ilə, Bakı ilə Naxçıvanın əlaqələri tamamilə qırılmışdı. Naxçıvana kömək lazım idi. Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, türk xalqı uzatdı, Türkiyənin böyük şəxsiyyəti, türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni bir-birinə bağlaya bilən bir körpünün - Araz çayı üzərində körpünün tikilməsinə başladıq. Bu körpünü müştərək tikdik, amma bunun bütün zəhməti, əziyyəti, xərci, məsrəfləri Türkiyənin üzərinə düşdü. Qısa bir müddətdə bu körpünü tikdik və 1992-ci il may ayının 28-də bu Həsrət, Ümid körpüsü təntənəli surətdə açıldı və biz hamımız orada çoxlu insanın toplaşdığı şəraitdə bunu bayram etdik. Bizim xalqımız öz qardaş-bacıları-Türkiyə torpağında yaşayan qardaş-bacıları ilə bir-birinə

qovuşdular.

O illərdə, düz altı il bundan öncə - 1992-ci ilin fevral ayında əziz dostum, qardaşım Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Yolum Qarsdan düşdü. Mən Qarsa gəldim və Cümhurbaşkanı Süleyman Dəmirəlin təyyarəsi Qarsa gəldi, məni oradan götürdü. İlk dəfə Qarsı gördüm. Qars bizim xəyalımızda əfsanəvi bir şəhər, əfsanəvi diyar, qədim türk diyarıdır, bizim üçün doğma bir diyar, doğma yerdir. Biz Qars haqqında on illərlə kitablardan oxumuşduq, tarix kitablarından oxumuşduq. Qars qurtuluş savaşını yaxşı bilirdik. Qarsda türk xalqının göstərdiyi qəhrəmanlıqları yaxşı bilirdik. Nəhayət, Qars müqaviləsi var - 1921-ci ildə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Cümhuriyyəti və Rusiya, Ermənistan Cümhuriyyətləri arasında Qars anlaşması imzalanıbdır. Bu anlaşmaya görə də Naxçıvan Muxtar Cümhuriyyətinin statusu müəyyən olunub və Türkiyə Naxçıvanın təhlükəsizliyinin təminatçısı kimi o anlaşmaya imza atıbdır. Ona görə Qarsın bütün başqa tarixi səbəblərlə yanaşı, bizim üçün belə bir böyük əhəmiyyəti də var. Mən ilk dəfə Qarsa gələndə bunların hamısına görə Qarsı böyük məhəbbət, sevgi hissi ilə ziyarət etdim. Oradan Ankaraya gəldim. Xatirimdədir, sonra - 1992-ci ilin sonunda İqdır vilayət elan olunanda, orada il elan olunanda əziz dostum, qardaşım İqdıra gəlmişdi. Mən də oraya dəvət olunmuşdum. Bu hadisəni bir yerdə bayram etdik, sonra bərabər Qarsa gəldik. Mən gördüm ki, Türkiyənin Cümhurbaşkanı Süleyman Dəmirələ nə qədər böyük hörmət-ehtiram və sevgi, məhəbbət var. İnsanlarla birlikdə görüşdük. Qars haqqında xatirələrimi bu gün danışmaq mənim üçün çox əhəmiyyətlidir. Amma Qars bələdiyyəsi başkanının da Azərbaycanın son dövr tarixi haqqında bu qədər dəyərli sözlər deməsi, yəni tarixi bu qədər yaxından və düzgün bilməsi, düzgün qiymətləndirməsi məni heyran etdi. **Biz Qars haqqında düşündüyümüz, fikirləşdiyimiz kimi, Qarsda da Azərbaycan haqqında düşünürlər, Azərbaycan haqqında fikirləşirlər. Bu, çox gözəl, çox önəmlidir, çox böyük sevinc hissi doğurur. Həqiqətdir.**" Xalqlarımız arasındakı əməkdaşlıq əlaqələri və dostluq telləri günü-gündən inkişaf edərək yüksəldiyi kimi, türk xalqının iki böyük oğlu arasında yaranan dostluq da böyüyərək inkişaf etmiş, kristallaşmış, əbədi birliyə çevrilmişdir. Ən başlıcası isə bu dostluq xalqlarımızın bir-birinə yaxınlaşmaq istəyini öz arxasınca aparan bir lokomotivə, onları saflaşdıran və kamilləşdirən bir qüvvəyə çevrilmiş, xalqlarımıza xidmətə yönəlmişdir. Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf yollarının və Prezident Süleyman Dəmirəlin bu dövrdə xalqımız qarşısındakı xüsusi xidmətlərini onun 1995-ci ilin 7-9 dekabrında Azərbaycana rəsmi səfəri zamanı ictimaiyyətlə görüşdə Prezidentimiz belə təsvir etmişdir: "Hörmətli Süleyman Dəmirəlin Azərbaycanın ayrılmaz hissəsi olan, ağır bir şəraitdə yaşayan Naxçıvan Muxtar Respublikasına göstərdiyi qayğı və diqqət haqqında xüsusi olaraq danışmaq istəyirəm. Bunun çox böyük əhəmiyyəti var. Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişə başlanandan Naxçıvan Muxtar Respublikası blokada şəraitinə düşmüşdü. Orada insanlar çox çətin bir vəziyyətdə yaşayırdılar. Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə nəqliyyat əlaqələrinin, bütün kommunikasiya xətlərinin kəsilməsi Naxçıvan Muxtar Respublikasını, onun vətəndaşlarını çox ağır bir vəziyyətə salmışdı. Belə bir vaxtda, zamanda Türkiyə Cümhuriyyəti Azərbaycana, onun ayrılmaz hissəsi olan Naxçıvana öz kömək əlini uzatdı. Məhz Türkiyə Cümhuriyyətinin səyi ilə Türkiyəni Azərbaycana bağlayan, Türkiyə ilə Naxçıvan arasında qısa bir müddətdə əzəmətli bir körpü tikildi. Bu körpü tikilərkən bütün Azərbaycan ona baxırdı. Xüsusən Naxçıvan Muxtar Respublikasının əhalisi ona həsrətlə, ümidlə baxırdı. Arazın o tayında da bizim qardaşlarımız, soydaşlarımız həsrətlə, ümidlə baxırdılar. Ona görə də körpünün adı "Həsrət körpüsü" - "Ümid körpüsü" oldu. O körpü tikildi və hörmətli Süleyman Dəmirəllə danışıqlarımız nəticəsində məhz Azərbaycanın İstiqlal günü - 1992-ci ilin 28 May günündə onunla bərabər çoxsaylı nümayəndə heyəti, Türkiyənin nazirləri, millət vəkilləri, mətbuat nümayəndələri təyyarə ilə Naxçıvanın hava limanına endilər. Bu, Naxçıvan Muxtar Respublikasının tarixində ilk hadisə idi ki, ora başqa bir dövlətin başçısı bu qədər böyük tərkibli nümayəndə heyəti ilə gəlsin. Xatırlayıram, Naxçıvan Muxtar Respublikasının bütün əhalisi ayağa qalxmışdı. Hava meydanından körpüyə qədər, Arazın qırağına qədər - Türkiyəni Azərbaycana bağlayan körpüyə qədər 75 kilometrlik yolun o tərəfində də, bu tərəfində də insanlar çəpər qurmuşdular - insan çəpəri. Naxçıvan Muxtar Respublikasının bütün əhalisi o gün oraya toplaşmışdı. Bu körpünü böyük təntənə ilə açdıq. O körpü uzun illər - on illərlə Türkiyənin də, Azərbaycanın da arzusu olmuşdur. Nəhayət, bu arzu həyata keçirildi. İndi bu körpü vasitəsilə Azərbaycanla Türkiyə arasında, ərazilərimiz arasında əlaqələr yaranıbdır. İnsanlar bundan istifadə edir və çox böyük fayda görürlər. Naxçıvanı ağır şəraitdən çıxarmaq üçün qısa bir müddətdə Naxçıvan Muxtar Respublikasına Türkiyədən elektrik xətti çəkildi. Elektrik enerjisi yox idi. Xatirimdədir, qış günlərində türkiyəli qardaşlarımız həmin elektrik xəttini çəkərkən şaxta o qədər şiddətli idi ki, onların əlləri məftillərə yapışırdı. Ancaq onlar işləyirdilər, çalışırdılar ki, üzərlərinə qoyulmuş bu vəzifəni layiqincə yerinə yetirsinlər. Bir bu deyil, 1992-ci ildə Naxçıvan Ermənistan tərəfindən hücuma məruz qaldı. O

vaxt biz səsimizi bütün dünyaya qaldırdıq. Hörmətli Süleyman Dəmirəl oradan uca səsi ilə "Naxçıvandan əlinizi çəkin" dedi. Beynəlxalq aləm bu məsələyə qarışdı. Bundan sonra bizim sıx əlaqələrimiz oldu və Naxçıvana Türkiyədən hər cür yardımlar gəldi. Mən bunu xüsusi deyirəm, ona görə ki, bilirsiniz, Naxçıvan xüsusi statusa malikdi. Vaxtilə məhz Türkiyənin iştirakı ilə məşhur "Qars müqaviləsi" əsasında, məşhur "Moskva müqaviləsi" əsasında Naxçıvan Muxtar Respublikasına xüsusi status verilmişdir və bu statusa görə Naxçıvanın statusunda bir dəyişiklik Türkiyənin icazəsi olmadan ola bilməz. O vaxt məhz Naxçıvan təhlükə altında olduğu zaman, Ermənistan Azərbaycana təcavüzünü şiddətlə həyata keçirdiyi zaman, Naxçıvan da təhlükə altında olduğu zaman biz hörmətli Süleyman Dəmirəllə birlikdə Ankarada "Qars müqaviləsi"nin nə qədər böyük əhəmiyyətli olduğunu bütün dünyaya bəyan etdik. Hamıya xəbərdarlıq olundu ki, Naxçıvanı qoruyanlar var, Naxçıvandan əllərini çəkməlidirlər.

Bütün bunların hamısı tariximizin səhifələridir. Bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin, xalqının və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin xüsusi rolunu mən bu gün burada qeyd etməyi özümə borc bilirəm." Türkiyə ilə ölkəmiz arasındakı əlaqələr Prezident Heydər Əliyev ölkəmizə rəhbərlik etməyə başladıqdan sonra daha geniş vüsət aldı, özünün indiki keyfiyyətlərini qazandı.

Prezidentimizin Türkiyə ilə tanışlığı, bu ölkənin rəhbərləri ilə əlaqələri, əlbəttə, əvvəllər də olmuş, yaradılmışdı. Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra bu əlaqələr iki müstəqil və qardaş ölkənin əlaqələrinə çevrildi, Prezident Heydər Əliyevin səyləri və atdığı addımlar, gördüyü işlərlə daha da canlandı. Onun Türkiyəyə ilk rəsmi səfəri buna ən bariz nümunədir.

1994

1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyə Cümhuriyyətinə dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı.

Əsrlərlə formalaşan birlik, əsası hələ 70-ci illərdə qoyulan Türkiyə-Azərbaycan dostluğu bu ziyarətdən başlayaraq yeni bir forma kəsb etdi və rasional bazaya əsaslanan bir təməl əsasında inkişaf etməyə başladı.

Səfər zamanı Prezident Heydər Əliyev Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Baş naziri Tansu Çillər, Xarici İşlər naziri Hikmət Çətin, TBMM-in başçısı Hüsaməddin Cindoruk, ölkənin əsas aparıcı partiyalarının liderləri Məsud Yılmaz, Dəniz Baykal, Alparslan Türkeş, Büləd Ecevitlə, Türkiyə Parlamentinin üzvləri, Türkiyədəki Azərbaycan diasporunun üzvləri ilə, Türkiyədə akkreditə olunmuş diplomatik korpusun başçıları ilə görüşmüş, Ankaranın Höcəttəpə Universitetinin fəxri doktoru diplomuna layiq görülmüş, İhsan Doğramaçının qonağı olmuş, "Bosfor deklarasiyası"nın qəbulu ilə başa çatan və müxtəlif ölkələrin din xadimlərinin İstanbulda çağırılan "Sülh və razılıq" konfransının iştirakçıları ilə, Türkiyədə oxuyan tələbələrlə və türk iş adamları ilə görüşlər keçirmişdir.

Hələ 1993-cü ilin iyun ayının 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Heydər Əliyevə Ali Sovetin Sədri kimi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri verilərkən o bəyan etmişdi ki, "Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, s.15)*. Bu o demək idi ki, bütün dövlətlərlə, o cümlədən Türkiyə ilə qurulmuş əlaqələr ən azı öz əvvəlki səviyyəsində qalacaqdır. Bu bəyanat hər iki xalqı bir növ sakitləşdirdi, sabiq hakimiyyət nümayəndələrinin onlardan sonrakı dövrdə iki qardaş ölkə arasındakı əlaqələrin pisləşməyə doğru yönələcəyi barədəki bəyanatlarının yalan olduğunu, heç bir bazaya əsaslanmadığını göstərdi.

Əlbəttə, bu bəyanatların heç bir əsası olmadığı az-çox siyasətdən baş çıxaranlar üçün gün kimi aydın idi. Heydər Əliyev kimi böyük bir siyasətçi Qarabağ uğrunda ağır döyüşlər getdiyi bir vaxt Qərbə açılan qapımızı öz əli ilə bağlaya, Türkiyə kimi sadiq müttəfiqimizdən ölkəmizi məhrum edə bilməzdi. Hadisələrin sonrakı inkişafı onu göstərdi ki, Prezident Heydər Əliyev verilən bəyanatların əksinə olaraq Türkiyə ilə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində aparılan işləri intensivləşdirmək kursu götürdü. Türkiyənin də daxil olduğu regional təşkilatlarla qurulan əlaqələrin genişləndirilməsi üçün konkret addımlar atılmağa başlandı. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirərkən 5 iyul 1993-cü ildə İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının II görüşünün iştirakçılarına göndərdiyi Müraciətdə bildirmişdi ki, "... iqtisadi əməkdaşlığın inkişafı regionlarımızın və xalqlarımızın yaxınlığına xidmət edəcək, onlara dinclik, səadət və firavanlıq bəxş edəcəkdir. İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin - Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onların birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I-ci kitab, Bakı, 1997, səh. 18)*.

Öz gücünü milli barışığa, bütün siyasi qüvvələrin sıx birliyinə nail ol-

mağa, Azərbaycan ordusunun yaradılmasına yönəldən Prezident Heydər Əliyev hələ çox əvvəllər yaranmış, o, Naxçıvan Muxtar Respublikasında Ali Sovetin Sədri olarkən isə daha da möhkəmlənən Türkiyə və İran Prezidentləri ilə olan şəxsi dostluq münasibətlərindən də bu ölkələrlə daha yaxın əlaqələr qurmaq üçün istifadə etdi. Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin Sədri kimi Türkiyəyə yol çəkdirən, Araz çayı üstündən körpü saldıran, respublikanın ərzaq və enerji ilə təminatını təşkil etdirən Heydər Əliyev bu işləri qardaş və dost ölkə ilə artıq bütün sahələrdə və bütöv Azərbaycan səviyyəsində etməyə başladı.

Türkiyəyə ilk rəsmi səfərin məqsədlərini aydınlaşdıran Prezident Binə hava limanında jurnalistlər üçün verdiyi müsahibədə bildirmişdi ki, bu səfər zamanı Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkə olan Türkiyə ilə ölkəmiz arasında əlaqələrin daha da genişlənməsi və inkişaf edilməsi üçün yeni işlər görüləcək və onlar hər iki ölkə üçün faydalı olacaqdır. Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasında ABŞ və Rusiya ilə birlikdə Türkiyənin də vasitəçilik etməsi barədə irəli sürülən təşəbbüs də müzakirə obyekti olacaqdır.

Türkiyə Cümhuriyyəti Prezidentinin iqamətgahı "Çankaya" köşkündə rəsmi qarşılanma mərasimində söylədiyi nitqdə isə faktiki olaraq bu ölkəyə münasibətdə təkcə öz hiss və düşüncələrini deyil, bütün Azərbaycan xalqının fikirlərini ifadə edərək belə bəyan etmişdir: "Bizim ölkələrimiz - Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən-əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır... Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Bu isə o vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox böyük addım olmuşdur.

Türkiyə ilə Azərbaycan arasında son illər çox faydalı əməkdaşlıq mövcuddur, əlaqələr gündən-günə inkişaf edir. Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir... Bu çətin və ağır dövrdə Türkiyənin köməyinə həmişə ehtiyacımız olub. Bu köməyi həmişə almışıq. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr tam dostluq və qardaşlıq əlaqələridir və bundan sonra da qırılmazdır, sarsılmazdır... Bütün bu illərdə Azərbaycanı müdafiə etmək üçün Türkiyənin səsi çox gur gəlib. Türkiyənin köməyi Azərbaycana mənəvi dayaq olub. Biz bu mənəvi yardımdan, köməkdən bu gün də istifadə edirik... Dost və qardaş Türkiyə Cümhuriyyəti ilə, qardaşlarımızla görüşüb danışıqlar, məsləhətləşmələr aparmağa daim ehtiyacımız olub. Gü-

man edirəm ki, bu səfər, ziyarət vaxtı danışıqlarımızda da Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elmi-texniki, təhsil, humanitar və başqa sahələrdə əlaqələr yaratmaq barədə danışıqlar gedəcəkdir. Biz istərdik ki, bu əlaqələr daha da genişlənsin, inkişaf etsin və dərinləşsin. Şübhəsiz ki, Azərbaycan torpaqlarına erməni təcavüzü haqqında məsələni də burada müzakirə etmək fikrindəyik. Bu barədə Türkiyə Cümhuriyyəti rəhbərlərinin məsləhətlərinə, onların sözlərinə ehtiyacımız vardır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh.359-361).

Belə məsləhətləşmələrə daim ehtiyac olduğunu dəfələrlə vurğulayan Prezidentimiz Türkiyə Cümhuriyyətinin banisi, görkəmli siyasi və ictimai xadim Mustafa Kamal Atatürkü bütün türk dünyasının, o cümlədən hər iki ölkənin xalqı və rəhbərliyi üçün ölməz bir örnək sayaraq Ankaradakı "Anıtkabır" məqbərəsindəki xatirə kitabına ilk rəsmi səfər zamanı aşağıdakı ürək sözlərini yazmışdı: **"Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının hədsiz məhəbbət və ehtiramını ifadə edirəm.**

Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, 8 fevral 1994-cü il".

İrəliyə gedərək onu da qeyd etməliyik ki, türk xalqları üçün Mustafa Kamal Atatürk şəxsiyyətinin nə qədər böyük əhəmiyyət daşıdığını, onların günü-gündən genişlənən və möhkəmlənən birliyinin mənəvi mənbəyi olduğunu dərindən anlayan Azərbaycan Prezidenti Heydər Əliyev ilk rəsmi ziyarətin bu gözəl akkordlarını bir növ simfoniya halına gətirərək 2001-ci ildə Bakıda Atatürk Araşdırmalar Mərkəzi yaradılması barədə fərman vermiş, bununla da Türkiyə-Azərbaycan dostluğunun əbədiləşdirilməsi yolunda daha bir qətiyyətli addım atmışdır.

Prezident Heydər Əliyevin fikrinə görə çətinliklərə, müharibələrə və mücadilələrə baxmayaraq, iki xalq arasındakı tarixi köklər heç vaxt qırılmamış və qırılmayacaqdır. Bəzən hər iki xalqın övladları bir-birini görməyə, əlaqə saxlamağa həsrət qalsalar belə, ümidlərini itirməmiş, gələcəyə inamla baxmışlar. O vaxt ürəklər arasında olan körpü indi Azərbaycanın öz müstəqilliyini qazanması sayəsində həqiqətə, reallığa çevrilmişdir. İndi hər bir azərbaycanlı Türkiyədə, hər bir türkiyəli isə Azərbaycanda özünü evində olduğu kimi hiss edir. Lakin indiyə qədər yaranmış əlaqələr yüksək qiymətləndirilməklə yanaşı, gələcək işlər haqqında da düşünülməli, bunun üçün möhkəm bünövrə yaratmaq məqsədi

ilə yeni müqavilələr, sənədlər, anlaşmalar imzalanmalı, beləliklə də ikitərəfli əlaqələrimizin yeni səhifələri açılmalı, yeni mərhələsi başlanmalıdır. 8 fevral 1994-cü ildə Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə söylənilən bu fikirlər sonralar əlaqələrimizin inkişaf etdirilməsi üçün hədəf seçilən bir mayaka çevrilmiş, irəliyə doğru hərəkətə istiqamət vermişdir.

Səfər zamanı Türkiyə Böyük Millət Məclisində çıxış edən Azərbaycan Prezidenti Türkiyənin keçdiyi 70 illik yola böyük ehtiram və hörmətlə nəzər salmış, Mustafa Kamal Atatürkün, Turqut Özalın və Prezident Süleyman Dəmirəlin tarixi xidmətlərini, hazırkı dövlət rəhbərlərinin Azərbaycana böyük hörmət və qayğı göstərdiklərini, əlaqələrimizin inkişaf etməsi üçün var qüvvə ilə səy göstərmələrini xüsusi qeyd etmiş, əlaqələrimizə nəzər salaraq demişdir: "Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız bir-birinə oxşayan, yaxud azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişlər. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyinçiyinə vermişlər. Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu, keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtlarda da qəlbimizdə məhz belə olmuşdur, indi də belə olaraq qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən çox ayırmağa çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh 366)*

Heydər Əliyev cəbhələrdəki çətin vəziyyətə baxmayaraq türk ordusunun 1918-ci ildə Azərbaycana gəlməsini və ölkəni daşnakların təcavüzündən xilas etməsini yüksək qiymətləndirmiş, hazırkı ordu quruculuğumuzda onun təcrübəsindən istifadə etməyin vacibliyini dəfələrlə vurğulamış, bu yolda qətiyyətli addımlar atılması və hərtərəfli əməkdaşlıq edilməsi üçün əlindən gələni əsirgəməmişdir. Türkiyə Cümhuriyyətində mühüm rol oynayan ordu rəhbərliyi ilə dəfələrlə görüşlər keçirmiş, fikir mübadilələri aparmış, əməli addımlar atılması üçün lazımi göstərişlər vermişdir. O, həmişə Türkiyədəki dövlət quruculuğu təcrübəsindən istifadə etməyin ən qızğın tərəfdarı olmuş, bunu dəstəklədiyini dəfələrlə bəyan etmişdir. Türkiyədən mənəvi sahədə, dövlət quruculuğu sahəsində, beynəlxalq meydanda və başqa sahələrdə alınan köməkləri səmimi şəkildə etiraf edərək onları yüksək qiymətləndirmiş, onların ölkəmiz üçün ən çətin anlarda verildiyini vurğulayaraq, bunun Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb etdiyini bütün yüksək məqamlarda, KİV qarşısında və xalqın önündə dönə-dönə bildirmişdir.

"Türkiyə dövlətinin xarici siyasəti bizdən ötrü təcrübə məktəbidir və bundan səmərəli istifadə etməyə çalışırıq" deyən Azərbaycan Prezidenti istər Qərb, istərsə də Şərq dövlətləri ilə, o cümlədən qonşu ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmağın bizim üçün prioritet bir istiqamət olduğunu bəyan etmişdir. Ankara Hacettəpə Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimindəki çıxışında: "Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. **Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir.** Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr dostluq, qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri daha sürətlə davam etdirəcəyik." *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh. 377)* deyən Prezident xarici siyasətimizdə Türkiyənin nə qədər önəmli bir yer tutduğunu aydın şəkildə bildirmişdir.

Dövlətimizin başçısı öz siyasətində Türkiyəyə, onun rəhbərliyinə, dövlətinə və xalqına yüksək önəm verir. Müstəqil dövlət quruculuğumuzda bu ölkə bizə örnək rolu oynayır. Onun təcrübəsi əsas kimi götürülür və inkişaf etdirilir. Bu zaman, əlbəttə bizə yaramayan bəzi ünsürlər kənara atılır. Bəziləri daha da müasirləşdirilir, kamilləşdirilir, yerindən və zamanından asılı olaraq dəyişdirilir və yerli şəraitə uyğunlaşdırılaraq tətbiq edilir. Yəni ölkəmizin başçısı bu ölkənin apardığı siyasəti, keçdiyi dövlətçilik yolunu tam şəkildə ideallaşdırmaqdan kənar bir siyasət aparır. Bu təcrübənin Azərbaycan mühitində tətbiqində onu kamilləşdirmək, müasirləşdirmək yolu ilə gedir. Onların səhvlərindən yan qaçır, düzgün hesab etdiyi məsələləri isə dövlət quruculuğumuzda tətbiq edir. Eyni zamanda bu təcrübənin bizə lazımlılığını və gərəkliyini səmimi şəkildə, hər iki xalq qarşısında etiraf edir.

Ölkəmizin başçısının bütün bu məsələlərə səmimi münasibəti əlaqələrimizdə mühüm rol oynayır. Onu

da qeyd etmək yerinə düşərdi ki, bu münasibətlər qarşılıqlıdır və bu cür də davam etməkdədir.

Azərbaycan Prezidentinin Türkiyə rəhbərliyinə, dövlətinə və xalqına münasibəti elə onun Türkiyə - Azərbaycan sənədlərinin imzalanması mərasimində söylədiyi nitqdə də çox dolğun şəkildə ifadə olunmuşdur: "Türkiyəyə səfərimiz zamanı biz burada çox böyük qonaqpərvərlik, insanpərvərlik gördük. Bütün bunlara görə mən və mənimlə gələn bütün nümayəndə heyətinin üzvləri Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, bütün Türkiyə xalqına təşəkkürümüzü və ehtiramımızı bildiririk. Biz burada özümüzü həqiqətən öz evimizdə, Süleyman bəyin sözlərilə desək, öz mənzilimizdə hiss edirik. Biz buraya böyük ümidlərlə gəlmişik və ümidlərimiz çin olub. Gözlədiyimizdən də artıq qonaqpərvərlik, dostluq və qardaşlıq münasibəti hiss etmişik, bu hisslərin təsiri altında yaşayırıq və uzun müddət bu hisslərin təsiri altında olacağıq. Çünki ən maraqlı cəhət bundan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur. Ancaq indiki görüşlərimizin və danışıqlarımızın nəticələri bu işlərin daha da irəliləməsi, iqtisadiyyat, ticarət, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlığın daha da genişlənməsi, daha da dərinləşməsi və xalqlarımızın, ölkələrimizin bir-birinə daha da yaxınlaşması üçün çox səmərəlidir. Bir sözlə, burada əldə olunan nəticələrdən qəlbən məmnunuq.

Burada olarkən görüşdüyümüz hər bir adam bizə çox böyük hörmət və qayğı göstərir. Xüsusən dostum və qardaşım Süleyman Dəmirəlin böyük qayğısı, xüsusi diqqəti məni heyran etmişdi. Mən bilirəm ki, biz dünən də, bu gün də harada olduqsa, harada görüşdüksə, bunlar hamısı Türkiyə Prezidenti Süleyman bəyin nəzarəti altındadır, onun qayğısı ilə bağlıdır. Bunlar bizim burada olduğumuz günlərdə gördüyümüz işlərin hamısının müvəffəqiyyətlə başa çatmasına şərait yaratmışdır.

Hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz üçün yeni yollar, yeni cığırlar açır. Sizi əmin etmək istəyirik ki, biz bu yolla gedəcəyik və bu yoldan dönməyəcəyik.

Bir daha qeyd edirəm ki, Azərbaycan demokratik prinsiplər əsasında dövlət quruculuğu ilə məşğuldur. Azərbaycanda demokratiya, siyasi plüralizm üçün bütün imkanlar yaranır və yaranacaqdır. Biz Türkiyənin təcrübəsindən, inkişaf etmiş demokratik dövlətlərin təcrübəsindən istifadə edərək bu tədbirlərimizi daha da genişləndirəcək və dərinləşdirəcəyik. Əmin ola bilərsiniz ki, Azərbaycan bu yolun yolçusudur və bu yoldan dönməyəcəkdir. Azərbaycan müstəqil dövlətdir və daim bu yolla gedəcəkdir. Heç bir qüvvə onu bu

yoldan döndərə bilməz. Müstəqillik Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün əbədidir.

Sizi əmin edirik ki, biz dostluğa və qardaşlığa həmişə sadiq olacağıq və gələcəkdə də bu dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycanın qarşısında duran əsas problem öz müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrini çıxarmaqdır. Bu sahədə bizim siyasətimiz dəyişməzdir. Biz bu məsələlərin sülh, barışıq yolu ilə həll edilməsinə çalışacağıq. Rica edirəm ki, Türkiyə bundan sonra da beynəlxalq təşkilatlarda, ATƏT-də və onun Minsk qrupunda və özünün başqa imkanlarından istifadə edərək Azərbaycanın bu probleminin sülh, barışıq yolu ilə həll olunmasına kömək etsin. Əminəm ki, Türkiyə bu köməyi bizdən əsirgəməyəcək. Eyni zamanda biz bütün gücümüzü toplayaraq, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq və Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik.

Əmin ola bilərsiniz ki, bu görüşlərimiz təkcə bizə deyil, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına yeni ruh və ilham verir. Bu ilhamla, bu əhval-ruhiyyə ilə də biz sənədlərin imzalanması mərasiminə gəlmişik. Bu əhval-ruhiyyə ilə də Vətənimizə qayıdacağıq.

Hörmətli Süleyman bəy, Sizə və bütün arkadaşlarınıza bir daha təşəkkür edirəm. Sağ olun!" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh. 374-375).*

Əlaqələrimizdəki səmimiliyə şübhə ilə yanaşanlar bəzi məsələlərə birtərəfli qiymət verməyə çalışmış, ölkə başçımızın qonşularla və bizim sabiq tərəfdaşlarımızla xoş münasibətlər yaratmasında belə mənfi axtarıb-tapmaq istəmiş, onların Azərbaycan-Türkiyə əlaqələrinin pisləşməsinə yönəldiyini sübut etməyə cəhd etmişlər. Lakin bütün bunlar həqiqətdən çox uzaqdır. Müstəqilliyimizin ilk illərində Azərbaycanın MDB kimi qurumlara daxil olmasına şübhə ilə yanaşan əleyhdarlarımıza cavab olaraq Heydər Əliyev Türkiyədə səfərdə olarkən qətiyyətlə bildirmişdi ki, Türkiyədəki qardaşlarımızda və dostlarımızda heç bir şübhə olmamalıdır ki, biz Azərbaycanın müstəqilliyini heç vaxt, heç vəchlə əldən verməyəcəyik. Gürcüstan və Ermənistan kimi qonşu ölkələrdə xarici ölkələrin qoşunları və hərbi bazaları var, Azərbaycan torpaqlarını isə yalnız öz ordumuz qoruyur.

Türkiyə ilə olan əlaqələrimizin xüsusi xarakter daşıyacağını, başqa dövlətlərlə olan münasibətlərdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirən Azərbaycan Prezidenti işimizin haqq işi, ədalət işi olduğu, Türkiyə və türk xalqı kimi yaxın dostumuz və qardaşımız olduğu üçün Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, ərazi

bütövlüyümüzün təmin olunmasına nail olacağımıza əmin olduğunu Türkiyədəki görüşlərində dəfələrlə bəyan etmiş və alqışlarla qarşılanmışdır.

Qeyd etmək lazımdır ki, iki Prezidentin görüşləri və söhbətləri zamanı müzakirə olunan əsas mövzulardan biri Azərbaycan-erməni münaqişəsinin sülh yolu ilə nizamlanması məsələsi olmuşdur. Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları Birgə Komyunikenin mətnində deyilirdi: "Tərəflər, beynəlxalq ictimaiyyətin hamı tərəfindən qəbul olunmuş dövlətin ərazi bütövlüyü və sərhədlərinin toxunulmamazlığı prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Qarabağı tanıyaraq, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrin şərtsiz və təxirə salınmadan çıxarılması tələbini bir daha təsdiq edərək, Qarabağ münaqişəsi üzrə ATƏT və BMT-in qətnamələrinin yerinə yetirilməsinə uyğun olaraq, qaçqınların öz torpaqlarına qaytarılması nəzərə alaraq Azərbaycana qarşı Ermənistan Respublikasının silahlı təcavüzünü qətiyyətlə pisləyir".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə ilə olan işgüzar əlaqələrimizə də həmişə böyük fikir vermiş və verməkdədir. Hər bir kiçik fürsətdən istifadə edərək iş adamları ilə görüşlər keçirən Prezidentimiz bu səfərində də öz ənənəsinə sadiq qalaraq Türkiyənin iş adamları ilə xüsusi görüş keçirmiş, dövlətlərarası müqavilələrin ilk növbədə iqtisadi əlaqələrimizin genişləndirilməsinə yönəldiyini, iki qardaş ölkənin iqtisadiyyatlarının bir-birinə daha da yaxınlaşması istəyindən irəli gəldiyini, ilk 3-4 ildəki əlaqələrin əsasən ticarət sahəsində olduğunu, indi isə bu əlaqələrin müştərək müəssisələr, sənaye obyektləri yaradılması, yeni iş yerləri açılması müstəvisinə keçməsinin lazım olduğunu bəyan etmiş, sənaye, kənd təsərrüfatı, sosial sahələrdə mükəmməl texnologiyaya malik olan iri və nüfuzlu şirkətləri iş görmək üçün Azərbacana dəvət etdiyini, onlar üçün bütün lazımi şəraitin və imkanların yaradılacağını vəd etmişdir.

Türkiyədə yaşayan azərbaycanlılarla görüş keçirən Prezident onları birliyə çağırmış, ölkəmizdə gedən proseslər haqqında onlara məlumat vermiş, müstəqil Azərbaycanın möhkəmlənməsində öz köməklərini əsirgəməməyə səsləmiş, elə ilk görüşdən Dünya Azərbaycanlılarını ayrılmalara, qruplaşmalara və parçalanmalara son qoyaraq bir təşkilat halında birləşməyə çağırmış, bu çağırışı ilə gələcək Dünya Azərbaycanlılarının I Qurultayının (2001-ci il, noyabr, Bakı) təməl daşını qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev özünün Türkiyəyə olan ilk rəsmi səfərinin sonunda İstanbulda mətbuat mərkəzində jurnalistlər və kütləvi informasiya vasitələri nümayəndələri

üçün mətbuat konfransında bəyanatla çıxış etmiş, ilk rəsmi ziyarətin nəticələri barədə ətraflı məlumat vermişdir. Bəyanatda deyilir: "Türkiyəyə səfərimiz sona çatır. Bir-iki saatdan sonra biz Türkiyədən ayrılacağıq. Gördüyümüz işlər haqqında, mənim Türkiyəyə səfərimin məqsədi haqqında sizə məlumat vermək üçün görüşünüzə gəlmişəm.

Bilirsiniz ki, Azərbaycan Prezidenti kimi fevralın 8-də mən Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəlin dəvəti ilə buraya rəsmi səfərə gəlmişəm. Səfərin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələri daha da genişləndirmək və inkişaf etdirməkdir. Bildiyiniz kimi, son illərdə bu əlaqələr sürətlə inkişaf etmişdir. Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlətdir. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Dəfələrlə demişik və bu gün də qeyd edə bilərəm ki, hətta biz bir kökdən gələn xalqlarıq. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır. Ancaq biz daim bu əlaqələri daha da inkişaf etdirməyə çalışırıq. Bu məqsədlə də Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirəlin dəvətini qəbul edərək Türkiyəyə gəldim. Mənimlə birlikdə Azərbaycandan böyük bir heyət də gəlmişdir.

Burada dörd gün ərzində görülən işlər mətbuatdan sizə məlumdur. Doğrudur, bəzi qəzetlərə baxanda görürük ki, onlar bu barədə çox az və qısa məlumat verirlər. Ola bilər, bu, Türkiyə mətbuatının xüsusiyyətidir. Ancaq mən guman edirəm ki, Türkiyə ictimaiyyəti, Türkiyə xalqı bu dörd gün ərzində Azərbaycan Prezidentinin səfərindən lazımınca xəbərdardır, bizim görüşlərimiz, danışıqlarımız ictimaiyyətə məlumdur.

Burada mən Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirəllə çox ətraflı, geniş söhbətlər apardım. Türkiyənin Baş naziri, hörmətli Tansu Çillərlə ətraflı danışıqlarımız oldu. Türkiyə Parlamentinin başçısı, hörmətli Hüsaməddin Cindorukla görüşümüz və çox mənalı söhbətlərimiz oldu. Mənim üçün çox mühüm hadisələrdən biri də Türkiyə Böyük Millət Məclisində millət vəkillərinə xitabən Azərbaycan haqqında, Azərbaycan ilə Türkiyənin əlaqələri haqqında və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında danışmağıma verilən imkan idi. Mən bu hadisəni yüksək qiymətləndirirəm və Türkiyə Böyük Millət Məclisində millət vəkilləri qarşısında çıxış etməyimdən çox məmnunam.

Bütün bu danışıqların, görüşlərin çox əhəmiyyətli nəticəsi olmalıdır. Bu nəticə ondan ibarətdir ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq müqaviləsi imzalanmışdır. Həmin müqavilədə çox əhəmiyyətli müddəalar var və bu sənəd gələcək əlaqələrimizin inkişafı üçün

çox dəyərli və gərəkli əsasdır. Bununla yanaşı, biz Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə, nazirlərlə 16-dək müqavilə və protokol imzaladıq. Həmin sənədlərdə də ayrı-ayrı sahələrdə əlaqələrimizin genişləndirilməsi və inkişaf etdirilməsi proqramı öz əksini tapmışdır. Bizim əsas məqsədimiz əlaqələrimizi daha da çoxtərəfli etmək, daha da genişləndirmək, dərinləşdirməkdir.

Danışıqlarımızda bir problem də olmuşdur. Həmin problem ondan ibarətdir ki, indi Azərbaycan ağır müharibə şəraitində olduğuna görə, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarının 20 faizini itirdiyinə görə, işğal olunmuş həmin ərazilərdən 1 milyondan artıq vətəndaşımız qaçqın düşdüyünə görə Azərbaycana Türkiyə Cümhuriyyəti tərəfindən daha kəsərli, tutarlı yardım göstərilməsini Türkiyə Cümhuriyyətinin rəhbərlərindən rica etmişdik. Türkiyə hökuməti bundan əvvəl Azərbaycana 250 milyon dollar kredit vermişdir. Həmin kreditin az bir hissəsindən istifadə olunmuşdur, qalanından da indi istifadə edilməkdədir. Bəzi səbəblərə görə həmin kreditdən istifadə olunmasında çətinliklər yaranmışdır. Bunları aradan qaldırmaq üçün də müvafiq danışıqlar apardıq. Eyni zamanda bizim yeni kreditə ehtiyacımız var. Bir də Azərbaycan əhalisini çörəklə təmin etmək üçün ehtiyatlarımız tükəndiyinə görə və müharibə şəraitində başqa imkanlarımız olmadığına və yaxud bu imkanlar məhdud olduğuna görə Türkiyədən Azərbaycana pulsuz-parasız taxıl verilməsini Türkiyə rəhbərlərindən xahiş etdim.

Məmnuniyyət hissi ilə deyə bilərəm ki, bizə yüz min ton taxıl verilməsi barədə xahişimizə müsbət yanaşılmış, Türkiyənin rəhbərləri həmin xahişin yerinə yetirilməsi üçün müəyyən tədbirlər görüldüyü haqqında bizə məlumat vermişlər. Ümidvaram ki, Azərbaycanın bu dar, çox ağır günündə Türkiyə Cümhuriyyəti Azərbaycan xalqına qardaş köməyini əsirgəməyəcəkdir.

Bizim danışıqlarımızda Azərbaycan ilə Türkiyənin xarici siyasət sahəsində də fəaliyyətinin əlaqələndirilməsi məsələsinə toxunulmuşdur. Hər iki tərəf belə fikrə gəlmişdir ki, Türkiyə xarici siyasət sahəsində də Azərbaycana kömək edəcək və biz beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrimizdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən bundan sonra da istifadə edə biləcəyik.

Azərbaycan müstəqillik yoluna çıxmış gənc dövlətdir, biz xarici siyasətdə ilk addımlarımızı atırıq. Ona görə də bütün sahələrdə məsləhətlərə ehtiyacımız var və danışıqlarda bu barədə də razılığa gəlmişik.

İndi Azərbaycanın ən ağır problemi ölkəni erməni təcavüzündən xilas etməkdir. Bildiyiniz kimi, Ermənistan altıncı ildir ki, Azərbaycana qarşı hərbi təcavüz edir. Bunun nəticəsində Azərbaycan torpaqlarının bir

hissəsi işğal olunmuş, onun ərazi bütövlüyü pozulmuş, bir milyonadək vətəndaşımız öz yaşayış yerlərindən didərgin düşmüşdür. Onlar Azərbaycanın başqa bölgələrində çox çətin şəraitdə yaşayırlar. Ona görə də Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq, respublikamızın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin etmək məsələsi danışıqlarımızda mühüm yer tutmuşdur. Türkiyə Cümhuriyyətinin rəhbərləri Azərbaycan Respublikasının bu sahədə həm diplomatiya yolu ilə gördüyü işlərə, həm də xalqı səfərbər edib torpaqlarımızı qorumaq üçün gördüyü tədbirlərə müsbət qiymət vermişlər. Bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışıq və deyə bilərəm ki, mövqelərimiz eynidir.

Ermənistanın Azərbaycana təcavüzü misli görünməmiş təcavüzdür. Bəlkə də dünya miqyasında buna bənzər təcavüz olmamışdır. Azərbaycanın əvvəlki dövlət orqanları ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq üçün lazımi tədbirlər görə bilmədiyindən, Ermənistan silahlı qüvvələri öz niyyətlərini həyata keçirmiş və qeyd etdiyim kimi, Azərbaycan torpaqlarının bir hissəsini işğal etmişdir. Biz bu məsələ ilə çox ciddi məşğul oluruq. Çünki bu, Azərbaycan üçün ən başlıca problemdir. Şübhəsiz ki, biz bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etmək istəyirik. Bu baxımdan biz daim BMT-nin və başqa beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in, onun Minsk qrupunun, böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışırıq.

Bildiyiniz kimi, bir müddət öncə ABŞ, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasındakı müharibəyə son qoymaq üçün təşəbbüs göstərmişdilər. Azərbaycan tərəfi bu təşəbbüsü bəyənmiş və qəbul etmişdir. Təəssüf ki, bu təşəbbüs də həyata keçirilmədi. BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Bu sənədlərin hamısında erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması tələb olunur. Ancaq təəssüf ki, Ermənistan Təhlükəsizlik Şurasının bu qətnamələrinə məhəl qoymamışdır və özünün işğalçılıq siyasətini davam etdirir. ATƏT-in Minsk qrupunun rəhbərləri 1993-cü ilin iyulunda Bakıda olmuş və biz çox danışıqlar aparmışdıq. O vaxt erməni silahlı qüvvələrinin işğal olunmuş Kəlbəcər və Laçın rayonlarından çıxması haqqında protokollar hazırlanmışdı. Biz həmin protokolların həyata keçirilməsinə razılıq verdik. Təəssüf ki, erməni tərəfi bununla razılaşmadı. Hətta ATƏT-in, onun Minsk qrupunun fəaliyyətinə hörmətsizlik edərək, Minsk qrupunun sədri, cənab Mario Raffaelli Azərbaycanın Yuxarı Qarabağ və Ağdam bölgələrinə səfər edib gedəndən bir neçə gün sonra erməni silahlı qüvvələri respublikamı-

zın Ağdam şəhərini işğal etdilər.

Beləliklə, yəqin ki, sizdən ötrü aydındır: Ermənistan tərəfi məsələni zor ilə, güc ilə həll etmək istəyir. Azərbaycan Respublikasını diz çökdürmək, öz iddialarını həyata keçirmək istəyir. Biz isə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Diplomatiya yoluna daha çox üstünlük veririk. Bunları görən kimi erməni silahlı qüvvələri onları dəstəkləyən xarici qüvvələrin və ayrı-ayrı qrupların yardımı ilə Azərbaycanın yeni-yeni ərazilərini işğal etməyə çalışırlar.

Belə bir vəziyyətdə Azərbaycan xalqı öz gücünü, qüdrətini toplamalı idi. Yəni bir halda ki, bizim sülhsevər siyasətimiz nəticə vermir, deməli döyüş yolu ilə torpaqların azad edilməsinə nail olmalı idik. Bunu əvvəl də etmək lazım idi. Təəssüflər olsun, tam qətiyyətlə demək olar ki, əvvəlki illərdə Azərbaycanda sağlam, bir mərkəzdən idarə olunan və güclü ordu olmamışdır. Azərbaycanla Ermənistan arasında gedən müharibədə Azərbaycan tərəfi pərakəndəliyə yol vermiş, ayrı-ayrı siyasi qüvvələr, siyasi qruplar dövlət vəzifələrində olarkən yalnız öz siyasətini yeritmiş, bu isə Azərbaycanı zəiflətmiş, yaxud da ona qüvvələrini toplamağa imkan verməmişdir. Erməni silahlı qüvvələri isə bu fürsətdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə başlamışdır. Təsəvvür edin ki, Azərbaycanın bəzi torpaqları işğal olunarkən heç döyüş də getməmişdir. Erməni silahlı qüvvələrinin bir neçə tankının bölgəyə girməsi və daxildə ayrı-ayrı təxribatçı qrupların hay-küy salması nəticəsində adamlar həmin bölgələrdən qaçmışlar.

Məsələn, indi Kəlbəcər bölgəsində ay yarımdır ki, qanlı döyüşlər gedir. Azərbaycan ordusu işğal olunmuş Kəlbəcər torpaqlarının bir hissəsini geri almışdır. Ancaq bu, asan başa gəlmir, erməni silahlı qüvvələri güclü müqavimət göstərirlər. Azərbaycan ordusunun üstünlüyü nəticəsində erməni qüvvələri böyük itki verərək geri çəkilirlər. Halbuki bir il bundan öncə erməni silahlı qüvvələri heç bir döyüş əməliyyatı aparmadan, asanlıqla Kəlbəcər bölgəsini işğal etmiş və oranın altmış min nəfər əhalisi hay-küyə uyaraq öz yerlərindən qaçıb getmişdi.

Yəni demək istəyirəm ki, Azərbaycan son illərdə ordu yaratmaq üçün lazımi tədbirlər görmədiyinə, öz torpaqlarını etibarlı müdafiə etmək üçün ordusu olmadığına görə erməni silahlı qüvvələri üstünlük əldə etmişlər. Ona görə də biz son aylarda Azərbaycan ordusunun yaradılmasına çox fikir veririk. Şübhəsiz ki, belə böyük iş qısa müddətdə həyata keçirilə bilməz. Ancaq biz müharibə şəraitini nəzərə alaraq gecə-gündüz bu məsələ ilə məşğul oluruq və bu iş ilk nəticələrini verir. Həmin nəticələr isə ondan ibarətdir ki, əvvəlki illərlə müqayisədə indi Azərbaycan xalqında milli şüur, torpaqları müdafiə etmək əhval-ruhiyyəsi, vətənpərvərlik

əhval-ruhiyyəsi, döyüş ruhu, qəhrəmanlıq ruhu yüksəlmişdir. İndi Azərbaycan əsgərləri, zabitləri qorxmadan, çəkinmədən döyüşə girir, erməni silahlı qüvvələrinə ağır zərbələr endirərək çox yerlərdə onları geri oturdur və işğal olunmuş kəndləri, qəsəbələri geri almağa çalışırlar.

Tam həqiqəti sizə çatdırmaq üçün bir daha deyirəm ki, bu, çox ağır və çətin məsələdir. Çünki Azərbaycan ordu quruculuğuna biganə münasibət bəslədiyi vaxtlarda Ermənistan tərəfi ordu yaratmağa çox ciddi fikir verirdi. Onlar çox təcrübəli zabitlər, tankçılar, topçular hazırlamışlar. Ona görə də bizim qısa müddətdə hazırladığımız zabitlər və əsgərlər məhz qəhrəmanlığına, cəsarətinə görə, bəzən təcrübələri az olmasına baxmayaraq, mərdliyi, mətanəti sayəsində çox yerdə erməni silahlı qüvvələrinə qalib gəlirlər. Bu iş davam edir, ancaq açıq demək istəyirəm ki, o qədər də asan iş deyildir. Çünki bildiyiniz kimi, xaricdən Ermənistana kömək edən qüvvələr çoxdur, ayrı-ayrı dövlətlər, maliyyə cəhətdən böyük imkanları olan qruplar, müxtəlif beynəlxalq siyasi qruplar Ermənistana siyasi, maddi və başqa yardım göstərirlər. Bütün bunlar torpaqlarımızı azad etmək uğrunda apardığımız ədalətli müharibəni, şübhəsiz ki, çətinləşdirir.

Ancaq ən önəmli cəhət, ən mühüm cəhət ondan ibarətdir ki, əsgərlərimizin, zabitlərimizin hazırlığı o qədər çox olmasa da, qeyd etdiyim kimi, artıq onlarda güclü vətənpərvərlik hissi yaranmışdır. Məsələn, beş-altı ay bundan əvvəl Azərbaycanda ordudan fərarilik edənlərin sayı çox idi. Bu, böyük bir problemə çevrilmişdi. Təklif edirdilər ki, fərariləri ciddi cəzalandırmaq, hətta güllələmək lazımdır. Əslində bu, haqlı təkliflər idi. Çünki hər bir adam öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Hər bir vətəndaşın ən ümdə borcu orduda xidmət etməkdən, torpağını qorumaqdan ibarətdir. Əlbəttə, mən hərbi xidmətə yararlı olanları nəzərdə tuturam.

Son aylarda gördüyümüz tədbirlər nəticəsində fərarilərin bir qrupunu həbs edərək cəzalandırdıq. Sonra mən Prezident kimi, onları bağışladım. Qalan fərarilərə müraciət etdim, bildirdim ki, fərarilikle özünüzü xalqın gözündən salacaqsınız. Möhlət verdim ki, kim yanvarın onunadək könüllü şəkildə gəlib hərbi komissarlıqlara, hərbi prokurorluğa müraciət edərsə və orduya qayıdarsa, onların günahları bağışlanılır. Təsəvvür edin ki, indi onların əksəriyyəti ordu sıralarına qayıtmışdır, bəziləri cəsarətlə vuruşaraq hətta şəhid olmuşdur. Bu da onu göstərir ki, indi gənclərimiz arasında milli vətənpərvərlik ruhu yüksəlmişdir. Belə vəziyyət bizə imkan verir ki, bütün vasitələrdən - həm sülh danışıqlarından, diplomatik vasitələrdən, həm də ordumuzun, xalqımızın gücündən istifadə edərək Azərbaycan torpaqlarını işğalçılardan təmizləyək, Azərbaycan

Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin edək.

Mən burada Türkiyə dövlətinin rəhbərləri ilə, rəsmi şəxslərlə danışıqlarda bu sahədə bizim mövqeyimizin, siyasətimizin dəyişməz olduğunu bildirdim. Sizə də bu barədə məlumat verdim.

Son illərdə Azərbaycanın daxilində, ictimai-siyasi həyatında da çox böyük çətinliklər olmuşdur. Həmin çətinliklər indi də davam edir. Bu, nə ilə bağlıdır? Azərbaycanda bir tərəfdən müharibə getdiyi, onun torpaqlarının bir hissəsi erməni silahlı qüvvələri tərəfindən işğal edildiyi halda, bu vəziyyətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, qüvvələr ölkə daxilində hakimiyyət uğrunda mübarizə aparırdılar, torpaqlarımızın qorunmasını isə yaddan çıxarmışdılar. Son beş-altı ildə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olmuşdur. Sonuncu belə dəyişiklik isə, bildiyiniz kimi, 1993-cü ilin yayında baş vermişdir. Şübhəsiz ki, bütün bu hakimiyyət dəyişiklikləri müstəqil Azərbaycan Respublikasının daxilində ictimai-siyasi proseslərin sivilizasiyalı səviyyədən aşağı olmasından irəli gəlmişdir. Yəni, ayrı-ayrı adamlar öz şəxsi mənafelərini, şəxsi məqsədlərini xalqın, ölkənin, dövlətin mənafelərindən üstün tuturlar. Nəticədə isə xalq böyük zərər çəkir.

Ona görə də son vaxtlar biz bu problemlərlə də məşğul oluruq. Bilirsiniz ki, 1993-cü ilin iyununda Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox kəskinləşmişdi, artıq vətəndaş müharibəsi başlanmışdı. Gəncədə, Bakının ətrafında qardaş qanı tökülmüşdü. Bu fürsətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, xaricdən olan düşmənlərimiz, deyə bilərəm ki, erməni millətçiləri tərəfindən dəstəklənən qüvvələr Azərbaycanı bir neçə bölgəyə parçalamaq niyyətlərini həyata keçirməyə çalışırdılar. Elə vəziyyət yaranmışdı ki, Azərbaycan doğrudan da parçalana bilərdi. Biz bunun qarşısını almağa nail olduq.

İndi Azərbaycanda dövlət rəhbərliyində müəyyən qədər formalaşma gedir. Biz çalışırıq ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət daha da sabitləssin. Onu da deyim ki, biz bu işlərin hamısını demokratiya, fikir azadlığı yolu ilə aparırıq və aparacağıq. Azərbaycan müstəqil dövlətdir və bu günlərdə mən dəfələrlə demişəm ki, Azərbaycan xalqı öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Müstəqil respublika kimi Azərbaycan demokratiya yolu ilə gedir. Dünya demokratiyasının təcrübəsindən bəhrələnən Azərbaycan bu təcrübəni öz milli, tarixi ənənələrinə uyğun olaraq həyatına tətbiq etməklə demokratiya yolu ilə irəliləyəcəkdir.

Daxili siyasətimizin əsas prinsipləri Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, cəmiyyət yaratmaqdır. Biz elan etmişik ki, Azərbaycanda milliyyətindən, dinindən, dilindən və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş eyni hüquqa malikdir. Azərbaycan dövləti vətəndaşların bu hüququnun qorunmasına təminat verir. Biz Azərbaycanda çoxpartiyalı sistem olmasına şərait yaratmışıq. İndi ölkəmizdə qırxa qədər partiya var, mətbuat azadlığı geniş yayılmışdır. Kiçik bir dövlət olan, 7 milyon əhali yaşayan Azərbaycanda 600-ə qədər qəzet, curnal çıxır və hər kəs öz fikrini sərbəst ifadə edə bilir.

Ancaq təəssüf ki, Azərbaycanın daxili həyatında demokratik prinsiplər sahəsində lazımi təcrübə olmadığına görə, bəzən ictimai-siyasi qüvvələrin bir-birinə münasibəti respublikanın ümumi mənafeyinin qorunmasına deyil, bir-biri ilə düşmənçilik etməyə yönəldilir. Ola bilsin, bu, təbiidir. Dediyim kimi, Azərbaycan gənc müstəqil dövlətdir. Demokratik prinsiplər, siyasi plüralizm, fikir ayrılığı onun üçün yeni amillərdir. Bilirsiniz ki, Azərbaycan 70 il kommunist ideologiyası ilə yaşamışdır. Ona görə də insanların birdən-birə demokratik prinsiplərlə yaşamağa keçməsi çətindir. Bəzən də son illər ayrı-ayrı qruplar, təəssüf ki, bu demokratik prinsipləri ləkələmiş, təhrif etmişlər. Adamlar demokratiya bayrağı altında hay-küylə cürbəcür mitinqlər təşkil edərək öz şəxsi məqsədlərini həyata keçirməklə məşğul olmuşlar.

Bunlar hamısı Azərbaycanın daxili həyatının təbii prosesləridir. Mənə belə gəlir ki, biz, dövlətimizin rəhbərləri qətiyyətli yol tutmuşuq və Azərbaycan Respublikası demokratiya yolu ilə, insan hüquqlarının qorunması, siyasi plüralizm yolu ilə gedəcəkdir. Həmin çətinliklər yavaş-yavaş aradan götürüləcəkdir. İqtisadiyyat sahəsinə gəldikdə isə, Azərbaycan yeni iqtisadi sistemə keçir. Əslində bu, təzə kəşf olunmuş sistem deyil, dünya təcrübəsində öz müsbət nəticələrini vermiş sərbəst iqtisadiyyat sistemi, təşəbbüskarlıq, sahibkarlıq prinsipləri əsasında qurulan iqtisadi sistemdir. Biz bunlar üçün imkan yaratmışıq və gələcəkdə də yaradacağıq. Həm ictimai-siyasi, həm də iqtisadi sahədə islahatlar aparırıq. Azərbaycanın tam demokratiya yolu ilə getməsinə çalışacağıq. Buna heç kimin şübhəsi olmasın. Azərbaycanın indiki vəziyyəti haqqında ayrı-ayrı qrupların dedikləri, yaxud qəzetlərdə yazdıqları böhtançı fikirlər - Türkiyədə də belə şeylər yazılır - heç kəsi çaşdırmasın.

Türkiyədə də, başqa ölkələrdə də hamı əmin ola bilər ki, Azərbaycan müstəqil dövlətdir və günbəgün bu müstəqilliyi möhkəmləndirəcəkdir, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyünü təmin edəcək, işğal olunmuş torpaqlarını erməni silahlı qüvvələrindən təmizləyəcəkdir. Kimi hansı məsələlər maraqlandırırsa, Azərbaycana gəlib öz gözü ilə görsün. Hansı məsələlər aydın deyildirsə, bizimlə görüşsün. İstəməzdim

ki, Azərbaycanın belə ağır vəziyyətində ayrı-ayrı qüvvələr, şəxslər respublikamıza kömək etmək əvəzinə öz hərəkətləri ilə ona zərər vursun. Guman edirəm ki, onların hərəkətləri zərər vura bilməz, siyasətimizə heç bir ləkə gətirə bilməz.

Mən həm buradakı görüşlərimizin əsas məzmunu haqqında, həm də Azərbaycandakı mövcud vəziyyət barədə, elə bilirəm, yetərincə məlumat verdim. Çıxışımın sonunda demək istəyirəm ki, biz dörd gün ərzində Türkiyədə dostluq və mehribanlıq şəraitində olmuşuq, bizə çox böyük qonaqpərvərlik göstərmişlər. Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl də, ölkənin digər rəhbərləri də, sadə vətəndaşlar da azərbaycanlılara, Azərbaycana dostluq, qardaşlıq münasibəti göstərirlər. Səfər proqramımızın səmərəli şəkildə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə olunmuşdur. Ona görə də mən Türkiyənin rəhbərlərinə - hörmətli Prezident Süleyman Dəmirələ, hörmətli Baş nazir Tansu Çillərə, Parlamentin başçısı, hörmətli Hüsaməddin Cindoruka, bizi müşayiət edən nazirlərə və başqa şəxslərə minnətdarlığımı bildirirəm.

Əmin ola bilərsiniz ki, hər biriniz Türkiyədən Azərbaycana gəldiyiniz vaxt həmin dostluq və mehribanlıq şəraitində olacaqsınız. Mən sizi Azərbaycana dəvət edirəm. Gəlin, Azərbaycanı öz gözünüzlə görün".

Mətbuat konfransında "danışıqlarımızın başlıca nəticəsi nədir" sualına cavab verən Azərbaycan Prezidenti bildirmişdi: "ən böyük nəticə odur ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin yeni səhifəsi açıldı, yeni mərhələsi başlandı. Bir daha təsdiq olundu ki, **Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri davam edəcək və heç bir qüvvə buna təsir göstərməyəcəkdir.**" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh. 399 - 410).*

Beləliklə, Prezident Heydər Əliyev dövlət rəhbəri kimi işə başladığı andan Azərbaycan-Türkiyə əlaqələri yüksələn xəttlə inkişaf etdi. İntensiv məsləhətləşmələr dövrü başladı. Prezident Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, "bir millət, iki dövlət" prinsipinə əsaslanan əlaqələrimiz heç bir konyunktur maraqlara xidmət etmədən, öz zəruriliyini və təbiiliyini gizlətmədən sabit bir hal aldı. Strateji müttəfiqlik mükəmməlləşməyə, dolğunlaşmağa başladı. Görüşlər və əlaqələr intensiv xarakter aldı.

Aradan bir müddət keçdikdən sonra Prezident Heydər Əliyev Belçikadan Bakıya dönərkən bir neçə saatlığa Ankarada oldu və Prezident Süleyman Dəmirəl ilə qısa bir görüş keçirərək məsləhətləşmələr apardı.

1994-cü ilin 9-10 iyununda isə ölkəmizin başçısı Türkiyəyə qısamüddətli daha bir işgüzar səfər etdi. Qısa müddət ərzində Prezident Süleyman Dəmirəl, Baş nazir Tansu Çillər, Baş nazirin birinci müavini Murad Qarayalçın, Xarici İşlər naziri

Hikmət Çətinlə ölkələrimiz arasındakı əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi məqsədi ilə danışıqlar və məsləhətləşmələr apardı. Bununla yanaşı, dünyanın bir çox ölkələrinin xarici işlər nazirlərinin İstanbulda olmasından istifadə edərək Prezidentimiz iki gün ərzində ABŞ-ın Dövlət Katibi cənab Uorren Kristoferlə, Böyük Britaniyanın Xarici İşlər Naziri Duqlas Herdlə, o dövrdə Minsk qrupuna rəhbərlik edən İsveçin Xarici İşlər naziri xanım Marqaret af Uqlasla, Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın Xarici İşlər naziri Karlos Papuliasla mühüm görüşlər keçirmiş, regionda vəziyyət və Qarabağ probleminin həlli yollarını onlarla müzakirə etmişdir. Türkiyənin qonaqpərvərliklə belə mühüm görüşlərin keçirilməsinə fürsət yaratması təmənnasız qardaşlığa daha gözəl bir hədiyyə oldu.

Səfərin səbəbləri barədə jurnalistlərin suallarına cavab verən Prezident Heydər Əliyev bəyan etmişdi ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə, bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə dostum, qardaşım Süleyman Dəmirəl məni Türkiyəyə dəvət edib. O, İstanbulda olduğu üçün rica edib ki, İstanbula gəlim, orada görüşərək əməkdaşlığımızın davam etməsi ilə əlaqədar bir sıra məsələləri müzakirə edək. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm...

Türkiyə və Azərbaycan dost, qardaş, qonşu dövlətdir. Ölkələrimiz arasında əlaqələr son vaxtlar çox sürətlə inkişaf edir. Bu ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbəri ilə görüşdük, söhbətlər etdik, məsləhətləşmələr apardıq. Əmin olduğumu bildirmək istəyirəm ki, indiki qısamüddətli işgüzar səfər zamanı keçiriləcək görüşlər, danışıqlar iki ölkə arasında əlaqələrin inkişafına daha da kömək edəcəkdir.

Əlbəttə, həmişə olduğu kimi danışıqlarda Qarabağ probleminin həlli yolları və iki qardaş ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə əlaqədar digər məsələlər hərtərəfli müzakirə olunacaqdır.

Bu səfərlər və qarşılıqlı görüşlər elə ilk ildən öz nəticələrini verməyə başladı. Siyasi əlaqələrimizlə yanaşı iqtisadi əlaqələrimiz də inkişaf yoluna qədəm qoydu. İlk birgə obyektlərin təməli qoyulmağa başlandı. Prezidentimiz böyük ruh yüksəkliyi ilə bu mərasimlərdə şəxsən iştirak edir, onların hər iki xalq üçün önəmli olduğunu vurğulayırdı.

Belə tədbirlərin birində - 1994-cü ilin 29 iyulunda Bakıda Diplomatik kompleksin bünövrəsinin qoyulması mərasimində Prezident Heydər

Əliyev çıxış edərkən Türkiyənin ayırdığı kreditlə inşa edilən bu binanın "qardaşlıq əlaqələrimizin inkişafının böyük rəmzi" olduğunu bildirmişdi.

Türkiyəyə ilk səfərdən sonra Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri M.Soysal 10-11 sentyabr 1994-cü ildə Azərbaycana rəsmi səfər etdi.

Azərbaycan-Türkiyə münasibətlərinin daha yüksək səviyyəyə qalxmasında 20 sentyabr 1994-cü il Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərb dövlətlərinin neft şirkətləri arasında bağlanmış neft müqaviləsinin əhəmiyyəti də böyük oldu və Türkiyə Cümhuriyyəti tərəfindən bu sənədi imzalayan dövlət naziri N.Cevheri müqavilənin hər iki dövlət üçün kəsb etdiyi mühüm əhəmiyyəti xüsusi olaraq vurğuladı. Mərasimdə çıxış edən dövlət başçımız "Əsrin müqaviləsi"nə imza atan dünyanın məşhur şirkətləri içərisində "Türkiyə Petrolleri" şirkətinin də iştirak etməsinin sevindirici bir hal olduğunu göstərdi.

Prezident Heydər Əliyev harada olursa-olsun, Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi üçün hər bir kiçik fürsətdən belə istifadə etmiş, Türkiyə dövlətinin rəhbərləri və türk icmasının nümayəndələri ilə görüşlər keçirmişdir. Belə görüşlərin birində - 1994-cü il sentyabr ayının 26-da BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da olarkən Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və Azərbaycan icmalarının nümayəndələri ilə görüşdə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin yeni bir mərhələyə çatdığını, gələrkən İstanbulda dayandığını və orada Türkiyənin Xarici İşlər naziri Mümtaz Soysal və bir neçə digər dövlət nümayəndəsi ilə görüşdüyünü, elə indiki görüşün özündə belə Mümtaz Soysalın iştirak etdiyini görüş iştirakçılarının nəzərinə çatdırmışdı.

ABŞ-dan qayıdarkən Prezidentimiz oktyabr ayının 1-də Türkiyə Cümhuriyyətnin Prezidenti Süleyman Dəmirəllə görüşmüş, Amerikada apardığı danışıqların məzmunu ilə Türkiyə Prezidentini tanış etmiş, onunla fikir mübadiləsi aparmışdı. Görüşdən sonra jurnalistlər qarşısında bəyanat verərək bildirmişdi ki, "qoy Türkiyədəki qardaşlarımızın hamısı da bilsin ki, Azərbaycan öz müstəqilliyi uğrunda indiyədək nə qədər mübarizə aparmışdırsa, bundan sonra daha çox mübarizə aparacaqdır" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, 1997, səh.328).*

Sentyabrın 20-də Bakıda imzalanan "Əsrin müqaviləsi"nə toxunan Prezidentimiz onun gələcək əməkdaşlığımız üçün əhəmiyyətini belə açıqlamışdı: "Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu, bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik. Süleyman bəy ilə də bunu müzakirə etmişik. Biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini önəmli sayırıq. Çünki bu, həm kəmərin təhlükəsizliyini təmin edəcək, həm də ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirəcəkdir.

Türkiyənin Azərbaycanı daim müdafiə etməsi, ona diqqət yetirməsi təbiidir. Çünki Azərbaycan üçün Türkiyə ən yaxın dost və qardaş ölkədir. Türkiyə də Azərbaycanı belə bir ölkə və xalq kimi qəbul edir. Dostluğumuz və qardaşlığımız daimi, əbədidir və biz bunun belə olması üçün əlimizdən gələni əsirgəməyəcəyik" *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, 1997, səh.328-29).*

Bundan sonra 1994-cü il oktyabr ayının 18-19-da Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin İstanbul şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının II Zirvə toplantısında iştirak etdi. Burada türkdilli xalqların hərtərəfli inkişafı və xüsusi ilə də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən "İstanbul Bəyannaməsi" qəbul edildi. Prezident Heydər Əliyevin digər Prezidentlərlə yanaşı Süleyman Dəmirəllə də yenidən görüşü oldu.

Prezident Heydər Əliyev Zirvə toplantısını bizim xalqımız, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli bir hadisə saymış, türkmənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizin, keçmişimizin canlandırılması və onun əsasında xalqlarımızın daha da yaxınlaşdırılması üçün mühüm bir vasitə hesab etmişdir. Hər hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, aparılan fikir mübadiləsi, türkdilli ölkələrin Prezidentlərinin ünsiyyəti - bunlar hamısı türk dövlətlərinin həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar yaradacağı qənaətinə gətirmişdir.

Zirvə toplantısında o bəyan etmişdi ki, İstanbulda bir kökdən olan, bir mənşədən olan, eyni dilə mənsub olan altı ölkənin başçıları, dövlət başçıları səviyyəsində keçirilən bu toplantı iki il öncə Ankarada keçirilmiş Zirvə toplantısının yaxşı ənənəsinin davamıdır. O, bu toplantının və bu ənənənin davam etməsinin vacibliyini bildirmiş, bu görüşün də Ankaradakı görüş kimi, gələcəkdə əlaqələrimizin inkişaf etməsi üçün yaxşı bir əsas yaradacağına əmin olduğunu

söyləmişdi.

Ankara görüşündən iki il keçdiyini, bu müddət ərzində bir çox işlərin görüldüyünü, ancaq Ankara görüşündə əldə olunmuş qərarların hamısının tam yerinə yetirilmədiyini qeyd edən Azərbaycan Prezidenti Heydər Əliyev türkdilli dövlətlərin rəhbərlərini bundan sonra daha çox nailiyyətlər əldə etmək üçün qəbul edilən qərarları yerinə yetirməyə çağırmışdı.

Prezident Heydər Əliyev görüşdə Xəzər dənizi ətrafında olan bütün ölkələri sıx əməkdaşlıq etməyə dəvət edərək göstərmişdi ki, təkcə Xəzər dənizinə bilavasitə çıxan ölkələr yox, başqa ölkələr də indi bu əməkdaşlığa qoşula bilər və ümumiyyətlə, həm Azərbaycanın, həm də digər ölkələrin təbii sərvətlərindən, o cümlədən enerji daşıyıcılarından istifadə edilməsi və onların ixrac olunması, dünya bazarına birgə çıxarılması bizim ölkələrimiz üçün çox əhəmiyyətli ola bilər. Bizim qonşu dövlətlərin bu barədə Azərbaycanın ərazisindən istifadə etmək fikirləri olsa, bu enerji daşıyıcılarını Azərbaycan ərazisindən başqa ölkələrə keçirmək fikirləri olsa, Azərbaycan buna şərait yaradacaqdır və bu barədə əməkdaşlıq etməyə hazırdır. Eyni zamanda Azərbaycanın regionda olan bu təbii sərvətlərdən istifadə olunmasında Türkiyənin ərazisindən istifadə edilməsinə çox üstünlük verdiyini və bu sahədə birgə əməkdaşlığa hazır oldüğünü bəyan etmişdi.

TÜRKSOY kimi proqramların yaranması və həyata keçirilməsini ölkəmizin böyük məmnuniyyətlə qəbul etdiyini bildirmişdi.

Toplantıda Türkiyə, İran, Səudiyyə Ərəbistanı kimi dövlətlərin Azərbaycanda qaçqınlar üçün çadır şəhərcikləri yaratdıqlarını, onların bir qismini öz öhdələrinə götürdüklərini, beynəlxalq təşkilatların, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Qaçqınlara Yardım Komissarlığının, UNİSEF və başqa təşkilatların Azərbaycana kömək göstərdiklərini bildirən Azərbaycan Prezidenti türkdilli dövlət başçılarını da ölkəmizə həm iqtisadi, həm də mənəvi kömək etməyə, Qarabağ probleminin həllində səy göstərməyə çağırmışdı.

Dövlətimizin başçısı harada olursa-olsun, necə çətin olursa-olsun Azərbaycanımızın üzləşdiyi problemlərdən danışmaqdan heç vaxt çəkinməmiş, ölkəmizin istək və arzularını bütün böyük beynəlxalq məclislərdə dilə gətirmiş, bununla da Azərbaycan həqiqətlərini həmişə və hər yerdə dünyaya, o cümlədən qardaş türk xalqına çatdırmağa çalışmışdır.

Pezidentimizin bu istəyi hər bir görüşdə, onun hər bir işində özünü açıq şəkildə büruzə verir. O, 1994-cü il 1-2 noyabrda Türkiyədə keçirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubiley tədbirlərində iştirak etmişdir. O, vaxt qıtlığına baxmayaraq, burada da bir neçə dəfə, o cümlədən Ankaradakı "Hilton" mehmanxanasındakı iqamətgahında Türkiyə və Azərbaycandakı xarici ölkə səfirlərini qəbul edərək onların qarşısında çıxış etmiş, Ankara yaxınlığındakı Bilkənd Universiteti şəhərciyində keçirilən yubiley şənliklərinin təntənəli açılışında nitq söyləmiş, Türkiyənin xarici iqtisadi əməkdaşlıq komitəsinin üzvləri - işgüzar dairələrin nümayəndələri ilə, həmçinin Türkiyədə yaşayan azərbaycanlılarla görüşlər, jurnalistlər üçün mətbuat konfransı keçirmiş, Türkiyə Parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimində, Türkiyə Prezidenti Süleyman Dəmirəlin doğum günü münasibətilə "Çankaya" köşkündə keçirilən görüşlərdə çıxış etmiş, təbrik nitqi söyləmiş, ən nəhayət Türkiyə Böyük Millət Məclisinin sədri Hüsaməddin Cindorukla görüş keçirmişdir. Bütün bu sadalanan görüşlər Prezidentimizin bəzi müxalifət nümayəndələrinin dediyi kimi gəzməyə deyil, Azərbaycanın diplomatik əlaqələrinin genişlənməsi üçün gərgin əmək və zəhmət tələb edən işgüzar səfərlərə çıxdığını, hər səfər zamanı kiçik bir andan və fürsətdən belə istifadə edərək Azərbaycanın daxili və xarici siyasətinin əsas müddəalarını qarşı tərəfə çatdırmaq istəyini aydın şəkildə göstərir.

11-15 dekabr 1994-cü ildə İKT-yə üzv olan dövlətlərin başçılarının Kasablanka Zirvə toplantısında iştirak etmək üçün Mərakeşə gedərkən Prezident Heydər Əliyev İstanbulda dayanmış, jurnalistlərə müsahibə vermiş, görüşlər keçirmişdir. Zirvə toplantısının özündə isə Prezident Süleyman Dəmirəl ilə bir daha görüşərək məsləhətləşmələr aparmışdır.

Beləliklə, əgər təkcə bir ilə - 1994-cü ilə diqqətlə nəzər salsaq, Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsi üçün nə qədər böyük işlərin görüldüyünün şahidi olarıq. Təkcə bu il ərzində dövlət başçımız altı dəfə Türkiyədə olmuş, ölkə başçıları bir-biri ilə ona qədər görüş keçirmiş, rəsmi və ya qeyri-rəsmi danışıqlar aparmışlar. Hələ biz heç onlarla nümayəndə heyətlərinin səfərlərini, vaxtaşırı aparılan telefon danışıqlarını və məsləhətləşmələri, şəxsi nümayəndələrin səfərlərini demirik. Bütün bunlar ona dəlalət edir ki, Prezident Heydər Əliyevin hakimiyyət başına gəldiyi ilk gündən əlaqələrimiz yüksələn xətlə inkişaf etməyə, onun hüquqi əsasları qoyulmağa başlamışdı. Bunların əsasını isə iki Prezidentin yaratdığı dostluq əlaqələri və iki qardaş xalqın bir-birinə daha da yaxınlaşmaq istəkləri təşkil edirdi.

Nəhayət, 1994-cü ilə yekun olaraq göstərmək olar ki, Türkiyə Böyük Millət Məclisinin sədri H.Cindoruk 26-28 dekabr 1994-cü il tarixlərində Bakıda rəsmi səfərdə olmuş və bu səfər zamanı hər iki dövlətin parlamentləri arasında əməkdaşlıq haqqında yeni bir sənəd imzalanmışdır.

1995

Bu dövrdə iqtisadi əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi yolunda konkret addımlar atılırdı. Bunun nəticəsi kimi Türkiyə Cümhuriyyətinin Baş naziri, xanım T.Çillər və onu müşayiət edən Türkiyə hökumət üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə 12 aprel 1995-ci il Bakıda qısamüddətli işgüzar səfərdə oldu və bu səfər əsnasında Türkiyə Cümhuriyyətinin Neft Konsorsiumundakı 1,75%-lik payının Azərbaycanın neft payının hesabına 6,75%-ə qədər artırılması haqqında müqavilə imzalandı. Türkiyə Cümhuriyyətinin payının 6,75%-dək artırılması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb etdi.

Azərbaycan və Türkiyə Cümhuriyyəti arasında neft sahəsində əməkdaşlığa dair sazişin yüksək səviyyədə imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti Azərbaycan Dövlət Neft Şirkəti ilə "Türkiyə petrolları anonim ortaqlığı" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün sazişin imzalanmasını böyük tarixi hadisə adlandırdı, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsində Azərbaycan Respublikasının payına düşən 20 faizin 5 faizini əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılığın Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etməsinə yardım edəcəyini bildirdi, Azərbaycan Respublikasına aid bütün məsələlərin həll olunmasında Türkiyənin çox prinsipial mövqe tutduğunu və bizi dəstəklədiyini, Ermənistanın təcavüzünü daim pisləyini, Ermənistana bir təcavüzkar ölkə kimi öz münasibətini bildirdiyini göstərdi.

O, xüsusi olaraq vurğuladı ki, Türkiyə vəsaitinin Azərbaycan neftinin çıxarılmasına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. Ancaq bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir, bu da imzalanan sazişin əsasını təşkil edir.

İmzalanma mərasimində Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, Azərbaycanın neftinin ixracı üçün boru xəttinin Türkiyədən keçməsi hər şeydən üstün və bizim üçün hər şeydən əlverişlidir. Biz bu sahədə də öz fikrimizi demişik və bundan sonra da deyəcəyik. Ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin gələcək inkişafı üçün atılan bu addımı uğurlarımızdın biri, Prezident Heydər Əliyevin bir il ərzində keçirdiyi görüşlərin konkret nəticəsi hesab etmək olar.

Xanım Tansu Çilləri müşayiət edən Türkiyənin iş adamları ilə görüşdə çıxış edən Heydər Əliyev onları Azərbaycana sərmayə qoymağa dəvət etdi, dövlət çevrilişləri cəhdlərinin qarşısının alındığını, müstəqil Azərbaycan dövlətinin özünü qorumaq üçün, xalqını qorumaq üçün gücü və qüdrəti olduğunu bəyan etdi, Azərbaycana sərmayə gəlməsinə nə mane olursa, onu aradan qaldırmağa hazır olduğunu qətiyyətlə bildirdi ki, bu da gələcək sərmayə axınları üçün yaşıl işıq yandırmaq demək idi.

Bu hadisədən az sonra Türkiyə Cümhuriyyətinin tanınmış ictimai-siyasi xadimi, 25 ölkənin Tibb Akademiyalarının fəxri üzvü və Azərbaycan Prezidenti Heydər Əliyevin şəxsi dostu İ.Doğramaçi 24-26 aprel 1995-ci il Bakıda səfərdə oldu, Azərbaycan Dövlət Opera və Balet Teatrında görkəmli alimin 80 illik yubileyi keçirildi. Təntənəli gecədə çıxış edən Prezidentimiz onu Azərbaycan xalqı, dövləti, bütün vətəndaşları adından və şəxsən öz adından səmimi qəlbdən təbrik etdi, ona cansağlığı, uzun ömür, gələcək fəaliyyətində böyük uğurlar dilədi, onun gördüyü işlərin və etdiyi xidmətlərin əsrlər boyu unudulmayacağını, onun Türkiyə, Azərbaycan xalqı, respublikamız, dövlətimiz üçün və bütün türkdilli xalqlar üçün böyük iftixar mənbəyi olduğunu, bundan sonra da dünya və türk xalqları üçün, dünyada sülh və əmin-amanlıq, tərəqqi üçün böyük işlər görəcəyinə tam əmin olduğunu söylədi, onun hər yerdə - Türkiyədə də, Avropada da, Amerikada da öz fədakar əməyinə görə, ağlına, dünya mədəniyyətinə, elminə böyük töhfələr verdiyinə görə, onu zənginləşdirdiyi üçün sevildiyini dedi, onun rəsmi çəkilmiş tablonu yubiley münasibətilə ona təqdim etdi. Türkiyə vətəndaşı olan, lakin Azərbaycan xalqı ilə dostluq əlaqələrinin inkişafında böyük xidmətləri olan bu şəxsiyyətin işlərinin və əməyinin belə yüksək qiymətləndirilməsi yüksəlməkdə olan əlaqələrimizin inkişafının bariz təcəssümünə çevrildi.

3-4 may 1995-ci il tarixlərində isə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri Ə.İnönü Azərbaycana rəsmi səfər etdi. Ölkəmizin başçısı onu qəbul etdi. Səfər əsnasında Ə.İnönü Milli Məclisin sədri və Xarici İşlər Naziri ilə də görüşdü. Görüşlərdə ikitərəfli və beynəlxalq mövzular müzakirə edildi, iki dövlət arasındakı münasibətlərin inkişafı yüksək qiymətləndirildi, habelə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları nəzərdən keçirildi... Səfərin yekunu olaraq, Azərbaycan və Türkiyə Cümhuriyyətinin birgə bəyanatı qəbul edildi və bu bəyanatda bir daha Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz azad olunması tələbi əks olundu.

Türkiyə Cümhuriyyətinin Baş naziri, xanım T.Çillərin başçılıq etdiyi nümayəndə heyəti 1995-ci il iyul

ayının 10-dan 12-dək Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. Ölkəmizin başçısı onu qəbul etdi. Səfər əsnasında T.Çillər Baş nazir, Milli Məclisin Sədri, Xarici İşlər naziri və digər rəsmi şəxslər ilə görüşdü. Dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşlərdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əlaqələrin vəziyyəti hərtərəfli müzakirə edildi, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadilələri aparıldı. Nümayəndə heyəti Axısxa türklərinin və Azərbaycan ictimaiyyətinin nümayəndələri və həmçinin Bakıda məskunlaşmış qaçqınlarla görüşlər keçirdi ki, bu görüşlər də hər iki ölkənin KİV-i vasitəsi ilə geniş işıqlandırıldı. Bu da qardaş türk xalqına qaçqınlarımızın çətin vəziyyəti ilə tanış olmağa bir daha geniş imkan yaratdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyənin Baş naziri neft şirkətləri konsorsiumu nümayəndələri ilə görüş keçirdilər və Bakıda "Azərtürkbank" müştərək kommersiya bankının təntənəli açılış mərasimində iştirak etdilər.

Türkiyə Cümhuriyyətinin Baş Naziri xanım Tansu Çillər Bakıda olarkən Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında çox səmərəli, məzmunlu, əhəmiyyətli danışıqlar apardı. Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişlənməsi, inkişaf etməsi ilə bağlı bir çox məsələlər barəsində, Türkiyənin, Azərbaycanın dünya miqyasında siyasəti, o cümlədən xüsusən Azərbaycan üçün ən ağır problem olan Dağlıq Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş fikir mübadiləsi aparıldı və tərəflər eyni fikirdə olduqlarını bəyan etdilər. Türkiyə Cümhuriyyəti bu məsələlər barəsində Azərbaycanın haqq və ədalət naminə apardığı işi müdafiə etdiyini, ölkəmizin mövqeyini bundan sonra da dəstəkləyəcəyini bildirdi.

Azərbaycanın iqtisadi vəziyyətinin ağır olduğu nəzərə alınaraq, 1992-ci ildə Türkiyə Cümhuriyyətinin Azərbaycanın iqtisadiyyatını canlandırmaq üçün 250 milyon dollar məbləğində ayırdığı kreditin istifadə olunmuş 60 milyon dollarlıq hissəsinin geri qaytarılması məsələsi muzakirə olundu, kreditin ödəniş vaxtının iki il uzadılması haqqında razılığa gəlindi, müvafiq protokollar imzalandı.

Belə bir razılaşma əldə olundu ki, Azərbaycandakı müəssisələrin bəzilərinin müştərək işləməsi üçün buraya müəyyən nümayəndə heyəti göndərilsin. Onlar burada bəzi müəssisələrin vəziyyətini öyrənib proqramlar hazırlasınlar və həmin müəssisələrin müştərək işləməsi üçün lazımi tədbirlər görülsün.

Naxçıvan blokada vəziyyətində olduğu üçün Türkiyənin Naxçıvana hər dürlü kömək etməsi barədə də razılıq əldə olundu.

Danışıqlara öz münasibətini bildirən Türkiyənin Baş naziri göstərdi ki, Azərbaycanın ödənilməmiş kreditləri var. Bunu həll etmək lazımdır. Bizim tələblərimiz vardı, bu gündən etibarən bunları əfv etdik və sənəd imzalayacağıq. Yeni kredit açılması üçün tələb var idi. Bunu da bu gün sənəd şəklində imzalayacaq vəziyyətə çatdırırıq. Banklarımızın burada iş almaları məsələsi də nəzərdə tutulmuşdu. Bu da həll olundu. "Ziraət bankası" fəaliyyətə başlayır, yaxın vaxtlarda isə "Vakfbank" işə başlayacaqdır. Universitetlərimiz arasında əməkdaşlığın genişləndirilməsi məsələsi var idi. Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi artıq fəaliyyət göstərir.

Türkiyənin Baş naziri bildirdi ki, neft kəmərinin çəkilməsi ilə bağlı Azərbaycanla əvvəllər də danışıqlarımız olmuşdur. Biz bu kəmərin Türkiyə ərazisindən keçməsini istəyirik. Mən Özbəkistanda səfərdə olarkən Avrasiya avtomobil yolunun Özbəkistana qədər gələrək Azərbaycan ərazisi ilə Türkiyəyə keçməsi fikrini razılaşdırdıq. Bu məqsədlə Amerikanın bizə verəcəyi kreditdən istifadə edilə biləcəyini düşünürük. Neft kəmərinin Türkiyədən keçirilməsini Amerika özünün xarici siyasəti kimi qəbul etmişdir. Azərbaycan da bunu bütünlükdə dəstəkləmişdir. Bunun həyata keçirilməsi üçün digər ölkələrlə də bu cür danışıqlar aparmaq lazımdır. Özbəkistana və Azərbaycana səfərlərim zamanı hər iki dövlətin dəstəyini almışıq. Yaxın vaxtlarda başqa ölkələrə də səfər etməyi düşünürəm. Daha sonra bu səfərlərin Zirvə görüşünü bəlkə də Türkiyədə təşkil etmək mümkün olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün müştərək işbirliyi komissiyasının yaradılması, bu komissiyanın iqtisadi əməkdaşlığa dair məsələlərin dəqiqləşdirilməsi ilə məşğul olacağı barədə də bu görüşlərdə çox mühüm qərar qəbul edildi.

Görüşlər zamanı Türkiyə ilə əlaqələrimizə geniş nəzər salan, Türkiyədə son 75 ildə baş verən siyasi, ictimai və iqtisadi dəyişikliklərin Azərbaycan üçün bir örnək olduğunu bildirən Prezident Heydər Əliyev tarixə nəzər salaraq göstərdi ki, "biz bu gün Türkiyənin həyatına baxarkən çox maraqlı bir mənzərə ilə rastlaşırıq. Bu mənzərəni türk xalqının özü yaratmışdır. Bu gün bu barədə danışarkən Türkiyənin mərhum Prezidenti Turqut Özalı yada salırıq. Onun atdığı addımlar sayəsində Türkiyə Cümhuriyyətində iqtisadiyyat böyük sıçrayış yolu keçmişdir. Türkiyə Cümhuriyyətinin görkəmli siyasi xadimi, əziz dostumuz, hörmətli Süleyman Dəmirəlin böyük fəaliyyəti nəticəsində ölkədə mühüm dəyişikliklər olmuşdur. Bu gün Türkiyə hökumətinə başçılıq edən əziz qonağımız, bacımız, hörmətli Tansu Çillərin dövlət və siyasi fəaliyyəti nəticəsində, hökumətin rəhbəri kimi apardığı böyük siyasətin və iqtisadi isla-

hatların sayəsində Türkiyə Cümhuriyyəti mühüm nailiyyətlər əldə etmişdir. Bu gün burada biz və bütün Azərbaycanlılar türk xalqının, Türkiyə Cümhuriyyətinin əldə etdiyi nailiyyətləri öz uğurlarımız kimi qəbul edir, sevinirik və bu nailiyyətlər münasibətilə öz qardaşlarımızı, Türkiyənin dövlət və hökumət başçılarını ürəkdən təbrik edirik.

Bu illərdə biz Türkiyəyə böyük həsrətlə baxmışıq. Daim Türkiyə ilə maraqlanmışıq, qardaş ölkədə baş verən hadisələri qəlbimizdə hiss etmişik. Onun nailiyyətlərinə sevinmişik, həyatında baş verən faciələrə ağrımışıq, incimişik. Mən bunu deyərkən böyük Mustafa Kamal Atatürkün sözləri yadıma düşür. O deyirdi: **"Azərbaycan gülərsə biz də gülərik, Azərbaycan üzülərsə biz də üzülərik"**. Bu sözlər Türkiyə Cümhuriyyətinin Azərbaycana olan münasibətinin ən parlaq ifadəsidir.

Bu gün burada mən Azərbaycan xalqının iradəsini ifadə edərək deyirəm ki, Türkiyə gülərsə Azərbaycan da güləcək, Türkiyə inciyərsə, sıxılarsa, ağlayarsa Azərbaycan da inciyəcək, sıxılacaq, ağlayacaqdır. Bu sözlər son illərin sınağından keçib gəlmişdir. Azərbaycan Respublikasının başına böyük bəlalar gələn zaman, 1988-ci ildən Ermənistanın torpaqlarımıza təcavüzü başlayan gündən Türkiyə ictimaiyyətində, qardaş ölkənin hər yerində Azərbaycana olan münasibətlər coşmuş, artmış, Türkiyənin ürəyi Azərbaycanla bir döyünmüş, dost ölkədə respublikamızın həyatı ilə daim maraqlanmışlar. O illərdə Türkiyədə keçirilən mitinqlər, toplantılar yaxşı yadımızdadır. Türkiyəli gənclərin küçələrə, meydanlara çıxması, həyəcanlarının coşması, xalqımızla həmrəy olması, Azərbaycan xalqına qarşı edilən hərbi təcavüzə etiraz etmələri - bunların hamısı xalqımızın yaddaşına həkk olubdur. Biz bunları heç vaxt unutmayacağıq.

1990-cı ilin 20 yanvarda Azərbaycan xalqı öz suverenliyi uğrunda mübarizə apararkən, milli azadlığı uğrunda ayağa qalxarkən, müstəqillik qazanmaq üçün çalışdığı zaman Azərbaycana Sovet imperiyasının ordusu tərəfindən hərbi təcavüz oldu. Xalqımıza çox böyük zərbələr vuruldu. Azərbaycan kimi Türkiyə də bu faciəli hadisəyə görə ağladı, sızladı. Eyni zamanda, Azərbaycana edilmiş bu hərbi təcavüzə qarşı Türkiyənin hər bir guşəsində etiraz çıxışları oldu, qəzetlər bu barədə yazdı, televiziya və radioda bu haqda verilişlər getdi. Yəni Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinə Türkiyə dəstək verdi.

Ona görə də biz hər bir türk vətəndaşının Azərbaycana olan münasibətini yüksək qiymətləndiririk. Hər bir vətəndaşın münasibətindən Türkiyədəki siyasi partiyaların, dövlət və hökumət başçılarının münasibətləri yaranır. Biz bunları yüksək qiymətləndiririk. Ən başlıcası isə 1991-ci ilin sonunda Azərbaycan dövlət

müstəqilliyini əldə edən kimi dünya dövlətləri içərisində birinci olaraq Türkiyə respublikamızın müstəqilliyini tanıdı və həmin dövrdən hər bir addımı atarkən ölkəmizə kömək etdi, yardımçı oldu. Bütün ölkələrin yanında, beynəlxalq aləmdə Azərbaycana əl tutan, kömək duran Türkiyə Cümhuriyyəti, onun səlahiyyətli nümayəndələri oldu. Bunu biz heç vaxt unutmayacağıq.

Yeddi ildən bəri davam edən müharibə zamanı Türkiyə bizimlə bir mövqedə durmuşdur. Ermənistanın bu təcavüzkarlığını pisləmişdir. Türkiyənin bu ölkəyə münasibəti Ermənistanın Azərbaycana olan münasibəti əsasında müəyyənləşdirilmişdir. Xatirimdədir, Parisdə beynəlxalq toplantı olarkən keçirilmiş mətbuat konfransında bir erməni müxbiri Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirələ sual verdi: "Siz nə üçün Ermənistanla münasibətləri yaxşılaşdırmırsınız, axı biz qonşu ölkələrik?". Süleyman Dəmirəl ona çox dəyərli cavab verərək dedi ki, "Siz nə vaxt Azərbaycan ilə münasibətləri normallaşdıracaqsınızsa, Türkiyə də o vaxt Ermənistan ilə öz münasibətlərini normallaşdıracaqdır".

Biz bunları yüksək qiymətləndiririk. Bu fikirlər bizim dünən və bu gün apardığımız danışıqların əsas mərkəzində dururdu.

Türkiyə və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri, onların gələcək inkişaf yorlları və istiqamətləri, respublikamızın ağır vəziyyətdən çıxması üçün görüləcək tədbirlər, münaqişənin sülh yolu ilə həll olunması barədə əziz qonağımız, xanım Tansu Çillər öz mövqeyini bir daha qəti bildirdi - bu gün bunu mətbuat konfranslarında da ifadə etdi - və əminəm ki, onun mövqeyi Türkiyə xalqının, Türkiyə hökumətinin mövqeyi kimi daim belə olacaqdır.

Respublikamızın ən böyük problemi Ermənistanın ölkəmizə hərbi təcavüzüdür.

Əminəm ki, bizim bu ədalətli və haqq işimizdə türk xalqı, Türkiyə Cümhuriyyəti və ictimaiyyəti indiyə qədər olduğu kimi, bundan sonra da bizimlə olacaq, bizə dayaq duracaq və bu ağır şəraitdən çıxmağımız üçün əlindən gələni əsirgəməyəcəkdir."

1995-ci ilin iyul ayının 11-də Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Türkiyənin Azərbaycana verdiyi kreditin ödəniş vaxtının təxirə salınması haqqında qarşılıqlı razılığa dair memorandum imzalanmışdı. Səfərin yekunu olaraq, Azərbaycan ilə Türkiyə Cümhuriyyəti arasında Birgə Bəyanat qəbul edildi.

1995-ci ilin avqust ayının 28-29 tarixlərində Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının III Zirvə toplantısında iştirak etmiş, həmin toplantıda türkdilli xalqların hərtərəfli inkişafı və Azərbaycan üçün mühüm əhəmiyyət kəsb

edən "Bişkek Bəyannaməsi" qəbul edimişldir.

Türk dövlətlərinin inteqrasiyasına çalışan, bu yolda əlindən gələni əsirgəməyən Prezidentimiz bu mötəbər məclisdə də bu haqda öz fikirlərini bəyan etmək fürsətindən istifadə etdi. Azərbaycan xalqı adından söz deyən Prezidentimiz əsası 1992-ci il oktyabrında Ankarada qoyulmuş bu Zirvə görüşlərinin artıq gözəl bir ənənəyə çevrildiyinin çox sevindirici bir hal olduğunu bəyan etmdi.

Məlumdur ki, Avroasiya məkanının xeyli hissəsini, böyük iqtisadi potensialı, insan potenstalını birləşdirən müstəqil türk dövlətləri təşkil edir.

Çoxəsrlik tarixi boyu dünya sivilizasiyanı xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün çox geniş imkanlar var.

Mən bu görüşlərimzə çox böyük əhəmiyyət verirəm. Belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayıram. Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi - bütün bunlar bizim strateji əməkdaşlarımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa imkan verir.

Yaşadığımız son illərdə dünyada böyük tarixi, geosiyasi dəyişikliklər baş vermişdir. Yaranmış yeni şəraitdə bizim qarşılıqlı əlaqələrimiz müstəqil, suveren əsaslar üzərində qurmaq üçün geniş üfüqlər açılır.

Ölkələrimiz türk xalqlarının vacib problemlərinin həll olunması üçün bir-birinə kömək göstərməli, yardım əlini uzatmalı, parçalanmanın və təklənmənin qarşısını almalı, dara düşmüş qardaşlarına birlikdə kömək etməli, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməyə çalışmalıdırlar.

Bütün bunlara görə Azərbaycan Prezidenti belə görüşlərə çox böyük əhəmiyyət verir. Belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayır. Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin bir çox məsələlər üzrə birliyi - bütün bunları bizim strateji əməkdaşlığımızın etibarlı təməli hesab edir.

Axı xalqlarımız min illər boyu sıx əməkdaşlıq etmiş, qarşılıqlı fəaliyyət göstərmiş, bir-birini zənginləşdirmişlər. İndi, yeni dövrdə, yeni şəraitdə bu əməkdaşlığın dirçəldilməsi hamımız üçün böyük əhəmiyyət kəsb edir. Bu köklər, bu əsaslar xalqımızın ən müqəddəs arzularının çiçəklənməsinə geniş imkanlar açır, onların sülhə, tərəqqiyə doğru inamla getməsinə gözəl şərait yaradır.

Bütün bunlardan çıxış edən dövlətimizin başçısı qətiyyətlə bu görüşdə bildirdi ki, mən inanıram ki, bir çox ağır sınaqlardan keçmiş, bu yolda həm itkilərin acısını dadmış, həm

də dirçəliş sevincini duymuş xalqlarımız çoxəsrlik ümidlərini həyata keçirəcək, XXI əsrə öz şanlı əcdadlarının layiqli övladları kimi qədəm qoyacaqlar. Bu bizim ümidimiz, bu bizim vəzifəmiz, bu bizim borcumuzdur.

Azərbaycan Prezidentinin çıxışı Zirvə toplantısında ifadə edilən fikirlərin əsas mahiyyətini təşkil edirdi. Bu türk xalqlarına yönəlmiş bir çağırış - oyanma və hərəkətə keçmə çağırışı idi. Burada göstərilirdi ki, Azərbaycan istəyir ki, bu əlaqələr geniş olsun. Tarixi keçmişimizi, ümumi köklərimizi, bizi bu görüşə toplayan zəmini əsas tutaraq Azərbaycan istəyir ki, Mərkəzi Asiyanın bütün ölkələri ilə daha sıx iqtisadi, mədəni, elmi-texniki əməkdaşlıq yaratsın və bu inteqrasiyaya daxil olsun.

Azərbaycan Prezidenti Heydər Əliyev həmişə Qərb ölkələrinə gedərkən Türkiyəni də ziyarət etmək istəyir, imkan olan kimi də yolunu buradan salır. İstanbula, Türkiyə torpağına qardaşlıq salamını, hörmət və ehtiramını yetirir, Türkiyənin rəhbərləri, siyasi xadimləri, iş adamları, KİV əməkdaşları ilə heç olmasa qısamüddətli görüşlər keçirir və hökmən aktual problemlər barədə fikir mubadiləsi aparır. O, 1995-ci lin oktyabr ayının 20-də BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənələ iclasında iştirak etmək üçün ABŞ-a yola düşərkən İstanbulun Atatürk hava limanında mətbuat konfransı keçirərək Azərbaycan neftinin ixracı yolları, bu barədə Türkiyənin Prezidenti Süleyman Dəmirəl və Türkiyənin Baş naziri, xanım Tansu Çillər apardığı danışıqlar, cənab Bill Klintonun bu barədəki müsbət fikri olduğu barədə jurnalistlərə məlumat vermiş, iki boru xətti barədə qərar qəbul olunduğunu - birinin Gürcüstandan Qara dənizə, o birisinin isə Rusiyadan Qara dənizə çəkiləcəyini bəyan etdi və dedi ki, bu qərarı Türkiyə də çox bəyinbdir. Bu, Türkiyənin də maraqlarını təmin edir. Bu qərar Qərbdə də çox bəyənilibdir. Biz də bunu çox əhəmiyyətli qərar hesab edirik. Beləliklə, Azərbaycan Prezidenti məsələnin təklif və rəylərdən artıq qərar müstəvisinə keçdiyi barədə məhz Türkiyə torpağında bəyanat verdi.

Azərbaycan Prezidenti Türkiyə ilə dostluq əlaqələrimizin möhkəmləndirilməsi yolunu, birbaşa bu ölkə ilə sıx əlaqələr qurmaqla bərabər, türk dünyasının birliyində, onun dağınıq diasporlarının bir yumruq kimi birləşməsində görür. Bu məqsədlə təkcə Türk Dövlətlərinin Zirvə toplantısında deyil, hər hansı bir ölkəyə səfər edirsə etsin, təkcə zərbaycan diaspopunun üzvləri ilə deyil, başqa türk xalqlarına məxsus olan diasporların üzvləri ilə də görüşməyə çalışır və onları həmişə ölkəmiz ilə əməkdaşlıq etməyə, ölkəmizi görməyə, türk dünyası ilə bağlı problemlərin - o cümlədən Qarabağ probleminin həlli yolunda əməkdaşlıq etməyə, öz nüfuzlarından istifadə edərək bu məsə-

lənin çözülməsində dəstək verməyə dəvət etmişdir. Bu dəfə də belə oldu. Dövlətimizin başçısı ABŞ-da olarkən burada yaşayan azərbaycanlı icmasının və türklərin nümayəndələri ilə Türk evində görüşdü. Bu görüşün məhz Türk evində baş tutduğunun çox səciyyəvi olduğunu bildirərək görüş iştirakçıları qarşısındakı çıxışında Amerikada və Türkiyədə yaşayan bacı və qardaşlarımız, habelə Azərbaycanla bağlı olan adamlara Azərbaycanda gedən proseslər barədə məlumat vermiş, hamımızın bir millət, bir kökə məxsus xalq olduğunu xüsusi olaraq vurğulamış Azərbaycanda yaşayanların, Azərbaycandan gəlib Amerika, İran, Türkiyə, İngiltərə və digər ölkələrdə yaşayanların hamısı nın onun üçün bir olduğunu bəyan etmişdir.

Azərbaycan Prezidenti bildirmişdir ki, Siz Amerikada yaşayırsınız, yaxşı bilirsiniz ki, hər bir şirkət sərmayə qoymaq üçün o ölkədə ictimai-siyasi vəziyyətin sabit olmasını istəyir. Azərbaycanda müharibə getdiyinə görə və son illər daxili vəziyyət sabit olmadığına görə bir çox şirkətlər ölkəmizə gəlmək istəsələr də, ancaq ehtiyat etmişlər. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət tamamilə sabitdir.

Biz bunların qarşısını almışıq. İndi Azərbaycanda sakitlikdir. İnsanlar sərbəst yaşayırlar. Doğrudur, Çətin yaşayırlar. İqtisadi vəziyyət ağırdır. Əhalinin bir qismi kasıblıq içərisindədir. Ancaq insanlar mənəvi cəhətdən rahat yaşayırlar, sabit şərait yaranıb. Ona görə də Azərbaycana gəlin. Azərbaycana rahat gəlməyə, qohum-əqrabalarınızla görüşməyə əvvəlki illərdən indi daha yaxşı şərait yaranıbdır.

Dövlətimizin başçısı iştirakçılara müraciətlə demişdir: "Biz burada Türk evindəyik. Türkiyə dost və qardaş ölkəmizdir. Türkiyə bizim öz məmləkətimizdir. Yəni Azərbaycandan Türkiyəyə gələn hər bir adam özünü öz məmləkətində hiss edir. Türkiyədən Azərbaycana gələnlər də özlərini öz məmləkətlərində hesab edirlər.

Nyu-Yorkdakı Türk evinə mən ikinci dəfədir ki, gəlirəm, doğma evimiz kimi gəlirəm. Ev sahiblərinin burada Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün göstərdikləri səylərə, gördükləri işlərə öz hörmət və ehtiramımı bildirmək istəyirəm. Biz dostuq, qardaşıq. Mən buraya gələrkən bu gün bir saat, saat yarım İstanbulda oldum. Orada bir neçə rəhbər şəxslərlə görüşdüm. İki gün bundan əvvəl hörmətli dostumuz Süleyman Dəmirəllə telefonla danışdım. Türkiyənin Prezidenti Süleyman Dəmirəl də sabah buraya gələcəkdir. Onunla da görüşlərimiz olacaq. Yəni bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri tarixi köklər üzərində qurulub. Ancaq yeni dövrdə bu əlaqələr inkişaf edir, böyüyür və hər birimiz bu əlaqələrin inkişaf etməsinə

çalışmalıyıq. Azərbaycanın Prezidenti kimi bundan sonra da çalışacağam."

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, ölkəmizdə keçirilən rəsmi qəbullarda da bir qayda olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə səfirliyinin keçirdiyi bu tədbirlərdə həmişə özü şəxsən iştirak edərək çıxış edir və il ərzində əlaqələrimizdə baş verən proseslərə bir növ yenidən nəzər salır, onları yekunlaşdırır. Bu Azərbaycan Prezidentinin Türkiyəyə və türk xalqına bəslədiyi xüsusi hörmət və ehtiramın təcəssümüdür.

Dövlət başçımız 28 oktyabr 1995-ci ildə Türkiyə Cümhuriyyətinin 72-ci ildönümü münasibətilə Bakıdakı Türkiyə səfirliyinin təşkil etdiyi rəsmi qəbuldakı nitqində ölkələrimiz arasında qurulan əlaqələrə toxunaraq fəxrlə demişdir: "72 il ərzində Türkiyə Cümhuriyyətində əldə edilmiş naliyyətlər, iqtisadiyyatın inkişafında, insanların rifahının yaxşılaşdırılmasında, dövlət quruculuğunun, demokratiyanın inkişafında, demokratik prinsiplərin bərqərar olunmasında qazanılmış uğurlar və Türkiyənin bugünkü mənzərəsi bizim üçün örnəkdir və böyük təcrübə məktəbidir. Biz çalışırıq ki, bu təcrübədən səmərəli istifadə edək və Azərbaycanda müstəqil demokratik, hüquqi dövlət quraq. Bu sahədə Türkiyənin təcrübəsi gərəklidir və bu təcrübə bizə çox kömək edir.

Biz noyabrın 12-də müstəqil Azərbaycanın ilk demokratik parlamentinə seçkilər keçirəcəyik. Bu, Azərbaycanın həyatında böyük tarixi hadisədir. Ümidvaram ki, seçkilər xalqın iradəsini ifadə edəcək və tam demokratik şəkildə keçəcək, bütün insanların, partiyaların hüquqlarının qorunması təmin olunacaq və hər bir kəs bu seçkilərdə ya seçmək, ya da seçilmək hüququndan şübhəsiz ki, istifadə edəcəkdir. Türkiyə Cümhuriyyətində də dövlət quruculuğunda proseslər gedir, yeni hökumət yaranır, vaxtından əvvəl Parlament seçkiləri təyin edilibdir. Türkiyədə dekabr ayında Parlament seçkiləri keçiriləcəkdir. Biz əminik ki, həm hökumətin qurulması - bu günlərdə yeni hökumət qurulur, - həm də seçkilərin keçirilməsi müvəffəqiyyətlə başa çatacaqdır.

Ölkələrimiz arasındakı əlaqələr bütün sahələrdə təzahür edir: ayrı-ayrı insanların, təşkilatların, şirkətlərin, iqtisadiyyatla məşğul olan nazirliklərin əlaqələri və dövlətlərarası əlaqələr - bütün sahələrdə və bütün mərhələlərdə bu əlaqələr yaranıb və çox uğurla irəliyə gedir. Türkiyənin dövlət və hökumət başçıları ilə biz mütəmadi olaraq əlaqə saxlayırıq, çoxlu məsələlər barəsində məsləhətləşirik. Mən bu əlaqələrdən məmnun olduğumu bir daha bildirmək istəyirəm.

Bir neçə gün bundan əvvəl Amerika Birləşmiş Ştatlarında olarkən mən ABŞ Prezidenti, cənab Bill Klintonla görüşdüm və ətraflı danışıqlar

apardım. Dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçıları ilə görüşlərim oldu və bu görüşlərin arasında Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli, əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə görüşüm və söhbətlərim xüsusi yer tutur. Belə görüşlər artıq ənənəvi xarakter almışdır və bu görüşlərdən biz - hər iki tərəf əlaqərimizin inkişaf etdirilməsi üçün və Azərbaycanda demokratik proseslərin həyata keçirilməsi üçün, respublikamızın qarşısında duran ağır problemlərin həll olunması üçün daim məsləhətlər alırıq, bəhrələnirik. Bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin nə qədər geniş, nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir."

1995-ci ilin sonunda baş verən görüşlər də Azərbaycan - Türkiyə əlaqələrinin durmadan inkişafından xəbər verir. Bu müddət ərzində 25 nəfərlik Azərbaycan nümayəndə heyəti Türkdilli dövlətlərin və icmaların İzmir şəhərində 1995-ci ilin sentyabr ayının 30-dan oktyabr ayının 2-dək keçirilmiş III "Dostluq və Qardaşlıq" Qurultayında iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycan Respublikasına rəsmi səfəri olmuşdur. Bu səfər Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına yeni təkan vermişdir. Səfər zamanı ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və genişləndirilməsi perspektivləri nəzərdən keçirilmişdir. S.Dəmirələ Azərbaycan EA-nın fəxri akademiki diplomu təqdim edilmişdir. Prezident Heydər Əliyev və S.Dəmirəl Birgə Bəyanat imzalamışlar. Bəyanatda beynəlxalq əlaqələrdə BMT-nin rolunun gücləndirilməsinin, bölgədəki ixtilafların aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına daha aktiv təsir göstərilməsinin vacib görüldüyünə yer verilmiş və bir daha Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbi əks etdirilmişdir. Səfər əsnasında həmçinin iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı haqqında Memorandum, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında televiziya yayımları haqqında əməkdaşlıq müqaviləsi imzalanmış və iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiq olunması və qüvvəyə minməsi barədə notalar mübadiləsi edilmişdir.

Azərbaycana rəsmi səfərə gələn Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin Binə hava limanında qarşılanması mərasimində bəyanatla çıxış edən möhtərəm Prezidentimiz Süleyman Dəmirəli salamlayaraq demişdir: "Sizin bu səfəriniz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsinə çox böyük xidmət edəcəkdir.

Bildirmişdir ki, Siz burada Azərbaycan xalqının Türkiyəyə, türk xalqına olan sevgisini, məhəbbətini bir daha hiss edəcəksiniz və sizinlə burada apardığımız danışıqlar, görüşlərimiz, sizin Azərbaycan xalqı ilə görüşləriniz gələcək əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Bu gün Azərbaycan dost Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşımız Süleyman Dəmirəlin ölkəmizə rəsmi səfəri münasibətilə əlamətdar tarixi bir gün yaşayır.

Ölkəmiz müstəqil dövlət olandan sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sıx əlaqələr yaranmışdır. Bu əlaqələr getdikcə inkişaf edir, yeni nailiyyətlər gətirir, hər iki ölkə üçün faydalıdır və ümumiyyətlə, gələcəkdə daha faydalı olacaqdır.

Azərbaycan Prezidenti göstərmişdir ki, əlaqələrin yaranmasında və inkişaf etməsində Türkiyə Prezidenti, hörmətli cənab Süleyman Dəmirəlin xüsusi fəaliyyəti və xüsusi rolu var. Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən Süleyman Dəmirəl Azərbaycana nəinki maraq göstərmiş, diqqət yetirmiş, həm də 1967-ci ildə Türkiyənin Baş naziri kimi Sovetlər İttifaqına ilk dəfə səfər edərkən Azərbaycana gəlmiş, ölkəmizlə tanış olmuş, xalqımıza öz ehtiramını bildirmişdir. Hörmətli Süleyman Dəmirəl ondan sonra da həmişə Azərbaycana diqqətli münasibət bəsləmiş, qayğı göstərmişdir. Azərbaycanın bu ağır dövründə o həmişə Azərbaycanla maraqlanmış və Azərbaycan onun üçün doğma olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi tanınmasında da Baş nazir Süleyman Dəmirəlin xüsusi rolu, xüsusi fəaliyyəti olmuşdur. Bu müddətdə Azərbaycanda gedən proseslərin sağlam istiqamətdə həyata keçirilməsi üçün o, bir dost, bir qardaş kimi Azərbaycana həmişə öz münasibətini bildirmişdir.

Respublikanın rəhbəri qeyd etmişdir ki, Süleyman Dəmirəl Prezident kimi Azərbaycana, bizim dəvətimiz ilə ilk dəfə rəsmi səfərə gəlmişdir. Əvvəlki səfərlərdən bu səfərin fərqi ondan ibarətdir ki, Azərbaycan artıq dörd ildir müstəqil bir dövlət kimi yaşayır...Məhz belə bir zamanda müstəqil Azərbaycan öz tarixində ilk demokratik Konstitusiyanı qəbul etdikdən sonra, yeni Parlament seçkiləri keçirildikdən sonra və Parlament yaradıldıqdan sonra ölkəmizə ilk səfər edən dövlət başçısı əziz dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Bu, bizi çox sevindirir. Bizim sevincimizi Bakı sakinləri nümayiş etdirdilər. Küçələrdə onlar əziz qonağımızı qarşılayarkən öz qəlblərindəki xoş duyğuları bildirməyə çalışdılar. Bizim hər birimiz sevincimizi ifadə etmək istəyirik və mən bütün Azərbaycan xalqının bu sevincini ifadə edərək, ürəkdən deyirəm: əziz dostumuz, qardaşımız, siz Azərbaycana, öz vətəninizə, öz məmləkətinizə xoş gəlmisiniz, səfa gətirmisiniz! Azərbaycanda xalq sözü var: qədəmləriniz

xeyirli olsun, səfəriniz uğurlu olsun! Əminik ki, sizin bu səfərinizdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələr daha sürətlə inkişaf edəcəkdir. Bu, bizim qəlbimizdə olan istəklərdir, arzumuzdur. Biz bu yolda çalışmışıq və bundan sonra da çalışacağıq.

Dövlətimizin başçısı göstərmişdir ki, Süleyman Dəmirəl ilə birlikdə buraya böyük nümayəndə heyəti, onu müşayiət edən iş adamları, mətbuat nümayəndələri gəlmişlər. Ümidvar olduğunu bildirmişdir ki, onların hər biri Azərbaycana öz münasibətini əziz dostumuz və qardaşımız, Türkiyənin Prezidenti, dünyanın ən böyük ictimai-siyasi xadimlərindən biri, dünya siyasətində böyük rol oynayan Süleyman Dəmirəl kimi bildirəcəkdir.

Bilindiyi kimi, Türkiyə Ermənistanla münaqişənin ilk günlərindən Azərbaycan qaçqınlarına kömək etmiş, öz yardım əlini uzatmışdır. TBMM-in başçısı Ömər İzqi özünün 2002-ci il fevral ayının əvvəllərində Bakıya rəsmi səfəri zamanı bildirmişdir ki, Türkiyə bu illər ərzində Azərbaycan qaçqınlarına 18 milyon dollar həcmində yardım göstərmişdir. Türkiyənin ölkəmizə göstərdiyi bu yardımdan söhbət açan dövlət başçımız Süleyman Dəmirəl cənablarının qaçqınlarla görüşündə bu məsələni xüsusilə qeyd etmiş, ölkəmizin bu ağır dövründə daim Azərbaycana dayaq olduğuna görə, kömək etdiklərinə görə, bu dərdi Azərbaycanla bir yerdə çəkdiklərinə görə Türkiyə Cümhuriyyətinə, onun xalqına, dövlətinə, Türkiyənin Prezidenti Süleyman Dəmirələ qaçqınlar adından, bütün Azərbaycan xalqı adından minnətdarlıq etmiş və əmin olduğunu bildirmişdir ki, Türkiyə heç vaxt Azərbaycanı tək qoymayacaq, darda qoymayacaqdır və bir gün gələcək, biz yaxşı günləri Türkiyə ilə, türk xalqı ilə bir yerdə bayram edəcəkdir. Müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında seçilmiş ilk Milli Məclisi qarşısında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitq söyləməsinin ölkəmiz tarixində əlamətdar bir hadisə olduğunu bildirmişdi.

Qeyd etmişdir ki, bizim üçün Türkiyə Cümhuriyyəti kimi böyük bir ölkənin, dövlət quruculuğu sahəsində, demokratiya sahəsində, iqtisadiyyat sahəsində, cəmiyyətin bütün sahələrində böyük nailiyyətlər əldə etmiş xalqın liderinin, ölkənin Prezidentinin bizim qarşımızda irəli sürdüyü fikirlər Azərbaycan Respublikasının gələcəyi üçün, Milli Məclisin gələcək fəaliyyəti üçün çox gərəklidir, çox əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, Türkiyə Cümhuriyyətinin demokratiya sahəsində böyük nailiyyətləri var. Biz bu gün Türkiyə Cümhuriyyətinin tarixinə nəzər salarkən böyük Mustafa Kamal Atatürkün başçılığı ilə yaranmış cümhuriyyətin keçdiyi yola öz hörmətimizi bildirirk, şanlı və şərəfli yola öz hörmətimizi bildiririk. Türkiyə Cümhuriyyətinin əlli il müddətində demokratiyanın inkişafında, iqtisadiyyatın demokratiya prinsipləri əsasında inkişafında, insan hüquqlarının qorunması sahəsində göstərdiyi səylərə, əldə etdiyi nailiyyətlərə öz hörmət və ehtiramımızı bildiririk və bütün bunlara görə, Məclisimizin işə başladığı zaman hörmətli Prezident söylədiyi nitq, bir daha qeyd edirəm, bizim üçün çox əhəmiyyətlidir. ...Azərbaycan üçün tarix boyu dost və qardaş olan Türkiyə ilə, türk xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə öz əlaqələrimizi inkişaf etdirəcəyik.

İndiyə qədər əldə edilən nailiyyətlər bizi sevindirir. Ancaq bunlar bizi qane edə bilməz. İmkanlarımız böyükdür. Türkiyə Cümhuriyyəti bizimlə əməkdaşlığı daha da genişləndirmək və inkişaf etdirmək üçün yaxşı təkliflər irəli sürür. Hörmətli Prezident Süleyman Dəmirəlin bugünkü nitqində verdiyi tövsiyələr, irəli sürdüyü təkliflər bizim əməkdaşlığımızın genişlənməsi və inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. Biz bunların hamısına görə öz minnətdarlığımızı bildiririk. Bunların hamısından istifadə edərək xalqımızı ağır vəziyyətdən çıxaracağıq, xalqımızı xoşbəxt gələcəyə aparacağıq və müstəqil Azərbaycan daha da inkişaf etdirəcəyik.

...Mübarizələrimizdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı həmişə bizimlə olub, həmişə bizə dayaq olub, həmişə bizi müdafiə edib və bu gün Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəlin verdiyi bəyanatlar bir də onu göstərir ki, Türkiyə həmişə bizim yanımızda olacaq. Türkiyə bizim bu məsələlərin həll edilməsində bundan sonra daha da fəal iştirak edəcək və biz beynəlxalq təşkilatlarla, sülhsevər qüvvələrlə birlikdə sülhə nail olacağıq.

Hörmətli Prezident, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl. Siz dediniz ki, Türkiyənin qəldi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edəcəksiniz və hiss edirsiniz ki, Azərbaycanan da qəlbi daim türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir. Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir. Türkiyənin Azərbaycana, onun müstəqillik əldə etməsinə və müstəqillik yolunda ağır sınaqlardan çıxmasına etdiyi köməklərə görə mən Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından sizə, hörmətli Prezident, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına bir daha öz təşəkkürümü və min-

nətdarlığımı bildirmək istəyirəm. Türkiyənin dövlət quruculuğumuzda da bizim üçün nümunə olduğunu qeyd edən dövlət başçımız göstərmişdir ki, Türkiyə Cümhuriyyəti indi yeni müstəqillik əldə etmiş bir çox ölkələr üçün, dövlətlər üçün örnəkdir. Belə dövlətlərdən biri də Azərbaycandır. Biz arzu edirik ki, Türkiyə Cümhuriyyəti özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün təcrübə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir ki, türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənsəbdən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar. Biz nə qədər çətin və ağır vəziyyətdə olsaq da Azərbaycanda bu hisslərlə yaşayırıq. Bu hisslərlə bütün qardaş ölkələrlə öz münasibətimizi bildiririk. Bu hisslərlə də öz məhəbbət və sevgimizi Türkiyəyə, türk xalqına bildiririk.

Azərbaycan Prezidenti qardaş Türkiyənin başçısına müraciətlə söyləmişdir: "Hörmətli Prezident, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl, güman edirəm ki, Azərbaycanın Milli Məclisi, onun üzvləri, bütün Azərbaycan vətəndaşları sizin bugünkü çox dərin, məzmunlu nitqinizi məmnuniyyətlə qəbul edirlər, o nitqdə irəli sürülən fikirlərdən, təkliflərdən, şübhəsiz, istifadə edəcəyik, onlardan bəhrələnəcəyik və müstəqil Azərbaycan Respublikası demokratiya yolunda, dövlət quruculuğu yolunda, Konstitusiyada nəzərdə tutulmuş prinsiplər əsasında irəli gedəcəkdir.

Sizi burada, Məclis qarşısında bu böyük nitqiniz münasibətilə bir daha təbrik edirəm, sizə Məclis adından təşəkkürümü bildirirəm. Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm, sizə Türkiyə Cümhuriyyətinin Prezidenti kimi böyük məsuliyyətli vəzifənin uğurla həyata keçirilməsində müvəffəqiyyətlər arzu edirəm, cansağlığı və xoşbəxtlik arzu edirəm."

Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Milli Elmlər Akademiyasının fəxri akademiki adına layiq görülməsi münasibətilə keçirilən təntənəli yığıncaqda da ölkəmizin başçısı iştirak etmişdir.

Prezidentimiz görüşdə bildirmişdir ki, Azərbaycanın Milli Elmlər Akademiyası dünyanın böyük ictimai-siyasi, dövlət xadimlərindən biri olan, Türkiyə Cümhuriyyətinin tarixində böyük xidmətləri olan, böyük iz qoymuş, bu gün də Türkiyə Cümhuriyyətinin başında duran hörmətli Süleyman Dəmirələ Azərbaycan Milli Elmlər Akademiyasının fəxri akademiki adı vermişdir. Bildirmişdir ki, Azərbaycanın ən yüksək elm mərkəzi olan Milli Elmlər Akademiyasının fəxri üzvü kimi Süleyman Dəmirəl bütün başqa sahələrdə olduğu kimi Azərbaycanın elminə də öz qayğısını, diqqətini göstərəcək və Azərbaycan elmi ilə Türkiyə elmi arasında əlaqələrin gələcək inkişafına səylərini qoyacaqdır.

Dövlətimizin başçısı göstərmişdir ki, Müstəqil Azərbaycan müstəqil həyatını yaşayan dövrdən respublikamızın elmi müəssisələri, Elmlər Akademiyası ilə Türkiyə Cümhuriyyətinin elm ocaqları, elm mərkəzləri alimləri arasında çox sıx əlaqələr yaranmışdır. Alimlərimizin, elmi müəssisələrimizin, Akademiyanın rəhbərliyinin Türkiyəyə gediş-gəliş və eyni zamanda Türkiyə Cümhuriyyətindən elm adamlarının Azərbaycana gəlişi indi adi hal olmuşdur. Bu, bizi çox sevindirir. Çünki əgər keçmiş zamanlarda alimlərimiz və bütün xalqımız buna daim can atırmışsa, çalışmışsa və qarşıda olan sədləri aşıb keçərək öz əlaqələrini yaratmışsa, indi ölkəmiz müstəqil dövlətdir, sərhədlərimiz açıqdır və bizim üçün ən yaxın dost olan Türkiyə Cümhuriyyəti ilə əlaqələrimiz artıq çoxsahəlidir və genişdir. Ümidvaram ki, bu əlaqələr günü-gündən daha da genişlənəcək, möhkəmlənəcək və sarsılmaz, qırılmaz olacaqdır. O vurğulamışdır ki bu baxımdan Milli Elmlər Akademiyası tərəfindən Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ fəxri akademik adı verilməsi tamamilə əsaslıdır, məqsədəuyğundur.

Dövlətimizin başçısı göstərmişdir ki, Süleyman Dəmirəlin həyat yolu, onun yaradıcılığı, fəaliyyəti Azərbaycan xalqına yaxşı məlumdur. O, həm mühəndisdir, həm alimdir, həm də ixtiraçıdır. Ancaq onun elm sahəsində ən böyük xidmətləri siyasət sahəsindəki xidmətləridir. Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi, deyə bilərəm ki, ən çətin bir sahədir. Siyasət sahəsində həm fəaliyyət göstərmək, həm də bu sahədə elmi nəliyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir. Bunların hamısı da bizim dostumuz, qardaşımız Süleyman Dəmirələ məxsusdur. 35 ildən artıqdır ki, dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətində, onun siyasi həyatında siyasi fəaliyyət göstərir, dövlətçilik fəaliyyətindədir. Bu dövrdə Türkiyə Cümhuriyyətinin, dövlətinin inkişaf etməsi, demokratiyanın inkişaf etməsi, xalqın səviyyəsinin qalxması və Türkiyə Cümhuriyyətinin dünyada bu qədər görkəmli yer tutması şübhəsiz ki, hörmətli dostumuz Süleyman Dəmirəlin siyasi, dövlətçilik fəaliyyəti ilə bağlıdır və ona borcludur. Ona görə də hörmətli Süleyman Dəmirəl siyasət sahəsində dünya miqyasında böyük alimlər, böyük ictimai-siyasi xadim, dövlət xadimidir. O, hörmət edib bu gün Azərbaycan Milli Elmlər Akademiyasına gəlib və Azərbaycan alimləri, elm xadimləri, Milli Elmlər Akademiyası ona böyük hörmət, ehtiram göstərərək akademiyanın fəxri akademiki seçibdir. Mən hesab edirəm

ki, bu, tariximizdə parlaq səhifələrdən biridir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu hadisə xalqımız arasında, dövlətlərimiz, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir və Azərbaycan elmi ilə Türkiyə Cümhuriyyətinin elmini daha da sıx bağlayacaqdır.

Görüşlər zamanı dövlətimizin başçısı Prezident Süleyman Dəmirəli müşaiyət edən iş adamlarını Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin bundan sonra irəliyə necə aparılacağı barədə öz sözlərini, fikrlərini deməyə, təkliflərini irəli sürməyə çağırmışdır.

İki Prezidentin bu görüşü ölkəmiz üçün çox mühüm olan birgə bəyanatla sonuclanmışdır.

Bu birgə bəyanat faktiki olaraq Azərbaycan və Türkiyə əlaqələrinin bu səfərə qədərki mərhələsini yekunlaşdırmış, onların perspektivlərini müəyyənləşdirmişdir. Proqram xarakterli bu bəyanatda göstərilir: "Ənənəvi dostluq, qardaşlıq, qarşılıqlı anlaşma və səmimiyyət şəraitində keçən görüşlərdə Azərbaycan və Türkiyə arasında ikitərəfli əlaqələrin inkişafı hərətəfrli müzakirə edilmiş, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

Tərəflər, xüsusi olaraq qeyd etmişlər ki, beynəlxalq münasibətlərin dərin transformasiyaya məruz qaldığı bir dövrdə dünyada müsbət dəyişikliklərin, möhkəm sabitliyin mühüm təminatı kimi geniş və çoxtərəfli əməkdaşlığın əhəmiyyəti obyektiv olaraq artır. Onlar dünya işlərində BMT-nin rolunu güclənməsini, regional münaqişələrin aradan qaldırılmasında, qlobal problemlərin həlli yollarının axtarılmasında onun fəal iştirakının vacibliyini qeyd etmişlər.

Tərəflərin fikrinə görə BMT öz inkişafının yeni mərhələsində, nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq, beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq sisteminin möhkəmlənməsində aparıcı rol oynamalıdır və xüsusən Təhlükəsizlik Şurasının strukturu günümüzün tələblərinə cavab verməlidir.

Tərəflər, ATƏT-in yekun aktının və Paris Xartiyasının müddəalarına tərəfdar olduqlarını ifadə etmişlər. Onlar öz aralarında və Helsinki prosesinin iştirakçısı olan digər dövlətlərlə bu prosesin inkişafı üçün əməkdaşlıq etmək əzmində olduqlarını bildirmişlər. ATƏT-in müasir Avropada rolu bütün sahələrdə təhlükəsizlik və əməkdaşlığı möhkəmləndirməkdən ibarət olmalıdır ki, bu isə ATƏT mexanizminin daha da təkmilləşdirmək yolu ilə mümkündür.

Tərəflər, beynəlxalq və regional problemlərin həllinin suverenliyinə, müstəqilliyinə ehtiram, dövlətlərin ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət və daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmasını gərəkliyini təsdiq etmişlər.

Tərəflər, iki ölkə arasında dostluğu və hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək və dərinləşdirmək əzmində olduqlarını təsdiq etmişlər.

Tərəflər, Ermənistan Respublikasının Azərbaycana hərbi təcavüzünü qətiyyətlə pisləyərək, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin pozulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsiplərini əsas tutaraq, Qarabağın Azərbaycan Respublikasının ayrılmaz hissəs olmasını təsdiq etməklə, erməni qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən təcili və qeydşərtsiz çıxarılmasını, Qarabağ münaqişəsinə dair BMT-nin və ATƏT-in müvafiq qətnamələrinin icrasını, habelə qaçqınların öz doğma torpaqlarına qaytarılmasını nəzərdə tutan bir ümumi nəticəyə gəlmək tələbini bir daha təsdiq etmişlər.

Türkiyə tərəfi, silah gücü ilə işğal edilmiş torpaqların azad edilməsi istiqamətində faydalı addımlar atılmasının sülhə, sabitliyə və bölgədə əməkdaşlığa mühüm təsir göstərəcəyini bildirmiş və bu baxımdan Ermənistan Respublikasının regionda sülhün və təhlükəsizliyin bərqərar edilməsində xüsusi məsuliyyətini qeyd etmişdir.

Tərəflər, ayrıca olaraq, ATƏT-in Ermənistan - Azərbaycan münaqişəsinin həllinə dair sülh prosesi çərçivəsində Minsk qrupunun bütün üzvlərinin bu sülh prosesinin bütün mərhələlərində birgə iştirak etməsinin vacibliyini qeyd etmişlər. Azərbaycan tərəfi, ATƏT-in Minsk sülh prosesində qəbul ediləcək qərarlarının həyata keçirilməsində Türkiyənin fəal rol oynamaq istəyini məmnuniyyətlə qəbul etmişdir. Türkiyə tərəfi, Minsk qrupunun digər üzvləri ilə sıx təmaslarını daha da artıracağını bildirmişdir.

Tərəflər, Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi, qaçqın və köçkünlərin öz torpaqlarına qaytımalarının təmin edilməsi, bölgədə ədalətli və möhkəm sülhün yaradılması üçün lazımi regional və beynəlxalq səylərin artırılmasının vacibliyini qeyd etmişlər. Türkiyənin beynəlxalq səviyyələrdə Azərbaycana haqlı mübarizəsində lazımi dəstək verəmkdə davam edəcəyi bir daha vurğulanmışdır.

Tərəflər, ayrıca olaraq, Azərbaycanla Ermənistan arasında olan hərbi münaqişədə 19 aydan bəri atəşkəs rejiminin davam etməsini məmnuniyyətlə qarşılamışlar və bölgədəki problemlərinin sülh yolu ilə sürətli həlli üçün beynəlxalq təşkilatlar tərəfindən göstərilən səylərin dəstəklənməsinin bölgədə əməkdaşlığın genişlənməsinə və sabitliyə xidmət edəcəyinə əmin olduqlarını bildirmişlər.

Türkiyə tərəfi, Azərbaycanda qısa bir zamanda iqtisadi, sosial və siyasi sahələrdəki irəliləyişlər, xüsusilə Azərbaycanda sərbəst bir şəraitdə, çoxpartiyalılıq əsasında keçirilmiş Parlament seçkilərini ən yeni Konstitusiyanın qəbul edilməsini məmnuniyyətlə qeyd etdikdən sonra, Türkiyənin bu sahələrdə Azərbayca-

na indiyə qədər olduğu kimi, bundan sonra da hər cür yardımı və dəstəyi davam edəcəyini bildirmişdir.

Eyni zamanda Azərbaycan tərəfi, bu seçkilərin sərbəst bir şəraitdə keçirilməsini müşahidə etmək məqsədi ilə Türkiyədən göndərilmş müşahidəçilər qrupunun fəal və obyektiv iştirakı üçün dərin minnətdarlığını bildirmişdir.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorunda, Azərbaycan ilə beynəlxalq neft konsorsiumu tərəfindən imzalanan neft müqaviləsnin həyata keçirilməsinin bölgəyə iqtisadi və siyasi sabitliyin bərpası üçün müstəsna əhəmiyyətini xüsusi qeyd etmişlər və Azərbaycanın beynəlxalq iqtisadi sistem ilə bütünləşməsinə onun zəmin yaradacağı barədə fikir birliyini bir daha təsdiqləmişlər.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd etmiş və ayrıca olaraq, əsas neft kəmərinin Türkiyə Ceyhan terminalına yönəldilməsi barədə istəklərini təsdiq etmişlər.

Tərəflər, iki ölkə arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin dönmədən inkişafını təmin edən müqavilə və sazişlərin həyata keçirilməsi mexanizmlərinini inkişaf etdirmək və təkmilləşdirmək barədə tədbirlər görülməsinin əhəmiyyətini qeyd etmişlər.

Bu məqsədlə tərəflər, xüsusən iqtisadi əlaqələrin daha yüksək səviyyədə qaldırılması üçün imkanlar olduğunu qeyd edərək müvafiq nazirliklərin rəhbərliyi ilə Türkiyə - Azərbaycan birgə iqtisadi komissiyasının ən qısa bir vaxtda Bakıda toplanması və Türkiyə - Azərbaycan və Azərbaycan - Türkiyə işgüzar adamlar şuralarının daha da təsirli fəaliyyəti üçün lazımi şəraitin yaradılması haqqında razılaşmışlar.

Tərəflər, iki ölkə arasında ticarətin inkişafını təmin etmək və investisiyaları təşviq etmək məqsədi ilə lazımi tədbirlərin görülməsi və iki ölkənin firma və təşkilatları tərəfindən imzalanan müqavilə və protokolların işgüzar hala gətirilməsi haqqında eyni fikirlərə sahib olduqlarını məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı nəqliyyat və rabitə sahəsində mövcud çətinliklərin tez bir zamanda aradan qaldırılması üçün birgə tədbirlər görülməsi lüzumunu qeyd edərək, Türkiyə və Azərbaycan arasında 1 noyabr 1992-ci il tarixində Ankarada imzalanmış beynəlxalq quru yol nəqliyyatı haqqındakı müqavilənin təsdiq sənədlərinin iki ölkə tərəfindən təkmilləşdirilməsini və bu səfər əsasında həyata keçirilməsini məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, iki ölkə arasındakı hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafı məqsədi ilə, Türkiyə və Azərbaycanın mülki aviasiya təşkilatlarının bu mövzuda imkanlarını

qiymətləndirmək üçün qısa müddət ərzində bir görüş keçirmək arzusunda olduqlarını qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı dəmiryolu nəqliyyatı sahəsində imkanları qeyd edərək, 1991-ci ilin mart ayında imzalanmış protokla əsasən Naxçıvan Muxtar Respublikasının Sədərək məntəqəsində Araz çayı üzərindən dəmiryolu körpüsünün tikilməsinin, qısa bir vaxtda Türkiyə ərazisindən dəmiryolu xəttinin çəkilməsnin və gələcəkdə Türkiyə Respublikasının dəmir yollarını istər Azərbaycan ərazisi ilə, istərsə də Orta Asiya respublikaları ilə birləşdirmək imkanlarının əhəmiyyətini vurğulamışlar.

Bununla əlaqədar, Bakı sərnişin vaqonları deposunun modernizə edilməsi layihəsinin həyata keçirilməsinin vacibliyni də qeyd etmişlər. Azərbaycan tərəfi Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olmasını nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası üçün Türkiyədən alınan elektrik enerjisinin gücünün və keyfiyyətinin artırılmasını istəmişdir.

Bununla əlaqədar, tərəflər, 14 iyul 1995-ci il tarixində Antaliyada imzalanmış protokolu qeyd etmişlər və bu protokolda göstərildiyi kimi Azərbaycan - Gürcüstan - Türkiyə enerji sistemlərinin bir-birinə bağlanması layihələrini hazırlamaq üçün tezliklə işçi qrupu yaradılmasının vacibliyini vurğulamışlar.

Tərəflər, ənənəvi dostluq və qardaşlıq münasibətlərini genişləndirmək əzmində olduqlarını bir daha təsdiq edərək, Türkiyə Radio-Televiziya Təşkilatının TRT-1 televiziya proqramının Azərbaycan Respublikasının bütün ərazisində yayılmasını təmin etmək məqsədi lə iki ölkə arasında bu səfər zamanı imzalanan sazişin hər iki ölkə və bu ölkələrin xalqları arasındakı anlaşma və əlaqələrin möhkəmlənməsi yolunda daha faydalı olacağını qeyd etmişlər.

Tərəflər, iki ölkə arasında 28 fevral 1992-ci il tarixli viza haqqındakı sazişi əsas tutaraq 28 noyabr 1995-ci il tarixində məktublar mübadiləsi nəticəsində viza məsələlərinin asanlaşdırılmasını məmnuniyyətlə qeyd etmiş və bu razılaşmanın iki ölkə vətəndaşlarının gediş-gəlişinin asanlaşdırılacağına ümid etdiklərini bildirmişlər. Azərbaycan tərəfi, Azərbaycan Respublikasının Ankaradakı səfirliyinə diplomatik şəhərcikdə müvafiq yer ayrılmasını razılıqla qeyd edərək, bunun müqabilində Türkiyə Cümhuriyyətinin Bakıdakı səfirliyi üçün şəhərin münasib yerində yetərli sahə ayrılmasını qəbul etmişdir.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı yaxşı münasibətlərin regionun digər ölkələri üçün nümunə olması arzularını təsdiq edərək, bu ölkələri hər sahədə əməkdaşlığı genişləndirməyə dəvət etmişlər.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl Azərbaycana ziyarət zamanı ona və Türkiyə heyə-

tinə göstərilən mehribanlıq və qonaqpərvərliyə görə Azərbaycan tərəfinə və bütün Azərbaycan xalqına dərin təşəkkürünü bildirmişdir.

Rəsmi görüşlərin sonunda həmişə olduğu kimi birgə mətbuat konfransı keçirilmişdir. Konfransda Prezidentlər ikitərəfli münasibətlər, həm də beynəlxalq aləmdə gedən proseslər haqqında danışıqlar aparıldığını bəyan etmişlər. Bütün bu danışıqların mərkəzində Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması və bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizindən çoxunun işğal olunması, zəbt edilmiş torpaqlardan bir milyondan çox vətəndaşımızın yurdundan didərgin düşməsi məsələlərinin müzakirəsi durmuşdur. Onlar qeyd etmişlər ki, tərəflər eyni fikirdədirlər ki, bu problem - Azərbaycan üçün ən ağır, çətin problem, eyni zamanda qardaş Türkiyə Respublikasını da həddindən artıq narahat edən problem sülh yolu ilə həll olunmalıdır və onlar sülh yoluna üstünlük verirlər.

Böyük Sülh Sazişinin əldə olunması üçün Türkiyə və Azərbaycanın şərtləri ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü təmin olunmalı, didərgin düşmüş bir milyondan artıq vətəndaşımız öz yerlərinə qayıtmalıdır. Dağlıq Qarabağ problemini həll etmək üçün bununla yanaşı Azərbaycanın tərkibində, Azərbaycanın ayrılmaz hissəsi olaraq Dağlıq Qarabağa müəyyən status verilməsi məsələsinə də müsbət münasibət göstərilmişdir. Sülhün əldə olunması üçün aparılan danışıqlar sürətlə getməlidir ki, tezliklə nəticə versin. Çünki Azərbaycan "nə sülh, nə müharibə" vəziyyətində üzun müddət qala bilməz.

Danışıqlarda iqtisadi əlaqələrimizin inkişaf etdirilməsi barədə də söhbət aparılmış, onların genişləndirilməsi qərara alınmışdır. Bütün sahələrdə - təhsil, mədəniyyət, insani əlaqələr və bütün başqa sahələrdə münasibətlərimizin yaxşı olması göstərilmiş, ancaq daha da yaxşılaşması üçün cəhdləri artırmaq nəzərdə tutulmuşdur.

Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan ictimaiyyəti nümayən-dələrinin görüşündə Prezident Heydər Əliyev bəyan etmişdir ki, bu günlər Türkiyə - Azərbaycan dostluğu və qardaşlığı yeni bir yüksək zirvəyə qalxıbdır.

Azərbaycan Prezidenti xalqımızın böyük dostu Süleyman Dəmirəl haqqında aşağıdakı ürək sözlərini bildirmişdir: "Hörmətli Süleyman Dəmirəl ilk dəfə Türkiyənin Baş naziri seçiləndən sonra ilk xarici səfərlərindən birini Sovet İttifaqına etmişdir. Sovet İttifaqını ziyarət edərkən Azərbaycana da gəlmişdir. Bu, 1967-ci ildə olmuşdur. Yəni ilk dəfə Baş nazir olarkən o, Azərbaycana maraq göstərmiş, Azərbaycana gəlmək istəmiş və gəlmişdir. Xatirimdədir, o günlər Azərbaycan vətəndaşları, xalqımız hörmətli Süleyman Dəmirəli öz doğma qardaşı kimi qarşılayırdı. Olduqca mehriban, hərarətli bir münasibət var idi. O vaxt bizim ilk tanışlığımız oldu. Mən hiss edirdim ki, hörmətli Süleyman Dəmirəl də Azərbaycana gəlməyindən nə qədər məmnundur və Azərbaycanı görmək onun üçün nə qədər əhəmiyyətlidir.

Sonrakı dövrdə Azərbaycan ilə hörmətli Süleyman Dəmirəl arasında olan münasibətlərdə böyük fasilə dövrü olubdur. Məlumdur ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində müttəfiq respublika idi. Azərbaycanın xarici ölkələrlə bilavasitə əlaqə saxlamağa imkanı yox idi. Türkiyənin Baş naziri nə qədər istəsəydi də, Azərbaycanla əlaqə qurmağa ona da imkan verməzdilər. Nəhayət, bu imkan əldə edildi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinə nail oldu. Türkiyə Cümhuriyyəti Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk xarici dövlət oldu. Bu da məhz hörmətli dostumuz Süleyman Dəmirəlin fəaliyyəti, onun Azərbaycana münasibəti nəticəsində olmuşdur. Bundan sonra əlaqələr çox yaxın olmuş, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələr inkişaf etməyə başlamışdır. Hörmətli Süleyman Dəmirəl Azərbaycana daim diqqət yetirmiş, qayğı göstərmişdir.

1992-ci ildə hörmətli Süleyman Dəmirəl Azərbaycana ikinci dəfə gəlmişdir, bu vaxt Azərbaycan müstəqil dövlət idi. Doğrudur, o vaxt Azərbaycan müstəqilliyinin ilk aylarını yaşayırdı. Azərbaycanda qarmaqarışıq bir vəziyyət var idi, daxili siyasi proseslər çox gərgin idi. Məhz belə bir vaxtda, belə bir zamanda hörmətli Süleyman Dəmirəl ölkəmizə gəlməklə bir daha Azərbaycana öz hörmət və ehtiramını bildirmiş və bu da öz faydasını göstərmiş, öz nəticəsini vermişdir.

Nəhayət, dünən biz Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəli əziz bir qonaq kimi qəbul etmişik, bağrımıza basmışıq, qucaqlamışıq. İki gündür ki, bərabərik, bir yerdəyik. Güman edirəm ki, bu qısa bir zamanda hörmətli Süleyman Dəmirəl və onu müşayiət edən nümayəndə heyəti, onunla bərabər Azərbaycana gəlmiş türkiyəli qardaşlarımız respublikamızın bu günü ilə tanış ola biliblər. Çox şey görüblər. Yəqin ki, gördükləri haqqında özləri deməlidirlər və nəticə çıxarmalıdırlar. Ancaq bir şeyi mən də qeyd etmək istəyirəm. Harda olmuşuqsa, hansı küçədən, meydandan keçmişikсə, havanın yağışlı olmasına baxmayaraq, insanlar, vətəndaşlar, bakılılar, Bakının sakinləri küçələrə, meydanlara çıxıblar - məhz hörmətli qonağımızı, dostumuzu, Süleyman Dəmirəli görmək, onu salamlamaq, ona öz hörmət və ehtiramını yetirmək, ona əl etmək üçün, ona öz təbəssümlərini, sevinclərini bildirmək üçün. Mən bunların şahidiyəm. Bunlar təbi-

idir. Çünki bunlar hamısı xalqlarımız arasında olan, əsrlərdən-əsrlərə keçmiş dostluq, qardaşlıq əlaqələrinin ifadəsidir. Bunlar hamısı Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyəyə, türk dünyasına və türk dünyasının böyük şəxsiyyəti, böyük lideri Süleyman Dəmirələ olan hörmət və ehtiramının ifadəsidir.

Respublikamız müstəqillik qazanandan sonra hörmətli Süleyman Dəmirəlin Azərbaycana göstərdiyi qayğı və diqqət haqqında, onun etdiyi yardımlar haqqında çox danışmaq olar. Bir sözlə, onu demək istəyirəm ki, o, həmişə Azərbaycan üçün doğma qardaş olubdur və öz qardaşlıq münasibətini daim ifadə edibdir, bildiribdir, göstəribdir, əməli surətdə sübut edibdir."

Prezident Süleyman Dəmirəlin Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətindən çıxarılmasında xüsusi rolunu qeyd edən və ona xalqımız adından öz dərin təşəkkürünü bildirən Prezidentimiz göstərdi ki, bütün bunların hamısı tariximizin səhifələridir. Bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin, xalqının və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin xüsusi rolunu qeyd etməyi özümə borc bilirəm.

Yaxın tarixi keçmişimizdə də Türkiyənin özü üçün ən çətin anlarda belə Azarbaycana kömək əlini üzatdığından bəhs edən ölkəmizin başçısı o ağır günləri xatırlayaraq demişdir: "...İlk Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi dövrdə Türkiyə daim Azərbaycana dayaq, kömək olmuş, yardım etmişdir. Bunu bizim xalqımız heç vaxt unutmayıb və unuda da bilməz. O ağır, çətin illərdə erməni silahlı qüvvələri Azərbaycanda - Bakıda, Azərbaycanın başqa bölgələrində, o cümlədən Qarabağ bölgəsində qırğınlar edirdilər. O vaxt türk qardaşlarımız yenə də bizim köməyimizə gəldilər. Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Qarabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən Azərbaycanda da Ənvər Paşanı, Nuru Paşanı heç kəs heç vaxt unutmur və unuda bilməz. Onların simasında o dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən türk qardaşlarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik. İndi də bu dörd illik müstəqillik dövründə bizim bu dostluq, qardaşlıq əlaqələrimiz daha da inkişaf edib, yüksəklərə qalxıb. Artıq biz sərbəst münasibət yaratmaq imkanı əldə etmişik.

70 il ərzində bizim Türkiyə ilə əlaqələrimiz bağlı, qapalı olubdur. Biz böyük həsrətlə Türkiyəyə baxmışıq, Türkiyədə gedən prosesləri izləmişik. Çoxlarının qohum-əqrəbası orada olubdur. Orada yaşayanların qohum-əqrəbası Azərbaycanda olubdur. Bir-birindən ayrı düşüblər. Bəziləri bəlkə də öz arzularını yerinə

yetirmədən dünyasını dəyişib. Ancaq nəhayət, bütün bunlar aradan götürüldü. Sərhədlərimiz açılan kimi, Azərbaycan müstəqillik qazanan kimi xalqlarımız dərhal bir-birinə bağlandı. 70 illik bu ayrılıq sanki heç olmamışdır. Bəzən düşünürsən ki, biz elə daim bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Yəni daxili, mənəvi əlaqələrimiz, hissiyyatlarımız birbiri ilə o qədər bağlıdır ki, 70 illik ayrılıq bizi heç də ayıra bilməyib və güman edirəm, bundan sonra heç vaxt ayıra bilməz. Çünki artıq Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlət kimi Azərbaycanın yeni Konstitusiyası qəbul olunub. Azərbaycanda ilk demokratik Parlament seçkiləri keçirilib, yeni Parlament yaranıbdır. Yəni bu dörd il müddətində Azərbaycanda gedən ağır proseslər nəticəsində artıq dövlət-hakimiyyət orqanları formalaşıbdır, bərqərar olubdur, Azərbaycanı idarə etməyə və Azərbaycanın bütün ölkələrlə münasibətlərini yaratmağa qadirdir. Bu münasibətləri yaradarkən biz birinci növbədə Türkiyə ilə olan münasibətlərimizi daha da inkişaf etdirməyə çalışırıq və bundan sonra da inkişaf etdirəcəyik.

Bu gün hörmətli Prezident Süleyman Dəmirəl ilə mən Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsinə həsr olunmuş birgə bəyanat imzaladıq. Bizim ölkələrimiz arasında indiyədək bir sıra sazişlər, müqavilələr, sənədlər imzalanıbdır. Biz onları həyata keçirməliyik. Ancaq bu gün birgə bəyanatı imzalayarkən bir daha təsdiq etdik ki, həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası indiyə qədər imzaladıqları sazişlərə, müqavilələrə sadiqdirlər və bundan sonra da əlaqələrini inkişaf etdirməyə əzmlə çalışacaqlar.

...Türkiyə Cümhuriyyəti, onun neft şirkəti bizim böyük neft müqaviləsinin üzvüdür. Orada Türkiyənin böyük payı var. Biz Türkiyə ilə bu sahədə əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Güman edirəm ki, bu əməkdaşlıq iqtisadiyyatımızda qarşılıqlı surətdə faydalı olacaqdır.

İqtisadiyyatımızın digər sahələrinə də maraq göstərənlər və onlarla tanış olmaq istəyənlər var. Biz hamını dəvət edirik. Bu gün Türkiyənin iş adamlarının böyük bir qrupu ilə aparılan söhbətlər, onların verdiyi məlumatlar onu göstərir ki, artıq Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr inkişaf edir, irəliyə gedir və bu əlaqələrin çox gözəl gələcəyi var."

Nitqində Dağlıq Qarabağ problemino də toxunan ölkəmizin başçısı bildirmişdir ki, bu ağır, çətin məsələnin, vəzifənin həll olunmasında biz Türkiyə Cümhuriyyətinin, onun rəhbərlərinin və şəxsən hörmətli dostumuz Süleyman Dəmirəlin yardımını, dəstəyini daim hiss edirik. Ümidvar olduğunu bildirmişdir ki, bu iki gün müddətində Azərbaycanla tanış olandan, qaçqınların vəziyyətini görəndən, Azərbaycanın sülhsevər olduğu-

na bir daha inanandan sonra həm Prezident Süleyman Dəmirəl, həm də Türkiyənin digər rəhbər şəxsləri və Türkiyə Cümhuriyyəti Azərbaycanın bu vəziyyətdən çıxması üçün daha təsirli addımlar atacaqdır.

Beləliklə, dövlət başçımızın göstərdiyi kimi bu səfər tarixi bir ziyarət oldu və əlaqələrimizin inkişafına öz töhfələrini verməyə başladı.

1996

1996-cı il də əlaqələrimizdə yeni-yeni irəliləyişlərin meydana gəlməsi ilə səciyyələndi. Hələ yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməyi münasibətilə Mustafa Kalemli cənablarını təbrik etdi. 12-16 mart 1996-cı il tarixlərində Naxçıvan Muxtar Respublikası Parlament Sədrinin rəhbərliyi ilə Naxçıvanın Parlament və hökumət nümayəndə heyəti Ankarada səfərdə oldu. Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəl və Baş naziri M.Yılmaz Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətini qəbul etdilər.

23-26 mart 1996-cı il tarixlərində Ankarada keçirilən IV "Türk dövlətləri və toplumlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayının işində iştirak etmək üçün Azərbaycan Respublikasının 25 nəfərlik nümayəndə heyəti Ankaraya səfər etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Türkiyə Cümhuriyyətinin Baş naziri M.Yılmaz və onu müşayiət edən nümayəndə heyəti 1996-cı il aprel ayının 14-dən 15-dək Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. M.Yılmaz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi. O, digər rəsmi şəxslərlə də görüşlər keçirdi. Səfərin yekunu olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri M.Yılmaz "Azərbaycan-Türkiyə Birgə Bəyanatı"nı imzaladılar.

Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Türkiyənin Baş naziri Məsud Yılmazla birgə mətbuat konfransında Azərbaycan Prezidenti bildirdi ki, danışıqlar zamanı biz bir çox məsələləri müzakirə etmişik. Birinci növbədə Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi haqqında müzakirələr aparıldı. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün müştərək komissiya yaradıldı. Bu komissiyanın sədrləri Azərbaycan tərəfindən Baş nazirin müavini Abid Şərifov, Türkiyə tərəfindən isə Enerji Naziri Nüsni bəy təyin edildilər. Onlar artıq işə başlayıblar və bir çox müzakirələr aparılır. Görüşdə Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin bütün sahələrinə nəzər salındı və belə qənaətə gəlindi

ki, bu əlaqələr inkişaf etdirilməli, genişləndirilməlidir. Türkiyə və Azərbaycan üçün çox mühüm məsələ olan Ermənistan - Azərbaycan hərbi münaqişəsi də bizim danışıqların, müzakirələrin mərkəzində oldu. Tərəflər bu barədə də eyni fikirdədir. Türkiyə Azərbaycan Respublikasının haqq və ədalət işini müdafiə edir. Baş nazir Məsud Yılmaz tərəfindən bu fikirlərin bir daha bəyan edilməsi bizim üçün çox əhəmiyyətli oldu. Həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi eyni fikirdədir ki, sülh danışıqları Minsk qrupu çərçivəsində və ayrı-ayrı böyük dövlətlərin - ABŞ-ın, Rusiyanın, Türkiyənin vasitəçiliyi ilə davam etdirilməlidir. Bu məsələ sülh yolu ilə həll olunmalıdır. Bütün bunlarla yanaşı görüşlərdə beynəlxalq məsələlər də gözdən keçirildi. Bölgədəki və dünyadakı vəziyyət müzakirə edildi. Prezident ölkələrimiz arasındakı mövcud dostluq əlaqələrinə toxunaraq çox düzgün olaraq göstərdi ki, **"Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin ən mühüm cəhəti ondan ibarətdir ki, bir çox beynəlxalq məsələlərə də biz eyni münasibət göstəririk. Biz beynəlxalq aləmdə də əməkdaşlıq edirik və beynəlxalq məsələlərin həll olunmasında bir-birimizə yardım edir, dəstək veririk"**. Gələcək əməkdaşlıq məsələlərinə toxunan Prezidentimiz göstərdi ki, Azərbaycan ilə Türkiyənin iqtisadi əməkdaşlığının çox gözəl gələcəyi var. Bu əməkdaşlıq sahəsində çox dəyərli addımlar atmışıq. Xüsusən, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə olunması üçün biz Türkiyə ilə əməkdaşlıq edirik. Məlumdur ki, 1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsinin iştirakçılrından biri də Türkiyə Cümhuriyyətinin "Türk Petrolları" şirkətidir. Onu da qeyd etmək lazımdır ki, həmin müqavilə imzalandıqdan sonra biz Türkiyə neft şirkətinin konsorsiumda olan payını 5 faiz artırmışıq və Türkiyə konsorsiumda artıq özünəməxsus yer tutubdur. İlkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi məsələsinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, bu məsələdə də biz Türkiyə ilə daim əməkdaşlıq etmişik. Nəticədə Azərbaycanın ilkin neftinin ixracı üçün iki boru kəmərinin - Rusiya ərazisi vasitəsilə Qara dəniz sahilindəki Novorossiysk limanına və Gürcüstan ərazisindən keçməklə Türkiyənin Supsa limanına kəmərlərin çəkilməsi haqqında qərarlar qəbul etmişik. Bu qərarları hazırlayarkən, qəbul edərkən Türkiyə Cümhuriyyətinin mənafelərini də nəzərə almış, onunla əməkdaşlıq etmişik və həmin qərarlar birgə əməkdaşlığımızın nəticəsidir. Bizim bundan sonra da əməkdaşlıq etməyimiz üçün yaxşı imkanlar var, özü də təkcə neft sənayesi yox, başqa sahələrdə də imkanlar var. Türkiyənin iş adamları Azərbaycana gəlirlər. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşibdir. Biz buna tam zəmanət vermişik və Azər-

baycanın Prezidenti kimi mən bu gün bir daha zəmanət verirəm. Türkiyənin iş adamlarını ölkəmizdə müştərək iş görməyə dəvət edirəm. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, iqtisadi əməkdaşlığımız, elm, mədəniyyət sahəsindəki, bütün başqa sahələrdəki əməkdaşlığımız və xüsusən beynəlxalq aləmdə Türkiyə - Azərbaycan əməkdaşlığı, Qafqazda sülhün, əmin-amanlığın bərqərar olması üçün etdiyimiz əməkdaşlıq və nəhayət, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək, ölkəmizi xarici təcavüzdən qurtarmaq üçün əməkdaşlıq - bunların hamısı birlikdə Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının gələcəkdə də inkişafını təmin edəcəkdir. Qeyd etdi ki, bizim dostluğumuz, qardaşlığımız böyük sınaqlardan keçib və bu gün də belə sınaqlardan keçir, Çünki bu dostluq və qardaşlığımıza kəm baxanlar, buna qısqananlar, mane olmaq istəyənlər də var. Həm daxildə, həm də xaricdə dostluğumuzu, qardaşlığımızı ləkələmək istəyənlər də var. Amma qoy hamı bilsin ki, heç bir qüvvə, heç kəs buna mane ola bilməyəcəkdir. Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir. Türkiyə - Azərbaycan əlaqələrini nəzərdən keçirdikdə, elə Prezidentimizin nitqinin məzmununa diqqətlə nəzər saldıqda görürük ki, Azərbaycan Prezidenti həmişə hesab etmişdir ki, Türkiyə ilə bizim dostluğumuzun, qardaşlığımızın böyük gələcəyi var. Ona görə heç də təsadüfi deyildir ki, bir çox problemlərin həllində Türkiyəni ölkəmizə arxa və dayaq hesab edirik. Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş nailiyyətləri isə özümüz üçün örnək hesab edirik. Bu təcrübədən, əldə olunan nailiyyətlərdən Azərbaycanın xüsusiyyətlərinə uyğun istifadə etməyə çalışırıq. Türkiyədə artıq həyata keçirilən demokratiya, insan azadlığı, sərbəst bazar iqtisadiyyatı, söz azadlığı və s. təcrübələrdən yararlanmağa çalışırıq. Prezidentimizin dəfələrlə bəyan etdiyi kimi, bunların hamısı Azərbaycanda bərqərar olmaqdadır. Ölkəmizin başçısının qeyd etdiyi kimi, biz indi dünya demokratiyasının əldə etdiyi nailiyyətlərdən istifadə edərək bu prinsipləri daha da möhkəmləndirir və inkişaf etdiririk. Bizim üçün tarixi, milli ənənələrimizə görə çox yaxın olan Türkiyənin təcrübəsindən səmərəli istifadə etməyə çalışırıq. Biz istəyirik ki, Türkiyə gündən-günə möhkəmlənsin, artsın, inkişaf etsin. Türkiyə dünya miqyasında öz nüfuzunu nə qədər qaldıracaqsa, Azərbaycan üçün, bütün türk dünyasına mənsub olan ölkələr üçün o qədər gərəkli olacaqdır. Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, buna görə də Türkiyənin nailiyyətlərini biz özümüzün doğma nailiyyətimiz hesab edirik və hər bir nailiyyətə, irəliləyişə hər bir türk vətəndaşı kimi sevinirik. Biz həmişə ümid etmişik ki, Türkiyə Cümhuriyyəti, Türkiyə eli özünə dost, qardaş olan Azərbaycan xalqının, Azərbaycan Respublikasının qayğıları ilə daim yaşayacaq, bu qayğıları öz qayğıları biləcək, Azərbaycanın gələcəyə olan ümidini öz ümidi hesab edəcəkdir.

Bu səfər zamanı Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmaza M.Ə.Rəsulzadə adına BDU-nun fəxri doktoru diplomu təqdim edildi. Mərasimdə ölkəmizin başçısı da iştirak edirdi. Türkiyə Cümhuriyyətinin Baş Naziri Məsud Yılmaz Sabunçu rayonundakı 6 saylı Texniki Peşə Məktəbinin yataqxanasında yaşayan Füzuli, Cəbrayıl, Zəngilan qaçqınları ilə də görüş keçirdi. Görüşdə çıxış edən möhtərəm Prezidentimiz Türkiyənin roluna önəm verərək demişdir ki, biz Türkiyəni, Türkiyə xalqını, Türkiyə Cümhuriyyətinin rəhbərlərini, başçılarını öz yanımızda, özümüzlə bərabər görürük. Bu, bizim üçün böyük təskinlikdir, dayaqdır, eyni zamanda böyük yardım və köməkdir. Bütün tədbirlərdə, beynəlxalq təşkilatlarda apardığımız danışıqlarda Türkiyə Cümhuriyyətinin nümayəndələri, Türkiyə hökuməti həmişə bizimlə olub, bizimlə birlikdə bütün tədbirlərin aparılmasına çalışıblar... Türkiyə ilə Azərbaycan arasında olan dostluq əlaqələri Azərbaycanın bu vəziyyətdən çıxması üçün çox böyük əhəmiyyətli amildir və Türkiyə bütün bu işlərimizdə bizim üçün dayaqdır. Beləliklə, qardaş Türkiyənin rəhbərlərindən birinin ölkəmizə səfəri başa çatdı. Bu səfər siyasi əlaqələrimizlə yanaşı iqtisadi əlaqələrimizin daha da genişlənməsi üçün yeni bir impuls oldu.

Yeri gəlmişkən, onu da qeyd etməyi vacib sayırıq ki, Azərbaycan Prezidenti Türkiyə ilə olan iqtisadi əlaqələrimizə həmişə böyük diqqət və qayğı ilə yanaşmışdır və yanaşmaqdadır. Dövlət başçımız bu əlaqələri inkişaf etdirmək üçün qarşıda gözlənilən perspektivlərin öyrənilməsini də çox zəruri sayır. Buna görə də o, daim Türkiyədə və Azərbaycanda belə tədbirlərin keçirilməsini alqışlayır, onların keçirilməsində bilavasitə iştirakı vacib sayır. İqtisadi sahədə əməkdaşlığımızın perspektivlərinin elmi bazasının yaradılmasını gələcək uğurlarımızın əsaslarından biri kimi qiymətləndirir.

Onun göstərişi ilə 30 may 1996-cı ildə keçirilən Azərbaycan - Türkiyə iqtisadi əməkdaşlığının perspektivlərinə həsr olunan konfrans da bu qəbildəndir. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin problemlərinin dərindən araşdırılması, ölkələrimiz arasındakı dostluq, qardaşlıq münasibətlərinin, əsasını, özəyini təşkil edən bu əlaqələrin inkişaf yollarının və istiqamətlərinin müəyyənləşdirilməsi bu konfransın əsas məqsədi, qayəsi idi. O dövrdə başqa sahələrdə əldə etdiyimiz nailiyyətlərlə iqtisadiyyat sahəsində qazandığımız nailiyyətlər müqayisə edilərkən, iqtisadiyyatdakı nailiyyətlərimizin xeyli geridə qaldığı açıq şəkildə müşahidə olunurdu. Bu geriliyin səbəblərini

araşdırmaq və onları aradan qaldırmaq üçün tərəflər arasında açıq dialoqun qurulması, hər iki tərəfin birbirini dinləməsi, buraxılan səhvlərin üzə çıxarılması və onların aradan götürülməsi yollarının müəyyənləşdirilməsi günün tələbi idi. Xarici iqtisadi əlaqələrimizdə Türkiyəyə üstünlük verilməsi həm də xalqın istəyindən doğan bir arzu idi. Və bütün bunlar mütləq nəzərə alınmalı idi. Bu baxımdan ölkəmizin başçısının konfrans iştirakçıları qarşısındakı çıxışı çox səciyyəvidir. Çıxışda bütün bu məsələlərin həm görünən, həm də görünməyən tərəfləri geniş işıqlandırılır, iş adamlarının qarşısına konkret vəzifələr qoyulur, iqtisadiyyatımızın hansı sahələrində investisiya imkanlarının istifadə edilməsinin ölkəmiz üçün lazım olduğu açıqlanırdı. Bu çıxışda deyilirdi: "...Mən hesab edirəm ki, Türkiyənin həm dövlət dairələri, həm də iş adamları Azərbaycanda iş görməyi yalnız iqtisadi mənfəətlə bağlamamalıdırlar. Şübhəsiz ki, iqtisadi mənfəət olmasa, iqtisadi əlaqələr də olmayacaqdır. Bu, aydındır. Ancaq Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrin xüsusi xarakterini nəzərə alaraq Azərbaycana gələn hər bir iş adamı, respublikamıza sərmayə qoymaq istəyən iş adamı və dövlət dairələrindən ölkələrimiz arasındakı iqtisadi əlaqələri qorumağa məsul şəxslər gərək bilsinlər ki, bu, Türkiyə ilə başqa ölkələr arasında olan iqtisadi əlaqələr deyil, bunun iqtisadi cəhətlərdən çox böyük mənəvi cəhəti var. Bu mənəvi cəhəti heç vaxt unutmaq lazım deyil. Mən demirəm ki, bu mənəvi cəhət həmişə nəzərə alınmalıdır. Ancaq Azərbaycanın iqtisadiyyatı ayaq üstündə durana qədər, respublikamız bu iqtisadi problemlərin həll edilməsi dövründən keçib gedənə qədər gərək bu, Türkiyə də nəzərə alınsın.

Mən açıq danışıram, çünki biz qardaşıq. Qardaş ilə qardaş arasında söhbət tamamilə açıq olmalıdır. Ona görə də mən ərk edirəm və bu sözləri də ərklə deyirəm. Bunu bir də ona görə deyirəm ki, mən bu işləri izləyirəm, görürəm ki, Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr əksərən ticarət əlaqələrindən ibarətdir. Şübhəsiz ki, ticarət də olmalıdır və biz ticarət əlaqələrini bundan sonra da inkişaf etdirməliyik. Bu, necə deyərlər, iqtisadi əlaqələrin başlanğıcıdır. Ticarət əlaqələri olmasa, başqa əlaqələr də olmayacaqdır. Ancaq Türkiyə ilə Azərbaycan arasında əlaqələr təkcə ticarət əlaqələri ilə bitməməli, məhdudlaşmamalıdır. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr respublikamıza sərmayə qoymaq, ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olmalıdır.

Siz bilirsiniz, mən bunu hamıya deyirəm, bu gün isə Türkiyədən gələn qonaqlarımıza müraciət edərək deyirəm ki, indi Azərbaycan öz iqtisadiyyatında, ictimai-siyasi həyatında keçid mərhələsini yaşayır. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycanın cəmiyyəti demokratik cəmiyyət, hüquqi dövlət, azad, sərbəst cəmiyyət kimi formalaşır. Azərbaycan keçmiş iqtisadi sistemdən imtina edərək öz iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında qurmağa çalışır, bu barədə tədbirlər görür. Bunun üçün biz iqtisadi islahatlar həyata keçiririk, keçmiş iqtisadiyyat formasından tamamilə imtina edirik. Bunlar hamısı indi Azərbaycanın iqtisadiyyatının keçid dövrünü təşkil edir.

Bu keçid dövrü hər bir ölkədə çətin olur. Türkiyənin bugünkü iqtisadiyyatı elə anadangəlmə belə olmayıb ki! Türkiyə iqtisadiyyatının 20, 30, 40 il bundan əvvəlki vəziyyətini biz bilirik, bunların hamısını təhlil etməyə imkanımız var. Türkiyə də böyük keçid dövrü keçirib. Ancaq iş burasındadır ki, Türkiyədə heç vaxt nə sosialist iqtisadiyyatı, nə də kommunist ideologiyası, quruluşu olubdur. Türkiyənin özünəməxsus cürbəcür sistemləri olubdur. Amma bu sistemlərin hamısında şəxsi mülkiyyət həmişə olubdur. Şəxsi mülkiyyət, sahibkarlıq Türkiyədə heç vaxt yasaq edilməyib. Bunlar hamısı Türkiyədə olub, Türkiyənin həyatında gedən proseslərin də keçmişdə nə qədər çətin, ağır olduğunu biz bilirik. Türkiyənin iqtisadiyyatını bu yüksək səviyyələrə gətirmiş insanlara biz daim hörmət və ehtiramımızı bildiririk. Ancaq istəyirik ki, Türkiyədəki dostlarımız, qardaşlarımız respublikamızın bu keçid dövrünün nə qədər mürəkkəb, çətin olduğunu daha dərindən duysunlar və bununla əlaqədar olaraq da Azərbaycan - Türkiyə iqtisadi əlaqələrini yaratsınlar.

...İndi Azərbaycanda ictimai-siyasi vəziyyət tamamilə sabitdir, normaldır. Dövlət öz qüdrətini bütün dünyaya nümayiş etdiribdir. Dövlət Azərbaycanın bütün ərazisində hakimdir. Ölkədə dövlət quruculuğu prosesi gedir. Belə bir halda Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıq daha da geniş olmalıdır. Yəni Türkiyənin iş adamlarının Azərbaycana sərmayə qoyması bizim üçün çox lazımdır. Bu, həm Türkiyə üçün, həm də Azərbaycan üçün iqtisadi cəhətdən çox əhəmiyyətlidir.

Türkiyənin "Koç qrupu" şirkəti respublikamızda böyük bir supermarket tikib, gözəl ticarət mərkəzi yaradıbdır. Hörmətli Baş nazir Məsud Yılmaz Azərbaycanda səfərdə olarkən mən özüm də onunla birlikdə həmin ticarət mərkəzinin açılışında iştirak etdim. Amma yenə də, bu, ticarətdir. Bəs istehsal yaratmaq, müştərək iş görmək üçün nə işlər görülüb? Bilirsiniz, mən bunların hamısını ona görə deyirəm ki, Türkiyə böyük iqtisadiyyata malikdir. Türkiyədə iqtisadiyyat, istehsal çox yüksəklərə qalxıb. Bu ölkənin böyük imkanları vardır. Şübhəsiz ki, Türkiyə bu imkanlardan dünyanın hər yerində geniş istifadə etmək istəyir, ancaq bu, Azərbaycanda da həyata keçiril-

məlidir. Bu işlərə keçmiş vaxtlarda olduğu kimi, ehtiyatla, müəyyən qədər qorxu hissi ilə yanaşmaq halları geridə qalmalıdır.

Biz elan etmişik ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz bunu həyata keçiririk. Elan etmişik ki, hər bir şirkət gəlib Azərbaycanda mülk ala bilər, mülk sahibi ola bilər, özəlləşdirmədə iştirak edə bilər. Yaxud mən Azərbaycandakı böyük sənaye müəssisələrinin xarici şirkətlərin idarəsinə verilməsi barədə fərman imzalamışam. Artıq bu sahədə bir neçə təklif var və yenə də təkliflər gəlir. Biz bunları alqışlayırıq. Ancaq bu işlərdə Türkiyə birinci sırada olmalıdır.

Dünya iqtisadiyyatı ilə bizim sıx bağlanmağımızı nümayiş etdirən ən böyük amil ondan ibarətdir ki, 1994-cü ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi barədə böyük bir müqavilə imzaladıq. Ona "Əsrin müqaviləsi" deyirlər. Bu müqavilədə Türkiyənin neft şirkəti də iştirak edir. Mən bu gün açıq demək istəyirəm ki, Türkiyənin neft şirkəti Azərbaycan öz müstəqilliyini əldə edən zaman, xüsusən burada Xalq Cəbhəsi hakimiyyətdə olduğu vaxt, bu müqavilənin hazırlanmasının ən fəal iştirakçılarından biri olmuşdur. Ancaq bu müqavilədə Türkiyənin yeri nə idi? 1,75 faiz. Ancaq sonradan Türkiyə dövləti başçılarının xahişinə görə Azərbaycanın öz hissəsindən, müqavilə imzalanandan sonra respublikamıza qalmış hissədən beş faiz də Türkiyə dövlətinə, şirkətinə orada yer ayırdıq. Artıq burada Türkiyənin yeri 6,75 faiz idi. Bax, biz bu addımı atdıq ki, ölkəmizə Türkiyənin sərmayəsi gəlsin.

Bilirsiniz, neçə vaxtdır ki, neft kəməri haqqında danışıqlar gedir. Hətta mən 1993-cü ildə buraya işləməyə gələndə, 1994-cü ildə hələ müqavilə imzalanmamış, mənə bir məktub gətirdilər. Bu, bir müqavilə, yaxud kağız idi, orada 15-ə yaxın imza var idi ki, boru xətti Türkiyədən keçəkdir. Bağışlayın mən öz keçmişimiz haqqında da deyirəm - amma eyni zamanda bu əlaqələrin keçmişi barədə də deyirəm, bu kağız heç bir hüquqi əsası olmayan bir şey idi. Hamı da imza atmışdı və orda-burda, mətbuatda da bağırırdılar ki, boru xətti Türkiyədən keçəcək. Amma əgər neft çıxarmaq, istehsal etmək haqqında müqavilə yox idisə, boru xəttinin haradan keçməsini necə müəyyən etmək olardı? Yəni bu nə iqtisadi, nə hüquqi əsası olmayan bir kağız idi. Bu kağızı hazırlayan insanlar da özləri-özlərini və ictimaiyyəti aldadırdılar. Bunlar hamısı boş şeylər idi.

Ancaq biz bunların hamısını qaydaya saldıq. İlkin neftin ixracı üçün neft kəmərinin haradan keçməsi barədə xeyli mübahisə getdi. Biz öz iradəmizi bildirdik və ilkin neft kəmərlərinin Qərb istiqamətində Gürcüstan ərazisindən Türkiyəyə keçməsi haqqında qərar qəbul etdik. Siz bilin ki, bu qərarın qəbul olunması o qədər də asan məsələ deyildi. Bilirsiniz ki, Azərbaycan çox istiqamətlərdə təzyiq altında idi. Ancaq biz bunu etdik. Bundan sonra da addımlar atacağıq.

Bunların hamısını deyərək bildirmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələr daha dərin, geniş olmalıdır. Mən indiyədək olan nailiyyətləri yüksək qiymətləndirirəm, ancaq onları yetərli hesab etmirəm. Çünki iqtisadi əlaqələrimiz Azərbaycanın Türkiyə ilə dövlətlərarası ictimai-siyasi sahələrdəki əlaqələri səviyyəsində deyil. Bilirsiniz, dövlətlərimiz arasındakı siyasi əlaqələrlə iqtisadi əlaqələrimiz arasında məsafə çox böyükdür. Bu məsafəni ləğv etmək lazımdır. İqtisadi əlaqələri həmin o əlaqələr səviyyəsinə də qaldırmaq lazımdır. Şübhəsiz ki, bunun üçün biz özümüz çox iş görməliyik. Əgər bu məsələni irəli sürürüksə - Azərbaycanın Prezidenti kimi mən bu məsələni bu gün bu konfransda irəli sürüməsə, müəssisə, şirkət rəhbərlərini, iş adamlarını da buna dəvət edirəm və hətta onların qarşısında bunu vəzifə kimi qoyuram, bunu onlardan tələb edirəm. Amma eyni zamanda mən Türkiyənin həm dövlət, hökumət dairələrinə, həm də xüsusən bu ölkənin işgüzar dairələrinə müraciət edirəm ki, Azərbaycan ilə iqtisadi əlaqələr genişləndirilsin, respublikamıza sərmayə qoyuluşu prosesi inkişaf etdirilsin. Ölkəmizdə müştərək iş görmək və beləliklə həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, həm də respublikamızın iqtisadiyyatı ilə Türkiyənin iqtisadiyyatını sıx bağlamaq lazımdır.

Dörd il yarımdır ki, respublikamız müstəqil dövlətdir. Ancaq iqtisadiyyatımız çox çətin vəziyyətdədir. Bunun səbəbləri nədən ibarətdir. Ondan ibarətdir ki, on illərlə, 1920-ci ildən, daha doğrusu, 20-ci ilə qədər də Azərbaycanın iqtisadiyyatı Rusiyanın, Sovetlər İttifaqının başqa respublikalarının iqtisadiyyatı ilə çox sıx bağlı olub. Vaxtilə bunları düşünülmüş şəkildə bir-birinə elə calaşdırıblar ki, ayırmaq mümkün olmasın. Məsələn, 1991-ci ildə Sovetlər İttifaqının qalıb-qalmaması haqqında referendum keçirilərkən çoxları deyirdilər ki, yox, Sovetlər İttifaqını dağıtmaq olmaz. Çünki dağılsa bu respublikaların heç biri müstəqil yaşaya bilməz: onların istehsal müəssisələri və sair bir-biri ilə elə bağlıdır ki, bu, burada məhsulu istehsal edib, ora aparır, o isə istehsal edib bura gətirir. Əgər onlar bu malları bir-birinə verməsə, fabrik-zavodlar necə işləyəcək?

Yenə də deyirəm, bunu belə qurmuşdular, - respublikalar bir-biri ilə bağlı olsunlar ki, heç vaxt ayrıla bilməsinlər. Xatirimdədir, 1970-ci illərdə mən burada respublikaya rəhbərlik etdiyim zaman Azərbaycanda iqtisadiyyatı inkişaf etdirərkən Moskvadan, mərkəzdən bir məhsulu tam şəkildə istehsal etməyə bizə imkan vermirdilər. Yəni həm xammal,

həm ilkin istehsal bizimdir, həm də son məhsulun istehsalı respublikamızda mümkün idi. Lakin buna imkan vermirdilər. Deyirdilər ki, xammal sizdədir, bax, bunu bu dərəcəyədək istehsal edin, sonra onu Voronejə, yaxud Sverdlovskiyə, Moskvaya göndərin, onlar orada ondan son məhsul alsınlar. Bunun iki səbəbi var idi. Birinci səbəbi ondan ibarət idi ki, bağlamaq istəyirdilər ki, ayrılmaq mümkün olmasın. İkinci səbəbi isə - şübhəsiz ki, siz iqtisadçısınız, bunu yaxşı bilirsiniz - xammalın ilkin istehsalından alınan məhsulun qiyməti birdir, amma son məhsulun qiyməti tamamilə yüksəkdir. Son məhsulun xeyiri Rusiyaya gedirdi. Məsələn, Sumqayıtda böyük kimya kompleksi inkişaf etdirilirdi. Bu inkişaf 1962-ci illərdən başlamışdı. Mən özüm 1969-cu ildə respublikaya rəhbərlik edəndən bu işlə bilavasitə məşğul olmuşam. 1970-ci illərdə Sumqayıtda kimya zavodlarının inkişaf etdirilməsi üçün çox böyük məsələlər qaldırmışdıq və çox böyük işlər gördük. Mən o vaxt çalışırdım, vuruşurdum ki, əgər polietilen istehsal ediriksə, onun son məhsulunu da biz özümüz hazırlamalıyıq. Amma bizi məcbur edirdilər ki, polietileni xammal kimi başqa yerlərə verin.

Respublikada pambıq, mahlıc istehsal edilirdi. Həmin mahlıcı az miqdarda biz özümüz son məhsullara gətirib çıxara bilərdik. Onun demək olar ki, 90 faizi respublikadan kənara gedirdi, orada son məhsul istehsal olunurdu, toxuculuq məmulatı kimi satılırdı. Şübhəsiz ki, toxuculuq məmulatının qiyməti mahlıcın qiymətindən qat-qat artıq idi.

Bunları ona görə deyirəm ki, əgər o vaxt belə siyasət aparıb bizi bir-birimizə bağlamışdılarsa, bu bağlılıqdan indi də əziyyət çəkirik və bu, istehsalın aşağı düşməsinin hazırkı səbəblərindən biridir. İndi Türkiyə və Azərbaycan iqtisadiyyatlarının bir-biri ilə bağlanması ölkələrimizin əlaqələrini sıxlaşdıracaqdır. Mən bunu əlaqələrimizin siyasi, mənəvi cəhətinə gətirib çıxarıram. Bunlar haqqında da düşünməliyik.

İqtisadçı iqtisadçıdır, iş adamı iş adamıdır. Amma iş adamı vətənsiz ola bilməz. Heç bir iqtisadçı öz millətinə biganə ola bilməz. Heç bir iqtisadçı düşünməməlidir ki "pul mənim üçün hər şeydən üstündür". Bəs Vətən, torpaq, millət, mənəviyyat. Bunların hamısı haqqında düşünmək lazımdır.

Azərbaycanda indi böyük iqtisadi islahatlar prosesi gedir. Respublikamızda iş görmək üçün geniş imkanlar yaranır. Bunun üçün biz bir sıra qanunlar qəbul etmişik və edəcəyik. İqtisadiyyatın, idxalın, ixracın sərbəstləşdirilməsi üçün lazımi qanunlar qəbul olunur və bundan sonra da qəbul ediləcəkdir. İqtisadiyyatda Azərbaycanın gələcək yolu müstəqil bazar iqtisadiyyatıdır, azad sahibkarlıqdır, sahibkarlığa geniş imkanlar verilmişdir. Bax, bu yol bizim üçün əbədidir. Xahiş edirəm, Türkiyədən olan həmkarlarımız, bizimlə müştərək iş görən adamlar narahat olmasınlar ki, başqa bir yol da ola bilər. Olmayacaqdır!

Xarici investisiya üçün Azərbaycan açıqdır. Kim bu gün tez gəlib Azərbaycana sərmayə qoysa, o, beş-on ildən sonra udmuş olacaqdır. Mən bunu sizə açıq deyirəm. Azərbaycan daim belə vəziyyətdə qalmayacaqdır. Bir az uzaqgörən olmaq lazımdır. Gərək iqtisadçılar da, iş adamları da uzaqgörən olsunlar. Azərbaycanın qapıları açıqdır və müştərək iş görülməsi üçün biz çox imkanlar verəcəyik.

Hesab edirəm ki, bu konfransın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, iş adamlarımız, istehsalla, iqtisadiyyatla məşğul olan adamlarımız Türkiyənin təcrübəsi ilə daha yaxından tanış olacaqlar. Şübhəsiz ki, Türkiyənin iqtisadiyyatında böyük nailiyyətlər var. Bu ölkə çox uğurlu iqtisadi inkişaf yolu keçib, yüksək iqtisadiyyata, zəngin iqtisadiyyata malikdir. Avropada əldə edilən nailiyyətlərin Türkiyədə tətbiq olunması çox məharətlə həyata keçirilir. Ona görə də Türkiyənin bütün bu təcrübəsindən istifadə etmək Azərbaycanın iqtisadçıları, iş adamları üçün, iqtisadi islahatları həyata keçirmək üçün çox gərəkli, əhəmiyyətlidir. Hesab edirəm ki, Türkiyədən gələn qonaqlarımız bu sahədə öz biliklərini, təcrübələrini ictimaiyyətimizə, konfrans iştirakçılarına çatdıracaqlar və bu barədə bizə öz köməklərini əsirgəməyəcəklər.

Mən hesab edirəm ki, bu konfrans ilk belə konfransdır, hər halda xatirimdə belədir. Bu konfrans Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin inkişafına çox böyük təkan verəcəkdir. Bunlar hamısı da Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Mən sizi, konfrans iştirakçılarını bir daha salamlayıram. Konfransın işinə uğurlar arzulayıram. Türkiyəli qonaqlarımıza bir daha "xoş gəlmisiniz" deyirəm. Ümidvaram ki, burada onların işləri səmərəli olacaqdır. Ümidvaram ki, bu konfrans yeni iqtisadi əlaqələr qurulmasına kömək edəcək və iqtisadi əlaqələr də əməli işə çevriləcəkdir. Sağ olun."

Nəzərdə tutulan tədbirlərin davamı kimi 1996-cı ildə Bakıda yüksək səviyyədə daha bir toplantı keçirildi. İyun ayının 11-dən 13-dək Bakıda keçirilmiş Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlamentlər Assambleyasının VII toplantısında iştirak etmək üçün Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti Azərbaycana gəldi.

11 iyun 1996-cı il Bakıda çağırılan Qara dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin VII sessiyası iştirakçılarına müraciətdə Azərbaycan Prezidenti Qara dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlığı Parlament Məclisinin növbəti iclasının keçirilməsini əlamətdar bir hadisə hesab etdi.

Ölkələrimizin əməkdaşlığının səmərəli olması üçün bütün istiqamətlərdə, o cümlədən qanunvericilik, qanun yaradıcılığı sahəsində səy göstərilməsi günün tələbi idi.

Azərbaycan Respublikası öz xarici siyasətində dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr və münasibətlər yaradılmasına və onların inkişaf etdirilməsinə doğru istiqamət götürmüşdür. Bu baxımdan bir sıra regional təşkilatlar, o cümlədən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələr yaratmaq ölkəmiz üçün vacib idi.

Bu Təşkilatın Xəzəryanı ölkələrlə qarşılıqlı surətdə əlaqələndirilməsi hamı üçün faydalı idi. Xüsusən də qarşılıqlı nəqliyyat kommunikasiyalarının yaradılması, Mərkəzi Asiya, Qafqaz və Qara dəniz ölkələrinin birləşdirilməsi günün tələbi idi. Bu sessiyaya qədər artıq Türkmənistanda nəqliyyat kommunikasiyaları və bu sahədə əməkdaşlıq haqqında Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında saziş imzalanmışdı. Bu saziş Transqafqaz magistralı adlandırılan magistral yaradır və o, Mərkəzi Asiyadan yükləri Xəzər dənizi vasitəsilə Qara dəniz limanlarına və oradan Avropaya, Qara dəniz hövzəsinin digər ölkələrinə və əks istiqamətdə daşımaq üçün çox səmərəli işlədilə bilərdi. Bu toplantı da Qara dəniz iqtisadi əməkdaşlığı çərçivəsində əməkdaşlığı Xəzəryanı ölkələrlə əməkdaşlıqla əlaqələndirilməyin zəruriliyindən doğurdu.

Forumda çıxış edən dövlət başçımız regiondakı vəziyyəti qiymətləndirərək, onun gələcək inkişafını səciyyələndirən və proqnozlaşdıran fikirlərini belə bəyan etdi: "Mən bu gün bir daha bəyan edirəm ki, biz Ermənistanla əbədi ədavət, düşmənçilik vəziyyətində olmağı təsəvvürümüzə belə gətirmirik. Ermənistanla bizim aramızda böyük sərhəd var, qədim zamanlardan bəri xalqlarımız yanyana, qonşu kimi yaşayırlar. Regionumuzda, Qafqazda və xüsusən Zaqafqaziyada sülh ancaq onunla təmin edilə bilər ki, Qafqazın bütün ölkələri arasında, Zaqafqaziyada isə Gürcüstan, Ermənistan və Azərbaycan arasında mehriban qonşuluq münasibətləri yaradılsın.

Hazırda Azərbaycanda sabit ictimai-siyasi vəziyyət yaranıbdır. İqtisadi əlaqələri daha da inkişaf etdirmək üçün, iqtisadi inteqrasiya, birgə layihələri həyata keçirmək üçün hər cür şərait və imkan var. Siz bilirsiniz ki, biz dünyanın iri neft şirkətləri ilə - həm Qərb neft şirkətləri ilə, həm də Rusiya neft şirkəti, Türkiyə neft şirkəti ilə neft yataqlarının istismarına dair birgə layihələrin həyata keçirilməsinə başlamışıq. Hesab edirəm ki, bu, bizim iqtisadiyyatımızın iqtisadi əməkdaşlıq üçün açıq olmasını səciyyələndirən misaldır. Ölkəmizdə sabitlik təmin olunubdur, konstitusiya var, birgə iqtisadi fəaliyyətə təminat verən bütün qanunlar var, birgə layihələrin həyata keçirilməsi üçün şərait var. Biz bunu Qara dəniz iqtisadi əməkdaşlığına daxil olan ölkələrlə də, dünyanın bütün başqa ölkələri ilə də edə bilərdik.

Hesab edirəm ki, Qara dəniz hövzəsi ölkələri çərçivəsində əməkdaşlıq ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da inkişaf etməsi və möhkəmlənməsi üçün gözəl imkandır. **Xalqlarımız arasında çox qədim əlaqələr - həm iqtisadi, həm mədəni, həm də insani əlaqələr var. Bu əlaqələr bizi həmişə zənginləşdirib və qarşılıqlı fayda gətiribdir. Biz bu ənənələrə qayğı ilə yanaşmalı və onlardan müasir həyatımız üçün, gələcək nəsillərin həyatının təməlini qoymaq üçün maksimum səmərəli istifadə etməyə çalışmalıyıq.**

Ona görə də mən bu gözəl imkandan istifadə edərək, sizi dostluğa, əməkdaşlığa, geniş qarşılıqlı fəaliyyətə dəvət edirəm. Azərbaycan açıq ölkədir. Azərbaycan sülh istəyir və siz Azərbaycanın timsalında həmişə dostluq, əməkdaşlıq üçün, gələcək əlaqələr üçün etibarlı tərəfdaş tapa bilərsiniz. Hörmətli dostlar, hamınıza işinizdə uğurlar arzulayıram. Təşkilatınıza daxil olan bütün ölkələrə və xalqlara uğurlar və tərəqqi diləyirəm, regionumuza sülh, təhlükəsizlik və sabitlik arzulayıram."

1996-cı il iyun ayının 9-dan 12-dək Azərbaycan Respublikasının Müdafiə naziri S.Əbiyev Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargahının Rəisi İ.H.Qaradayının dəvəti ilə bu ölkədə rəsmi səfərdə oldu. Səfər zamanı iki ölkə arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalandı.

İyun ayının 24-dən 26-dək isə Azərbaycanın Müdafiə naziri S.Əbiyevin dəvətilə Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi İ.H.Qaradayı Bakıda rəsmi səfərdə oldu. Üç günlük rəsmi səfərində ordu generalı Qaradayı Azərbaycanın dövlət rəhbərləri ilə görüşdü. Qonağı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi.

9 iyul 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Türkiyə Cümhuriyyətinin Baş naziri Nəcməddin Ərbakanı Türkiyə Cümhuriyyətinin Baş naziri seçilməsi münasibətilə təbrik etdi.

Azərbaycanda çalışan türk iş adamları tərəfindən Quba şəhərində inşası nəzərdə tutulan təhsil mərkəzinin özülünün qoyulması mərasimində iştirak etmək məqsədi ilə Türkiyə Cümhuriyyətinin dövlət nazirləri N.K.Zeybek və A.Demircan 4-9 oktyabr 1996-cı il tarixində Bakıda səfərdə oldular. Səfər zamanı qonaqlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olundular və digər rəsmi şəxslərlə görüşlər keçirdilər.

21-22 oktyabr 1996-cı il də Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlət Başçılarının IV Zirvə toplantısı keçi-

rildi. Yığıncaq iştirakçıları "Daşkənd Deklarasiyası"nı qəbul etdilər. İmzalanmış bəyanatda Zirvə iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin siyasi yolla nizamlanması ilə bağlı beynəlxalq səyləri müdafiə etdilər. Türkdilli Respublikaların Prezidentləri Əmir Teymurun 660 illik yubiley tədbirlərində iştirak etdilər.

1997

Azərbaycan Respublikası ilə türkiyə cümhuriyyəti arasında mədəni, iqtisadi, siyasi və diplomatik əlaqələrin inkişafında 1997-ci il də əlamətdar bir il oldu.

İlk növbədə Azərbaycan Respublikası Milli Məclisinin Sədri M.Ələsgərovun dəvəti ilə Türkiyə Parlamentinin sədri M.Kalemli 1997-ci il mart ayının 19-da 20-dək Bakıda rəsmi səfərdə oldu.

5 aprel 1997-ci ildə Azərbaycan Prezidenti Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirələ və Türkiyə Milliyyətçi Hərəkat Partiyası sədrinin müavini Toğrul Türkeşə Türkiyənin görkəmli siyasi xadimi Alparslan Türkeşin vəfatı münasibətilə başsağlığı verdi.

13 aprel 1997-ci ildə Türkiyənin tanınmış müğənnisi Əbru Gündəşin konsertində Azərbaycan Prezidenti iştirak etdi və ailəsi ilə birlikdə onunla söhbət etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 30 aprel 1997-ci il də İstanbulda keçirilmiş Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etdi.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçıları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Birləşmiş Millətlər Təşkilatının və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri, Qərb ölkələrindən, o cümlədən ABŞ-dan iş adamları toplantıda iştirak edirdilər. Konfransda ölkəmiz üçün çox önəmli olan və strateji xarakter daşıyan kommunikasiya layihələri, elektrik enerjisi sistemlərinin, habelə Avropa və Asiya qitələrinin bu cür sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələləri müzakirə olundu, fikir mübadiləsi aparıldı. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilati İşgüzar Şurasının Türkiyə Respublikası Xarici İqtisadi Əlaqələr Şurası ilə birlikdə təşkil etdiyi "Qara dəniz regionunda yeni imkanlar" biznes konfransında çıxış edən Azərbaycan Prezidenti nəzərdə tutulan bütün regional layihələrin həyata keçirilməsi üçün Azərbaycanın əlindən gələni edəcəyini bildirdi.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 5-8 may 1997-ci il tarixlərində Türkiyə Cümhuriyyətinə ikinci dəfə rəsmi səfər etdi. Səfər iki ölkə arasındakı münasibətləri

daha yüksək səviyyəyə qaldırdı və müxtəlif sahələri əhatə edən 9 sənəd imzalandı. Bunlardan xüsusi əhəmiyyət kəsb edən və iki qardaş ölkənin gələcək əlaqələrinə təsir göstərən "Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə" oldu. Bilindiyi kimi, ilk rəsmi səfər 1994-cü ildə olmuşdu. Doğrudur, bu müddətdə dövlət başçımız həm Türkiyədə, həm Azərbaycanda, həm də beynəlxalq təşkilatların toplantılarında Türkiyə rəhbərləri ilə çox görüşlər keçirmişdi. Və ikinci rəsmi səfərə qədər dövlətlərarası, hökumətlərarası bir çox sənədlər imzalanmışdı. Ancaq bütün sahələrdə - həm iqtisadi əməkdaşlıq sahəsində, həm də elmi, mədəni və başqa sahələrdə ikitərəfli Türkiyə - Azərbaycan əlaqələrinin daha da genişlənməsi, inkişaf etməsi ilə bağlı geniş danışıqlar aparmağa və bir çox yeni sənədlərin imzalanmasına böyük ehtiyac duyulurdu. Türkiyə-Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə çatdırmaq imkanları, bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək imkanları tam istifadə edilməliydi.

Bunlar nəzərə alınaraq Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bir sənəd - "Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə" imzalamaq qərara alınmışdı ki, bu da günün tələbatından doğurdu. Qeyd etmək lazımdır ki, bu sənəd o vaxta qədərki əlaqələrimizin inkişafı yolunda atdığımız addımların ən dəyərlisi və ən mühümü idi.

Səfər zamanı Prezidentimiz "Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə" barəsində bildirmişdir ki, Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları bu sənəd çox böyük əhəmiyyət kəsb edir. Bu, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin yeni bir mərhələyə, səviyyəyə çatdığını göstərir. Ümumiyyətlə, bu görüşlər, danışıqlar, imzalanan sənədlər Türkiyə-Azərbaycan əlaqələri tarixində yeni bir mərhələ, səhifə açır. Ümidvaram ki, biz bu imkanlardan bundan sonra da səmərəli istifadə edəcəyik. Səfər zamanı Azərbaycan Prezidentinə Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı" təqdim edildi.

Bu mükafat mövcud qarşılıqlı əlaqələrin səmimiliyini və dərinliyini bir daha nümayiş etdirdi. Ölkəmizin başçısının əlaqələrimizi qurmaq, dostluğumuzu möhkəmləndirmək yolunda gördüyü işlərin Türkiyə Cümhuriyyəti, dövləti tərəfindən bu qədər yüksək qiymətləndirilməsi hər iki qardaş xalq tərəfindən böyük məmnuniyyətlə qarşılandı.

Təqdimat mərasimində Azərbaycan Prezidentinin çıxışı ölkələrimiz arasındakı münasibətlərin səmimiliyinin ən bariz nümunəsi idi. Dövlətimizin rəhbəri bu yüksək mükafat ba-

rədə öz ürək sözlərini belə ifadə etmişdi: "...Məni sevindirən bir də odur ki, bu mükafat məhz Türkiyə Cümhuriyyətinin mükafatıdır. Bu, böyük öndər Mustafa Kamal Atatürkün ölkəsinin, onun yaratdığı cümhuriyyətin mükafatıdır.

Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün belədir. Ona görə də Türkiyə, demokratik, Atatürk Türkiyə Cümhuriyyəti bizim üçün doğma bir ölkədir. Biz buranı öz diyarımız, məmləkətimiz hesab edirik.

Mən bu sözləri demişəm, bu gün bir daha təkrar edirəm: biz bir xalqıq, iki dövlətik. Bir xalq olan bir dövlətin başçısının o biri dövlətin yüksək mükafatını alması böyük şərəfdir.

Mən sizi əmin edirəm ki, bu böyük etimadı, şərəfi həyatımın sonuna qədər doğrultmağa çalışacağam. Mən onsuz da bunu edirəm və edəcəkdim. Ancaq bu mükafat mənim üzərimə çox böyük məsuliyyət qoyub, vəzifəmi daha da artırıbdır. Əmin olun ki, mən bu vəzifəmi layiqincə yerinə yetirməyə çalışacağam. Əmin olun ki, Azərbaycan daim müstəqil olacaqdır. Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı sarsılmazdır, dönməzdir. Əmin olun ki, Azərbaycan demokratiya, azadlıq yolu ilə gedəcəkdir. Azərbaycanın tutduğu yol - demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolu bizim yolumuzdur. Biz bu yoldan heç vaxt dönməyəcəyik. Bu yolla sona qədər gedib Azərbaycanı dünya birliyində layiqli bir səviyyəyə gətirib çıxaracağıq.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq."

Prezident Heydər Əliyev həmişə olduğu kimi, bu səfər zamanı da iqamətgahları Ankarada yerləşən, eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkə səfirləri ilə də görüş keçirərək onlara səfərin məqsəd və hədəfləri, Turkiyə-Azərbaycan əlaqələrinin inkişaf yolları barədə məlumat verdi.

Azərbaycan Prezidenti səfər zamanı bəyan etdi ki, Türkiyəyə hər bir ziyarət böyük iftixar hissi doğurur, Türkiyə ilə hər bir görüş böyük məhəbbət hissi doğurur. Bu hissiyyatlarla da biz bu gün buraya gəlmişik.

İndiyə qədər aparılan danışıqlar və imzalanmış sənədlər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin nə qədər möhkəm olduğunu və nə qədər böyük gələcəyə malik olduğunu bir daha nümayiş etdirir...

Biz çox sevinir və fəxr edirik ki, Türkiyə Şərq ilə Qərbin sintezini dünyada təmsil edən bir ölkə olubdur. Türkiyə Cümhuriyyəti öz milli, mənəvi dəyərlərini, ənənələrini, adətlərini qoruyub saxlayaraq, eyni zamanda dünyanın ən qabaqcıl, mütərəqqi, ümumbəşəri dəyərlərindən bəhrələnib, istifadə edib öz ölkəsində

yüksək mədəniyyətə, elmə, texnologiyaya, yüksək insani dəyərlərə malik olan bir cəmiyyət, cümhuriyyət yaradıbdır.

İki Prezident tərəfindən imzalanmış Türkiyə-Azərbaycan strateji əməkdaşlığının dərinləşdirilməsi haqqında müqavilə gələcək işlərimiz üçün gözəl proqramdır. İmzalanmış başqa sənədlər də Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Biz bu imkanlardan istifadə etməyə çalışacağıq.

Dövlətimizin başçısı Prezident Süleyman Dəmirəlin təşəbbüsü ilə Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı" ilə təltif edilməsinin onun üçün böyük şəxsi əhəmiyyəti olduğunu gözəl dərk etdiyini, bu mükafatın Türkiyə-Azərbaycan əlaqələrinin, dostluğunun, qardaşlığının möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. O, hər iki xalqın tarixində qızıl sətirlərlə yazılacaq aşığıdakı sözlərini bəyan etmişdir:

"Hesab edirəm ki, Türkiyənin, böyük Mustafa Kamal Atatürk Türkiyəsinin bu ali mükafatı tək mənə yox, bütün Azərbaycan xalqına verilibdir. Bu, Azərbaycan xalqının dövlət müstəqilliyi yolunda nə qədər əzmlə çalışdığına verilən qiymətdir, Azərbaycan xalqının dövlət müstəqilliyini indiyə qədər qoruyub saxlamasına verilən qiymətdir, Türkiyə-Azərbaycan dostluğunun bugünkü nailiyyətlərinə verilən qiymətdir. Mən həm öz adımdan, həm də Azərbaycan xalqı, bütün Azərbaycan vətəndaşları adından bu mükafata görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq olacaqdır. Dəfələrlə dediyimiz **"Biz bir millət, iki dövlətik" sözləri hər bir Azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır. İndiyə qədər bu fikirlərlə yaşamış millət bundan sonra da həmin fikirlərlə yaşayacaqdır. Azərbaycanda yaşayan bütün Azərbaycanlılar Türkiyədə yaşayan qardaşları ilə indiyə qədər bir olublar və bundan sonra da bir olacaqlar.**"

Türkiyə - Azərbaycan dostluğunun yeni bir simvolu olan Ankara caddələrindən, küçələrindən birinə Azərbaycan caddəsi, Azərbaycan küçəsi adı verilməsi mərasimində iştirak edən dövlət başçımız xüsusi olaraq qeyd etmişdir ki, bu hadisə həm sizin üçün, həm bizim üçün - hamımız üçün birlikdə çox sevindirici haldır və buraya toplaşanları, Türkiyənin, Azərbaycanın bütün vətəndaşlarını bu münasibətlə ürəkdən təbrik edirəm.

Azərbaycan Prezidenti Heydər Əliyev bu qərarı qəbul etmiş böyük Ankara bələdiyyə başkanına və bələdiyyənin bütün böyüklərinə təşəkkürünü, minnətdarlığını bildirdikdən sonra dostluğumuzu çox gözəl səciyyələndirən aşağıdakı ürək sözlərini söyləmişdir:

"Türkiyə ilə Azərbaycan arasın-

dakı dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Keçmiş zamanlarda, əsrlərdən-əsrlərə xalqlarımız birbiri ilə sıx bağlı olduğuna görə heç bələdiyyə başkanı olmadan da, hökumətin qərarı olmadan da öz dəyərli yerlərinə, küçələrə, meydanlara öz sevdikləri, bir-birini birləşdirən, bağlayan, bir-birinə daha da yaxınlaşdıran adları veriblər. Bunlar bizim keçmişimizdə xalqlarımızın nə qədər bir olduğunu sübut edir.

Ancaq indi böyük Türkiyə Cümhuriyyəti dünyada özünə layiq yer tutduğuna görə və Azərbaycan xalqı da milli azadlığına, dövlət müstəqilliyinə nail olduğuna görə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr daha da genişlənib və yeni vüsət alıbdır, yeni bir mərhələyə çatıbdır. Buna görə də Azərbaycanda da, Türkiyədə də insanlar, dövlət, hakimiyyət orqanları bu əlaqələrin təsdiqini nümayiş etdirmək üçün belə qərarlar qəbul edirlər.

Mən sizə bildirmək istəyirəm ki, hələ dövlət müstəqilliyi əldə edilmədən, yəni ondan öncə Azərbaycanda xalqımızın Türkiyəyə, Türkiyə Cümhuriyyətinə olan məhəbbəti özünü o qədər büruzə verirdi ki, dövlətin, hökumətin qərarı olmadan insanlar ayrı-ayrı küçələrə Türkiyə ilə əlaqədar adlar verirdilər. Azərbaycanda küçələrin, caddələrin, meydanların bir çoxu böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyır. Bakıda da, Gəncədə də, Naxçıvanda da, Sumqayıtda da, Azərbaycanın başqa şəhərlərində də Türkiyənin rəmzi olan, Türkiyəni nümayiş etdirən adlar geniş yayılıbdır. Bu şəhərlərin əksəriyyətində ən gözəl küçələr indi Mustafa Kamal Atatürkün adını daşıyır.

Bilirsiniz, mən Moskvada yaşayırdım, 1990-cı ildə oradan doğma şəhərim Naxçıvana gələndə keçmişdə Sovetlər Birliyinin böyük şəxsiyyətlərindən birinin adını daşıyan ən böyük küçələrdən birinin Atatürk adını daşıdığını gördüm. Mənim ilk addımlarım o küçəyə oldu, oraya gedib Türkiyəyə və onun böyük şəxsiyyəti Atatürkə hörmət və ehtiramımı bildirdim. Belə küçələr Bakıda da, başqa yerlərdə də var. Bunlar təbiidir, çünki insanların qəlbindəki hisslər çox vaxt dövlətlərin, hökumətlərin qəbul etdikləri qərarlardan güclü olur. Çox vaxt dövlətlər, hökumətlər, hakimiyyət orqanları bu qərarları insanların istəyinə, arzusuna görə edirlər. Bəziləri müəyyən bürokratik səbəblərə görə bunu etmək istəməsə də, xalqın təzyiqinə davam gətirə bilmir və bunu edirlər.

Mən çox sevinc hissi keçirirəm ki, bu gün Türkiyənin başkəndində, paytaxtında, bizim üçün çox əziz olan Ankara şəhərində Azərbaycan caddəsi də yarandı, yəni bu caddə var, Azərbaycan adı aldı. Doğrudur, Azərbaycan caddəsi adı Aşqabad, Bişkek, Düşənbə, Daşkənd, Almaata adlarından sonra verilir, ancaq, yəqin ki, bunun da mənası var. Həmişə ən çox hörmətli, istəkli yer son nömrələrə verilir. Güman edirəm ki, bu

qərar, bu hadisə, gözəl mərasim Bakıda, Azərbaycanda böyük sevinc hissi doğuracaqdır. Əminəm ki, bugünkü gün də, indiyə qədər atdığımız addımlar və bundan sonra görəcəyimiz işlər də Türkiyə-Azərbaycan dostluğunu daha da gücləndirəcək, yüksəklərə qaldıracaqdır.

Ankara bələdiyyə başkanının Bakı və Ankara şəhərlərinin qardaşlaşması haqqındakı təklifini məmnuniyyətlə qəbul edirəm. Güman edirəm ki, Bakı şəhərinin başçıları da bu qərarı qəbul edəcəklər. Arzu edərdim ki, tezliklə bu qərarın həyata keçirilməsi də təmin edilsin, Ankara və Bakı şəhərləri əbədi qardaş şəhərlər olsunlar. ...Bundan sonra Ankaraya gələn hər bir azərbaycanlı bu caddəni ziyarət edəcək, burada görüşlər keçirəcək, Azərbaycanın vətəndaşları bu caddədə yaşayan insanlarla daha sıx əlaqələr quracaqlar və bunlar da Türkiyə-Azərbaycan dostluğunun bir zərrəsi kimi bizi daha da irəli aparacaqdır."

Səfər zamanı Prezident Heydər Əliyev Azərbaycan Respublikası səfirliyinin yeni binasının təməlinin qoyulması mərasimində də iştirak etmişdir.

O, hamını bu münasibətlə təbrik etmiş və ümidvar olduğunu bildirmişdir ki, Türkiyə-Azərbaycan əlaqələrinin gözəl gələcəyi var və Türkiyədə Azərbaycan səfirliyi əsrlər boyu yaşayacaqdır. Əmin olduğunu bildirmişdir ki, Azərbaycanın Türkiyədəki səfirliyi bu imkanlardan səmərəli istifadə edəcək və bizim aramızdakı əlaqələrin inkişaf etdirilməsi üçün səylərini daha da artıracaqdır.

Xatırlatmışdır ki, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyi, böyük elçiliyi Bakının mərkəzində olan, tarixi-memarlıq abidəsi sayılan bir binada yerləşir. Bu binanın açılışı Türkiyənin Cümhurbaşkanı Süleyman Dəmirəlin Azərbaycana ilk səfəri zamanı olubdur və bu, Azərbaycanın həyatında böyük bir əlamətdar hadisə kimi qəbul edilib və tarixə düşübdür.

Türkiyənin Azərbaycandakı səfirliyi genişlənir və biz çox çalışırıq ki, o, daha da geniş olsun, daha da güclü olsun. Heydər Əliyev bildirmişdir ki, Türkiyənin Azərbaycandakı səfirliyinin fəaliyyəti üçün, istədiyi qədər səmərəli fəaliyyəti üçün Azərbaycanın hər yerində, o cümlədən mərkəzdə, paytaxtımız Bakı şəhərində bütün imkanlar yaradacağıq və o gözəl memarlıq abidəsi olan bina, Bakının ən mərkəzində yerləşən bina ilə bərabər, eyni zamanda Bakının gözəl bir guşəsində Türkiyə Cümhuriyyəti səfirliyinin yeni binası ucalacaqdır. O gün olacaqdır ki, biz sizinlə birlikdə o binanın təməlini də qoyacağıq və o bina hazır olandan sonra onun açılışında da bir yerdə olacağıq."

Səfər zamanı Prezident Türkiyə Quru Qoşunları Məktəbi ilə tanış olmuş, tələbələrlə və Azərbaycan diasporunun nümayəndələri ilə görüş keçirmişdir. Türkiyənin Quru Qoşunla-

rı Məktəbində oxuyan Azərbaycan övladlarının necə təhsil alması ilə tanış olmuşdur. Prezident Polis Akademiyasında da olmuşdur.

Görüş zamanı bunların hamısının müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın bu günü, gələcəyi üçün Türkiyə Cümhuriyyəti tərəfindən respublikamıza göstərilən böyük yardım olduğunu vurğulamış, burada təhsil alan Azərbaycanlı tələbələrə yüksək ixtisas alıb Azərbaycana dönməyi və xalqımıza xidmət etməyi arzulamışdır. Göstərmişdir ki, bizim ordumuzun tələbatı bundan qat-qat artıqdır, bundan daha da çoxdur. Biz bundan sonra da Türkiyənin yüksək hərbi məktəblərindən istifadə edəcəyik. Azərbaycanda milli ordunun, polisin yaradılması, yüksək səviyyəli kadrların hazırlanması üçün sizin yardımınızdan istifadə edəcəyik. Əminəm ki, siz bizə bu yardımı göstərməkdən imtina etməyəcəksiniz.

Sonra üzünü təhsil alan Azərbaycan övladlarına tutaraq demişdir: "Əziz balalarımız, siz burada təhsil alıb Azərbaycana dönəcəksiniz, Azərbaycanın ordusunda, polisində xidmət edəcəksiniz. Əminəm ki, burada aldığınız təhsil gələcəkdə xidmət edəcəyiniz yerlərdə sizə uğurlar gətirəcəkdir. Siz uğurla çalışacaqsınız, xalqınıza, millətinizə və vətəniniz Azərbaycana xidmət göstərəcəksiniz.

Şübhəsiz ki, burada hər bir şeyi öyrənmək lazımdır. Amma Türkiyə xalqından, ordusundan, türk əsgərindən vətəni sevməyi, vətənə sadiq olmağı, milləti sevməyi öyrənmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri odur ki, onun çox güclü, qüdrətli ordusu vardır. Bir ona görə yox ki, onun güclü silahı var, çoxsaylı ordusu var. Ona görə ki, türk ordusu, əsgəri yüksək mənəviyyatlı, vətənpərvər, vətəninə, millətinə, cümhuriyyətinə, Atatürkün qoyduğu yola sadiqdir. Bu, Türkiyə ordusunun qüdrəti, Türkiyə ordusunun gücüdür.

İstəyirəm ki, Azərbaycan övladlarımız burada bu qabiliyyəti əldə etsinlər, bu səviyyəyə çatsınlar, Azərbaycanı - vətəni, torpağı canı, qanı qədər sevməyə qadir olsunlar. Burada bu hissiyyatları daha da yüksəyə qaldırmaq üçün çox gözəl şərait vardır.

Mən türk əsgərinin bu yüksək keyfiyyətlərinə heyranam. Türkiyə Cümhuriyyətinin qüdrətini, torpaqlarını, dövlətini, müstəqilliyini qoruyan, şəhid olan türk əsgərinin ruhu qarşısında baş əyirəm. Türkiyə ordusuna, əsgərinə bundan sonra da yeni uğurlar arzulayıram."

Səfər zamanı Azərbaycan Prezidenti Türkiyənin Bilkənd Universitetində də olmuş, burada Türkiyə-Azərbaycan vəqfinin başçısı, dostu, professor İhsan Doğramaçı, Bilkənddə çalışan Azərbaycanın görkəmli alimləri, sənət ustaları - bəstəkarları, musiqiçiləri, sənətçiləri ilə görüş keçirmişdir. Türkiyə-Azərbaycan

vəqfinin yaradılmasını ölkələrimizin əlaqələrində görkəmli hadisə adlandırmış, tarixi addım hesab etmişdir.

Azərbaycan Prezidenti Türkiyə Böyük Millət Məclisinin üzvləri ilə də görüş keçirmişdir. Onlara xitab edərək Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında iki Prezident tərəfindən imzalanan bəyannamənin çox mühüm tarixi bir sənəd olduğunu, onun indiyə qədər olan əlaqələrimizi yeni yüksək səviyyəyə çatdırdığını söyləmişdir. Bildirmişdir ki, Böyük Millət Məclisinin təcrübəsi təkcə Azərbaycan üçün yox, demokratiya, müstəqillik yolu ilə gedən başqa yeni dövlətlər üçün, o cümlədən türkdilli, türk kökü dövlətlər üçün də çox böyük məktəbdir, mənbədir. Onlarla bu təcrübəni paylaşmaq, həm Azərbaycanın, həm də digər ölkələrin parlamentlərinə əllərindən gələn yardımı etmək zəruridir...

Tarixi köklərimizdən söhbət açan Prezident bu köklərin həm türk xalqı üçün, həm də bizim üçün əziz olduğunu söyləmişdir. Göstərmişdir ki, bizim üçün Yunis İmrə də, Dədə Qorqud da, Manas da, Füzuli də, Nizami də əzizdir, XX əsrdə yazıb-yaratmış şəxsiyyətlər də, o cümlədən Tofiq Fikrət də, Rəşad Nuri də və Azərbaycan xalqının XX əsrdə yetirdiyi böyük yazıçılar, şairlər, bəstəkarlar, alimlər də əzizdir. Məhz bunlar - xalqlarımızın qabaqcıl, mütəfəkkir adamları bizi həmişə bir-birimizlə bağlayıb, bir-birimizlə birləşdiriblər.

Azərbaycana xarici sərmayə gətirilməsindən danışan dövlətimizin başçısı 1994-cü ilin 20 sentyabrında imzalanan, "Əsrin müqaviləsi" adı verilən ilk böyük neft müqaviləsindən, bu müqavilə əsasında dünyanın 11 böyük neft şirkətinin 30 il müddətində Azərbaycanda müştərək neft çıxartmaqla məşğul olacağından, müqavilənin artıq işlədiyindən, sonra bağlanılan bir neçə müqavilədə Türkiyənin də iştirakından, "Şahdəniz" neft yatağı haqqında müqavilədə artıq "Türk Petrolları" şirkətinin 9 faiz payı olduğundan, bundan sonra bağlanacaq yeni müqavilələrin hamısında Türkiyənin hökmən iştirak edəcəyindən, çıxarılacaq neftin dünya bazarına çatdırılması üçün yolun Türkiyədən keçəcəyindən, buna yol verməmək üçün ölkəmizə edilən təzyiqlərdən, Türkiyə və Azərbaycan Prezidentlərinin imzaladıqları anlaşmada da böyük neft kəmərinin Bakı-Ceyhan yolu ilə gedəcəyinin yazılmasından söhbət açmişdir.

Bildirmişdir ki, bir neçə gündən sonra Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşü olacaqdır. Ola bilər, orada da bir layihə - Türkmənistandan təbii qazın Xəzər dənizinin altından keçməklə Azərbaycan ərazisi vasitəsilə Türkiyəyə gətirilməsi barədə layihə qəbul edilsin. Belə bir layihə var. Əgər hamımız birlikdə bu layihəni həyata keçirə bilsək, - çünki bizim dostlarımız bəzən söz verir, sonra yerinə yetirmirlər, -

çox gözəl iş olacaqdır.

Göstərmişdir ki, Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft yataqları var. Qazaxıstan sektorunda da zəngin yataqlar var. Qazaxıstan Tengizdə "Şevron" şirkəti vasitəsilə neft çıxarır, Rusiya ərazisindən ixrac edir. Amma indi alternativ olaraq ikinci bir yol da Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilinə nəzərdə tutulur. Biz buna imkan vermişik. Beləliklə, bu yolu da Türkiyəyə çıxara bilərik. Azərbaycanın zəngin neft yataqlarının böyük gələcəyindən Türkiyə də bəhrələnəcək, bizim üçün dost, qardaş ölkə kimi biz Türkiyə ilə həmişə əməkdaşlıq edəcəyik.

Bir daha vurğulamışdır ki, Ermənistan bölgədə böyük təhlükə yaradır. Təkcə Azərbaycan üçün yox, bütün Qafqaz üçün. Siz də buna heç vaxt biganə qalmamalısınız. Mən bu məlumatı, bilgiləri sizə verməyi özümə borc bilirəm. Çünki, yenə də deyirəm, Azərbaycanın problemi həmişə sizin probleminiz olub, ona görə sizə bir daha təşəkkürümü bildirirəm. Amma eyni zamanda baş verən hadisələr və Qafqaz bölgəsində olan ayrı-ayrı dövlətlərin bir-birinə hərbi cəhətdən yaxınlaşması bu bölgədə yeni bir şərait yarada bilər. Ona görə də düşünmək lazımdır. Bu məlumatlardan lazımi nəticələr də çıxarmaq gərəkdir.

Azərbaycan - Türkiyə dostluq əlaqələrinə toxunan Prezidentimiz bir daha bu yüksək məclisdə bəyan etmişdir: "Mən yenə də Türkiyə-Azərbaycan dostluğu haqqında bir neçə söz demək istəyirəm. Bu dostluq əbədidir, sarsılmazdır. Biz bütün gücümüzlə, varlığımızla bu dostluğu qoruyub möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik. Çünki Türkiyə də demokratik cümhuriyyətdir, burada demokratik prinsiplər geniş tətbiq olunubdur. Türkiyənin böyük demokratiya təcrübəsi var. Türkiyənin cümhuriyyət, demokratik, dünyəvi dövlət olaraq yaşaması bütün başqa türkdilli dövlətlər üçün örnəkdir. Cümhuriyyət tarixinizdə keçdiyiniz yol da, dövlət quruluşunuz da, demokratiyanız da, qanun-qaydalarınız da bizim üçün örnəkdir. Ona görə də biz Türkiyənin bu yolla getməsini arzulayırıq.

Biz Azərbaycanda ümidvarıq ki, Türkiyə daim bu yolla gedəcək, Mustafa Kamal Atatürkün vəsiyyətlərinə daim əməl edəcək, gündən-günə dünyanın ən qüdrətli, ən inkişaf etmiş, ən dünyəvi dövlətlərindən biri olacaqdır."

Səfər zamanı Prezidentimiz hər dəfə olduğu kimi, KİV nümayəndələri ilə silsilə görüşlər keçirmişdir.

Türkiyənin tanınmış jurnalistlərinə verdiyi müsahibədə "Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə"nin Azərbaycan-Türkiyə əlaqələrinin strateji xarakter daşıdığını təsdiq etdiyini bildirmişdir. Azərbaycan ilə Türkiyənin əlaqələrinin xüsusi xarakter daşıdığını, daimi olduğunu

vurğulamış, həm Türkiyənin, həm də Azərbaycanın beynəlxalq aləmdə baş verən məsələlərdə eyni mövqedə olmasını, məsləhətlər aparmasını və bir-birinə dəstək verməsini də nəzərdə tutduğunu qeyd etmiş, buna görə də bu bəyannamənin indiyə qədər imzalanmış sənədlərdən Azərbaycan-Türkiyə əlaqələrini daha da yüksəklərə qaldıran bir sənəd olduğunu açıqlamışdır.

Verilən kreditlər barədə suala cavab verən Prezident demişdir ki, "Eksimbank"ın krediti bizim başımıza bir bəla olubdur. Biz 71 milyon kredit almışıq. Onun da çox hissəsini buğdaya vermişik. Azərbaycanın çörəyə ehtiyacını ödəmək üçün buğda gətirilməli idi. İndi biz o krediti geri qaytara bilmirik. Son iki ildə 7 milyon dollar faiz vermişik. Əgər krediti geri qaytara bilməsək, biz 2000-ci ilədək 20 milyon dollar faiz verəcəyik. Krediti də qaytara bilmirik. Mən o vaxt Azərbaycana gec gəldim. Bu, mənim Azərbaycana rəhbərlik etdiyim vaxtdan əvvəl alınan kreditdir. Mən bilsəydim belə olacaq, heç bu krediti də almazdıq, necə olsa yaşayacaqdıq.

Türkiyənin "Samanyolu" televiziyasına müsahibədə son üç ildə Türkiyə ilə Azərbaycan arasında ticarətin üç dəfə artdığından danışmış, ancaq mütləq rəqəmi götürəndə bunun, o qədər də böyük olmadığını demişdir. Bildirmişdir ki, biz bu artımdan məmnunuq, amma hesab edirik ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi iş birliyinin daha böyük imkanları vardır. Bu imkanlardan istifadə etmək lazımdır. Hər iki tərəf bunun üçün çalışmalıdır.

Türkiyənin NTV televiziyasına müsahibədə göstərmişdir ki, Rusiya ilə Ermənistan arasında hərbi iş birliyi təkcə Azərbaycan üçün yox, bütün bölgə, o cümlədən Türkiyə üçün çox təhlükəlidir.

Suallara cavab verərkən 1995-ci ilin martında Azərbaycanda ikinci böyük çevriliş cəhdində Fərman Dəmirqol kimi Türkiyə vətəndaşlarının da iştirak etməsinə, Türkiyənin bir sıra vəzifəli şəxslərinin də bu işdə iştirak etməsinə toxunmuş, bunun təəssüf doğurduğunu söyləmişdir.

Səfər zamanı Azərbaycan Prezidentinə "9 Eylül" Universitetinin fəxri doktoru adı verilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İzmirdə olarkən keçirilən müxtəlif tədbirlərdə bu şəhər ilə Azərbaycanın paytaxtı Bakı şəhərinin qardaşlıq əlaqələrindən, bu əlaqələrin rəmzi kimi Bakının gözəl guşələrindən birində olan parka "İzmir parkı" adı verilməsindən, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, əlaqələrimizin sürətlə inkişaf etdiyindən və əldə olunan nailiyyətlərdən, qarşıdakı illərdə Türkiyə və Azərbaycanın bir-birinə daha da yaxın olması, dostluğumuz, qardaşlığımızın daha da sıx olması üçün geniş perspektivlərin açılacağından danışmış, zərrələrlə, bizim ümumi Türkiyə-Azərbaycan abidəsini - sar-

sılmaz Türkiyə-Azərbaycan dostluğunu qurmağın hər iki xalqın övladları üçün başlıca vəzifə olduğunu bildirmişdir.

Azərbaycan Prezidenti İzmirdə "Bakı parkı"nın açılışı mərasimindəki nitqində bu günlərdə Türkiyə və Azərbaycan xalqlarının dostluq və qardaşlığının nə qədər dərin, güclü və möhkəm olduğunu gördüyünü və hiss etdiyini, Türkiyə ilə Azərbaycan arasında İstanbul ilə İzmir, Ərzurumla Qayseri, Adana ilə Diyarbəkr arasında olan fərq qədər fərq olduğunu, ancaq bu fərqin sadəcə, bizim eyni zamanda ümumi mənəvi və mədəni dəyərlərimizin hamısının çoxcəhətli, çoxşaxəli, çoxbudaqlı olmasını, xalqlarımızın böyük bir çinar ağacının budaqlarına bənzədiyini, əsrlər boyu onu nə qədər silkələdilərsə də, yıxmaq istədilərsə də, bizi birbirimizdən ayırmaq istədilərsə də düşmənlərin bunu bacarmadıqlarını, qəlbimizin, bizi bir-birimizə bağlayan tellərin, mənəviyyatımızın, dostluğumuzun, qardaşlığımızın, birliyimizin sal qaya kimi sarsılmaz olaraq qaldığını, özünü qoruduğunu bir daha bəyan etmişdir.

O, qeyd etmişdir ki, Sovetlər Birliyi dövründə Türkiyə şəhərləri ilə bizim şəhərlərimizin qardaşlaşmasına yol vermirdilər. Bizə zidd olan qüvvələr heç də istəməzdilər ki, bizim bu qardaşlığımız yenidən baş versin. Yəni on iki il bundan öncə İzmir ilə Bakı arasında yaradılmış əlaqələr qardaşlaşma əlaqəsi deyil, - biz doğulandan qardaşıq, atababalarımız, ulu babalarımız qardaş olublar, biz doğma qardaşıq. Sadəcə, İzmir ilə Bakı arasında xüsusi əlaqələr yaranması haqqında müqavilə bağlanıbdır. Bizim qardaşlığımız isə qədimdir, dünyada xalqlarımız yarananda mövcud olan qardaşlıqdır. Bu əlaqələr isə həmin qardaşlığı müəyyən mənada sənədləşdirmək, kağız üzərində əks etdirmək kimi bir tədbirdir.

Mən çox məmnunam ki, burada, İzmir şəhərində də, bu sahildə parkın gözəl bir hissəsinə "Bakı" adı verilibdir. Bu təşəbbüs, hadisə münasibətilə İzmirin başçılarına, başkanlarına təşəkkürümü bildirir, sizin hamınızı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü bu törən, mərasim, bayram başqa şəhərlərdə də davam edəcək, biz Türkiyə-Azərbaycan qardaşlığını addım-addım, gündən-günə genişləndirəcək, inkişaf etdirəcəyik.

Türkiyə böyük dövlətdir, dünya miqyasında özünəməxsus görkəmli yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Amma bizim əlaqələrimiz qədimdir. Azərbaycanın dövlət müstəqilliyi əldə ediləndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr son illərdə çox bəhrələr verib, çox nəticələrə gətirib çıxarıbdır. Məhz bu əlaqələrin nəticəsidir ki, indi Türkiyənin universitetlərində, o cümlədən burada, İzmir universitetlərində Azərbaycanın gəncləri də təhsil alır, müstəqil

Azərbaycanın cürbəcür sahələrində işləməyə hazırlaşırlar.

Görürsünüz, biz bir-birimizə nə qədər yaxın oluruq. İzmirdə universitetdə təhsil alan gənc, tələbə nitq söylədi. O, azərbaycanlıdır, naxçıvanlıdır, orada Nehrəm adlı məşhur yer var, o kənddəndir. Ancaq o, təmiz türk ləhcəsində danışdı. Bizim dilimiz birdir, amma sadəcə ləhcələrimizdə fərq var. Mən Azərbaycan ləhcəsində danışıram. O da bir-iki il öncə mən danışdığım ləhcədə danışırdı, amma iki il burada təhsil alandan sonra buranın ləhcəsində danışır. Demək, bu onun buraya, burada aldığı təhsilə, buradakı mühitə nə qədər alışdığını, eyni zamanda Türkiyəyə, İzmirə, bu mühitə nə qədər məhəbbəti, sevgisi olduğunu göstərir. Bu, bizim dostluq, qardaşlıq əlaqələrimizdə bir zərrədir. Amma zərrə-zərrə göl olur, dərya dolur. Bax, bu zərrələrlə biz ümumi Türkiyə-Azərbaycan dostluğunu daha da genişləndirməli, gücləndirməliyik. Biz bunu edəcəyik.

İstanbulda mətbuat nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyev bəyanatla çıxış etdi. Səfərin nəticələri barəsində danışan dövlət başçımız göstərdi ki, həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi müəyyən etmişik ki, dostluğumuz, qardaşlığımız indiyə qədər hər iki ölkə üçün faydalı olmuşdur və bu dostluq, qardaşlıq əlaqələrini bundan sonra da irəliyə aparmalıyıq. Bu məqsədlə biz Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə, anlaşma imzalamışıq. Hesab edirəm ki, bu anlaşma çox tarixi əhəmiyyət daşıyır, əlaqələrimizi daha yüksək səviyyəyə çatdırır, onun məzmununu, keyfiyyətini daha da irəli aparır.

Bununla yanaşı, bir neçə başqa müqavilə də imzalamışıq. Bunlar hamısı iqtisadi əlaqələrimizin daha səmərəli aparılması məqsədi daşıyır. İndiyə qədər Azərbaycan ilə Türkiyə arasında çox müqavilələr, anlaşmalar, sazişlər imzalanıbdır. Bu günlərdə imzalanmış sazişlər də Türkiyə ilə Azərbaycan arasında əlaqələr üçün çox geniş normativ-hüquqi baza yaradıbdır. Güman edirəm ki, əməkdaşlığımız üçün normativ-hüquqi sənədlər var, sadəcə olaraq biz əməli işlə bu əməkdaşlığı daha da irəliyə aparmalıyıq.

Bu danışıqların, görüşlərin məqsədi Türkiyə-Azərbaycan əlaqələrini daha yüksəklərə qaldırmaqdır. Biz buna nail olmuşuq. Çünki bu, həm Türkiyə tərəfinin, həm də Azərbaycan tərəfinin istəyi, arzusudur. Bunlar da Türkiyə Prezidentinin və Azərbaycan Prezidentinin imzaladıqları müqavilədə öz əksini tapıbdır. Biz bu günlərdə Türkiyədə olmağımızdan, keçirdiyimiz görüşlərdən çox razıyıq.

Azərbaycan Prezidentinə "Fatih" Universitetinin fəxri doktoru adı verilməsi mərasimində Azərbaycanın dövlət başçısı universitetə, universitetin rektorluğuna, idarə he-

yətinə və universitetin bütün kollektivinə ona göstərilən bu hörmət və ehtirama, şərəfə görə, verilən yüksək ada görə təşəkkür etdi və əmin etdi ki, "Fatih" Universitetinin həm fəxri doktoru kimi, həm də onun yaxın dostu kimi universitetin gələcək işlərinin uğurlu olmasına daim öz köməyini göstərəcəkdir.

Dövlətimizin başçısı iştirakçılar qarşısında bir daha bəyan etdi ki, Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur.

Türkiyənin "TRT", "TGRT", "Samanyolu", "NTV" televiziya kanallarının rəhbərləri ilə görüşdə Azərbaycan televiziyası ilə Türkiyənin televiziya kanalları arasında əməkdaşlıqdan, onun hələ də istənilən səviyyədə qurulmamasından, ölkəmizdə Türkiyə televiziya kanallarına tamaşa edildiyi kimi, Azərbaycan televiziyasının verilişlərinin də Türkiyənin televiziya kanalları vasitəsilə Türkiyədə yayılmasının Türkiyə üçün də, Azərbaycan üçün də çox xeyirli olacağından danışdı. Türkiyə televiziya kanalları ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının vacibliyindən söhbət açdı.

Telejurnalistlərin suallarına cavab verərkən Azərbaycan Prezidenti daha bir neçə məsələyə, o cümlədən vaxtilə verilmiş kreditlər məsələsinə də toxunaraq mövcud vəziyyəti olduğu kimi jurnalistlərin nəzərinə çatdırdı. Heydər Əliyev dedi: "İndi siz də deyirsiniz, dünən də dedilər ki, mən incidim. Bilirsiniz, dost dostdan inciyər. Azərbaycanda bir söz var, insan uman yerdən küsər. Bu söz sizdə varmı - uman yerdən küsərlər? Ummayan yerdən mən niyə küsürəm? Küsdüm - küsmədim, onun üçün də, mənim üçün də bunun əhəmiyyəti yoxdur, uman yerdən küsərlər. Azərbaycan Türkiyədən çox şey umur. Bütün xalqımızda, o cümlədən məndə də belə fikir var ki, Türkiyə böyük dövlətdir, böyük imkanlara malik olan dövlətdir. Türkiyə bizim qardaşımızdır, qan qardaşımız, can qardaşımızdır. Qan qardaşı olanda, Azərbaycanda yenə bir söz var, öz boğazından kəsib qardaşına verir. Lazımdır ki, xalqımızın milli adət-ənənələri dövlətlərimizin arasında da olsun.

Yaxşı, 1992-1993-cü illərdə "Eksimbank" 250 milyon dollar kredit ayırıb, onun da cəmi 70 milyon dolları verilib. Bu 70 milyon dollara da o vaxt buğda alıb veriblər, çünki insanlar ac idi, buğda yox idi. Başqa şeyə verməyiblər. Əgər yatırıma veriblərsə, para götürüblərsə, gəl, parasını apar! Dərmana veriblər, - çünki bizim döyüşçülər qan içində idilər, buğdaya veriblər, başqa bir şeyə verməyiblər. İndi Türkiyə boğazımızdan tutub ki, bunu qaytar. Qaytara bilmirəm, 20 milyon dollar da faiz vermişəm. Mən bundan inciməyim?

Bilirsiniz, vaxtilə mən Sovetlər İttifaqının başında duran adam olmuşam. O vaxtlar Sovetlər İttifaqı özünə dost ölkələr yaratmaq üçün, - Asiyanın keçmiş müstəmləkə ölkələri, yaxud Afrika, ərəb ölkələri, - bunlara nə qədər kredit verir, sonra çoxunu da bağışlayırdı, düzdür, onlarla nə din bir idi, nə məslək bir idi, amma özünə dəstəkli ölkələr yaratmaq istəyirdi.

Sosialist ölkələrindən savayı başqa ölkələr də var idi, "Üçüncü dünya" ölkələri hesab olunurdu, - bilirsiniz də, bloklara qoşulmayan ölkələr, - onlara nə qədər kreditlər verirdi. Elə İraqın Sovetlər İttifaqına, indi Rusiyaya nə qədər borcu var, həddindən artıq borcu var. O vaxtlar verib, çünki İraqla əlaqəsi vardı, indi qaytarmır. İraqa indi silah satır ki, bəlkə bir şey əldə etdi. Axı, mən bu şeyləri görmüşəm, yəni böyük dövlətin kiçik dövlətə yardımını, köməyini görmüşəm. Bunu gördüyümə görə anlaya bilmirəm ki, niyə belədir.

Amerika Birləşmiş Ştatları Ermənistana gecə-gündüz yardım edir. Biz Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı iqtisadi maraqlarını çox genişləndirmişik. Amma 1992-ci ildə, bizim Xalq Cəbhəsi hakimiyyətdə olduğu zaman Amerika Birləşmiş Ştatlarının konqresi qərar çıxarıb ki, - 907-ci maddə var, siz bunu Amerikaya da deməmisiniz ki, nə üçün bu maddəni Azərbaycana tətbiq ediblər, - guya Azərbaycan Ermənistanı blokadaya götürübdür. Ona görə də Azərbaycana Amerikadan yardım göstərilməsi qadağan olunubdur. Mən indiyə qədər vuruşuram, bu qadağanı, 907-ci maddəni götürə bilmirəm. Bir belə şirkətlər gəldi, müqavilələr imzaladıq, Klintonla bir neçə dəfə görüşmüşəm, danışmışam, digərləri ilə də görüşmüşəm. Klinton da deyir ki, bəli, bu, ədalətsizlikdir, amma konqresə təzyiq göstərə bilmirəm.

Baxın, biz Amerikanın şirkətlərinə o qədər böyük imkanlar yaratmışıq, Amerika isə bizə yardım etmir. Amma Amerika keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan ölkələrin hamısına yardım edir. Ən çox da Ermənistana yardım edir - oraya ildə 100 milyon dollardan artıq yardım gedir, amma Amerika bizə yardım etmir.

O vaxtlar ki, buğda yox idi, insanlar ac idi, biz "Eksimbank"ın krediti ilə gedib orada-burada buğda axtarırdıq, Amerika birbaşa Ermənistana buğda göndərirdi. İndi də göndərir. Amerika Ermənistana bu köməyi edir. Amerikada, Fransada, başqa yerlərdə olan erməni diasporu, zəngin adamlar kömək edir, hamı kömək edir. Amma Türkiyə Azərbaycana heç bir kömək etmir, - mən maddi köməyi deyirəm. Bir dəfə kredit verib, indi də tutub boğazımızdan. Üç-dörd ildən sonra krediti də verə bilməyəcəyik, faizi də o kreditə bərabər olacaqdır. Belə də şey olarmı?

Keçmişdə mən bu barədə bir neçə dəfə müraciət etmişdim, eləcə qaldı. İndi bu dəfə də rəhbərlərə müra-

ciət etmişəm. Axı mən bilirəm ki, hansı ölkə hansına nə yardım edir. Azərbaycana heç kəs yardım etmir. Rusiya Ermənistana nə qədər yardım edir. Ermənistanın atom elektrik stansiyası var. Bilirsiniz ki, 1992-ci ildə onu bağladılar. Ukraynadakı Çernobıl atom elektrik stansiyasında böyük qəza, faciə oldu, ona görə Ermənistan stansiyanı bağladı. Amma gördü ki, elektrik enerjisi olmadığından boğulur, Rusiyadan mütəxəssislər gətirdi. Rusiya oraya çox para qoydu, elektrik stansiyasını bərpa etdi, yenidən işə saldı. Rusiya olmasaydı, Ermənistan bunu edə bilməzdi. Rusiyanın parası, mütəxəssisləri, mühəndisləri, alimləri gəlib bunu işə saldılar.

Azərbaycana nə Rusiya yardım edir, nə Türkiyə, nə İran, nə Amerika yardım edir. Torpağımızın 20 faizi işğal altındadır, bir milyon da qaçqın var. Mən bunları deməməliyəm? Başqa şeylər də deyə bilərəm, ancaq bunlar bəsdir."

Bütün sahələrdə Türkiyə-Azərbaycan əlaqələrinin dərinləşdirilməsi və inkişaf etdirilməsi haqqında aparılan danışıqlar, yeni normativ-hüquqi sənəd kimi Türkiyə-Azərbaycan strateji əməkdaşlığı haqqında müqavilənin imzalanması əlaqələrimizi keyfiyyətcə daha yüksəklərə qaldırır, həm Türkiyənin, həm də Azərbaycanın üzərinə yeni vəzifələr, eyni zamanda çox böyük məsuliyyət qoyurdu.

Böyük sınaqlardan keçən Türkiyə-Azərbaycan dostluğu bu müqavilə ilə hüquqi şəkildə sonuclanmışdı.

Bütün bunlar siyasi əlaqələrimizə olduğu kimi, iqtisadi əlaqələrimizə də öz təsirini göstərməyə bilməzdi. Buna görə də Türkiyənin iş adamları ilə yenidən görüşmək, onları istiqamətləndirmək, həm ölkəmizdə gedən proseslər haqqında, həm də ölkələrimiz arasında gedən proseslərdən hali etmək lazım idi. Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti işgüzar dairələrlə də görüş keçirdi.

Görüşdə ölkəmizin başçısı Heydər Əliyev Azərbaycanın gənc dövlət olmasından, sülhsevər dövlət olaraq, ölkəmizi inkişaf etdirməyə çalışmağımızdan, daha çox ölkələrlə sıx əlaqələr yaratmaq istəyimizdən, ancaq bu əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə baxmayaraq, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin heç bir başqa ölkə ilə olan əlaqələrə bənzəmədiyindən, yəni onların xüsusi xarakter daşıdığından, xüsusi əhəmiyyət kəsb etdiyindən danışmış, Ermənistan-Türkiyə münasibətlərinin gedişatına toxunaraq Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində silah verməsindən, onların içərisində ağır silahlar - müasir tanklar, toplar, raketlər və başqa dağıdıcı silahlar olmasından söhbət açmış, bunların hamısının Azərbaycan və Türkiyəyə tərəf yönəldildiyini bildirmişdir.

Böyük narahatlıq doğuran bu məsələlər barəsində Türkiyənin dövlət və hökumət başçılarına ölkəmizin

fikirlərinin çatdırıldığını göstərən Prezident qeyd etmişdir ki, biz həm də istəyirik ki, Türkiyədə hər bir adam, hər bir türk qardaşımız Azərbaycanın, Qafqazın vəziyyətini və Türkiyənin ətrafında olan vəziyyəti bilsin. Vurğulamışdır ki, iş adamları kimi, siz də öz iqtisadi məsələlərinizlə məşğul olarkən siyasi məsələləri və xüsusən bölgəmizin təhlükəsizlik məsələlərini gərək heç də unutmayasınız.

Bəzən iqtisadçılar, iş adamları deyirlər ki, biz siyasətlə məşğul olmuruq, bizə siyasət lazım deyil, iş adamıyıq, bizimki ticarət, istehsaldır, filandır. Mən bununla razı deyiləm. Çünki siyasət düzgün olmasa, iqtisadiyyat da olmayacaqdır. Təhlükəsizlik olmasa, sülh, əmin-amanlıq, barış olmasa, iqtisadiyyat da olmayacaqdır. Ona görə iqtisadi işlərdə, biznesdə Türkiyəni və Azərbaycanı əhatə edən ölkələrin arasında sülhün və əmin-amanlığın da əhəmiyyətini unutmaq lazım deyildir.

Vurğulamışdır ki, bu baxımdan Qara dəniz iş birliyi, başqa iş birlikləri də lazımdır. Ancaq son zamanlar Türkiyənin bəzi iş adamlarının Ermənistanla iş qurmaq cəhdləri bizi rahatsız edir. Bu, Azərbaycanda çox mənfi qarşılanır, anlaşılmır. Sonra onlara müraciətlə demişdir: **"Nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir. Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir.** Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır! Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistanla Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o - böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni millətçilərinin, daşnakларının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq.

Osmanlı imperatorluğu dağılmışdı, Türkiyənin özü dağılmış vəziyyətdə idi, Türkiyəyə təcavüz olunmuşdu. Türkiyə özünü xilas etməli, saxlamalı idi, qurtuluş savaşı gedirdi. O vaxt Türkiyənin mütəfəkkir

adamları Azərbaycanı öz doğma vətəni hesab edirdilər. Qafqaz ordusu Azərbaycana göndərildi. Nuru Paşa, Naxçıvana Kazım Qarabəkir və başqaları gəldilər, azərbaycanlıları xilas etdilər. Ona görə bunları heç vaxt unutmaq olmaz, tarixi də unutmaq olmaz, keçmişi də unutmaq lazım deyildir.

Ermənilər bütün dünyaya hay salıblar ki, türklər 1915-ci ildə ermənilərı qırıblar. Sizi günahlandırırlar, sizin haqqınızda bütün ölkələrdə yanlış məlumatlar yayırlar. Bu, bizə də aiddir. Onlar azərbaycanlını, türkü, türkiyəlini bir-birindən ayırmırlar. Bizə də türk deyirlər, sizə necə münasibət bəsləyirlərsə, bizə də elə münasibət bəsləyirlər. İndi siz onlarla bir balaca alver edirsiniz, bir-birinizə "Salaməleyküm, sağ ol, xoş gəldin" deyirsiniz.

Bu məsələni mən bir neçə dəfə demişəm, sizə, iş adamlarına da deyirəm ki, bizim problemimizi biləsiniz. Əlbəttə, biz heç kəsə heç nəyi məcbur edə bilmərik. Türkiyənin də heç bir işinə qarışmırıq və qarışa da bilmərik. Ancaq bu sözləri deməyə bizim qardaşlıq haqqımız var. Qardaş-qardaşa hər bir şeyi açıq deməlidir, nə qədər şirin olsa da, acı olsa da açıq deməlidir. Ona görə də siz çalışın ki, bu əməkdaşlığı, alış-verişi - hamısını gəlin Azərbaycanla edin. Azərbaycanda geniş imkanlar var. Burada çıxış etdilər, Nihat bəy də, Əli bəy də çox təsirli sözlər dedilər. Başqa iş adamları da çıxış etdilər, Azərbaycan-Türkiyə iqtisadi əlaqələri haqqında, Azərbaycanda görülən işlər haqqında danışdılar. Bunlara görə mən təşəkkür edirəm. Həqiqətən Azərbaycan hələ dövlət müstəqilliyini əldə edəndən öncə Türkiyənin iş adamları Azərbaycana maraq göstərirdilər. Azərbaycan hələ Sovetlər İttifaqının tərkibində olan zaman Türkiyənin iş adamları bir balaca imkan düşən kimi Azərbaycana gəlirdilər. Xüsusən, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyənin iş adamları respublikamıza gəldilər. Onları yüksək qiymətləndirdilər. Müəyyən əməkdaşlıq başlandı, müəyyən işlər görüldü. Ancaq təsəvvür edin, bu 7-8 ildə əldə etdiyimiz nailiyyətlər mövcud imkanlarımızdan çox-çox azdır. Bu müddətdə Türkiyənin iş adamları başqa ölkələrdə, yəni bizimlə eyni vaxtda müstəqillik qazanmış ölkələrdə daha çox iş görürlər, nəinki Azərbaycanda, - bu da həqiqətdir. Bilirsiniz, mən sizin başqa ölkələrdə, xüsusən Orta Asiya ölkələrində, - bunlar bizim qardaş ölkələrimizdir, - iş görməyinizi qısqanmıram. Allah xeyirli eləsin, iş görün. Amma, əgər sıraya qoysanız - bir, iki, üç, dörd, beş - siz bilirsiniz, Azərbaycan harada qalacaq? Vəziyyəti təhlil etsək, görülən işlər çox azdır...

Biz iki-üç ildir ki, özəlləşdirmə proqramını həyata keçiririk. Torpaq islahatı həyata keçirilməndən sonra Azərbaycanda iqtisadiyyat tamamilə özəl, bazar iqtisadiyyatı yolu ilə,

dünya standartlarına uyğun olan yolla gedəcəkdir. Biz bu yolun artıq çox mühüm bir hissəsindəyik. Çoxlu qanunlar qəbul etmişik. Bir tərəfdən daxili imkanlar, digər tərəfdən elmi-texniki potensial, Azərbaycanın təbii sərvətləri, respublikamızın böyük sənaye, kənd təsərrüfatı potensialı göz qabağındadır. Bunlardan müştərək istifadə olunması üçün, hesab edirəm ki, Türkiyənin iş adamları Azərbaycana daha çox gəlməlidirlər.

İndi burada Nihat bəy də dedi ki, ölkələrimiz arasında 250 milyon dollar dəyərində ticarət əlaqəsi olubdur. Doğrudur, bu iki il müddətini götürsək, burada üç dəfə artım var. Amma bu rəqəmin özü də azdır, heç bir şeydir. İndi Azərbaycana neft sahəsində xeyli sərmayə qoyulur. Görürsünüz, respublikamızda bir balaca imkan olan kimi biz Türkiyəni də oraya gətiririk. Qərb istiqamətində boru kəmərinin tikilməsi üçün keçirilən tenderdə qalib gələn, ad qazanan şirkətlərdən biri də Türkiyənin şirkətidir. Bu şirkətə mənim dostum Nihat bəy rəhbərlik edir. Sizə deyim ki, bu işin müştərisi çox idi. Amma Türkiyə şirkəti bu işdə qazandı, biz də istədik ki, qazansın. Onların qazanmasında bizim də xidmətimiz var.

Burada neft sənayesi haqqında da bir neçə söz dedilər. Mən dörd gündür ki, buradayam. Kiçik də, böyük də, necə deyərlər, məmə yeyəndən pəpə deyənə qədər hamı soruşur ki, Bakı - Ceyhan xətti necə olacaqdır? Bu, mənim üçün aydın məsələdir. Demək, burada təkcə dövlət, hökumət yox, hər bir vətəndaş, gənc insan da istəyir ki, Azərbaycanın bu böyük neft borusu Türkiyədən keçsin. Bunu nə üçün istəyir? Çünki Bakı-Ceyhan xəttinin çox böyük iqtisadi əhəmiyyəti vardır. Yəni əgər biz neft çıxaracağıqsa, oradan böyük fayda əldə ediləcəksə, yəni bu boru ki, Türkiyədən keçirəcəyik, - biz onu mütləq Türkiyədən keçirəcəyik - demək, buradan da çox böyük fayda gələcəkdir. Bu onu göstərir ki, biz imkanımız olan kimi Türkiyənin iş adamlarını, şirkətlərini ölkəmizə gətirəcəyik. Amma bizim hələ o qədər də böyük təcrübəmiz yoxdur. Çünki biz 70 il başqa bir iqtisadi sistemdə olmuşuq. Mən sizə açıq deyim, bizim insanlar çox şeyi hələ bacarmırlar. Bizə kömək etmək, ölkəmizə gəlmək lazımdır. Gəlib oturub bir şeydə kömək etmək lazımdır. Ola bilər, para getsin, amma bil ki, gedən yerdən bir qədərdən sonra on dəfə çox gəlir götürə bilərsiz. Çünki Azərbaycana gələn para heç vaxt batmır. Azərbaycana gətirilən sərmayə mütləq öz nəticəsini verəcəkdir.

İndiyə qədər olan işlərə görə mən məmnun olduğumu bildirmək istəyirəm. Ancaq bu işlərin çoxu ticarətdir. Azərbaycan ilə Türkiyə arasında iş birliyi isə respublikamıza Türkiyənin böyük şirkətlərinin sərmayəsi gəlməsidir, müştərək istehsalın yaranmasıdır. Məsələn, neft istehsalı sahəsində bizim bir neçə belə

müştərək müəssisəmiz vardır və işlər yaxşı gedir, yaxşı da nəticələr olacaqdır. Amma başqa sahələrdə də işlər belə qurulmalıdır. İstehsalı artırmaq, sərmayə qoymaq, şübhəsiz ki, fayda verəcəkdir.

Ona görə də mən bu məsələlərin detallarını izah etmək istəmirəm. Bilirsiniz ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrini tənzimləmək üçün biz dövlətlərarası komissiya yaratmışıq. Bu komissiyanın Azərbaycan tərəfindən rəhbəri Baş nazirin müavini Abid Şərifovdur. Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Əli bəy Yücəlin böyük xidmətləri vardır. O, həqiqətən vətənpərvər bir insandır. O, para, qazanc əldə etmək üçün yox, öz qəlbi ilə yeddi il bundan əvvəl Azərbaycana gəlibdir. O, respublikamıza çətin şərtlər əsasında gəlibgedir, iş görür, amma mən belə hesab edirəm ki, bir şey qazanmır, əksinə, itirir. Ancaq onun qəlbi torpaqla, xalqla elə bağlıdır ki, onda türkçülük, vətənpərvərlik, milli hiss o qədər yüksəkdir ki, o bu işləri görür. Buna görə də mən də ona çox böyük hörmət və ehtiramla yanaşıram. Hesab edirəm ki, Nihat bəy də, Əli bəy də, Abid Şərifov da, hamısı birlikdə bu görüşdən sonra sizin təkliflərinizə baxacaqlar. Mən Abid Şərifova tapşırmışam ki, bu məsələlərlə məşğul olsun. Onlar dəqiqləşdirəndə ki, bu məsələlər barədə qərar qəbul etməyə hazırıq, onda lazımi qərarlar olacaqdır.

Gəlin biz daha da yaxınlaşaq. Millətlərimiz bir-biri ilə nəinki yaxındır, birdir. Dilimiz, dinimiz, qanımız, canımız birdir. Gəlin iqtisadiyyatda da daha da yaxınlaşaq. Burada dedilər ki, bəzi iş adamları Bakıda nəsə açmaq, mərasim keçirmək istəyirlər. Məni də oraya dəvət etdilər. Burada mən heç kəsə bir söz deyə bilmərəm. Çünki mən dörd gündür ki, Azərbaycandan çıxmışam. Qarşıdakı günlərdə yəqin işlərim daha çox olacaqdır. Şübhəsiz ki, bir neçə gündən sonra bu təkliflərə baxa bilərəm. Amma indi buradakı dəvətlərinizlə əlaqədar bir söz deyə bilmərəm. Xahiş edirəm, bunu nəzərə alasınız.

Mən sizin hamınıza cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Yaşasın əbədi Türkiyə-Azərbaycan dostluğu! Sağ olun!"

Azərbaycan Prezidenti İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzini də ziyarət etdi. Mərkəzin eksponatları ilə tanış oldu.

Beləliklə, Prezident Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri də böyük uğurla başa çatdı. Onun ən başlıca nəticəsi ölkələrimiz arasında strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamədir. Prezident Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, təkcə bu sənəd 50 sənədin imzalanmasına bərabərdir.

Görüşün nəticəsi kimi bundan əlavə daha 8 sənəd imzalanıbdır. Ümumiyyətlə, bu səfər də daxil olmaqla Azərbaycan ilə Türkiyə arasında 50-yə yaxın sənəd imzalanmışdır ki, onlar da iki ölkə, dövlət arasında olan əlaqələrin hüquqi-normativ əsaslarını yaratdılar.

Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri İ.Cem Azərbaycan Respublikasının Xarici İşlər nazirinin dəvəti ilə 7-8 sentyabr 1997-ci il tarixində dövlət naziri A.Andican ilə birlikdə Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur. İ.Cem və A.Andican Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişlər. Səfər zamanı birgə bəyanat qəbul olunmuşdur.

Türkiyə Cümhuriyyətinin Baş naziri M.Yılmaz başda olmaqla dövlət nümayəndə heyəti 1997-ci il 12 noyabr də Bakıda "İlkin neftin alınması" şərəfinə təşkil olunmuş bayramda iştirak etmişlər. Nümayəndə heyətinin tərkibində Türkiyə Cümhuriyyətinin Enerji və Təbii Ehtiyatlar naziri C.Ersümer də olmuşdur.

1997-ci ilin 28 dekabrında Türkiyə Cümhuriyyətinin 55-ci hökumətinin başçısı M.Yılmaz onu müşayiət edən nümayəndə heyəti ilə birlikdə Türkmənistandan rəsmi səfərdən vətənə qayıdarkən Bakıda qısamüddətli işgüzar səfərdə olmuş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olunmuşdur. Burada aparılmış danışıqlar zamanı tərəflər üçün maraq kəsb edən bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

1998

Bu il ərzində də əlaqələrimiz dinamik inkişafda olmuşdur. İlin əvvəlində Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr zəminində Türkiyə Cümhuriyyəti Xarici İşlər nazirinin müşaviri Səfir M.Ə.İrtemçelikin başçılıq etdiyi nümayəndə heyəti 2-4 fevral 1998-ci il tarixdə Azərbaycana səfər etmişdir. Səfər əsnasında qonaqlar, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə siyasi məşvərətlərdə iştirak etmişlər.

ATƏT-in Minsk Qrupuna Türkiyə tərəfindən xüsusi təmsilçi təyin edilmiş, Səfir A.H.Alp, 4 fevral 1998-ci ildə Azərbaycana gəlmiş, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Səfər əsnasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində məşvərətlər aparılmışdır.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında münasibətlərin bariz göstəricilərindən biri, 1997-ci ilin yekununa görə Türkiyə Cümhuriyyətinin NTV kanalının apardığı sorğu nəticəsində Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin "Dünyada ilin adamı" seçilməsi olmuşdur.

13-14 fevral 1998-ci ildə Azər-

baycan Prezidenti Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyənin "Nərgiz TV" televiziyasının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı təqdim edilmişdir.

Fevralın 13-də axşam İstanbuldakı Lütfi Kırdar adına Beynəlxalq konfrans və sərgi salonunda "Nərgiz TV" kanalının yaranmasının birinci ildönümünə və mükafatların təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl iştirak etmişlər. Bundan başqa TBMM-in Sədri Hikmət Çətin, Baş nazir Məsud Yılmaz və digər rəsmi şəxslər də burada idilər.

Mərasimdə çıxış edən Türkiyə Prezidenti bildirdi ki, Azərbaycanın Cümhur Başkanı Heydər Əliyevin NTV televiziyası tərəfindən "Dünyada ilin adamı" seçilməsini böyük bir təqdirlə qarşılayıram. Bunda çox böyük məna vardır. Xalqın fikri öyrənilmiş, xalq etimad göstərmiş və bu seçimi etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev mərasimdə nitq söyləmiş, orada mükafata görə öz təşəkkürünü bildirmiş və bəyan etmişdir ki, Azərbaycan ilə Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günügündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir. ...Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır.

Rəsmi görüşlərdən sonra tərəflər bəyanatla çıxış etmişlər. Azərbaycan Prezidenti bir daha bəyan etmişdir ki, Türkiyə Azərbaycana həmişə böyük diqqət göstəribdir. Dövlətimizin başçısı demişdir: "Mən qardaşım Süleyman Dəmirəlin sözlərini tam təsdiq edirəm və həqiqətən böyük Mustafa Kamal Atatürkün vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmiyyət daşıyır. Türkiyənin dərdi-qəmi Azərbaycanun dərdi-qəmidir, Azərbaycanın dərdi-qəmi Türkiyənin dərdi-qəmidir. Biz belə qardaşlıq, belə dostluq edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əbədi, daimi olacaq, sarsılmaz olacaqdır. Mən də, əziz dostum Süleyman Dəmirəl də bu dostluğu daha da möhkəmləndirmək üçün indiyə qədər çalışmışıq və bundan sonra da çalışacağıq. Mən çox nikbinəm, hesab edirəm ki, bizim qarşımızda nə qədər ağır, çətin problemlər, nə qədər çətin işlər dursa da, biz birgə səylərimiz nəticəsində, dostluq, qardaşlıq, əməkdaşlığımız nəticəsində onların hamısının qarşısını alacağıq."

Prezident Süleyman Dəmirəl isə öz bəyanatında qeyd etmişdir ki, iki ölkə arasında dostluq son dərəcə möhkəmdir. Azərbaycanın problemi bizim problemimizdir. Böyük Atatürkün söylədiyi sözlər bizim üçün nəsihətdir: **"Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir".**

Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevin TBMM-in Sədri Hikmət Çətin, Türkiyənin Baş naziri Məsud Yılmaz, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmayıl Haqqı Qaradayı, Türkiyənin iş adamları ilə görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinə "Dünyada ilin adamı" mükafatı verilməsi Azərbaycan-Türkiyə dostluğunun ən parlaq səhifələrindən biri hesab edilir.

Fevralın 14-də Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) İstanbulun "Ceylan interkontinental" otelində Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə səhər yeməyi təşkil etdi. Sonra otelin konfrans salonunda Türkiyənin iş adamları ilə görüş oldu. Azərbaycan və Türkiyə Prezidentlərinin iştirak etdikləri görüşə DEİK-in, Türkiyə-Azərbaycan İşbirliyinin rəhbərləri, 70-dən çox ticarət və sənaye evlərinin, bankların, şirkətlərin nümayəndələri toplaşmışdılar.

Bu toplantı iqtisadi əlaqələrimizin əsas istiqamətlərini bir daha dəqiqləşdirmək üçün böyük bir fürsət oldu.

Toplantıda Türkiyə Prezidenti bəyan etdi ki, qardaş Azərbaycanın iqtisadiyyatının dirçəldilməsinə Türkiyə Cümhuriyyətinin dövləti, hökuməti, Parlamenti, xalqı tərəfindən hər cür dəstək vermək fikri qətidir. Türkiyənin imkanları ilə,· indi Türkiyənin şirkətləri dünyanın bir çox ölkələrində çalışır,· qonşumuz və qardaşımız Azərbaycanın dirçəlməsinə kömək və xidmət göstərmək yalnız iqtisadi deyil, bundan kənara çıxan bir məsələdir. Azərbaycanın onsuz da öz imkanları ilə dirçəlməsi üçün böyük potensialı var. Azərbaycan dünyada Fars körfəzi ilə müqayisə oluna biləcək enerji ehtiyatlarına malikdir. Mən Xəzər və Orta Asiya neftini-qazını bütövlükdə nəzərdə tuturam. Bu ehtiyatlar dünya bazarlarına Azərbaycan və Türkiyə üzərindən çatdırılacaqdır. Azərbaycan Türkiyə ilə birlikdə enerji terminalı vəzifəsini öz öhdəsinə götürməyə məcburdur. Bu sahədəki əməkdaşlıq indiyə qədər də olmuşdur, bundan sonra da davam edəcəkdir. Görüşdə o, iştirakçılardan Azərbaycana daha çox sərmayə qoymağı, onun sanballı layihələrinə, xalqın rifahına xidmət edəcək istehsalata, işsizliyi aradan qaldıracaq sənaye, turizm müəssisələrinin və digər müəssisələrin yaranmasına kömək göstərməyi xahiş etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev də görüşdə çıxış etdi. O göstərdi ki, Türkiyə böyük iqtisadi potensiala malik bir ölkədir. Türkiyənin, iqtisadiyyatı həm Türkiyənin içində, həm də dünyanın bir çox ölkələrində Türkiyə Cümhuriyyətinin inkişaf etməsinə xidmət edir və burada Türkiyənin iş adamlarının, sənayeçilərinin xidməti çox böyükdür. Mən sizə bu işlərinizdə daha da çox

uğurlar diləyirəm.

Azərbaycan ilə Türkiyə arasında yaranmış dostluq, qardaşlıq əlaqələri günü-gündən inkişaf edir və əminəm ki, bizim gələcək dostluq, qardaşlıq yolumuz da işıqlıdır, aydındır, parlaqdır. ...Artıq Azərbaycana xarici sərmayə gəlir. Xarici sərmayə birinci növbədə bizim neft-qaz sənayemizə gəlir. Məsələn, keçən il, 1997-ci ildə Azərbaycana bir milyard üç yüz milyon dollar xarici sərmayə gəlibdir. Bunun bir milyard dolları neft sənayesinə qoyulubdur. Bilirsiniz ki, biz müqavilələr imzalamışıq. Xəzər dənizinin Azərbaycan sektorunda və Azərbaycan ərazisinin başqa yerlərində böyük neft yataqları xarici dövlətlərin, xarici şirkətlərin müştərək işi nəticəsində gələcəkdə böyük imkanlar açacaqdır. Biz bu sahədə Türkiyə ilə əməkdaşlıq edirik. "Türk Petrolları" şirkəti Azərbaycanda üç müqavilədə iştirak edir. Onun birinci müqavilədə 6,75 faiz payı vardısa, indi 16 faizdən artıqdır. Əziz dostum Süleyman Dəmirəl də mənə müraciət etmişdi. Mən çalışıram yeni müqavilələrdə "Türk Petrolları" şirkətinə yenə də geniş bir yer verək.

Heydər Əliyev xüsusi olaraq iş adamlarının nəzərinə çatdırmışdır ki, Türkiyə ilə bizim neft-qaz sahəsində işimiz təkcə Türkiyə şirkətinin gəlib Azərbaycanda pay alması deyildir. Ən əsas məsələ bütün Xəzər dənizində - Xəzərin təkcə Azərbaycan sektorunda yox, Qazaxıstan, Türkmənistan sektorlarında, Orta Asiyada da çıxarılan, hasil edilən neftin dünya bazarlarına ixrac olunması, Türkiyəyə çatdırılmasıdır.

Heydər Əliyev vurğulamışdır ki, Türkiyəyə qaz lazımdır. Türkmənistanın qazı çoxdur və Xəzər dənizindən də çox qaz çıxacaqdır. Amma bu qazı Türkmənistan bir yerə göndərə bilmir. Türkiyə istəyirdi qazı İrandan alsın. Bu, mümkün olmadı. Əziz dostum Süleyman Dəmirələ də öz fikirlərimi demişəm, Baş nazir Məsud Yılmazla da bu barədə danışmışıq, dünən də danışdıq. Mən hesab edirəm ki, qaz kəmərini də Xəzər dənizindən Türkiyəyə gətirmək lazımdır. Bu həm Türkiyə üçün, həm də Türkiyədən sonra Avropa üçün, digər ölkələr üçün lazımdır.

Transqafqaz magistralı məsələsinə toxunan dövlət başçımız göstərmişdir ki, 1997-ci ilin may ayında biz Sərəxsdə bu Transqafqaz magistralı barədə müqavilə imzalamışıq. Üstündən bir ilə yaxın vaxt keçibdir. Bu müddət içərisində oradan yüklərin daşınması - Mərkəzi Asiyadan Avropaya Azərbaycan, Gürcüstan üzərindən, Türkiyə, Qara dəniz üzərindən dörd dəfə artıbdır. Əgər ilk dəfə bu müqaviləni dörd dövlət imzaladısa, indi buna bütün Mərkəzi Asiya ölkələri, Avropa ölkələri - Ukrayna, Rumıniya, Bolqarıstan, Almaniya, Moldova - hamısı qatılıblar. Bunların da yolunun hamısı Türkiyədən gəlib keçir, Qara dənizdən gəlib keçir. Bu, çox böyük gələcəyi olan bir layihədir. Burada da biz yenə iş birliyindəyik. Bunlar böyük, yəni qlobal, dünya miqyasında olan layihələrdir. Amma Türkiyənin iş adamlarının Azərbaycanda sənaye sahəsində, telekommunikasiya, inşaat, ticarət, kənd təsərrüfatı və s. sahələrdə görə biləcəyi çox işlər vardır.

Azərbaycanda gedən özəlləşdirmə prosesinə də toxunaraq göstərdi ki, indi bizdə özəlləşdirmə gedir. Bu özəlləşdirmə prosesində Türkiyənin iş adamları iştirak edə bilərlər. Onların bəziləri iştirak edirlər, bəziləri gəlib yer alıblar. Mən yenə də dəvət edirəm ki, siz gələsiniz. Türkiyənin iş adamları bəzən bizim qanunlar çərçivəsində imkan yaranmadığından şikayət edirlər. Bu şikayətlər ola bilər. Ancaq bilirsiniz, hesab edin ki, biz böyük bir cığır içərisindəyik. Biz bu cığırı, yolu açа-açа gedirik. Əlbəttə, bu cığırı aparanda qarşısına daş da, kəsək də, qaya da çıxacaq, - bunlar olacaqdır. Bunlardan qorxmaq lazım deyil. Əsas odur ki, biz irəliyə gedirik və gedəcəyik. Prezident qətiyyətlə bildirdi ki, bizim əsas tərəfdaşımız Türkiyədir, Türkiyənin iş adamlarıdır. Mən Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm.

Məsələn, "Qoç" qrupu gəlib Bakıda "Ramstor" kimi böyük mağaza tikibdir. İndi bu, Azərbaycanın ən görkəmli mağazasıdır. Bakıda iki milyondan artıq insan yaşayır. Hamı ora gedir. Onun yanında hansısa bir türk şirkəti yeni bir fransız mağazası tikdi. Mənə dedilər ki, belə bir mağaza Türkiyədə təkcə İstanbulda var, ikincisi də Bakıda açıldı. Çox gözəl. Mən bunun açılışında da iştirak etdim. İndi insanlar bundan istifadə edirlər. Başqa şeylər də tikirlər. Bayraqdar gəlib şəhərin ən gözəl yerində dörd bina tikibdir. O yeri mən 30 il idi qoruyub saxlayırdım. Həmin yeri ona verdim. Süleyman bəylə biz onun təməl daşını qoymuşduq. İndi binalar hazırdır. Bəzən görürəm işıqlar yanır, insanlar da yaşayır. Amma Bayraqdara dedim ki, sən bunu mənsiz etmisən. Evi tikmək istəyəndə gəlib məndən icazə aldın, amma istifadəyə verəndə məndən icazə almamısan. Bunların hamısı olur və olacaqdır.

Sonra Prezident iş adamlarının diqqətinə çatdırdı ki, Azərbaycanda insanlar yeni, bazar iqtisadiyyatına qatılırlar. Burada cürbəcür qanun pozuntuları ola bilər. Bəzi insanlar bunu anlamadan vəzifəsindən suiistifadə edə bilərlər. Korrupsiya, rüşvət və s. olur və var. Bunlardan Türkiyə də xilas olmayıbdır, Azərbaycan da xilas olmayıbdır. Bunların qarşısını birlikdə almaq lazımdır. Ona görə də Azərbaycana gələn iş adamları gərək sağlam əlaqələr qursunlar, heç kəs çirkli iş görməsin, Azərbaycandakılar da görməsinlər.

Azərbaycan Prezidenti görüşdə iş adamlarına müraciət edərək dedi: "Azərbaycanda sağlam iş görən adam mənim gözümün üstündədir. Amma gəlib Azərbaycanda haram iş görən adam bu gün də olmasa, yaxud sabah da olmasa, bir neçə vaxtdan sonra aş-

kara çıxacaqdır. Mən hesab edirəm ki, bizim içimizdə problemlər çoxdur, bu problemləri özümüz həll edirik. Amma bizə kənardan problem gətirmək lazım deyil. Mən sizdən bunu rica edirəm.

Azərbaycanda iş görmək üçün əsas şərtlərdən biri Azərbaycanın içində olan sabitlikdir. Əziz dostum Süleyman Dəmirəl bunu çox gözəl söylədi. Azərbaycan altı il içərisində nə qədər sınaqlardan, ağır yollardan keçdi. Biz iki dəfə dövlət çevrilişinin qarşısını aldıq, silahlı dəstələrin qarşısını aldıq. İndi dövlətimiz yaşayır, anayasamız - konstitusiyamız, parlamentimiz, qanunlarımız var. Azərbaycanda ictimai-siyasi vəziyyət sərbəstdir, sakitdir, sabitlik yaranıbdır. Bütün qanunlar var, bu gün olmayan qanunlar da sabah olacaqdır və birlikdə iş aparacağıq.

Ona görə də mən sizi bir daha Azərbaycana dəvət edirəm. Çəkinməyin, Azərbaycandan uzaqlaşmayın, Azərbaycana yaxınlaşın. Mən o qədər istəyirəm ki, Azərbaycana türk şirkətləri qoy çox gəlsin, bir-biri ilə sağlam rəqabət aparsınlar. Kim daha da yaxşı iş görə bilər - o, iş görmək hüququ alsın. Mən bunların hamısını dəstəkləyəcəyəm.

Biz Türkiyədə görülən işlərə daim heyranlıqla, sevgi ilə, məhəbbətlə baxırıq. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyənin hər bir vətəndaşı bizim üçün əziz insandır. Biz bundan sonra Türkiyəyə daha da yüksəliş arzu edirik, Türkiyə xalqına daha da rifah arzu edirik. Türkiyənin parlaq gələcəyinə inanırıq. Mən Azərbaycanın Türkiyə ilə dostluğunun, qardaşlığının parlaq gələcəyinə əminəm. Sizin hamınıza cansağlığı arzu edirəm, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun."

Fevralın 14-də İstanbuldakı "Ceylan İnterkontinental" otelinin konfrans salonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Türkiyənin Qars şəhər bələdiyyəsinin və Türk Sənayeçiləri və İş Adamları Vəqfinin /TÜSİAV/ 1997-ci ilin "İnsan haqları" və "İlin dövlət adamı" mükafatlarının təqdim olunmasına həsr edilmiş mərasim keçirildi.

Prezidentimizə müraciət edən Qars bələdiyyə başqanı dedi ki, Siz türk dünyasının öndə olan liderlərindən birisiniz və Qafqazda sabitlik və tarazlıq amilisiniz. Azərbaycanın Qafqazda güclü bir dövlət olmasında çox böyük xidmətləriniz var, gecə-gündüz çalışırsınız. Türkiyə-Azərbaycan əlaqələrini zirvələrə qaldırmaq üçün əlinizdən gələni edirsiniz. Vəqfimizin qaydasına uyğun olaraq 40-a qədər seçici üzvlərin seçdiyi "İlin dövlət adamı" mükafatı bu gün sizə təqdim edilir. İnşallah, başqa mükafatlar da təqdim olunacaqdır. Onu da bildiririk ki, idarə heyətimizin qərarı ilə Siz vakfımızın fəxri üzvü seçilmisiniz. Bu barədə sənədi İstanbul şöbəmizin başçısı təqdim edəcəkdir. Sonra dövlətimizin başçısına

1997-ci ilin insan haqları və "İlin dövlət adamı" mükafatları təqdim edildi, Qars bələdiyyəsi adından nəfis xalça hədiyyə olundu.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi. Ödülə görə öz təşəkkürünü bildirdi. İştirakçıları əmin etdi ki, sizin bu etimadınızı doğruldacağam və Türkiyə-Azərbaycan dostluğunu günü-gündən möhkəmləndirmək, inkişaf etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Türkiyə-Azərbaycan dostluğu bizim üçün müqəddəsdir, əbədidir, sarsılmazdır. Biz bu yoldan dönməyəcəyik. Biz bu yolla irəliyə getmişik və irəliyə gedəcəyik.

13-14 aprel 1998-ci ildə Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi, ordu generalı İ.H.Karadayı Azərbaycan Respublikasının Müdafiə naziri S.Əbiyevin dəvəti ilə Bakıya səfər etmişdir. İki nazir arasında hərbi-müdafiə sahəsində fikir mübadilələri aparılmışdır. Qonaq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

21 aprel 1998-ci ildə Türkiyə Respublikasının Enerji və Təbii Ehtiyatlar naziri C.Ersümer Bakıda işgüzar səfərdə olmuş, səfər zamanı Prezident Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Görüşdə Bakı-Ceyhan neft boru xəttinin çəkilişi barədə müzakirələr aparılmışdır.

26 aprel 1998-ci ildə Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəlin dəvəti ilə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Trabzon şəhəri yaxınlığında Dərinər su bəndinin inşasının təməlatma mərasimində iştirak etmək məqsədi ilə Türkiyə Cümhuriyyətində bir günlük işgüzar səfərdə olmuşdur. Təməlatma mərasimində iştirak edən Azərbaycanın, Türkiyənin və Gürcüstanın Prezidentləri ikitərəfli və üçtərəfli münasibətlərin inkişafına dair müzakirələr aparmış və birgə bəyanat qəbul etmişlər.

Bu, əslində üç qonşu dövlətin başçılarının tarixi görüşü idi. Eduard Şevardnadze də bu görüşdə iştirak edirdi.

Mərasimdə hər üç Prezident, Türkiyənin Baş naziri Məsud Yılmaz, Türkiyənin Dövlət Su İşləri İdarəsinin Baş direktoru Doğan Altınbilək, Artvin şəhərinin valisi Ömər Böyükkənd, Türkiyənin Enerji və Təbii Qaynaqlar naziri Cümhur Ərsümər çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev öz nitqində Türkiyə Cümhuriyyəti üçün əlamətdar olan bir hadisədə iştirak etdiyini, burada eyni zamanda üç ölkənin rəhbərlərinin bir araya gəlməsinin də çox əhəmiyyətli olduğunu, son illər ölkələrimiz arasında tarixdə görünməmiş dostluq və qardaşlıq əlaqələrinin yarandığını, XX əsrin sonunda bizim üç ölkə - Türkiyə, Gürcüstan və Azərbaycanın bu günü və gələcəyi üçün çox əhəmiyyətli bir mərhələ meydana gəldiyini, bu tarixi hadisənin bir yerdə qeyd edilməsinin də bizim dostluğu-

muzun, qardaşlığımızın gözəl nümunəsi olduğunu bəyan etmişdir.

Əmin olduğunu bildirmişdir ki, bu dostluq, qardaşlıq əlaqələri böyük gələcəyə malikdir, günü-gündən inkişaf edəcək, əbədi olacaq və sarsılmaz olacaqdır. Türkiyə, Gürcüstan və Azərbaycanın - Qafqazın üç böyük və çox strateji əhəmiyyətə malik olan ölkələrinin bu cür sıx dostluq, qardaşlıq əlaqələrində olması bütün Qafqazda, onun ətrafında sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsi üçün çox önəmli bir amildir. Biz bu dostluğumuzla, əlaqələrimizlə, gözəl əməkdaşlığımızla bir daha sübut edirik ki, Qafqazda, onun ətrafında daim sülh, əmin-amanlıq yaratmaq olar. Buna bizim çox ehtiyacımız vardır.

Prezident Heydər Əliyev bəyan etmişdir ki, biz ölkədə və bütün dünyada, bölgəmizdə hər bir ölkənin ərazi bütövlüyünün təmin olunmasının tərəfdarıyıq. Bu, beynəlxalq hüquq normalarının tələbidir. Biz tələb edirik ki, bütün dövlətlər, ölkələr bu beynəlxalq hüquq normalarına riayət etsinlər. Buna görə də həm Gürcüstanın, həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması bu gün gündəlikdə duran əsas məsələdir. Biz yaxşı bilirik ki, Türkiyə Cümhuriyyəti, Türkiyənin hökuməti, dövləti Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün çox səylər qoyur, çalışır və o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün, Gürcüstanda Abxaziya münaqişəsinin həll olunması üçün öz səylərini qoyur. Ona görə də mən bu fürsətdən istifadə edib Türkiyə Cümhuriyyətinə, dövlətinə, hökumətinə təşəkkürümü yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün bundan sonra da öz səylərini əsirgəməyəcəkdir. Bugünkü təntənəli mərasim bir də onu göstərir ki, insanlar sülh istəyir, əmin-amanlıq istəyir, insanlar rahat yaşamaq istəyirlər. Biz bunu təmin etməliyik. Bu, Türkiyədə də təmin olunmalıdır, Gürcüstanda da, Azərbaycanda da, bütün Qafqazda da təmin olunmalıdır. Qafqaz dünyanın çox əhəmiyyətli bir bölgəsidir. Qafqazda dünya ölkələrinin çox böyük maraqları vardır. Bunların hamısını həm Qafqaza maraq göstərən ölkələrin xeyrinə, həm də Qafqazda yerləşən xalqların, ölkələrin, dövlətlərin xeyrinə həll etmək üçün sülh lazımdır.

Prezidentlər bu görüşdə hər üç ölkə üçün mühüm olan, ölkələrimiz arasındakı gələcək əməkdaşlığa yeni yollar açan birgə bəyanatla çıxış etmiş, Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında yaranmış xüsusi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətlərini bundan sonra da genişləndirməyə və dərinləşdirməyə hazır olduqlarını, bu münasibətlərin maraqların ümumiliyi əsasında sülhə və sabitliyə, bölgə xalqlarının iqtisadi inkişafına və yaxınlaşmasına getdikcə

daha çox kömək edən sanballı amilə çevrildiyini bəyanatda göstərmişlər.

Sonra bəyanatda deyilirdi:

"Prezidentlər bölgədə təhlükəsizliyin və sabitliyin təmin olunması sahəsində birgə səyləri həm regional səviyyədə, həm də daha geniş beynəlxalq səviyyədə daha da gücləndirməyin vacibliyini qeyd etmişlər. Onlar dövlət suverenliyinə, ərazi bütövlüyünə hörmət və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında, təcavüzkar separatçılığa və terrorizmin hər hansı təzahürünə qarşı birgə mübarizəni fəallaşdırmaq əsasında bölgədə münaqişələri tez bir zamanda sülh yolu ilə aradan qaldırmağın zəruri olduğunu vurğulamışlar.

Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəl, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze cənablarının Tbilisi bəyannaməsində - "Dinc Qafqaz" bəyannaməsində ifadə etdikləri prinsiplərin həyata keçirilməsinə yönəldilmiş səyləri tamamilə dəstəklədiklərini təsdiq etmişdir.

Prezidentlər iqtisadi kooperasiyanı dərinləşdirməyin zəruriliyini, irimiqyaslı regional layihələrin işlənib hazırlanmasında və həyata keçirilməsində birgə səylərin vacibliyini nəzərə çarpdırmışlar.

Prezidentlər Xəzər hövzəsinin enerji daşıyıcılarının nəql olunmasının əsas istiqamətlərindən biri kimi, Transxəzər və Transqafqaz boru kəmərləri şəbəkələrinin daxil olduğu Şərq-Qərb energetika dəhlizinin inkişafına böyük əhəmiyyət verərək bəyan etmişlər ki, onlar Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə daşınmasına, habelə Xəzər hövzəsindən təbii qazı Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə çatdırmaq üçün boru kəməri çəkilməsinə dair layihələrin həyata keçirilməsinin sürətləndirilməsi sahəsində əməli addımlar atmağa hazırdırlar.

Prezidentlər tarixi "İpək yolu"nun bərpa olunmasının, TRASEKA Avrasiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin üstün əhəmiyyətini vurğulamış və bu məqsədlə, həmin dəhlizin mühüm tərkib hissəsi kimi, Tbilisi-Qars dəmir yolu magistralının inşasını sürətləndirməyin zəruri olduğunu bəyan etmişlər.

Prezidentlər transsərhəd çaylarının, Türkiyə boğazlarının və Qara dənizin sahil xəttinin təbii mühitinin mühafizəsi sahəsində birgə səylərin əhəmiyyətini vurğulamışlar.

Prezidentlər məmnunluqla qeyd etmişlər ki, Qara dəniz iqtisadi əməkdaşlığı yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu ittifaqın regional beynəlxalq təşkilata çevrilməsi Qara dəniz hövzəsinin dövlətləri arasında iqtisadi əməkdaşlığın güclənməsində onun rolunun yüksəlməsinə şübhəsiz ki, kömək edəcəkdir.

Prezidentlər Qara dəniz və Xəzər dənizi hövzələri dövlətlərinin daha da yaxınlaşması, qarşılıqlı anlaşmanın dərinləşməsi və bunun əsasında həmin bölgələrin xalqları arasında

etimadın və qarşılıqlı hörmətin möhkəmlənməsi sahəsində bundan sonra da birgə səylər göstərmək barədə razılığa gəlmişlər.

Üç dövlət arasında tarixi dostluq, mehriban qonşuluq əlaqələrini yüksək qiymətləndirən Prezidentlər ölkələrimizin gündən-günə inkişaf edən qarşılıqlı surətdə faydalı əməkdaşlığından razı qaldıqlarını bildirmişlər. Bölgədə təhlükəsizliyin və sabitliyin təmin edilməsi sahəsində birgə səylərin regional və beynəlxalq səviyyədə gücləndirilməsinin, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə ciddi riayət olunmasının zəruriliyini vurğulayan tərəflər, bölgədə münaqişələrin sülh yolu ilə tezliklə aradan qaldırılmasının vacibliyini qeyd etmişlər. Türkiyə, Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin zəruri olduğunu nəzərə çarpdıran dövlət başçıları bildirmişlər ki, ölkələrimizin əməkdaşlığının daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi böyük əhəmiyyətə malikdir. Onlar Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən nefti dünya bazarına çıxaracaq əsas boru xətti - Bakı-Ceyhan kəməri barədə geniş müzakirələr aparmış və qeyd etmişlər ki, bu istiqamətdə konkret tədbirlər həyata keçirilməsini sürətləndirmək üçün əməli addımlar atmağa hazırdırlar.

Təntənəli mərasim başa çatdıqdan sonra Türkiyənin Dövlət Su İşləri İdarəsinin Baş direktoru Doğan Altınbilək Azərbaycan Prezidenti Heydər Əliyevə, Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə, Türkiyə Prezidenti Süleyman Dəmirələ və Baş nazir Məsud Yılmaza xatirə hədiyyələri təqdim etmişdir.

Sonra hər üç ölkənin dövlət başçılarının düyməni basması ilə Dərinər su bəndinin təməlinin qoyulması mərasimi icra olunmuş - qayalarda rəmzi partlayış keçirilmişdir.

10 may 1998-ci il tarixində Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 75-illik yubileyi ilə əlaqədar Bakıya birgünlük işgüzar səfərə gəldi. İkitərəfli görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

1998-ci il iyun ayının 9-da Qazaxıstanın paytaxtı Astana şəhərində Türk dövlətlərinin başçılarının növbəti Zirvə görüşü olmuş, orada Azərbaycan Prezidentinin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə növbəti görüşü keçirilmişdir.

8-9 sentyabr 1998-ci il tarixlərində Azərbaycan Respublikasında beynəlxalq səviyyədə keçirilmiş tarixi "İpək yolu"nun bərpasına həsr edilmiş və Prezident Heydər Əliyevin sədrlik etdiyi konfransda Türkiyə Respublikasının Prezidenti S.Dəmirəlin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmiş və ölkələrimiz arasındakı iqtisadi münasibətlərin inkişafında konfransın rolu qeyd edilmişdir.

11 oktyabr 1998-ci ildə Azərbaycan Respublikasında keçirilmiş Prezident seçkilərində qardaş Türkiyə Cümhuriyyətinin müxtəlif təşkilatlarından nümayəndələr müşahidəçi kimi yaxından iştirak etmiş və Türkiyə Cümhuriyyətinin Enerji və Təbii Ehtiyatlar naziri C.Ersümer 18 oktyabr 1998-ci il də yenidən Prezident seçilən Heydər Əliyevin andiçmə mərasimində iştirak etmişdir.

28-31 oktyabr 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Cümhuriyyətinin 75 illiyi münasibəti ilə Türkiyədə keçirilən bayram mərasimlərində iştirak etmişdir. Səfər zamanı Azərbaycan, Qazaxıstan, Gürcüstan, Özbəkistan və Türkiyə dövlət başçıları, habelə ABŞ-ın Enerji naziri tərəfindən Bakı-Ceyhan neft-boru kəmərinin həyata keçirilməsinin vacibliyini əks etdirən birgə bəyannamə imzalanmışdır.

Türkiyə Cümhuriyyətinin 75 illiyinə həsr olunmuş yubiley tədbirlərində Azərbaycan Prezidenti Heydər Əliyevlə yanaşı Pakistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Albaniya, Qırğızıstan, İsrail, Tacikistan və Moldovanın Prezidentləri, Bolqarıstan Parlamentinin sədri, Ukraynanın Baş naziri və digər ölkələrdən gəlmiş hörmətli qonaqlar, Türkiyənin yüksək vəzifəli şəxsləri, dövlət və iş adamları da iştirak edirdilər.

Dövlətimizin başçısı xarici ölkələrin burada iştirak edən yüksək vəzifəli şəxsləri və iş adamları ilə silsilə görüşlər keçirmişdir.

Səfər zamanı, Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə də yenidən görüşmüş, ona Azərbaycan xalqının hədiyyəsi kimi böyük öndər Mustafa Kamal Atatürkün Azərbaycan rəssamı tərəfindən muncuqlardan toxunmuş portretini təqdim etmişdir.

Böyük Atatürkün qurduğu Türkiyə Cümhuriyyətinin əbədi olaraq yaşayacağını nəzərə çarpdıran Prezident Süleyman Dəmirəl Cümhuriyyətin 75 illik yubileyi münasibətilə Prezident Heydər Əliyevə xatirə medalı təqdim etmişdir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi, Xəzər neftinin dünya bazarına ixrac olunması, Bakı-Ceyhan marşrutunun həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev yubiley tədbirləri zamanı oktyabrın 28-də Ankarada öz iqamətgahında ABŞ Prezidenti Bill Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, səfir Riçard Morninqstarı qəbul etmişdir.

Oktyabrın 28-də Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından Çankaya köşkündə Türkiyə Cümhuriyyətinin yubileyində iştirak etmək

üçün xarici ölkələrdən gəlmiş ali qonaqların - Dövlət və Hökumət Başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.

Ziyafət zamanı Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Qırğızıstan Prezidenti Əsgər Akayev, Moldova Prezidenti Petru Luçinski, eləcə də tanınmış sənət və iş adamları, xarici ölkələrin Türkiyədəki səfirləri, ölkəmizin rəhbəri Heydər Əliyevə yaxınlaşaraq onu yenidən Azərbaycanın Prezidenti seçilməsi münasibətilə təbrik etmiş, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi haqqında və qarşılıqlı maraq doğuran digər məsələlər barədə səmimi söhbət aparmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 29-da Ankarada Rusiya telekanalının "Vesti" informasiya proqramının Bakı müxbirinə müsahibə vermişdir.

Ölkəmizin başçısı oktyabrın 29-da Ankarada Türkmənistan Prezidenti Saparmurad Niyazovla da görüşmüşdür.

Oktyabrın 29-da səhər Azərbaycan Prezidenti Heydər Əliyev, yubiley mərasimlərində iştirak edən digər Dövlət və Hökumət Başçıları və nümayəndə heyətlərinin üzvləri Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün xatirəsini yad etmək üçün böyük öndərin uyuduğu "Anıt qəbir" məqbərəsini ziyarət etmişlər.

Oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisinin binasında Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimi olmuşdur.

Bu mərasimdə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinə gəldi. Dövlətimizin başçısını Türkiyə Parlamentinin sədri Hikmət Çətin və dost ölkənin millət vəkilləri mehribanlıqla və səmimiyyətlə qarşıladılar. Onlar respublikamızın rəhbəri ilə görüşməkdən və cümhuriyyətin 75 illik yubileyində Prezident Heydər Əliyevin iştirak etməsindən şərəf duyduqlarını bildirdilər.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış Ankara bəyannaməsini Türkiyə dövləti adından Prezident Süleyman Dəmirəl və Baş nazir Məsud Yılmaz, Azərbaycan dövləti adından Prezident Heydər Əliyev, Gürcüstan dövləti adından Prezident Eduard Şevardnadze, Qazaxıstan dövləti adından Prezident Nursultan Nazarbayev, Özbəkistan dövləti adından Prezident İslam Kərimov, habelə ABŞ dövləti adından Energetika naziri Bill Riçardson imzaladılar. Ölkəmiz üçün çox mühüm olan bu bəyannamədə göstərilir:

1. Prezidentlər hesab edirlər ki,

onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər. Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2. Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3. Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ceyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4. Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5. Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər.

6. Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiy-

yətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır."

Türkiyə Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə çıxış etmişlər.

Türkiyə Prezidenti Süleyman Dəmirəl öz çıxışında bildirmişdir ki, biz Prezidentlər olaraq, Azərbaycanda əsas neft kəməri ilə bağlı qərarın qəbul ediləcəyi mərhələdə Xəzər neftinin dünya bazarlarına daşınması üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əsas neft kəməri kimi seçilməsi sahəsindəki qətiyyətimizi və iradəmizi bir daha dünyaya bildiririk. Bakı-Tbilisi-Ceyhan layihəsi bölgədə enerji istehsalının uzun vədəli iqtisadi rifahını təmin edən yeganə layihədir. Bu layihə XXI əsrin ən parlaq sülh layihəsi kimi qarşımızda durur.

Sonra dövlətimizin başçısı Heydər Əliyev çıxışında vurğulamışdır ki, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzalanan bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında iş birliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Azərbaycan Prezidenti qətiyyətlə bildirmişdir ki, mən Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda, bunlar hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq. ...Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XXI əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun.

Xarici ölkələrin diplomatları respublikamızın rəhbərinə ən xoş arzularını çatdırmış, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da inkişaf etdirilməsinə çalışacaqlarını bildirmişlər.

Bundan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümü münasibətilə oktyabrın 29-da Ankaradakı Atatürk Kültür mərkəzinin "Hipodrom"unda - böyük meydanında keçirilən təntənəli bayram şənliyində iştirak etdi.

Oktyabrın 29-da Azərbaycan Prezidenti Heydər Əliyev Ankarada öz iqamətgahında - "Hilton" mehmanxanasında ABŞ-ın Energetika naziri Bill Riçardsonla görüşdü.

Oktyabrın 29-da Çankaya köşkündə Türkiyə Cümhuriyyətinin yubileyində iştirak etmək üçün xarici ölkələrdən gəlmiş ali qonaqların - Dövlət və Hökumət Başçılarının şərəfinə Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından rəsmi qəbul olmuş, Azərbaycan Prezidenti Heydər Əliyev qəbulda iştirak etmişdir.

Oktyabrın 30-da Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin iqamətgahından - Çankaya köşkündən xüsusi vertolyotla Ankaranın "Esenboğa" hava limanına gəlmişdir.

Hava limanının şərəf salonunda TBMM-in Sədri Hikmət Çətin Cümhuriyyətin 75-ci ildönümü münasibətilə Türkiyə paytaxtında keçirilən bayram şənliklərində Prezident Heydər Əliyevin iştirakını əks etdirən fotoalbomu dövlətimizin başçısına təqdim etmişdir.

Burada Pakistan Prezidenti Məhəmməd Rəfiq Tərar, Hindistanın Vitse-Prezidenti Krişan Xan, Ukraynanın Baş naziri Valeri Pustovoytenko, Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri Cümhur Ərsümər Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşüb söhbət etmişlər.

Söhbət zamanı ölkələrimiz arasındakı ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi, Xəzər neftinin dünya bazarlarına ixrac olunması və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Onlar müstəqil Azərbaycanda gedən demokratik prosesləri diqqətlə izlədiklərini və beynəlxalq aləmdə respublikamızın imicinin artdığını xüsusi vurğulayaraq, Prezident Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə yaradılmış ictimai-siyasi sabitliyi yüksək qiymətləndirmiş, yenidən Azərbaycanın Prezidenti seçilməsi münasibətilə ölkəmizin rəhbərini təbrik etmiş, xoş arzu və diləklərini bildirmişlər.

Dövlətimizin başçısı Heydər Əliyev Pakistan Prezidenti Məhəmməd Rəfiq Tərarı Azərbaycana rəsmi səfərə dəvət etmişdir. O, dəvəti məmnuniyyət hissi ilə qəbul edərək imkan tapıb Azərbaycanı ziyarət edəcəyini bildirmişdir.

Elə həmin gün Prezident Heydər Əliyev Azərbaycana məxsus təyyarə ilə dost və qardaş ölkənin ən böyük şəhəri olan İstanbula gəlmişdir.

Oktyabrın 30-da axşam Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Baş naziri Məsud Yılmazla birlikdə Mərmərə dənizi sahilində yerləşən Quruçeşmə limanına gəldi.

Ali qonaqlar Mustafa Kamal Atatürkün adını daşıyan "Savarona" gəmisində gəzintiyə çıxmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyev gəmidə düzəldilmiş Atatürk muzeyini ziyarət etmiş, burada sax-

lanılan xatirə əşyaları və sənədlərlə tanış olmuşdur.

Prezident Heydər Əliyev muzeyin fəxri qonaqlar kitabına aşağıdakı ürək sözlərini yazmışdır:

"Türkiyə Cümhuriyyətinin banisi, qurucusu, ulu öndər Mustafa Kamal Atatürkün gəmisini Cümhuriyyətin 75-ci ildönümü günü ziyarət etmək mənə nəsib olduğundan böyük qürur duyuram. O böyük şəxsiyyətin parlaq xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. "

Bolqarıstan Xalq Məclisinin Sədri Yordan Sokolov və digər xarici ölkələrin burada olan yüksək vəzifəli şəxsləri və Türkiyənin iş adamları gəmidə dövlətimizin başçısına yaxınlaşaraq, onu yenidən Prezident seçilməsi münasibətilə təbrik etmiş, ən xoş arzularını bildirmiş və səmimi söhbət etmişlər.

Sonra "Savarona" gəmisində Türkiyənin Baş naziri Məsud Yılmazın adından Dövlət və Hökumət Başçılarının şərəfinə rəsmi ziyafət verildi. Türkiyənin incəsənət ustalarının iştirakı ilə bayram konserti olmuşdur.

Gəzinti başa çatdıqdan sonra ölkəmizin rəhbəri Heydər Əliyev TRT-1 televiziya kanalının İstanbul bölməsi vasitəsilə Türkiyə xalqına, dost və qardaş ölkəyə Cümhuriyyətin 75-ci ildönümü münasibətilə sülh, əmin-amanlıq, səadət, gələcək illərdə işlərində uğurlar və müvəffəqiyyətlər arzulamış, ən xoş arzu və diləklərini çatdırmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 30-da İstanbulun "Hilton" mehmanxanasının ali qonaqlar salonunda Türkiyənin "Mərmərə" qrupunun strateji və sosial araşdırmalar vəqfinin "Bakı-Ceyhan boru xətti" mövzusunda keçirdiyi mərasimdə və vəqfin aylıq hesabat toplantısında iştirak etmişdir.

1985-ci ildə yaradılmış, hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. Bu dəfə "Mərmərə" qrupunun hörmətli qonağı dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev olmuşdur.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti xüsusi olaraq vurğulamışdır ki, dünyada türkdilli millətlər çoxdur. Biz bir soydanıq. Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır, bir dilimiz vardır. Ancaq Azərbaycan ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur.

Ölkəmizin başçısı öz nitqində ölkələrimiz arasında baş verən əlaqələrə, gedən proseslərə ətraflı bir şərh vermiş, hələ də aydın olmayan bəzi məsələləri açıqlamış, strateji əməkdaşlığımızın əsas istiqamətlərinə müəyyənlik gətirmişdir. Öz nitqində o demişdir: "Bugünkü görüş Türkiyə-Azərbaycan dostluğunun yeni bir təzahürüdür. Bilirsiniz, dostluq hissələrdən ibarətdir. İnsanların, ailələrin, qrupların bir-bir ilə dostluğu, əlaqələri xalqların, ölkələrin, dövlətlərin dostluğunu yaradır. Biz bax, beləliklə, belə görüşlərlə dostluğumuzu daha da inkişaf etdiririk, daha da möhkəmləndiririk.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti Türkiyə ilə dostluğuna, qardaşlığına, əməkdaşlığına xüsusi əhəmiyyət verir. Bu, Azərbaycanın Prezidenti kimi mənim xarici siyasətimin əsas istiqamətlərindən biridir və bundan sonra da belə olacaqdır. Bu, xalqın ürəyindən gələn hissiyyatlardır. Amma xalqın ürəyindən gələn hissiyyatları dövlət siyasətinə keçirməyin özü də çox əhəmiyyətlidir. Çünki Azərbaycana bir müstəqil dövlət kimi müxtəlif yerlərdən, cürbəcür istiqamətlərdən maraq çoxdur. Soruşurlar ki, Azərbaycan hansı ölkə ilə daha yaxındır, Azərbaycan ən çox hansı ölkəyə önəm, diqqət verir, Azərbaycan hansı ölkə ilə daha yaxın əlaqə qurur. Bunları sual verənlər çoxdur. **Amma dünya da bilir, qoy hamı da bilsin - Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu gün bir daha bəyan edirəm ki, bu dostluğumuz əbədidir, sarsılmazdır."**

Dövlət başçımız Türkiyə-Ermənistan əlaqələrinin yaradılması mövzusuna toxunaraq qeyd etmişdir ki, bəzi iş adamları ticarət naminə sərhədlərin açılması, Qarsdan qapının açılması, İqdırdan qapının açılması və s. məsələləri qoymuşdular. Ancaq bilirsiniz, bizim Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı hər bir ticarətdən alınan gəlirdən qat-qat üstündür. Bizim bu dostluğumuzu, qardaşlığımızı ticarətə qurban vermək olmaz. Bizim xalqımız etiraz etmişdi, qəzetlər yazmışdı ki, bəzi iş adamları Ermənistana getmişdilər, orada iş birliyi yaratmaq istəmişdilər. Sonra mənim dostum Süleyman Dəmirəl bir çox ağıllı, gözəl sözlər dedi. Dedi ki, bu, bizdən asılı deyildir. Bu, Türkiyə xalqından, kamuoyundan asılıdır. Kimsə bunu istəsə, Türkiyə xalqı, Türkiyə kamuoyu buna yol verməz. Biz buna görə minnətdarıq. İnanıram ki, biz bu və bütün başqa məsələlərdə sona qədər bir olacağıq. İnanıram ki, biz birlikdə mücadilə edib, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik. Bütün Qafqazda, bütün bölgədə tam sülhün yaranması bizim üçün də, Türkiyə üçün də, Ermənistan üçün də lazımdır. Ermənistan özü anlamır ki, indi artıq Ermənistan tamam təcrid olunmuş vəziyyətdə qalıbdır.

Prezidentimiz Bakı-Ceyhan boru xətti məsələsinə də toxunaraq göstərmişdir: "Mən Bakı-Ceyhanı 1994-cü ildə bəyan etdim. Yəni bildirdim ki, Azərbaycandan dünya bazarına çıxan

neft Bakı-Ceyhan xətti ilə getməlidir. Dörd ildir ki, biz bu Bakı-Ceyhan marşrutunu reallaşdırmaq üçün çalışmışıq.

Türkiyədə də çoxu rahatsızdırlar. Hər dəfə Türkiyənin qəzetçiləri məndən soruşanda - ya buraya gələndə, yaxud da başqa yerdə - birinci sual belə olubdur ki, Bakı-Ceyhan necə olacaqdır? Hər dəfə demişəm ki, Bakı-Ceyhan olacaqdır. Nə vaxt olacaqdır? Demişəm ki, tələsməyin, gözləyin, olacaqdır. Mən bunu bir-iki il bundan öncə İstanbulda demişəm, Bakıda Türkiyənin bütün mətbuat nümayəndələrinin hamısına demişəm. İndi bu gün sizə də deyirəm. Bakı-Ceyhan artıq var. Dünən bizim imzaladığımız bəyannaməni bir neçə vaxtdır hazırlayırdıq. Şübhəsiz ki, bu bəyannamə birinci növbədə Azərbaycan ilə Türkiyə arasında idi. Amma Gürcüstan olmasa biz Türkiyəyə keçə bilmərik. Deməк, Gürcüstan da olmalıdır. Ancaq biz son vaxtlar işlərimizi genişləndiririk və bu işə Qazaxıstan da, Özbəkistan da cəlb olundu. Hətta biz Türkmənistanı da cəlb etməyə çalışdıq, amma o, dünən imza atmadı. Güman edirəm, gələcəkdə imza atacaqdır.

Beləliklə, əgər dörd il bundan öncə Bakı-Ceyhan haqqında ancaq Azərbaycan və Türkiyə düşünürdüsə, indi, dörd il keçəndən sonra Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan və ABŞ-ın Energetika naziri bu bəyannaməni imzaladı, bunu, Bakı-Ceyhanı dəstəklədi. Bu, artıq real bir şeydir. ..Biz Bakı-Ceyhan boru xətti haqqında bəyannaməni dünən imzaladıq. Mən bunu böyük tarixi hadisə hesab edirəm və bu münasibətlə sizi də təbrik edirəm. Sizin bu işə yüksək diqqət verməyinizi, maraq göstərməyinizi mən qiymətləndirirəm və əmin ola bilərsiniz ki, Azərbaycanın siyasəti, Azərbaycan Prezidenti Heydər Əliyevin siyasəti sabitdir və axıra qədər də sabit olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında olan əməkdaşlıq, iş birliyi genişdir. Mənim dostum artıq bu barədə dedi ki, Azərbaycanda Türkiyənin 10 mindən çox insanı çalışır. Şirkətlər çoxdur. Amma hələ imkanlar da bundan çoxdur.

Mən Prezident seçiləndən sonra oktyabr ayının 18-də andiçmə mərasimində demişəm və bunu burada bir daha bəyan edirəm: biz Azərbaycana xarici sərmayənin, yatırımın gəlməsi üçün daha da əlverişli şərtlər yaradacağıq. Mən bilirəm ki, Azərbaycanda bəzi iş adamlarının iş görməsi üçün ayrı-ayrı məmurlar maneçilik edirlər. Ayrı-ayrı yerlərdə bəlkə qanunlar da o qədər ona imkan vermir. Bilin ki, bunlar bizə çatır. Amma siz də anlayın ki, mən müstəqilliyin yeddi ilinin beş ilində bütün bu mərhələləri keçib gəlməyə məcbur oldum. Bunların hamısını birdən etmək mümkün deyildir. Ancaq biz bunları edirik və edəcəyik. Yəni xarici sərmayənin, o cümlədən Türkiyədən yatırımların, iş adamlarının gəlib Azərbaycanda iş görməsi üçün biz bundan

sonra daha da uyğun, əlverişli şərait yaradacağıq.

Mən hesab edirəm ki, bugünkü görüşümüz Türkiyə-Azərbaycan dostluğunun, əməkdaşlığının inkişaf etməsi üçün yeni bir addımdır. Ona görə bu görüşə, mənə göstərdiyiniz bu qayğıya, diqqətə, hörmət və ehtirama görə sizə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, mən bundan sonra da bu dostluğa, bu qardaşlığa sadiq olacağam."

Görüşün sonunda Türkiyə İslam Kültür Araşdırmalar Mərkəzinin və İslam Konfransı Təşkilatının mədəniyyət işləri üzrə Baş direktoru, professor Əkmələddin İhsanoğlu təmsil etdiyi təşkilatın xətti ilə dekabr ayında Bakıda keçiriləcək beynəlxalq konfransın plakatını və xatirə hədiyyəsini, professor Məmməd Saray özünün yazdığı, Atatürkün Azərbaycan haqqında düşüncələrindən və gördüyü işlərdən bəhs edən "İlk tarix Azərbaycandır" kitabını və dövlət bayrağını, Türkiyənin tanınmış "Kantekst" şirkətinin Prezidenti Səlahəddin Şahin isə üzərində şir şəkli olan rəmzi xatirə hədiyyəsini dövlətimizin başçısına təqdim etmişlər.

Oktyabrın 31-də Azərbaycan Prezidenti Heydər Əliyev İstanbulun "Hilton" otelində onun üçün ayrılmış iqamətgahda Türkiyənin Baş naziri Məsud Yılmazla görüş keçirmişdir.

Oktyabrın 31-də İstanbulda dövlət və hökumət başçıları üçün yaradılmış məşhur "Beyti gülər" restoranının şərəf salonunda Türkiyənin Baş Naziri Məsud Yılmazın adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Respublikamızın rəhbəri Heydər Əliyev burada dünya xalqlarının milli mədəniyyətini nümayiş etdirən nadir eksponatlardan ibarət muzeyi ziyarət etmişdir. Muzeydə saxlanılan eksponatlar arasında diqqəti daha çox cəlb edən eksponat - üzərində Azərbaycanın dünya şöhrətli memarı Əcəmi Naxçıvaninin portreti olan vaza idi.

Oktyabrın 31-də Respublikamızın rəhbəri Heydər Əliyev SNN televiziya kanalının müxbiri Ahu Özyurda müsahibə vermişdir.

Oktyabrın 31-də Azərbaycan Prezidenti Heydər Əliyev İstanbulun Atatürk adına hava limanında səfərin yekunları barədə jurnalistlər qarşısında bəyanat vermişdir. Bəyanatda deyilir: "Mənim bu səfərim çox əhəmiyyətli və çox gözəl olubdur. Birinci, ona görə ki, Türkiyə xalqı ilə, Türkiyənin vətəndaşları ilə, Türkiyənin dövləti, hökuməti ilə bərabər və Türkiyəyə gəlmiş başqa ölkələrin nümayəndə heyətləri ilə bərabər Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü bayram etdik. Mən bütün bayram mərasimlərinin hamısında iştirak etdim. Hamısından böyük məmnunluq duyuram və fəxr edirəm ki, Azərbaycanın Prezidenti, dövlət başçısı kimi, mən bu bayramda Türkiyədə Azərbaycan xalqını təmsil etmək imkanına malik oldum və Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının

Türkiyə xalqına, vətəndaşlarına xoş arzularını bildirdim.

Burada çox görüşlərimiz, danışıqlarımız olmuşdur. Mən Türkiyəyə gələn gün axşam Türkiyənin Prezidenti, əziz dostum Süleyman Dəmirəllə görüşdüm və bayram təbrikləri ilə yanaşı, bir neçə məsələləri müzakirə etdik. Sonra da bir çox başqa ölkələrin Cümhurbaşqanları, Prezidentləri, hökumət və Parlament başçıları ilə görüşdüm. Bunlar hamısı müstəqil Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki biz Azərbaycanın əlaqələrini genişləndirmək əzmindəyik və bunları çox yararlı hesab edirəm.

Düşünürəm ki, burada olduğum günlərdə hamımızın birlikdə gördüyümüz işlərdən ən önəmlisi Cümhuriyyətin qurulmasının 75-ci ildönümü günündə Ankarada Bakı-Ceyhan boru xətti haqqında Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Cümhurbaşqanlarının, Prezidentlərinin və ABŞ-ı təmsil edən Energetika nazirinin imzaladıqları bəyannamə oldu. Bu, bizim, Azərbaycanın Xəzər dənizində olan sektorunda hasil olacaq neftin dünya bazarlarına çıxarılması üçün əvvəldən əsasını qoyduğumuz, ancaq bunun reallaşdırılması üçün dörd il müddətində çalışdığımız Bakı-Ceyhan boru xəttinin artıq siyasi nöqteyi-nəzərdən dövlətlərin, dövlət başçılarının iradəsini ifadə edərək bəyannamə qəbul edilməsidir. Bu, böyük bir tarixi hadisədir. Güman edirəm ki, biz bunun la bu layihəni tam reallaşdırdıq.

Doğrudur, indi mətbuatda çox danışıqlar gedir. Bu məlumdur, mən bəyannaməni imzalayan zaman da demişdim ki, neft hasilatı ilə məşğul olan şirkətlərin yaratdığı konsorsium indi Bakı-Ceyhan xəttinin çəkilişinə başlanmasına o qədər də razı deyildir. Çünki bunu iqtisadi nöqteyinəzərdən səmərəsiz hesab edir, yəni lazımi səviyyədə səmərəli hesab etmir. Ancaq bunlara baxmayaraq mən hesab edirəm ki, biz tarixi bir iş görmüşük. Bunun iqtisadi cəhətini də konsorsium ilə araşdırırıq və bundan sonra da araşdıracağıq.

Türkiyənin və Azərbaycanın neft sahəsində olan təşkilatları - Azərbaycan Dövlət Neft Şirkəti və Türkiyənin enerji şirkəti indi danışıqlar aparırlar. Bu danışıqlar nəticəsində bəzi məsələlər də müzakirə ediləcəkdir, həll olunacaqdır. Beləliklə, biz böyük bir tarixi işin əsasını qoymuşuq.

Bütün bunların sonu olaraq mən dünən də və bu gün də İstanbuldayam. Burada, İstanbulda olmağımdan da çox məmnunam. Dünən biz gözəl bir tədbirdə olduq. Vaxtilə böyük Atatürkün yaratdığı və ona məxsus olan gəmidə səyahət etdik. Çox gözəl bir bayram konserti verildi. O, Türkiyə Cümhuriyyətinin bugünkü həyatını, reallığını, bugünkü varlığını dünyaya bir daha nümayiş etdirdi. Mən də bu mərasimdə iştirak edirdim və bundan çox məmnunam.

Dünən də, bu gün də apardığımız danışıqların son mərhələsi olaraq Türkiyənin Baş naziri, hörmətli dostum Məsud Yılmazla çox əhəmiyyətli danışıqlar aparmışıq. Həm Türkiyə-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında, həm Bakı-Ceyhan boru xəttinin praktiki olaraq həyata keçirilməsinin yolları haqqında, həm də Azərbaycanın ən ağır problemi olan Ermənistanın təcavüzünün qarşısını almaq, Dağlıq Qarabağ məsələsini həll etmək, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsi və bir milyondan artıq Azərbaycan vətəndaşının öz yerinə-yurduna qayıtması, Azərbaycanın ərazi bütövlüyünün, torpaq bütövlüyünün bərpa olunması - bütün bu məsələləri biz birinci gün həm Cümhurbaşqanı Süleyman Dəmirəllə, həm də bu gün və dünən Baş nazir Məsud Yılmazla ətraflı müzakirə etdik. Mən bunları Azərbaycan üçün çox əhəmiyyətli, çox səmərəli hesab edirəm. Ona görə də hesab edirəm ki, mənim bu ziyarətim həm bayram şənlikləri ilə bağlı olubdur, həm də çox gərgin iş olubdur. Yəni iş də görmüşük, bayram da etmişik və şənliklərdə də iştirak etmişik. Bunlar hamısı şəxsən məni sevindirir. Mən bu gün çox böyük sevinc, məmnuniyyət hissi ilə Türkiyəni tərk edirəm və Bakıya, Azərbaycana gedirəm.

Türkiyə Cümhuriyyətinə bundan sonrakı illərdə daha da böyük uğurlar arzulayıram. Türkiyənin vətəndaşlarına, türk xalqına gələcəkdə də Mustafa Kamal Atatürkün yoluna sadiq olmağı arzulayıram. İnanıram ki, Türkiyə bu qədər böyük inkişafın gələcəyini də təmin edəcəkdir və biz gələcəkdə Türkiyənin yeni-yeni böyük qələbələrinin, nailiyyətlərinin şahidi olacağıq.

Biz Türkiyə - Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət veririk. Ona görə də Türkiyədə olan hər bir yeni nailiyyəti biz böyük iftixar hissi ilə qəbul edirik və Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsi üçün əlimizdən gələni edirik."

Prezident Heydər Əliyev Binə hava limanında onu qarşılayan jurnalistlərə səfərin nəticələri barədə müsahibə verərək bildirmişdir ki, mənim bu ziyarətim çox əhəmiyyətli bir səfər idi. Çünki Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etmək Türkiyə üçün əziz olduğu kimi, Azərbaycan Respublikası, xalqı üçün də əzizdir. Buna görə də mən, birincisi, həmin yubiley mərasimlərində iştirak etməkdən çox məmnunam. Türkiyədə Azərbaycana əvvəllər olduğu kimi, indi də daim çox böyük diqqət, qayğı, hörmət göstərilir. Mən bunların hamısını həm hökumət, dövlət, həm də xalq tərəfindən bir daha hiss etdim. Türkiyə xalqının, vətəndaşlarının Azərbaycana böyük diqqəti, marağı və böyük məhəbbəti vardır. Mən bunu əvvəllər də hiss etmişdim. Bu səfər zamanı çox böyük kütləvi mərasimlər keçirildi, orada çoxlu insan iştirak edirdi. Mən bunları gördüm, hiss etdim.

Ümumiyyətlə, bu bayramlar çox gözəl keçdi, Türkiyə Cümhuriyyətinin 75 illik həyat yolunu yaxşı göstərdi. Dünyanın 75-dən çox ölkəsindən oraya nümayəndələr, bir çox ölkələrdən dövlət, hökumət başçıları gəlmişdilər. Bunlar hamısı Türkiyənin 75 ildə böyük inkişafını dünyaya bir daha nümayiş etdirdi.

Biz Türkiyə ilə dost, qardaş ölkə olaraq bu bayramların belə keçməsinə çox sevinirik. Şəxsən mən çox məmnunam ki, bu tədbirlərin hamısında iştirak etdim.

Bilirsiniz ki, bütün bunlarla yanaşı, orada Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Prezidentləri Bakı-Ceyhan boru xətti haqqında birgə bəyannamə imzaladılar. Bu bəyannaməni Amerika Birləşmiş Ştatlarının Enerji naziri Riçardson da imzaladı. Bu da çox tarixi bir hadisədir. Çünki biz 1994-cü ilin sentyabr ayında birinci müqaviləni imzalayandan sonra, həmin müqaviləni imzalayarkən də, hasil ediləcək neftin ən əsas ixrac borusu olaraq Bakı-Ceyhan marşrutunu nəzərdə tutmuşduq. Ancaq bu müddətdə onun əleyhinə çıxanlar, mane olanlar və səmərəsiz olduğunu daim bildirənlər var idi. Çox vaxt belə bir fikir yaradılırdı ki, Bakı-Ceyhan xətti real bir şey deyil. Ona görə də birgə bəyannamənin imzalanması bütün bunların hamısına son qoydu və bəyan etdi ki, Bakı-Ceyhan boru xətti yaranacaqdır.

1999

Əlaqələrimiz tarixində 1999-cu il də əlamətdar hadisələrlə dolu idi. Türkiyənin qardaş əli, qardaş köməyi hər yerdə hiss olunurdu. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 1999-cu ilin 17-31 yanvar tarixlərində Ankara Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunması bu qardaş dəstəyinin bariz nümunəsidir.

Ölkələrimiz arasındakı əlaqələr durmadan inkişafdadır. Azərbaycan-Türkiyə isti münasibətlərinin bariz nümunəsi kimi, Türkiyədə qurulmuş 57-ci hökuməti təşkil edən siyasi partiya rəhbərlərinin 1999-cu il 28 mayda imzaladıqları koalisiya hökuməti protokolunda əks olunmuş Ermənistanla əlaqələr bölməsini qeyd etmək olar. Protokolun bu bölməsində deyilir:

"Ermənistanla aramızda əlaqələrin yaradıla bilməsi üçün əsas şərt bu ölkənin Azərbaycan torpaqlarındakı işğalçı fəaliyyətinə son qoyması, Türkiyəyə qarşı beynəlxalq aləmdə apardığı düşmənçilik kompaniyasından imtina etməsidir."

Baş nazir B.Ecevit tərəfindən 4 iyun 1999-cu il tarixdə Türkiyə Böyük Millət Məclisinə təsdiq üçün təqdim olunan 57-ci hökumətin proqramında Ermənistanla əlaqələr paraqrafında isə qeyd olunmuşdur:

"Ermənistanın işğal etdiyi torpaqlardan çəkilərək Azərbaycan ilə

sülh yaratması üçün göstərilən səylər və cəhdlər bizim tərəfimizdən dəstəklənməkdədir. Sülh Qafqaz bölgəsi ölkələri arasında hər cür əməkdaşlığa yol açan bir hərəkat olacaqdır."

1999-cu il iyulun 2-dən 4-nə qədər Türkiyə Cümhuriyyətinin Pamukkale-Dənizli şəhərində Prezident S.Dəmirəlin himayəsi ilə VII "Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayı keçirilmişdir. Qurultayda milli siyasət məsələləri üzrə dövlət müşaviri H.Orucovun başçılıq etdiyi 25 nəfərdən ibarət nümayəndə heyəti iştirak etmiş, qəbul olunmuş yekun sənədində Dağlıq Qarabağ probleminin həllində bütün türk dünyasının Azərbaycanın haqlı mübarizəsini dəstəklədiyi ifadə edilmişdir.

Azərbaycan-Türkiyə münasibətlərinin ən bariz nümunəsi, türk dünyası qarşısında gördükləri xidmətlərə görə, 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin qardaş Türkiyə xalqı və dövləti tərəfindən Türkiyənin ən ali mükafatı olan "Atatürk" sülh mükafatına, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab S.Dəmirəlin isə Azərbaycan dövləti və xalqı tərəfindən ölkəmizin ən ali mükafatı olan "İstiqlal" ordeninə layiq görülmələri olmuşdur.

1999-cu ilin avqust ayının 17-də, gecə saat 3 radələrində qardaş Türkiyə Cümhuriyyətinin ərazilərində baş vermiş dəhşətli zəlzələ xəbəri Azərbaycan xalqını dərindən sarsıtmışdır.

Ertəsi gün, dərhal, Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev Azərbaycan dövləti və xalqı adından qardaş Türkiyə xalqına başsağlığı verərək, Azərbaycan xalqının hər cür yardım göstərməyə hazır olduğunu bəyan etmişdir. Həmin ayın 18-də Türkiyə xalqına yardım olaraq 1000 ton avtomobil benzini, 1.000 ton dizel yanacağı, xeyli miqdarda dərman və tibbi ləvazimatlar yola salınmış, Azərbaycan Respublikası Baş nazirinin müavini A.Şərifovun başçılığı ilə həkimlər, yanğınsöndürənlər, xilasetmə dəstələrindən ibarət bir qrup təcili yardım məqsədi ilə Türkiyəyə ezam edilmiş, Azərbaycan xalqı tərəfindən zəlzələdən zərər çəkmiş qardaş Türkiyə vətəndaşları üçün müxtəlif yardım kompaniyalarına başlanılmışdır. Xilasetmə və digər yardım işlərində azərbaycanlı mütəxəssislər böyük səriştə, peşəkarlıq və şücaət göstərmişlər.

"Əsrin müqaviləsi"-nin imzalanmasının 5-ci ildönümü münasibəti ilə 20 sentyabr 1999-cu il tarixdə Bakıda təşkil edilmiş mərasimlərdə iştirak edən Türkiyə Cümhuriyyətinin dövlət naziri A.Çay Prezident S.Dəmirəlin Prezident Heydər Əliyevə ünvanladığı təbrik məktubunu oxumuş, bağlanmış müqavilələrin bütün iştirakçı dövlətlər üçün kəsb etdiyi əhəmiyyəti, keçən 5 il ərzində görülən mühüm işlər və Bakı-Ceyhan

neft kəməri layihəsinin həyata keçirilməsi istiqamətində Azərbaycan ilə Türkiyə rəhbərliyinin səyləri barədə məruzə etmişdir.

1999-cu ilin 30 sentyabrında Türkiyə Cümhuriyyətinin dövlət naziri Ş.Düşenmez, yeni inşa edilmiş Bakı hava limanının açılışında iştirak etmişdir.

1999-cu ilin sentyabr ayında Türkiyənin "Mərmərə Qrupu" adlanan strateji və sosial araşdırmalar fondu Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevi türk dünyasının problemlərinin həlli yolunda göstərdiyi səylərinə görə "İlin ən dözümlü şəxsi" seçmişdir.

1999-cu ilin oktyabr ayının 1-də Bakıda Binə beynəlxalq hava limanının yeni kompleksinin təntənəli açılış mərasimi olmuş, ölkəmizin başçısı mərasimdə iştirak etmiş və çıxış etmişdir. Türkiyənin "ENKA" və "Bürc" şirkətləri bu kompleksin tikilməsində iştirak etmişlər. Açılışda Türkiyənin dövlət naziri Ş.Üşenmez iştirak etmişdir.

1999-cu il oktyabr ayının 18-də Türkiyə Cümhuriyyətinin Prezidenti, cənab S.Dəmirəlin başçılıq etdiyi və Baş Qərargah Rəisi H.Kıvrıkoğlunun iştirak etdiyi nümayəndə heyəti işgüzar səfərlə Bakıda olmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşmüşdür. Keçirilən görüşlər zamanı dövlətlər arasında hərbi əməkdaşlıq məsələləri, Bakı-Ceyhan neft-boru kəməri və Dağlıq Qarabağ problemlərinin həlli ətrafında fikir mübadiləri aparılmışdır.

1999-cu il 31 oktyabr- 2 noyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə səfərə gəlmişdir. O, İstanbul şəhərində zəlzələdən zərər çəkmiş bölgə sakinlərinə Azərbaycandan gətirilmiş humanitar yardımı təqdim etmişdir.

Türkiyədəki zəlzələdən zərər çəkmiş bölgələri ziyarət edən Azərbaycan dövlətinin başçısı 100.000 ABŞ dolları həcmində yardımı Türkiyə hökumətinə vermişdir.

Səfər əsnasında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə "Atatürk adına beynəlxalq sülh mükafatı" təqdim olunmuşdur. Çankayada keçirilmiş təntənəli mərasimdə Türkiyə hökumətinin üzvləri, Ankara ictimaiyyətinin, diplomatik korpusun və KİV nümayəndələri iştirak etmişlər.

1999-cu il noyabrın 17-də İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) V Zirvə görüşü keçirilmiş, orada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmiş və nitq söyləmişdir.

Xatırladaq ki, QİƏT 1992-ci ilin iyununda yaradılmışdır. O zaman 11 ölkənin - Azərbaycan, Albaniya, Bolqarıstan, Ermənistan, Yunanıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukraynanın Dövlət və Hökumət Başçıları QİƏT-nin yaradılması haqqında İstanbulda bəyannamə imzalamışlar. Həmin sənəd üzv

ölkələr arasında hərtərəfli əməkdaşlığı təşviq etməyi nəzərdə tuturdu.

Ötən müddət ərzində QİƏT-in nüfuzu xeyli artmışdır, bir çox dövlətlər onun işində müşahidəçi kimi iştirak edirlər. 1998-ci ilin iyununda Yaltada keçirilmiş IV Zirvə görüşündə QİƏT-in nizamnaməsi imzalanmışdır. Nizamnamədə deyilir ki, QİƏT dostluq və mehriban qonşuluq ruhunda fəaliyyət göstərəcək, beynəlxalq hüququn prinsiplərini və normalarını əsas tutmaqla ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da inkişafına və çoxşaxəli xarakter almasına kömək edəcək, iqtisadi əməkdaşlığı elə inkişaf etdirəcəkdir ki, bu, iştirakçı dövlətlərin beynəlxalq öhdəliklərinə zidd olmasın.

Nizamnaməyə əsasən QİƏT ona üzv olmaq istəyən hər bir dövlət üçün açıqdır. QİƏT-in daimi fəaliyyət göstərən və qərarlar qəbul edən orqanı Şuradır.

QİƏT üzvü olan ölkələrin Dövlət və Hökumət Başçıları İstanbul bəyannaməsində təşkilatın 1998-ci ildə qəbul olunmuş Yalta bəyannaməsinin müddəalarına sadiq qaldıqlarını təsdiqləmiş və çoxtərəfli iqtisadi əməkdaşlıq vasitəsilə QİƏT regionunda sülh və təhlükəsizlik işinə töhfə vermək əzmində olduqlarını bir daha bəyan etmişlər. Sənəddə deyilir ki, QİƏT ilə ATƏT arasında əməkdaşlığın genişləndirilməsi bütün ATƏT regionunda sabit sülhə və tərəqqiyə xidmət göstərəcəkdir.

Bəyannamədə bildirilir ki, QİƏT Cənub-Şərqi Avropa üçün sabitliyə dair paktın həyata keçirilməsində iştirak etməyə dəvət olunmasını, BMT-nin Baş Məclisində müşahidəçi statusu almasını alqışlayır və bunlar təşkilatın beynəlxalq səviyyədə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsinə imkan yaradacaqdır. Sənəddə göstərilir ki, QİƏT Avropa Birliyi ilə başlanmış dialoqun davam etdirilməsinə tərəfdardır, QİƏT regionuna dair hərtərəfli strategiyanın işlənib hazırlanmasına, konkret regional layihələrin tərtibinə və həyata keçirilməsinə kömək göstərmək xahişi ilə Avropa Birliyinə müraciət edir.

Sənəddə daha sonra deyilir ki, yeni mərhələdə konkret birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi QİƏT-in fəaliyyətinin əsasını təşkil etməlidir. QİƏT-lə yanaşı eyni zamanda ATƏT-in də Zirvə toplantısı İstanbulda keçirilirdi. Bilindiyi kimi, əsası 1975-ci ilin yayında Helsinkidə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi kimi qoyulmuş ATƏT, ötən təxminən 25 il ərzində qitəmizin ən mötəbər beynəlxalq təşkilatına çevrilmişdir. O, hazırda bütün bəşəriyyət üçün ən önəmli məsələlər olan Avropada təhlükəsizlik və əməkdaşlıq problemlərini həll etmək kimi şərəfli bir missiyanı öz üzərinə götürmüşdür və bu yolda az iş görməmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dediyi kimi, "ATƏT yarandıqdan indiyə qədər həqiqətən dünyada həm sülhün, həm təhlükəsizliyin,

həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün çox böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir".

Yaradıldığı vaxt Avropanın 33 dövlətinin, habelə ABŞ və Kanadanın iştirak etdikləri ATƏT-in nüfuzu getdikcə güclənərək hazırda onun üzvlərinin sayı 54-ə çatmışdır. 90-cı illərin əvvəlində SSRİ-nin dağılması nəticəsində yaranmış yeni müstəqil dövlətlərin bir çoxu, o cümlədən Azərbaycan Respublikası da (1992) ATƏT-ə daxil olmuşdur. Azərbaycan müstəqil dövlət kimi 1994-cü ildən bu mötəbər təşkilatda fəal iştirak edir. Respublikamızın Prezidenti Heydər Əliyevin başçılığı ilə ölkəmizin nümayəndə heyətləri 1994-cü və 1996-cı illərin dekabrında ATƏT-in Budapeşt və Lissabon Zirvə görüşlərində dövlətimizi təmsil etmişdir. Azərbaycan Prezidentinin, ölkəmizin təmsilçilərinin ATƏT-ə daxil olan digər ölkələrin Dövlət və Hökumət Başçıları, nümayəndə heyətləri ilə birlikdə, bərabər hüquqda bu toplantılarda iştirak etməsi xalqımız üçün böyük iftixar mənbəyidir.

Bu qurumun növbəti toplantısı İstanbulda çağırılmışdı.

Azərbaycan Prezidenti Dağlıq Qarabağ probleminə dair geniş şərhlə çıxış etmiş, ATƏT-in Qafqaz və Orta Asiyadakı gələcək fəaliyyətinə və Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktının yaradılmasına dair əhəmiyyətli təkliflər irəli sürmüşdür. Sammitin ən əlamətdar hadisəsi isə XX əsrin çox mühüm layihəsi sayılan və mübahisəli müzakirələrə səbəb olan Bakı-Ceyhan neft kəmərinin çəkilişinə dair sazişin imzalanması olmuşdur. Həmin sazişi Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti S.Dəmirəl, Gürcüstan Respublikasının Prezidenti E.Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti N.Nazarbayev və ABŞ-ın Prezidenti B.Klinton imzalamışlar. Region və bir sıra dünya dövlətləri üçün böyük iqtisadi və geostrateji əhəmiyyətə malik olan bu müqavilənin imzalanmasında Prezident Heydər Əliyevin səyləri və rolu sammit iştirakçıları tərəfindən xüsusi olaraq qeyd edilmişdir.

1999-cu il noyabrın 18-də İstanbulda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söyləmiş, orada beynəlxalq birliyin diqqətini Azərbaycanın düşdüyü dözülməz vəziyyətə bir daha cəlb etmiş, altı ildən çox bir müddətdə suveren Azərbaycanın ərazisinin beşdə bir hissəsinin erməni silahlı qüvvələrinin işğalı altında olduğunu, həyata keçirilmiş etnik təmizləmələr nəticəsində bir milyon azərbaycanlının öz doğma yurd-yuvalarından qovulduğunu, Minsk qrupunun həmsədrlərinin Lissabon Zirvə görüşündə qəbul edilmiş prinsiplərin həyata keçirilməsi üçün lazımi fəallıq və ardıcıllıq göstərmədiklərini bildirmiş, regionun problemlərinin həlli üçün Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktının təsis olunmasını təklif etmişdir. Göstərmişdir ki, belə bir pakt dövlətlərarası münasibətləri və münaqişələri aradan qaldırmağın prinsipial əsaslarını özündə təsbit etməlidir. Onun əsasında regiondan xarici hərbi qüvvələr çıxarılmalıdır. Regionu bölən ayırıcı xətlər aradan qaldırılmalıdır. Təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmalıdır. İkili standartlara yol verilməməlidir. Belə bir pakt regionda sülh, sabitlik və təhlükəsizlik yaranmasına, Cənubi Qafqazın suveren, müstəqil, demokratik dövlətlərinin iqtisadi tərəqqisinə və əməkdaşlığına gətirib çıxarardı. XXI əsrin astanasında beynəlxalq birliyin Cənubi Qafqazda uğurlu fəaliyyəti azad, bölünməz və təhlükəsiz Avropanın yaradılmasına mühüm addım olardı.

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul Zirvə toplantısı zamanı Qazaxıstanın, Moldovanın, Ukraynanın, Ermənistanın, Türkiyənin, Fransanın, ABŞ-ın Prezidentləri, Almaniyanın Kansleri, İsrailin Baş naziri, Avropa Komissiyasının Sədri Roman Prodi, ATƏT-in Parlament Assambleyasının sədri Helle Deni ilə ikitərəfli görüşlər keçirmişdir.

Noyabrın 18-də İstanbuldakı "Çırağan Sarayı"nda Azərbaycan Prezidenti Heydər Əliyevin, Ermənistan Prezidenti Robert Köçəryanın, ATƏT-in icraçı sədri, Norveçin Xarici İşlər naziri Knut Vollebekin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin Xarici İşlər nazirlərinin - ABŞ-ın Dövlət Katibi Madlen Olbraytın, Fransanın Xarici İşlər naziri Huber Vedrinin və Rusiyanın Xarici İşlər naziri İqor İvanovun görüşü keçirilmişdir.

Tarixə "İstanbul Zirvə görüşü" adı ilə düşəcək bu sammitin Türkiyədə keçirilməsi qardaş ölkənin bütün dünyanın siyasi həyatındakı yüksək nüfuzunun daha bir təsdiqi olmaqla yanaşı, Türkiyə Cümhuriyyəti, ümumən türkdilli xalqlar üçün çox böyük, əlamətdar hadisə idi.

54 ölkənin başçılarının təmsil olunduğu bu toplantıda dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının rəhbərləri də iştirak edirdilər.

Zirvə görüşünün başlıca sənədi Avropa təhlükəsizliyi xartiyası idi. Bu sənədin hazırlanmasına hələ 1997-ci ilin dekabrında - ATƏT-in üzvü olan dövlətlərin Xarici İşlər nazirlərinin Kopenhagen görüşündə başlanmışdı. Xartiya XXI əsrdə ümumavropa təhlükəsizliyi sisteminin konseptual əsaslarını əhatə edir və üzv ölkələrin azad, demokratik və daha çox inteqrasiya olunmuş Avropa yaratmaq əzmini təsdiqləyir. Xatırladaq ki, bu, Helsinki yekun aktından (1975) və Paris xartiyasından (1990) sonra ATƏT-in 25 illik tarixində üçüncü ən mühüm sənəddir. Xartiya altı fəsildən və bir operativ sənəddən ibarətdir. İştirakçı dövlətlər ATƏT-in normaları və prinsipləri-

nin kobud şəkildə pozulmasının davam etməsini və bunun nəticəsində istər öz dövlətləri daxilində, istərsə də dövlətlər arasında münaqişələrin yaranmasını, habelə terrorizmi, zorakı ekstremizmi, mütəşəkkil cinayətkarlığı və narkotiklərin qanunsuz dövriyyəsini, ekoloji problemləri və ekoloji vəziyyətin pisləşməsini başlıca təhlükə kimi xüsusi vurğulamışlar.

Xartiyada BMT-nin nizamnaməsində, Helsinki yekun aktında, Paris xartiyasında və ATƏT-in qəbul etdiyi bütün başqa sənədlərdə öz əksini tapmış öhdəliklərə iştirakçı dövlətlərin tam sadiq olması ATƏT-in fəaliyyətinin əsası kimi bir daha təsdiqlənmişdir. İştirakçı dövlətlərdən hər hansı birinin bu öhdəlikləri yerinə yetirməməsi bütün digər üzv dövlətlərin dərhal və qanuni narahatlığına səbəb olacaqdır. Sənəd hər bir dövlətin öz təhlükəsizliyini təmin etməsini onun ayrılmaz hüququ kimi təsbit etmişdir. ATƏT-də qərarlar yenə də konsensus əsasında qəbul olunacaqdır. Xartiya sülhün və təhlükəsizliyin qorunub saxlanılmasını BMT Təhlükəsizlik Şurasının başlıca məsuliyyəti kimi tanımış və dövlətlərin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə qarşı zor işlətməmək və ya zor işlətməklə hədələməmək məsələsinə dair öhdəliklər də daxil olmaqla, BMT nizamnaməsinə müvafiq surətdə, dövlətlərin hüquq və öhdəliklərini bir daha təsdiqləmişdir.

Avropa təhlükəsizliyi üçün mövcud olan təhlükələrə və risklərə münasibət bildirilməsi yollarına gəldikdə, xartiyada ATƏT-in başqa təşkilatlarla bərabərlik əsasında və tərəfdaşlıq ruhunda, iyerarxiya yaratmağa cəhd göstərilmədən və ya onların arasında daimi əməkdaşlığı məsələsi geniş ifadəsini tapmışdır. Burada dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsində onların həmrəyliyinə və tərəfdaşlığına böyük əhəmiyyət verilir. Xartiyada insan hüquqlarına və başlıca azadlıqlara, demokratiyaya, qanunun aliliyinə hörmət edilməsinə böyük diqqət yetirilmişdir. Eyni zamanda sənəddə deyilir ki, milli azlıqlara mənsub şəxslərin hüquqları da daxil olmaqla, insan hüquqlarına tam hörmət edilməsi ölkələrin ərazi bütövlüyünü və suverenliyini poza bilməz, onu yalnız möhkəmləndirməlidir. Xartiya etnik təmizləmə və ya kütləvi şəkildə zorla qovma siyasətini rədd edir.

İstanbul xartiyası təhlükəsizliyin hərbi-siyasi cəhətini ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının başlıca ünsürü kimi təsbit etmişdir. Sənəddə korrupsiyaya qarşı mübarizə məsələsinə də xüsusi yer ayrılıb və korrupsiya ATƏT-in ümumi dəyərləri üçün böyük təhlükə, sabitliyi pozan amil kimi qiymətləndirilir.

Regionda sülhün və sabitliyin qorunmasında ATƏT-in həlledici rolunun gücləndirilməsinə iştirakçı dövlətlərin sadiq qalmasına da böyük diqqət yetirilmişdir. Xartiyada belə

bir ideya təsbit olunmuşdur ki, konsensus təqdirində, iştirakçı dövlətlər ATƏT-i bu məqsəd üçün ən səmərəli və münasib təşkilat hesab etdikdə, ATƏT sülhün qorunması işində, liderlik rolu da daxil olmaqla, öz rolu barədə qərar qəbul edə bilər.

Sənədin sonunda deyilir ki, xartiya təhlükəsizlik sahəsində yeganə Panavropa təşkilatı, öz regionunda sülhün və sabitliyin qorunması üçün məsuliyyət daşıyan təşkilat kimi ATƏT-in rolunu möhkəmləndirəcəkdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul xartiyasını çox əhəmiyyətli bir sənəd kimi qiymətləndirmiş, həmin sənəddə dövlətlərin ərazi bütövlüyünün və müstəqilliyinin qorunmasının çox ciddi müddəalarla öz əksini tapmasını xüsusi vurğulamışdır.

Sammitin digər mühüm sənədi İstanbul bəyannaməsidir. 48 bənddən ibarət olan bu sənəddə ATƏT-in elan etdiyi, o cümlədən İstanbul xartiyasında öz əksini tapmış başlıca prinsiplər bir daha nəzərə çatdırılır, eyni zamanda Helsinki yekun aktının qəbul olunmasından, Lissabon sammitindən sonra ötən dövr ərzində təşkilatın fəaliyyətinin əsas istiqamətləri açıqlanır.

Bəyannamədə ATƏT-in daimi şurasına tapşırılır ki, İstanbul xartiyasında razılaşdırılmış yeni addımların dərhal reallaşdırılması üçün lazımi qərarlar qəbul etsin. Sənəddə Avropa regionunda hələ də qalmaqda olan münaqişə ocaqlarından ətraflı bəhs edilir və bunlara son qoymaq üçün iştirakçı dövlətlərin bundan sonra da səy göstərmək əzmində olduqları vurğulanır.

Qafqazdakı digər münaqişələrlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi də bəyannamədə ayrıca bənd kimi öz əksini tapmışdır. Orada deyilir ki, ATƏT Azərbaycan və Ermənistan Prezidentləri arasında dialoqu bəyənir, onların müntəzəm əlaqələri problemin hərtərəfli həlli yollarını tapmaq prosesini sürətləndirmək üçün imkanlar yaradır. ATƏT bu dialoqu qəti şəkildə dəstəkləyir və onun davam etdirilməsini istəyir, Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanmasına ümid bəsləyir. Daha sonra deyilir ki, ATƏT və onun Minsk qrupu bu problemin həlli yollarını tapmaq üçün ən münasib formadır. Eyni zamanda bildirilir ki, gələcəkdə Bakıda ATƏT-in ofisinin açılması bu təşkilatın Azərbaycanla əməkdaşlığının möhkəmləndirilməsinə imkan yaradacaqdır.

Zirvə görüşü zamanı imzalanmış digər sənəd Avropada adi silahlı qüvvələr haqqında müqavilədir. Həmin müqavilə noyabrın 19-da İstanbulun "Lütfi Kırdar mərkəzi"ndə imzalandı. Vaxtilə Parisdə həmin müqaviləni 22 dövlət imzalamışdı, İstanbulda isə daha 30 ölkə, o cümlədən Azərbaycan Respublikası bu müqaviləyə qoşuldu.

Dövlətimizin başçısı Heydər Əli-

yevin dediyi kimi, 1992-ci ildə Azərbaycanda hakimiyyət uğrunda gedən çəkişmələr, ölkəmizin milli mənafeyinin qorunmaması ona gətirib çıxarmışdı ki, respublikamızın adi silahlar kvotasının müəyyənləşdirilməsi kimi dövlət əhəmiyyətli məsələyə fikir verən olmamış və nəticədə Azərbaycana böyük zərbə dəymişdir. Azərbaycanın indiki rəhbərliyi son illərdə vəziyyətin dəyişdirilməsi üçün çox səylər göstərsə də, hazırda heç bir dövlətin kvotası artırılmadığına görə respublikamız həmin müqaviləyə qoşulmuşdur. Çünki bu müqavilə imzalanmasa, regionumuz üçün daha böyük təhlükə yarana bilər.

ATƏT-in İstanbul Zirvə görüşü artıq tarixə qovuşmuşdur və həmin toplantıda görülmüş işlər, imzalanmış sənədlər, şübhəsiz ki, Avropada, ümumən yer üzündə sülhün və sabitliyin qorunmasına çox böyük töhfə olacaqdır. Dövlətimizin başçısı Heydər Əliyev İstanbul Zirvə görüşünü yüksək qiymətləndirərək demişdir ki, bu, ilk növbədə qəbul edilmiş sənədlərin həm məzmunu və həm də əhəmiyyətinə görə ATƏT-in bütün keçmiş sammitlərindən fərqlənir. Çünki bu sənədlər XXI əsrə yönəldilmişdir, Avropa və ATƏT çərçivəsində yaşamaq, yaratmaq, inkişaf etmək konstitusiyası kimi sənədlərdir.

Noyabrın 18-də İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul bəyannaməsi"nin, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Cümhuriyyətinə və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında "Qarşılıqlı anlaşma memorandumu"nun imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev imzalanma mərasimində çıxış edərək sazişin xalqlarımızın tarixində böyük bir hadisə olduğunu bəyan etdi və iştirakçıları təbrik etdi.

ABŞ Prezidenti Bill Klinton Qazaxıstan, Türkmənistan, Azərbaycan və Gürcüstan Prezidentlərinə xüsusi minnətdarlığını ifadə etdi, bu günün onlar üçün xüsusi mənası olduğunu, uzunmüddətli səylərin kulminasiyası və yeni başlanğıcın əvvəli olduğunu göstərdi.

Bildirdi ki, bu, Xəzər ətrafındakı yeni müstəqillik qazanmış ölkələrin istiqlaliyyətini bir daha möhkəmlədərək onlara ayaq üstə möhkəm durmaqda və öz talelərini müəyyən etməkdə yardım göstərəcəkdir. Həm də bu vasitə ilə Mərkəzi Asiya və Qərb arasında ticarət və siyasət körpüsü salınacaqdır.

Bu boru xətlərinin inşası sübut edəcəkdir ki, həmin ölkələr siyasi rəqabətdənsə, iqtisadi və kommersiya əlaqələrindən daha çox qazanc əldə edə bilərlər. Sonra Xəzərin təbii sərvətləri bizim ümumi qlobal enerji təchizatımızı daha təhlükəsiz və daha rəngarəng edəcəkdir. Bütün dünya üçün təminat siyasəti olan bu boru kəmərləri enerji resurslarının bir nöqtədən deyil, müxtəlif boru kəmərləri vasitəsilə daşınmasına yardım göstərəcəkdir.

Nəhayət, müdrik planlaşdırma və müasir texnologiya nəticəsində enerji resurslarının inkişafı ətraf mühitə mənfi təsir etmədən həyata keçiriləcəkdir. Bu isə o deməkdir ki, burada, sahilində olduğumuz, böyük türk milləti üçün həyati məna daşıyan Bosforun gözəl suları həmin boru kəmərləri ilə axıdılacaq neftin ləkələri ilə çirklənməyəcəkdir.

Beləliklə, İstanbul Zirvə görüşü uğurla keçdi, qarşısına qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirdi. Orada qəbul olunmuş İstanbul xartiyası neçə-neçə münaqişə ocağının söndürülməsinə, qarşısının alınmasına, əmin-amanlığa, xalqların rifahına və gələcəyinə xidmət edəcəkdir. Müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin üçüncü dəfə ATƏT-in Zirvə görüşündə iştirakı ölkəmizin imicini daha da artırdı, dünya dövlətləri arasında mövqeyimizi gücləndirdi. Bakı-Ceyhan boru kəməri layihəsinin reallaşması tarixi hadisəyə çevrildi. Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində ölkəmizin İstanbulda qazandığı uğurlar xalqımızın gələcəyə daha nikbin baxmasına böyük inam yaratdı və yaratmaqda davam edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 20-də İstanbuldan Bakıya qayıdarkən təyyarədə jurnalistlərlə görüşmüş, onların suallarına cavab verərkən Zirvə toplantısının nəticəsi kimi İstanbul xartiyasının imzalandığını, Avropada təhlükəsizliyin, sülhün, əmin-amanlığın təmin edilməsi üçün bu xartiyada çox lazımlı maddələr - indiki reallığın, yəni Paris xartiyasından sonra baş vermiş hadisələr və onlara olan münasibətin əks olunduğunu, xartiyanın əsas məğzi olan məsələlərin - ölkələrin ərazi bütövlüyünün, müstəqilliyinin qorunması, təhlükəsizliyinin təmin olunması, sülhün möhkəmləndirilməsi, insan haqlarının qorunması, demokratiyanın inkişaf etdirilməsi və başqa məsələlərin burada öz əksini tapdığını bəyan etmişdir.

Sammitdə siyasi bəyannamə də qəbul olunduğunu, sammitin gedişində müzakirə edilən məsələlərin bu sə-

nəddə öz əksini tapdığını, burada Azərbaycan haqqında yazılmış maddədə (20-ci maddədə) bu günün reallıqlarının əks etdirildiyini və bundan məmnunluq duyduğunu bildirmişdir.

Sammitdə həm də Türkmənistandan başlanan qaz kəmərinin çəkilməsi haqqında sənədin Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən imzalandığını, eyni zamanda gələcəkdə Azərbaycanın nə qədər artıq qazı olsa, onu alacağı və Avropaya çıxaracağı barədə Türkiyənin öz üzərinə öhdəlik götürdüyü ayrıca bir memorandumun da imzalandığını xüsusi olaraq qeyd etmişdir. O göstərmişdir ki, birinci imzalanmış sənəddə deyilir ki, gələcəkdə Azərbaycanın qazı da bu kəmərdən keçəcəkdir. Əlavə memorandumun imzalanması çox böyük hadisədir və biz böyük qələbələrlə geriyə dönürük. Bizim millətimiz, xalqımız, ölkəmiz sevinməlidir ki, belə böyük nailiyyətlər əldə etmişik.

Azərbaycanın rəhbəri vurğulamışdır ki, bütün bu görüşlərdə Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın düşdüyü vəziyyət və bu məsələnin sülh yolu ilə həll edilməsi mövzusu birinci yer tuturdu. Bildirmişdir ki, sammitdə o həm çox sərt, amma eyni zamanda konstruktiv çıxış etmiş, Cənubi Qafqazda sülh və təhlükəsizliyin yaranması üçün paktın hazırlanmasını təklif etmiş və bu paktın hazırlanıb bağlanması üçün səylərini göstərmək üçün həm Amerika Birləşmiş Ştatlarını, həm Avropa Birliyini, həm Türkiyəni, həm Gürcüstanı, həm Ermənistanı, həm ATƏT-in bu işdə marağı olan başqa ölkələri dəvət etmiş, amma şərtlər də qoymuşdur. Şərtlər də ondan ibarətdir ki, Cənubi Qafqazdan bütün silahlar çıxarılmalıdır, Cənubi Qafqaz silahsızlaşdırılmalıdır, ayırıcı xətlər olmamalıdır, təhlükəsizlik təmin edilməli, terrorizm, etnik təmizləmə, separatizm aradan qaldırılmalı, ikili standartlara, baş vermiş faktlar əsasında hərəkətlərə yol verilməməlidir.

Ölkəmizin başçısı sammitdə Dağlıq Qarabağ haqqında da öz kəskin mövqeyini bir daha bildirmiş, Minsk qrupunun işini tənqid etmişdir.

Heydər Əliyev göstərmişdir ki, sammitdə üç sənəd qəbul olunmuşdur. Birincisi - İstanbul xartiyasıdır. İkincisi - Avropada adi silahlar haqqında sənəddir. Üçüncüsü isə Siyasi bəyannamədir. Bunlardan əlavə sammitdə Türkiyə və bölgə üçün daha böyük əhəmiyyət kəsb edən tarixi bir hadisə baş vermiş - Bakı-Ceyhan neft kəməri haqqında müqavilə imzalanmışdır. Ölkəmizin başçısı bu barədə öz çıxışında bildirmişdir ki, biz "Əsrin müqaviləsi"ni yaratmasaydıq, Bakı-Ceyhan olmayacaqdı. Amma Bakı-Ceyhanı da beş il müddətində həyata keçirmək üçün çox böyük maneələrin qarşısını aldıq, çox işlər gördük. Nəhayət, buna nail olduq. Bu, bizim üçün böyük bir hadisədir - həm Azərbaycan üçün, həm Türkiyə

üçün. Eyni zamanda əgər Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı və bu barədə fəal iştirakı olmasaydı, bunu etmək mümkün deyildi. Çünki bunun əleyhinə çox qüvvələr var idi.

1999-cu il noyabr ayının 27-28-də Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev Türkiyənin Ankara şəhərində işgüzar səfərdə olmuş, burada keçirilən "Təbiətin mühafizəsi və eroziyaya qarşı mübarizə" konfransında iştirak etmişdir. Sonra Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəllə birlikdə onun vətəni olan Sparta şəhərinə getmiş, burada yerləşən Şövkət Dəmirəl adına Kardioloji mərkəzin, "Ülkü" orta məktəbinin, Süleyman Dəmirəl adına "Mədəniyyət və konqres mərkəzi"nin açılışında iştirak etmiş, Süleyman Dəmirəl adına Universitetin Araşdırma və tədqiqat xəstəxanasının təməlinin qoyulması mərasimində olmuş, Süleyman Dəmirəl adına Universitet, klinik xəstəxana və bir sıra təhsil-tədris ocaqları ilə tanış olmuş, vilayətin ictimaiyyəti ilə geniş görüşlər keçirmişdir. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevə Süleyman Dəmirəl adına Sparta Universitetinin fəxri doktoru adı verilmişdir.

Dövlət başçıları səfər zamanı Xəzərin Azərbaycan sektorunun enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair İstanbul sammiti gedişində imzalanmış sənədlərdən məmnunluqla söhbət açaraq, bu layihənin nəinki region dövlətlərinin, həm də Avropa və dünya ölkələrinin iqtisadi inkişafı üçün böyük rol oynadığını qeyd etmiş və onun gerçəkləşdirilməsi üçün qarşıda duran vəzifələri geniş müzakirə etmişlər.

Söhbət zamanı Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məsələsi üzərində dayanmışlar. Dövlət başçıları müstəqil Azərbaycanın qarşılaşdığı ən ağır problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun fəallığının artırılması zəruriliyini yekdillikle vurğulamışlar.

Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəl ölkələrimiz arasındakı ikitərəfli münasibətlər və bir sıra beynəlxalq məsələlər barəsində də geniş fikir mübadiləsi aparmışlar. Azərbaycan Prezidenti Heydər Əliyev səfər zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Rauf Denktaşla, dünya şöhrətli alim İhsan Doğramaçı ilə görüşlər keçirmişdir.

Ümumiyyətlə 1999-cu il, ölkə başçımızın səfərləri, Türkiyə rəhbərləri ilə keçirdiyi görüşlər ölkələrimiz arasındakı əlaqələrin inkişafı üçün olduqca səciyyəvidir. Bu il Azərbaycan Prezidenti təkcə noyabr ayında üç dəfə Türkiyədə olmuşdur. O, ilk

səfərində, noyabrın 1-də Prezident Süleyman Dəmirəllə birlikdə zəlzələ olmuş yerlərə getmiş, Kocaelidə, İzmitdə olmuş, insanlarla görüşlər keçirmişdir.

Sonra o, ikinci dəfə noyabrın 17-də yenidən Türkiyəyə gələrək ayın 20-dək İstanbulda ATƏT-in Zirvə görüşündə iştirak etmişdir. Bu zaman orada dünya ölkələri üçün çox mühüm qərarlar qəbul edilmişdir.

Nəhayət, üçüncü səfər noyabrın axırında baş vermişdir. Bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin intensivliyindən və sıxlığından, yaxınlığından xəbər verir. Strateji əməkdaşlıq müqaviləsinin intensiv və məhsuldar şəkildə işlədiyini göstərir. Ölkəmizin, onun rəhbərinin Türkiyəyə, türk xalqına böyük sevgisindən xəbər verir. Elə Prezidentimizin səfər zamanı dediyi sözlər buna sübutudur: "Bəli, mən dedim, artıq üçüncü dəfədir ki, Türkiyədəyəm. Türkiyəni ziyarət etmək mənim üçün sevindiricidir. Amma eyni zamanda, görün mən Türkiyəni nə qədər sevirəm ki, bir ay içərisində üç dəfə buraya gəlmişəm."

Ölkəmiz Türkiyəyə həmişə böyük önəm vermişdir. Elə bu səfər zamanı Türkiyənin dünyada tutduğu mövqeyindən bəhs edən dövlət başçımız göstərmişdir ki, İstanbul Zirvə görüşü ərəfəsində Amerika Prezidenti Bill Klintonun Türkiyəni ziyarət etməsi, Türkiyəyə çox böyük önəm verməsi və gözəl nitqlər söyləməsi, Türkiyənin dünyada tutduğu yer haqqında gözəl fikirlər deməsi məni türk xalqını sevindirən kimi sevindirir. ATƏT-in Zirvə görüşünün bu qədər gözəl təşkil olunması - yəni hər bir toplantının uğuru onun təşkil edilməsindən asılıdır - şübhəsiz ki, Türkiyə Cümhuriyyətinin və bu işlə şəxsən məşğul olan hörmətli Süleyman Dəmirəlin böyük xidmətləridir. Onun bu xidmətləri hər bir dövlət başçısı tərəfindən yüksək qiymətləndirildi. Onun bu xidmətləri və Türkiyənin bu gün dünyadakı strateji yeri Amerika Prezidenti Bill Klinton tərəfindən bəyan edildi. Bir dost, qardaş kimi, bunlar hamısı məndə Türkiyə üçün böyük iftixar, qürur hissi doğurur.

Türkiyənin, türk dünyasının inkişafında da yeri böyükdür. Prezidentimiz Türk Dövlətləri Birliyinin yaranması məsələsində Türkiyənin və onun başçısı Süleyman Dəmirəlin rolunun böyük olduğunu vurğulayaraq bildirmişdir ki, hörmətli Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yenicə müstəqillik, istiqlaliyyət qazanmış türkdilli ölkələrin dövlət başçılarının İstanbulda toplantısı keçirilibdir. Burada bu təşkilatın əsası qoyulubdur. Bu təşkilat artıq 7 ildir ki, yaşayır. Biz ildə bir dəfə bu toplantıları türkdilli cümhuriyyətlərdə keçiririk. Mədəniyyət, iqtisadiyyat, başqa bütün sahələrdə əməkdaşlığımızı edirik və tarixi bir daha təhlil edirik. Müştərək tarixi abidələrimizi yada salır və onların yubileylərini keçiririk. Bu, çox böyük əhəmiyyətə

malikdir və türk dünyasının inkişafının təməli kimi bir şeydir. Amma bu, heç də asan deyildir. Çünki onu da qısqananlar və onun əleyhinə olanlar vardır. Amma bu birliyin yaranmasında və bu birliyin 7 ildən bəri yaşamasında Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum və türk dünyasının lideri Süleyman Dəmirəlin xüsusi xidmətləri vardır.

Bəlkə də siz bunları bilmirsiniz, amma bilməlisiniz. Biz, türkdilli ölkələrin dövlət başçıları, Prezidentləri həmişə görüşürük, danışırıq. Bizim üçün Süleyman Dəmirəl - Azərbaycanda ağsaqqal deyirlər, siz baba deyirsiniz. O, babadan da babadır, mən ona babadan da yüksək ad arayıram. Ola bilər ki, həmin dövlətlər arasında hansısa bir məsələ birbirinə xoş gəlməsin. Amma hörmətli Süleyman Dəmirəl olan yerdə türkdilli ölkələrin dövlət başçılarının hamısı onun ətrafındadır, onların hamısı onunla birdir. Əziz dostum Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin ağırlığını öz çiynində daşıyır və daşıyacaqdır.

Mən çox məmnunam ki, indi Türkiyə Cümhuriyyətinin Süleyman Dəmirəl kimi dünyada tanınmış lideri vardır. Hörmətli Süleyman Dəmirəl 50 ildən çoxdur ki, dövlət, siyasət işi ilə məşğul olur və uğurla məşğul olur. ATƏT-in İstanbul Zirvə görüşündə bir fikir də qeyd edildi. Deyəsən, bunu Bill Klinton dedi. O dedi ki, 25 il bundan öncə Helsinkidə ATƏT-in əsası qoyulubdur, orada Helsinki yekun aktı qəbul edilibdir. 35 dövlət həmin sənədə imza atıbdır. Orada Türkiyədən Süleyman Dəmirəlin imzası vardır. O sənədə imza atanlardan - bəziləri bu gün həyatda, bəziləri də dünya siyasətində yoxdur - dünya siyasətində olan yeganə şəxs Süleyman Dəmirəldir. Mən bunu bilirdim. Amma mən bunu Bill Klintondan eşidəndə nə qədər sevindim.

2000

2000-ci ilin əlaqələrimizdə xüsusi yeri və çəkisi var. Hər şeydən əvvəl 9-10 yanvar 2000-ci ildə Azərbaycanın Prezidenti Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti S.Dəmirəl, Baş naziri B.Ecevit, Baş Qərargah Rəisi H.Kıvrıkoğlu, Baş nazirin müavini D.Bahçeli ilə görüşmüş və iki tərəfi maraqlandıran məsələlər ətrafında danışıqlar aparmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin dəvəti ilə 2000-ci il fevral ayının 7-də Türkiyə Böyük Millət Məclisinin sədri Y.Akbulut ölkəmizə rəsmi səfərə gəlmişdir. Qonaq səfər zamanı Azərbaycanın Prezidenti Heydər Əliyev ilə görüşmüşdür. Y.Akbuluta BDU-nun fəxri doktoru adı verilmişdir.

24-26 mart 2000-ci ildə Türkiyənin Samsun şəhərində "Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayının

VIII forumu keçirilmişdir. Forumda Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri iştirak etmişlər.

8-9 aprel 2000-ci ildə Türkiyənin Prezidenti S.Dəmirəl Türkdilli Dövlət Başçılarının VI Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş yubiley təntənələrində iştirak etmək üçün Bakıya gəlmişdir. Səfər zamanı S.Dəmirəl "Qoç" bankın, "Şəhidlər Xiyabanı"nda türk əsgərlərinin xatirə abidəsinin, türk inşaat şirkətləri tərəfindən ucaldılan çoxmərtəbəli yaşayış binaları kompleksinin açılışında iştirak etmişdir. Prezident Heydər Əliyev tərəfindən S.Dəmirələ Azərbaycanın fəxri vətəndaşı adı verilmişdir.

Türkiyənin Xarici İşlər naziri İ.Cem 2000-ci il mayın 28-29-da Bakıda rəsmi səfərdə olmuşdur. Səfər zamanı Prezident Heydər Əliyev İ.Cemi qəbul etmişdir. İ.Cem Milli Məclisin sədri, Baş nazir, Xarici İşlər naziri ilə də görüşmüşdür. Danışıqlar zamanı ölkələrimizin iqtisadiyyat, energetika sahəsində əməkdaşlıq məsələləri, siyasi sahədə münasibətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, Qafqazda baş verən proseslər, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası, Azərbaycanın Avropa Şurasına qəbulu və digər məsələlər diqqət mərkəzində olmuşdur. İ.Cemə BDU-nun fəxri doktoru adı verilmişdir.

2000-ci il 8-9 iyun tarixlərində Türkiyənin Daxili İşlər naziri S.Tantan Bakıda səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyev S.Tantanı və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

Türkiyənin Prezidenti Ə.N.Sezər Azərbaycan Prezidenti Heydər Əliyevin dəvəti ilə 11-12 iyul 2000-ci il də Bakıda rəsmi səfərdə olmuşdur. Onu Xarici İşlər naziri İ.Cem, Baş nazirin müavini, Energetika və Təbii Ehtiyatlar naziri C.Ersümer və digər rəsmi şəxslər müşayiət etmişlər.

Səfər zamanı Türkiyə Prezidenti A.Sezər və Azərbaycan Prezidenti Heydər Əliyev təkbətək görüş keçirmişlər. Sonra Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında geniş tərkibdə görüş olmuş, daha sonra dövlət başçıları birgə bəyanat imzalamışlar.

Türkiyənin Prezidenti və onu müşayiət edən şəxslər "Şəhidlər Xiyabanı"nı ziyarət etmiş, Bakıda müvəqqəti məskunlaşmış qaçqınlarla görüşmüşlər.

Türkiyənin Prezidenti Ə.N.Sezər Azərbaycanın dövlət başçısını Türkiyəyə rəsmi səfərə dəvət etmişdir. Dəvət məmnunluqla qəbul olunmuşdur.

2000-ci ilin sentyabr ayında Bakıda Dünya Türk Gənclər Birliyinin X qurultayı və Gənclik Günləri keçirilmişdir.

Həmin ayda Ankarada Azərbaycan kinosu günləri keçirilmişdir.

2000-ci ilin 20-22 sentyabrında Türkiyənin Müdafiə naziri S.Çakmakoğlu Bakıda səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Milli Məclisinin Sədri, Baş naziri, Xarici İşlər naziri və Müdafiə naziri S.Çakmakoğlunu və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişlər. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası hökumətləri arasında müdafiə sənayesində əməkdaşlıq" müqaviləsi imzalanmışdır.

17 oktyabr 2000-ci ildə Prezident Sarayında "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları arasında saziş" və "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi"nin imzalanması mərasimi olmuşdur. Bu sazişlər 18 oktyabrda Gürcüstanın paytaxtı Tbilisidə, 19 oktyabr da isə Ankara şəhərində imzalanmışdır.

Türkiyənin Milli Təhsil naziri M.Bostançıoğlunun başçılıq etdiyi nümayəndə heyəti 2000-ci ilin 30 noyabr-2 dekabr tarixlərində Bakıda rəsmi səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Təhsil Nazirliyi ilə Türkiyə Təhsil Nazirliyi arasında birgə əməkdaşlığa dair müqavilə imzalanmışdır. M.Bostançıoğlunu Azərbaycanın Prezidenti Heydər Əliyev və Baş nazir qəbul etmişlər.

Türkiyənin Enerji və Təbii Ehtiyatlar nazirinin müavini Y.Yigitgüdənin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev dekabrın 13-də qəbul etmişdir. Y.Yigitgüdən Azərbaycanda baş vermiş zəlzələ ilə əlaqədar Türkiyənin Prezidenti Ə.N.Sezərin başsağlığını, habelə iki ölkə arasındakı mövcud əməkdaşlığın uğurla həyata keçirilməsinə dair məktubunu Azərbaycanın dövlət başçısına təqdim etmişdir. Söhbət zamanı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişinin həyata keçirilməsi barədə fikir mübadiləsi olmuşdur.

22-23 dekabr 2000-ci ildə Türkiyənin Səhiyyə naziri O.Durmuşun başçılıq etdiyi nümayəndə heyəti Mərkəzi Klinik Xəstəxananın açılışında iştirak etmək üçün Bakıda səfərdə olmuşdur. Nümayəndə heyətini Azərbaycanın Prezidenti Heydər Əliyev qəbul etmişdir.

Bakıda noyabr ayında baş vermiş təbii fəlakət ilə əlaqədar Türkiyənin Beynəlxalq Qırmızı Xaç Təşkilatı Azərbaycana humanitar yardım göstərmişdir. Həmin təşkilat tərəfindən Bərdə və Ağcabədi rayonlarında məskunlaşan qaçqınlara humanitar yardım göstərilir.

2001

2001-ci ilin əvvəlindən əlaqələrimiz daha da intensivləşmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il yanvarın 16-da Prezident sarayında

TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqlarla görüşdə çıxış etmişdir. O demişdir: "Bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik Sovet hakimiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millətlər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır.

Mən sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz. Çünki həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün hələ çox iş görmək lazımdır ki, bu itirilmiş dövrü, zamanı, onillikləri bərpa edək. Yəni onu bərpa etmək mümkün deyil, o dövrdə itirdiklərimizi indi qısa bir zamanda yaratmaq lazımdır.

Mən sizi təbrik edirəm və arzu edirəm ki, işlərinizi bu cür davam etdirəsiniz. Siz dövlət başçılarından daha zirəksiniz. Çünki biz, deyək ki, altı dəfə görüşmüşük. Amma siz on beş dəfə görüşmüsünüz. Ancaq bu da təbiidir. Çünki dövlət başçılarının bir çox problemləri vardır. Onların ildə bir dəfə görüşməsi bəzən bəs edir. Bu görüşlərdə biz, təbiidir ki, mədəniyyət, elm, tarixi keçmişimiz haqqında çox fikir mübadiləsi aparırıq. Amma eyni zamanda bu görüşlərin iqtisadi əməkdaşlıq tərəfi də vardır. Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm, bizim türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, türkdilli, başqa dilli dövlətlə olsun - ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin - bunların böyük tarixi və dərin kökləri vardır.

Bizim ədəbiyyatımız, musiqimiz, tarixi köklərimizi sübut edən əsərlərimiz - bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il "Kitabi-Dədə

Qorqud"un 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi-Dədə Qorqud" haqqında, demək olar ki, o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi "Kitabi-Dədə Qorqud" hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir.

Yaxud da ki, bir neçə il bundan öncə biz yenə də hamımıza mənsub olan Füzulinin yubileyini keçirdik. Çox dəyərli bir hadisə oldu. Toplaşdıq. Mən Azərbaycanda keçirilənləri deyirəm. Qazaxıstanda da, Özbəkistanda da çox gözəl tədbirlər keçirilibdir. Qırğızıstanda "Manas"ın 1000 illik yubileyini keçirdik. Türkmənistanda da belə tədbirlər olmuşdur. Ona görə də sizin gördüyünüz işlər xalqlarımız üçün ən dəyərli işlərdir. Bu münasibətlə sizə təşəkkür edirəm, sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır."

19 yanvar 2001-ci ildə Türkiyə Xarici İşlər nazirinin müavini F.Loğoğlu işgüzar səfərlə Bakıya gəlmişdir. Səfər zamanı o, Azərbaycanın Prezidenti Heydər Əliyevlə görüşmüşdür. Görüşdə iki ölkəni maraqlandıran bir sıra beynəlxalq və regional problemlərə toxunulmuşdur.

28 fevral 2001-ci ildə Azərbaycanın Müdafiə naziri S.Əbiyev rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Müdafiə Planlaşdırması və Mənbələrin İstiqamətləndirilməsi İdarəsinin rəisi Ş.Telyazanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Səfər zamanı iki sənəd imzalanmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il 12-17 mart tarixlərində üçüncü dəfə Türkiyədə rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti Ə.N.Sezər, Baş naziri B.Ecevit, Böyük Millət Məclisinin Sədri Ö.İzgi, Baş nazirin müavinləri D.Bahçeli və M.Yılmaz, Baş Qərargah rəisi H.Kıvrıkoğlu ilə görüşüb danışıqlar aparmış, Parlamentdə çıxış etmişdir. Dövlət başçımıza Ankara Universitetinin fəxri doktoru adı verilmişdir. İki ölkənin başçıları bir sıra beynəlxalq və regional məsələləri müzakirə etmiş, bölgəmizdə mövcud olan problemlər haqqında fikir mübadiləsi aparmışlar. Prezident Heydər Əliyev İstanbul Hərbi Akademiyasının kursantları qarşısında da çıxış etmişdir. Səfər zamanı 9 sənəd imzalanmışdır.

Dövlətimizin başçısına Ankara Universitetinin fəxri doktoru diplomu təqdim edilmişdir. Onu da qeyd etmək yerinə düşərdi ki, Prezident Əhməd Necdət Sezər də bu Universitetin məzunu olmuşdur.

Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl və Şimali Kipr Türk Cümhuriyyətinin Prezi-

denti Rauf Denktaş isə Universitetin fəxri doktorlarıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevə Ankara Universitetinin fəxri doktoru diplomu təqdim edilməsi münasibətilə təntənəli mərasimdə Türkiyənin Prezidenti Əhməd Necdət Sezər, dövlət naziri Əbdülxalıq Çay, Təhsil naziri Mətin Bostançıoğlu, millət vəkilləri, Universitetin professor-müəllim heyəti, ölkənin çoxsaylı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Görüşdə Azərbaycan Prezidenti çıxış etmişdir. Heydər Əliyev vurğulamışdır ki, mən Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Əhməd Necdət Sezərin dəvəti ilə mart ayının 12-də Türkiyə Cümhuriyyətinə üçüncü rəsmi səfərə gəlmişəm. Bu, mənim Türkiyəyə ilk səfərim deyildir. 1992-ci ildən etibarən mən dəfələrlə Türkiyəyə gəlmişəm. Rəsmi səfərlər də, işgüzar səfərlər də olmuşdur. Sadəcə, görüşmək arzusunda olduğuma görə də gəlmişəm. Bunların hamısı mənim üçün qiymətlidir. Sonra dövlətimizin başçısı Azərbaycan - Türkiyə əlaqələrinə nəzər salaraq göstərmişdir ki, həyat inkişaf etdiyi kimi, insanların dünyaya baxışı da inkişaf edir və hər yeni atılan addım, təbiidir ki, əvvəlkindən daha önəmli olur. Ona görə də mən bu səfəri çox yüksək qiymətləndirirəm. Birincisi, ona görə ki, burada biz hörmətli Prezident, əziz dostumla bərabər çox ətraflı, dərin məzmunlu görüşlər keçirdik, danışıqlar apardıq. Türkiyə-Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti və gələcəyi haqqında fikirlərimizi paylaşdıq və bir daha hər ikimiz eyni fikri ifadə etdik ki, **Türkiyə-Azərbaycan əlaqələri gündən-günə inkişaf edir. Bunlar dostluq, qardaşlıq əlaqələridir. Bunlar dərin tarixi köklərimizlə, millimənəvi dəyərlərimizlə bağlı əlaqələrdir. Bir dilə, bir dinə, bir mədəniyyətə mənsub olmağımızla bağlı əlaqələrdir. Bir millət, iki dövlət əlaqələridir. Əgər beynəlxalq, uluslararası dildə danışsaq, strateji tərəfdaşlıq əlaqələridir. Bu həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmlidir.** Çünki dünya ağır bir dövr yaşayır. Dünyada çox mürəkkəb proseslər gedir. Bu proseslərin bir qismi də, bəlkə də ən ağırı Türkiyə də daxil olmaqla, bizim bölgəmizdə - Qafqazda gedir. Burada həm savaş, həm münaqişələr, həm də çox həll ediləsi məsələlər vardır. Bütün bu proseslərdə, təbiidir ki, Türkiyə və Azərbaycan həmişə yan-yana, bərabər olmuş, bir yolla getmişlər. Mən məmnuniyyətlə deyə bilərəm ki, bu gün biz bu yolumuzun nə qədər doğru, düzgün olduğunu bir daha təsdiq etdik.

Türkiyənin Böyük Millət Məclisində, millət vəkilləri, yəni xalqın təmsilçiləri ilə də görüşə böyük əhəmiyyət verən dövlət başçımız danışıqların əsas mövzularının Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik yaratmaqdan ibarət olduğunu bildirmişdir.

Təəssüflənmişdir ki, Ermənistanla danışıqlarda hələ indiyə qədər müsbət nəticə əldə olunmamışdır. Göstərmişdir ki, belə nəticə yalnız Azərbaycanın ərazi bütövlüyü təmin edildikdən, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə qayıtdıqdan, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquq normaları əsasında təmin olunduqdan sonra baş tuta bilər.

Ermənilərin həmişə torpaq iddiası ilə yaşadıqlarını, Osmanlı imperatorluğu dövründə guya ermənilərə qarşı soyqırım edilməsi haqqında son vaxtlar bəzi ölkələrdə çıxarılan qərarların tamamilə əsassız, uydurma, yanlış olduğunu, əksinə, ermənilərin azərbaycanlılara, türklərə qarşı soyqırım etdiklərini bildirən respublikamızın rəhbəri bunların heç vaxt baş tutmayacağını bəyan etmişdir.

Göstərmişdir ki, ermənilər Xocalı şəhərinin əhalisini bir gecənin içərisində qırdılar. Budur soyqırım. Əgər onlar 85 il bundan əvvəlki "soyqırım" haqqında danışırlarsa, bu isə indi, XX əsrin sonunda ermənilər tərəfindən azərbaycanlılara, türklərə qarşı edilən soyqırımıdır. Ona görə də soyqırım haqqında danışmağa onların haqqı yoxdur. Soyqırım haqqında danışmağa bizim haqqımız var.

Ermənistanla Azərbaycan arasında sülh yaradılması mövzusunun danışıqların əsas hissəsini təşkil etdiyini söyləyən Prezident, bunun səbəbini bizim həmişə Türkiyə ilə bərabər olmağımızla izah etdi.

Hökumətimizin başçısı bəyan etdi ki, danışıqlarda Bakı-Ceyhan neft-boru xətti məsələsinə də toxunulmuş, artıq bu sahədə hər şeyin hazır olduğu müəyyənləşdirilmişdir. Proqram tərtib olunubdur. Həmin proqram üzrə iş gedir. Bakı-Ceyhan boru xətti çəkiləcək, başa çatacaqdır. Azərbaycan nefti Türkiyəyə gələcək və buradan Ağ dənizə - Aralıq dənizinə çatdırılacaqdır.

Ölkəmizin başçısı göstərmişdir ki, səfər zamanı Azərbaycanın təbii qazının Türkiyəyə satılması haqqında da anlaşmalar imzalanmışdır. Başqa çox əhəmiyyətli məsələlər də olmuşdur. Ona görə də dövlətimizin başçısı səfərin nəticələrindən məmnundur.

Sonra Azərbaycan Prezidenti Universitetin fəxri doktoru adına layiq görlməsinə görə öz minnətdərlığını bildirmiş və xüsusi olaraq vurğulamışdır ki, Ankara Universiteti Türkiyənin ən hörmətli, ən böyük universitetlərindən biridir. Mənə fəxri doktor adı verilməsi barədə məlumat gələndə mən Ankara Universitetinin tarixi ilə bir də tanış oldum. Məlum oldu ki, Ankara Universiteti böyük Mustafa Kamal Atatürkün qəbul etdiyi qərarlarla Türkiyədə yaradılmış ilk universitetlərdən biridir.

Ölkəmizin başçısı göstərmişdir ki, Ankara Universiteti həm də böyük Atatürkün vəsiyyətlərini yerinə yetirir. Onun "Həyatda ən həqiqi mürşid elmdir" devizini həyata keçirir. Mustafa Kamal Atatürkün bu sözləri Türkiyədəki bütün universi-

tetlər, elm adamları, o cümlədən Ankara Universiteti üçün vəsiyyətdir. Yəni bu, o yoldur ki, həmin yolla getmək lazımdır. Ankara Universiteti də bu yolla gedir. Ankara Universiteti ilə Azərbaycan arasındakı əlaqələr də məni çox sevindirir. Çünki rektor artıq söylədi ki, Azərbaycandan burada 150 tələbə təhsil alır, 7 müəllim dərs deyir. Bu da çox önəmlidir.

Ankara Universiteti Azərbaycan Universitetləri ilə, o cümlədən Bakı Dövlət Universiteti, Naxçıvan Universiteti və Lənkəran Dövlət Universiteti, Milli Elmlər Akademiyası ilə elm və təhsil sahəsində əlaqələr yaradıbdır.

Azərbaycan Elmlər Akademiyası çox böyük bir elm mərkəzidir. ...Mən çox məmnunam ki, Ankara Universiteti Azərbaycanın Milli Elmlər Akademiyası ilə bağlıdır. Çünki Azərbaycanda Elmlər Akademiyası təhsillə məşğul deyildir. Onlar elmi tədqiqatlarla məşğuldur. Buna görə də bu əlaqələr çox əhəmiyyətli və önəmlidir. Azərbaycanda elm adamları, elm mərkəzləri, universitetlər Türkiyə ilə, türk dünyası ilə bağlı olan bir çox məsələlər barədə araşdırmalar, tədqiqatlar aparırlar. Bunlar öz yerində. Mənim təşəbbüsümlə Azərbaycanda böyük Atatürkün irsinin öyrənilməsi, araşdırılması mərkəzi yaradılıbdır. Bu mərkəz müstəqil bir təşkilat olacaqdır. Həm Milli Elmlər Akademiyasının, həm də ölkəmizin bütün universitetlərinin bu sahədə ən bilikli adamları buraya toplaşacaqdır. Mən də - Azərbaycan Prezidenti də, bu mərkəzin fəxri başqanıyam. Güman edirəm ki, bu mərkəz Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha elmi-nöqteyi nəzərdən araşdıracaq və meydana çıxaracaqdır. Bu, geniş işbirliyi yaratmaq üçün bir daha imkanlar verəcəkdir.

Ölkəmizin başçısı vurğulamışdır ki, mən çox məmnunam ki, sizin universitet Azərbaycan Milli Elmlər Akademiyası ilə birbaşa bağlıdır. Ona görə də mən arzu edirəm ki, Ankara Universiteti mənim başqanlıq etdiyim mərkəzlə Atatürk irsinin araşdırılması, türk xalqlarının tarixinin və tarixi birliyinin tədqiq olunması sahəsində də iş görsün.

Bilirsinizmi, əziz dostlar, mən həyatımda çox mükafatlar almışam. Burada həyatım haqqında qısa məlumatlar verildi, hər halda, həyatımda çox işlər də görmüşəm, çox problemlərlə də rastlaşmışam. Ancaq mükafatlar çox almışam, həm Sovetlər Birliyinin, həm də bir çox ölkələrin mükafatlarını almışam. Bu mükafatlar içərisində mənim üçün ən yüksək mükafat 1999-cu ildə Türkiyə tərəfindən verilmiş Atatürk Beynəlxalq Sülh mükafatıdır. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm və bu adı həyatımın sonuna qədər böyük fəxrlə daşıyacağam.

Universitetlər də mənə çoxlu belə fəxri adlar veriblər. Məsələn, 250 illik tarixi olan Moskva Dövlət Universiteti üç ay bundan öncə, - heç mənim bundan xəbərim olmayıbdır, - mənə oranın fəxri doktoru adını veribdir. Məni Moskvaya dəvət ediblər ki, gedib onu alım. Əgər gedə bilməsəm, onlar özləri Azərbaycana gələcəklər. Mən vaxtilə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, bütün Sovetlər Birliyinin elm və təhsil işlərinə başçılıq edirdim. O vaxt Sovetlər Birliyində 800-dən artıq universitet, Milli Elmlər Akademiyası və sair var idi. Mən onlarla çox yaxın təmaslarda olmuşam. Amma o vaxtlar onlar bu adı verməyiblər. Çünki Sovetlər Birliyi zamanı belə şeylər bir qədər qadağan idi. Amma neçə illərdir ki, mən oradan ayrılmışam, - indi mən Azərbaycan kimi bir dövlətin başçısıyam, - amma 250 illik tarixi olan Moskva Dövlət Universiteti mənə fəxri doktor adı veribdir.

Mən Türkiyədə də bəzi universitetlərdən bu adı almışam. Ancaq Ankara Universitetinin, böyük Atatürkün qərarı ilə yaradılmış universitetin və bu qədər inkişaf etmiş bir təhsil ocağının, bu qədər çoxlu kadrlar hazırlamış universitetin fəxri doktoru adı mənim üçün çox yüksəkdir. Bir də ona görə ki, Türkiyənin bir çox dövlət adamları sizin universitetin məzunudur, - millət vəkilləri, nazirlər. Amma Türkiyənin bugünkü 10-cu Cümhurbaşqanı, mənim əziz dostum və qardaşım Əhməd Necdət Sezər də sizin universitetdə təhsil alıbdır. Buradan həyata atılıbdır və siz ona o qədər yaxşı bilik vermisiniz və burada o qədər yaxşı təhsil alıbdır ki, artıq bu gün gəlib Türkiyənin Cümhurbaşqanı səviyyəsinə çatıbdır.

Ona görə də mən bu gün burada hörmətli Cümhurbaşqanı ilə bir yerdə olmağımdan çox məmnunam. Əziz dostum, mən sizi də təbrik edirəm ki, sizin təhsil aldığınız bir universitet indi bu qədər yüksək səviyyədədir. Düşünürəm ki, cümhur başqanı kimi siz təhsil aldığınız bu universitetə daha çox yardım edəcəksiniz.

Təqdimetmə mərasiminin sonunda ölkəmizin başçısı öz təşəkkürünü bildirmiş, Ankara Universitetinin fəxri doktoru adını şərəflə daşıyacağını əmin etmiş, Türkiyə və Azərbaycan arasında elm, təhsil sahəsində əlaqələrin inkişaf etməsində daha çox işlər görəcəyini bildirmişdir.

Daha sonra Prezident Heydər Əliyev azərbaycanlı rəssamın Bakının mənzərəsi təsvir olunmuş tablosunu Ankara Universitetinə hədiyyə etmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev martın 16-da öz iqamətgahında - Camlı köşkdə Türkiyə Böyük Millət Məclisinin deputatları Əli Günər, Aslan Haydar və Osman Gəzəgərlə görüşmüşdür.

Azərbaycan Prezidenti Heydər Əliyev elə həmin gün öz iqamətgahında - Camlı köşkdə Türkiyənin "Sabah" qəzetinin siyasi şərhçisi Füsun Mutluya müsahibə vermişdir.

Martın 17-də Azərbaycan Res-

publikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri başa çatmışdır.

22 mart 2001-ci ildə Azərbaycanın Müdafiyə Naziri S.Əbiyevin dəvəti ilə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Plan və Əməliyyat İdarəsinin rəisi E.Ərdaq Bakıya gəlmişdir. Səfər zamanı Azərbaycanın Müdafiə Nazirliyi və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı arasında hərbi əməkdaşlığın inkişafına dair protokol imzalanmışdır.

29-30 mart 2001-ci ildə Bakıda Azərbaycan-Türkiyə müştərək iqtisadi komissiyasının 2-ci iclası keçirilmişdir. Türkiyənin nümayəndə heyətinə dövlət naziri A.Çay rəhbərlik etmişdir. Azərbaycanın Prezidenti Heydər Əliyev Türkiyədən gələn nümayəndə heyətinin başçısını qəbul etmişdir.

Azərbaycan Respublikasının Preziden-ti Heydər Əliyev türkdilli dövlətlərin başçılarının 26-27 aprel 2001-ci il tarixdə İstanbul şəhərində keçirilən VII Zirvə görüşündə iştirak etmişdir.

Dövlətimizin başçısı yola düşməzdən əvvəl Bakının Binə beynəlxalq hava limanında jurnalistlərin suallarına cavab verərək demişdir ki, bu, türkdilli dövlətlərin başçılarının VII Zirvə görüşüdür. Hər bir Zirvə görüşündə biz çox məsələlərə baxırıq. İndi bəyannamə hazırlanıb, razılaşdırılıbdır. Türkdilli dövlətlərin elm, mədəniyyət sahəsindəki işbirliyi, bizim tarixi köklərimiz, ədəbiyyat, mədəniyyət sahəsindəki şəxsiyyətlərimiz və bunların əsasında indi bizim türkdilli dövlətlər arasında çox yaxşı işbirliyinin yaranması, iqtisadi əlaqələr,- təbiidir ki, bu, əsas yer tutur. Mən sizə bildirmək istəyirəm ki, əvvəlki Zirvə görüşlərində də Dağlıq Qarabağ məsələsi barədə müzakirə keçirilməyibdir. Çünki bəzi türkdilli dövlətlərin başçıları deyirlər ki, bu birlik siyasiləşdirilməməlidir. Ancaq biz həmişə bu imkandan istifadə edib Dağlıq Qarabağ, yəni Ermənistan-Azərbaycan münaqişəsi haqqında öz sözümüzü deyirik. Təbiidir ki, mən bu dəfə də deyəcəyəm. Yəqin ki, başqa bir etiraz olmasa, o, İstanbul bəyannaməsində öz əksini tapacaqdır.

Aprelin 26-da İstanbulun məşhur Çırağan sarayında türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşü öz işinə başlamışdır. Zirvə görüşünü Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər giriş sözü ilə açmış, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Zirvə görüşündə çıxış etmiş, belə görüşlərin ənənəvi xarakter almasını yüksək dəyərləndirmişdir.

Dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, hazırkı Zirvə görüşü türkdilli ölkələrin çoxtərəfli əməkdaşlığının inkişafında, regionumuzda sülhün, sabitliyin, təhlükəsizliyin və etimadın daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Prezidenti xüsusi

olaraq vurğulamışdır ki, tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi ölkələrimizin strateji əməkdaşlığının etibarlı təməlidir və bütün bunlar gələcəyə nikbin baxmağa əsas verir.

Dövlətimizin başçısı bildirmişdir ki, XXI əsr ölkələrimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv siyasi dialoq, qarşılıqlı faydalı əməkdaşlıq, xalqlarımız üçün isə ictimai tərəqqi və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin - milli azadlığımızın, dövlət müstəqilliyimizin və müştərək işbirliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq.

Prezident Heydər Əliyev ölkəmizdə mövcud ictimai-siyasi vəziyyət, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün imzalanmış müqavilələr, hasil edilən neftin və qazın dünya bazarlarına nəqli istiqamətində görülən işlər, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdı-rılması, türkdilli dövlətlərin iqtisadiyyatının dirçəldilməsində mühüm rol oynayan TRASEKA proqramı və böyük "İpək yolu"nun bərpası layihələri barədə ətraflı söhbət açmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün bu ilin mart ayında Parisdə, apreldə Ki Uestdə keçirilmiş görüşlərdən, aparılmış danışıqlardan geniş bəhs edən dövlətimizin başçısı bildirmişdir ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü xalqımıza böyük zərbələr vurmuşdur. Dünya birliyi belə təhlükələri aradan qaldırmaq üçün qəti tədbirlər görməlidir. Separatizmin, terrorizmin qarşısını almaq üçün dünya birliyi, eləcə də türkdilli dövlətlər birliyi səmərəli birgə fəaliyyət göstərməlidirlər.

Dövlətimizin başçısının çıxışı böyük diqqətlə dinlənmiş və alqışlarla qarşılanmışdır.

Elə həmin gün Çırağan sarayında Azərbaycan Prezidenti Heydər Əliyev ilə Türkiyə Prezidenti Əhməd Necdət Sezər arasında görüş olmuşdur.

Ali qonağı salamlamaqdan çox məmnun olduğunu bildirən Prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirmişdir.

Sammitdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışını və nitqini böyük diqqətlə dinlədiyini nəzərə çarpdıran cənab Sezər, dövlətimizin başçısının türkdilli ölkələrin birliyinin daha da möhkəmləndirilməsi üçün irəli sürdüyü təklifləri, verdiyi tövsiyələri yüksək dəyərləndirmişdir.

Böyük dövlətçilik təcrübəsinə malik Prezident Heydər Əliyevin rəhbərliyi sayəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri maraqla qarşıladığını söyləyən

Prezident Əhməd Necdət Sezər, dost və qardaş ölkələrimiz arasında qurulmuş əlaqələrin böyük sürətlə inkişaf etməsindən məmnun qaldığını bildirmişdir.

İstanbula səfərə dəvətə və dost ölkədə ona göstərilən yüksək qonaqpərvərliyə görə Türkiyə xalqına və Prezident Əhməd Necdət Sezərə dərin minnətdarlığını ifadə edən dövlətimizin başçısı Heydər Əliyev, Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasından razılıqla bəhs etmişdir.

Xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin ildən-ilə daha da inkişaf etməsinin çox vacib olduğunu vurğulayan respublikamızın rəhbəri, ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair ABŞ-ın Florida ştatının Ki Uest şəhərində ABŞ administrasiyasının vasitəçiliyi, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan Prezidentlərinin iştirakı ilə keçirilən görüşlərdən danışmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində, Prezident Heydər Əliyevin səylərini yüksək dəyərləndirən cənab Əhməd Necdət Sezər demişdir ki, ATƏT-in Minsk qrupunun üzvü kimi Türkiyə bu münaqişənin aradan qaldırılmasında fəallığını daha da artıracaqdır və Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəkdir.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası məsələləri barədə müzakirələr aparılmışdır.

Mehribanlıq və səmimi dostluq şəraitində keçən görüşdə Azərbaycan -Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi, beynəlxalq aləmdə, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Aprelin 26-da axşam "Çırağan sarayı"nda Azərbaycan Prezidenti Heydər Əliyev ilə Türkmənistan Prezidenti Saparmurad Niyazov arasında görüş keçirilmişdir.

Həmin gün gecə Türkiyə respublikasının Prezidenti Əhməd Necdət Sezərin adından türkdilli ölkələrin dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuş, qəbulda Türkiyə Prezidenti Əhməd Necdət Sezər çıxış edərək, ali qonaqları bir daha salamlamışdır. Türkdilli ölkələrin dövlət başçıları adından Azərbaycan Prezidenti Heydər Əliyev nitq söyləmişdir.

Aprelin 27-də səhər İstanbuldakı Çırağan sarayında Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşünün bağlanış mərasimi keçirilmişdir. Mərasimdə Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev,

Qırğızıstan Prezidenti Əsgər Akayev, Türkmənistan Prezidenti Saparmurad Niyazov, Özbəkistan Parlamentinin Sədri Erkin Xəlilov və TÜRKSOY-un sədri, Azərbaycanın Mədəniyyət naziri Polad Bülbüloğlu çıxış etmişər.

Natiqlər xarici siyasət və beynəlxalq münasibətlər sahəsində qarşılıqlı fəaliyyət üçün geniş imkanlar olduğunu, türkdilli dövlətlər birliyinə daxil olan ölkələrin Birləşmiş Millətlər Təşkilatı və digər qurumlar çərçivəsində yaxından əməkdaşlıq etdiyini, Avropada və ümumən dünyada təhlükəsizlik və əməkdaşlıqla bağlı əsas məsələlərdə çox vaxt oxşar və ya yaxın mövqe tutduqlarını vurğulamışlar.

Dövlət başçıları ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsi məsələlərinə də geniş yer vermişlər. İkitərəfli və çoxtərəfli əməkdaşlıqdan söhbət açan natiqlər beynəlxalq layihələr çərçivəsində görülən işlərə və bunun daha da genişləndirilməsinə xüsusi diqqət yetirmişlər. Qeyd etmişlər ki, türkdilli ölkələrin malik olduqları zəngin təbii sərvətlər, onların mövcud iqtisadi, elmi-texniki potensialı bu sahədə daha səmərəli əməkdaşlıq üçün əlverişli şərait yaradır. Bütün bunlar, habelə ölkələrimizin mühüm coğrafi mövqeyi regionun iqtisadi tərəqqi zonasına çevrilməsi, dünya iqtisadi sistemində layiqli yer tutması üçün yaxşı zəmindir. Bu, türkdilli ölkələr üçün həm də böyük siyasi üstünlüklər açır.

Beynəlxalq iqtisadi əməkdaşlığın nümunəsi kimi Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılması sahəsində görülən işlərdən, TRASEKA, böyük "İpək yolu"nun bərpası layihələrinin həyata keçirilməsindən söhbət açılmışdır.

Qədim və zəngin mədəniyyətə malik olan, bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş etmiş türk dünyası xalqlarının bu sahədə əməkdaşlığının daha da genişləndirilməsinin vacibliyindən söhbət açan natiqlər bildirmişlər ki, bu, tarixən yaranmış bənzərsiz mədəni irsimizi indiki nəsillərə qaytarmaqla yanaşı, onu dünyaya daha da yaxından tanıtmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha nümayiş etdirmək baxımından son dərəcə önəmlidir. Bu sahədə TÜRKSOY təşkilatının gördüyü işlər və ümumən onun fəaliyyəti barədə də məlumat verilmişdir.

Dövlət başçıları bir sıra digər sahələrdə də qarşılıqlı əlaqələri möhkəmləndirməyin zəruriliyindən, o cümlədən ekoloji təhlükəsizlik və ətraf mühitin qorunması problemlərinə diqqətin artırılmasından danışmışlar. Türkdilli dövlətlərin başçılarının Zirvə görüşlərinin Daimi Katibliyinin və onun iqamətgahının Türkiyədə yerləşdirilməsi barədə təklif də səslənmişdir.

Türkmənistan Prezidenti növbəti, VII Zirvə görüşünün 2002-ci ildə Aşqabadda keçirilməsini təklif et-

mişdir.

Dövlət başçıları Zirvə görüşü zamanı hazırlanmış İstanbul bəyannaməsinin müddəalarını bəyəndiklərini bildirmişlər.

Elə həmin gün türkdilli ölkələrin dövlət başçıları İstanbul bəyannaməsini imzalamışlar. Bəyannamədə göstərilir:

"Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayev, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər, Türkmənistan Prezidenti Saparmurad Niyazov və Özbəkistan Respublikası Ali Məclisinin sədri Erkin Xəlilov 2001-ci il aprelin 26-27-də İstanbulda türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə görüşünü keçirmişlər.

Dövlət başçıları, aralarındakı tarix, mədəniyyət və dil birliyinin əhəmiyyətini, dostluq, hüquq bərabərliyi və qarşılıqlı mənafelərə hörmət ruhunda bütün sahələrdə dövlətlərarası münasibətlərin və əməkdaşlığın mövcud yüksək səviyyəsini qeyd edərək;

-Öz müstəqilliyinin 10-cu ildönümünü qeyd edən Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın və Özbəkistanın siyasət, iqtisadiyyat, sosial həyat, hüquq sahəsində və digər sahələrdə mühüm islahatlar apardıqlarını, demokratikləşdirmə, insan haqlarının təmin olunması və bazar iqtisadiyyatı infrastrukturunun yaradılması prosesində xeyli tərəqqi olduğunu və bunun onların dünya birliyinə inteqrasiyasına kömək etdiyini vurğulayaraq;

- dünya birliyi ilə mövcud hərtərəfli münasibətləri möhkəmləndirmək səylərinin müstəqillik, suverenlik, təhlükəsizlik, ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq, zor işlətməmək və zor işlətməklə hədələməmək, iqtisadi və digər təzyiq üsulları tətbiq etməmək prinsipləri əsasında davam etdiriləcəyini bildirərək;

- milli iqtisadiyyatların möhkəmləndirilməsi, o cümlədən təbii ehtiyatlardan səmərəli istifadə olunması yolu ilə öz xalqlarının rifahını yüksəltməyə çalışaraq və bu baxımdan regional əməkdaşlığın rolunu və əhəmiyyətini dərk edərək;

- türkdilli dövlətlərin başçılarının müntəzəm surətdə keçirilən görüşlərinin faydasını nəzərə çarpdıraraq və Ankara, İstanbul, Bişkek, Daşkənd, Astana və Bakıda keçirilmiş Zirvə toplantılarının bəyannamələrinin əhəmiyyətini vurğulayaraq;

- Birləşmiş Millətlər Təşkilatı nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki yekun aktının və ATƏT-in digər əsas sənədlərinin müddəalarına sadiq qaldıqlarını təsdiqləyərək;

- türkdilli ölkələrin potensialını nəzərə alaraq və dostluq, mehriban qonşuluq, qarşılıqlı fayda və hüquq

bərabərliyi ruhunda əməkdaşlığa XXI əsrdə yeni təkan verilməsinin zəruriliyinə diqqəti cəlb edərək, perspektivləri qeyd edərək və maraq doğuran beynəlxalq və regional məsələlər barədə fikir mübadiləsi apararaq bəyan edirlər:

1. Dövlət başçıları türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin müsbət inkişafını məmnunluqla bildirərək və bu münasibətləri qarşılıqlı surətdə faydalı əsasda və hüquq bərabərliyi əsasında müxtəlif sahələrdə daha da genişləndirməyin və dərinləşdirməyin zəruriliyini qeyd edərək, İstanbul Zirvə görüşünün bu istiqamətdə əhəmiyyətini vurğulamışlar.

2. Dövlət başçıları demokratiyaya, insan haqlarına, sekulyarizmə, sosial ədalətə və bazar iqtisadiyyatına sadiq olduqlarını təsdiqləmişlər.

3. Dövlət başçıları tarixi, dil və mədəni əlaqələrin möhkəmləndirilməsinə və bu istiqamətdə işin gücləndirilməsinə tərəfdar olduqlarını, TÜRKSOY-un təhsil və mədəniyyət sahəsində fəaliyyətinin müsbət töhfə verdiyini bildirmiş və bu təşkilatın fəaliyyətini bundan sonra da təşviq edəcəklərini vurğulamışlar.

4. Dövlət başçıları böyük "İpək yolu"nun bərpasının, regionda turizmin və iqtisadiyyatın inkişafına kömək edəcək hərtərəfli regional və beynəlxalq əməkdaşlığın inkişafı sahəsində işləri sürətləndirməyin zəruriliyini vurğulamışlar. Bununla əlaqədar olaraq, dövlət başçıları müasir nəqliyyat sistemlərinin rolunu qeyd etmiş, həmin sahədə saziş və layihələri həyata keçirmək məqsədi ilə fəal əməkdaşlığı davam etdirməyin zəruriliyini təsdiqləmişlər.

5. Dövlət başçıları türkdilli ölkələrin mədəni və tarixi irslərini qoruyub saxlamaq sahəsində səylərin davam etdirilməsinə tərəfdar çıxmış və türk dünyasının ümumi dəyərlərini ortaya çıxarmaq, habelə xalqları yaxınlaşdırmaq üçün kütləvi informasiya vasitələri və ictimai təşkilatlar arasında əməkdaşlığın zəruriliyini təsdiqləmişlər.

6. Dövlət başçıları türkdilli xalqlar arasında dostluğu möhkəmləndirmək məqsədi ilə təhsil sahəsində sıx əməkdaşlığı dərinləşdirməyin vacibliyini təsdiqləmişlər.

7. Dövlət başçıları təbii ehtiyatların, o cümlədən neft və qazın hasilatının və istifadəsinin vacibliyini təsdiqləmiş və bununla əlaqədar olaraq nəzərə çarpdırmışlar ki, onlar öz ölkələrinin karbohidrogen xammalının dünya bazarlarına göndərilməsi üçün "Şərq-Qərb" enerji daşıyıcıları dəhlizinin gerçəkləşdirilməsində və istismarında əməkdaşlığa böyük əhəmiyyət verirlər.

Dövlət başçıları bildirmişlər ki, regionun müştərək enerji layihələrinin həyata keçirilməsi işində beynəlxalq və özəl maliyyə təşkilatlarını bundan sonra da təşviq edəcəklər.

8. Dövlət başçıları ətraf mühitin mühafizəsinə çox böyük önəm verərək, regionda, xüsusən Aral dənizi

bölgəsində ekoloji vəziyyətin yaxşılaşdırılması üçün təxirəsalınmaz tədbirlər görülməsinə çağırmışlar.

9. Dövlət başçıları türkdilli ölkələr arasında ticarət-iqtisadi əlaqələri genişləndirmək məqsədi ilə ikitərəfli və çoxtərəfli layihələrin, xüsusən sənaye, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və turizm sahəsində layihələrin hazırlanmasının və həyata keçirilməsinin əhəmiyyətini vurğulamışlar.

10. Dövlət başçıları öz ölkələrinin və regionun iqtisadi inkişafında kiçik və orta müəssisələrin rolunu nəzərə çarpdıraraq, onlar üçün lazımi kadrlar hazırlamaqdan ötrü texniki əməkdaşlığın əhəmiyyətini qeyd etmiş sahibkarlar və biznesmenlərlə əməkdaşlığa əlverişli şərait yaradılmasına tərəfdar olduqlarını bildirmişlər.

11. Dövlət başçıları ayrı-ayrı türkdilli ölkələr arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsini dəstəklədiklərini bildirmişlər.

12. Dövlət başçıları parlamentlər, mərkəzi və yerli hakimiyyət və idarəetmə, özünüidarə orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xüsusi əhəmiyyət vermişlər.

13. Dövlət başçıları qlobal və regional sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi sahəsində BMT-nin, ATƏT-in və digər beynəlxalq təşkilatların səylərini dəstəklədiklərini bildirərək, mübahisələrin sülh yolu ilə həlli prinsiplərinə sadiq qaldıqlarını və bu baxımdan geniş əməkdaşlığın zəruriliyini vurğulamışlar.

Dövlət başçıları Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə prosesini dərinləşdirməyin zəruriliyinə tərəfdar olduqlarını bildirmiş, qeyd etmişlər ki, bu forum regionda sülh və sabitliyin təmin edilməsinin mühüm vasitəsidir. Dövlət başçıları beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə ATƏT və İslam Konfransı Təşkilatı arasında əlaqələrin faydalı olduğunu nəzərə çarpdırmışlar.

14. Dövlət başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi haqqında müvafiq qətnamələrini və ATƏT-in qərarlarını dəstəklədiklərini bildirmiş və onların yerinə yetirilməsinin vacibliyini vurğulamışlar.

15. Dövlət başçıları regional və qlobal sülhə, dövlətlərin ərazi bütövlüyünə, müstəqilliyinə, təhlükəsizliyinə, habelə sabitliyinə və Konstitusiya quruluşuna qorxu törədən terrorizm və separatizmin hər cür formalarını və təzahürlərini pisləmişlər. Dövlət başçıları beynəlxalq terrorizmlə, habelə radikal və separatçı cərəyanlarla və narkotik maddələr, silah qaçaqmalçılığı kimi sərhədaşırı cinayətlərlə birgə mübarizənin vacibliyini vurğulamış, bu mübarizədə ikitərəfli və çoxtərəfli səviyyələrdə, habelə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmək əzmində olduqları-

BAKÜ PARKI

AZERBAYCAN CADDESİ
54. SOKAK

DOKUZ EYLÜL ÜNİVERSİTESİ

Fatih
1996
Üniversitesi

nı təsdiqləmişlər.

16. Dövlət başçıları narkotiklərin və prekursorların qanunsuz istehsalı və satışının artması meylini nəzərə çarpdıraraq, öz ölkələrinin ərazisindən həmin maddələrin qanunsuz tranziti üçün istifadə edilməsindən narahat olduqlarını bildirmiş və narkotik maddələr qaçaqmalçılığı ilə mübarizədə daha sıx əlaqələndirməni təmin etmək, müntəzəm informasiya mübadiləsi üçün məlumat bankı yaratmaq işlərinə başlamaq haqqında razılığa gəlmişlər.

Dövlət başçıları beynəlxalq terrorizm, narkotik maddələr və silah qaçaqmalçılığı, mütəşəkkil cinayətkarlıq və qanunsuz miqrasiya ilə mübarizədə əməkdaşlığın vacibliyini vurğulamışlar.

Dövlət başçıları BMT-nin narkotiklərə beynəlxalq nəzarət proqramı da daxil olmaqla, dünya birliyinin bütün təşəbbüslərinə kömək göstərmək əzmində olduqlarını bildirmişlər.

17. Dövlət başçıları Əfqanıstandakı vəziyyətdən dərin narahatlıq keçirdiklərini bildirmiş və münaqişənin sülh yolu ilə tezliklə həlli üçün beynəlxalq birliyin göstərdiyi səyləri dəstəklədiklərini bəyan etmişlər.

18. Dövlət başçıları İstanbul Zirvə görüşünün türkdilli ölkələr arasında mövcud münasibətləri və əməkdaşlığı möhkəmləndirəcəyinə, regional sülhün, sabitliyin, təhlükəsizliyin, iqtisadi inkişafın və iştirakçı ölkələrin xalqlarının tərəqqisinin təmin edilməsi işinə sanballı töhfə verəcəyinə əmin olduqlarını bildirmiş və səmimi qəbula, qonaqpərvərliyə görə türk xalqına və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərə təşəkkür etmişlər.

19. Dövlət başçıları VIII Zirvə görüşünü 2002-ci ildə Aşqabad şəhərində keçirməyi qərara almışlar.

Bəyannamə 2001-ci il aprelin 27-də İstanbul şəhərində hər biri türk və rus dillərində olmaqla altı nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir."

Beləliklə, aprelin 27-də Azərbaycan Prezidenti Heydər Əliyevin qardaş ölkəyə bu işgüzar səfəri də müvəffəqiyyətlə başa çatmışdır.

2001-ci ilin aprel ayının 30-da Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının maddi-texniki təminat rəisi H.Tolon Azərbaycanın Müdafiə naziri S.Əbiyevin dəvəti ilə Bakıya gəlmişdir. Səfər zamanı iki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlığın inkişafına dair bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Qonağı Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

May ayının 1-də Türkiyə Jandarma Qüvvələrinin Baş Komandanı A.Yalman Azərbaycanın Daxili İşlər naziri R.Usubovun dəvəti ilə Bakıya rəsmi səfərə gəlmişdir. Səfər zamanı iki ölkənin müvafiq strukturları arasında danışıqlar keçirilmiş, əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. A.Yalmanı Azərbaycanın Prezidenti Heydər Əliyev qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "SNN-Türk" televiziya kanalının müxbiri Gürkan Zənginə 13 sentyabr 2001-ci il tarixdə müsahibə vermişdir.

Beləliklə, bu illər ərzində ölkələrimiz və xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələri durmadan yüksələn bir xətlə inkişaf etməkdədir ki, bu da Azərbaycan Prezidentinin apardığı siyasi xəttin nəticəsidir. Bu illər ərzində ölkələrimiz arasında 87 saziş və müqavilə imzalanmışdır Azərbaycan heç bir dövlətlə bu qədər mühüm və kəmiyyətcə çox sənəd imzalamamışdır. Əlaqələrimiz o qədər sürətlə inkişaf etməkdədir ki, bir neçə il bundan öncə bağlanmasına baxmayaraq bu sazişlərin bəziləri artıq zamanın tələblərinə cavab vermir və köhnəlmiş sayılır. Buna görə də hər iki tərəfin razılığı ilə hazırda onların üzərində iş gedir və yeni variantları hazırlanır.

Əlaqələrimizin nəzərə çarpan cəhətlərindən biri də odur ki, Azərbaycan heç bir ölkə ilə strateji əməkdaşlıq haqqında müqavilə imzalamamışdır. Hazırda əlaqələrimiz o yüksəkliyə çatmışdır ki, hər iki dövlət birbirini strateji müttəfiq hesab edir. Yaxınlarda Türkiyə, Azərbaycan və Gürcüstan arasında bağlanacaq yeni saziş isə ölkələrimizi müdafiə, terrorçuluğa və narkobiznesə qarşı mübarizə sahəsində də müttəfiq edəcəkdir.

9-14 iyulda Azərbaycan Milli Məclisinin Sədri M.Ələsgərov Türkiyədə səfərdə olmuşdur.

24-25 avqustda Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" yüksək pilotaj eskadrilyası Bakı səmasında öz ustalığını nümayiş etdirmişdir.

25-26 avqustda Türkiyə Silahlı Qüvvələri Baş Qərargah Rəisi H.Kıvrıkoğlu Azərbaycanda səfərdə olmuşdur.

21-22 oktyabrda Türkiyənin Xarici İşlər naziri İ.Cem Azərbaycanda qısamüddətli səfərdə olmuşdur.

2002

2002-ci ildə də əlaqələrimizin daha da intensivləşməsi görünməkdədir. Bu heç də təsadüfi deyildi. Axı artıq diplomatik əlaqələrimizin yaradılmasının 10 illiyi qeyd olunurdu və bir növ əlaqələrimizə baxış keçirilirdi.

14 yanvar 2002-ci ildə Türkiyə Prezidenti Ə.N.Sezər Azərbaycan Prezidenti Heydər Əliyevə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

14 yanvarda Türkiyənin Azərbaycandakı Səfirliyi "Avropa" otelində iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar qəbul keçirmişdir. Qəbulda Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etmişdir.

15 yanvar tarixdə Azərbaycan

Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Ə.N.Sezərə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

31 yanvarda Azərbaycan Prezidenti Heydər Əliyev Nyu-Yorkda Türkiyənin Xarici İşlər naziri İ.Cemlə görüşmüşdür. Görüş zamanı Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin perspektivləri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk Qrupunun fəaliyyəti müzakirə olunmuşdur.

6-10 fevral tarixdə Türkiyə Böyük Millət Məclisinin Sədri Ö.İzgi Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Milli Məclisin Sədri M.Ələsgərov, Baş nazir A.Rasizadə, Xarici İşlər naziri V.Quliyev ilə görüşmüş, BDU-nun fəxri doktoru adına layiq görülmüşdür.

29-30 aprel 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə və Gürcüstan Prezidentlərinin Trabzonda keçirilmiş Zirvə görüşündə iştirak etmişdir.

Yola düşməzdən əvvəl jurnalistlərə müsahibə verən Azərbaycan Prezidenti göstərmişdir ki, biz - Türkiyə, Gürcüstan və Azərbaycan Prezidentləri bölgədə təhlükəsizlik məsələlərini müzakirə etmək üçün, indi işlərimizdə çox mühüm yer tutan Şərq-Qərb dəhlizinin, Baki-Tbilisi-Ceyhan neft ixrac kəmərinin, Bakı-Ərzurum qaz kəmərinin təhlükəsizliyini təmin etmək üçün və əsasən, beynəlxalq terrorizmlə mübarizə barəsində səylərimizi birləşdirmək üçün, bölgədə və ümumiyyətlə ölkələrimizdə təhlükəsizliyi təmin etmək üçün bu görüşə toplaşırıq.

...İndi dünyada gedən proseslər belədir ki, dövlətlər ikitərəfli əməkdaşlıq edirlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər və müxtəlif görüşlər keçirib regional səviyyədə əməkdaşlıq edirlər. Bunların hamısı bir məqsədə yönəldilibdir - sülh, təhlükəsizlik yaransın. İndi də aktual olan beynəlxalq terrorizmə, narkotiklərin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, silah qaçaqmalçılığı ilə mübarizə, insan alveri ilə mubarizə - bunlar çox mühüm məsələlərdir. Bu mübarizəni hər ölkə aparır. Amma regionlarda biz işlərimizi əlaqələndirəndə, bir-birimizə yardım edəndə bu işlər daha da uğurla gedir.

Biz fərman verərək komissiya yaratmışıq və burada bütün dövlət orqanları təmsil olunublar. Onlar lazımi tədbirlər hazırlayıb həyata keçirəcəklər ki, biz həm Bakı-Tbilisi-Ceyhan boru xəttinin, həm də Bakı-Tbilisi-Ərzurum kəmərinin təhlükəsizliyini təmin edək.

Aprelin 29-da Zirvə görüşü oldü. Görüşdəki nitqində Azərbaycan Prezidenti bu toplantıya qarşılıqlı dialoqun yeni bir təzahürü kimi yanaşdığını söyləyərək göstərdi ki, həyata keçirmək əzmində olduğumuz mühüm iqtisadi layihələr təkcə regionun simasını dəyişdirməyəcək, həm

də xalqlarımızı və dövlətlərimizi birbirinə daha da yaxınlaşdıracaq, regiondakı demokratik proseslərə daha böyük vüsət verəcəkdir. Bu eyni zamanda regionun sabitliyinə və iqtisadi rifahına xidmət edəcəkdir.

Enerji layihələrinin reallaşması bu gün Şərq - Qərb enerji dəhlizi ideyasının birgə səylərimizlə gerçəkliyə çevrildiyini göstərməkdədir. Digər tərəfdən, regionumuzun irimiqyaslı nəqliyyat qovşağı olması da qarşılıqlı əməkdaşlığımız və dünya iqtisad sisteminə inteqrasiyamız üçün mühüm şərtdir. Torpaqlarımızdan keçən tarixi İpək yolunun bərpası Türkiyənin və Cənubi Qafqaz regionunun əhəmiyyətini daha da artırmışdır. Nəticədə ticarətin inkişafına, təbii ehtiyatların istifadəsi və nəqlinə, sivil və demokratik cəmiyyət quruculuğuna, mənəviyyatların və mədəniyyətlərin dialoquna yeni imkanlar açmışdır.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini regionda qeyri-sabitliyin ən böyük amili adlandıran Prezidentimiz onun hələ də həll olunmamasının və regionda mövcud olan bir sıra problemlərin sürətli iqtisadi inkişafın, əməkdaşlığın imkanlarını məhdudlaşdırdığını vurğuladı.

Müasir mərhələdə, xüsusilə də 2001-ci il 11 Sentyabr hadisələrindən sonra belə bir müqavilənin imzalanması antiterror koalisiyasına qoşulmağımızın və bir çox digər cinayətlərə qarşı birgə mübarizə aparmaq məqsədimizin təzahürü olduğunu bildirən Heydər Əliyev bundan sonra da hər üç dövlətin siyasi, iqtisadi, sosial, mədəni və hüquq sahələrində, demokratiyanın inkişafı və əsas insan hüquqlarının qorunması sahələrində əməkdaşlığının zəruri olduğunu göstərdi. Türkiyə, Gürcüstan və Azərbaycan Prezidentlərinin Trabzon görüşünün çoxşaxəli və çoxtərəfli əməkdaşlığımızın mühüm bir mərhələsinə çevriləcəyinə ümid bəslədiyini görüş iştirakçılarının diqqətinə çatdırdı.

Görüş zamanı Aprelin 30-da Trabzondakı "Zorlu Qrand" mehmanxanasının "Authentinq" salonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin, Gürcüstan Prezidenti Eduard Şevardnadzenin iştirakı ilə Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq, qanunsuz narkotik və psixotrop maddələrinin qaçaqmalçılığı, qeyri-qanuni yollarla əldə olunmuş vəsaitin yuyulması, silah və insan alveri və digər mühüm cinayətlərlə mübarizə haqqında Müqavilə"nin imzalanma mərasimi oldu.

Sonra Prezidentlər böyük öndər Mustafa Kamal Atatürkün Trabzondakı muzeyini ziyarət etdilər, Trabzondakı dövlət su işləri təsisatına gedərək, bu müəssisənin işi ilə tanış oldular, onların şərəfinə rəsmi qəbul təşkil edildi. Bundan sonra Prezidentlər bəyanatla çıxış etdilər və jurnalistlərin suallarına cavab verdilər.

Beləliklə Trabzon Zirvə görüşü regional təhlükəsizliyin təmin edilməsi istiqamətində, qardaş Gürcüstan və Türkiyə ilə əlaqələrimizi daha da möhkəmləndirmək və koordinə etmək istiqamətində atılan konkret bir addım oldu. Toplantıda imzalanan müqavilə İstanbul sammitində qəbul edilmiş "Avropanın təhlükəsizlik xartiyası"nın müddəalarına tam uyğun idi.

Bu sənədi həm də Cənubi Qafqazın təhlükəsizliyinə dair ilk rəsmi sənəd kimi də dəyərləndirmək olar. Bu vaxta kimi bölgənin təhlükəsizlik arxitekturasına dair bir neçə pakt variantı müzakirə olunmuş, ancaq heç bir nəticə əldə olunmamış, belə bir anlaşma heç vaxt imzalanmamışdı. Trabzon sammiti bu istiqamətdə ilk addım oldu. İlk dəfə olaraq ikidən artıq dövlət regionun təhlükəsizlik problemlərinə dair bir araya gəlib vahid mövqe nümayiş etdirdilər.

Türkiyə NATO ölkəsidir və bizim regionda aparıcı rol oynayan dövlətdir. Bu sənəd Azərbaycan və Gürcüstanı NATO-ya daha dərindən və daha sürətlə yaxınlaşmasına yardım edəcək, təhlükəsizliyimizə problem yarada bilən qüvvələrin qarşısında durmaq qabiliyyətimizi möhkəmləndirəcəkdir.

Bir sözlə Trabzon sammitində bölgədə sabitliyin təməli qoyuldu. Bu sənəd həm də ona görə mühümdür ki, o bölgədəki dövlətlərin strateji maraqlarının birləşdirilməsini rəsmi olaraq formalaşdırır və onları birbirinə bağlayan böyük iqtisadi layihələrin və onların özlərinin təhlükəsizliyinin təmin edilməsində himayəedici rol oynayır. Əslində bu sənəd Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin, iqtisadi tərəqqinin təməl daşının qoyulması deməkdir. Həm də bu sənədlə regionda geosiyasətin formalaşmasında və müəyyən olunmasında Ermənistanın təcrid olunmasına da aparıb çıxara bilər və bir növ region dövlətlərinin Ermənistana öz təcavüzkar siyasətindən əl çəkməyin vaxtının gəldiyi barədə xəbərdarlıqdır.

Bir şeyi də yaddan çıxartmaq olmaz ki, sammitin gündəliyində duran məsələlər günün məsələləri, aktual məsələlər idi.

Böyük perspektivə malik olan bu sənəd dövlətimizin maraqlarının daha da möhkəmlənməsinə, qardaşlıq əlaqələrimizin daha da sıxlaşmasına, ölkəmizin başçısı Heydər Əliyevin həmişə qardaş Türkiyə ilə birlikdə olması və strateji müttəfiqliyimizin daha da möhkəmləndirilməsi yolunda göstərdiyi səylərin diapazonunun daha da genişləndirilməsinə xidmət edən bir sənəd idi.

Trabzon görüşünü çoxtərəfli əməkdaşlığımızın mühüm mərhələsi, "qonşu və dost dövlət başçılarının görüşü" adlandıran ölkəmizin başçısı hər üç tərəfin birgə hərəkət etməsinə kömək edəcək bu sənədin ölkələrimiz və region üçün çox önəmli olduğunu göstərmişdir.

Səfərdən geri qayıdarkən Bina hava limanında görüş barədə jurnalistlərin suallarına cavab verən ölkəmizin başçısı qeyd etmişdir ki, bu çox əhəmiyyətli görüş idi.

Zirvə görüşünün məqsədi bölgədə bir neçə əsas sahələrdə əməkdaşlığı gücləndirməkdən ibarət idi. Bunlar beynəlxalq terrorizmlə mübarizə, bölgənin təhlükəsizliyinin təmin olunması, Şərq-Qərb enerji dəhlizinin mühafizəsi və təhlükəsizliyinin təmin edilməsidir. Bu məsələlər bizim toplaşmağımıza, belə bir regional əməkdaşlıq etməyimizə səbəb olubdur. Bu təşəbbüsü Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər irəli sürmüşdü. Orada bəyan etdim, bu gün bir daha deyirəm ki, bu çox dəyərli təşəbbüsdür və mən görülən işlərdən də çox məmnunam.

6-8 mayda Türkiyə Baş nazirinin müavini D.Bahçəlinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Prezident Heydər Əliyev, MM-nin Sədri M.Ələsgərov, Baş nazir A.Rasi-zadə qonağı qəbul etmişlər. D.Bahçəli Xarici İşlər naziri V.Quliyev ilə görüşmüşdur. D.Bahçəlini dövlət naziri R.Doğru, Müdafiə naziri S.Çakmakoğlu, Səhiyyə naziri O.Durmuş müşayiət etmişlər.

14 mayda Azərbaycanın Müdafiə naziri S.Əbiyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Müdafiənin Planlaşdırılması və Mənbələrin İstiqamətləndirilməsi İdarəsinin rəisi briqada generalı C.Dumanlını qəbul etmiş, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə" və "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol" imzalanmışdır. Protokola əsasən Türkiyə tərəfi Azərbaycan silahlı qüvvələrinə 3 mln. ABŞ dolları məbləğində hərbi yardım göstərəcəkdir.

28 may 2002-ci ildə Türkiyə Prezidenti Ə.N.Sezər Respublika Günü münasibətilə Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

28 may tarixdə Türkiyənin Xarici İşlər naziri İ.Cem Respublika Günü münasibəti ilə Azərbaycanın Xarici İşlər naziri V.Quliyevə təbrik məktubu göndərmişdir.

29 may 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Prezident sarayında Türkiyə Baş nazirinin baş müşaviri, keçmiş dövlət naziri, Xoca Əhməd Yasəvi adına Beynəlxalq Türk-Qazax Universitetinin İdarə Heyətinin sədri Namiq Kamal Zeybəki qəbul etmişdir.

24-27 iyun 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olmuş, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının on illiyi münasibətilə İstanbulda keçirilmiş Zirvə görüşündə iştirak etmişdir.

25 iyunda Azərbaycan Prezidenti "Üç Dənizin Əfsanəsi" konfransının açılışında iştirak etmişdir.

26 iyunda Azərbaycan Prezidenti Ankarada Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun sədri professor İ.Doğramacının heykəlinin açılış mərasimində iştirak etmişdir. Həmin gün Prezident Heydər Əliyev Azərbaycan mədəniyyət mərkəzinin və Bakı küçəsinin, Türkiyənin Prezidenti Ə.N.Sezər ilə Azərbaycan səfirliyinin yeni binasının açılışında iştirak etmişdir.

26 iyunda Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Ə.N.Sezər ilə görüşmüşdür. Görüşdə bölgədə vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və bir sıra digər məsələlər müzakirə edilmişdir.

Sammitin işi əsnasında Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstanan, Rumıniyanın və Ukraynanın Prezidentləri ilə də təkbətək görüşlər keçirmişdir. O, Türkiyənin Xarici İşlər Naziri İsmayıl Cemi, ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

27 iyunda Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi H.Kıvrıkoğlu ilə görüşmüş, ona Azərbaycanın "Şöhrət" ordenini təqdim etmişdir.

Həmin gün Türkiyənin nüfuzlu ictimai təşkilatları və fondları tərəfindən Azərbaycan Prezidentinə yüksək mükafatların təqdim olunmasına həsr olunmuş mərasim keçirilmişdir. Heydər Əliyev Beynəlxalq İ.Doğramacı Fondunun qızıl medalına, Türkiyə Sənayeçiləri və İş Adamları Fondunun (TÜSİAV) "Üstün Xidmət və Müvəffəqiyyət" mükafatına, Ankara İşgüzar Qadınlar Cəmiyyətinin (ANİKOD) "İlin dövlət adamı" mükafatına, Türk Dünyası Yazıçılar və Sənətçilər Fondunun (TÜRKSAV) "Türk Dünyasının xüsusi mükafatına" layiq görülmüşdür.

27 iyunda Azərbaycan Prezidenti iqamətgahında Türkiyə Baş nazirinin müavinləri D.Bahçəli, M.Yılmazı və Türkiyənin keçmiş Prezidenti S.Dəmirəli qəbul etmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə milli yığma komandasının futbol üzrə Dünya çempionatında üçüncü yer tutması münasibətilə qardaş türk xalqını təbrik etmişdir. Bundan əlavə o bu barədə Prezident Əhməd Necdət Sezərə ayrıca təbrik teleqramı da göndərmişdir.

İstanbul və Ankaradan sonra Azərbaycan Prezidenti Qarsda olmuş, Heydər Əliyev adına parkın və bulvarın açılışında iştirak etmiş, orda yaşayan azərbaycanlılarla görüşmüş, ona Qafqaz universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində iştirak etmişdir.

Azərbaycan Prezidenti Türkiyədə olarkən səhhəti ilə əlaqədar onunla görüşə bilməyən Türkiyənin Baş naziri Bülənd Eçevitə teleqram göndərmiş, ona böyük hörmət və ehtira-

mını bildirmiş, sonra onunla telefonla söhbət etmişdir.

Yuxarıda qeyd olunanlardan da göründüyü kimi bu sammitin də gündəliyi olduqca sıx olmuş, ölkəmizin başçısı onlarla görüş keçirmiş, İstanbuldan başqa Ankara və Qarsa da səfər etmişdir.

Sammitdə nitqlə çıxış edən Heydər Əliyev göstərmişdir ki, Azərbaycan təşkilatın birgə iş üçün qərar verdiyi bütün sahələrdə, xüsusilə də enerji və nəqliyyat sahələrində həm üzv olduğu bu təşkilata, həm də Avropaya ciddi töhfələr verir. İnanırıq ki, yaxın illərdə həmin proses daha da genişlənəcəkdir.

Sammitdən sonra "Üç dənizin əfsanəsi" konfransı öz işinə başlamışdır. Konfransı giriş sözü ilə Türkiyənin "Tekfen" şirkətinin prezidenti, konfransın həmsədri Nihat Gökyiqit açmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev "Üç dənizin əfsanəsi" konfransının açılış mərasimində isə çıxış edərək Xəzər dənizinin sərvətlərinin artıq 2005-ci ildə Ceyhan limanına gedib çatacağından əmin olduğunu bəyan etmişdir. Xalqlarımız tərəfindən əfsanə hesab edilən bu möhtəşəm layihələrin bir hissəsinin artıq həyata keçdiyini, reallaşdığını, digər hissəsinin isə reallaşmaq üzrə olduğunu söyləmiş, artıq yeni layihələr üzərində düşünməyin vaxtının gəldiyini vurğulamışdır. "Üç dənizin əfsanəsi"nin böyük olduğunu bildirən Prezidentimiz göstərmişdir ki, biz bu əfsanənin yaradılmasının iştirakçılarıyıq və bu əfsanəni reallığa çevirmişik. Artıq bu əfsanə deyil reallıqdır. Reallıq odur ki, Xəzər dənizindən neft və qaz hasil olur. Reallıq odur ki, Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri işləyir. Reallıq odur ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası başlayıbdır. Reallıq odur ki, Bakı-Tbilisi-Ərzrum qaz kəmərinin inşası başlayıbdır. Bunlar gerçəklikdir. Bunlar reallıqdır.

Mən indi istəyirəm hörmətli dostlarıma təklif edim ki, onlar yeni bir əfsanə üzərində düşünsünlər. Çünki artıq bunlar əfsanə deyil, bugünün reallıqlarıdır. Ölkəmizin başçısının bu təklifi sürəkli alqışlarla qarşılanmışdır.

Qeyd etdiyimiz kimi səfər zamanı Prezidentimiz Türkiyənin Xarici İşlər naziri ilə də görüş keçirmişdir. Bu görüşdə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi və inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Azərbaycan Prezidenti bir daha təsdiq etmişdir ki, Türkiyə-Azərbaycan dostluğu-qardaşlığı əbədi, sarsılmazdır və biz strateji əməkdaşlığımızı davam etdiririk və bundan sonra da davam etdirəcəyik.

Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem isə görüşdən sonra Prezidentimizin Türkiyə-Azərbaycan əlaqələrində Azərbaycan Prezidentinin yerini və rolunu jurnalislərə verdiyi müsahibədə aşağıdakı kimi qiymətləndirmişdir: Türkiyə-Azərbaycan əlaqələrində, Azərbaycan-Türkiyə qardaşlığında hörmətli Cümhurbaşqanım Heydər Əliyev ən böyük rola sahibdir və bu dostluğun təməlində, bu dostluğun gələcəyində hörmətli Cümhurbaşqanı hamımıza örnək olmuşdur və örnək olmaqda da davam etməkdədir.

Hörmətli Heydər Əliyev ilə görüşüm mənim üçün yolgöstəricidir.

QİƏT-in toplantısının sonunda onun 10 illiyi münasibətilə 12 bənddən ibarət bəyannamə qəbul edildi. "Əməkdaşlığın 10 ili və gələcəyə baxış " adlı bu bəyannamədə təşkilatın əsas prinsipləri və gələcək iş perspektivləri öz əksini tapmışdır.

Bu səfər zamanı ən önəmli hadisələrdən biri də Ankaradakı səfirliyimiz üçün tikilmiş yeni binanın açılış mərasimi oldu. Azərbaycan və Türkiyə Prezidentləri bu mərasimdə çıxış edərək nitq söylədilər. Prezident Heydər Əliyev öz nitqində Türkiyə ilə əlaqələrimizin tarixinə toxunaraq Türkiyənin ağır zamanlarda həmişə ölkəmizin köməyinə gəldiyini bir daha xatırlatdı. Göstərdi ki, dünyanın bir çox ölkələrində artıq səfirliklərimiz mövcuddur. Ancaq hələ gənc dövlət olduğumuz və vəsaitimizin məhdudluğuna görə bir çox ölkələrdə biz daim səfirliyimizi açа bilməmişik. Bu səbəbdən də biz öz diplomatik fəaliyyətimizi həyata keçirmək üçün bəzi dövlətlərin, o cümlədən Türkiyənin ayrı-ayrı ölkələrdəki səfirliklərindən istifadə edirik.

Bu xaricdə birinci səfirlik binasıdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tikib, inşa edib və bu gün biz açılışa toplaşmışıq. Ümid edirəm ki, gələcək illərdə Azərbaycan səfirlikləri olan bütün ölkələrdə öz binalarını tikəcəkdir. Ancaq Azərbaycanın Türkiyədəki, Ankaradakı səfirliyinin binası yenə də birincidir. Necə ki, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkədir, eləcə də Azərbaycanın xarici ölkələrdəki səfirliyinin birincisi Ankaradadır.

Mən bizim qardaş, dost Türkiyə Cümhuriyyətinin hökumətinə, dövlətinə və bizə bu işdə yardım edənlərin hamısına təşəkkür edirəm.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirmişdir ki, bu gözəl bina Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin daha sürətlə inkişaf etməsində və Ankarada Azərbaycanın xarici siyasətinin təbliğ olunmasında, başqa diplomatik missiyalar ilə əlaqələr qurmasında böyük uğurlar gətirəcəkdir.

Çıxışının sonunda ölkəmizin başçısı bir daha qardaş türk xalqına, Türkiyə Cümhuriyyətinə yeni-yeni uğurlar arzulamışdır.

Ölkəmizin başçısının Qarsdakı görüşləri də çox maraqlı və səmərəli olmuşdur. Ermənistanla sərhəddə yerləşən bu vilayətin rəhbərləri və əhalisi ilə görüşmək, onlara ölkəmizin apardığı siyasəti açıqlamaq, sabiq Prezident Süleyman Dəmirəlin " üçbeş quruşdan ötrü biz millətimizin mənafeyini heç kəsə təslim edə bil-

mərik" örnək tutmaq və heç vaxt unutmamaq, bir-birimizə qardaşlıq yardımını davam etdirmək kimi məsələləri ehtiva edən çıxışında ölkəmizin başçısı göstərmişdir ki, ölkələrimiz arasında olan dostluq və qardaşlıq, görülən işlər və həyata keçirilən birgə layihələr - bunların hamısı Türkiyə ilə Azərbaycanı elə tellərlə bir-birinə bağlayır ki, bundan sonra yüz il də, min il də bizi heç kəs, heç vaxt ayıra bilməyəcəkdir.

Beləliklə Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə etdiyi bu səfərdə də böyük uğurlar qazanılmış, əlaqələrimizin genişlənməsində və möhkəmlənməsində irəliyə doğru yeni addımlar atılmışdır.

27-28 iyun 2002-ci ildə Bakıda "Cənubi Qafqazda regional əməkdaşlığın problemləri" mövzusunda seminarda Türkiyə tərəfindən XİN-in Səfiri T.Moralı və Silahlı Qüvvələri Baş Qərargahının ikitərəfli əlaqələr üzrə mütəxəssisi kapitan Ə.İsipek iştirak etmişlər.

11 iyul 2002-ci ildə Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general H.Özkök Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı onu Prezident Heydər Əliyev qəbul etmişdir.

22 iyul 2002-ci ildə Türkiyənin Dini İşlər İdarəsinin rəisi M.N.Yılmaz Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı onu Prezident Heydər Əliyev qəbul etmişdir.

25 iyul 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Ə.N.Sezərə Türkiyənin şimal-şərq vilayətlərində baş vermiş sel daşqını nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar başsağlığı məktubu göndərmişdir.

5 avqust 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşasında iştirak edəcək "Aksoy Holdinq" şirkətinin başçısı E.Aksoy Azərbaycanda səfərdə olmuşdur. E.Aksoyu Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

14-18 avqust 2002-ci ildə Gənclər, İdman və Turizm naziri Ə.Qarayevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyədə işgüzar səfərdə olmuşdur.

17-19 avqust 2002-ci ildə Türkiyənin dövlət naziri R.Doğru Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Azərbaycana hədiyyə etdiyi 15 ədəd kənd təsərrüfatı maşınlarını təqdim etmiş, Baş nazirin müavini A.Şərifov ilə görüşmüşdür. R.Doğrunu Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

27-29 avqust 2002-ci ildə Türkiyənin Dənizçilik naziri R.Mirzəoğlu Azərbaycanda səfərdə olmuş, Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi ilə görüşmüşdür. Qonağı Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

9-11 sentyabr 2002-ci ildə Türk Sənayeçi və İş Adamları Fondunun (TÜSİAV) sədri V.Sarıtoprağın rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Heyəti Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmiş, qəbul zamanı Prezidentə TÜSİAV-ın fəxri sədrliyinə layiq görüldüyü haqqında xatirə lövhəsi təqdim edilmişdir.

15 sentyabr 2002-ci ildə BMT Baş Assambleyasının 57-ci iclası zamanı Azərbaycan Xarici İşlər naziri V.Quliyevin Türkiyə Xarici İşlər naziri Ş.S.Gürel ilə görüşü olmuşdur.

17-18 sentyabr 2002-ci ildə Türkiyə Prezidenti Ə.N.Sezər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlatma mərasimində iştirak etmək üçün Azərbaycanda işgüzar səfərdə olmuşdur. Səfər zamanı Prezidentlərin təkbətək görüşü olmuş, daha sonra nümayəndə heyətlərinin görüşü olmuşdur.

Bu təməlin qoyulması ilə Prezidentimizin neft strategiyasında çox ciddi və mühüm əhəmiyyət kəsb edən addım atılmışdır. Xatırlatmalıyıq ki, 21 müqavilədən ibarət olan və 50 milyard dollar həcmində investisiyalar özünə cəlb edən Xəzər neftinin bu layihəsi zəmanəmizin ən böyük layihələrindən biri sayılır.

Təntənəli təməlqoyma mərasimindəki çıxışında Azərbaycan Prezidenti Heydər Əliyev onun əhəmiyyətini aşağıdakı kimi qiymətləndirmişdir: "Bütün bu layihələr Azərbaycanın iqtisadiyyatının inkişafına yönəldilibdir. Bu gün burada "Azəri-Çiraq-Günəşli" yataqlarının işlənməsinin ikinci fazası haqqında da sənəd imzalanacaqdır. Bu o deməkdir ki, artıq buraya çox böyük investisiya gələcək, işlər sürətlə gedəcəkdir. Çünki biz belə hesab edirik ki, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tamamilə hazır olacaq və biz hamımız birlikdə buradan Türkiyənin Ceyhan limanına gedəcək və orada Azərbaycan neftinin, Xəzər neftinin Ceyhan limanından yola salınmasının şahidi olacağıq".

Ölkəmizin başçısı göstərmişdir ki, bu mərasim olsun deyə 8 il ərzində bir çox çətinliklərdən çıxmış, müqavimət və maneələrin qarşısını almışıq. Bakı-Tbilisi-Ceyhan xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu xəyaldır, mümkün deyil. Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük.

Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz - Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və ABŞ-ın bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə də indi xəyaldan gerçəkliyə gəlib çatmışıq.

Prezidentimiz artıq yeni layihə-

lərin üzərində düşünməyin vaxtının gəldiyini göstərərək bildirmişdir ki, təxminən 2007-2008-ci illərdə "Azəri-Çiraq-Günəşli" yataqlarından 50 milyon ton neft hasil olacaqdır. Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər. Biz onlarla birlikdə çalışacağıq. Ona görə gələcəkdə hətta Bakı-Tbilisi-Ceyhanın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır. Mənim dediyim bu sözlər gələcək üçündür və bu işlər bizim xalqımızın gələcəyi üçündür... 1 trilyon kubmetr ehtiyatı olan "Şahdəniz" yatağından da tezliklə Bakı-Tbilisi-Ərzrum qaz kəməri də çəkiləcəkdir.

Dövlətimizin başçısı çıxışında bir daha vurğulamışdır ki, boru kəmərlərinin sayı artır və bunlar həm iqtisadi, həm də böyük siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əminamanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycan, Gürcüstan, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir. Prezidentimizin bu sözləri qonşu ölkələrlə, o cümlədən qardaş Türkiyə ilə strateji əlaqələrimizin daha da möhkəmləndiriləcəyi niyyətlərindən xəbər verir.

Türkiyənin Prezidenti Əhməd Necdət Sezər də bu layihəni yüksək qiymətləndirərək bildirmişdi ki, bizim bu qərarımız və qətiyyətimiz artıq bu gün bəhrəsini vermişdir. Dostum hörmətli Heydər Əliyevin "Üç dənizin əfsanəsi" konfransında önəmli çıxışı zamanı bildirdiyi kimi, Bakı-Tbilisi-Ceyhan artıq əfsanəliyindən çıxmış, gerçəkliyə çevrilmişdir. Bəli, indi Şərq - Qərb enerji dəhlizi layihəsi geridönməz nöqtəyə çatmışdır. Bundan sonra bölgəmizin inkişafına və xalqımızın gücünə söykənən yeni əfsanələr tapmalı, bunları reallığa çevirmək üçün birlikdə çalışmalıyıq.

Bu təməlqoyma mərasimi Prezidentimizin böyük müdriklik və uzaqgörənliklə hazırladığı yeni neft strategiyasının həyata keçirilməsində daha müvəffəqiyyətli bir addım oldu. XXI əsrin ən nəhəng layihəsi olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlqoyma mərasimini 2002-ci ilin ən mühüm hadisələrindən biri kimi səciyyələndirmək olar. Bu tədbirlə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılması üçün həlledici mərhələnin başlanğıcı qoyuldu. Bu həm də Azərbaycan respublikasının Prezidenti Heydər Əliyevin memarı olduğu yeni neft strategiyasının məntiqi nəticəsi, parlaq uğurudur. Artıq layihə tikinti mərhələsinə qədəm qoymuşdur. Beləliklə o layihəlikdən çıxaraq real fəaliyyət sahəsinə çevrilmişdir.

Ümumi uzunluğu 1760 kilometr olan bu kəmərin 442 kilometri ölkəmizin ərazisindən keçəcək, bu hissənin tikintisi üçün 155 milyon dollar,

texniki qurğuların Gürcüstan və Azərbaycan ərazisindəki inşasına isə 148 milyon dollar vəsait xərclənəcəkdir. 3 mindən çox yerli vətəndaş işə cəlb olunacaq. Bundan əlavə, bir sıra sosial layihələrin də həyata keçirilməsi də nəzərdə tutulur.

Beləliklə Prezidentimiz tərəfindən əsası qoyulan bu layihə təkcə ölkəmiz üçün deyil, eyni zamanda qardaş Türkiyənin də gələcək iqtisadi inkişafına böyük təkan verəcək, regionda sülhün və sabitliyin möhkəmləndirilməsini təmin edəcəkdir. Bir sözlə, bu kəmər regionda sülhün və əməkdaşlığın başlıca qarantına çevriləcəkdir. Gələcəyimizin layihəsi olan bu kəmər region ölkələrinin inkişafına, gələcək nəsillərin firavanlığına xidmət edəcəkdir. Gerçəkləşməsi dövrümüzdə başlanan əsrin layihəsi gələcək nəsillərə necə layiqli miraslar qoymağın ən böyük nümunəsi, Heydər Əliyev adının ölkəmizin tarixinə əbədi olaraq yazılmış salnaməsidir.

17 sentyabrda Ə.N.Sezərin Azərbaycan Prezidenti ilə təkbətək görüşü olmuşdur.

25 sentyabr 2002-ci ildə Azərbaycan Müdafiə naziri S. Əbiyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Maddi-texniki Təchizat məsələlərinə məsul general S.Kayanın başçılığı ilə nümayəndə heyətini qəbul etmişdir. Türkiyə ilə Azərbaycan arasında texniki təchizat və ona aid məsələlərə dair Protokol imzalanmışdır.

25 sentyabr 2002-ci ildə Azərbaycan Milli Məclisində keçirilmiş QDİƏT Parlament Məclisinin Mədəniyyət, Təhsil və Sosial Komitəsinin növbəti 19-cu iclasında Türkiyədən Uşaq və Gənclər Festivalının Təşkilat Komitəsinin sədri S.Tanık iştirak etmişdir.

25-28 sentyabr 2002-ci ildə İqtisadi İnkişaf naziri F.Əliyev Mərmərə Strateji Araşdırmalar Fondunun keçirdiyi 5-ci Avrasiya İqtisadi Forumunda iştirak etmək üçün Türkiyəyə getmişdir.

13-16 oktyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının VII Zirvə görüşündə iştirak etmək üçün Türkiyədə işgüzar səfərdə olmuşdur.

Səfər zamanı 14 oktyabrda Prezident Heydər Əliyev Türkiyənin Prezidenti Ə.N.Sezərlə, 15 oktyabrda İstanbulun "Çırağan" sarayında Türkiyənin iş adamları ilə görüşmüş, nitq söyləmiş, Türkiyənin və bu ölkədə akkreditə olunmuş xarici ölkələrin KİV nümayəndələrilə mətbuat konfransı keçirmişdir. Səfər zamanı Heydər Əliyevi Xarici İşlər naziri V.Quliyev müşayiət etmişdir.

Oktyabrın 13-də Azərbaycan Prezidenti İstanbula gəlmiş, toplantı "Çıraqan Palas" mehmanxanasında kecirilmişdir.

Toplantıda Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Azərbaycan Prezidenti Heydər Əliyev, Əfqanıstan Prezidenti Həmid Kərzay, İran Prezidenti Məhəmməd Xatəmi,

Qırğızıstan Prezidenti Əsgər Akayev, Pakistan Prezidenti Pərviz Müşərrəf, Tacikistan Prezidenti Emomәli Rəhmonov, Özbəkistan Ali Məclisinin (parlamentinin) sədri Erkin Xəlilov, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Rəcəb Saparov və Qazaxıstanın dövlət katibi - Xarici İşlər Naziri Qasımcomərd Tokayev iştirak etmişlər.

İƏT-in bu Zirvə görüşündə Türkiyə hökuməti növbəti Zirvə görüşünədək sədr seçildi.

Həmişə olduğu kimi bu dəfə də ölkəmizə yeni investisiyaların cəlb edilməsi Prezidentimizin səfərinin əsas qayələrindən biri idi.

Bu məqsədlə ölkəmizin başçısı Türkiyənin iş adamları ilə xüsusi görüş keçirtdi. Oktyabrın 15-də keçirilən bu görüşdə Türkiyənin 200-dən çox nüfuzlu şirkətinin 300-dən çox təmsilçisi, habelə bu ölkənin tanınmış ictimai-siyasi xadimləri, dövlət və hökumət nümayəndələri, KİV rəhbərləri və digər şəxslər də iştirak edirdilər. Görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Sənaye, Ticarət və Birjalar Palatasının sədri Rifat Hisarçıqlıoğlu, dövlət naziri Rəşad Doğru, Azərbaycanın İqtisadi İnkişaf naziri Fərhad Əliyev və Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdəki nitqində Türkiyənin müstəqilliyimizin ilk anlarından ölkəmizə göstərdiyi diqqət və qayğılardan, Dağlıq Qarabağ probleminin həlli yollarından söhbət açmış və bu məsələdə Azərbaycanın və dünya ictimaiyyətinin mövqeyini və rolunu açıqlamış, indiyə qədər Azərbaycana gələn iş adamları üçün yaradılan şəraitdən və onların gördüyü işlərdən danışmışdır.

Göstərmişdir ki, Türkiyə iş adamlarının gördüyü işlər nəticəsində artıq ticarət, inşaat və başqa sahələrdə müəyyən irəliləyişlər, işin səviyyəsinin yüksəlməsi müşahidə olunur. Bildirmişdir ki, ancaq mən istərdim ki, Türkiyənin iş adamları gəlib istehsala sərmayə qoysunlar. Xüsusilə də Sabançı kimi məşhur iş adamları.

Neft sektorunda görülən işlərdən bəhs edən Prezidentimiz Bakı-Ceyhan boru xəttinin həyara keçirilməsi yolunda 1994-cü ildən bəri qarşılaşdığı çətinliklərdən danışmış, xətti maliyələşdirən Qərb şirkətlərinin uzun müddət bu layihəyə yox deməsindən, onları qane etmək üçün aparılan mübarizənin ağırlığının çoxunun onun üstünə düşməsindən, 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə nəhayət bəyannamənin imzalanmasından söhbət açmış, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də tezliklə həyata keçəcəyini qətiyyətlə bildirmişdir.

Ölkəmizin başçısı bəyan etmişdir ki, "Türkiyə ilə Azərbaycanın dostluğu, qardaşlığı ancaq iqtisadi sahələrlə bağlı deyildir. Bizim dostluğumuzun, qardaşlığımızın dərin kökləri var. Bizim xalqlarımız qədimdən birdir, bəli, biz bir millət, iki dövlətik. Ona görə də bizim dərdimiz birdir, bizim sevincimiz birdir, qəmimiz, kədərimiz birdir. Türkiyə qüdrətli bir dövlətdir. Dünyanın böyük dövlətlərindəndir. Türkiyə demokratik bir dövlətdir və demokratiyanı müsəlman aləmində inkişaf etdirən ilk dövlətdir. Türkiyənin böyük iqtisadi potensialı var. Türkiyənin güclü ordusu var. Türkiyə bizim üçün dayaqdır, arxadır. Mən inanıram ki, Türkiyə bundan sonra da böyük öndər Atatürkün yolu ilə gedərək, böyük nailiyyətlər əldə edəcək. Əmin ola bilərsiniz ki, Azərbaycan daim Türkiyənin yanında olacaqdır. Azərbaycan bir müstəqil dövlət kimi demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edəcəkdir, inkişaf etmiş dövlətlər səviyyəsinə qalxacaqdır. Bu da Türkiyə - Azərbaycan dostluğunu bir-birinə daha da bağlayacaqdır. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, dönməzdir, sarsılmazdır."

Sonra Azərbaycan Prezidenti Heydər Əliyevə iş adamlarına göstərdəyi diqqət və qayğıya görə Türkiyə-Azərbaycan müştərək iqtisadi komissiyası adından plaket təqdim olundu. Azərbaycanda fəaliyyət göstərən yerli və xarici ölkə jurnalistlərinə göstərdiyi qayğıya, mətbuata verdiyi önəmə, yaratdığı gözəl şəraitə görə ölkəmizin başçısına Türkiyənin "Samanyolu" televiziya kanalının "Medianın dostu" mükafatı təqdim edilmişdir.

Azərbaycan Prezidenti Zirvə görüşündə bəyanatla da çıxış etmiş, orada Türkiyə-Azərbaycan əlaqələrinin gedişatından, ölkəmizdəki vəziyyətdən, Dağlıq Qarabağ münaqişəsinin törətdiyi çətinliklərdən danışmış, ölkəmizin inkişaf yollarını açıqlamışdır.

13-16 oktyabr 2002-ci ildə Antalyada türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının konfransı keçirilmişdir. Konfransda Azərbaycan Milli Təhlükəsizlik naziri N.Abbasovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Konfransda "Əfqanıstanda vəziyyət və terror təhlükəsinin yayılma istiqamətləri" mövzusunda müzakirələr aparılmış, xüsusi xidmət orqanları arasında əməkdaşlığın və qarşılıqlı fəaliyyətin genişləndirilməsi yolları araşdırılmışdır.

18 oktyabr 2002-ci ildə Müstəqillik günü münasibətilə Türkiyə Prezidenti Ə.N.Sezər Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

19 oktyabr 2002-ci ildə Ankaranın "Dövlət rəsm və heykəl muzeyi"nin binasında TÜRKSAV-ın (Türk Dünyası Yazıçıları və İncəsənət Xadimləri Vəqfi) "2001-ci il türk dünyasına xidmət" mükafatlarının təqdimetmə mərasimi keçirilmişdir. Mədəniyyət naziri P. Bülbüloğluna Vəqfin 2001-ci ilin yüksək mükafatı təqdim olunmuşdur.

23 oktyabr 2002-ci ildə Türkiyə Prezidenti Ə.N. Sezər Xəzər dənizində "Merkuri-2" gəmi-bərəsində baş vermiş qəza nəticəsində insan tələfa-

tı ilə əlaqədar H. Əliyevə başsağlığı məktubu göndərmişdir.

26 oktyabrda Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Milli bayramı - Respublikanın elan edilməsi günü münasibətilə Türkiyə Prezidenti Ə.N. Sezərə, Baş nazir B.Ecevitə, TBMM-nin Sədri Ö.İzgiyə təbrik məktubları göndərmişdir.

5 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədəki Parlament seçkiləri nəticəsində qələbə qazanmış və yeni hökuməti təkbaşına formalaşdıracaq Ədalət və İnkişaf Partiyasının sədri R.T.Erdoğan ilə telefon söhbəti aparmış və onu təbrik etmişdir.

5 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədəki Parlament seçkiləri nəticəsində TBMM-də təmsil olunacaq digər partiyanın - Cümhuriyyət Xalq Partiyasının sədri D.Baykal ilə telefon söhbəti aparmış və onu təbrik etmişdir.

11 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin "Sabançı Holdinq" şirkətinin idarə heyətinin sədri Sakıp Sabançının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

18 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin yeni təyin olunmuş Baş naziri A.Gülə təbrik məktubunu göndərmişdir.

20 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Parlamentinin yeni Sədri B.Arınça təbrik məktubunu göndərmişdir.

4 dekabr 2002-ci ildə Türkiyənin Baş naziri A.Gül Azərbaycan Prezidenti Heydər Əliyevə və Baş nazir A.Rasi-zadəyə Ramazan Bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

4 dekabr 2002-ci ildə Türkiyənin Xarici İşlər naziri Y.Yakış Azərbaycan Xarici İşlər naziri V.Quliyevə Ramazan Bayramı münasibətilə təbrik məktubunu göndərmişdir.

6 dekabr 2002-ci ildə Türkiyənin ölkəmizdəki səfiri Ə.Ü.Çeviköz və səfirliyin bir neçə əməkdaşı Ağcabədi və Bərdə rayonlarındakı "Qızıl ay" çadır şəhərciklərində olmuş, Ramazan Bayramı münasibətilə gətirdikləri humanitar yardımı qaçqın və məcburi köçkün ailələrinə paylamışlar.

6 dekabr 2002-ci ildə BMT-nin 57-ci Baş Assambleyasının iclası zamanı müzakirə ediləcək "BMT-ATƏT arasında əməkdaşlıq haqqında" Qətnamə layihəsinə Azərbaycan tərəfinin düzəlişinin dəstəklənməsi ilə əlaqədar Xarici İşlər naziri V.Quliyev Türkiyənin Xarici İşlər naziri Y.Yakışa məktub göndərmişdir.

20 dekabr 2002-ci ildə BMT-nin 57-ci Baş Assambleyasının iclası zamanı "BMT-ATƏT arasında əməkdaşlıq haqqında" Qətnamə layihəsinə Azərbaycanın təklif etdiyi düzəlişi Türkiyə dəstəkləmişdir.

25 dekabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin səfiri Ə.Ü.Çeviközü qəbul etmiş, görüşdə Türkiyənin Avropa İttifaqı ilə münasibətləri, Kipr məsələsi və ikitərəfli münasibətlərin digər aktual məsələləri müzakirə edilmişdir.

26 dekabr 2002-ci ildə Türkiyənin Xarici İşlər naziri Y.Yakış Azərbaycan Prezidenti Heydər Əliyev və Xarici İşlər naziri V.Quliyevə Yeni İl münasibətilə təbrik məktubu göndərmişdir.

2003

7 yanvar 2003-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat rəisi, korpus generalı Hüseyn Göksunu qəbul etmişdir.

7 - 8 yanvar 2003-cü ildə Türkiyə Cümhuriyyətinin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan böyük bir nümayəndə heyətinin başında Bakıya gəlmişdir. Seçkilərdə qələbə çalan partiyanın liderinin Baş nazir seçiləcəyi şübhə doğurmurdu. Onu da qeyd etməliyik ki Ərdoğan heç vaxt Azərbaycanın problemlərinə biganə yanaşmayıb. Bu günə qədər o Azərbaycanda cəmi bir dəfə - 90-cı illərin əvvəllərində olub. Azərbaycana doğmalıq münasibəti bəsləyən Ərdoğan 90-cı ilin yanvar hadisələri zamanı İstanbulda Sovet İttifaqı əleyhinə kütləvi etiraz aksiyalarının keçirilməsinin əsas təşkilatçılarından biri olub.

Azərbaycanda da onun yüksək səviyyədə qəbul edilməsi göstərir ki, ölkəmizin başçısı da Türkiyənin yeni hökuməti ilə işbirliyini genişləndirmək arzusundadır. Hələlik tanışlıq xarakteri daşıyan bu görüşlərdə tərəflərin mövqeləri münasibətlərin inkişafı naminə aydınlaşmalı idi. Ərdoğanın özü ilə heç bir ölkəyə bu səviyyədə aparmadığı yüksək nümayəndə heyəti özü də ona dəlalət edir ki, yeni hökumət və onun başçısı Azərbaycanla iqtisadi əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. Belə ki, Türkiyənin işgüzar dairələri yeni hökumətin timsalında özlərinə siyasi dayaq hiss edirlər. Bunu bir az öncə məşhur türk iş adamı Sabançının böyük bir nümayəndə heyəti ilə Bakıya gələrək Prezident Heydər Əliyevlə görüşməsi faktı da təsdiqləyir.

Jurnalistlərin suallarına cavab verən Ərdoğan bildirmişdir ki, bizim partiya bu günə qədər yürüdülən siyasəti tamamilə dəyişdirmək, bütün türkdilli respublikalarla daha intensiv əlaqələr yaratmaq əzmindədir. Biz inanırıq ki, bu günə qədərki münasibətlər arzu edilən səviyyədə deyildir. Bunun daha arzu edilən, daha ideal səviyyəyə çatdırılması üçün qardaş Azərbaycanla birlikdə əl-ələ, çiyin çiyinə, yəni iki ayrı dövlət, bir millət anlayışı ilə hərəkət edəcəyik və münasibətlərimizi daha da yaxşılaşdıracağıq. Bu sahədə həm iki ölkənin Prezidentləri, həm də hökumət üzvləri əl-ələ verib birlikdə çalışacaqlar. Türkiyənin bir çox ictimai təşkilatlarının və işgüzar dairələrinin nümayəndələri də mənimlə bəra-

bər Azərbaycana gəlmişlər. Biz hamımız münasibətləri daha da inkişaf etdirmək üçün həmrəylik içində olacağıq...

Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi münasibətlərin hələ də arzu edilən səviyyədə olmadığını söyləyən Ərdoğan Qarabağ münaqişəsi ilə bağlı bildirdi ki, biz belə hesab edirik ki, Minsk qrupu öz işini davam etdirməlidir. Həmçinin Ermənistan və Azərbaycan arasında Prezidentlər səviyyəsində danışıqların davam etdirilməsini də arzulayırıq. Bu müzakirələr davam etməli və müsbət nəticə verməlidir.

Yanvarın 7-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.

Noyabrdakı parlament seçkilərində təkbaşına hakimiyyətə gəlmələri ilə Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanı ürəkdən təbrik edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bunun Türkiyənin tarixində əlamətdar bir hadisə olduğunu bildirmişdir.

Demokratiya, bazar iqtisadiyyatı yolunda böyük ənənələrə malik, uzun illərdən bəri NATO-nun üzvü olan qardaş ölkənin yeni hökumətinin fəaliyyətə başladığı qısa müddətdə uğurlu addımlar atdığını nəzərə çarpdıran dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, cənab Rəcəb Tayyib Ərdoğan Baş nazir olandan sonra bu hökumət daha böyük nailiyyətlər əldə edəcəkdir.

Dağlıq Qarabağ probleminin həllində Türkiyənin Azərbaycanın haqq işini daim dəstəkləməsini Prezidentimiz bir daha yüksək qiymətləndirdi.

Qonaq respublikamıza səfərindən və Azərbaycan Prezidenti ilə görüşündən böyük qürur duyduğunu nəzərə çarpdırdı. Prezidentimizin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətləri diqqətlə izlədiklərini vurğulayan hörmətli qonaq ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Azərbaycan və Ermənistan Prezidentləri arasında davam edən görüşlərin xeyirli bir nəticə ilə bitməsini istədiklərini, indiyə qədər olduğu kimi, Azərbaycana ölkəsinin dəstəyinin bundan sonra da davam etdiriləcəyini və hər zaman azərbaycanlı qardaşlarımızın yanında olacaqlarını bildirdi.

Görüşdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin reallaşdırılması, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev Rəcəb Tayyib Ərdoğanı Baş nazir vəzifəsini tutduqdan sonra yenidən Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Bundan sonra onun başçılıq etdiyi nümayəndə heyəti ilə də Prezi-

dentimiz görüş keçirtdi.

Dost ölkədən gəlmiş qonaqları səmimiyyətlə salamlayan Prezident bildirdi ki, bu səfər bizim üçün cox əhəmiyyətli və qiymətlidir. Çünki Türkiyədə hökumət dəyişkliyi baş veribdir. Biz Türkiyədəki işlərin hamısını daim ürəkdən, qəlbdən Türkiyəyə bağlı olaraq izləmişik. Ona görə də belə bir səfərin indi baş verməsini mən Turkiyə-Azərbaycan əlaqələrində xüsusi tarixi əhəmiyyətə malik olan bir hadisə hesab edirəm.

Kecmişdə hər dəfə hökumət təkbaşına iqtidarda olan qüvvələr tərəfindən idarə olunarkən Türkiyənin yüksəldiyini, inkişaf etdiyini qeyd edən Prezidentimiz Ərdoğanın qələbədən sonrakı dinamik fəaliyyətinin Azərbaycanda cox böyük sevgi və məhəbbətlə izlənildiyini, onun ilk addımlarının - Türkiyənin Avropa Birliyinə daxil olması istiqamətindəki fəaliyyətinin, Kipr məsələsi ilə əlaqədar fəaliyyətinin sevindirici hal olduğunu bildirdi.

Bu qələbəni, Türkiyənin inkişaf yoluna düşməsini Azərbaycanda özümüzün belü bir səviyyəyə qalxmamız kimi qəbul edildiyini söyləyən Prezidentimiz göstərdi ki, əvvəldən Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr, dostluq, qardaşlıq əlaqələri olubdur. Təbiidir, bizim dərin köklərimiz məlumdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə həmişə Azərbaycanın ən yaxın dostu, qardaşı olubdur. Bu gün də belədir. Artıq biz birbirimiz ilə strateji əməkdaşlıq səviyyəsində əlaqələr həyata keçiririk. Elə bir sahə yoxdur ki, bizim orada əməkdaşlığımız olmasın.

Təbiidir ki, əsas sahələrdən biri də Türkiyə ilə Azərbaycanı bağlayan, Azərbaycanın böyük təbii sərvətlərinin, Xəzər dənizində olan sərvətlərin dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan boru xəttinin məhz Türkiyənin ərazisindən keçirilməsi, Azərbaycanın böyük təbii qaz ehtiyatlarının yenə də Türkiyəyə və Türkiyədən Avropaya çıxarılması haqqında bizim birgə qərarlarımız və bir çox başqa işlərimizdir. Bunlar bizim hələ görəcəyimiz işlərin əsasıdır. Qarşıda çox böyük imkanlar, böyük perspektivlər var. Onlardan da biz birgə istifadə edəcəyik.

Rəcəb Tayyib Ərdoğan cavab nitqində bildirdi ki, biz, nümayəndə heyətinin bütün üzvləri qardaş Azərbaycanı ziyarət etməkdən və Zatialiləri ilə bir arada olmaqdan böyük məmnunluq və şərəf duyuruq. Təbii, biz bu gün yenə öz evimizdəyik. On il bundan öncə Azərbaycana gəlmişdim, o gündən bu günə baxanda Azərbaycanda rəhbərliyiniz altında əldə olunan nailiyyətləri, inkişafı çox fərqli bir inkişaf görürəm. Doğrudan da Azərbaycan cox ciddi bir dəyişiklik yolunu keçmiş, çağdaşlaşma yolunda çox ciddi bir dəyişikliyi bacarmışdır. İnanıram ki, bu dəyişiklik dünyada da örnək bir yer alır.

Türkiyə ilə Azərbaycan arasında, əslində, anlatmağa ehtiyac olma-

yan cox ciddi qardaşlıq kökləri var. Biz hər şeydən əvvəl qardaşıq. Təbii, bu qardaşlıq kökləri bizim iş adamlarımızın Azərbaycan daxilində gördüklərində, sizlərin onlara qucağınızı açmağınızda özünü göstərir. Amma könlümüz bunun daha çox olmasını istəyir. İnşallah, bu, Sizin onlara göstərəcəyiniz himayə ilə daha da irəliyə gedəcəkdir. Mən buna inanıram. Bizim əl-ələ verərək, həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəni sahədə bunları yüksəlişlə irəliyə aparmaq və inkişaf etdirməyimiz əsas şərtdir. Hazırda bizim ən önəmli münasibətlərimizi daha da genişləndirmək üçün əsas sahələr onlar olduğu üçün biz bu gün buraya Xarici İşlər nazirimizi, Daxili İşlər nazirimizi, Enerji nazirimizi və mədəniyyət nazirimizi də gətirmişik.

O, vurğuladı ki, noyabrın 3-də xalq bizə 34,4 faiz səs verdi və bizim partiya parlamentdə yerlərin 66 faizini qazandı. Qarşımıza xalq tərəfindən böyük bir məsuliyyət qoyulub. Biz 20 gündə Avropa Birliyinin üzvü olan 14 ölkəni və Amerika Birləşmiş Ştatlarını ziyarət etdik. Sonra Rusiyaya bir ziyarətimiz oldu. Ondan sonra da dedik ki, indi artıq türk cumhuriyyətlərini ziyarətə başlamalıyıq və bunu Azərbaycandan başladıq.

Bizim aramızda olan qardaşlıq telləri yalnız keçmişimizdən deyil, həm də gələcəyimizdən ilham alır. Çünki qardaşların arasındakı bağlar zaman baxımından sərhədsizdir. Arzumuz, diləyimiz bu həmrəyliyimizi, bu birliyimizi, bu bərabərliyimizi gələcəyə doğru daha şövqlə, sevgi və məhəbbətlə aparmaqdır. Çünki bizə bizdən fayda var. Bunu bacarmağımız lazımdır. İnşallah, çalışmalıyıq ki, Bakı-Tbilisi-Ceyhan 2005-ci ildə yox, daha tez hazır olsun. Bizim Enerji naziri də buradadır. Böyük səylə, gecə-gündüz durmadan işləməklə bunu daha erkən bitirmək lazımdır. Çünki zamanla yarışmaq məcburiyyətindəyik.

Əlaqələrimizin mədəniyyət və başqa sahələrdə də genişlənməsinə ehtiyac olduğunu vurğulayan qonaq xüsusi olaraq qeyd etdi ki, mən bələdiyyə başqanı olduğum dovrdə bu sahədə Azərbaycan ilə çox sıx əlaqələrim var idi. Bundan sonra bunu daha da artıraraq davam etdirəcəyik.

Görüşdən sonra tərəflər bəyanatla çıxış etdilər ki, bu da Azərbaycan və Türkiyənin 58-ci hökuməti arasındakı əlaqələrin gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirdi.

Prezident Heydər Əliyev öz çıxışında bu görüşə böyük əhəmiyyət verdiyini vurğulayaraq göstərdi ki, Ərdoğanın qardaş türk ölkələrinə səfərinə Azərbaycandan başlaması əlamətdar bir hadisə olmaqla yanaşı çox təbiidir. Belə ki, Türkiyə və Azərbaycan arasındakı dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələri xüsusi xarakter daşıyır, həyatımızın bütün sahələrini əhatə edir və bu dostluq əlaqələrini Azərbaycanda həmişə

yüksək qiymətləndiriblər, bu gün də biz yüksək qiymətləndiririk. Məhz bu dostluq, qardaşlıq əlaqələri Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə edəndən sonra onun inkişafında mühüm rol oynayıbdır. Mən həmişə demişəm, bu gün də deyirəm ki, Azərbaycan öz müstəqilliyini əldə edəndən Türkiyə həmişə Azərbaycanla bərabər olub, bir yerdə olub və Azərbaycanın bütün qayğılarını bölübdür. Dedim ki, bizim əlaqələrimiz çox yüksək səviyyədədir və həyatın bütün sahələrini əhatə edir. Ancaq hesab edirəm ki, indi Türkiyədə yeni hökumət yarananda sonra bir partiyanın iqtidarda olması Türkiyə Cümhuriyyətinin sürətlə inkişaf etməsinə şərait yaradıb və belə halda, təbii ki, Türkiyə-Azərbaycan əlaqələri də gərək o sürətli inkişafla ayaqlaşsın. Yəni onunla bərabər getməyə qadir olsun.

Görüşlər olduqca yüksək səviyyədə və səmimi keçmişdir. Tərəflərin hər addımda sıx təmaslar qurmaq, əlaqələrimizi daha da möhkəmləndirmək, maraqlandıran məsələlər ətrafında müzakirələr və məsləhətləşmələr aparmaq istəyi danışıqların gedişində görünməkdə idi. Elə Prezident Heydər Əliyevin "vaxt elə keçdi ki, elə bil ki, biz heç danışmamışdıq" sözləri buna işarədir. Onun bizim danışıqlarımız üçün 1-2 saat azdır, saatlar lazımdır, inşallah Ərdoğan Baş nazir olduqdan sonra Azərbaycana rəsmi səfər edəcək, proqram daha geniş tutulacaq və bizim dərdləşməyə vaxtımız olacaq - sözləri gələcəkdə də bu səmimi və mehriban danışıqların davam edəcəyindən xəbər verir.

Rəcəb Tayyib Ərdoğan isə öz çıxışında "Azərbaycanın Prezident Heydər Əliyevin rəhbərliyi altında qazandığı nailiyyətlər həmişə bizim diqqət mərkəzimizdədir" - deyə bəyan edərək danışıqların son dərəcə faydalı olduğunu göstərdi. Bildirdi ki, Türkiyə ilə Azərbaycan arasında dərin qardaşlıq və dostluq münasibətləri mövcuddur. Kifayət qədər yüksək səviyyədə olan ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinin ölkələrimizin mənafeyi üçün mühüm nəticələr doğuracağına inanırıq. Ürəkdən inanırıq ki, bu ziyarətimiz də əlaqələrimizin daha da inkişafına mühüm töhfə verəcəkdir. Türkiyə Azərbaycanla əlaqələrini və əməkdaşlığını daha da inkişaf etdirmək əzmindədir. Cənab Əliyevin iş başına gəlməsindən bəri Azərbaycanın da eyni əzm və qərarlılıq icində olduğuna şahidik.

O, vurğuladı ki, cənab Prezidentə də dediyim kimi, biz qardaş və dost olmaqla yanaşı, ölkələrimiz arasında bütün sahələrdə strateji bir həmrəylik və ortaqlıq movcuddur. Bu cərcivədə bəzi məsələləri aşkarlıq şəraitində müzakirə etməyimizin lazımlı və faydalı olduğunu düşünürəm.

Ərdoğanın səfərdə təxminən 150 türk iş adamının, ictimai təşkilatların, Türkiyə Ticarət Palatasının rəhbərlərinin, 50-yə yaxın mətbuat

nümayəndəsinin, dörd nazirin, Ədalət və İnkişaf Partiyası sədrinin bəzi müavinlərinin onunla gəlməsinin səfərə verdikləri böyük əhəmiyyətin sübutudur söyləməsi bu səfərin Türkiyə tərəfindən də yüksək qiymətləndirilməsini göstərir.

Bakı-Tbilisi-Ceyhan layihəsinin 2005-ci ilə qədər həyata keçirilməsində səylərin artırılmasının lazımlılığını vurğulaması da Türkiyənin yeni hökumətinin ölkəmizlə əlaqələrini daha da intensivləşdirmək istədiyini göstərir.

Ərdoğan təəssüflə bildirmişdir ki, 2000-ci ildə ölkələrimiz arasında olan 326 milyon dollarlıq ticarətin həcmi 2001-ci ildə 295 milyon dollara düşmüşdür. Bu da 11 faizlik bir azalma deməkdir. Bu meyl 2002-ci ildə də davam etmişdir. Digər tərəfdən, Azərbaycana qoyulan sərmayəmiz 2001-ci ildə 723 milyon dollar təşkil etmişdir. Biz Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyir və imkanımız daxilində ona kömək etməyə çalışırıq. Bununla bərabər, inanırıq ki, vergi, gömrük, maliyyə və nəqliyyat bölmələrində mövcud olan problemlər Azərbaycanın möhtərəm Baş nazirinin göstərişləri ilə aradan qaldırılacaqdır.

Daha sonra Azərbaycan Prezidenti Heydər Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.

Azərbaycan-Türkiyə əlaqələrinin indiki səviyyəsinə toxunan qonaq bildirdi ki, onları kifayət qədər parlaq hesab etmirik. Həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə münasibətləri qüvvətləndirməliyik. Biz üzərimizə düşən hər şeyi etməyə hazırıq.

Prezidentimiz göstərdi ki, Türkiyə-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Bunu bir daha təkrar edirəm. Problem olur və biz onu həll edirik. Türkiyə ilə Azərbaycan arasında həll edilə bilməyəcək problem yoxdur, olmayıbdır.

Cənab Ərdoğan isə göstərdi ki, mən də cənab Prezidentin sözləri ilə razıyam. Onu da əlavə etmək istəyirəm ki, keçmişdə olmuş xətaları gələcəyə aparmaq siyasətin xarakterinə ziddir. Siyasət əsla kin qəbul etməz. Xüsusilə, qardaşlar arasında bu, əsla mümkün deyildir. Biz bunların hamısının üstündən keçib gedirik, tariximizdə yeni səhifələr açaraq, aramızdakı münasibətləri, ticarətin həcmini artıraraq, həmrəylik içində gələcəyə addımlayırıq və addımlayacağıq.

Dağlıq Qarabağ münaqişəsində Azərbaycana dəstək məsələsinə toxunan Ərdoğan göstərmişdir ki, biz heç vaxt azəri qardaşlarımızı incidəcək bir addım atmadıq. Bu, mümkün də deyildir. Biz cənab Heydər Əliyev ilə Robert Koçaryan arasında davam edən danışıqların Azərbaycan üçün xeyirli bir nəticə ilə başa çatmasını diləyirik. Minsk posesini müsbət bir mexanizm olaraq qəbul edirik, ancaq bir nəticə verməməsini də təəccüblə qarşılayırıq. Bu baxımdan Türkiyə

bu günə qədər yürütdüyü siyasəti bundan sonra da davam etdirəcəkdir. Biz hər zaman azəri qardaşlarımızın yanında olacağıq.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adından yanvarın 7-də "Ulduz" sarayında Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın şərəfinə ziyafət verilmişdir.

Ziyafətdə çıxış edən dövlətimizin başçısı Ərdoğana müraciətlə bildirmişdir: "Cənab Ərdoğan, mən Sizinlə təkbətək danışıqdan, apardığımız fikir mübadiləsindən çox məmnunam. Bizim fikirlərimiz üst-üstə düşür və indiyə qədər olduğu kimi, bu gün Siz də, mən də Türkiyə - Azərbaycan əlaqələrini ən yüksəkdə tuturuq. Mən Sizinlə apardığım danışıqlar nəticəsində belə anladım."

Xalqın Ədalət və İnkişaf Partiyasına səs verməsinin böyük bir nailiyyət olduğunu vurğulayan Heydər Əliyev belə bir şəraitdə onun nümayəndə heyətinin başında Azərbaycana səfərinin çox əhəmiyyət daşıdığını göstərmiş, Türkiyə - Azərbaycan əlaqələrinin Türkiyə siyasətində yenə də prioritet xarakter daşıdığını göstərdiyini bildirmişdir. Xüsusi olaraq qeyd etmişdir ki, bizim siyasətimizdə bu əlaqələr xüsusi yer tutur və bu da bizi məmnun edir.

Qarabağ probleminin Azərbaycanın böyük yarası olduğunu söyləyən Prezidentimiz onun həlli yolunda Türkiyə ilə məsləhətləşmələrin davam etdirildiyini, Türkiyənin dəstəyinə ümid bəslədiyini göstərmiş, bazar iqtisadiyyatında keçid dövründə ərazisinin xeyli hissəsini itirən və milyondan artıq vətəndaşımızın qaçqın olması şəraitində yaşayan Azərbaycanın bu çətinliklərə baxmayaraq irəlilədiyini bildirmişdir.

Təkcə 2002-ci ildə ölkəmizə 2 milyard dollar investisiya qoyulduğunu qeyd edən ölkəmizin başçısı Türkiyənin iş adamlarını ölkəmizə daha çox cəlb etmək istəyinin həmişə olduğunu da vurğulamışdır.

Onlar haqqında öz ürək sözlərini açıqlayan, onların gördükləri işləri yüksək qiymətləndirən Prezidentimiz bildirmişdir: "Türkiyənin iş adamları Azərbaycanda çox işlər görüblər. Onların işləri elə şəhərimizdə də görünür. Məsələn, bizim aeroportun binasının tikilməsində Türkiyənin şirkətləri gözəl işlər görüblər. İndi biz fəxr edirik ki, beynəlxalq hava limanımız vardır. Amma bir o deyil, başqa çox işlər də görüblər. Ancaq hələ bundan sonra da işlər görəcəklər. Ümidvaram ki, cənab Ərdoğanla bərabər gəlmiş iş adamları ilə sabah keçiriləcək görüş və orada aparılacaq fikir mübadiləsi yeni imkanlar açacaqdır.

Mən bir neçə ay öncə Türkiyədə olarkən İstanbulda Türkiyənin iş adamları ilə görüşdüm, onları Azərbaycana dəvət etdim. Ondan sonra Türkiyənin ən böyük iş adamı Sabançı Azərbaycana gəldi. Sonra Şarik Tara Azərbaycana gəldi, başqaları gəldi, böyük görüşlər keçirdik. İndi

cənab Ərdoğan buraya 150 iş adamı gətiribdir. Heç olmasa bunlardan 50-si burada yaxşı işləsə, bizim işlərimiz çox irəliyə gedəcəkdir.

Azərbaycan Prezidenti Türkiyənin iş adamlarına müraciətlə bildirmişdir ki, bizim ölkəmiz açıqdır, hər şey açıqdır. İstərdim ki, Türkiyə Azərbaycana daha çox sərmayə qoysun, gəlib burada iş görsünlər. Xüsusən istehsal yaratsınlar. İstehsal yeni iş yerləri açır.

300 milyon dollarlıq ticarət dövriyyəsi də Türkiyə və Azərbaycan üçün o qədər də yararlı bir şey deyildir. Biz bunu artırmalıyıq."

Türkiyənin həyatında yeni bir dövrün açılmasının, yeni bir mərhələnin başlamasının Azərbaycan üçün də sevindirici bir hal olduğunu bəyan edən ölkəmizin başçısı yeni hökumətin Türkiyənin iqtisadiyyatını inkişaf etdirmək üçün planlar hazırladığını, Türkiyənin iqtisadiyyatı nə qədər çox inkişaf etsə, bunun Azərbaycana da o qədər müsbət təsiri olacağını bildirmişdir.

Başqa məsələlərdə, beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə ilə Azərbaycan bir yerdədir və bir yerdə də olacağıq - deyən Prezidentimiz erməni lobbisinə qarşı da birgə mübarizəmizi xatırlatmış və bu sahədə də yenə də bir yerdə olacağımızı, ermənilərin türklərin onlara qarşı soyqırım etmələri haqqındakı mənfur fikirlərin həmişə əleyhinə çıxdığımızı və çıxacağımızı bildirmişdir.

Azərbaycanlıları erməni qırğınından xilas etmiş türk əskərlərinin şərəfinə Şəhidlər Xiyabanında qoyulmuş möhtəşəm abidədəsinə toxunan Prezidentimiz göstərmişdir ki, bu abidə bütün azərbaycanlılar üçün ziyarətgah yerinə çevrilmişdir. Bu onu göstərir ki, biz həmişə bir olmuşuq, bir olacağıq və birlikdə də hər yerdə mübarizəmizi aparacağıq.

Cənab Ərdoğan öz cavab nitqində bildirmişdir ki, biz mehriban qardaşlar kimi əl-ələ verməliyik.

Birlik, bərabərlik, bütünlük içərisində olmağımız vacibdir. Bunu bacardığımız təqdirdə dünyada görə biləcəyimiz çox şeylər vardır. Biz Azərbaycanda daha çox işlər görmək istəyirik, daha çox sərmayə qoymaq istəyirik.

Türkiyədən gələn iş adamlarına qucağını tamamilə açdığını bildirən Azərbaycan Prezidenti ölkəmizin də bu istəklə yaşadığını söylədi.

Ertəsi gün, 8 yanvar 2003-cü ildə Bakıda Azərbaycan - Türkiyə biznes forumu keçirilmişdir. Ərdoğanla Bakıya gələn və artıq Bakıda fəaliyyət göstərən iş adamları, Azərbaycan hökumətinin üzvləri, iqtisadiyyatla məşğul olan qurumların rəhbərləri və məsul şəxsləri bu forumda iştirak etmiş, tərəfləri maraqlandıran məsələlər barəsində geniş fikir mübadiləsi aparılmışdır. Forumda açıqlanmışdır ki, indiyədək 50-dən çox türk firması tərəfindən Azərbaycanda 1,4 milyard dollar həcmində 126 layihə həyata keçirilmişdir. 2002-ci ilin oktyabr ayının 15-də İstanbulda Heydər Əliyevin Türkiyənin nüfuzlu iş adamları ilə görüşünün keçirilməsi əməkdaşlığımızın inkişafında yeni mərhələnin başlanmasına təkan verdi. Bu görüşdən sonra Türkiyənin bir sıra nüfuzlu iş adamları Bakıda səfərdə olmuşlər və hazırda elektroenergetika, kimya sahələrində layihələrin həyata keçirilməsi, emal müəssisələrinin təşkili, sərbəst iqtisadi zonaların yaradılması ilə bağlı danışıqlar gedir.

Ölkələrimiz arasındakı mal mübadiləsinin 2003-cü ildə 500 milyon dollara, 2004-cü ildə isə 1 milyard dollara çatdırılması planlaşdırılır ki, bu yüksək siyasi əlaqələrimizin ticari-iqtisadi əlaqələrin də inkişafı müstəvisinə keçirilməsi istəyindən xəbər verir.

Azərbaycan - Türkiyə iqtisadi əlaqələrində yeni üfüqlər açılmasının vaxtı çatdığını söyləyən Ərdoğan iş adamlarına müraciətlə dedi: Dünən axşam hörmətli Cümhurbaşqanı Heydər Əliyevlə söhbət edərkən bildirdim ki, türk iş adamları Azərbaycanda yatırımlarını artırmağı, bu sahədə Prezident Heydər Əliyevin onlara qucağını açmasını istəyirlər. Hörmətli cənab Heydər Əliyev qollarını açaraq, "mən qucağımı sona qədər açdım" dedi. İndi növbə sizindir, açılan bu qolların arasına girməlisiniz ki, təkrar sizi qucaqlasın və beləliklə, bu baş tutsun.

Beləliklə, əlaqələrimizin inkişafı yolunda hər şeyi etməyə hazır olmaqda hər iki tərəfin rəğbəti açıqaydın görünməkdədir. Ümidvarıq ki, xoş niyyətlər tezliklə həyata keçəcəkdir.

11 yanvar 2003-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin səfiri Ə.Ü.Çeviközü qəbul etmiş,

14 yanvar 2003-cü ildə Azərbaycandakı Atatürk mərkəzi ölkəmizlə Türkiyə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi münasibətilə Milli Elmləp Akademiyası Rəyasət Heyətinin elmi-praktik konfrans keçirmişdir.

14 yanvar 2003-cü ildə Türkiyənin Bakıdakı səfirliyi Azərbaycan və Türkiyə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi münasibətilə "Avropa" mehmanxanasında mərasim keçirmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmiş və nitq söyləmişdir.

5 - 6 fevral 2003-cü ildə TÜRKSOY-un Bakıda növbəti toplantısı keçirilmiş, iştirakçılar Prezident Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

Beləliklə, zaman keçdikcə münasibətlərimiz daim dərinləşir. Axı Türkiyə Azərbaycanın strateji müttəfiqidir və bu belə də olmalıdır.

Prezident Heydər Əliyevin yorulmaz səyləri nəticəsində əlaqələrimiz günbəgün artmaqda və inkişaf etməkdədir. Əlaqələrimizin ən önəmli yeri olan Bakı - Supsa, Bakı - Tbilisi - Ceyhan, Bakı - Ərzurum boru kəmərləri bölgəyə sülh, əmin-

amanlıq və rifah gətirəcəkdir. Hər baxımdan ölkələrimiz bir-biri və dünya üçün önəmlidir. Azərbaycan Türkiyənin Orta Asiyaya açılan qapısı olduğu kimi, Türkiyə də Azərbaycanın Avropaya açılan qapısıdır. Təkcə bunun özü ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsini və genişləndirilməsini zəruri edir. "Əsrin müqaviləsi"nin, Bakı - Tbilisi - Ceyhan və başqa enerji layihələrinin memarı olan Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın Türkiyə ilə əlaqələri daha da artacaq, ölkələrimiz bölgənin rifah, sülh və demokratiya mərkəzi olacaqlar.

Beləliklə, əlaqələrimiz durmadan inkişafdadır. Prezident Heydər Əliyevin Türkiyə Respublikası ilə qarşılıqlı münasibətlərdə nail oduğu böyük uğurlar faktların dili ilə daha aydın nəzərə çarpır.

Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri Heydər Əliyevin portretini böyük şəxsiyyətin aşağıdakı sözləri tamamlayır: "Özünün yeni, yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

Heydər Əliyev müdrikliyi və səyi nəticəsində Azərbaycan-Türkiyə münasibətlərində daim bir mütəşəkkillik, mütəmadilik, canlılıq və hərəkət var. Ondakı canlı həyatilik heç bir başqa ölkə ilə bu qədər deyildir. Dövlətlərimiz tək bir səs, tək bir ürək kimi qoşa çalışır, qürur, yaradır, bir-birinin harayına səs verir. Bu günkü çətin vəziyyətimizdə Türkiyə yanımızdadırsa, sabah bütün türk xalqı, qardaş Türkiyə əmin ola bilər ki Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan onunla bərabər olacaqdır.

ÇIXIŞLAR, MÜSAHİBƏLƏR VƏ GÖRÜŞLƏR

Naxçıvanın İran və Türkiyə ilə əlaqələri Azərbaycanın İran və Türkiyə ilə əlaqələrinin tərkib hissəsidir... Bunlar hamısı Azərbaycanın xarici siyasətinin hissələridir.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

TÜRKİYƏ İLƏ MÜNASİBƏTLƏRİN QURULMASININ NAXÇIVAN MƏRHƏLƏSİ

1991

MUXTAR RESPUBLİKANIN QONAĞI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev - Muxtar Respublikaya gəlmiş Türkiyənin "Zaman" qəzetinin Azərbaycan üzrə müxbiri Yılmaz Poladı və Mərmərə Eytim və Kültür Vəqfinin Azərbaycandakı təmsilçisi Hilmi Öneyi qəbul etmişdir.

Hilmi Öney Muxtar Respublikadan 50 nəfər gəncin Türkiyə universitetlərinə göndərilməsi, Naxçıvan şəhərində açılacaq kollec, eləcə də təhsil və mədəniyyət sahəsində görüləcək müştərək işlər barədə məlumat vermişdir.

Heydər Əliyev bildirmişdir ki, **Naxçıvan Muxtar Respublikası Türkiyə ilə əlaqələrə böyük ümid bəsləyir. İnanırıq ki, Türkiyə Respublikası bizə iqtisadi böhrandan çıxmaqda da kömək edəcək.**

Heydər Əliyev Türkiyə jurnalisti Yılmaz Polada "Zaman" qəzeti üçün müsahibə vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti
8 oktyabr 1991-ci il

ENERJİ BLOKADASINA SON QOYULACAQ

Naxçıvanı elektrik enerjisi ilə təchiz etmək sahəsində müqavilə öhdəliklərini yerinə yetirmək üçün

1991-ci il oktyabrın 12-də bir qrup türk mütəxəssisi Naxçıvan şəhərinə gəlmişdir. Onları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Anadolu Mühəndislik Aksioner Şirkətinin (Türkiyə) və Stanver Korporasiyasının (Panama və İsveçrə) nümayəndələri Mete Bəke, Bülban Hərsoy, Skandar Maləki, Okan Tapan və Seyyar Barancılı Naxçıvanda hər biri 15 meqavatt gücündə Almaniyada istehsal edilmiş 7 dizel stansiyası quraşdırılacağından və Ağrı şəhərindən Sədərəyədək yüksək gərginlikli elektrik xətti çəkiləcəyindən söhbət açmışlar. Mütəxəssislər bildirmişlər ki, 1992-ci ilin may ayında dizel stansiyalarını qurub istifadəyə verəcəklər.

Heydər Əliyev görüləcək işin qiyməti, həmin məbləğin necə ödəniləcəyi ilə maraqlanmış və təkidlə tapşırmışdır ki, yeni enerji mərkəzinin ətraf mühitə təsiri diqqətlə öyrənilsin.

Söhbətdə Azərenerji Birliyinin direktoru M.M.İmanov, Azərenerji Tikinti İdarəsinin rəisi S.İ.Lətifov və Naxçıvanın energetika mütəxəssisləri iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti
15 oktyabr 1991-ci il

DEMOKRATİK İNKİŞAF YOLLARINDA

Oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının növbəti iclası oldu. İclasa Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev sədrlik edirdi. İclasda çıxış edən Heydər Əliyev yoldaş bildirdi ki, ...**sessiyada Türkiyədən və İran İslam Respublikasından gəlmiş qonaqlar iştirak edir. O, bütün millət vəkilləri adından qonaqları salamladı və dedi ki, onların Ali Məclisin sessiyasında iştirak etməsi Türkiyə və İranla əlaqələrimizin genişləndirilməsinə kömək edəcəkdir.**

"Şərq qapısı" qəzeti,
27 oktyabr 1991-ci il

BU AĞ YALAN KİMƏ LAZIMDIR?!

1991-ci il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti bu körpünün açılışı mərasimi ilə bağlı rəsmi məlumatı SİTA-ya və Sovet İttifaqının digər informasiya orqanlarına vermişdir. Lakin nədənsə bu məlumatdan istifadə edilməyib. Sərhəd qoşunları Baş idarəsinə istinad edən SİTA bu hadisəni gözdən salan və ölkə ictimaiyyətində yanlış təsəvvür oyadan məlumat kimi yaymışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti bu məlumatı təkzib edərək bildirir ki, SİTA-nın informasiyasında göstərilən faktlar reallığı əks etdirmir.

Həqiqət aşağıdakı kimidir: Naxçıvan Muxtar Respublikasının bütün əhalisinin diqqəti körpünün tikintisinə yönəlib. Ümumiyyətlə, Azərbaycanın bütün əhalisinin bu körpüyə böyük marağı var və çoxları onun açılışını səbirsizliklə gözləyirdi.

Bununla bağlı olaraq oktyabrın 29-da səhər tezdən Muxtar Respublikanın hər yerindən körpünün inşa edildiyi əraziyə xeyli adam yığışmışdı. İddia edildiyinin əksinə olaraq, Naxçıvan Parlamentinin başçısı Heydər Əliyev bu məsələ ilə əlaqədar açılışdan əvvəl televiziya ilə heç bir çıxış etməmişdir.

Türkiyə tərəfinin nümayəndələri ilə razılaşmaya əsasən, körpünün rəsmi açılışı mərasimi saat 15.00-a təyin edilmişdir.

Rəsmi açılışadək körpünün yanına toplaşan camaatın bir hissəsi çayın o tayında yaşayan qohum-əqrəbaları ilə görüşmək üçün Türkiyə tərəfə keçmişdir. Onların bu hərəkəti tamamilə təbii və başa düşülən bir haldır. 70 illik sərt sərhəd rejimi, sərhəd boyunca çəkilmiş iki-üç cərgəli tikanlı məftil hasar onları qohumları ilə əlaqə saxlamaq imkanından, normal ünsiyyətdən məhrum etmişdir.

Xəbər verildiyi kimi, körpünün rəsmi açılışı Türkiyə tərəfi ilə razılaşdırılmış vaxtda keçirilmişdir. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Bakı şəhərindən gəlmiş Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri çıxış etmişlər. 41-ci sərhəd dəstəsinin komandiri polkovnik V.Jukov və sərhəd qoşunlarının digər nümayəndələri bu mərasimdə iştirak etmişlər. Mitinqə toplaşanlar qarşısında Muxtar Respublikanın musiqi kollektivləri ilə yanaşı, sərhəd qoşunlarının nəfəsli alətlər orkestri də çıxış etmişdir.

Azərbaycanla Türkiyə arasında müvəqqəti körpünün açılması böyük fərəhləndirici hadisəyə çevrilmiş, bu zaman heç bir asayiş pozuntusuna yol verilməmişdir. Naxçıvan Muxtar Respublikası rəhbərlərinin Türkiyənin rəsmi nümayəndələri ilə istər Azərbaycan, istərsə də Türkiyə ərazilərindəki görüş və söhbətləri dostluq, mehribanlıq şəratində keçmişdir.

Körpünün rəsmi açılışı mərasimindən sonra Araz çayının o biri sahilinə keçmiş Naxçıvan Muxtar Respublikasının sakinləri geriyə dönmüşlər. Muxtar Respublika sakinlərinin Türkiyə ərazisinə keçib, guya siyasi sığınacaq istəmələrinə dair heç bir fakt və məlumat yoxdur.

Türkiyə ərazisinə keçən Muxtar

Respublika sakinlərinin bəzilərinin öz qohumlarının yanında gecikmələri ehtimalı istisna olunmur. Bu cür hallara siyasi don geydirib hay-küy salmağa əsas yoxdur.

Ali Məclisin Mətbuat Xidməti bunu bildirməyi zəruri hesab elir ki, SİTA, Sovet İttifaqının digər informasiya orqanları, o cümlədən, sərhəd qoşunlarının mətbuat xidməti birinci dəfə deyil ki, Naxçıvan Muxtar Respublikasında baş verən hadisələrə dair yanlış informasiya yayırlar. Onların bu hərəkətinə qəti etirazımızı bildirir və təkzibi olduğu kimi vermələrini tələb edirik.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
31 oktyabr 1991-ci il

TÜRKİYƏDƏN YARDIM GƏLİR

Muxtar Respublikanın Sədərək rayonunda Araz çayı üzərində müvəqqəti körpünün istifadəyə verilməsi ilə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi və mədəni əlaqələr yeni mərhələyə qədəm qoymuşdur.

Noyabrın 9-da həmin körpü vasitəsi ilə Muxtar Respublikaya Türkiyənin "Qızıl Ay" cəmiyyətinin xətti ilə 126 ton ərzaq gətirilmişdir.

Bununla əlaqədar Qars vilayəti valisinin vəkili İsmət Bahadırlar başda olmaqla Naxçıvana gəlmiş nümayəndə heyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Heydər Əliyev Türkiyə tərəfindən göstərilən humanitar yardım üçün Türkiyə Respublikasına və xalqına dərin təşəkkür etmiş və hər iki tərəf arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsindən razı qaldığını bildirmişdir. Ali Məclisin Sədri Muxtar Respublikada gedən demokratik proseslər barədə qonaqlara ətraflı məlumat vermişdir.

Türkiyə nümayəndə heyətinin başçısı İsmət Bahadırlar demişdir ki, Türkiyə Respublikası Azərbaycanla, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə hərtərəfli əlaqələrin genişləndirilməsində çox maraqlıdır. O bildirmişdir ki, bu yardım Muxtar Respublikaya göstəriləcək humanitar yardımın bir hissəsidir. Bu iş davam etdiriləcək.

Heydər Əliyev Türkiyə nümayəndə heyəti ilə birlikdə gəlmiş müxbirlərin suallarına ətraflı cavablar və Türkiyə televiziyası üçün müsahibə vermişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
11 noyabr 1991-ci il

ƏMƏLDƏ, FİKİRDƏ, İŞDƏ BİRLİK

Türkiyə Respublikası Böyük Millət Məclisinin Qars əski millət vəkili Səbri Araz, iş adamları Sönməz Qaradağ və Zəfər Qaradağ şəhərimizin qonaqlarıdırlar.

Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qonaqları qəbul etmişdir.

Səbri Araz mehriban qarşılandıqları üçün öz dərin təşəkkürünü bildirmişdir. O demişdir ki, Prezident Turqut Özal və Baş nazir Məsud Yılmaz Sizə səmimi salamlarını çatdırmağı xahiş etmişlər. Bu tapşırığı mən məmnuniyyətlə yerinə yetirirəm.

Səbri Araz demişdir ki, Türkiyədə Naxçıvana böyük maraq göstərilir. Bunu Bakıda da bizə dedilər. Dedilər ki, siz Naxçıvana çox maraq göstərirsiniz. Bəli, bu, belədir. Çünki bizim dövlət yalnız Naxçıvan vasitəsilə Azərbaycanla həmsərhəddir.

Naxçıvan son vaxtlar Azərbaycanda gedən bütün demokratik dəyişikliklərin təşəbbüskarı və təkanvericisidir. Ona görə də **biz Naxçıvanı Azərbaycanın qan damarı, nəfəs borusu hesab edirik. Naxçıvanlılar mübarizə aparmağı, öz haqlarını tələb etməyi bacarırlar. Bu, əsl türk xasiyyətidir, türk mərdliyidir.**

Biz necə sevinməyək ki, ilk qapı məhz Naxçıvanla Türkiyə arasında açılıb. Hamılıqla çalışmalıyıq ki, bütün sədlər aradan qaldırılsın, bütün qapılar açılsın. Bəsdir bu qapılar bağlı qaldı. Sizin "Həsrət körpüsü" adlandırdığınız körpü bu işdə ilk addımdır. Biz ona "Könül körpüsü" deyirik. İndi ermənilər də bu qapıya can atırlar. Türkiyə ilə Ermənistan arasında körpü salmaq istəyirlər. Lakin Qarsa, Qarabağa, Naxçıvana göz dikən ermənilərlə heç bir əlaqə yaratmaq olmaz. Başqa ölkələrdə türklərə qarşı terrorçuluq edənlərə heç bir rəğbət ola bilməz.

Heydər Əliyev səmimi duyğular üçün qonaqlara təşəkkür edərək demişdir ki, mən söhbətin əvvəlində qeyd etdiyim kimi, biz hər dəfə türk qardaşlarımızla görüşəndə yeni fikirlər meydana gəlir. Siz indi də yeni bir fikir söylədiniz. **Dediniz ki, Naxçıvan Azərbaycanın qan damarıdır, nəfəs borusudur. Bu sözləri yalnız Naxçıvanı ürəkdən sevənlərin dilindən eşitmək olar. Siz yeni salınan körpünü "Könül körpüsü" adlandırdınız. Bu söz də bizim ürəyimizdəndir. Bu, könüldən-könülə yollar açır.**

Heydər Əliyev sözünə davam edərək demişdir ki, indiki şəraitdə xalqın fikrini bilmək, duymaq çox zəruridir. Bunun üçün isə həmişə xalqın içində olmaq lazımdır. **Mən öz xalqımı yaxşı tanıyıram. Çünki özümü heç vaxt ondan ayrı hiss etməmişəm. Həmişə xalqın içində olmuşam. Bizim xalq isə düzgünlüyü sevən, öz haqq işi uğrunda mübarizə aparan xalqdır.** Nə gizlədək, 70 il ərzində bəzi yerlərdə adamlar o qədər mütiləşiblər ki, onlar xəyallarına belə gətirə bilmirlər ki, insan öz haqını döyüşə-döyüşə ala bilər. Çox yaxşı haldır ki, naxçıvanlılar bu işdə nümunə göstərirlər. Bildiyiniz kimi, Azər-

baycan öz müstəqilliyini elan edib, Türkiyə bu müstəqilliyi tanıyıb və bunun üçün mən sizə, Türkiyənin Prezidentinə və Baş nazirinə öz minnətdarlığımı bildirirəm. Onu da qeyd etmək istəyirəm ki, **bu müstəqillik də Naxçıvanda başlayıb.** Bu ilin mart ayında Sovetlər Birliyinin tərkibində qalmaq üçün referendum keçirildi. Lakin naxçıvanlılar qəti olaraq bildirdilər ki, biz bu birliyin tərkibinə girməyəcəyik. Sonrakı hadisələr bizim haqlı olduğumuzu dönə-dönə göstərdi. Tək Azərbaycan deyil, keçmiş imperiyanın tərkibində olan respublikaların əksəriyyəti öz müstəqilliklərini elan etdilər.

Heydər Əliyev demişdir ki, **mən Kommunist Partiyasının liderlərindən biri olmuşam. Lakin həmişə öz xalqımın keçmişini, bu gününü və gələcəyini düşünmüşəm, ona xidmət etmişəm.** İstər Azərbaycanın rəhbəri olarkən, istərsə də Moskvada yüksək rəhbər vəzifədə işləyərkən həmişə bizə qarşı ögey münasibət bəslənildiyini görmüşəm. **Avropa ideoloqları, rus millətçiləri türk xalqını parçalamaq üçün pantürkizm, turançılıq ideyalarını ortaya atmışlar.** Xalqımızın ən böyük oğulları bu ideyaların qurbanı olmuşlar. Azərbaycan xalqının böyük oğlu, türk aləmi üçün ən böyük şəxsiyyətlərindən biri olan Hüseyn Cavid də bu bədnam ideyanın qurbanı olub. Bizim Türkiyə ilə yaxınlaşmağımızı rus imperiyası çox təhlükəli hal kimi qiymətləndirirdi. Siz çox düzgün olaraq qeyd etdiniz ki, Berlin divarı sökülərək almanların birləşməsinə şərait yaradıldığı halda, nə üçün türk xalqları arasında yaxınlaşmanı çox təhlükəli sayırlar? Bunun cavabı aydındır. Bədxahlarımız xristianlığı müsəlmanlığa qarşı qoyurlar.

1989-cu ilin dekabr ayının axırlarında Naxçıvanla İran sərhədi arasında olan tikanlı məftillər rusların iradəsinin əksinə olaraq aradan götürüldü. Təbiidir ki, Moskvada buna çox pis münasibət göstərdilər. Bu işi həyata keçirən vətənpərvərləri "sərxoşlar", "narkomanlar" adlandırdılar. İmperiya öz mövqelərini heç cür əldən vermək istəmir. Bütün bunlara qarşı durmaq üçün biz birləşməliyik. Qars müqaviləsi bu işdə çox böyük əhəmiyyət kəsb edir.

Dörd ildir ki, ermənilər Azərbaycana qarşı torpaq iddiası edirlər. Halbuki, bizim onlara qarşı böyük torpaq iddialarımız olmalıdır. Azərbaycanın 114 min kvadrat kilometr ərazisindən indi cəmi 86 min kvadrat kilometr qalmışdır. 28 min kvadrat kilometr torpağımız əldən gedib. Lakin Azərbaycanın Prezidenti Moskvada çıxış edərək deyir ki, bizim Ermənistana qarşı heç bir torpaq iddiamız yoxdur. Bəs Azərbaycanın qədim torpaqları olan Zəngəzur, Göyçəni biz necə unuda bilərik? Vəziyyəti belə görən həyasızlaşmış ermənilər indi gözlərini Qarabağa, Naxçıvana dikiblər. Mən 14 il Azərbaycanın rəhbəri olmuşam. Lakin həmin müddətdə bir qarış da olsun

Azərbaycan torpağı ermənilərə verilməyib. Lakin sonralar bu proses yenə də davam edib. İki il bundan qabaq Sədərək rayonundakı Kərki kəndi də ermənilər tərəfindən ilhaq edildi. Lakin o kəndi geri qaytarmaq üçün Azərbaycan rəhbərliyi heç bir iş görmür.

Ermənilərin Türkiyəyə qarşı olan torpaq iddiaları da hamımıza məlumdur. Onlar öz ərazilərini Şərqi Ermənistan, türk torpaqlarını isə Qərbi Ermənistan adlandırır və bunu bütün dünyaya yayırlar. Çox təəssüf ki, siz buna lazımi əhəmiyyət vermirsiniz. Siz ermənilərin türklərə qarşı olan qatı düşmənçiliyini bizimki qədər hiss etmirsiniz. Artıq 30 ildir ki, ermənilər guya türklər tərəfindən ermənilərin "soy qırımı" gününü qeyd edirlər. Hələ o vaxtlar Ermənistanda yaşayan azərbaycanlılar həmin gün evdən bayıra çıxa bilmirdilər. Onları türk - düşmən adlandıraraq hədələyirdilər. Deyirdilər ki, siz o türklərin nəvələrisiniz. Bax, Azərbaycan belə bir təcavüzkar dövlətlə üz-üzə dayanıb.

Türklərə qarşı heç vaxt qatı düşmənçiliyini gizlətməyən ermənilər indi çətin vəziyyətə düşdüklərindən sizin insanpərvərliyinizdən istifadə etməyə çalışırlar. Onlar Türkiyə vasitəsilə Avropaya və dünyanın başqa qitələrinə yol açmaq fikrindədirlər. Lakin ermənilərin yağlı dilinə heç cür inanmaq olmaz. Bu vasitələrlə onlar öz azğınlıqlarını daha da genişləndirmək istəyirlər. Siz buna qətiyyən imkan verməməlisiniz.

Heydər Əliyev və Səbri Araz bu görüşdə, aparılan fikir mübadiləsindən razı qaldıqlarını demiş və əmin olduqlarını bildirmişlər ki, inkişaf etməkdə olan əlaqələr, münasibətlər daha da möhkəmlənəcək.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
22 noyabr 1991-ci il

ƏLAQƏLƏR BÜTÜN SAHƏLƏRDƏ MÖHKƏMLƏNMƏLİDİR

Türkiyə Respublikasının Muxtar Respublikamıza humanitar yardımı davam edir. Noyabrın 29-da Türkiyənin İqdır şəhəri əhlisinin və valiliyinin naxçıvanlı qardaşlarına göndərdikləri ərzaq məhsulları 19 yük maşını ilə Muxtar Respublikamıza gətirilmişdir.

Bununla əlaqədar Naxçıvana gəlmiş İqdır Bələdiyə idarsinin rəisi Əli Ağrını və Türkiyənin digər nümayəndələrini Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Qonaqlarla söhbət zamanı Heydər Əliyev demişdir ki, **Azərbaycanın, o cümlədən, Naxçıvan Muxtar Respublikasının əhalisi o taylı türk qardaşlarının yardımını ən əvvəl mənəvi yardım kimi qiymətləndirirlər.** Çünki bu yardım Arazın hər iki tərəfindəki qardaşların görüşməsi, yaxınlaşması

üçün bir vasitədir.

Ali Məclisin Sədri demişdir ki, qədim Naxçıvan sakinləri, bizim babalarımız, atalarımız, analarımız ayrı-ayrı vaxtlarda bizdən də çətin vəziyyətdə yaşayıblar və bütün çətinliklərdən mətanətlə çıxıblar. Çünki onlar öz diyarlarını həmişə ürəkdən sevmiş, onu qoruyub saxlamış, öz mərdliklərini nümayiş etdirmişlər. Ona görə də indiki çətinliklər bizi o qədər də narahat etmir. **Əsas narahatçılığımız azad olmaqda, özümüzü azad bir millət kimi, azad bir xalq kimi bütün dünyada tanıtmaq da idi ki, biz də buna getgedə nail oluruq. Bunun üçün bizim "Həsrət körpüsü", türk qardaşların isə "Könül körpüsü" adlandırdıqları körpü mühüm rol oynayır. Bu körpünü haqlı olaraq Azərbaycandan Şərqə açılan qapı adlandırırlar.** Məhz buna görə də həmin körpünü tikmək, iki sahili birləşdirmək bizim üçün başlıca məqsəd idi. Bundan sonra bir-birimizə gediş-gəliş artacaq, turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaranacaq. Göründüyü kimi, bu yardım kampaniyası olmasaydı, Türkiyədən bura belə axın da olmazdı. Bu yardım üçün mən bütün naxçıvanlılar adından Sizə və sizin şəxsinizdə türk qardaşlarımıza bir daha öz dərin minnətdarlığımı bildirirəm.

İqdır Bələdiyyə idarəsinin rəisi Əli Ağrı demişdir ki, naxçıvanlılara göstərilən yardım davam edəcək. Tezliklə Ərzurumdan və başqa şəhərlərdən də yardım gələcək. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bu yardım hər şeydən əvvəl mənəvi yardımdır. Çünki bunun vasitəsilə bizim yaxınlaşmağımız xeyli sürətlənmişdir. Biz bütün sahələrdə öz əlaqələrimizi möhkəmləndirməliyik. Bunun üçün geniş imkanlarımız və hər şeydən əvvəl hər iki tərəfin qətiyyəti var.

Heydər Əliyev və Əli Ağrı əlaqələrin möhkəmləndirilməsi sahəsində işlərin gedişindən razı qaldıqlarını bildirmiş və bu işləri daha da sürətləndirmək əzmində olduqlarını qeyd etmişlər.

"Şərq qapısı" qəzeti,
3 dekabr 1991-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, uzun əsrlik tarixə malik olan Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış, onun ərazisi zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və istiqlaliyyəti əlindən alınmışdır. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri

ilə Azərbaycan türkləri və onun tarixi ərazisi bir daha parçalanaraq, Rusiya ilə İran dövlətləri arasında mənafe dairələrinə bölünmüşdür.

Lakin dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da, iqtisadi, siyasi və mədəni bütövlüyü, milli dövlət qurumu ləğv edilsə də, Azərbaycan türkləri müstəqillik və bütövlük yolunda mübarizəsini dayandırmamış, iyirminci yüzilliyin əvvəllərində yaranmış mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini bərpa etmək yolunda mühüm addımlar atmışlar. İmperiya zülmündən azad olan Qüzey Azərbaycan türkləri 1918-ci il mayın 28-də dövlət müstəqilliyi qazanaraq öz tarixi ərazisində milli dövlət qurumunu - Azərbaycan Demokratik Cümhuriyyətini təşkil etdilər. Çox keçmədən Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü yeni təcavüzə - bolşevik Rusiyasının silahlı müdaxiləsinə məruz qaldı. Beləliklə, qanuni seçilmiş hakimiyyət orqanı zorakılıqla devrildi və Azərbaycan türklərinin çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu. Azərbaycanın Qüzeyi 1804-1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən ilhaq edildi. Xalqın demokratik və istiqlalçı qüvvələrinin əksəriyyəti repressiyaya məruz qaldı, bir qismi isə mühacirət etməyə məcbur oldu.

Sovet imperiyası tərkibinə qatıldığı 70 il ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan türkləri təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışlar. İmperiya siyasəti dünya türklərini bir-birindən təcrid etmək məqsədilə pantürkizm mövhumunu şərq aləmində təhlükəli bir ideya kimi təbliğ edərək, dünya türklərinin və o cümlədən Sovetlər İttifaqında yaşayan türklərin arasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bu siyasətin təzahürü kimi qanunsuz çəkilən sərhəd çəpərləri Azərbaycan türklərini ikiyə parçaladı. Bütün bunlara baxmayaraq Azərbaycan türkləri milli dövlət quruculuğu, milli və mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər.

Son illərdə xalqın milli özünüdərki güclənmiş, ictimai həyatın demokratikləşməsi istiqamətinə genişlənən xalq hərəkatı zəminində Muxtar Respublikada milli ziyalıları və demokratik qüvvələri vahid milli birlik və müstəqillik ideyası uğrunda mübarizə ətrafında birləşdirən siyasi dərnəklər və ictimai birliklər yaranmışdır. Azərbaycan Xalq Cəbhəsi Naxçıvan Vilayət şöbəsinin 1989-cu ilin noyabrında keçirilən Məclisi xalqın iradəsini bir daha ifadə edərək zorakılıqla ikiyə bölünmüş Güney və Qüzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi.

Sovet İttifaqı Kommunist Partiyası, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitələri və onların yerli orqanları, ölkənin sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi-siyasi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq Azərbaycan Xalq Cəbhəsi Naxçıvan Vilayət şöbəsi ardıcıl olaraq "Sərhəd hərəkatı" adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən demokratik hərəkatın nəticəsində SSRİ-nin dövlət sərhəddi boyunca çəkilən sərhəd çəpərləri ellikə söküldü. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il dekabrın 31-i Dünya Azərbaycan türklərinin həmrəyliyi bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

Naxçıvan Muxtar Respublikasından başlanıb, Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu ümumxalq hərəkatına imperiya və hegemonluq mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar. Bu məqsədlə əsassız olaraq sərhəd zonasında fövqəladə vəziyyət rejimi yaradıldı. Sərhəd hərəkatı ilə bağlı kommunist rəhbərlərin göstərişinə əsasən xalq cəbhəsi üzvlərinə qarşı repressiya daha da gücləndi, onlardan bir neçəsi əsassız həbs olundu, işdən çıxarıldı, bir çox yerlərdə sökülmüş sərhəd çəpərləri bərpa olundu.

Kommunist ruhlu kütləvi informasiya vasitələri var gücü ilə sərhədlərin sökülməsini vəhşilik adlandırdı, nəyin bahasına olursa-olsun xalqın iradəsini, inamını qırmağa cəhd göstərdilər. Lakin qonşu ölkələrin, dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan türklərinin ümumən türk dünyasının bu prosesə parçalanmış xalqların təbii birləşmə meyli kimi baxması və müdafiə etməsi, onu ölkədə və dünyada gedən demokratik proseslər mövqeyindən qiymətləndirməsi xalqımıza qarşı yönəldilmiş mürtəce təbliğatın qarşısını qismən aldı. 1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real nəticəsi kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram

edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.

2. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.

3. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.

4. Akad. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan EA Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününə həsr olunmuş elmi konfrans keçirsinlər.

5. Sərhəd çəpərlərinin bərpa edil-məsi qanunsuz hesab edilsin və onların ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

Bu qərarın dünya Azərbaycan türklərinə çatdırılması təmin edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər Əliyev
Naxçıvan şəhəri,
16 dekabr 1991-ci il

1992

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Fevral ayının 1-də Türkiyədə baş vermiş qar uçqunu nəticəsində 200-ə yaxın adam həlak olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu faciə ilə əlaqədar fevralın 3-də Türkiyə Respublikasının Prezidenti T.Özala telefonla zəng etmiş, Naxçıvan parlamenti, Muxtar Respublika əhalisi adından T.Özal cənablarına, bütün türk xalqına, həlak olmuş qardaşlarımızın ailələrinə baş sağlığı vermişdir. Elə həmin gün Türkiyə Respublikasının Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəl cənablarına rəsmi başsağlığı teleqramları göndərilmişdir.

Dünən, fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl arasında telefon söhbəti olmuşdur. Ali Məclisin Sədri Heydər Əliyev bir daha baş vermiş fəlakətlə əlaqədar qardaş türk xalqına başsağlığı vermiş, mərhumların əzizlərinin kədərinə naxçıvanlıların şərik olduğunu bildirmişdir.

Telefon söhbəti zamanı Baş nazir Süleyman Dəmirəl Araz çayı üzərindən salınan körpünün tikintisinin sürətləndirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçiriləcəyinə söz vermişdir. Bu məsələ ilə bağlı Ali

Məclisin Sədri Heydər Əliyev Baş nazir Süleyman Dəmirələ xüsusi məktub da göndərmişdir. Baş nazir Süleyman Dəmirəl həmçinin bildirmişdir ki, bu yaxınlarda Türkiyənin Naxçıvanla həmsərhəd rayonu Aralığa gəlmək fikrindədir və orada olan zaman Ali Məclisin Sədri Heydər Əliyevlə görüşmək istərdi.

Tərəflər arasında iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi ilə əlaqədar fikir mübadiləsi olmuşdur.

5 fevral 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikasının Baş naziri B.Fərzəliyev haqqında

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, B.Fərzəliyev Muxtar Respublikasının Baş naziri vəzifəsində işlədiyi dövrdə Nazirlər Kabinetinin işini günün tələbləri səviyyəsində qura bilməmiş, əməli fəaliyyətində kobud və ciddi nöqsanlara yol vermişdir. 1991-ci ilin sentyabr ayına qədər olduğu kimi, bundan sonrakı dövrdə də Nazirlər Kabinetinin tərkibi yenidən təşkil olunmamış və bələliklə də Nazirlər Kabinetinin üzvlərinin əksəriyyəti səlahiyyətsiz fəaliyyət göstərməkdədirlər. Bu halı müəyyən dərəcədə obyektiv səbəblərlə izah etmək mümkündürsə, Nazirlər Kabinetinin mövcud tərkibinin və kabinetin aparatının işinin lazımi səviyyədə təşkil olunmamasına heç vəchlə bəraət qazandırmaq olmaz.

...Muxtar Respublikanın iqtisadi blokadaya alınması ilə əlaqədar olaraq Türkiyə Respublikasının "Qızıl Ay", İran İslam Respublikasının "Hilal Əhmər" cəmiyyətləri vasitəsi ilə Muxtar Respublikaya gətirilən humanitar yardımın Nazirlər Kabinetində bilavasitə B.Fərzəliyevin rəhbərliyi altında bölünməsi və paylanması işində pozuntulara yol verilmişdir. Humanitar yardım kimi Muxtar Respublikaya gəlmiş sənaye mallarının əhaliyə çatdırılması işindəki pozuntular daha çox narazılığa səbəb olmuşdur.

Baş nazir B.Fərzəliyevin fəaliyyətində olan özbaşınalıq onu dövlət intizamını və qanun-qaydalarını kobudcasına pozmasında da özünü göstərmişdir. Ali Məclisin Rəyasət Heyətinin 13 yanvar 1992-ci il tarixli qərarında qeyd olunduğu kimi, Baş nazir B.Fərzəliyev 1991-ci il dekabr ayının 11-də naməlum səbəblərə görə Ali hakimiyyət orqanından icazə almadan dövlət avtomobilində İran İslam Respublikasının ərazisinə keçmiş, uzun müddət respublikada olmamışdır. Araşdırmalardan məlum olmuşdur ki, xarici ölkənin ərazisindən keçərək Bakıya gəlmiş, 20 gün burada qaldıqdan sonra yenidən dövlət avtomobilində İran İslam Respublikasının ərazisinə

keçmiş, Təbriz və Tehran şəhərlərində olmuş, İran İslam Respublikasının rəsmi dairələrində naməlum danışıqlar aparmış və nəhayət 1992-ci il yanvar ayının 3-də Naxçıvana qayıtmışdır. Bunlarla əlaqədar olaraq B.Fərzəliyevdən Ali Məclisə izahat verməsi tələb olunmuşdur. Lakin o, izahat verməkdən imtina etmiş, Rəyasət heyətinin iclasını təhqiramiz sözlərlə tərk edərək, bir daha öz intizamsızlığını nümayiş etdirmişdir...

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Rəyasət Heyətinin Muxtar Respublikanın Baş naziri B.Fərzəliyevin buraxdığı səhvlərlə əlaqədar qəbul etdiyi 13 yanvar 1992-ci il, 31 yanvar 1992-ci il və 18 yanvar 1992-ci il tarixli qərarları bəyənilsin.

2. Dövlət intizamını və qanun-qaydalarını kobudcasına pozduğuna, vəzifəsindən sui-istifadə etdiyinə, əməli fəaliyyətində ciddi və kobud nöqsanlar buraxdığına görə B.Fərzəliyev Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev
Naxçıvan şəhəri,
24 fevral 1992-ci il

ALİ MƏCLİSDƏ QƏBUL

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Naxçıvanda Baş konsulu Orxan Ərtoğruloğlunu onun xahişi ilə qəbul etmişdir.

Orxan Ərtoğruloğlu iki ölkə arasında qarşılıqlı maraq doğuran bəzi məsələlərə toxunmuş, Baş konsulun fəaliyyəti üçün yaradılan şəraitdən danışmışdır. Orxan Ərtoğruloğlu eyni zamanda bildirmişdir ki, Türkiyə Respublikası bu həftənin sonundan başlayaraq humanitar yardım kimi Naxçıvan Muxtar Respublikasına 22 min ton mazut göndərəcəkdir. Muxtar Respublika rəhbəri ilə söhbətdə yardımın mənzil başına çatdırılması yolları müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ermənistan Respublikasının iqtisadi blokadası şəraitində yaşayan, ciddi iqtisadi çətinliklərlə qarşılaşan Naxçıvan Muxtar Respublikasına göstərilən bütün humanitar yardımlar üçün Türkiyə Respublikasının rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Görüş mehribanlıq və səmimilik şəraitində keçmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti
8 mart 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il martın 5-də Araz çayı üzərindəki körpü vasitəsilə 97 nəfər Azərbaycan vətəndaşı Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Bakı şəhərinin və Sabirabad rayonunun sakinlərindən ibarət olan bu dəstə fevral ayında Türkiyə Respublikasına turist səfərinə yola düşmüşdür. Batumdakı gömrükxanadan Türkiyəyə keçən turistlərimiz Gürcüstan ərazisində talan və qarətlərə məruz qalmış, səfərdə böyük çətinliklərlə üzləşmişlər. Bu səbəbdən də yenidən Gürcüstanın ərazisi ilə vətənə qayıtmaq istəməmişlər.

Vəziyyətdən xəbər tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl ilə telefonla əlaqə saxlamış, Azərbaycan vətəndaşlarının Sədərəklə Aralıq arasındakı körpüdən Naxçıvan Muxtar Respublikasına yola salınmasını xahiş etmişdir.

Martın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin bu vətəndaşlarla görüşü olmuşdur. Turist dəstəsinin adından görüşdə çıxış edən Əliyar Namazov, Səriyyə Əbülhəsənova, Alim Zülfüqarov səfərdə çəkdikləri çətinliklərdən, türk qardaşlarının onlara göstərdiyi diqqət və qayğıdan danışmış, vətənə qayıtmalarına kömək lik etmiş Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Ali Məclisin Sədri Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycanın qalan hissəsindən ayrı düşmüş, Ermənistanın ərazisi ilə əhatə olunmuş Naxçıvan Muxtar Respublikası çətin vəziyyətdədir. İqtisadi və kommunikasiya blokadası şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına Türkiyə Respublikasından humanitar yardım daxil olur. Lakin bütün naxçıvanlılar, Muxtar Respublika rəhbərliyi harada olursa-olsun çətinliyə düşmüş həmvətənlərinə bacardıqları köməyi göstərməyi özlərinə vətən və türkçülük borcu bilirlər. Heydər Əliyev demişdir: "**Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxandan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk ilam dünyasına bir qapıdır**". Ali Məclisin Sədri bildirmişdir ki, elə bu gün azərbaycanlı turistlər xüsusi təyyarə ilə Bakıya yola salınacaqlar.

6 mart 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ ZAMANI TÜRKİYƏNİN BAŞ NAZİRİ SÜLEYMAN DƏMİRƏLLƏ RƏSMİ GÖRÜŞÜ

23 mart 1992-ci il, Ankara

Süleyman Dəmirəlin çıxışı:

Hörmətli Prezident!

Hörmətli Heydər Əliyev dünya siyasətində möhtərəm bir şəxsdir. Keçmiş Sovet İttifaqında və Azərbaycanda yüksək dövlət işlərində çalışmışdır.

Naxçıvan bizim qonşumuzdur, əhalisi türkcə danışır. Türkiyə Respublikasının başlanğıcında, yəni Şərq tərəfində yerləşən Naxçıvan Respublikasının statusunda bir dəyişiklik meydana gələrsə, müqaviləyə əsasən, burda Türkiyə öz sözünü deməlidir. Keçmiş Sovet İttifaqında meydana gələn dəyişikliklərin bir nümunəsi kimi Naxçıvanda əmələ gələn dəyişikliklərə Türkiyə birbaşa öz münasibətini bildirməlidir. Faktiki olaraq Türkiyə Naxçıvanın statusunda əmələ gələcək dəyişikliklərdə öz sözünü deməlidir.

İndi hörmətli Prezident Heydər Əliyev Türkiyəyə xüsusi bir dəvətlə gəlmişdir və Heydər Əliyevi burda, öz aramızda görməkdən çox məmnunam. Naxçıvanda və Azərbaycanda olan vəziyyətlə əlaqədar görüşürük. **Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə ona borcludur. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir.** Şəxsən mən bunu təqdirəlayiq böyük bir iş kimi qiymətləndirirəm. Azərbaycanda da sabitlik axtarırıq və ümid edirik ki, bu yaxınlarda Azərbaycanda da siyasi sabitlik olacaq. Azərbaycan və Ermənistan arasında olan ixtilaf beynəlxalq zəmindədir. Bu zəmin əsasında əvvəlcə ölkənin daxili məsələsini həll edirlər. Odur ki, qardaşlarımıza deyirik: bu sabitlik təmin ediləcək. Bildiyiniz kimi, Ermənistan ilə Azərbaycan arasında olan münaqişədə əsas yeri Qarabağ tutur. Qarabağdakı türklər Qarabaqdan qovulub çıxarılmış, Qarabağ türklərinə çoxlu əziyyətlər verilmiş, onlara qarşı vəhşiliklər edilmişdir. Bunlar bizi burada çox narahat edir. Bütün bunlar türk xalqını da, türk hökumətini də, türk dövləti də narahat edir. Azərbaycan hadisəsi günümüzün mühüm fövqəladə mövzusudur.

Naxçıvanın isə bir sıra iqtisadi çətinlikləri var. Bu iqtisadi çətinlikləri aradan qaldırmaq üçün, ehtiyacları ödəmək üçün onlara kömək edəcəyik.

Çox dəyərli qardaşımı Türkiyədə görməklə məmnun və xoşbəxt olduğumu bir daha təkrar bildirmək istəyirəm.

Buyurun, söz Sizindir.

HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli Baş nazir, məni bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Ankarada, Türkiyədə mən özümü öz məmləkətimdəki kimi hiss edirəm. **Sizin Naxçıvan haqqında dediyiniz sözlər məni çox həyəcanlandırır və sevindirir. Naxçıvanın xüsusi bir statusunun olması, Türkiyənin Naxçıvan üçün zamin bir dövlət olması 70 il bundan əvvəl bağlanmış müqavilələrdə öz əksini tapıb. Ancaq bu statusun həyata keçirilməsi və indi bunun dünyada elan edilməsi Sizin kimi böyük şəxsiyyətə - Türkiyənin Baş naziri Süleyman Dəmirələ nəsib olmuşdur. Mən hesab edirəm ki, Naxçıvan xalqı, bütün Azərbaycan xalqı bundan çox məmnun qalacaq və bu sıxıntılar içərisində özlərini xoşbəxt hiss edəcəklər.**

Sizə çox təşəkkür edirəm. Siz Naxçıvan və Azərbaycan haqqında belə yaxşı sözlər, belə yaxşı kəlmələr dediniz. Bu, indi Azərbaycanda olan türklər üçün - Azərbaycan xalqı üçün çox lazımdır. **İndi Azərbaycanda vəziyyət çox pisdir. Dağlıq Qarabağda olan vəhşiliklər, ermənilər tərəfindən türklərin qovulub çıxarılması, kəndlərin dağıdılması, yandırılması - bunların hamısı birinci növbədə, ilk əvvəl Türkiyə vasitəsilə, Sizin kimi böyük siyasi xadimlərin vasitəsilə bütün dünya ictimaiyyətinə çatdırılır və mən güman edirəm ki, bundan sonra da daha geniş, daha dərin surətdə çatdırılacaq. İndi Azərbaycan çətin vəziyyətdədir. Türkiyənin açıqca, qorxmadan öz türk qonşusunu qorumaq və ona yardım etmək haqqındakı mühüm sözləri şübhəsiz ki, bütün başqa dövlətlərin rəhbərlərinə və beynəlxalq aləmə təsir edəcək.** Mən heç də şübhə etmirəm ki, hörmətli Baş nazir, bütün türk millətini sevən insanların hamısı Azərbaycana yardım edəcəkdir. **Azərbaycan türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin bir-birinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir türk respublikası yaxşı istifadə etməlidir. Hər bir türk, yəni, keçmiş Sovet İttifaqında yaşayan hər bir türk. Mən belə hesab edirəm.**

İndi üzümü Türkiyəyə - ana Türkiyəyə tuturam. Siz qeyd etdiyiniz kimi, **Naxçıvanda türklər yaşayır. Orda başqa bir millət yoxdur. 350 minlik əhalinin hamısı türkdür, hamısı türksevərdir. Türk tarixini, türk millətini, türk mədəniyyətini hamısı sevir. Bu, təsadüf deyil, çünki bunlar hamısı türkdür.**

Ancaq 70 il Sovet quruluşunda bu millətin türk adını üstündən götürüb, onları millətini unutdurmağa çalışırdılar. Görürsünüz ki, 70 il az vaxt deyil. **Bu dövrdə nə qədər təbliğ olundu ki, siz türk deyilsiniz, ancaq hər bir kəsin qəlbində türk millətinə mənsub olması hissi qaldı və fürsət tapılan kimi aşkara çıxdı.** Bu, Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda daha açıq görsənir. Siz dediyiniz kimi, bütün səbəblərə görə Naxçıvan Ana Türkiyəyə - Anadolu Türkiyəsinə daha çox yaxındır.

İndi bu yaxınlığı təmin etmək üçün bizə Sizin fəaliyyətiniz, yardımınız, bizimlə bu cür münasibətləriniz şübhəsiz, böyük şərait yaradır. Biz də Naxçıvanda çalışacağıq ki, bu şəraitdən istifadə edək. Və mən bir daha Sizə təşəkkürlərimi bildirmək istəyirəm. Bu fürsətdən istifadə edib bütün Türkiyədə olan qan qardaşlarıma öz salamlarımı və məhəbbətimi çatdırmaq istəyirəm. **Türkiyədə olan qardaşlarımı əmin etmək istəyirəm ki, Naxçıvanda olan türklər Türkiyənin həmişə dayağı kimi duracaqlar və bundan sonra Sizin yardımınız və köməyiniz vasitəsilə daha da inkişaf edəcəklər.**

TÜRKİYƏ İLƏ NAXÇIVAN ARASINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİ

24 mart 1992-ci il, Ankara

Türkiyə Cümhuriyyətinin Baş naziri SÜLEYMAN DƏMİRƏLİN çıxışı

Qardaşımız, qonşumuz Naxçıvan Muxtar Respublikasının hörmətli Prezidenti, əziz qardaşımız Heydər Əliyevlə bir müqavilə imzalayırıq. Bu müqavilənin mahiyyəti Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlıq etməkdir. Naxçıvan Muxtar Respublikasının bir çox ehtiyacları var. Bu ehtiyacları ödəməyə Türkiyə kömək edəcək. Bunun üçün 100 milyon dollar kredit verəcək, Naxçıvan Muxtar Respublikası ilə telefon, televiziya əlaqələrinin yaradılmasını Türkiyə təmin edəcək. Bundan əlavə, hər il 100 nəfər naxçıvanlı tələbə Türkiyə məktəblərində təhsil ala biləcək. Bütün xərcləri də Türkiyə öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında Araz çayı üzərində qurulan körpü bir ay müddətində tikilib istifadəyə veriləcək. Daha sonra hava xətti açılacaq, dəmir yolu çəkiləcək və bu xərcləri də Türkiyə öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasında müxtəlif müəssisələrə kapital qoyulması üçün təşəbbüslərimizi birləşdirib qiymətli qardaşlarımıza kömək edəcəyik.

Bilirsiz ki, Azərbaycanın bir hissəsi olan Naxçıvanla Türkiyə arasında qədimdən bir münasibət var. **Əgər Naxçıvanın statusunda hər hansı bir zamanda bir dəyişiklik olarsa, Türkiyə bu məsələdə söz sahibidir.** Naxçıvan Muxtar Respublikasına qarşı xüsusi bir ehtiramımız var. Bu ehtirama görə müqaviləni imzaladıq.

İndi bu müqavilənin nüsxələri yayılacaq və mənim imzaladığım müqaviləni hörmətli qonağım, qardaşım

Heydər Əliyevin imzaladığı müqavilə ilə dəyişdirəcəyik. Bunu mən Sizə verirəm...

Xeyirli olsun.

Heydər Əliyev: Sağ olun. Təşəkkür edirəm!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri HEYDƏR ƏLİYEVİN çıxışı

Hörmətli Baş nazir!

Hörmətli türk dostlarım!

Ən əvvəl qeyd etmək istəyirəm ki, bu gün Naxçıvanın - Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasının həyatında ən mühüm, ən tarixi gündür. Naxçıvan 1920-21-ci illərdə Qars, Moskva müqavilələri ilə Türkiyəyə bağlanmışdır.

Naxçıvanın Türkiyə ilə qədimdən çox insani, mədəni, iqtisadi və başqa əlaqələri olmuşdur. Bir sözlə, Naxçıvan qədim türk diyarıdır. Naxçıvanda türklər yaşayırlar.

Hörmətli Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə mənim Türkiyədə olmağım bütün naxçıvanlılar üçün böyük bir hədiyyədir, böyük bir mükafatdır. Və buna əsasən, bu gün burada belə bir müqavilənin imzalanması, bir daha qeyd edirəm, Naxçıvanın həyatında tarixi bir hadisədir. Bunu biz tarixi sənəd kimi qiymətləndiririk. Çünki 70 ildə Naxçıvan, Azərbaycan xalqı, Azərbaycan türkləri əsarətdə olmuş, Sovet imperiyasının əsarətində olmuş, indi bu əsarətdən xilas olub, Azərbaycan Respublikasının müstəqilliyini əldə etdiyi zaman Türkiyənin Azərbaycan Respublikasına və Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasına belə yaxından münasibət bəsləməsi, bu cür yardım etməsi, şübhəsiz, bizim keçmiş əlaqələrimizin yenidən yaradılıb möhkəmləndirilməsini bir daha nümayiş etdirir. Mən bütün naxçıvanlılar adından, Naxçıvandan olan sizin qan qardaşlarınız - türklər adından Türkiyə Respublikasında yaşayan bütün türk qardaşlarımıza, hörmətli Baş nazir Süleyman Dəmirələ, hörmətli Prezident Turqut Özala və hamınıza öz təşəkkürümü bildirirəm. **Hamınıza çatdırmaq istəyirəm ki, bu münasibətlər, bu əlaqələr Naxçıvan Muxtar Respublikası qarşısında düşdüyü iqtisadi və siyasi böhrandan çıxmaq üçün böyük bir yol açır və sizin yardımınızla bu böhranlardan çıxıb, Naxçıvan ilə Türkiyə arasında olan əlaqələri daha da inkişaf etdirəcəyik.** Mən bir məsələni qeyd etmək istəyirəm ki, bu müqavilənin və müqavilədə göstərilən bütün maddələrin, o cümlədən Naxçıvan Muxtar Respublikasına yüz milyon dollar yardım edilməsi məsələlərinin hamısının həm siyasi, həm iqtisadi, həm də mənəvi əhəmiyyəti var. **Mən çox bəxtiyaram ki, bu müqaviləni türk millətinin, türk dünyasının ən böyük siyasi xadimlərindən, şəxsiyyətlərindən biri olan hörmətli Süleyman Dəmirəl imzalamışdır. Qars, Moskva müqavilələri tarixə daxil olduğu kimi, bu da tarixə daxil olcaq. Bütün bizim gələcək nəsillər, bütün türk dünyası, indi yüksəlməkdə olan türk dünyası, birləşmək arzusunda olan türk dünyası bu sənədi də öz tarixində həmişə araşdıracaq və sənədi imzalayanlara, xüsusilə, hörmətli Süleyman Dəmirələ və bütün türk qardaşlarına daim təşəkkürlərini bildirəcək.** Mən, hörmətli Baş nazir, Sizi əmin etmək istəyirəm ki, Sizin bu yardımınızdan çox səmərli, çox faydalı istifadə etməyə Sizə söz veririk və mən deyərdim ki, bu proqram yerinə yetirildikcə Naxçıvanın inkişaf etməsini Siz gördükcə, Naxçıvana öz qayğılarınızı, öz diqqətinizi daha da artıracaqsınız. Hörmətli Baş nazir, mən Sizi Naxçıvana dəvət edirəm. Naxçıvanlılar Sizi Naxçıvan torpağında, qədim türk diyarında görməklə özlərini xoşbəxt hesab edəcəklər. İlk vaxt, bu körpü qurtaran kimi, körpünün açılmasında Sizin iştirakınız bizim Naxçıvan və türk xalqı üçün böyük bir hadisə olar. Sizin Naxçıvana gəlməyiniz, naxçıvanlılarla görüşməyiniz onlar üçün böyük bir hədiyyə olacaq. Sizə şəxsən mənə və yoldaşlarıma, bizim hamımıza göstərilən bütün diqqət və hörmətiniz üçün, bizi bir qardaş kimi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm. **Əmin etmək istəyirəm ki, bütün Azərbaycanda yaşayan türklər - Naxçıvan türkləri həmişə Türkiyə ilədir və bütün gələcək həyatlarını Türkiyə ilə bağlayırlar.** Bir daha Sizə hörmət və ən xoş arzularımı bildirirəm.

Süleyman Dəmirəl: Çox təşəkkür edirəm! **Hörmətli Prezident, bizim diqqətimiz Naxçıvan üzərindədir. Və inşallah, qısa bir zamanda açacağımız körpü - Araz çayı üzərində açacağımız körpü təkcə hər iki ölkəni coğrafi cəhətdən birləşdirməyəcək; iki ölkənin, hər iki xalqın yetmiş illik qürbətini aradan qaldıracaqdır.**

ƏLİYEV ANADOLU AGENTLİYİNİN SUALLARINA CAVAB VERDİ

"Əgər mən istəsəm, hətta bu gün rus ordusunu geri göndərə bilərəm, lakin onları əvəz edə bi-ləcək adamlarım yoxdur." "Bizim vəziyyətimiz elədir ki, sanki biz zəlzələ yaşamışıq." "Biz Ümid Körpüsünün keçiş qaydası haqqında protokol imzalamaq istəyirik."

Müxbirin rus ordusunun çıxarılması barədə sualına cavab verən **Heydər Əliyev** bu haqda bunları dedi:

"Mən rus ordusunu göndərə bilərəm. Amma, onları əvəz edə biləcək adamlarım yoxdur. Daha sonra mən öz ordumu, öz polis təşkilatımı təşkil edəcəyəm... Əgər istəsəm, bugün artıq

rus ordusunu göndərə bilərəm." Amma hələ öz adamlarım yoxdur, biz buna hazır deyilik. Bizim öz ordumuz, pulumuz ve güclü polisimiz yoxdur, biz Sovetler Birliyindən axı ayrılmışıq. Bizim vəziyyətimiz elədir ki, sanki zəlzələ olub hər şey dağılır."

Heydər Əliyev növbəti suallara cavab verdi:

Sual: Naxçıvan xalqı indi latın əlifbasını qəbul etdi və özü onu öyrənməyə çalışır. Naxçıvanda türk əlifbasına keçid olacaqmı?

Cavab: Biz türk əlifbasına keçəcəyik. Mən artıq S.Dəmirəldən mətbəəni istəmişəm. İndi Ankaraya gəlib bu haqda danışıqlar aparacağam.

Nəşriyyatı əldə etdikdən sonra, mən bütün kitabları, çapı latın əlifbasına keçirəcəyəm. Bu problem olmayacaq.

Sual: Ümid Körpüsü açılandan sonra Türk və Naxçıvan vətəndaşlarının qarşılıqlı keçidində çətinlik varmı?

Cavab: Təbii ki, ilk günlər bəzi problemlər var idi. Bu məsələ üzrə biz Ankarada körpünün keçid qanunlarını təyin edən protokol imzalayacağıq. Hər iki tərəfdən sərhədi keçmək arzusunda olanlar çoxdur. Mən keçidin pasportlarla, yoxsa buraxılışlarla həyata keçirələcəyini aydınlaşdırıb razılığa gəlmək istəyirəm.

Sual: Naxçıvanlılar deyirlər ki, Siz Azərbaycanın rəhbəri olmalısınız. Gələcəkdə Azərbaycanın lideri olmaq fikriniz varmı?

Cavab: Təkcə naxçıvanlılar belə demirlər, Bakıda da belə deyirlər. Gedin Bakıya, Gəncəyə, Qarabağa, hər yerdə sizə bunu deyəcəklər. Amma mən bu haqda düşünmək belə istəmirəm. Mən çox yüksək vəzifələrdə olmuşam, Sovetlər Birliyinin rəhbərliyində olmuşam, Azərbaycanın rəhbəri olmuşam, indi mən Naxçıvanın rəhbəriyəm.

Mən Naxçıvanın yüksəlməsini təmin etmək istəyirəm, dünyada müəyyən bir yer tutmasını istəyirəm, mən buna görə çalışıram.

Sual: Ermənilərin hücumları nə vaxt bitəcək? Və nə vaxt Naxçıvanın bərpa olunması üçün vaxt tapacaqsınız?

Cavab: Mən Naxçıvanda 9 ay işləmişəm və 9 ay müddətində hər şey sakit idi. Mən ümid edirəm ki, toqquşmalara son qoya biləcəm.

Sual: Bu necə baş verəcək?

Cavab: Bunun yolları var, mən bunun üstündə çalışıram. Siyasi yollar.

Sual: Seçkilərə hələ 3 il qalıb, ancaq müxalifət vaxtından əvvəl seçkiləri tələb edir.

Cavab: Mənim üçün fərqi yoxdur, əgər vaxtından əvvəl seçkilər olsa, onları heç kim seçməyəcək. İndi parlamentdə 35 müxalifət nümayəndəsi var, seçkilərdə isə onlardan heç on nəfər də keçməyəcək. Qabaq, əvvəlki seçkilərdə müxalifətin müəyyən bir qüvvəsi var idi, indi isə heç o

da qalmayıb. Mənim tərəfdarlarım Xalq Cəbhəsinin mərkəzinə onları qovmaq üçün getmək istəyirdilər. Amma mən polisləri göndərdim və buna əngəl oldum. Əgər mən mane olmasaydım, qadınlar onların saçlarını yolardı.

Sual: Siz Xalq Cabhəsinin nümayəndələrini çağırıb onlarla danışıqlar aparmağa, əsasən də davam edən müharibəni nəzərə alaraq razılığa gəlməyə cəhd göstərmisinizmi?

Cavab: Mən bir neçə dəfə onları çağırıb, onlarla danışıqlar aparmışam. Bəlkə də hər gün onlarla telefonla danışırdım. Bir saat onlara ağıl vermək istəyirdim, amma onlar bunu istəmirsə, mən əlimə şpris alıb onların başlarına ağıl doldura bilmərəm.

Sual: Neçə ildən sonra Naxçıvanda nizam bərqərar olacaq?

Cavab: İndi mən bunu deyə bilmərəm. Lakin, əgər bizim Ermənistan ilə sərhədimizdə sakitlik olsa, Naxçıvan tezliklə nizama düşəcək.

Sual: Türkiyədə və Naxçıvanda ayrılmış ailələr var. Bu barədə nə etmək olar?

Cavab: Onların arasında tez-tez əlaqə yaratmaq olar. Naxçıvana gələrkən, onlar Bakıya yola düşüb, Bakıdakı qohumlarını tapa bilərlər. Turk, Azərbaycan və Naxçıvan televiziyası onlara bu işdə kömək edə bilər. Mən bu mövzunu Ankarada müzakirə edəcəm. Azərbaycanda türk televiziyasına baxırlar. Turk, Azərbaycan və Naxçıvan televiziyasına ünvanlı məktublar göndərmək və onları orada səsləndirmək olar.

Sual: İnformasiya mübadiləsində, xüsusilə poçt fəaliyyətinin yaxşılaşdırılmasında əməkdaşlıq necə təmin ediləcək?

Cavab: Biz məktubları Ümid körpüsündən, Qars və Aralıqdan göndərəcəyik. Qısa zamanda 500 abunəçiyə xidmət göstərən avtomatik telefon bağlantısının 24 kanalı işə düşəcək.

Telefonun köməkliyi ilə Türkiyə və Azərbaycan arasında əlaqə yaratmaq rahat olacaq.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il martın 22-dən 25-nə qədər Türkiyə Respublikası hökumətinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyədə səfərdə olmuşdur. Ankarada Heydər Əliyevi Türkiyə Respublikasının Prezidenti Turqut Özal qəbul etmişdir. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri arasında əlaqələrin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məsələləri müzakirə olunmuşdur. Görüşlər zamanı Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə bağlı məsələlərə də toxunulmuşdur.

Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında bağlanmış dostluq, əməkdaşlıq və yaxın qonşuluq müqaviləsi və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında tarixi və mədəni qardaşlıq əlaqələri əsas götürülərək bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında razılıq əldə olunmuşdur. Bu məqsədlə Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev birgə Əməkdaşlıq Protokolu imzalamışlar.

Əməkdaşlıq haqqında protokolda Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi nəzərdə tutulur.

Sənaye, kənd təsərrüfatı, tikinti və turizmin təşkilində tələbatı ödəmək və ərzaq, sənaye malları ilə əhalini təmin etmək məqsədilə Türkiyə hökuməti Naxçıvan Muxtar Respublikasına 100 milyon dollar məbləğində kredit ayırır.

Qısa vaxtda Muxtar Respublika Türkiyənin elektrik sisteminə daxil ediləcək, Türkiyə ilə Naxçıvan arasında birbaşa dəmir yolu və avtomobil yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və Araz çayı üzərində körpü tikiləcəkdir. Naxçıvan Muxtar Respublikası ilə qısa vaxtda hava xəttinin yaradılması məqsədilə Türkiyə Respublikası lazımi tədbirlər həyata keçirəcək, Türkiyə televiziyası və radiosunun verilişlərinin Naxçıvanda maneəsiz qəbul edilməsi üçün Türkiyə tərəfi zəruri tədbirlərin görülməsini sürətləndirəcəkdir.

Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının təmin edilməsi üçün telefon, faks, teleks kimi xəbər sistemlərinin işlək vəziyyətə gətirilməsi məqsədilə xüsusi bir proqramın işlənib hazırlanması nəzərdə tutulur.

Türkiyə tərəfi bu ilki əkin mövsümünün əvvəlinədək Naxçıvan Muxtar Respublikasını lazım olan toxum, kənd təsərrüfatı texnikası və müvafiq mütəxəssislərlə təmin etməyi də üzərinə götürmüşdür. Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında bank sahəsində geniş iş birliyi yaradılacaq və Naxçıvanda Türkiyə Respublikasının Kənd Təsərrüfatı Bankının şöbəsi açılacaq.

Naxçıvanda turizmin təşkili, müasir mehmanxanaların inşası, mətbəx avadanlıqlarına olan ehtiyacın təmin edilməsi sahəsində də Türkiyə hökuməti tərəfindən yardım göstərilməsi nəzərdə tutulur. Türkiyə Respublikası həmçinin Naxçıvan Muxtar Respublikasından ildə 100 tələbənin Türkiyədə təhsil almasını təmin edəcəkdir.

Söhbət və danışıqlar zamanı Türkiyə tərəfindən Baş nazirin müavini Ərdal İnönü, Xarici İşlər naziri Hikmət Çetin, Milli Müdafiə naziri Növzat Ayaz, Daxili İşlər naziri İsmət Sezgin, Kənd Təsərrüfatı naziri Nəcməddin Cövhəri, dövlət nazirləri Cavad Çağlar, Ekram Ceyhun, Ömər Barutçu, Türkiyə parlamentinin deputatı Münaf İslamoğlu iştirak etmişlər.

Türkiyəyə səfər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi Ali Məclisin Sədr müavini Asif Kələntərli müşayiət etmiş, aparılan söhbət və danışıqlarda iştirak etmişdir.

Ankarada olarkən Heydər Əliyev Türkiyə Respublikasının ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olan Məmməd Əmin Rəsulzadənin qəbirlərinə əkilllər qoymuşdur. Ali Məclisin Sədri həmçinin İstanbul, Qars, İqdır şəhərlərinin tarixi abidələri, görməli yerləri ilə tanış olmuş, şəhər rəhbərləri ilə görüşüb danışıqlar aparmışdır.

Türkiyə Respublikası və Naxçıvan Muxtar Respublikası rəhbərləri arasındakı görüşlər və danışıqlar qardaşlıq, dostluq, səmimiyyət, qarşılıqlı anlaşma və məhəbbət şəraitində keçmişdir. Türkiyənin hər yerində Naxçıvan nümayəndələrinə böyük diqqət, qonaqpərvərlik, mehriban münasibət və ehtiram göstərilmişdir

1 aprel 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri və Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il tarixli Ankara Əməkdaşlıq Protokolu haqqında

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalla, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəllə və digər rəsmi şəxslərlə aparılmış danışıqları bəyənilsin.

2. Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 1992-ci il martın 24-də Ankarada imzalanmış Əməkdaşlıq Protokolu təsdiq edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı Əməkdaşlıq Protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri əsasında Türkiyə

Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Ankara Əməkdaşlıq Protokolunu böyük əhəmiyyətə malik olan tarixi sənəd kimi qəbul edir və yüksək qiymətləndirir.

Ali Məclis qeyd edir ki, Azərbaycan Respublikasının, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ağır iqtisadi böhran vəziyyətində olduğu bir dövrdə Türkiyə Cümhuriyyəti hökumətinin Naxçıvan Muxtar Respublikasına böyük maliyyə, maddi-texniki yardım göstərməsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, böhrandan çıxmasına, əhalinin rifah halının yaxşılaşmasına geniş imkan yaradacaq.

Bu imkanlardan səmərəli istifadə olunması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, bütün idarə orqanların mühüm vəzifələri olmalıdır.

Ali Məclis Naxçıvan Muxtar Respublikasının əhalisi adından Türkiyə Cümhuriyyəti hökumətinə, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özala, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirələ dostluq və qardaşlıq münasibətlərinə görə, Əməkdaşlıq Protokolunda nəzərdə tutulmuş yardıma görə dərin minnətdarlığını və təşəkkürünü bildirir.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin daimi komissiyalarına, Muxtar Respublika Nazirlər Kabinetinə, rayon və şəhər xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq Protokolunun icrası ilə əlaqədar konkret təkliflərini hazırlayıb 15 gün müddətinə Ali Məclisin Rəyasət heyətinə təqdim etsinlər.

Təkliflər daimi komissiyalarda, Nazirlər Kabinetində müvafiq mütəxəssislərin iştirakı ilə müzakirə olunsun.

6. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə tapşırılsın ki, Əməkdaşlıq Protokolundan irəli gələn məsələlərin təşkil olunması və yüksək səviyyədə həyata keçirilməsi məqsədilə koordinasiya komissiyası yaratsın.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər Əliyev
Naxçıvan şəhəri,
4 aprel 1992-ci il

İLK ADDIMLAR ATILIR

Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında Ali Məclisin Sədri Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl tərəfindən imzalanmış birgə əməkdaşlıq haqqında protokolda telekommunikasiya sahəsində Muxtar Respublikanın zəruri ehtiyaclarının təmin edilməsi məqsədilə telefon, faks, teleks kimi xəbər sistemlərinin qısa vaxtda qurulması üçün xüsusi bir proqram hazırlanması nəzərdə tutulurdu. Belə bir proqramın hazırlanması məqsədilə Türkiyənin "Teletaş" şirkətinin bir qrup nümayəndəsi Muxtar Respublikaya gəlmişdir. Onlar Ali Məclisin Sədri Heydər Əliyevlə görüşmüşlər.

"Teletaş" şirkətinin xarici ölkələrlə ticarət şəbəsinin müdiri Mücid Emal şirkətin təklif etdiyi proqram haqqında geniş məlumat vermişdir. O bildirmişdir ki, "Teletaş" şirkəti telefon aparatlarından tutmuş ən müasir ATS-lər və dünya standartlarına uyğun başqa telekommunikasiya və transmissiya avadanlıqlarının istehsalı və yerlərdə quraşdırılması ilə məşğul olur. Bu şirkətin hazırladığı proqrama əsasən, Naxçıvan Muxtar Respublikasını beynəlxalq telefon rabitəsi ilə təmin etmək üçün burada 3 min nömrəlik mərkəzi avtomat telefon və 200 nömrəlik teleks stansiyalarının, Naxçıvanın Bakı ilə rabitəsinin daha da yaxşılaşdırılması məqsədilə 800 kanalı olan "Peyk" stansiyasının quraşdırılması, Muxtar Respublika ilə Türkiyə arasında radiorele sisteminin kanal sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Ali Məclisin Sədri Heydər Əliyev "Teletaş" şirkətinin proqramını bəyəndiyini bildirmiş və şirkətin proqram üzrə layihəsini gözlədiyini söyləmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ə.Sadiqov, Azərbaycan Respublikası Rabitə nazirinin müavini N.Əhmədov, Naxçıvan Rabitə idarəsinin rəisi Z.Novruzov iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
9 aprel 1992-ci il

XALQIMIZIN ƏN LAYİQLİ OĞLUNU PREZİDENT SEÇƏK

Aprelin 22-də C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Muxtar Respublikanın mədəniyyət işçilərinin yığıncağı olmuşdur. Yığıncaqda Azərbaycan Respublikasının Prezidentliyinə Heydər Əliyevin namizədliyi irəli sürülmüşdür. Və qeyd olunmuşdur ki, yalnız Heydər Əliyev bacarığı, uzaqgörənliyi, müdrik rəhbərliyi ilə respublikamız bu günkü ağır vəziyyətdən çıxa bilər. Heydər Əliyevin respublikamıza uzun müddət rəhbərlik etməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi vaxtdan keçən dövr ərzindəki fəaliyyəti də bunu aydın göstərir. Qısa bir zamanda Muxtar Respublikamız qonşu Türkiyə və İranla geniş əlaqələr yaratmışdır. Ali Məclis Sədrinin Türkiyə Respublikasına səfəri son dərəcə müvəffəqiyyətli olmuşdur. Qardaş Türkiyə Respublikası Muxtar Respublikamıza 100 milyon dollar kredit vermişdir ki, bu da

iqtisadiyyatımızın dirçəldilməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində həlledici rol oynayacaqdır.

...Yığıncaq iştirakçıları yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikası prezidentliyinə namizəd irəli sürmüşlər.

"Şərq qapısı" qəzeti,
25 aprel 1992-ci il

QARS VİLAYƏTİNİN VALİSİ NAXÇIVANA GƏLMİŞDİR

Aprelin 24-də Türkiyə Respublikası Qars vilayətinin valisi Sıtkı Aslan və Türkiyə elektrik şirkətinin eksperti Tofiq Karasu Naxçıvana gəlmişlər. Qars valisinin Naxçıvana bu səfəri Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq Protokolu əsasında keçirilir.

Elə həmin gün Qars vilayətinin valisini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Heydər Əliyev qonaqları salamlayaraq demişdir ki, Sizin Naxçıvanla və ümumiyyətlə, Azərbaycanla tanış olmanız Türkiyə ilə Azərbaycan və Naxçıvan arasında, Naxçıvanla Qars arasında, Türkiyənin başqa vilayətləri arasında əlaqələrin daha da genişlənib möhkəmlənməsinə kömək edəcək.

Sıtkı Aslan səmimi qəbul üçün minnətdarlıq edərək demişdir ki, biz hələ Sizin, Muxtar Respublika Ali Məclisi Sədrinin Türkiyəyə, o cümlədən, Qars vilayətinə səfərinizin xoş təəssüratı altındayıq. Türkiyədə, eləcə də bizim Qars vilayətində Sizin necə sevinclə, məhəbbətlə qarşılaşdığınızın canlı şahidi oldunuz. Bizim vətəndaşlarımız Sizi böyük sevinclə bağırlarına basdılar, bütün davranışları ilə öz məhəbbətlərini izhar etdilər.

Sizin Qarsa gəlişiniz bizim üçün böyük şərəf idi. Biz də öz növbəmizdə Naxçıvana, Azərbaycanın bu gözəl bölgəsinə gəldiyimizə çox şadıq. Bu gün biz Sizin şəxsinizdə bütün qan qardaşlarımıza, soydaşlarımıza dərin məhəbbətimizi bildiririk. Eyni zamanda, biz Prezident Turqut Özalın, Baş nazir Süleyman Dəmirəlin salamlarını və xoş arzularının Sizə çatdırmağı özümüzə böyük şərəf hesab edirik.

Heydər Əliyev xoş arzular üçün qonaqlara minnətdarlığını bildirərək demişdir ki, bu gün sizin Naxçıvana gəlişinizi biz Türkiyə görüşlərinin davamı kimi qiymətləndiririk. Çox əlamətdardır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkiyəyə səfəri məhz, Naxçıvanla Türkiyə arasında salınmış körpüdən başladı. Biz Ankaraya gedərkən və oradan Naxçıvana qayıdarkən Qars vilayətindən keçdik. Bu, bir daha onu göstərir ki, Azərbaycanı Türkiyə ilə, Türkiyəni isə Azərbaycanla bağlayan Naxçıvan və Qars vilayətləridir. Ona görə bir daha təkrar edirəm ki, sizin

bu gün Naxçıvana gəlişiniz çox əlamətdar hadisədir. Biz bu görüşlərimizi bilavasitə Naxçıvan ilə Türkiyə Cümhuriyyəti arasında bağlanmış İşbirliyi protokolunun əsasında keçiririk. Biz bu protokolun və Türkiyə Naxçıvan nümayəndələrinə göstərilən böyük diqqət və qayğıların böyük təəssürat altındayıq. İndi Türkiyənin Baş naziri Süleyman Dəmirəllə bizim aramızda imzalanmış iş birliyi protokolunun həyata keçirilməsi ilə məşğuluq. Protokolda nəzərdə tutulanların hamısının həyata keçirilməsi isə həmin körpünün və Qarsın vasitəsilə olacaq. Ona görə də bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanı Türkiyə ilə birləşdirən iki mühüm məntəqə var - bunlardan biri Naxçıvandır, o birisi isə Qars vilayətidir. Bu iki vilayətin rəhbərlərinin görüşməsi, danışıqlar aparmaları çox mühüm əhəmiyyət kəsb edir. Bizim Türkiyədə son dərəcə səmimi qarşılandığımıza görə Naxçıvanın bütün əhalisi adından Türkiyə Cümhuriyyətinə, Türkiyə hökumətinə və xüsusən, Prezident Turqut Özala və Baş nazir Süleyman Dəmirələ çox böyük təşəkkürmü bildirirəm. Çünki bizim bu səfərdə imzalanmış iş birliyi Protokolu və Naxçıvana göstərilən xüsusi münasibət tək Azərbaycanda deyil, keçmiş Sovetlər birliyinin bütün cümhuriyyətində böyük əks-sədaya səbəb olmuşdur. Və eyni zamanda, 70 il bundan əvvəl imzalanmış Qars müqaviləsi, Naxçıvanın indinin və gələcəyinin 70 il əvvəl imzalanmış həmin müqavilə ilə bağlı olması Naxçıvanı Qarsa daha yaxın edir. Ona görə də siz burda çox böyük hörmət və mehribanlıq görəcəksiniz. Naxçıvanda da, bütün Azərbaycanda da sizi səmimi qan qardaşı, əziz dost kimi qarşılayacaqlar.

Sıtkı Aslan bütün bu deyilənlərə tam şərik olduğunu bildirərək demişdir ki, Qars müqaviləsi Naxçıvanla Türkiyə Cümhuriyyətinin könül birliyini nümayiş etdirən, Naxçıvanın sərhədlərini müəyyən edən və bunun üçün bir zəmin rolu oynayan müqavilədir. Ona görə də Türkiyə Cümhuriyyəti Naxçıvanı sadəcə qan qardaşları diyarı hesab etməklə kifayətlənməyərək onu Türkiyə ilə sıx tellərlə bağlı bir diyar hesab edir.

Son dərəcə səmimilik və qardaşlıq şəraitində keçən görüş zamanı Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası, o cümlədən Qars vilayəti ilə Naxçıvan arasında hərtərəfli əlaqələrin yaradılması və inkişafı məsələlərindən danışılmış, Azərbaycanı Türkiyə ilə birləşdirəcək Araz çayı üzərindən salınan körpünün inşasının gedişi və onun tezliklə istifadəyə verilməsi zəruriyyəti qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Q.Məmmədov və Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ə.Sadiqov qəbulda iştirak etmişlər.

Həmin gün qonaqlar Naxçıvan şəhərinin görməli yerləri ilə tanış olmuşlar.

Aprelin 25-də qonaqlar Naxçıvandan Bakıya yola düşmüşlər.

"Şərq qapısı" qəzeti,
28 aprel 1992-ci il

TÜRKİYƏ MÜTƏXƏSSİSLƏRİ NAXÇIVANDA

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış iş birliyi protokolunun 8-ci bəndinə uyğun olaraq Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin məsul işçiləri - nazirliyin Mexanizasiya İdarəsinin rəisi Qadir Dəmirçi, Bitkiçilik İdarəsinin rəisi Fəhri Harmanşah və Heyvandarlıq İdarəsinin rəisi, doktor Erol Dəmirtel aprelin 21-dən 27-dək Muxtar Respublikamızda olmuşlar. Onlar Muxtar Respublikanın Şərur, Babək və Şahbuz rayonlarında kənd təsərrüfatının vəziyyəti ilə tanış olmuş, Naxçıvan şəhərində kənd təsərrüfatı məhsulları emal edən müəssisələrdə olmuşlar.

Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev türkiyəli qonaqları qəbul etmişdir. Qonaqlar Muxtar Respublikada kənd təsərrüfatının vəziyyəti barədə və onun inkişafı üçün görüləcək işlər haqqında məlumat vermişlər. Onlar qeyd etmişlər ki, Muxtar Respublikanın kənd təsərrüfatının bəzi sahələri yaxşı vəziyyətdədir. Lakin onu bütünlükdə inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirilməlidir və onlar bu işdə lazım olan bütün köməkliyi göstərəcəklər.

Cari ilin payızında Muxtar Respublikada təcrübədən keçirmək üçün 8 növ müxtəlif taxıl toxumu göndəriləcək. Həmin toxumların səmərəliliyi müəyyən edildikdən sonra Muxtar Respublika üçün kifayət qədər toxum ayrılacaq. Hazırda Muxtar Respublika kənd təsərrüfatının bitkiçilik sahəsində yaranmış gərginliyi nəzərə alaraq Türkiyə tərəfi Muxtar Respublikaya 850 ton göy daş v 5 min ton azot gübrəsi göndərilməsini təşkil edəcək.

Konserv zavodlarında şüşə qabların çatışmaması ilə əlaqədar 5 milyon ədəd 1 litrlik və 5 milyon ədəd 3 litrlik bankalar da göndəriləcək.

Bundan başqa, Muxtar Respublikada valyuta ilə satıla biləcək dərman bitkilərinin olmasını nəzərə alaraq onların xarici ixracatını təşkil etmək üçün mütəxəssislər göndərilməsi də nəzərdə tutulmuşdur.

Heyvandarlığın inkişaf etdirilməsi üçün də tədbirlər müəyyənləşdirilmişdir. Mexanikləşdirmə sahəsinə də köməklik göstəriləcək. Bu məqsədlə Türkiyə tərəfindən Muxtar Respublikaya 1500 ədəd akkumlyator, pres bağlamaq üçün 120 ton ip, 100 min ədəd qayçı, 720 ədəd elektrik motoru, 40 ton elektrod, 10 ton karbid, 40 ədəd 50 at gücündə traktor göndərilməsi təmin olunacaq.

Heydər Əliyev Muxtar Respublikada şəkər çuğunduru istehsalının perspektivləri ilə maraqlanmışdır. Qonaqlar qeyd etmişlər ki, Muxtar Respublikanın, xüsusilə, Şərur rayonunun torpağı çox münbitdir. Ona görə də burda şəkər çuğunduru əkinindən yaxşı məhsul götürmək olar. Şəkərlilik dərəcəsi 18-19 faiz olmaqla hər hektardan 500-600 sentner məhsul götürmək mümkündür.

Söhbət zaman Muxtar Respublikanın kənd təsərrüfatının bir sıra başqa sahələrinin inkişafı məsələlərindən də ətraflı danışılmışdır.

"Şərq qapısı" qəzeti,
30 aprel 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl 1992-ci il mayın 2-də Bakıya gəldikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefonla zəng etmişdir.

Baş nazir və Ali Məclisin Sədri arasında mehriban və dostcasına söhbət olmuşdur. Süleyman Dəmirəl Özbəkistana, Qazaxıstana, Qırğızıstana və Türkmənistana səfərləri haqqında öz təəssüratlarından danışmış, Bakı şəhəri sakinlərinin ona göstərdiyi hörmət və ehtirama görə öz razılığını bildirmişdir.

Heydər Əliyev yüksək qonağı Azərbaycana gəlişi münasibətilə salamlamış, Orta Asiya və Qazaxıstan səfərinin müvəffəqiyyətlə keçməsi münasibətilə onu təbrik etmişdir. Sonra Ali Məclisin Sədri Naxçıvandakı vəziyyət haqqında məlumat vermiş, 1992-ci il martın 24-də Ankarada Süleyman Dəmirələ Naxçıvana gəlməsi haqqında təqdim edilmiş dəvəti bir daha xatırlatmışdır.

Süleyman Dəmirəl bu dəvəti məmnuniyyətlə yerinə yetirəcəyini söyləmiş və bildirmişdir ki, bu ilin may ayının sonunda Türkiyə ilə Azərbaycan arasındakı körpünün açılışı zamanı Naxçıvana gələcəkdir.

3 may 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefon etmiş və bildirmişdir ki, Amerika Birləşmiş Ştatlarından Türkiyəyə beş təyyarə ərzaq malları və tibbi ləvazimat gəlib və bunların hamısının "Qızıl Ay" cəmiyyəti vasitəsi ilə Naxçıvan Muxtar Respublikası əhalisinə yardım kimi göndərilməsi qərara alınıb.

1992-ci il aprel ayının 20-dən başlayaraq ərzaq malları və tibbi

ləvazimat avtomobillərlə Naxçıvana daşınırdı. May ayının 4-də axırıncı maşınlar Muxtar Respublikaya gəlmişdir.

Bu müddət ərzində Muxtar Respublikaya 258 ton 400 kq ərzaq, 32 ton 800 kq dərman, 6 ton 498 kq tibbi ləvazimat, 4 min ədəd odeyal gətirilmişdir.

Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev yardımın Naxçıvana gətirilməsi ilə məşğul olan Türkiyə Cümhuriyyəti "Qızıl Ay" cəmiyyətinin Naxçıvan üzrə yardım komitəsinin sədri Şəfəq Lotarı qəbul etmişdir.

Şəfəq Lotar Ali Məclisin Sədri Heydər Əliyevə gətirilmiş yardımlar haqqında məlumat vermiş, səmimi qəbul üçün minnətdarlığını bildirmişdir.

Ali Məclisin Sədri Türkiyə Cümhuriyyəti hökumətinə, Baş nazir Süleyman Dəmirələ, "Qızıl Ay" cəmiyyətinə yardım üçün təşəkkürünü bildirmiş, Naxçıvan əhalisinin salamını və minnətdarlığını Türkiyə xalqına çatdırmağı xahiş etmişdir.

6 may 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNİN QƏRARI

Türkiyə Cümhuriyyətinə nümayəndə heyətinin göndərilməsi haqqında

Naxçıvan Muxtar Respublikası Ali Məclisin Rəyasət Heyəti qərara alır:

1. Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il Ankara Əməkdaşlıq Protokolunun həyata keçirilməsi işlərini təşkil etmək üçün Türkiyə Cümhuriyyətinə aşağıdakı tərkibdə nümayəndə heyəti göndərilsin:

Q.Məmmədov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, nümayəndə heyətinin başçısı), Ş.Xan-Babayev (Naxçıvan Muxtar Respublikası Dövlət Plan Komissiyasının sədri), R.İbadov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin xarici ölkələrlə əlaqələr şöbəsinin müdiri), N.İmanov (Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri), V.Talıbov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Baş köməkçisi).

2. Nümayədə heyətinə tapşırılsın ki, Əməkdaşlıq Protokoluna müvafiq olaraq Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi, iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq başkanlıqları ilə birlikdə Türkiyənin aid nazirliklərində, idarələrində,

maliyyə orqanlarında konkret tədbirlər görsün. Protokolun birinci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarını ödəmək üçün ayrılmış 100 milyon Amerika dolları məbləğində kreditdən istifadə olunması ilə əlaqədar işləri təşkil etsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər Əliyev
Naxçıvan şəhəri,
18 may 1992-ci il

YENİ BAŞ KOMANDANIN KÖHNƏ FİKİRLƏRİ

NAXÇIVAN, 21 may (Azərinformun müxbiri). Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərinformun müxbiri ilə söhbətində demişdir: Naxçıvan-Ermənistan sərhədində vəziyyətin kəskinləşməsinin və Türkiyənin buna münasibətinin guya üçüncü dünya müharibəsinə gətirib çıxara biləcəyi ilə marşal Şaposnikovun hamını qorxutması onun köhnə qayda ilə düşündüyünü sübut edir. Ali Məclisin Sədri Azərbaycanın əsas hissəsindən Ermənistan ərazisi ilə ayrılan və qonşu respublikanın təsiri üzündən münaqişəyə cəlb olunan bu Azərbaycan anklavının saxlanmasının təminatı kimi Naxçıvana Türkiyə Respublikası qoşunlarının dəvət edilməsi ilə əlaqədar MDB Birləşmiş silahlı qüvvələri Baş komandanının verdiyi bəyanatı düşünülməmiş bəyanat adlandırmışdır.

Heydər Əliyev qeyd etmişdir: Çox güman ki, marşal Şaposnikov Naxçıvanın statusu haqqında 1921-ci ildə Rusiya ilə Türkiyə arasında imzalanan və hələ heç kimin ləğv etmədiyi Qars müqaviləsini unutmuşdur. Ali Məclisin Sədrinin dediyinə görə, Baş komandan onu da yaddan çıxarmışdır ki, bölgədə Rusiya hərbi birləşmələri var və onlar suveren Azərbaycanın bir hissəsinə qarşı Ermənistanın təcavüzünü dəf etməkdə Azərbaycan xalqına kömək göstərməkdən boyun qaçırırlar.

Heydər Əliyev bildirmişdir ki, Muxtar Respublika rəhbərliyinin Ermənistanla sərhəddə vəziyyətin inkişafından son dərəcə narahat olduğu və bu vəziyyəti yaxşılaşdırmaq üçün hər şeyi etdiyi bir vaxtda təkcə marşalın düşünülməmiş bəyanatı deyil, bu gün Rusiyanın Dövlət katibi Gennadi Burbulisin və Müdafiə naziri Pavel Qraçovun Ermənistanda apardığı danışıqlar də təəccüb doğurur. Naxçıvan Parlamenti rəhbərinin dediyinə görə, onların Ermənistan Prezidenti Levon Ter-Petrosyanla, ona mötəbər mənbələrdən məlum olan görüşünə jurnalistləri buraxmamışlar. Lakin o əmindir ki, Yerevanda, bağlı qapılar arxasında Türkiyənin Naxçıvandakı hadisələrə münasibəti ilə bağlı məsələlər müzakirə edilir.

HEYDƏR ƏLİYEV ERMƏNİSTANIN HƏRƏKƏTLƏRİNİ PİSLƏMİŞDİR

LONDON, 21 may (RİTA-SÖTA-nın müxbiri Y.Sidirov). Azərbaycanın Naxçıvan Muxtar Respublikasının rəhbəri Heydər Əliyev Londonun "Deyli teleqraf" qəzetinin oradan olan müxbirinə demişdir: "Mən hərbi gərginliyin artırılmasının əleyhdarıyam, lakin Ermənistan yenə də bu cür hərəkət etsə, kömək üçün Türkiyəyə müraciət etməkdən başqa çarəm qalmayacaqdır".

Heydər Əliyev xatırlatmışdır ki, 1921-ci ildə Qarsda imzalanmış müqaviləyə əsasən Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır.

TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ NAXÇIVANDA

Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə mayın 21-də Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Nazirliyin böyük elçisi Ömər Ərsunun başçılıq etdiyi nümayəndə heyətinin məqsədi Sədərək bölgəsində Ermənistanın torpaqlarımıza davam edən təcavüzünün nəticələri və bununla bağlı Muxtar Respublikada yaranmış vəziyyətlə tanış olmaqdır.

Elə həmin gün böyük elçi Ömər Ərsun və onu müşayiət edən şəxsləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Ali Məclisin Sədri Muxtar Respublikanın Sədərək və Şərur bölgələrinə erməni ordusunun 1992-ci il mayın 18-dən başlanmış və bu günədək davam edən silahlı təcavüzü, bu bölgələrdə atəşin dayandırılması ilə bağlı görülən tədbirlər, o cümlədən Ermənistanın rəhbərliyi ilə apardığı telefon danışıqları haqqında ətraflı məlumat vermiş, böyük elçini maraqlandıran suallara cavab vermişdir.

Qəbuldan sonra bu günlər Muxtar Respublikada olan xarici jurnalistlərin böyük dəstəsi üçün mətbuat konfransı keçirilmişdir. Ali Məclisin Sədri müxbirlərin çoxsaylı suallarına cavab vermişdir.

Bu gün Ömər Ərsun başda olmaqla Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Sədərək bölgəsində vəziyyəti yerində öyrəndikdən sonra, yenidən Ali Məclisin Sədri Heydər Əliyevlə görüşəcəkdir.

"Şərq qapısı" qəzeti,
23 may 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin geniş iclası olmuşdur. İclasda Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev çıxış edərək demişdir ki, son aylar Naxçıvan Muxtar Respublikasının həyatı, eləcə də Azərbaycanın həyatı çox çətin və böhranlı olmuşdur. Son günlər isə vəziyyət daha da kəskinləşmişdir. İqtisadi böhranla yanaşı olaraq mayın 1-də Ermənistan tərəfindən Muxtar Respublika ərazisinə hərbi təcavüz edilmiş, bu təcavüz bir neçə gün davam etmiş, sonra aparılan danışıqlar nəticəsində onu aradan qaldırmaq mümkün olmuşdur. Lakin may ayının 18-də yenə də Ermənistan tərəfindən Muxtar Respublika hərbi təcavüzə məruz qalmışdır ki, bu da Ermənistanla Naxçıvan arasında ən ağır, ən qanlı konfliktdir. Bunun nəticəsində itkilər verilmiş, çoxlu yaralananlar olmuş, Sədərək kəndi dağıdılmışdır. Şərur rayonunun bir neçə kəndindən əhali köçürülmüşdür. Bir sözlə, Naxçıvan Muxtar Respublikasının həyatı xeyli gərginləndirilmişdir. Bildiyiniz kimi, dəmir yolu işləmir. İndi bizim Azərbaycanla əlaqəmiz yalnız hava yolu vasitəsilədir. Ona görə də Muxtar Respublikaya yanacaq, ərzaq və başqa ləvazimatların gətirilməsi tamamilə məhdudlaşmışdır. Bu, son illər onsuz da dağılmış iqtisadiyyatın daha pis vəziyyətə düşməsinə səbəb olmuşdur.

Bütün bunlar əlavə tədbirlər həyata keçirilməsini tələb edir. Bu tədbirlər şübhəsiz ki, həm iqtisadiyyatı, həm də xalqın rifahını yaxşılaşdırmaq və onun adi tələbatlarını ödəmək, həm də Naxçıvan Muxtar Respublikasının müdafiəsinin möhkəmləndirilməsi məsələlərini əhatə etməlidir.

Yaranmış vəziyyətdən çıxmaq, Ermənistanın silahlı hücumunu dayandırmaq üçün biz lazımi tədbirlər görmüşük və görürük. Bunun nəticəsində mayın 22-23-də Sədərək bölgəsində nisbi sakitlik olmuşdur və bizə belə gəlirdi ki, danışıqlar nəticəsində bu konflikti söndürə bilərik. Mayın 24-də günün birinci yarısında sakitlik olmuşdur. Lakin günortadan sonra Ermənistan tərəfdən atəş güclənmiş, bir adam həlak olmuşdur. Bu gün də ara-sıra atəş açılır. Onu da qeyd etmək lazımdır ki, dünən mayın 24-də Ermənistan tərəfdən Müdafiə naziri V.Sarkisyan və başqa rəhbər işçilər bizə müraciət etmişlər ki, danışıqlar aparmaq yolu ilə konflikti aradan qaldırmaq lazımdır. Çünki bizim çox böyük diplomatik fəallıq göstərdiyimizə, bütün dünya ictimaiyyətini ayağa qaldırmağımıza görə Ermənistan tərəfi indi artıq məhkum vəziyyətindədir. Onlar hər cür vasitələrə əl ataraq sübut etməyə çalışırlar ki, guya hücumu onlar başlamayıblar. Guya bizim əraziyə

keçməyiblər və atəşi dayandırıb danışıqlar aparmaq istəyirlər.

Qısa desək bugünkü vəziyyət belədir. Yaranmış vəziyyətlə əlaqədar biz dünya ictimaiyyətinə müraciət etməli olduq. Bildiyiniz kimi, elə may ayının 18-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl, Xarici İşlər naziri Hikmət Çətin, Baş nazirin birinci müavini Ərdəl İnönü Naxçıvana telefon etdilər, lazımi məlumatlar aldılar və o gündən indiyə qədər biz Türkiyənin rəhbərliyi ilə daim əlaqədəyik. Baş nazir Süleyman Dəmirəlin göstərişi ilə böyük elçi Ömər Ərsun başda olmaqla Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndələri bir neçə gündür ki, Naxçıvandadırlar. Biz bir neçə dəfə onlarla görüşmüşük. Bu gün də mən onlarla geniş söhbət etdim. Xarici ölkələrdən, eyni zamanda Rusiyadan bura çoxlu müxbirlər gəliblər və onların vasitəsilə mayın 18-də Naxçıvanda yaranmış vəziyyəti bütün dünya ictimaiyyətinə çatdırırıq. Bunun özü bizim üçün böyük nailiyyətdir. Çünki son dörd il ərzində Dağlıq Qarabağda gedən müharibə ilə əlaqədar həmişə Azərbaycanı günahlandırmışlar. Mətbuat orqanları, dünya ictimaiyyəti, o cümlədən Rusiya ictimaiyyəti həmişə ermənilərin xeyrinə birtərəfli məlumatlar almışlar. Lakin bu dəfə bizim bütün diplomatik və siyasi fəaliyyətimiz dünya ictimayyətinə yaranmış vəziyyət barədə düzgün məlumat vermişdir ki, Ermənistan Azərbaycana hücum etmişdir. Bütün dünya informasiya orqanları da bu barədə məlumat verirlər. 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləyib. NATO da bu barədə bəyanat verib. Türkiyənin Nazirlər Kabineti may ayının 18-də gecə saat 12-nin yarısında toplaşaraq geniş bir bəyanat vermişdir. Bütün bunların nəticəsində biz dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yarada bildik və Ermənistanın təcavüzkar mövqeyini ifşa etdik. Dünən Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri də Naxçıvana gəlib. Biz onları Sədərəyə göndərdik. Çünki vuruşmanın birinci günü bizim döyüşçülərin bir neçəsi həlak olmuşdu. Ona görə də Qırmızı Xaç Cəmiyyətinin nümayəndələrindən xahiş etdik ki, bu işdə vasitəçilik etsinlər.

Belə bir vaxtda bizi həm Naxçıvanın müdafiəsi, həm iqtisadiyyatının inkişafı, həm də əhalinin maddi vəziyyəti çox dərindən düşündürür. Lakin bildiyiniz kimi daxili imkanlarımız çox məhduddur. Türkiyə bu günlər bizə yenə də hərtərəfli yardım göstərir. Bildiyiniz kimi, biz Sədərək vuruşmalarında yaralanmış 16 nəfəri müalicə olunmaq üçün Türkiyəyə göndərmişik. Əgər ehtiyac olsa yenə də göndərə bilərik. Bundan əlavə, Türkiyədən həkimlər də gəlib və hazırda bizim xəstəxanalarda yaralıları müalicə edirlər.

Dərman da göndərilib. Mən Baş nazir Süleyman Dəmirəllə telefonla danışarkən, o, bildirdi ki, "Qızıl Ay" Cəmiyyəti vasitəsilə Naxçıvana təcili

yardım göndəriləcək. Dünən İranın Xarici İşlər naziri Əli Əkbər Vilayəti də mənimlə telefon danışığı zamanı dedi ki, Naxçıvana humanitar yardım göndəriləcəkdir. Lakin yardımlar nə qədər olsa da, bizim tələbatımızı ödəmir. Ona görə də biz belə qərara gəlmişik ki, Naxçıvanın bütün təbəqələrinə məxsus olan nümayəndələri ilə məsləhətləşək. Bugünkü iclasa Muxtar Respublikanın nazirləri, dövlət komitələrinin sədrləri, idarə və müəssisələrin, bütün təşkilatların rəhbərləri, habelə rayonların rəhbərliyi dəvət olunmuşdurlar. Biz bu iclasa siyasi partiyaların, Xalq Gəbhəsinin, ictimai təşkilatların, böyük assosiasiyaların və kooperativlərin, ümumiyyətlə bütün sahələrin nümayəndələrini dəvət etmişik ki, bir yerdə məsləhətləşək və görək bu sahədə daha nə kimi tədbirlər görmək olar... Bu barədə biz sizin təkliflərinizi dinləməyə hazırıq.

Biz Rəyasət Heyətində məsləhətləşərək belə bir təklifi sizin müzakirənizə verməyi qərara aldıq. Bildiyiniz kimi, son vaxtlar Naxçıvanda iqtisadiyyatın ağır vəziyyəti, qaçqınların olması, kəndlərin dağıdılması ilə əlaqədar bizim müdafiə işlərimizi daha da möhkəmləndirmək üçün bəzi müəssisələr, habelə ayrı-ayrı vətəndaşlar vətənpərvərlik təşəbbüsü ilə bu işə yardım etmək fikrindədirlər. Bu barədə çoxlu təkliflər alırıq. Çox sevindirici haldır ki, Naxçıvanın hər bir sakini öz torpağının qeyrətini çəkir, iqtisadiyyatı inkişaf etdirmək və Muxtar Respublikanın müdafiəsini möhkəmləndirmək üçün öz köməkliklərini göstərmək istəyirlər.

Eyni zamanda bizə məlumdur ki, son vaxtlar bu təşəbbüslərlə əlaqdar olaraq Naxçıvanda Müdafiə Komitəsi, Xalq Cəbhəsi, daxili işlər orqanları tərəfindən də vəsait toplanılır.

Rayonlarda da bu işlə məşğuldurlar. Bu, əlbəttə, lazımlı işdir. Lakin bizi narahat edən bu işin çox pərakəndə şəkildə getməsidir. Bu pərakəndəlik toplanan vəsaitin hansı sahəyə yönəldilməsində anlaşılmazlıq yaradır. Bəzən şikayətlər də olur ki, toplanılan yardım lazım olan istiqamətə yönəldilmir, ayrı-ayrı adamlar bundan sui-istifadə edirlər.

Bütün bunları nəzərə alaraq biz belə fikrə gəlmişik ki, Naxçıvanın Vahid İnkişaf və Müdafiə Fondunun yaradılması təklifini sizin müzakirənizə verək. Bu fond mərkəzləşmiş şəkildə olsun. Onun bankda hesabı açılsın. Bütün Naxçıvanın inkişafına, müdafiəsinə yardım etmək istəyənlər öz vəsaitlərini bu fondun hesabına keçirsinlər. Fondun təşkil olunması və ondan istifadə edilməsi üçün komissiya yaradılsın. Əgər bu sahədə başqa təkliflər də varsa biz onları dinləməyə hazırıq.

Məsələnin müzakirəsi zamanı çıxış edən Naxçıvan şəhər 5 №-li orta məktəbin direktoru H.Məmmədov, "Türk qurumu" kooperati-

vinin sədri A.Axundov, Babək rayon XDM-nin Sədri T.Əliyev, Ordubad baramaaçan fabrikinin direktoru M.Miratayev, Təcili yardım mərkəzinin baş həkimi Ə.Salmanov, 39 №-li dəmir yol məktəbinin direktoru A.Hacıyev, Naxçıvan şəhər poliklinikasının baş həkimi V.Qazıbəyova, Ali Məclis Sədrinin müavini A.Kələntərli və başqaları bu təklifi yekdillikla müdafiə etdilər. Müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edildi.

Rəyasət Heyətinin iclasında bir sıra başqa məsələlərə də baxıldı.

"Şərq qapısı" qəzeti,
28 may 1992-ci il

AZƏRBAYCAN-TÜRKİYƏ: ƏMƏKDAŞLIĞIN YENİ DÖVRÜ

Naxçıvan aeroportu Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəədilmişdir. Türkiyəni Baş naziri Süleyman Dəmirəlin xüsusi təyyarəsi bura gəlmişdir. Təyyarənin pilləkəni yanında ali qonağı respublika Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Ali Sovetinin Sədri İ.Qəmbərov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Azərbaycanın Baş naziri R.Hüseynov, Ali Sovetin Sədrinin müavini A.Cəlilov, Baş nazirin müavini R.Gülməmmədov, Türkiyənin Azərbaycandakı səfiri və başqa rəsmi şəxslər qarşılayırlar.

Milli paltar geymiş oğlanlar və qızlar ali qonağı salamlayır, uşaqlar gül təqdim edirlər. Qədim Azərbaycan adəti üzrə Süleyman Dəmirəlin ayağı altında ağ qoç qurban kəsilir. Minlərlə naxçıvanlı qonağı salamlamaq üçün plakatlar və transparantlarla bura gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dedi: **Bu gün bütün Azərbaycan xalqının bayramıdır - biz respublikamızın istiqlaliyyət gününü qeyd edirik. Sizin səfəriniz həm də onunla sevindiricidir ki, bu gün Araz Sədərək körpüsünün açılışı olacaq. Bu, həqiqətən bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərə açmağa kömək edəcəkdir.**

Türkiyənin Baş naziri Süleyman Dəmirəl qeyd etdi ki, mən qədim Naxçıvan torpağında olmağımdan hədsiz dərəcədə şadam. Sizə 60 milyonluq türk xalqının salamını yetirirəm. **Biz sizin çətinliklərinizi yaxşı bilirik. Sizin xeyli itkilərinizdən xəbərdarıq. Lakin əmin olun: Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqəti bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizə mən əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq. Biz kədəri və sevinci sizinlə birlikdə bölüşəcəyik.**

Sonra avtomobil karvanı Naxçıvanın küçələri ilə Sədərək qəsəbəsinə doğru hərəkət edir. Yol boyu ali türk

qonağı on minlərlə naxçıvanlı salamlayırdı. Sədərəyə qədər olan adətən, bir saat-saat yarımlıq yolu bu dəfə ikiqat müddətə qət etmək lazım gəldi. S.Dəmirəl onu salamlayan yerli sakinlərin xahişi ilə bir neçə dəfə dayanmalı oldu.

Nəhayət, avtomobil karvanı son məntəqəyə - Sədərək körpüsünə gəldi. Yeni körpünün uzunluğu 288 metr, eni 12 metr, ümumi smeta dəyəri 5 milyon manatdan çoxdur. Onu Türkiyənin məşhur "Matsandış" yol tikinti şirkəti Naxçıvan təmirtikinti idarəsi ilə birlikdə inşa etmişdir. Ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələni göstərən bu təntənəli gündə bura on minlərlə həm azərbaycanlı, həm də türk gəlmişdir. Körpü hər iki dövlətin çoxlu bayraqları, transparantlar, Türkiyənin ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Demokratik Respublikasının banisi Məmmədəmin Rəsulzadənin portretləri ilə bəzədilmişdir. Mühüm nəqliyyat arteriyası olan körpünün açılışı müsabətilə təntənli mitinq keçirildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dedi: **Bu gün bizim arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi.** Bu gün biz Azərbaycan Demokratik Respublikasının banisi Məmmədəmin Rəsulzadəni, onun silahdaşlarını xatırlayır və onlara əbədi minnətdarlığımızı bildiririk. Naxçıvan özünün faciəli günlərini yaşayır. Naxçıvanla Ermənistan sərhəddində müharibə gedir. Naxçıvanın oğulları çətinliklərə baxmayaraq, öz doğma torpaqlarını müdafiə edirlər.

Heydər Əliyev həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş etdi. Sonra o, Muxtar Respublikaya yardım göstərdiyinə və onu müdafiə etdiyinə görə Türkiyə rəhbərliyinə minnətdarlığını bildirdi.

Türkiyənin Baş naziri S.Dəmirəl körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. O qeyd etdi ki, böyük türk dünyası artıq reallığa çevrilmişdir. Azərbaycanda demokratik proseslər gedir, öz qarşısında xeyirxah məqsəd - xalqının tərəqqisinə nail olmaq məqsədi qoyan demokratik hüquqi dövlət yaradılır. Türkiyə də demokratik dövlət yaratmağın çətin yolunu keçmişdir. S.Dəmirəl daha sonra dedi: Mən əminəm ki, siz də öz məqsədlərinizə çatacaqsınız və torpağınıza sülh və əmin-amanlıq gələcəkdir. **Biz bilirik ki, torpağınızda qardaşlarımızın qanı tökülür. Türkiyə heç vaxt sizi tək qoymayacaq. Biz Azərbaycanın suverenliyini, onun ərazi bütövlüyünü müdafiə edəcəyik. Hamı yadda saxlamalıdır ki, zorakılıq yolu ilə başqasının torpağını əlindən almaq olmaz. Bunu etmək istəyən hər kəs unutmamalıdır ki, hökmən ondan güclüsü tapılacaq.**

S.Dəmirəl sözünə davam edərək

dedi: **Bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu, Avropa ilə Asiya arasında körpüdür, Avropa və Asiya ölkələrinin qarşılıqlı faydalı əlaqələrinə xidmət edə bilər.** Baş nazir öz əməyi ilə bu günü yaxınlaşdıran inşaatçılara təşəkkürünü bildirdi.

Körpünün təntənəli açılışından sonra avtomobil karvanı Naxçıvana yollandı. Orda Türkiyənin Baş naziri və onu müşaiyət edən şəxslər Şəhidlər xiyabanına getdilər və respublikanın müstəqilliyi uğrunda mübarizədə öz canlarını qurban verənlərin məzarlarına tər çiçəklər və əklillər qoydular.

Sonra Naxçıvanda Türkiyə bankının açılışı oldu. Azadlıq meydanında S.Dəmirəlin respublika ictimaiyyəti ilə görüşü keçirildi. Görüşdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Ali Sovetinin Sədri İ.Qəmbərov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyənin Baş naziri S.Dəmirəl çıxış etdilər.

Axşam Türkiyənin Baş naziri S.Dəmirəl təyyarə ilə Ankaraya uçdu.

M.Kərimov
Azərinformun xüsusi müxbiri
Naxçıvan, 28 may 1992-ci il

HEYDƏR ƏLİYEV TÜRKİYƏYƏ GƏLMİŞDİR

ANKARA, 2 iyun (RİTA-SÖTA). Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə bazar ertəsi Türkiyə paytaxtına gəlmişdir. "Cümhuriyyət" qəzeti xəbər verir: Naxçıvan Parlamentinin Sədri demişdir ki, erməni tərəfi atəşi dayandırmaq haqqında sazişi pozaraq Muxtar Respublikanın yaşayış məntəqələrinə güclü hücumları davam etdirir. O demişdir ki, erməni silahlı birləşmələri Ordubad rayonunda əslində ikinci cəbhə açaraq, rayonu top atəşinə tuturlar. Heydər Əliyev bildirmişdir ki, atəşin dayandırılmasına nail olmaq üçün Ermənistan rəhbərləri ilə vaxtaşırı telefonla əlaqə saxlayır. Naxçıvan Parlamentinin Sədri respublikada yaranmış gərgin vəziyyətdən danışaraq demişdir ki, kəskin ərzaq, habelə yanacaq qıtlığı yaranmış, cəmi 3-4 günlük yanacaq ehtiyatı qalmışdır.

Heydər Əliyev İzmirdə keçiriləcək milli iqtisadi konqresdə iştirak edəcəkdir.

SƏHİYYƏ XİDMƏTİNƏ DİQQƏT

Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir. Müşavirə Muxtar Respublikanın müdafiə işləri ilə əlaqədar səhiyyə

xidmətinin yaxşılaşdırılması məsələlərinə həsr edilmişdir.

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev müşavirəni açarkən demişdir ki, may ayının 18-dən bu günədək bizim sərhədlərimizdə, xüsusən Sədərək bölgəsində müharibə gedir, bu müharibə gah şiddətlənir, gah da zəifləyir. Amma bunun nəticəsində Muxtar Respublikanın ən böyük kəndlərindən olan Sədərək kəndinin əhalisi qaçqın vəziyyətindədir. Onlar erməni hücumlarından qorunmaq üçün öz kəndlərini məcburən tərk edərək çadırlarda yaşayırlar. Buzqov və Kərməçataq kəndlərindən olan əhalinin də çox hissəsi qaçqın vəziyyətindədir.

Biz ciddi tədbirlər görürük ki, sərhədlərdə atışma dayandırılsın və kənd sakinləri öz evlərinə qayıtsınlar. Lakin hələlik buna nail ola bilməmişik, bu sahədə öz fəaliyyətimizi davam etdiririk.

Son vaxtlar baş verən hadisələr hamıya yaxşı məlum olduğu üçün bunun üzərində geniş dayanmağa ehtiyac yoxdur. Lakin onu qeyd etmək lazımdır ki, mayın 18-də Sədərəkdə başlamış atışmalar sonra Buzqov və Kərməçataq kəndlərinə də keçib. Batabat və Ordubad rayonunun əraziləri də ermənilər tərəfindən atəşə tutulur. Belə bir şəraitdə bizim əsas məqsədimiz ondan ibarətdir ki, Ermənistan rəhbərliyi ilə danışıqlar apararaq bu atışmaları dayandıraq. Ermənistan rəhbərliyi də hər dəfə sərhəddə gedən atışmaların dayandırılmasına tərəfdar olduqlarını bildirir, lakin bunun real surətdə həyata keçirilməsi üçün lazımi tədbirlər görmür. Eyni zamanda hər dəfə biz onları günahlandırdığımız halda, yəni atəşin onlar tərəfindən başlandığını dediyimiz halda, onlar da bizi günahlandırırlar ki, guya atəşi başlayan bizimkilər olub.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, iyun ayının əvvəlində mən Türkiyədə olarkən Ermənistan tərəfi bizə təkliflər paketi göndərib. Bu təkliflər də əsas etibarilə ondan ibarətdir ki, Ermənistan Respublikası Naxçıvan Muxtar Respublikası ilə bilavasitə əlaqələr yaratmaq istəyir və bu əlaqələr Naxçıvanın Ermənistanla olan sərhədlərində sabitliyi təmin etmək, dəmir yolunu açmaq və bütün bu münaqişəni dayandırmaq məqsədi daşıyır.

Biz həmin layihələrə baxaraq öz fikrimizi bildirmişik. Bütün bunların kökü ondan ibarətdir ki, əgər sərhədlərdə silahlı konflikt dayandırılmasa, dəmir yolu da işləməyəcək və eyni zamanda başqa sahələrdə də heç bir münasibət olmayacaqdır.

Lakin bu münasibətlər şübhəsiz ki, Azərbaycanla Ermənistan arasında olan münasibətlərlə bağlı olaraq tənzimlənməlidir. Ona görə də biz əsas məsələ kimi onu qoyuruq ki, ilk növbədə hərbi konflikt dayandırılmalıdır. Bunun qarşısında Ermənistan rəhbərliyi bizə təklif edir ki, hərbi konflikti dayandırmaq üçün sərhəd-

lərdə təxminən 10 nöqtədə başqa dövlətdən olan müşahidəçilər qoymaq lazımdır. Onlar təklif edirlər ki, həmin müşahidəçilər İran İslam Respublikasından olsunlar. Ermənistan rəhbərliyi hətta İrana müraciət edərək onun razılığını da almışdır.

Biz isə öz təklifimizi verərək bildirmişik ki, bu işdə tək İran İslam Respublikasından olan müşahidəçilərlə kifayətlənmək olmaz. **Buna başqa dövlətləri də, məsələn Türkiyəni də cəlb etmək lazımdır. Lakin onlar bunu qəbul etmədilər. Belə olan halda İran, Türkiyə və Rusiyanın nümayəndələrinin olmasını təklif etdik. Onlar bunu da qəbul etmədilər.**

Eyni zamanda Ermənistan tərəfi Rusiya televiziyası ilə bir neçə dəfə məlumat verib ki, guya biz ictimaiyyəti aldadır və həmişə bildiririk ki, Ermənistan bizə hücum edib, halbuki, onların dediyinə görə, onlar təkliflər veriblər və həmin təkliflər konfliktin dayandırılması məqsədini güdür. Lakin Ermənistan tərəfi artıq belə təbliğatlarla ictimaiyyəti aldada bilməz. Onların nə məqsəd güddüklərini dünya ictimaiyyətinə yaxşı məlumdur. Biz bütün bunlarla yanaşı bir sıra başqa vasitələrdən də istifadə edirik ki, hərbi konflikt dayandırılsın. Qeyd etdiyim kimi, mayın 18-dən sonra bir çox kəndlərin sakinləri qaçqın vəziyyətindədir. Onlar çadırlarda, vaqonlarda yaşayırlar, yaşayış şəraitlərində, ərzaqla və tibbi xidmətlə təmin olunmalarında çox çətinliklər var. Havaların qızması ilə əlaqədar su çatışmazlığı meydana çıxır. Sanitariya vəziyyətinin yaxşı olmaması müxtəlif xəstəliklərin meydana gəlməsi təhlükəsini yaradır.

Bütün bunlarla yanaşı ən mühüm vəzifə ondan ibarətdir ki, həm çadırda yaşayan qaçqınlara, həm də sərhəd döyüşlərində yaralananlara lazımi səviyyədə tibbi yardım göstərilsin. Lakin bu işdə çox ciddi nöqsanlar vardır. Bizim səhiyyə müəssisələri bərbad vəziyyətindədir. Onlar öz işlərini lazımi səviyyədə təşkil edə bilməyiblər. Ona görə də biz təcili olaraq fövqəladə tədbirlər görməliyik. Bu ondan ibarətdir ki, biz bütün daxili imkanlardan istifadə edib qaçqınlara və yaralılara tibbi yardımı tələb olunan səviyyəyə qaldırmalıyıq. Ona görə də biz bu gün həmin işlərlə əlaqədar olanları bu müşavirəyə dəvət edib, onlarla məsləhətləşməyi qərara aldıq.

Sonra Naxçıvan MR Səhiyyə nazirinin müavini T.Cəfərov çıxış edərək sərhəd vuruşmalarında yaralananlara və qaçqınlara göstərilən tibbi xidmətin təşkili sahəsində görülən işlərə dair məlumat vermişdir.

Müşavirədə çıxış edən Sədərək rayon xəstəxanasının Baş həkimi N.Seyidov, Naxçıvan şəhər xəstəxanasının Baş həkimi M.Paşayev, Naxçıvan Respublika sanitar-epidemioloji stansiyasının Baş həkimi S.Cabbarov, Naxçıvan MR təcili yardım mərkəzinin Baş həkimi Ə.Salmanov və başqaları yaralananlara və zərər çəkənlərə göstərilən tibbi yardımın vəziyyətindən, Muxtar Respublika səhiyyəsinin müharibə şəraitinə uyğunlaşdırmaq problemlərindən danışmışlar.

Müşavirədə Muxtar Respublikada müdafiə işi ilə əlaqədar səhiyyə xidmətinin yaxşılaşdırılması üçün tədbirlər müəyyənləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev müşavirənin işinə yekun vurmuşdur.

"Şərq qapısı" qəzeti,
3 iyun 1992-ci il

SƏFƏRİN ƏMƏLİ NƏTİCƏLƏR VERƏCƏYİNƏ ƏMİNİK

Xəbər verildiyi kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasına səfərdədir. Naxçıvanlılar bu səfərdən çox şey gözləyirlər. Muxtar Respublikanın əməkdar mədəniyyət işçisi, şair Ə.Yusifli bu barədə müxbirimizə demişdir: - Öncə deyim ki, Heydər Əliyevin Muxtar Respublikada işləməsi burada yaşayan əhlinin xoşbəxtliyidir. Bu böyük ictimai xadim son vaxtlar bütün dünyanın diqqətini Naxçıvana çevirmişdir. Hazırda Heydər Əliyev Türkiyədə dövlət rəhbərləri və siyasi xadimlərlə görüşərək Muxtar Respublikanın iqtisadi və siyasi məsələlərini həll edir.

Səfərin müsbət nəticələri artıq görünməkdədir. Ərzaq dolu yük maşınları iki-üç gündür ki, şəhərimizdədir. Məlumdur ki, Türkiyə Naxçıvana 100 milyon dollar köməklik etmişdir. Həmin vəsaitdən səmərəli istifadə edilməsi üçün də Heydər Əliyev əlindən gələni edir.

"REAL" agentliyi,
5 iyun 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin növbəti iclasında Heydər Əliyev başda olmaqla Muxtar Respublika nümayəndə heyətinin Türkiyə Respublikasına səfərinin yekunları müzakirə edilmişdir. Həmin məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev məlumat vermişdir.

İyunun 1-də Türkiyə hökumətinin və şəxsən Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Muxtar Respublikanın nümayəndə heyəti iyunun 4-də İzmir şəhərində keçiriləcək üçüncü beynəlxalq iqtisadi konqresdə iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür. Elə həmin gün nümayəndə heyəti Ankaraya gəlmişdir. Axşamüstü nümayəndə heyəti-

nin kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşü olmuşdur. İyunun 2-də Baş nazir Süleyman Dəmirəl nümayəndə heyətini qəbul etmişdir. Baş nazirin qəbulundan əvvəl Muxtar Respublikamızın nümayəndə heyəti dövlət nazirləri Cavid Çağlar, Əkrəm Ceyhun və bir sıra başqa nazirlərlə görüşmüşdür.

Baş nazirlə aparılan danışıqlar çox səmərəli olmuşdur. Danışıqların əsas mövzusu Türkiyənin Naxçıvana maddi yardım göstərməsi məsələsi idi. Bundan əvvəl mart ayında imzalanmış protokola əsasən Muxtar Respublika üçün ayrılmış 100 milyon dollar kreditdən istifadə edilməsi məsələsi müzakirə edilmişdir. Hələ may ayının 20-də həmin məsələ ilə əlaqədar Muxtar Respublikanın nümayəndə heyəti Türkiyədə olmuş, kreditin açılması, ondan istifadə edilməsi və eyni zamanda həmin protokolla əlaqədar başqa məsələlərin həlli ilə məşğul olmuşdur. Bu sahədə müəyyən işlər görülmüşdür. Lakin kreditin açılması məsələsi tam həll edilməmişdir. İndiki səfər zamanı aparılan danışıqlar nəticəsində bu məsələ qısa bir müddətdə həll olunmuşdur. Həmçinin bir sıra başqa problemlər də, o cümlədən Naxçıvandakı vəziyyət haqqında Baş nazir Süleyman Dəmirələ və başqa nazirlərə geniş məlumat verilmiş, bizim bugünkü ehtiyaclarımız və protokol əsasında işlərin aparılması, körpünün açılması ilə əlaqədar gediş-gəliş barədə söhbət getmişdir.

Türkiyənin Xarici İşlər Nazirliyində də Naxçıvandan gəlmiş nümayəndə heyəti ilə görüş olmuş, açılmış kreditdən 10 milyon dollar məbləğində ərzaq malları almaq üçün Protokol imzalanmışdır.

Nümayəndə heyətinin başçısı Heydər Əliyev Naxçıvandakı vəziyyət, Ermənistanın Muxtar Respublikaya qarşı təcavüzkarlığı, sərhədlərdə olan vəziyyət haqqında Baş nazir Süleyman Dəmirələ və başqa nazirlərə, xüsusən Xarici İşlər naziri Hikmət Çətinə, habelə mətbuat nümayəndələrinə ətraflı məlumat vermişdir. Bütün bunlar da Türkiyə televiziyası və qəzetləri vasitəsilə geniş yayılmışdır.

Nümayəndə heyəti İzmirdə olarkən Türkiyə və xarici ölkələrin müxbirləri üçün mətbuat konfransı keçirmiş, Azərbaycan dərnəklərinin üzvləri ilə görüşmüşdür.

Nümayəndə heyətinin başçısı Heydər Əliyev İzmirdə Türkiyənin Prezidenti Turqut Özalla da geniş, ətraflı söhbət aparmışdır. Türkiyə Prezidenti Naxçıvandakı vəziyyətlə ətraflı maraqlanmış, ona Muxtar Respublikada olan iqtisadi vəziyyət, Ermənistanın silahlı təcavüzü barədə hərtərəfli məlumat verilmişdir. Türkiyə Prezidenti əmin etmişdir ki, Naxçıvana hər cür yardım göstəriləcəkdir.

Mindən artıq nümayəndənin iştirak etdiyi iqtisadi konqresdə, əsasən, Türkiyənin inkişaf problemləri müzakirə olunmuşdur.

Konqresin açılışı mərasimində Türkiyənin prezidenti Turqut Özal çıxış etmişdir. O, 1981-ci ildən sonra Türkiyədə həyata keçirilmiş islahatlar və bununla əlaqədar əldə edilmiş nailiyyətlər, ölkənin iqtisadi inkişafı və gələcək perspektivləri haqqında danışaraq demişdir ki, yaxın on ilin əsas məqsədi Türkiyəni dünyanın inkişaf etmiş dövlətləri sırasında görməkdir. O demişdir ki, SSRİ dağıldıqdan sonra regionda meydana gəlmiş yeni türkdilli və müsəlman dövlətləri ilə əməkdaşlığın yaxşı perspektivi açılır. Əgər biz bu imkandan istifadə edə bilsək, ağıllı və qarşılıqlı surətdə faydalı metodlarla əməkdaşlıq edə bilsək bu, bizim və ortaqlarımızın xeyrinə olar.

Baş nazir Süleyman Dəmirəlin məruzəsində qeyd edilmişdir ki, son on ildə keçilmiş sürətli inkişaf yoluna baxmayaraq, bugünkü Türkiyənin iqtisadi inkişafında hələ də böyük problemlər var.

Konqresdə Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyev də çıxış etmişdir. Heydər Əliyevin çıxışı çox böyük rəqbətlə qarşılanmışdır.

Muxtar Respublikanın nümayəndə heyəti Ankarada olarkən Rusiya Federasiyası Ali Sovetinin sədri Ruslan Xasbulatov başda olmaqla Rusiyanın nümayəndə heyəti onun görüşünə gəlmiş, görüş zamanı Naxçıvandakı vəziyyət barədə ətraflı söhbət olmuşdur.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İstanbulda, Ərzurumda, İqdırda və Türkiyənin bir sıra başqa şəhərlərində də olmuş, ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür.

Səfər zamanı həll edilmiş əsas məsələlərdən biri, qeyd edildiyi kimi, Muxtar Respublika üçün verilmiş kreditin açılması olmuşdur. İyun ayının 15-dən həmin kreditdən istifadə olunmasına başlanacaqdır. Kreditdən istifadə edilərkən ilk növbədə Muxtar Respublikaya ərzaq malları gətiriləcəkdir. İkincisi, Muxtar Respublikaya gediş-gəliş məsələsi həll olunmasıdır. Türkiyə tərəfi məsələni belə qoymuşdur ki, gediş-gəliş son dərəcə sadələşdirilməlidir. Məsələ burasındadır ki, bizdə olan pasportlar sovet pasportlarıdır, Türkiyədə isə milli pasportlardır. Ona görə də onlar öz pasportları ilə sərbəst surətdə bura gələ bilərlər. Bizim pasportların içinə bir vərəqə əlavə olunmalıdır. Həmin vərəqə ilə biz o taya keçə biləcəyik. Vərəqələr artıq Türkiyədə hazırlanıb gətirilmişdir.

Türkiyənin Prezidenti Turqut Özal da, Baş nazir Süleyman Dəmirəl də belə fikirdədirlr ki, bizim dövlətlər arasında gediş-gəliş vizasız olsun. Lakin İranda olduğu kimi, Türkiyə ilə də müəyyən məsafədə gediş-gəliş daha sadə olacaqdır. Əgər İranla razılaşmada bu məsafə 45 kilometr təşkil edirsə, Türkiyə ilə 100 kilometr təşkil edəcəkdir. Səfər zamanı Naxçıvanda Türkiyənin

konsulluğunun açılması məsələsi də həll olunmuşdur.

Əsas məsələlərdən biri də hər il Naxçıvandan 100 nəfər tələbənin təhsil almaq üçün Türkiyənin ən yaxşı universitetlərinə göndərilməsidir.

Ali Məclisin Rəyasət Heyəti Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin Türkiyə Respublikasına səfərinin yekunlarını bəyənmiş və bununla əlaqədar müvafiq qərar qəbul etmişdir.

Rəyasət heyətinin iclasında Sədərəkdə vəziyyət və Muxtar Respublikanın iqtisadi vəziyyəti barədə məsələlər də müzakirə edilərək müvafiq qərarlar qəbul edilmiş, tədbirlər müəyyənləşdirilmişdir.

"Şərq qapısı" qəzeti,
17 iyun 1992-ci il

SƏFİR QƏBUL EDİLMİŞDİR

İyunun 17-də Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçar Mayls Naxçıvana gəlmişdir. Elə həmin gün cənab Mayls Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

Heydər Əliyev qonağı səmimi salamlayaraq bu yaxınlarda Amerika Birləşmiş Ştatlarından Türkiyənin "Qızıl Ay" cəmiyyəti vasitəsilə Naxçıvana göndərilmiş humanitar yardım üçün ABŞ dövlət rəhbərlərinə və xalqına Muxtar Respublika əhalisi adından minnətdarlığını bildirmişdir.

Riçard Mayls bu yardımın istifadəsi ilə maraqlanmış və demişdir ki, Naxçıvan Muxtar Respublikasının böyük problemlərlə qarşılaşdığını bilirik. Naxçıvana gəlməkdə məqsədimiz bu problemləri daha yaxından öyrənməkdir. O bildirmişdir ki, Türkiyə ilə Naxçıvan arasında salınmış körpüyə və Ermənistanla sərhəddə yerləşən hərbi münaqişə zonalarına getmək fikrindədir.

Ali Məclisin Sədri Heydər Əliyev demişdir ki, Naxçıvan Muxtar Respublikasının üzləşdiyi çətinliklərin ən böyüyü Ermənistanın Naxçıvan torpaqlarına hərbi təcavüzü və Muxtar Respublikanı iqtisadi blokadaya salmasıdır. O demişdir ki, Qarabağın dağlıq hissəsində müharibə getməsinə baxmayaraq biz Ermənistanla sərhdlərimizdə sabitliyi qoruyub uzun müddət saxlamışdıq. Həmişə olduğu kimi, indi də Muxtar Respublika rəhbərliyi və ictimaiyyəti Ermənistanla sərhəddə sülhün bərqərar olması mövqeyindən çıxış edir. Heydər Əliyev hərbi münaqişənin tezliklə bitməsi üçün Muxtar Respublika rəhbərliyinin həyata keçirdiyi tədbirlərdən danışaraq dünya ictimaiyyətinin Naxçıvan haqqında kifayət qədər məlumatlandırılmadığını qeyd etmiş, Muxtar Respublikanın yardıma və buradakı vəziyyət haqqında obyektiv məlumat yayılmasına ehtiyacı olduğunu söyləmişdir.

Azərbaycan Respublikasının siyasi mövqeyi haqqında söhbət gedərkən Ali Məclisin sədri qeyd etmişdir ki, **Azərbaycan milli müstəqillik və dövlətçilik yolunu tutaraq dünyanın bütün mədəni və demokratik ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları ilə hərtərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsini qarşısında məqsəd qoyur.** Naxçıvan Muxtar Respublikasının inkişaf perspektivlərindən bəhs edilərkən o bildirmişdir ki, Muxtar Respublika azad iqtisadi zona elan edilmiş və burada sərbəst bazar iqtisadiyyatının möhkəmləndirilməsi üçün ilk addımlar atılır.

Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında hərtərəfli münasibətlərin yaradılması və daha da inkişaf etdirilməsi, Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət və ABŞ hökumətinin bu regiona gələcək yardımı, Ermənistala həmsərhəd bölgələrində baş verən hərbi münaqişə və onun aradan qaldırılması yolları barədə ətraflı söhbət getmişdir.

"Şərq qapısı" qəzeti,
20 iyun 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasındakı Sədərək-Dilucu körpüsü haqqında

Azərbaycan ilə Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı yolu üçün körpü tikmişdir.

1992-ci il may ayının 28-də bu körpünün rəsmi açılışına Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəlmişdir. Həmin gün Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rəhbərliyinin, Araz çayının o tayında, bu tayında toplanmış Naxçıvanın və Türkiyənin çoxminli əhalisinin iştirakı ilə Türküyə və Azərbaycan arasındakı körpünün rəsmi açılışı olmuşdur. Beləliklə, iki qardaş xalqın uzun illər həsrətində olan arzuları yerinə yetmiş, Sədərək-Dilucu "Həsrət körpüsü", "Ümid körpüsü" yaranmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək-Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirir və qeyd edir ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf

etməsinə, Araz çayının o tayında və bu tayında olan qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış Əməkdaşlıq Protokolunun həyata keçirilməsi, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasına Protokolda nəzərdə tutulmuş maddi, texniki və mədəni yardımın təmin olunması üçün geniş imkan açır.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qərara alır:

1. İstifadəyə verilmiş Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının arasında rəsmi sərhəd keçid qapısı elan edilsin.

2. Sədərək-Dilucu rəsmi sərhəd keçid qapısının işinin təşkil edilməsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər Əliyev
Naxçıvan şəhəri,
9 iyul 1992-ci il

DOSTLUQ TELLƏRİ MÖHKƏMLƏNİR

Türkiyə Respublikasının Baş nazir Süleyman Dəmirəlin şəxsi dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Muxtar Respublika nümayəndə heyəti qonşu ölkəyə getmişdir. Qonşu ölkəyə səfərin məqsədi Türkiyə ilə yaranan əlaqələri daha da möhkəmləndirmək, eləcə də İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmək idi.

Sədərək-Dilucu körpüsünü keçən nümayəndə heyətini ilk salamlayan başı qarlı Ağrıdağ oldu. Naxçıvanlı qonaqları qarşılayan Aralıq bələdiyyə bakanı Yıldırım Turanın müşayiəti ilə maşın karvanı rayon mərkəzinə gəldi. Burada Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev və nümayəndə heyətini Aralığın qaymakanı Həsən İpək və sakinlər salamladılar. Yerli sakinlərlə keçirilən görüşlərdə bir-birinin ardınca verilən suallardan aydın oldu ki, onlar Muxtar Respublika ilə yaranan əlaqələrə böyük ümid bəsləyirlər. Aralıqla qısa tanışlıqdan sonra Muxtar Respublikaya daha yaxın Türkiyənin bu kiçik yaşayış məntəqəsinin qaymakanı Həsən İpəklə söhbət zamanı Heydər Əliyev Sədərək-Türkiyə körpüsünün tikintisində onların fəallığını xüsusi qeyd etdi. Ali Məclisin sədri bildirdi ki, Muxtar Respublika ilə Aralıq

arasındakı dostluq əlaqələri möhkəmləndiriləcəkdir. Naxçıvan nümayəndə heyəti adından Heydər Əliyev Aralıq qaymakanlığına Mömünəxatun məqbərəsinin rəsmini hədiyyə verdi.

Muxtar Respublikanın nümayəndələri Aralıqdan İqdır şəhərinə yollandılar. İqdır Türkiyənin sərhəd şəhərlərindən biridir. Bu şəhər İran, Azərbaycan və Ermənistanla həmsərhəddir. 45 mindən artıq əhalisi var. Yaşıllıqlara qərq olmuş İqdırın sakinləri əsasən ticarətlə məşğuldurlar. Bura özünün qədim tarixi abidələri ilə zəngindir.

Naxçıvan nümayəndələrini şəhərin girəyində buraya yeni təyin olunmuş vali Ərdoğan İzgi və bələdiyyə başqanı Əli Ağrı qarşıladı. İqdır bu gün bayram əhvali-ruhiyyəsi ilə bəzədilmişdir. Şəhərin baş yollarının kənarına toplanmış yerli əhali naxçıvanlı qonaqları alqışlarla salamlamaqla bərabər, bir azdan bu şəhərə təşrif gətirəcək Türkiyənin Baş naziri Süleyman Dəmirəli və onu müşayiət edən millət vəkillərini səbirsizliklə gözləyirdilər. Əvvəlcədən hazırlanmış protokola uyğun olaraq Baş nazir Qars şəhərindən İqdıra vertolyotla gəldi.

Şəhərin mərkəzi meydanında bayram mərasimi başlandı. Minlərlə iqdırlının toplandığı bu mərasimdə Baş nazirlə bərabər Baş nazirin müavini Ərdal İnönü və dövlət nazirləri, millət vəkilləri də iştirak edirdilər. Naxçıvan nümayəndə heyətinin üzvləri mərasimdə fəxri kürsüdə əyləşmişdilər. İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar çıxış edənlər Muxtar Respublika nümayəndələrinin Türkiyəyə gəlişini xüsusilə qeyd etdilər. Baş nazir Süleyman Dəmirəl öz çıxışında bildirdi ki, İqdır şəhərinə vilayət statusu verilməsinin əsas səbəbi onun Azərbaycanla qonşu olmasıdır. Baş nazir dedi ki, İqdır, Sədərək-Dilucu körpüsü vasitəsi ilə bütün türk dünyasına pəncərə olacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin başçılığı ilə Muxtar Respublika nümayəndə heyətinin bu mərasimdə iştirakını S.Dəmirəl qonşu ölkələrin bir-birinə daha da yaxınlaşması hesab etdi və öz minnətdarlığını bildirdi.

Mərasimdə çıxış üçün söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verildi. On minlərlə iqdırlı kürsəyə çıxan Ali Məclis Sədrini aramsız alqışlarla qarşıladı.

Heydər Əliyev bu mərasimdə iştirak etməyə dəvət olunduqları üçün Naxçıvan nümayəndə heyəti adından Türkiyə hökumətinin başçısı S.Dəmirələ öz minnətdarlığını bildirdi.

Sonra Heydər Əliyev qeyd etdi ki, bu qədim türk şəhəri Naxçıvanın gərgin günlərində onun yaxın köməkçisi olmuşdur. Bu gün İqdırın vilayət kimi tanınması bizim aramızda olan yaxınlığı daha da möhkəmləndirəcəkdir. İqdırın bugünkü sevincinə bütün naxçıvanlılar qoşulmuş-

dur. Daha sonra Heydər Əliyev Türkiyə hökumətinin Naxçıvana, eləcə də Azərbaycana göstərdiyi diqqəti yaranan əməkdaşlığın ən vacib cəhəti adlandırdı.

İqdır şəhərindəki bayram şənliyi başa çatdı. Həmin gün iqdırlıların böyük sevincinə naxçıvanlılar da şərik oldular.

M.Əsgərov
Real-Azərinformun müxbiri
15 avqust 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikasında mövcud sosial-iqtisadi vəziyyət, baş vermiş çətinliklərin aradan qaldırılması və qış mövsümünə hazırlıq tədbirləri haqqında

...Muxtar Respublika Ali Məclisi və Nazirlər Kabineti Muxtar Respublikada gedən ictimai-siyasi proseslərin ağır nəticələr verməsinin qarşısını almaq məqsədilə bir sıra əsaslı tədbirlər həyata keçirir.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvana yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif markalı akkumlyator, 10 ton karbit göndərmişdir. Bunlar Muxtar Respublikanın kənd təsərrüfat ehtiyaclarını ödəmək üçün kolxozlara, sovxozlara və digər kənd təsərrüfatı müəssisələrinə satılmışdır. Göstərilən mal-materialların dövlət satış qiyməti ilə ümumi dəyəri 12,6 milyon manatdır. Satışda əldə edilən 9,5 milyon manatlıq vəsait Naxçıvan Muxtar Respublikasının inkişaf və müdafiə fonduna köçürülmüşdür.

Həmin müqavilənin icrası ilə əlaqədar Türkiyə hökuməti tərəfindən ayrılmış kredit hesabına Muxtar Respublika əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə də artıq başlanmışdır. 15 sentyabr 1992-ci ilə qədər 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü Muxtar Respublikaya daxil olmuş, rayon əhalisi nəzərə alınmaqla, müvafiq qaydada bölünüb əhaliyə satışı təşkil edilmişdir.

Türkiyə Respublikasının "Qızıl Ay" və İran İslam Respublikasından "Hilal Əhmər" cəmiyyətlərindən bu ilin mart ayından Muxtar Respublikaya yardım olaraq 785 ton un, 56 ton yağ, 87 ton şəkər daxil olmuş və ərzaq komissiyası vasitəsi ilə qiymətləndirilmiş, əhaliyə satılmışdır.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər Əliyev
Naxçıvan şəhəri,
16 sentyabr 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri haqqında

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il avqust ayının 10-dan 14-ə qədər Türkiyədə rəsmi səfərdə olmuşdur.

Heydər Əliyev İqdır şəhərində Türkiyənin yeni İqdır vilayətinin yaranması ilə əlaqədar rəsmi təntənəli mərasimdə çıxış etmiş, sonra Qars və Ankara şəhərlərində olmuşdur.

Səfər zamanı Heydər Əliyev Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış İşbirliyi Protokolunun əməli surətdə həyata keçirilməsi tədbirləri haqqında Türkiyənin Baş naziri Süleyman Dəmirəllə, dövlət nazirləri və nazirlər ilə danışıqlar aparmış, Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi blokada şəraitində yaşadığı, Ermənistanla sərhəd məntəqələrində silahlı münaqişə nəticəsində Naxçıvanın sosial-iqtisadi həyatında mövcud olan çətinliklər haqqında məlumat vermiş və Naxçıvanın Türkiyənin köməyinə ehtiyacı olduğunu bir daha bildirmişdir.

Danışıqlarda Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasına ayırdığı maliyyə kreditindən istifadə olunması üçün lazımi tədbirlərin həyata keçirilməsi müzakirə olunmuşdur.

Türkiyə hökuməti tərəfindən bildirilmişdir ki, Naxçıvanın əhalisinin təchizatı üçün ərzaq mallarının alınması məqsədilə ayrılmış maliyyə kreditinin on milyon Amerika dolları dəyərində olan hissəsindən istifadə etmək üçün lazımi qərar qəbul edilmişdir.

Bu danışıqlardan sonra Türkiyə Respublikası Naxçıvan Muxtar Respublikası üçün ayrılmış kreditin istifadə olunmasına başlamışdır. Bu kredit hesabına sentyabr ayının 15-nə olan məlumata görə Muxtar Respublikaya 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü gətirilmişdir.

Türkiyənin "Qızıl Ay" cəmiyyətinin rəhbəri Kamal Dəmirlə görüşdə Naxçıvana bu cəmiyyət vasitəsilə yenə də yardım göstərilməsi xahiş olunmuşdur.

1992-ci il avqust ayının ikinci yarısında "Qızıl Ay" cəmiyyəti vasitəsilə Naxçıvana yardım olaraq 100 ton un, 2700 kq günəbaxan yağı, 7850 kq şəkər tozu, 9300 kq makaron, 1630 kq qovurma, 810 kq toyuq əti gətirilmişdir.

Türkiyədən gələn ərzaq malları Nazirlər Kabinetinin komissiyasının vasitəsi ilə ticarət təşkilatları tərəfindən əhaliyə satılmışdır. Ərzaq mallarının gəlməsi davam edir.

Kredit hesabına yaxın günlərdə Türkiyədən Naxçıvana 7 min ton un, 3 min 500 ton buğda gətirilməsi gözlənilir.

Ali Məclis qeyd edir ki, Muxtar Respublikanın uzun müddət iqtisadi blokada şəraitində olduğu bir vaxtda Türkiyədən kreditin hesabına gələn ərzaq malları Naxçıvan əhalisinin təchizatına xeyli kömək edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə səfəri, səfər zamanı Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəllə və digər rəsmi şəxslərlə apardığı danışıqlar və əldə olunan nəticələr bəyənilsin.

Bu səfər Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin genişlənməsi və inkişaf etməsi üçün, Naxçıvan Muxtar Respublikasının ağır sosial-iqtisadi vəziyyətdə olduğu dövrdə əhalinin ərzaq malları ilə təchiz olunması üçün əhəmiyyətli və faydalı hesab edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Türkiyənin Naxçıvan Muxtar Respublikasına ayırdığı maliyyə krediti hesabına gələn ərzaq mallarının qəbul olunması işlərini lazımi səviyyədə təşkil etsin və ərzaq mallarının Muxtar Respublikanın bütün əhalisinə bərabər şəkildə çatdırılmasına nəzarət etsin. Bütün ticarət təşkilatlarının işi ciddi nəzarət altından olmalı, ərzaq mallarının paylanması və satılmasında qanun pozuntularına və digər neqativ hallara yol verilməməlidir.

Türkiyə Respublikasından kredit hesabına Naxçıvan Muxtar Respublikasına gələn ərzaq mallarının qəbul olunması, bölünməsi və satışı haqqında Ali Məclisə mütəmadi məlumat verilsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini
R.HƏSƏNOV
Naxçıvan şəhəri,
18 sentyabr 1992-ci il

ÇƏTİNLİKLƏRİ ARADAN QALDIRARAQ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası

Xəbər verildiyi kimi, sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işinə başlamışdır. Sessiyanın gündəliyində duran ən mühüm məsələlərdən biri "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfərinin yekunları və Tehran şəhərində bağlanmış əməkdaşlıq protokolları haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə səfərinin yekunları haqqında (10-14 avqust

1992-ci il)" məsələləri idi. Həmin məsələlərlə əlaqədar Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev məruzə etmişdir. Heydər Əliyev demişdir ki, avqust ayının 22-dən 26-dək Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikası hökumətinin dəvəti ilə İranda olmuşdur...

Mən istərdim ki, avqust ayının 10-dan 14-dək Türkiyəyə etdiyimiz səfər haqqında da sizə qısa məlumat verim. Mən Türkiyəyə Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə getmişdim. Avqust ayının 10-da İqdır vilayət statusunun verilməsi mərasimi keçirilirdi. Onun vilayət olması haqqında çoxdan söhbət gedirdi. İqdır Türkiyənin Naxçıvana ən yaxın olan bölgəsidir. İqdırlılar uzun illər idi ki, bu məsələni qaldırmışdılar. Lakin buna nail ola bilməmişdilər. Son aylarda, xüsusilə Süleyman Dəmirəlin bu bölgəyə göstərdiyi xüsusi diqqət nəticəsində Türkiyə hökuməti qərar qəbul etmişdir. Qars vilayəti yaradılmışdır, biri İqdır vilayəti, o biri isə Ağrı vilayəti. Türkiyənin adət və ənənələrinə görə bu vilayətlərin təşkil olunması böyük bir siyasi-ictimai dövlət mərasimi kimi keçirilirdi. İqdır bizə qonşu olduğuna görə Süleyman Dəmirəl məni də bu mərasimdə iştirak etməyə dəvət etmişdi. Onun dəvəti ilə orada olduq. Süleyman Dəmirəl ora öz ətrafında olan bütün hökumət üzvləri ilə gəlmişdi. Baş nazirin birinci müavini Ərdal İnönü, dövlət nazirləri İsmət Səzgin, Cavid Çağlar, Əhməd Ceyhun, bir neçə başqa nazirlər, millət vəkilləri, qonşu vilayətlərin nümayəndələri gəlmişdilər.

Orada mərasim çox böyük təntənə ilə keçdi. Proqramda əvvəldən bizim çıxışımız nəzərdə tutulmamışdı. Ancaq Baş nazir Süleyman Dəmirəli çıxışa dəvət edəndə o, məndən xahiş etdi ki, bir yerdə çıxış edək. Biz tribunaya qalxdıq. Süleyman Dəmirəl çıxış etdi, sonra məni təqdim etdi. Mən də çıxış etdim. Bu çıxışda da, sonrakı danışıqlarımızda da, mərasimdən sonra verilən ziyafət zamanı da nitq söyləmək lazım gəldi. Danışıqlarımızın hamısında da Azərbaycanla Türkiyə arasında münasibətlərin genişlənməsi və inkişaf etməsi haqqında söhbət getdi. Biz şübhəsiz ki, burada Naxçıvanın bir sərhəd bölgəsi kimi xüsusi rolunu qeyd etdik. Sonra Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə onunla birlikdə Qarsa getdik. Qarsda böyük mitinq oldu. O mitinqdə də mən Süleyman Dəmirəlin dəvəti ilə iştirak etdim.

Sonra onunla Türkiyə hökumətinin digər rəhbərləri, nazirləri ilə birlikdə Ankaraya uçduq. Süleyman Dəmirəl dəvət etdi ki, gedib orada bizim Naxçıvanın Türkiyə ilə bağlanmış protokolu ilə əlaqədar məsələlərin bəzilərinin həll olunmasının ləngdiyinə görə o məsələlərə yenidəcə baxaq.

Ankarada olarkən Süleyman Dəmirəllə xüsusi görüşlərimiz oldu,

ətraflı söhbət etdik və bu söhbətdə də Azərbaycanla Türkiyənin əlaqələrinin inkişaf etməsi, genişlənməsi, bu baxımdan Türkiyənin gələcəkdə də Naxçıvana yardım etməsi, 24 martda bağlanmış protokolun bütün maddələrinin həyata keçməsi haqqında danışıqlar oldu. O, bir neçə nazirə göstəriş verdi.

Bizim bu kreditin açılma prosesi cürbəcür banklardan keçir. Orada bank sistemi çox ciddi və mürəkkəb olduğuna görə bu, müəyyən vaxt tələb edir. Ona görə də Süleyman Dəmirəl dövlət naziri Əhməd Ceyhuna göstəriş verdi ki, o, bu işlə məşğul olsun. "Qızıl Ay" cəmiyyətinin prezidenti Kamal bəylə də görüşdüm. Süleyman bəy "Qızıl Ay" vasitəsilə bizə əlavə yardımlar göstərilməsi barədə tapşırıqlar verdi.

Mən belə hesab edirəm ki, bu səfər də Naxçıvan üçün, Türkiyə ilə Azərbaycan arasında münasibətlərin inkişafı üçün çox lazımlı səfər idi. Xüsusən Naxçıvana yardım işini təşkil etmək, kreditlə əlaqədar olaraq çətinlikləri aradan qaldırmaq üçün lazımlı idi.

Dünən Baş nazir Şəmsəddin Xanbabayev məruzəsində göstərdi ki, kreditlə əlaqədar ərzaq məhsulları artıq bizə gəlməkdədir. Bu, Türkiyə ilə apardığımız danışıqların və imzalanmış protokolun real nəticəsidir.

Çıxışıma yekun vurarkən onu qeyd etmək istəyirəm ki, **Naxçıvanın İran və Türkiyə ilə əlaqələrinin hamısı Azərbaycanın İran və Türkiyə ilə olan əlaqələrinin tərkib hissəsidir.** Qoy heç kəs burada cürbəcür şayiələr yayıb camaatı aldatmasın ki, guya biz xüsusi işlər görürük. Mən dəfələrlə demişəm və bir də deyirəm ki, Naxçıvan Muxtar Respublikasının bu ağır dövründə kim Naxçıvana hansı yardımı göstərə bilərsə biz onu bəyənməliyik, onu alqışlamalıyıq və kömək göstərməliyik. Bu baxımdan indi Naxçıvana Türkiyənin və İranın xüsusi yardımını başqa cür hallandırmaq, onlara başqa cür don geyindirmək, başqa rəng vermək sadəcə olaraq naxçıvanlılara xəyanət etməkdir. Ona görə də mən bu cürbəcür şayiələri qərəzli, heç bir əsası olmayan şayiələr kimi tamamilə rədd edirəm və bildirmək istəyirəm ki, Muxtar Respublikanın Ali Məclisi və onun sədri burada heç bir xüsusi siyasət aparmırlar. **Bunlar hamısı Azərbaycanın xarici siyasətinin tərkib hissəsidir.**

Heydər Əliyev sözünə davam edərək demişdir ki, biz Türkiyədən kredit alandan bir az sonra cürbəcür şayiələr yaydılar, qəzetlərdə materiallar verməyə çalışdılar ki, guya bu kreditin 10 milyonunun hamısı bir firmaya verilib. Əhməd Qaraca (Türkiyədəki Azərbaycan Milli Mərkəzinin Baş katibi - tərtibçi) nə bilirdi ki, Naxçıvanda nə var. O, burada heç olmayıb. Lakin qəzetdə məqalə (Əhməd Qaracanın "Müxalifət" qəzetinin 1992-ci il 30 avqust tarixli 82-ci nömrəsində dərc olunmuş məqaləsi

nəzərdə tutulur. Müəllif böhtan və şayiələrə əsaslanaraq Naxçıvan-Türkiyə münasibətlərinə kölgə salmağa çalışır-tərtibçi) verib, həmin məqalədə Baş nazir Süleyman Dəmirəlin və mənim də adımı çəkibdir. O bizim bu xeyirxah işimizi ləkələmək üçün qərəzli mövqedən çıxış edib, bəzi qəzetlər dərc edib, cürbəcür şayiələr yayıblar. Bu şayiələrlə əlaqədar olaraq mən xahiş etdim ki, bizə arayış versinlər. O kreditdən bizə cəmi 10 milyon dollar ayrılıb. Əgər kredit almaq çətin idisə, indi görünür ki, onu xərcləmək daha çətindir. Əgər bu çətinliklər bəzən daxili sistemin mürəkkəbliyi ilə əlaqədardırsa, bir tərəfdən də bəzi adamlar bunun əleyhinə çıxırlar. Nəyə görə, nə səbəbə? Ayıdınlaşdırmaq çox çətindir. Ancaq bir şey aydın olur ki, o adamlar, görünür, qara fikirli, qaraqəlbli adamlardır. Onlar heç bir yaxşı işi istəmirlər. İstəmirlər ki, Naxçıvana bir yerdən bir kömək gəlsin. Mən bunu ancaq belə qiymətləndirə bilərəm. Mən arayış almışam və sizə çatdırıram ki, buraya gələn şəkər və düyü "Bem dış" anonim xarici ticarət şirkəti vasitəsilə gətirilib. Çiçək yağı və marqarin "İnva iç və dış" şirkəti vasitəsilə; ət, kərə yağı "Etex" anonim şirkəti vasitəsilə, un və buğda "Ekmin dış" anonim ticarət şirkəti vasitəsilə və yalnız makaron və toyuq əti "Matsan dış" firması vasitəsilə gətirilib.

Mən sizə dedim ki, Türkiyədə olarkən Baş nazir Dəmirəldə, xüsusən bu işlərlə məşğul olan Əhməd Ceyhun da çox təəccüblənib deyirdilər ki, biz sizə kömək edirik, amma sizin adamlar cürbəcür şayiələr yayırlar. Mən belə hesab edirəm ki, bu cür şayiələr yayan qəzetlərdə materiallar dərc etdirən adamlar Naxçıvana xeyir yox, böyük zərər vuran adamlardır. Bir daha qeyd edirəm, Naxçıvan azad iqtisadi zonadır. Kim, Naxçıvana nə gətirə bilərsə, gətirsin. Ticarətin qabağını almaq lazım deyil, əksinə, onu genişləndirmək lazımdır. Lakin bu ticarət işlərində vəzifəsindən sui-istifadə edən adamların qarşısı alınmalıdır. Əgər "Qızıl Ay" vasitəsilə, İranın "Hilal Əhmər" cəmiyyəti vasitəsilə gedən yardımlardan kimsə istifadə edib, onu sataraq qazanc əldə etmək istəyirsə və yaxud kredit vasitəsilə alınan malları kimsə qoyulan qiymətlərdən baha sataraq qazanc götürmək istəyirsə, onlar cinayətkardırlar. Belələrinə qarşı qətiyyətlə mübarizə aparmaq lazımdır.

Eyni zamanda, yalan və şayiələrə də uymaq lazım deyil. Hamı gərək bu işdə düzgün mövqe tutsun, təmizlik, düzlük, saflıq uğrunda mübarizə aparsın, xalq üçün bu ağır, çətin dövrdə düşdüyümüz vəziyyətdən çıxmaq üçün öz səyini əsirgəməsin.

Sonra Heydər Əliyev deputatların suallarına cavab verdi.

Müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul edildi.

"Şərq qapısı" qəzeti,
26 sentyabr 1992-ci il

AZƏRBAYCANIN DÖVLƏT BAYRAĞI QALDIRILDI

Rusiya Federasiyasının, Rusiya Milli Təhlükəsizlik Nazirliyinin, Rusiya Sərhəd qoşunları Baş İdarəsinin rəhbərliyi ilə aparılan danışıqlar nəticəsində keçmiş Sovet İttifaqının sərhəd qoşularının Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsi ləğv olunmuşdur.

Uzun illər boyu keçmiş SSRİ-nin İran və Türkiyə ilə dövlət sərhəddinin mühafizəsini Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində 41-ci sərhəd dəstəsi həyata keçirirdi. SSRİ dağıldıqdan sonra 41-ci sərhəd dəstəsi sərhəddin mühafizəsi funksiyasını Müstəqil Dövlətlər Birliyinin Sərhəd Qoşunları Komitəsinin tabeleyində davam etdirmişdir. Sonralar 41-ci sərhəd dəstəsi Rusiyanın yurisdiksiyası altında Rusiyanın Sərhəd Qoşunları Baş İdarəsinin tabeliyinə keçmişdir.

Azərbaycan Respublikasının tam müstəqil dövlət olduğunu əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 41-ci sərhəd dəstəsinin bundan sonra fəaliyyət göstərməsini və onun tərəfindən Azərbaycanla həmsərhəd ölkələr - İran və Türkiyə arasındakı dövlət sərhədinin mühafizəsi funksiyasının həyata keçirilməsini qeyri-mümkün hesab etmişdir. Bununla əlaqədar olaraq Ali Məclis tərəfindən müvafiq qərarlar qəbul olunmuş və zəruri təkliflər irəli sürülmşdür.

1992-ci ilin avqust-sentyabr aylarında Rusiya dövləti, Rusiyanın Milli Təhlükəsizlik Nazirliyi, Rusiya Sərhəd Qoşunları Baş idarəsi tərəfindən 41-ci sərhəd dəstəsinin ləğv edilməsi, onun bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakının Azərbaycan sərhəd qoşunları milli qüvvələrinə verilməsi haqqında qərarlar qəbul edilmişdir. Avqust-sentyabr aylarında Rusiya Sərhəd Qoşunları Baş İdarəsi və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin şəxsi heyətinin Naxçıvan Muxtar Respublikası ərazisindən tədricən çıxarılması və Naxçıvan ərazisində dövlət sərhədinin mühafizəsi funksiyasının və dəstənin bütün əmlakının yeni yaradılmış Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinə verilməsi həyata keçirilmişdir.

1992-ci il sentyabrın 29-da Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin rəhbərliyinin, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin ləğv olunması və onun funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalanmışdır.

Beləliklə, Azərbaycan Respublikası ilə qonşu dövlətlər - İran və Türkiyə arasında Naxçıvan Muxtar Respublikası ərazisindəki 215 km məsafədə dövlət sərhədi Azərbaycanın 1-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunur. Bütün sərhəd məntəqələrində və keçmiş 41-ci sərhəd dəstəsi qərargahının üzərində Azərbaycan Respublikasının dövlət bayraqları qaldırılmışdır.

Bu hadisə ilə əlaqədar 1992-ci il sentyabrın 29-da sərhəd dəstəsi qərargahının ərazisində Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinin hissələrinin, Naxçıvan şəhər ictimaiyyətinin iştirakı ilə mitinq olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mitinq iştirakçıları qarşısında çıxış etmişdir.

Elə həmin gün keçmiş 41-ci sərhəd dəstəsinin sonuncu qrup zabit və əsgəri, dəstənin komandiri, polkovnik V.Jukov, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsi komandanının müavini general-mayor P.Tarasenko, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin nümayəndələri general-mayor Y.Dolotov, polkovnik Q.Mişinin xüsusi təyyarə ilə Naxçıvandan Dağıstan Respublikasının Mahaçkala şəhərinə yola düşmüşlər. Orada Azərbaycan ilə Rusiya arasındakı sərhəddə yeni sərhəd dəstəsinin yaradılması nəzərdə tutulur. Aeroportda sərhədçiləri Naxçıvan Muxtar Respublikasının rəhbərləri və ictimaiyyətin nümayəndələri yola salmışlar.

Razılıq hissi ilə qeyd etmək lazımdır ki, keçmiş 41-ci sərhəd dəstəsinin bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakı tamamilə Azərbaycan Respublikasının Naxçıvandakı 1-ci sərhəd dəstəsinə təhvil verilmiş, təhvil-təslim prosesi işgüzar və normal şəraitdə keçmiş, bu zaman heç bir münaqişəli hal olmamışdır.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Mətbuat Xidməti
30 sentyabr 1992-ci il

GƏNCLƏRİN TƏHSİLİNƏ QAYĞI

Oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda Türkiyədə təhsil almağa gedən tələbələrlə Muxtar Respublika Ali Məclisi, Nazirlər Kabineti rəhbərlərinin və Naxçıvan şəhər ictimaiyyəti nümayəndələrinin görüşü olmuşdur.

Görüşə həsr elilmiş yığıcağı Muxtar Respublikanın Baş naziri Ş.Xanbabayev açaraq dedi ki, cari ilin mart ayının 22-24-də Türkiyə Respublikasında səfərdə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səfərin yekuları ilə bağlı imzaladığı İşbirliyi Protokolunda Muxtar Respublika ilə Türkiyə Respublikası arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişafına dair maddələrlə yanaşı daha bir maddə - hər il 100 nəfər naxçıvanlı gəncin Türkiyədə təhsil alması maddəsi də öz əksini tapmışdır. Naxçıvanlı gənclərin Türkiyə universitetlərində təhsil almaları üçün Ali Məclis Sədrinin göstərdiyi təşəbbüs

artıq öz bəhrəsini vermişdir. Türkiyənin Naxçıvana gəlmiş Yüksək Öyrətim Seçim Kurumunun səlahiyyətli nümayəndələri tərəfindən ilk dəfə test üsulu ilə seçim aparılmış və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul olunmuşdur. Bugünkü görüş də onların yola salınmasına həsr edilmişdir. Biz əminik ki, Naxçıvandan Türkiyəyə və başqa yerlərə təhsil almağa gedən 75 nəfər gənc onlara göstərilən qayğını yüksək qiymətləndirəcək, valideynlərinin, ziyalılarımızın, dövlətimizin ümidlərini şərəflə doğruldacaq, Türkiyədə respublikamızı layiqincə təmsil edəcək, geniş dünyagörüşünə, dərin elmə və bacarığa malik yüksək ixtisaslı mütəxəssislər kimi geri dönəcəklər.

Yığıncaqda Muxtar Respublikanın Xalq Təhsil naziri N.Əkbərov, Türkiyədə təhsil almağa gedən gənclərdən Vüqar Kərimov, Aynur Qazıyeva, Nağı Məhərrəmov, İstanbul Universitetinin tələbəsi Əlövsət Müslümovun atası Səxavət Müslümov, H.Cavid adına 5 nömrəli Naxçıvan şəhər orta məktəbinin direktoru Hüseyn Məmmədov, qadınlar adından Elmira Qasımova, veteranlar adından Baloğlan Rüstəmov və başqaları çıxış edərək bu yüksək qayğı üçün Muxtar Respublika Ali Məclisinə, Nazirlər Kabinetinə və şəxsən Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə özlərinin dərin təşəkkürünü, minnətdarlığını bildirdilər.

Yığıncaqda Heydər Əliyev çıxış etdi. O, yığıncağa toplaşmış tələbələri, onların valideynlərini, təhsil aldıqları məktəblərin müəllim kollektivlərini və Muxtar Respublika ictimaiyyətinin nümayəndələrini təbrik edərək dedi ki, bu gün qədim Azərbaycan diyarı Naxçıvanda biz yeni əlamətdar bir hadisənin iştirakçısıyıq. Naxçıvan Muxtar Respublikasından ilk dəfə olaraq Türkiyə Respublikasının ali məktəblərinə, universitetlərinə 75 nəfər naxçıvanlı gənc qəbul olmuşdur. Gəlin, Türkiyəyə yola düşən tələbələrə yaxşı yol, uğurlu təhsil, naxçıvanlı və azərbaycanlı adını yüksək tutmağı arzulayaq və əmin olduğumuzu bildirək ki, bu gün yaranan belə gözəl ənənə gələcəkdə də davam edəcək, naxçıvanlı gənclər bundan sonra Türkiyədə, Avropanın və dünyanın başqa ölkələrində təhsil almaq imkanları əldə edəcəklər.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, Azərbaycan Respublikası milli azadlığını, dövlət müstəqilliyini əldə edib və indi milli dövlət qurmaq prosesi ilə məşğuldur. Bu, Azərbaycan üçün, Azərbaycan xalqı üçün yeni bir tarixi mərhələdir. Bu yeni mərhələdə şübhəsiz ki, Azərbaycan dövlətinin, xalqının qarşısında çox mühüm və mürəkkəb vəzifələr durur. Bu vəzifələrdən biri də Azərbaycanın bu günü və gələcəyi üçün yüksək təhsil, yüksək mədəniyyətə malik olan, müasir tələblərə cavab verən mütəxəssislər hazırlamaqdır. Bu işi, şübhəsiz ki, biz quru yerdə aparmırıq. Son 70 il müddətində Azərbaycanda bir çox ali məktəblər fəaliyyət göstərib, mütəxəssislər hazırlanıb. Lakin bu gün də müstəqil Azərbaycan dövlətinin, iqtisadiyyatımızın, mədəniyyətimizin, elmimizin Azərbaycanı daha sürətlə gələcəyə aparmağa qabil olan mütəxəssislərə ehtiyacı var.

Yadınıza salmaq istəyirəm ki, Azərbaycanda ilk demokratik hökumət yaranan kimi onun ilkin tədbirlərindən biri Bakı Universitetinin yaradılması oldu. O, Azərbaycanda ilk ali məktəb idi. Bakı Dövlət Universiteti 1919-cu ildən bu günədək fəaliyyət göstərir. Doğrudur, onun tarixində şərəfli səhifələr də var, eyni zamanda bizi bugünkü tələblər baxımından qane etməyən cəhətlər də. Amma, ümumiyyətlə götürdükdə 1919-cu ildə ilk müstəqil Azərbaycan dövləti tərəfindən yaradılmış Bakı Dövlət Universiteti Azərbaycanda yüksək təhsil ocaqları yaranmasına bünövrə olmuş və onun əsasında sonrakı illərdə ali məktəblər yaranmışdır. Bizim bugünkü ali təhsilli mütəxəssislərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz, Azərbaycanın şan-şöhrətini bütün dünyaya yayan adamların hamısı bu ali məktəblərin yetirmələridir.

Bütün bunları ədalət naminə qeyd etmək lazımdır. Eyni zamanda biz böyük ürək ağrısı ilə qeyd etməliyik ki, müəyyən bir mərhələdə, xüsusən son illərdə Azərbaycanın ali məktəblərində təhsil sistemi ləkələnmiş, ali təhsil almaq üçün bəziləri cürbəcür çirkin üsullardan istifadə etmiş və bu da ictimaiyyət arasında böyük narazılıqlar doğurmuşdur. Güman edirəm ki, yeni, müstəqil Azərbaycan hökuməti ali təhsil sahəsində olan bütün bu çirkin hallara son qoyacaq, Azərbaycanda yaranmış böyük ali təhsil potensialı bunda sonra öz xalqımıza xidmət edəcəkdir.

Ancaq bunlarla yanaşı Azərbaycanda hələ ali təhsil məktəbi olmamışdan da qabaq, keçən əsrin son dövründə və bizim əsrin əvvəllərində Azərbaycanın mütərəqqi fikirli adamları, gəncləri Rusiyaya, Avropaya və Şərq ölkələrinə göndərib, onların ali təhsil almalarına şərait yaradırdılar. Bu adamlar sayca az olsalar da, onların Azərbaycanın mədə niyyətinin, elminin inkişaf etməsində çox böyük xidmətləri olmuşdur.

Düzdür, bunlar cürbəcür yollarla olmuşdur, ancaq hər halda Azərbaycan xalqında ali təhsil almaq, başqa xalqların mədəniyyətini öyrənmək, inkişaf etmiş ölkələrdə bir mütəxəssis kimi yetişib öz ölkəsinə dönmək və xalqına xidmət etmək meyli həmişə olmuşdur. Bu gün də burada qeyd olundu ki, bizim həmvətənimiz, naxçıvanlımız, dahi şair və dramaturq, filosof Hüseyn Cavid məhz Türkiyədə, İstanbulda təhsil almışdır. İstanbulda aldığı təhsil şübhəsiz ki, fitri istedadı ilə

birlikdə ona bir dahi olmağa kömək etmiş, Azərbaycan xalqı üçün böyük ədəbi, mənəvi, mədəni və elmi irs qoyub getməsinə imkan yaratmışdır.

Daha bir uzaq vaxtı yada salaq. Böyük mütəfəkkir Mirzə Fətəli Axundov hələ XIX əsrin ikinci yarısında öz xalqını ümümbəşəri mədəniyyətə daha sıx bağlamaq məramında olaraq yeni əlifba layihəsi hazırlamış və onu məhz Türkiyəyə aparmışdır. Düzdür o, buna nail olmamış, lakin onun təşəbbüsü bizim Azərbaycan tarixində öz yerini tapmışdır və indi də biz onu böyük ehtiramla yad edirik.

Yetmişinci illərdə Azərbaycanda yüksək təhsilli mütəxəssislər hazırlamaq üçün çox işlər görülmüşdür. Bunu heç vaxt unutmaq lazım deyil. 1970-ci ildən başlayaraq Azərbaycanda 15-16 ali məktəb olmasına baxmayaraq, biz daha yüksək ixtisaslı mütəxəssislər hazırlamaq üçün Moskvaya, Leninqrada, Ukraynaya, Belorusiyaya və o vaxtlar Sovetlər İttifaqının başqa respublikalarının mərkəzi şəhərlərinə azərbaycanlı uşaqlarını göndərib orada müxtəlif ixtisaslara yiyələnmələrinə nail ola bilmişdik. İndi burada bir gənc çıxış etdi və dedi ki, o bunları görməyib. Ona görə də mən bir daha bu mövzuya qayıdaraq bildirmək istəyirəm ki, 1970-ci ildə biz maraqlandıq görək Azərbaycandan Moskvada, Leninqradda, Kiyevdə və başqa böyük şəhərlərdə təhsil almağa ildə neçə nəfər gedir. Məlum oldu ki, Moskvada Azərbaycan üçün hər il cəmi 50 yer ayırırlar. Bu 50 yerin də yalnız 20-sini azərbaycanlılar tutur. Qalan 30-nu isə Azərbaycanda yaşayan ruslar, ermənilər, yəhudilər və başqa millətlərdən olan gənclər tutur. Bu fakt məni dəhşətə gətirdi. Əvvəla nə üçün bu 50 yerin hamısını bizim azərbaycanlı gənclər tutmamalıdırlar? Digər tərəfdən nə üçün bizim respublika üçün cəmi 50 yer ayrılıb?

Bir şeyi bilmək lazımdır ki, **əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşəri mədəniyyətə, bəşəri elmə yiyələnsin.** Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı balaları Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Hindistanda, Çində belə təhsil alsınlar. Çünki öz içimizdə olan biliklər özümüzdədir və bunu heç kəs bizim əlimizdən ala bilməz. Ancaq **dünyanın cürbəcür ölkələrindəki təhsil sistemlərindən istifadə edərək, böyük elmi nailiyyətlərə müvəffəq olaraq xalqı daha da irəliyə aparmaq lazımdır.** Ancaq o illərdə təəssüf ki, bizim imkanımız məhdud idi. Biz Sovetlər İttifaqından kənarda bir nəfər belə oxutmaq imkanına malik deyildik. Deməli yol bir idi - tək Azərbaycanda yox, Sovetlər İttifaqının, o cümlədən Moskvanın, Leninqradın, başqa böyük şəhərlərin institutlarında azərbaycanlı gənclərin təhsil almalarına nail

olmaq. Bu, çox böyük iş idi. Vaxtınızı almadan yalnız onu qeyd etmək istəyirəm ki, əgər 1970-ci ildə başqa ali məktəblərə Azərbaycandan cəmin 50 nəfər göndərilirdisə, onun tərkibi də sizə indi məlumdur. 1976-cı ildən sonra hr il 800-900 nəfər və böyük əksriyyəti, 95 faizi azərbaycanlılar olan gənclər Sovet İttifaqının təxminən 50 şəhərinə institutlarında təhsil almağa göndərilirdilər. Onların çoxu indi Azərbaycanın müxtəlif yerlərində, Bakıda, başqa şəhərlərdə yüksək ixtisaslı, bacarıqlı mütəxssislər kimi fəaliyyət göstərirlər. Bir qismi də Rusiyada, Ukraynada, Pribaltikada və başqa yerlərdə qalıb işləyirlər.

Amma sizə bildirmək istəyirəm ki, **mən o dövrdə gənclərimizin bir qisminin də Türkiyədə təhsil almasının çox həsrətində olmuşam. Çünki Türkiyə ilə Azərbaycan tarixən son dərəcə yaxın olublar.** Bunu sübut etməyə ehtiyac yoxdur. Lakin o vaxtlar belə bir imkan yox idi.

Bir sözlə, hər dövrün öz imkanı, öz hökmü var. Məsələ də burasındadır ki, həmin imkanlardan səmərəli istifadə olunsun. İndi elə bir dövr gəlib çatıb ki, Azərbaycan müstəqil dövlətdir, bütün ölkələrlə müstəqil münasibətlər yaradır. Belə bir dövrdə şübhəsiz ki, başqa ölkələrdə və bizim üçün ən yaxın olan Türkiyədə də bizim gənclərin təhsil alması çox lazımdır. Ona görə yox ki, bu yeni dəbdir, yeni bir modadır. Yox. Ona görə ki, **doğrudan da Türkiyənin institutlarında yüksək təhsil sistemi var. Orada hazırlanan mütəxəssislər Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanın gələcəyi üçün çox gərəklidir.** Bax buna görə də bu ilin mart ayında mən Türkiyədə səfərdə olarkən Türkiyənin rəhbərləri, Prezident Turqut Özalla, Baş nazir Süleyman Dəmirəllə, Xarici İşlər naziri Hikmət Çətinlə, nazirlərlə daışıqlar apararkən Türkiyənin Azərbaycana, xüsusən Naxçıvana köməklik göstərməsi məsələlərini müzakirə edərkən bu təklifi ortaya atdım. Bəli, biz indi çox böyük böhran içərisindəyik. Ümumiyyətlə, Azərbaycan və xüsusən Naxçıvan blokada şəraitində, müharibə şraitində, sosial-iqtisadi böhran içərisindədir. Bu gün adamlara adicə yaşayış şəraiti yaratmaq üçün un, ət, yağ, yanacaq və başqa zəruri mallar lazımdır. Bunlar bu gün üçün, sabah üçün, bir sözlə yaşamaq üçün lazımdır. Lakin biz yalnız bu günün tələbləri ilə yaşaya bilmərik. Biz bu gün sabahı, gələcəyi düşünməliyik.

Bütün bunları nəzərə alaraq mən Ankaradakı danışıqlarda xahiş etdim ki, bizim iş birliyi protokolunda nəzərdə tutulsun ki, Türkiyə hökuməti 100 nəfər naxçıvanlı gəncin orada təhsil almasını təmin etsin. Onlar bu təklifi çox məmnuniyyətlə qəbul etdilər və bu maddə bizim İşbirliyi Protokolunda öz əksini tapdı. Bu, Türkiyə hökuməti tərəfindən Azərbaycan xalqına və

onun tərkib hissəsi olan Naxçıvan əhalisinə göstərilən böyük qayğıdır.

Bu gün Türkiyəyə gedən tələbələrlə görüşərkən, onları yola salarkən mən Naxçıvan əhalisi adından, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti adından Türkiyə hökumətinə, Türkiyənin Prezidenti Turquq Özala, Baş nazir Süleyman Dəmirələ və bu işdə bizə yardım edən nazirliklərin hamısına dərin minnətdarlığımızı və təşəkkürümüzü bildirmək istəyirəm.

Bu gün biz ilk addım atırıq. Test imtahanlarından keçmiş tələbələri Türkiyəyə göndəririk. Lakin bu, gələcəkdə böyük bir sistemin bünövrəsidir. Heç şübhə yoxdur ki, bu ənənə davam edəcək, gələcəkdə biz Türkiyə hökuməti ilə danışıqlar aparıb onların sayını artıra biləcəyik. Beləliklə, biz Naxçıvanda gələcək nəsli daha yüksək səviyyədə hazırlamaq işini davam etdirəcəyik.

Mən sizə dedim ki, Moskvanın, Leninqradın, Kiyevin və başqa şəhərlərin ali məktəblərində oxumaq üçün ildə 500-600 nəfər azərbaycanlı gənc göndərildi. Lakin onların neçə nəfərinin Naxçıvandan olduğu xatirimdə deyil. Güman edirəm ki, 75 və ya 100 nəfər olmazdı. Mən o vaxt belə şeylərə fikir vermirdim. Mənim üçün fərqi yox idi, Azərbaycanın hansı yerindən olursa-olsun. Ancaq indi müqayisə edəndə görürsən ki, bir **Naxçıvan üçün ildə 100 nəfərin, onun artıq 75 nəfəri yola düşür - Türkiyənin universitetlərində təhsil alması, mən sizi inandırıram ki, Türkiyənin bizə ayırdığı 100 milyon dollar kreditdən də, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətlidir.**

Çünki bu işin qiymətini heç bir para ilə ölçmək olmaz. Bu, bizim xalqın gələcəyidir. Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. Bu bir də ona görə əhəmiyyətlidir ki, **biz indi Azərbaycanda yeni dövlət qururuq və eyni zamanda yeni siyasi və iqtisadi sistem yaratmaq yolundayıq. Yeni siyasi və iqtisadi sistem, yeni sosial quruluş isə şübhəsiz ki, özünə uyğun mütəxəssislər tələb edir. Bu işdə isə Türkiyənin təcrübəsi çox böyükdür.**

Mən güman edirəm ki, bizim indi Türkiyəyə təhsil almağa yola saldığımız naxçıvanlı gənclər bu böyük və şərəfli işin ilk qaranquşları kimi azərbaycanlı adını, Azərbaycan xalqının adını həmişə yüksək tutacaqlar.

Bizim gənclər birinci mərhələni keçiblər, ancaq qarşıda çox böyük həyat yolu durur: beş il Türkiyədə təhsil almaq. Biz arzu edərdik ki, gənclərimiz orada bütün imkanlardan istifadə edib yüksək elmə, yüksək ixtisasa yiyələnsinlər. Bilməlisiniz ki, siz oraya sadəcə olaraq təhsil almağa yox, Azərbaycanın gələcəyi üçün göndərilirsiniz. Ona görə də bütün universitetlərin imkanlarından istifadə edib yüksək təhsil almaq lazımdır. Siz orada Azərbaycan xalqına xas olan yüksək mədəniyyət,

yüksək mənəviyyat nümunəsi göstərməlisiniz. Türkiyənin həyatında olan bütün müsbət nümunlərə, adət-ənələlərə yiyələnməlisiniz.

Bizim dilimiz birdir. Biz Naxçıvanda da türkük. Ancaq Türkiyənin türkcə dili var. Azərbaycanda azərbaycanca türk dili var. Bunların müəyyən fərqləri var. Biz güman edirik ki, bizim gənclər orada türk dilinə dərindən yiyələnəcəklər. Lakin onlar bununla kifayətlənməməlidirlər. Türkiyənin universitetlərində xarici dillərin tədrisi çox gözəl təşkil olunur. Mən həmişə böyük maraqla və həsrətlə müşahidə edərdim ki, məsələn, Türkiyədə və ya İranda universitet bitirmiş bir gənc öz dilindən başqa, Avropa dillərindən də birini və ya ikisini bilir. Təəssüf ki, biz Azərbaycanda buna nail ola bilmədik. Ancaq Türkiyədə bu məsələ çox yaxşı qoyulub. Biz arzu edirdik ki, gənclərimiz Türkiyənin universitetlərində bütün fənlərə dərindən yiyələnsinlər. Türk dilini, türk tarixini, türk ədəbiyyatını mükəmməl öyrənsinlər. Eyni zamanda ortada digər əcnəbi dilləri də öyrənməyə çalışsınlar. Çünki bu bizim müstəqil Azərbaycan üçün çox gərəkli, çox lazımlı bir şərtdir. Bizim gələcək nəsillər, gələcək kadrlar gərək öz dillərindən başqa, bir neçə dil bilsinlər. **Kim nə qədər çox dil bilərsə, o qədər də biliyə sahib olar.** Türkiyə universitetlərindən belə bir imkan var. O univeritetləri bitirən türk gəncləri başqa dilləri də öyrənirlər və biz arzu edirik ki, bizim gənclər də bunu etsinlər.

Ən nəhayət, indi bizim Türkiyə universitetlərinə yola salacağımız gənclər gərək Türkiyə ilə Azərbaycan, o cümlədən Naxçıvan arasında əlaqələrin daha da genişlənməsinə, inkişaf etməsinə çalışsınlar. Onlar bilməlidirlər ki, gənc olsalar da, üzərlərinə ali təhsil almaq kimi böyük vəzifə düşsə də, eyni zamanda onların hər biri Azərbaycan xalqının nümayəndəsidir. Ona görə də çalışmalıdırlar ki, Azərbaycanla, Naxçıvanla Türkiyənin əlaqələrinin genişlənməsinə öz paylarını versinlər.

Bir sözlə, **biz hesab edirik ki, Türkiyəyə gedən bütün gənclər Türkiyə cəmiyyətinin, Türkiyə həyatının bütün sahələrinə qoşulmalıdırlar və bizim Azərbaycan üçün, Naxçıvan üçün orada gərəkli olan nə varsa hamısını gətirib Azərbaycanda, Naxçıvanda tətbiq etsinlər.**

Mən bütün bunları qeyd edərək bir daha ona qayıtmaq istəyirəm ki, təhsil almaq istəyən hər bir şəxs yaxşı mütəxəssis də, yaxşı alim də ola bilər. Lakin bunların hamısı ilə yanaşı gərək yüksək mənəviyyatlı insan olasan.

Heydər Əliyev çıxışının sonunda bir daha Türkiyə hökumətinin başçılarına, xüsusən Baş nazir Süleyman Dəmirələ, naxçıvanlı gənclərin birinci qrupunun orda təhsil almasını təşkil etdiklərinə görə dərin təşəkkürünü, minnətdarlığını bildirdi və möhkəm əmin olduğunu bildirdi ki,

Türkiyə hökuməti beş il müddətində bu gənclərin orada təhsil almaları üçün öz üzərinə götürdüyü bütün vəzifələri yerinə yetirəcək, bizim gənclər münasib şəraitdə yaşayıb oxuyacaqlar.

Heydər Əliyev Türkiyəyə gedən gənclərə bir daha yaxşı yol, təhsildə böyük uğurlar arzuladı.

"Şərq qapısı" qəzeti,
7 oktyabr 1992-ci il

SƏRHƏDÇİLƏR AND İÇDİLƏR

Oktyabrın 18-də Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvandakı birinci dəstəsinin yerləşdiyi şəhərcikdə xüsusi bir canlanma var idi. Burada gənc sərhədçilərin hərbi andiçmə mərasimi keçirilirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə Respublikası Baş nazirinin müşaviri Əli Naci Tüncəl, şəhər ictimaiy-yətinin nümayəndələri və gənc sərhədçilərin valideynləri bu xoş mərasimdə iştirak edirdilər.

Azərbaycan Sərhəd Qoşunlarının birinci şəxsi heyəti nizami sıralarda dayanmışdı. Sərhəd qoşunları dəstəsinin qərargah rəisi podpolkovnik Şahmurad Məmmədov gənc sərhədçilərin andiçmə mərasiminə hazır olduqları barədə Ali Məclisin sədrinə raport verdi. Heydər Əliyev sərhədçiləri salamladı.

Sıravi əsgərlər Fəxrəddin Bəhramov, Cəlil Bayramov, Əfqan Əliyev, Fariz Qasımov, Əziz Gözəlov, Zülfüqar Məmmədov, Bəxtiyar Nəcəfov, Hüseyn Mahmudov, Akif Abbasov və başqaları bir-birinin ardınca hərbi and içdilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, əsgər sıralarına yanaşaraq hərbi and içənləri səmimi təbrik etdi, onlara hərbi xidmətdə, müqəddəs sərhədlərimizin mühafizəsində müvəffəqiyyətlər arzuladı.

Hərbi andiçmə mərasimi başa çatdı. Heydər Əliyev Türkiyə Respublikası Baş nazirinin müşaviri Əli Nəci Tuncəl və başqa qonaqlar tribunaya qalxdılar. Heydər Əliyev sərhədçilərə müraciətlə dedi:

- Əziz Azərbaycan əsgərləri, müstəqil Azərbaycan dövlətinin sərhədlərini qoruyan qoşun hissələrində xidmətə başlayan bizim övladlarımız. Bu gün sizin həyatınızda tarixi bir gündür. Siz müstəqil Azərbaycan sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən Azərbaycan sərhəd qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır. Azərbaycan xalqının 70 ildə hərbi xidmətə gedən oğulları daim Sovet ordusuna, Sovet dövlətinə, Sovet silahlı qüvvələrinə sədaqətlə xidmət edəcəklərinə and içirdilər. Bu, o dövrün xarakterik cəhəti idi. İndi isə bizim üçün ən fərəhli, ən

xoşbəxt məram onda ibarətdir ki, Azərbaycan müstəqil dövlət olub. Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaq işi ilə məşğuldur. Bu baxımdan ən mühüm sahə olan Sərhəd Qoşunlarının yaradılması prosesi gedir.

Biz bu gün çox böyük məmnuniyyət hissi ilə müstəqil Azərbaycan dövlətində Sərhəd Qoşunlarının yaradılmasını məhz buradan, Naxçıvandan, Azərbaycanın bu qədim diyarından başlandığını qeyd edirik. Azərbaycanın digər sərhədlərindən fərqli olaraq burada keçmiş Sovetlər İttifaqına, ondan sonra isə Rusiya dövlətinə mənsub olan sərhəd qoşunu hissələri bir ay öncə Muxtar Respublikadan çıxarılmış, onların bütün silahları, hərbi texnikası, sursatları, bütün əmlakı, binaları Azərbaycan sərhəd qoşunlarının Naxçıvanda yaradılmış birinci sərhəd dəstəsinin sərəncamına verilmişdir.

İndi Naxçıvanda birinci sərhəd qoşunları dəstəsinin yaranması və inkişaf etməsi prosesi getdiyi bir vaxtda siz bu gün doğma torpaqlarımızın sərhədlərini göz bəbəyi kimi qorumaq üçün hərbi xidmətə başlamısınız və Vətənə sədaqətlə xidmət edəcəyinizə and içdiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə möhkəm cansağlığı, yenilməz iradə, cəsarət, mətanət arzulayıram. Azərbaycanın müstəqilliyinin, onun sərhədlərinin qorunmasında böyük uğurlar diləyirəm. Bu gün burada sizinlə birlikdə bir çoxlarınızın valideynləri də bu mərasimdə iştirak edir. Əgər keçən illərdə Azərbaycan övladları hərbi xidmət, o cümlədən Sərhəd Qoşunlarında xidmət etmək üçün Sovetlər İttifaqının ən uzaq yerlərinə, sərhədləri qorumağa göndərilirdisə, indi Azərbaycanın hər yerindən buraya, birinci Sərhəd Qoşunları dəstəsində xidmət etməyə gəlmişlər.

Siz bu gün öz xalqınızın, millətinizin, öz ata-analarınızın qarşısında and içdiniz. Mən tam əminəm ki, siz bu anda həmişə sadiq qalacaqsınız. Naxçıvanda yaranmış birinci Sərhəd Qoşunları dəstəsi artıq fəaliyyətdədir. Onlar 215 kilometrlik sərhədlərimizi mühafizə edirlər. Lakin bu, hələ işin başlanğıcıdır. Birinci sərhəd qoşunları dəstəsinin komandanlığı qarşısında çox böyük məsuliyyətli və mürəkkəb vəzifələr durur. Biz əminik ki, öz xalqına, öz millətinə, öz müstəqil dövlətinə xidmət edərkən bu vəzifələrin, bütün çətinliklərin öhdəsindən daha asanlıqla gəlmək olar.

Mən bu gün Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adından sizə xeyir-dua verirəm, möhkəm cansağlığı arzulayıram. Valideynləriniz adından da sizə uğurlu xidmət arzulayıram. Əminəm ki, siz bu etimadı layiqincə doğruldacaqsınız, qədim diyar olan Naxçıvanda öz xidmətinizlə müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsinə və inkişaf etməsinə öz payınızı verəcəksiniz.

Heydər Əliyev gənc sərhədçiləri bir daha səmimi-qəlbdən təbrik etdi, onlara möhkəm cansağlığı və hərbi xidmətdə uğurlar arzuladı.

Mərasim başa çatdıqdan sonra Heydər Əliyev sərhədçi gənclərin andiçmə mərasimində iştirak edən valideynlər ilə səmimi söhbət etdi.

"Şərq qapısı" qəzeti,
21 oktyabr 1992-ci il

ƏSRİN DÖRDDƏ BİRİ

Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin 25 yaşı tamam olmuşdur

Universitetin 25 illik yubileyi burada çalışan kollektivin bir növ yaradıcılıq hesabatına çevrilmişdir. Yubiley tədbirlərinə Bakıdan, Türkiyə və İran İslam Respublikasından nümayəndələr gəlmişdilər. Noyabrın 13-də Universitetin akt zalında təntənəli yığıcaq keçirilmişdir.

Yığıncağı Universitetin prorektoru dosent İsa Həbibbəyli açaraq qonaqları səmimi salamlamışdır.

Yığıncaqda çıxış edən Heydər Əliyev bildirmişdir: Naxçıvan Dövlət Universiteti sərbəst ali məktəbdir, Azərbaycanın bütün ali məktəbləri ilə əlaqələrini inkişaf etdirmək üçün o çox əlverişli imkanlara malikdir. Eyni zamanda dünyanın bütün ölkələrinin ali məktəbləri ilə, elmi mərkəzləri ilə əlaqə saxlamaq imkanları da var. Çox yaxşı haldır ki, bu sahədə artıq bir sıra addımlar atılmışdır. Qonşu İran İslam Respublikası və Türkiyənin ali məktəbləri ilə, elmi mərkəzləri ilə müəyyən əlaqələr yaradılıb. Bu gün Naaxçıvan Dövlət Universitetinin yubiley mərasimində İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ali məktəbləri nümayəndələrinin və dövlət xadimlərinin iştirak etməsi buna canlı sübutdur.

Lakin bunlar hələ ilk addımlardır. Biz arzu edirik ki, bu addımlar daha da inamlı, səmərəli və sürətli olsun. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti bu sahədə universitetə lazım olan bütün köməklikləri göstərəcəkdir.

Heydər Əliyev qarşıda duran vəzifələrdən danışarkən demişdir ki, universitetin kollektivi müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında daha fəal iştirak etməlidir və öz işini bu günün tələbləri səviyyəsində qurmalıdır. Burada olan elmi potensial, toplanmış təcrübə böyük bir elmi-mənəvi sərvətdir. Bu sərvətdən səmərəli istifadə olunmalıdır. Bundan sonra universitetin hazırlayacağı ali təhsilli kadrlar daha yüksək meyarlara cavab verməlidir. Universitetin professor-müəllim heyəti bütün dünyada qazanılmış müsbət təcrübəyə inamla yiyələnməli və ondan səmərəli istifadə etməlidir. Bu baxımdan Türkiyə və İran dövlətlərinin ali məktəbləri ilə əlaqələr bu işdə yardımçı olacaqdır...

Gəlin bu gün 25 illik bir tarixə

yekun vurarkən, yeni bir mərhələyə keçərkən bu meyarı heç vaxt unutmayaq. İndi Azərbaycan Respublikasında ali təhsil sahəsində aparılan tədbirlərə biz çox böyük ümid bəsləyirik. Amma çox arzu edərdik ki, bu ümidlərimiz puç olmasın, görülən işlər nəticə versin.

Bildiyiniz kimi, Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mart ayında imzalanmış İşbirliyi Protokolu əsasında 75 nəfər gənc bu il Türkiyənin universitetlərinə qəbul olunmuşdur. Türkiyənin Yüksək Okul qurumundan gələn nümayəndələr burada Naxçıvan Muxtar Respublikası Xalq Təhsili Nazirliyi ilə birlikdə qısa bir müddətdə imtahan apardılar. Həmin 75 nəfər gənc artıq Türkiyədə təhsil alamağa başlamışdır. Bu çox sevindirici haldır. Siz təsəvvür edin, vaxtı ilə biz Azərbaycandan hər il 800-900 nəfəri Sovetlər İttifaqının mərkəzi şəhərlərində olan ali məktəblərə göndərirdik. O məktəbləri bitirən mütəxəssislərin çoxu Azərbaycana çox böyük fayda verirdilər. Onları biz pulsuz göndərirdik. İndi Türkiyə hökuməti də Muxtar Respublikamız üçün öz hesabına ildə 100 nəfər gəncin ali təhsil almasını təmin edəcəkdir.

İran İslam Respublikası ilə bizim bağladığımız müqavilə əsasında İranın ali və orta ixtisas məktəblərində oxumaq üçün də gənclər göndəriləcəkdir. Eyni zamanda Naxçıvan Dövlət Universitetində və Muxtar Respublikanın başqa təhsil ocaqlarında iranlı gənclər gəlib təhsil ala biləcəklər. Belə bir müqavilə var və biz ondan istifadə edəcəyik. Bütün bu sahələrdə Naxçıvan Dövlət Universiteti öz aparıcı rolunu oynamalıdır, bu işlərin təşkilatçısı olmalıdır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti isə bu sahədə lazım olan bütün köməklikləri göstərəcəkdir.

"Şərq qapısı" qəzeti,
18 noyabr 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikasında və onun ətrafındakı vəziyyətlə əlaqədar bəzi məsələlər haqqında

Artıq uzun müddətdir ki, Naxçıvan Muxtar Respublikası son dərəcə ağır şəraitdə yaşayır. Səkkiz aydan artıqdır ki, Ermənistanın ərazisindən keçən, Muxtar Respublika iqtisadiyyatının və əhalisinin ehtiyaclarını təmin etmək üçün yüklərin daşımasında yeganə nəqliyyat vasitəsi olan Naxçıvanla Bakı arasındakı dəmir yol magistralı işləmir. Dörd aydır ki, Azərbaycandan Naxçıvana gələn elektrik enerjisi kəsilmiş, Araz çayı üzərində olan balaca hidroelektrik stansiyası isə Muxtar Respublikanın tələbatının yalnız iyirmi faizini ödəyir. Bakı-Astara-Culfa-Naxçıvan marşrutu ilə İran ərazisindən ke-

çən avtomobil yolundan məsafənin çox uzunluğuna və digər obyektiv və subyektiv səbəblərə görə səmərəli istifadə olunmur...

Belə bir şəraitdə Muxtar Respublikanın Ali Məclisi və Nazirlər Kabineti Muxtar Respublikanın çox az olan daxili imkanlarından maksimum istifadə etməyə çalışır, qonşu dövlətlərlə - Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün lazımi tədbirlər həyata keçirirlər.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Respublikası hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında müqavilə imzalanmışdır. Belə bir müqavilə də 1992-ci il avqust ayının 24-də Tehranda İran İslam Respublikası hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmışdır.

Həmin müqavilələrdə iqtisadi, ticarət, mədəni əməkdaşlığın inkişaf etdirilməsi, Naxçıvan üçün həyati vacib bəzi məsələlərin həlli, Naxçıvan Muxtar Respublikasına iqtisadi yardım göstərilməsi nəzərdə tutulmuşdur. Bu müqavilələrə əsasən son vaxtlar Naxçıvana ərzaq və yanacaq malları daxil olur və bu da Muxtar Respublikanın tələbatını qismən ödəməyə imkan yaradır.

Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına ərzaq malları alınması üçün ayrılmış 10 milyon Amerika dolları məbləğində kredit hesabına son dörd ayda Naxçıvana 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 182 ton zeytun yağı, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2,283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6 min ton un gətirilmişdir.

Bu yardımın nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək üçün bildirmək lazımdır ki, keçən dörd ay ərzində Bakıdan Naxçıvana cəmi 15 ton mal əti, 219 ton kərə yağı, 35 ton şəkər tozu, 164 ton düyü, 2 ton makaron, 3200 ton un gəlmişdir.

Oktyabr-noyabr aylarında İran İslam Respublikasından 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton daş kömür, 955 ton kartof, 350 ton un, 97 ton soğan daxil olmuşdur.

Bu il dekabr ayının 3-dən İran İslam Respublikasından Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsi başlanmışdır. Bir ay ərzində Türkiyədən (İqdır şəhəri) Naxçıvana çəkilən elektrik xəttinin tikintisi başa çatacaq, Muxtar Respublikanın elektriklə təminatı xeyli yaxşılaşacaqdır...

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər Əliyev
Naxçıvan şəhəri,
7 dekabr 1992-ci il

1993

HƏMRƏYLİK... HƏMRƏYLİK

Bu gün bədxah qonşularımızın silahlı təcavüzünə məruz qalmış azərbaycanlılara həmrəylik hava və su kimi lazımdır. Haqq işə həmrəy olmaq hər bir namuslu adamın şərəfli borcudur. Lakin hər şeydən əvvəl biz öz qüvvəmizə, öz xalqımızın həmrəyliyinə arxalanmalıyıq. Keçən ildən başlayaraq qeyd olunan Dünya azərbaycanlılarının həmrəyliyi günü bu işdə çox mühüm rol oynamalıdır.

Dekabrın 30-da respublikamızın hər yerində Dünya azərbaycanlılarının həmrəyliyi günü geniş qeyd edilmişdir. Bu əlamətdar gün münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Naxçıvan ictimaiyyətinin nümayəndələri Şəhidlər Xiyabanına gedərək torpaqlarımızın erməni təcavüzkarlarından qorunması uğrunda döyüşlərdə şəhid olanların xatirəsini yad etmiş, Naxçıvan MR Ali Məclisi, Muxtar Respublika Nazirlər Kabineti və şəhər Xalq Deputatları Məclisi adından əklil qoymuşlar. Naxçıvan Came məscidinin şeyxi Sultan Məhəmmədoğlu şəhidlərin ruhuna yasin surəsi oxumuşdur.

Həmin gün axşam C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Dünya azərbaycanlılarının həmrəyliyi gününə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir. Yığıncaqda tarix elmləri namizədləri Vəli Baxşəliyev "Sərhəd hərəkatı Azərbaycan xalqının milli mübarizəsində yeni mərhələdir", Namiq Əliyev "Azərbaycan türklərinin tarixi taleyi və müasir vəzifələrimiz" mövzularında çıxış etmişlər.

Söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verilmişdir. Heydər Əliyev demişdir: Bu gün biz qürur hissilə qeyd edə bilərik ki, bu bayramın əsası məhz Naxçıvanda qoyulmuşdur. Üç il bundan öncə Naxçıvanda sərhəd qurğularının aradan götürülməsi ilə Arazın hər iki tayında yaşayan azərbaycanlıların bir-birinə qovuşmasının, 70 illik həsrətin aradan qaldırılmasının əsası qoyulmuşdur. Ondan sonra, təəssüf ki, bu hərəkata lazımi qiymət verilməmişdir. Bir il bundan öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci ilin dekabr ayında 31 dekabr gününün Dünya azərbaycanlılarının həmrəyliyi günü kimi qeyd olunması haqqında qərar qəbul etmişdir və bizim hamımızın xatirindədir ki, həmin il dekabrın 31-də bu salonda həmrəylik gününü necə qeyd etmişik. İndi isə artıq Azərbaycan Prezidentinin bu ilin oktyabr ayında verdiyi fərman əsasında bu bayram bütün Azərbaycanda qeyd olunur. Şübhə yoxdur ki, bugünkü bayramı dünya azərbaycanlıları öz imkanları dairəsində qeyd edirlər.

Ona görə də bizim bu bayram haqqında danışmağımıza və bu bayramı iftixar hissilə qeyd etməyimizə tam əsasımız vardır. Bu bayramın bö-

yük əhəmiyyəti həm də ondan ibarətdir ki, Azərbaycan artıq müstəqil dövlət quruculuğu prosesini əzmlə aparmaqdadır. Bütün bunlara görə də Dünya azərbaycanlılarının həmrəyliyi indi Azərbaycan Respublikası üçün daha da əhəmiyyətlidir. Çünki müstəqilliyi əldə etmək heç də asan məsələ deyil. Lakin bu artıq faktdır. Azərbaycan müstəqil dövlətdir. Ancaq müstəqil dövlət qurmaq, onu möhkəmləndirmək və bu müstəqilliyi daimi etmək çox böyük səy, böyük fəaliyyət, geniş miqyaslı iş tələb edir. Bu yol böyük yoldur. Azərbaycan xalqı nəyin bahasına olursa-olsun bu yolla getməlidir. Bunun üçün də Dünya azərbaycanlılarının həmrəyliyi son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bizim bu həmrəyliyə böyük ehtiyacımız var. Bu həmrəylik Azərbaycan Respublikasının müstəqilliyinin əsas təminatlarından biri olacaqdır. Biz həm dünya azərbaycanlılarının, həm də Azərbaycan Respublikasında olan bütün vətəndaşların həmrəyliyinə nail olmalıyıq.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, Azərbaycanın müstəqilliyi indi respublikanın bütün vətəndaşlarının, Azərbaycan xalqının əlindədir. Tarixin bizə verdiyi bu fürsət ölçüyəgəlməz bir nemətdir. Bu müstəqilliyi əldə saxlamaq və möhkəmləndirmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Güman edirəm ki, Naxçıvan əhalisi bunun nə qədər böyük əhəmiyyətə malik olduğunu dərk edib bütün fəaliyyətini Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə yönəldəcək. Naxçıvan əvvəlki dövrlərdə olduğu kimi bu hərəkatın ön sıralarında gedəcəkdir. Bunun üçün şübhəsiz ki, Azərbaycanın sosial-iqtisadi problemləri həll olunmalıdır. Azərbaycan müharibə şəraitindən çıxmalıdır, itirilmiş torpaqlarımız geri qaytarılmalıdır, hər bir azərbaycanlının rahat və xoş güzəran keçirməsi üçün şərait yaradılmalıdır.

İndi Azərbaycanın dərin sosial-iqtisadi böhran içərisində olduğu bir vaxtda, respublikamızın müharibə şəraitində olduğu bir dövrdə bu problemlərin həll olunması çox çətindir. Lakin onlar həll olunmasa, Azərbaycan müstəqilliyini əldə saxlaya bilməz. Bu problemlər həll olunmasa, hər bir azərbaycanlı müstəqilliyin bəhrəsini görə bilməz. Ona görə də həmin problemlərin həll olunmasına hər bir vətəndaş, hər bir ictimai-siyasi qurum, Azərbaycanın hər bir bölgəsi öz payını verməlidir.

Bu baxımdan Naxçıvanda, blokada şəraitində yaşayan Muxtar Respublikada problemlərin daha çətin olması hamıya məlumdur. Belə bir vəziyyətdən çıxmaq üçün hamının birliyi, hamının həmrəyliyi indi ən böyük əhəmiyyət kəsb edir. İndi Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası üçün barışıq, birlik, həmrəylik, bir-birinə yardım ən əsas şərtlərdən biridir.

Azərbaycanın müstəqilliyini təmin etmək naminə hər bir adam öz

səyini bugünkü problemlərin həllinə yönəltmişdir. Ancaq cürbəcür ittihamlar etmək, qarşıdurma yaratmaq, cürbəcür mənasız hərəkətlərə yol vermək heç kəsə xeyir gətirməyəcəkdir. Naxçıvan MR Ali Məclisi belə bir şəraitdə bütün imkanlardan istifadə edir və çalışır ki, Naxçıvanın əhalisi bu ağır dövrdən müəyyən qədər itkisiz və ağrısız çıxa bilsin.

Sərhədlərin götürülməsi bundan sonra da Türkiyə və İran İslam Respublikası ilə Azərbaycan arasında, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişlənməsini təmin etməlidir. Bunun üçün də biz çox işlər görürük. Bildiyiniz kimi mart ayının 24-də Türkiyə ilə böyük bir müqavilə bağlanıbdır və artıq o öz bəhrəsini verir. Məhz həmin müqavilə ilə ayrılmış kreditlə son 4-5 ay ərzində Naxçıvana xeyli ərzaq gətirilmiş, Naxçıvan əhalisinin bu məhsullarla müəyyən qədər təmin olunması həyata keçirilmişdir... Avqust ayının 24-də Tehranda İran İslam Respublikası ilə bağlanmış müqavilə əsasında bir çox tədbirlər həyata keçirilir. Elə, bu günün özü İran İslam Respublikasından Naxçıvana böyük bir nümayəndə heyəti gəlib. İranda fəaliyyət göstərən "Bonyade Mostezafan və Canbazene Enqelabe Eslami" fondunun prezidenti ağayi Möhsen Rəfiqdust, onun müavinləri və həmkarları xüsusi təyyarə ilə Naxçıvana gəlmişlər. Ali Məclisdə onlarla görüş keçirilmiş, onların tərəfindən Naxçıvanda görüləcək işlər müəyyənləşdirilmişdir.

Bir sözlə ötən 3 il ərzində gedən proseslərin məntiqi nəticəsi bundan ibarətdir və bu da şübhəsiz ki, Naxçıvan Muxtar Respublikasına çox böyük mənfəət verəcəkdir.

Bunların hamısı onu göstərir ki, bizim bugünkü bayram dünya azərbaycanlılarının həmrəyliyini təmin edərək eyni zamanda Azərbaycan Respublikası ilə İran İslam Respublikası, Türkiyə Respublikası arasında əlaqələrin daha da genişlənməsinə şərait yaradır. Bunlar da Azərbaycan Respublikasının müstəqilliyinin təmin edilməsi üçün əsas şərtlərdən biridir.

Heydər Əliyev çıxışının sonunda bütün Naxçıvan əhalisini bayram münasibətilə bir daha təbrik etmiş, onlara möhkəm cansağlığı, səadət, azərbaycanlıların həmrəyliyinin təmin edilməsi sahəsində yeni-yeni uğurlar arzulamışdır.

Yığıncağın rəsmi hissəsindən sonra bayram konserti olmuşdur.

"Şərq qapısı" qəzeti,
6 yanvar 1993-cü il

"NƏ HƏDƏLƏRDƏN, NƏ RƏZİL NİYYƏTLƏRDƏN QORXURAM"

"Nezavisimaya qazeta" müxbirinin Heydər Əliyevlə müsahibəsindən:

-...Prezident Ə.Elçibəy açıq çıxışlarında İranın daxili və xarici siyasətini tənqid etmişdir. Eyni za-

manda Naxçıvan rəhbərliyi İranla fəal əməkdaşlıq edir. Bakının və Naxçıvanın xarici siyasətə müxtəlif mövqelərdən yanaşmasından nə danışmaq olar?

- Mən bu sualın məzmunu ilə tam razı deyiləm. Naxçıvanın heç bir müstəqil xarici siyasəti ola bilməz. O, Azərbaycanın yeritdiyi xarici siyasət haqqında öz mövqeyini və ona münasibətini bildirmək hüququna malikdir. Bizim fikrimizcə, **Azərbaycan özünün geopolitik vəziyyətini nəzərə alaraq dərin düşünülmüş və ehtiyatlı siyasət yeritməlidir. Azərbaycan qonşu ölkələrlə yalnız xoş münasibət yaratmağa çalışmalıdır. Bu hər bir dövlətin xarici siyasətinin əsas qanunudur.**

Naxçıvana gəldikdə isə, biz 6 aydır ki, blokadadayıq. Dəmiryol əlaqələri, enerji, yanacaq və respublikanın başqa həyat təminatı ehtiyacının Azərbaycandan göndərilməsi kəsilmişdir. Belə ağır şəraitdə biz böhran vəziyyətindən həmsərhəd İran və Türkiyə ilə iqtisadi əlaqələr hesabına çıxırıq. İrandan bu yaxınlarda enerji və başqa yanacaq ehtiyatlarının təchizi başlanıb.

Artıq 4 aydır ki, Naxçıvan ərzağa öz minimal tələbatını demək olar ki, Türkiyənin Muxtar Respublikaya ayırdığı kredit, ondan aldığı mallar hesabına ödəyir.

Zənnimcə, bizim bu əlaqələrimiz Azərbaycanın xarici siyasətinə zərrə qədər də zidd deyil. **İran və Türkiyə ilə səmimi qonşuluq münasibəti Azərbaycana yalnız xeyir gətirə bilər.**

"Şərq qapısı" qəzeti,
27 yanvar 1993-cü il

ALİ MƏCLİSDƏ GÖRÜŞ

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilovla birlikdə buraya gəlmiş respublika Nazirlik və Baş idarə rəhbərlərinin böyük bir qrupu ilə görüşmüşdür.

Heydər Əliyev son 9 ayda Ermənistan Respublikasının blokadaya aldığı Naxçıvan Muxtar Respublikasının düşdüyü ağır sosial-iqtisadi vəziyyət barədə danışmışdır. Ali Məclisin Sədri göstərmişdir ki, ərazicə Azərbaycanda ayrı düşən Naxçıvanın bütün kommunikasiya əlaqələri pozulub, Azərbaycandan ərzaq və yanacaq gətirmək çətinləşib. Əhali İrandan və Türkiyədən alınan yardımlar hesabına yaşayır. Bunlar isə tükənmək üzrədir.

Muxtar Respublikanın xalq təsərrüfatı ciddi böhran keçirir. Xammal və material gətirilmədiyindən sənaye müəssisələri, tikinti təşkilatları işləmir. Texnika üçün ehtiyat hissələri və yanacaq olmadığına görə kənd təsərrüfatı işləri vaxtında görülməmişdir. Kənd yerlərində və şəhərdə 50 min nəfərdən çox işsiz var. İşləməyənlərə minimum əmək haqqı verilməsi problemə çevrilmişdir.

Heydər Əliyev məlumat vermişdir ki, fevralın 4-də Naxçıvana gələn Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Riçard Mayls onun Bill Klintona məktubundan sonra Ağ evin Naxçıvan Muxtar Respublikasına humanitar kömək göstərməsi barədə qərar verdiyini bildirmişdir. Bundan başqa fevralın 2-də Naxçıvana gəlmiş Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəsi doktor Mahmud əl-Səid və Türkiyə Respublikasının səfiri Altan Karamanoğlu da ərzaq yardımı göstərilməsi ilə əlaqədar lazımi məlumatlar istəmişlər. Heydər Əliyev əlavə etmişdir ki, naxçıvanlılar zəhmətsevərdir və heç də həmişə yardımlar hesabına yaşamayacaqlar. İndi isə məqsəd daxili imkanlar hesabına vəziyyətdən çıxış üçün şərait yaratmaqdır.

Azərbaycan Respublikasının Rabitə naziri Sirus Abasbəyli, respublika Yanacaq Komitəsinin sədrinin birinci müavini Daşqın Ağalarov, İqtisadiyyat və Planlaşdırma Komitəsi sədrinin birinci müavini Səməd Sadıqov, Material-Ehtiyatları nazirinin müavini Tofiq Məmmədov, Sənaye-Tikinti Birliyinin rəisi Səyyad Allahverdiyev, Muxtar Respublika Ali Məclisi Sədrinin müavini Qafar Məmmədov, Ali Məclisin şöbə müdiri Fəxrədii Şirzadov, Muxtar Respublikanın Baş naziri Şəmsəddin Xanbabayev və başqaları həlli vacib olan məsələlər barədə fikir mübadiləsi etmişlər.

Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilov irəli sürülən təkliflərə münasibətini bildirərək bütün imkanların səfərbər edilməsi zərurətindən danışmışdır.

Horadiz-Aslandüz-Culfa yolunun ahəngdar işləməsinin təmin edilməsi, Horadiz stansiyasında yük bazasının yaradılması, Xoy-Culfa qaz kəmərinin çəkilişi ilə əlaqədar görülən işlər barədə Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyevə ətraflı məlumat verilmişdir.

Naxçıvana gələn respublika nazirlik və baş idarələrinin rəhbərləri vəziyyəti yerindəcə öyrənmək üçün Muxtar Respublikanın rayonlarında, sənaye və tikinti təşkilatlarında olmuşlar.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Mətbuat Xidməti
6 fevral 1993-cü il

TÜRKİYƏ SƏFİRİ NAXÇIVANDA

Fevralın 5-də Naxçıvan Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

Səfir Heydər Əliyevə ona üz ver-

miş ağır itki - qardaşı akademik Həsən Əlirza oğlunun vəfatı münasibətilə başsağlığı vermişdir.

İkitərəfli münasibətlərin bundan sonra da sıx əməkdaşlıq və mehriban qonşuluq zəminində inkişafı zərurətini qeyd edən Altan Karamanoğlu Türkiyə Respublikasının Naxçıvana təyin olunmuş Baş konsulu Orxan Ərtoğruloğlunu Muxtar Respublika rəhbərinə təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikasında Türkiyə Respublikasının baş konsulunun fəaliyyəti ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.

Muxtar Respublika Ali Məclisinin Sədri bildirmişdir ki, Naxçıvanda Türkiyə Respublikasının rəsmi təmsilçisinə ciddi ehtiyac duyulur. Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımi səviyyədə inkişaf etdirilsin.

Sonra Ali Məclisin Sədri Altan Karamanoğlunun xahişi ilə Ermənistan Respublikası tərəfindən blokadaya alınan Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət barədə məlumat vermişdir.

Türkiyə Respublikasının səfiri əmin etmişdir ki, bu məlumatı təcili olaraq təmsil etdiyi dövlətin rəhbərliyinə çatdıracaqdır.

Söhbətdə iştirak edən Azərbaycan Respublikası Ali Sovetini Sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilov hər iki tərəfdə qarşılıqlı maraq doğuran pasport və viza məsələlərindən, gömrük xidmətinin gücləndirilməsi sahəsində həyata keçiriləcək tədbirlərdən danışmışdır.

Türkiyə Respublikası Baş konsulunun təqdim edilməsi mərasimində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin şöbə müdiri Rasim Rzayev, Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin Qafqaz regionu üzrə Baş müdiri Azər Candan, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğunun idarə attaşesi Seyhan Suçu, Naxçıvan Muxtar Respublika Ali Məclisi xarici əlaqələr şöbəsinin müdiri Rza İbadov iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti
6 fevral 1993-cü il

12 MART 1993-CÜ İL TARİXDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN YANINDA KEÇİRİLƏN MÜŞAVİRƏNİN PROTOKOLU

Heydər Əliyev: Mənim Bakıda Prezidentlə görüşlərim oldu. Bu, təbii bir məsələdir. Biz istərdik ki, Əbülfəz Elçibəy Naxçıvana gəlsin, lakin onun imkanı olmadı. Bizim söhbətimiz Naxçıvanın ağır problemləri və onun bu vəziyyətdən çıxarılması barədə oldu. Biz qışı keçirdik. Qabaqdan yaz gəlir. Heç kim istəməzdi ki, biz bu vəziyyətə düşək. Əbülfəz bəylə də bu barədə ətraflı söhbət etdik və Naxçıvanın tam təmin olunması haqqında danışdıq. Hələlik dəmir yolu bağlıdır. Nə vaxt açılacaq, məlum deyil. Horadizdən yol açıldı. Maşınlar hərəkət etməyə başladı. Lakin yenə də çətinliklərimiz var. Biz İrandan un və buğda alırıq. Bu imkanlardan tam istifadə etməliyik. Mən Bakıda Amerikanın, Fransanın, Türkiyənin, İranın, İngiltərənin və Rusiyanın səfirləri ilə görüşdüm. Geniş söhbət etdik. İngiltərənin Moskvadakı səfiri ilə söhbətdə o dedi ki, əgər Amerika Naxçıvana yardım edirsə, biz də Naxçıvana kömək etmək istəyirik. Səfir dedi ki, Siz çox ağır vəziyyətdə yaşayırsınız. Fransanın səfiri ilə söhbət zamanı o dedi ki, biz də Naxçıvana köməklik edəcəyik. Mən öz növbəmdə çatdırdım ki, əgər Ermənistanın blokadada olmasından danışırsınızsa, Naxçıvan ondan da pis vəziyyətdədir. Birləşmiş Millətlər Təşkilatı qərar qəbul etmişdir ki, Ermənistana köməklik göstərilsin. Əgər əsas səbəb blokada şəraitdirsə, deməli Naxçıvana da köməklik göstərilməlidir. Bill Klinton belə qərar qəbul edib ki, Naxçıvana yardım olunsun. Bunun siyasi əhəmiyyəti çox böyükdür. Bizə yardım etməklə Prezident konqresin qərarını pozur. Bizim təbliğatımız çox zəifdir. Təbliğatımız elə əvvəldən zəif olub. Hazırda Moskvada yüksək vəzifələri ermənilər tutur. Rusiyanın 3 naziri ermənidir. Amerikada, İngiltərədə və Fransada ermənilərin nüfuzu çox böyükdür. Litvada Ermənistan cəmiyyəti yaranıb. Bizdə isə imkan olmayıb. Özümüz bu işlərlə az maraqlanırıq. Bizimkilərin bazarlarda alver etmələri Azərbaycan haqqında çox mənfi təsəvvür yaradır. Biz müxtəlif ölkələrdə özümüzü lazımi qədər təbliğ edə bilmirik. Ermənilər bizim torpaqları işğal ediblər. Bir sıra bədxah adamlar çalışırlar Naxçıvanı Bakıdan ayrı salsınlar. Mən Naxçıvana qayıdan kimi Türkiyənin Baş naziri Süleyman Dəmirəllə danışdım. Çalışacağıq kreditin qalanını da bizə versinlər ki, buna ərzaq məhsulları alaq. İran da bizə yardım edəcəkdir. 2 gün bundan əvvəl İrandan 60 ton un gəldi. Bu danışıqlar əsasında axır ki, İrandan 300 ton un və 270 ton buğda aldıq. Yanacaq da gəlir. İran bizə heç bir işi müftə görmür. Azərbaycan bunların əvəzinə İrana yanacaq məhsulları verir. Mən İranın başçılarına və Azərbaycana çatdırdım ki, Siz elə etməlisiniz ki, bizdə heç olmasa bir aylıq ehtiyat olsun. Çalışmalıyıq un, buğda və yanacağı tez gətirək.

Məmməd Abbasov (Baş nazirin birinci müavini). - Biz nəzərə almışıq ki, bayramla əlaqədar adambaşına 1 kq düyü, 1 kq yağ, 1 kq şəkər tozu, 0,5 kq qənd verilsin. Kənd əhalisinə də ərzaq verilməsi nəzərdə tutulub. Novruz bayramı münasibətilə şəhid ailələrinə də yardım nəzərdə tutulub.

Heydər Əliyev - Qoy Nazirlər Kabinetində təşkil edilmiş komissiya televiziya vasitəsilə əhaliyə məlumat versin.

Nazirlər Kabinetinə tapşırılsın ki, maşınların bir yerə yığılıb mal gətirmələri üçün lazımi tədbirlər görsün.

Məmməd Abbasov - Amerikadan yardım alındı. Onların mütəşəkkil surətdə inventarizasiyası aparıldı. 146 adda dərman ləvazimatı gətirilib. Təklif verilib ki, çernobılçılara və bəzi təşkilatlara dərmanlar pulsuz verilsin. Qalanı əhaliyə satılsın.

Heydər Əliyev - Yaz gəlir. Kənd təsərrüfatı işləməlidir. Biz tez bir vaxtda bu məsələni geniş müzakirə etməliyik. Ona görə də Məmməd Abbasova tapşırılsın ki, müəyyən tədbirlər hazırlasın və Ali Məclisin müzakirəsinə çıxarsın. Bu, nə qədər tez olsa, bizim üçün bir o qədər xeyrlidir.

Komissiyanın sədri dərmanların satılması və verilməsi barədə tədbirlər hazırlasın və bu məsələni bizim müzakirəmizə çıxarsın.

ƏLİYEV BAKININ KÜÇƏLƏRİNDƏ GÖRÜNMÜŞDÜR

Heydər Əliyevin respublikanın paytaxtına gəlməsi və onun Azərbaycan Prezidenti Ə.Elçibəylə təklikdə səkkiz saatlıq söhbəti çoxlu hay-küyə və dedi-qoduya səbəb olmuşdur.

Hələ lap bu yaxınlarda Naxçıvanla rəsmi Bakı münasibətlərində son dərəcə ciddi gərginlik var idi. AXC-nin axırıncı qurultayında Naxçıvan Parlamentinin başçısı kimi Heydər Əliyevin fəaliyyəti kəskin tənqid olunmuş, Daxili İşlər naziri İ.Həmidov isə əslində Əliyevi zorla vəzifəsindən kənarlaşdırmağa çağırmışdır.

Heydər Əliyev Xalq Cəbhəsinin yerli rəhbərlərinin onun olmamasından istifadə edərək hakimiyyəti zorla ələ keçirməyə cəhd göstərəcəklərindən ehtiyat edərək bir gün də olsun Naxçıvandan kənara çıxmamışdır. Hətta böyük qardaşının dəfninə belə gəlməmişdir.

Lakin qəflətən belə kəskin dəyişiklik - respublika rəhbərləri ilə intensiv siyasi məsləhətləşmələr, Amerikanın, Fransanın, İngiltərənin, Türkiyənin, İranın diplomatik nümayəndəliklərinin başçıları ilə görüşlər "Naxçıvandan olan tərkidünya"ya öz ehtiramlarını göstərmək həsrətində olan izdiham. Heydər Əliyevin Bakının küçələrində görünməsi elə bir ajiotaja səbəb olmuşdur ki, bundan narahat olan iqtidar onun gəzinti yerlərinə güclü polis dəstələri cəmləşdirmişdir.

Əliyevlə yaxın olan şəxslərin verdikləri məlumatlara görə prezidentlə danışıqlar zamanı Əliyevin böyük siyasətə qayıtması və onun dövlət vəzifələrindən birini tutması imkanları müzakirə edilmişdir.

Elmira Axundova,
"LQ" müxbiri
Bakı, 17 mart 1993-cü il

BÜTÜN QÜVVƏLƏRİ BİRLƏŞDİRMƏLİ, HƏR İŞİ VAXTINDA GÖRMƏLİ

Naxçıvan Muxtar Respublika Ali Məclisini Rəyasət Heyətinin aprelin 1-də keçirilmiş geniş iclasında "Muxtar Respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr" və "Qış dövründə kəsilmiş ağacların yenidən bərpası sahəsində şəhər, rayon, kənd və qəsəbə Xalq Deputatları Məclislərinin, onların İcraiyyə Komitələrinin vəzifələri" haqqında məsələlər müzakirə edilmişdir.

İclasda çıxış edən Heydər Əliyev demişdir: ...Doğrudur, bir ilə yaxın davam edən blokada bizə çox ağır zərbə vurmuşdur. Azərbaycanın başqa rayonlarına nisbətən bizim vəziyyətimiz bir də ona görə ağırdır ki, təchizat məsələləri çətinləşib. Ona görə də biz bu vəziyyətdən çıxış yolu axtarmalıyıq. Bunun üçün də indi əsas vəzifəmiz ondan ibarətdir ki, kolxoz və sovxozların əmlakının dağılmasının qarşısını alaq onların imkanlarından maksimum səmərəli istifadə edək və kənd təsərrüfatı istehsalını artırmağa çalışaq. Eyni zamanda fərdi təsərrüfatların inkişaf etməsinə şərait yaradaq və beləliklə də fərdi bölmədə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına nail olaq. Bu baxımdan biz Türkiyə və İran ilə iqtisadi əlaqələrimizi genişləndirməliyik. Təbrizdə böyük traktor zavodu var. Əgər Bakıdan traktor alınıb gətirilməsi çətindirsə, həmin traktoru biz Təbrizdən alaq. Şübhəsiz ki, onun dəyərini Azərbaycan hökuməti ödəyəcəkdir. Yaxşı cəhət orasındadır ki, buna heç bir nəqliyyat xərci çəkmək lazım gəlməyəcəkdir. O cümlədən kombayn və başqa maşınları da bu yolla almaq olar.

Heydər Əliyev demişdir ki, yaranmış vəziyyət göstərir ki, biz bir daha gübrə almaq üçün Türkiyənin Kənd Təsərrüfatı nazirliyinə müraciət etməli olacağıq. Onlar bizə keçən il də çox kömək etdilər. Biz bu il də çalışıb bu imkandan istifadə etməliyik.

...Son illərin dağıdıcı təsirinə çox də məruz qalmayan sahələrdən biri tütünçülükdür. Keçən il 7000 ton tütün istehsal olunmuşdur. Lakin onun daşınmasında və satılmasında böyük çətinliklər var. Hər halda biz bunun yollarını tapmalıyıq. Bunun üçün qonşu Türkiyə və İranla əlaqə saxlayaraq bu məhsulu satmalıyıq. Ona görə tütünçülük sahsində də bütün işlər vaxtında görülməlidir ki, daha çox məhsul götürmək mümkün olsun.

...Məlum olduğu kimi biz keçən qışı çox çətinliklə başa vurduq. Azərbaycandan göndərilən, həmçiin Türkiyədən kredit hesabına alınan və İrandan gətirilən ərzaq hesabına əhalini təmin edə bildik. İndi biz daha gözləyə bilmərik ki, Türkiyədən, İrandan ərzaq məhsulları, ət, yağ, düyü, makaron gələcəkə və beləliklə

də biz daim himayə altında olacağıq. Buna qətiyyən yol vermək olmaz. Ona görə də biz indi gərək hər qarış torpaqdan, hər bir imkandan səmərəli istifadə edək.

Son illər Muxtar Respublikanın əhalisi alverə çox qurşanıbdır. Xüsusən sərhədlər açılandan sonra İran və Türkiyə ərazisinə cürbəcür mallar keçirir, orada alver edib mal alıb gətirməklə öz həyat tərzlərini tənzimləyirlər. Şübhəsiz bu, təbii bir haldır. Bunun qarşısını heç kəs almır və almayacaqdır da. Bu proses təbiidir. Ancaq mənə belə gəlir ki, imkanı olan adamlar, torpağı, mal-qarası olanlar əgər torpaqdan, əllərində olan mal-qaradan səmərəli istifadə etsələr, öz zəhmətlrinin nəticəsində daha çox xeyir götürər, özlərini təmin edər, qalan məhsullarını bazarda satarlar. Təəssüf ki, kənddə yaşayan bir çox adamlar öz imkanlarından istifadə etmək əvəzinə cürbəcür başqa vasitələrlə əl atırlar...

"Şərq qapısı" qəzeti,
10 aprel 1993-cü il

TÜRKİYƏYƏ QISA SƏFƏR

Aprel ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir.

Sədərək-Dilucu körpüsündə Heydər Əliyevi Aralıq qəzasının kaymakamı Həsən İpək qarşılamışdır.

Sərhəd mühafizə dəstəsi rəhbərləri və gömrük işçiləri ilə söhbət olmuşdur.

Heydər Əliyev buradan İqdır vilayətinə getmişdir. Onu İqdırın valisi Ərdoğan İzgi, bələdiyyə başqanı Əli Ağrı və digər rəsmi şəxslər qarşılamışlar. Həmin gün vertolyotla İqdıra gələn Türkiyə Respublikasının dövlət naziri Orxan Kilərçioğlu ilə Heydər Əliyevin görüşü olmuşdur. Səmimi və işgüzar söhbətdən sonra Heydər Əliyev və Orxan Kilərçioğlu İqdırın bələdiyyə idarəsinə gəlmiş, şəhərin mərkəzi meydanında keçirilən böyük mitinqdə iştirak etmişlər.

Dövlət naziri Orxan Kilərçioğlu mitinqdə çıxış edərək Türkiyə hökumətinin həyata keçirdiyi iqtisadi tədbirlərdən danışmışdır. Sonra o, Heydər Əliyevi səmimi salamlamışdır. Orxan Kilərçioğlu erməni ordusunun Azərbaycan torpaqlarının işğal etməsindən narahat olduğunu bildirmiş, suveren dövlətin ərazisinin işğalına son qoyulmasını tələb etmişdir.

Mitinq iştirakçıları tərəfindən hərarətli alqışlarla qarşılanan Heydər Əliyev İqdır əhalisinə, bütün türk xalqına səmimi salamlarını və xoş arzularını çatdırmış. "Həsrət körpüsü" istifadəyə verilməndən sonra xalqlarımızı bir-birinə daha da yaxınlaşdığından, əlaqələrin genişləndiyindən danışmışdır.

Heydər Əliyev Süleyman Dəmirəlin başçılıq etdiyi koalisyon hökumətin 500 günlük fəaliyyətinə toxunaraq bunun məntəqədə barış, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin yaratdığını bildirmişdir. Heydər Əliyev demişdir ki, **Azərbaycan Respublikası, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə əlaqələrin genişlənməsinə çalışır. Bu, qardaş xalqların həyati mənafeyinə xidmət edir.**

Ermənistan təcavüzünün qarşısını almaq üçün Azərbaycan xalqının qanlı döyüşlər aparmasından danışan Heydər Əliyev demişdir ki, xalq azğın işğalçıları geri oturdacaq, öz torpağını müdafiə edəcəkdir.

Meydandan "Erməni işğalçılarına ölüm!", "Azərbaycandan əlini çək" çağırışları uzun müddət kəsilməmişdir.

Heydər Əliyev və Orxan Kilərçioğlu son aylar Türkiyəyə gələn və İqdır vilayəti ərazisində yaşayan axıska türklərinin yanına getmişlər.

İqdırın Doğu Bəyazid məhəlləsində müvəqqəti olaraq axıska türklərinin 100 ailəsi yerləşdirilmişdir. Rusiya Federasiyasının müxtəlif yerlərindən və Özbəkistandan daha 50 ailə buraya köçürüləcəkdir.

Qonaqlarla görüşə toplaşan axıska türkləri ilə mehriban söhbət olmuş, təntənəli yığıncaq keçirilmişdir. Yığıncaqda İqdırın valisi Ərdoğan İzgi, dövlət naziri Orxan Kilərçioğlu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev çıxış etmişlər.

Heydər Əliyev axıska türklərinin böyük bir qrupunun uzun müddət Azərbaycanda yaşadığından danışmış, öz yurdundan didərgin salınan axıska türklərinə qarşı yol verilən tarixi ədalətsizliyə son qoyulacağını bildirmiş, türk xalqlarının birliyinin vacibliyini qeyd etmişdir.

Axıska türkləri adından İbrahim Razigil çıxış edərək köçkünlərə göstərilən qayğı və diqqətə görə minnətdarlığını bildirmiş, Azərbaycan xalqının axıska türklərinə olan həmrəyliyi və mehribanlığı üçün Heydər Əliyevə üzərində "Tanrı, türkü qoru!" sözləri əks olunmuş xalça bağışlamışdır.

Orxan Kilərçioğlu və Heydər Əliyev axıska türklərinin yaşadıqları evlərə baxmış, onların sosial-məişət problemləri ilə maraqlanmışlar.

Günün ikinci yarısı Heydər Əliyevlə İqdırın valisi Ərdoğan İzgi arasında danışıqlar olmuşdur.

Qarşılıqlı anlaşma və mehribanlıq şəraitində keçən söhbət zamanı tərəfləri maraqlandıran məsələlərə toxunulmuşdur. Naxçıvana ərzaq və digər yardımlar göstərilməsi barədə konkret təkliflərə baxılmışdır.

Türkiyə işgüzar dairələrinin və sahibkarların iştirakı ilə keçirilən söhbətdə qarşılıqlı iqtisadi əlaqələrin və sərhədyanı ticarətin genişləndirilməsi barədə razılıq əldə edilmişdir.

Heydər Əliyev Türkiyəyə səfəri ilə əlaqədar yerli mətbuat nüma-

yəndələrinə və Türkiyə televiziyasına verdiyi müsahibədə səfərin işgüzar xarakter daşıdığını, Naxçıvanın iqtisadi və digər problemlərinin həlli ilə bağlı olduğunu bildirmişdir.

Həmin gün axşam Heydər Əliyev Naxçıvana qayıtmışdır.

Türkiyə Respublikasına səfərdə Heydər Əliyevi Türkiyənin Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğlu və digər rəsmi şəxslər müşayiət etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti
17 aprel 1993-cü il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Uzun müddət iqtisadi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchizatında yaranmış çətinliklərlə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının "Qızıl Ay" cəmiyyətinin baş direktoru Kamal Dəmirlə telefon danışıqları aparmış, Naxçıvana yardım göstərilməsini xahiş etmişdir.

1993-cü il aprel ayının 15-də Kamal Dəmir bildirmişdir ki, "Qızıl Ay" cəmiyyəti Naxçıvan Muxtar Respublikasına yardım etməyi qərara almış, 2 min 380 ton un, yağ, şəkər, düyü, makaron və digər ərzaq mallarının bu günlərdə Naxçıvan Muxtar Respublikasına göndərilməsi planlaşdırılmışdır.

Aprel ayının 16-da ərzaq malları yüklənmiş 7 böyük yük avtomobili Ankaradan Naxçıvana yola düşmüşdür.

***

Naxçıvanda ərzaq qıtlığı ilə əlaqədar Heydər Əliyev ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı naziri Nəcməddin Cevhəri arasında telefon danışıqları olmuşdur.

Aprelin 16-da nəcməddin Cevhəri Heydər Əliyevə məlumat vermişdir ki, Türkiyə Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikasına 2 min ton buğda göndərmək haqqında qərar qəbul etmişdir.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Respublikası Hökuməti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi arasında bağlanmış müqavilədə Naxçıvan Muxtar Respublikasına kredit verilməsi nəzərdə tutulmuşdar.

Son günlər Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəllə aparılan danışıqlar nəticəsində bu kreditin 25 milyon Amerika dolları məbləğində istifadə olunması haqqında Türkiyənin "Ekzem bankı" qərar qəbul etmişdir. Ayrılmış kreditin 10 milyon dolları Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchiz edilməsinə yönəldiləcəkdir.

21 aprel 1993-cü il

NAXÇIVANIN KƏDƏRİ

Böyük türk dünyası dərin matəm içərisindədir. Türkiyə Respublikasının Prezidenti, türk xalqları qarşısında böyük xidmətləri olan görkəmli dövlət xadimi Turqut Özalın qəflətən vəfat etməsi hamımızı sarsıtmışdır. Heç birimiz xəyalımıza belə gətirməzdik ki, bir neçə gün əvvəl Turqut Özalın Bakıya gəlməsi ilə əlaqədar böyük sevincimiz belə ağır kədərlə əvəz olunacaqdır. Türk xalqının böyük oğlu Turqut Özalın vəfatı bütün türk aləmi üçün əvəzolunmaz itkidir.

Aprelin 19-da Naxçıvanda Türkiyənin Baş konsulluğunun yerləşdiyi binaya bir-birinin ardınca dəstə-dəstə gələn naxçıvanlılar türk aləminə baş vermiş ağır itki üçün Türkiyənin Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğluna öz dərin kədərlərini bildirir, canı bir, qanı bir qardaşlarımıza dərin hüznlə başsağlığı verirdilər.

Konsulluğa gələnlər mərhum Prezidentin qara haşiyəli portreti qarşısına gül dəstələri qoyur, öz ürək ağrılarını matəm kitabında izhar edirdilər.

Saat 12-də Heydər Əliyev başda olmaqla Muxtar Respublika Ali Məclisinin və Nazirlər Kabinetinin rəhbər işçiləri öz kədərlərini ifadə etmək və başsağlığı vermək üçün konsulluğa gəldilər. Heydər Əliyev matəm kitabına aşağıdakı sözləri yazdı: **"Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın vəfatı Naxçıvan Muxtar Respublikası əlahisinin böyük kədərinə səbəb olmuşdur. Beynəlxalq aləmdə böyük dövlət xadimi, İslam aləminin, Türk dünyasının görkəmli şəxsiyyəti, Azərbaycan xalqının böyük dostu olmuş Turqut Özalın əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Türkiyə Cümhuriyyətinin hökumətinə, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin".**

Sonra Heydər Əliyev Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğluna başsağlığı verərək dedi:

- **Prezident Turqut Özalın vəfatı bizim hamımızı sarsıtdı. Turqut Özalın vəfatı bütün türk dünyası üçün, bütün qədirbilən insanlar üçün çox ağır itkidir. Naxçıvan Muxtar Respublikasının əhalisi bu günlər matəm içərisindədir. Biz Türkiyədə olan qardaş-bacılarımızla birlikdə matəm keçiririk. Türkiyə Cümhuriyyətinin sürətlə inkişaf etməsində Turqut Özalın böyük xidmətləri hamımıza məlumdur. Bu, bir çox dövlətlər, xalqlar üçün, o cümlədən Azərbaycan üçün böyük örnəkdir.** Azərbaycan respublikası və Azərbaycan xalqı Turqut Özalın qayğısını, hörmət və ehtiramını həmişə hiss etmiş və qiymətləndirmişdir.

Turqut Özalın türk cümhuriyyətlərinə səfəri və xüsusən Azərbaycan Respublikasına gəlişi böyük bir

tarixi hadisə olmuşdur. Bu səfər Azərbaycan respublikasının belə ağır günlərində bizim üçün böyük mənəvi dayaq idi. Bunu xalqımız heç vaxt unutmayacaqdır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə sərhədboyu bağlı bir məntəqədir. Bildiyiniz kimi Muxtar Respublika son dövrdə çətin anlar keçirir. Ermənistanın təcavüzü nəticəsində Naxçıvan iqtisadi blokada şəraitində yaşayır. Bu dövrdə Turqut Özalın, Türkiyə Respublikasının Baş nazirinin və başqa dövlət rəhbərlərinin Naxçıvan Muxtar Respublikasına xüsusi münasibəti və yardımı bizim ağır vəziyyətdən çıxmağımıza çox kömək etmişdir. Mən şəxsən Turqut Özalı 10 ilə yaxın bir dövrdür ki, yaxından tanı-yıram. Bizim yaxın münasibətlərimiz, dostluq əlaqələrimiz olub. Mən dəfələrlə onunla görüşmüşəm. Görüşlərimizdə, söhbətlərimizdə həmişə çox yüksək zəka sahibi, çox böyük təcrübəli siyasi, ictimai və dövlət xadimi olduğunun şahidi olmuşuq. **Mərhum Prezident hər dəfə bizi çox böyük hörmət və ehtiramla qəbul edib. Türkiyənin Naxçıvana xüsusi münasibətini qeyd etmişdir. Ona görə də bu günlər biz bir daha Türkiyə Cümhuriyyətinə öz minnətdarlığımızı bildiririk. Türkiyə Böyük Millət Məclisinə, Türkiyə hökumətinə və onun Baş naziri Süleyman Dəmirələ, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Bildirmək istərdik ki, bu ağır günlərdə Azərbaycan, o cümlədən bütün Naxçıvan əhalisi bir daha türk qardaşlarımızla bir yerdədir. Allah Turqut Özala rəhmət eləsin, qəbri nurla dolsun. Onun gördüyü işlər həm Türkiyədə və həm də türk dünyasında öz davamını tapacaqdır. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qardaşlıq və dostluq əlaqələri bundan sonra daha da möhkəmlənəcəkdir.**

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Orxan Ərtoğruloğlu Heydər Əliyevə və onun şəxsində bütün Naxçıvan əhalisinə, onların dərdinə şərik çıxdıqları üçün son dərəcə mütəəssir olduğunu bildirdi və səmimi təşəkkür etdi.

Naxçıvanda matəm mərasimi davam edir.

"Şərq qapısı" qəzeti,
21 aprel 1993-cü il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il aprel ayının 19-dan 25-dək Türkiyə Respublikasında səfərdə olmuşdur. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə birlikdə Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Ankarada və İstanbulda keçirilən

matəm mərasimlərində iştirak etmişdir.

Heydər Əliyev Turqut Özalın ailəsini ziyarət etmiş, mərhum Prezidentin həyat yoldaşı Səmra Özala və ailə üzvlərinə ağır itki münasibətilə başsağlığı vermişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası adından Türkiyə Böyük Millət Məclisinin sədri Hüsaməddin Cindoruka və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirələ başsağlığı vermişdir.

Ankarada olarkən Heydər Əliyev Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün buraya gəlmiş Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Gürcüstan parlamentinin sədri, dövlət başçısı Eduard Şevarnadze, Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyan, Rusiya Federasiyası Baş nazirinin müavini Georgi Xija, İran İslam Respublikasının Xarici İşlər naziri Əli Əkbər Vilayəti ilə, digər dövlətlərin nümayəndə heyətlərinin başçıları ilə görüşmüş və söhbətlər etmişdir.

Türkiyə Respublikasının Prezidenti Turqut Özalın dəfn mərasimi başa çatdıqdan sonra Heydər Əliyev İstanbuldan Ankaraya qayıtmış, aprelin 23-də və 24-də Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və blokada ucbatından burada yaranmış problemlərin həlli ilə əlaqədar Türkiyə hökuməti nazirləri ilə işgüzar görüşlər keçirmişdir.

Heydər Əliyev aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Respublikasının yaradılmasının 70-ci ildönümünə həsr olunmuş iclasında iştirak etmişdir.

Aprel ayının 24-də Türkiyə Gümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl Heydər Əliyev qəbul etmişdir. Görüş zamanı Naxçıvan Muxtar Respublikasının iqtisadi problemləri və Naxçıvana maddi yardım məsələləri müzakirə olunmuşdur. 24 mart 1992-ci il tarixdə Ankarada imzalanmış İşbirliyi Protokoluna əsasən Türkiyə hökuməti tərəfindən Naxçıvan Muxtar Respublikasına ayrılmış kreditin 25 milyon Amerika dolları məbləğində olan hissəsinin yaxın günlərdən başlayaraq istifadə olunması haqqında qərar qəbul olunmuşdur. Süleyman Dəmirəl Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da sürətlə genişlənməsinə və inkişaf etməsinə bundan sonra da səy göstərəcəyini, Naxçıvan Muxtar Respublikasının problemlərinin həlli məsələlərini xüsusi diqqət mərkəzində saxlayacağını bildirmişdir. Heydər Əliyev Türkiyə Respublikasının Kənd Təsərrüfatı naziri Nəcməddin Cevhəri və "Qızıl Ay" cəmiyyətinin Baş direktoru Kamal Dəmirlə də görüşmüş və danışıqlar aparmışdır. Naxçıvan Muxtar Respublikasına yardım məqsədilə Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2 min ton buğda və "Qızıl Ay" cəmiyyəti tərəfindən 2 min 330 ton müxtəlif ərzaq malları göndərilməsi haq-

qında razılıq əldə edilmişdir. Yaxın vaxtlarda Türkiyə Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin bir qrup mütəxəssisinin Naxçıvan Muxtar Respublikasına gəlməsi nəzərdə tutulmuşdur.

Aprel ayının 24-də Heydər Əliyev Ankarada Türkiyənin Ana Vətən Partiyasının başçısı Məsud Yılmazla görüşmüşdür. Tərəflər mühüm ictimai-siyasi proseslər haqqında fikir mübadiləsi aparmışlar.

Heydər Əliyev aprelin 25-də Naxçıvana qayıtmışdır.

28 aprel 1993-cü il

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ

Hörmətli Süleyman Dəmirəl!

Sizi Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Türkiyə Cümhuriyyətinin inkişafında və möhkəmlənməsində əvəzsiz xidmətləriniz, beynəlxalq məsələlərin həll olunmasında böyük fəaliyyətiniz, müsəlman-türk xalqlarının hüquqlarının müdafiəsində cəsarətli addamlarınız Sizə böyük hörmət qazandırmış, Sizi görkəmli dünya liderlərindən biri kimi tanıtmışdır.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran problemlərin həll olunmasına qardaşlıq münasibətiniz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Ağır blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına daimi göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Əminik ki, bundan sonra da Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə və inkişaf etməsinə səy göstərəcəksiniz.

Yüksək vəzifənizdə Sizə qardaş Türkiyə xalqının rifahı naminə, türk dünyasının inkişafı naminə, bütün dünyada sülhün, əmin-amanlığın təmin olunması üçün uğurlar diləyirəm. Möhkəm can sağlığı, uzun ömür arzulayıram.

Dərin hörmətlə

HEYDƏR ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Naxçıvan şəhəri,
16 may 1993-cü il

İQTİSADİ ƏLAQƏLƏR

Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərin birinə çevrilmişdir...

Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir...

Azərbaycanla Türkiyə arasındakı səddlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Hazırda iki qardaş ölkənin - Türkiyə və Azərbaycanın münasibətləri, o cümlədən iqtisadi münasibətləri regionun strateji geoiqtisadi xəritəsini formalaşdıracaq faktor müstəvisində qiymətləndirilir. Azərbaycan-Türkiyə əlaqələrinin ölçü mexanizmi "Bir millət, iki dövlət" və "dünya təsərrüfat sisteminin qloballaşması" tezisləri üzərində qurulmaqdadır.

Əlbəttə, iqtisadi əlaqələr zamana ehtiyacı olan bir prosesdir. Ancaq hər iki tərəfdən rəğbət olarsa onu sürətləndirmək və istiqamətləndirmək olar.

25.05.1991-ci il Azərbaycanda Türkiyənin Baş konsulluğu, 14.01.1992-ci ildə isə Səfirliyi fəaliyyətə başlamışdır. Bu tarixlərdən siyasi və iqtisadi əlaqələrimiz vüsət almağa başlamışdır.

Bundan əlavə, Azərbaycanda fəaliyyət göstərən iş adamlarının qurduğu "TÜSİAB" Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyəti, "TİAD" Azərbaycan Türk İşadamları Dərnəyi də fəaliyyət göstərir.

İndiyə qədər Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, ticarət, sosial, mədəni və s. sahələrdə 200-ə yaxın işbirliyi və yardımlaşma protokolanlaşmaları imzalanmışdır.

Bilinidyi kimi, siyasi müstəqilli-

yin güclənməsi ancaq iqtisadi müstəqilliyin güclənməsi ilə mümkündür. Buna görə də Türkiyə sahib olduğu iqtisadi imkanları, sərbəst bazar iqtisadiyyatı və beynəlxalq maliyyə qurumlarından əldə etdiyi təcrübələri Azərbaycanın istifadəsinə ilk gündən təklif etmişdir. Müstəqillik qazanıldıqdan sonra Türk iş adamlarının Azərbaycana ziyarətləri başlanmış, yarmarka və buna oxşar fəaliyyətlər təşviq edilmiş, nəqliyyat və rabitə, inşaat, neft axtarma kimi sənayenin bir çox sahələrində əməkdaşlıq aparılmışdır. İki ölkə arasında iqtisadi əlaqələrin geniş və sürətli şəkildə inkişaf etdirilməsi üçün Türkiyə digər sahələrdə olduğu kimi bu sahədə də imkanlarını Azərbaycanın faydalanması üçün səfərbər etmiştir.

Azərbaycanda ilk Türkiyə şirkətləri 1991-ci ildən fəaliyyət göstərməyə başlamışlar. 01.01.2002-ci ilə qədər 1486 müxtəlif statuslu müəssisələr qeydiyyatdan keçmişdir. Onlardan 808-i fəaliyyət göstərir. Bunladan 568 tam türk sərmayəli müəssisədən 378-i, 743 müştərək şirkətdən isə 371-i fəaliyyət göstərir.

Hal-hazırda fəaliyyət göstərən müəssisələrin sayı təxminən 800-dən çoxdur ki, onların 378-i xarici müəssisə, 371-i birgə müəssisə və 59-u nümayəndəlikdir.

Həmin müəssisələrin 184-ü (22,7%) istehsal, 28-i (3,5%) xidmət, 75-i (9,2%) tikinti, 10-u (1,3%) rabitə, 39-u (4,8%) nəqliyyat, 5-i (0,6%) kənd təsərrüfatı, 298-i (36,9%) kommersiya və 169-u (31,0%) digər fəaliyyət növləri ilə məşğuldur.

Türkiyə şirkətləri tərəfindən Azərbaycan dövlət büdcəsinə ödənilən vergilərin məbləğləri 1994-2000-ci illər üzrə təxminən 250 mlrd. manat (60,6 min. ABŞ dollar) olmuşdur ki, onun da yalnız 0,3 %-i neft sektorunun, 99,7 %-i isə qeyri-neft sektorunun payına düşür.

1990-cu ilin məlumatına görə Türkiyə Azərbaycan ixracında yalnız 0,003%, idxalında isə 0,0007% (rəsmi kursla 3,6 mln. $; 1,3 mln. $) yer tuturdu.

1994-cü ildə isə Azərbaycandan Türkiyəyə ixracın həcmi ölkəmizin ümumi ixracının 2,6%-i (16,4 mln. $), idxalın həcmi isə 9,8% (76 mln. $) qədər olmuşdur.

1995-ci ildən başlayaraq əlaqələrimiz xeyli intensivləşmişdir. Həmin il ixracımızın 4,8%-i (26,5 mln. $), idxalın 21%-i (141 mln. $) Türkiyənin payına düşmüşdür. Sonrakı illərdə nisbətən yüksək pay olmuşdur. Lakin 1999-cu ildən başlayaraq Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyənin payı azalmağa doğru gedir. 1999-cu ildə Türkiyənin payı idxalda 13,8 % (142,4 mln. $), 2000-ci ildə 10,9% (129 mln. $), ixracda isə müvafiq olaraq 7,4% (69 mln. $) və 6% (105 mln. $) qədər olmuşdur.

2001-ci ildə (10 ay) idxal 11% (126 mln. $), ixrac 3,2% (62 mln. $) təşkil etmişdir.

Xarici ticarətimizin keyfiyyət

strukturunda da ötən illərdə əhəmiyyətli dəyişiklik olmuşdur. Əgər 1990-1995-ci illər ixracımızın əsas hissəsini (70%) kimya, metal və pambıq məhsulları təşkil edirdisə, 1998-2000-ci illərdə Azərbaycandan Türkiyəyə ixracın 70%-i neft məhsullarının payına düşür.

Azərbaycanla Türkiyənin iqtisadi əlaqələri, təbii ki, yalnız qarşılıqlı ticarətdən ibarət deyildir. Çox yaxşı haldır ki, son 6-7 ildə ölkəmiz arasında qarşılıqlı investisiya və elmi-texniki əməkdaşlıq güclənir.

İlk dəfə 1992-ci ildə bağlanmış Ankara sazişinə görə, Türkiyə Eksimbankı Azərbaycana 250 mln. dollar məbləğində kredit xətti açmışdır. Çox təəssüf ki, ölkəmizin çox ağır vaxtında qardaş ölkənin bu böyük köməyi o vaxtkı Azərbaycan rəhbərliyinin səhlənkarlığı üzündən səmərəli istifadə olunmamışdır.

Sonrakı dövrdə 1995-2000-ci illərdə Türkiyə tərəfi Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə 1,2 mlrd. dollardan artıq vəsait qoymuşdur. Bu vəsaitin təxminən 700 mln. dolları qeyri-dövlət sektorlarına yönəldildiyindən xüsusilə əhəmiyyətlidir. Qeyd etmək vacibdir ki, hazırda Azərbaycanda türk kapitalının bilavasitə iştirakı ilə 6 bank fəaliyyət göstərir.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin müasir durumunda həlledici sahə əlbəttə ki, uğurla həyata keçirilən Azərbaycanın neft strategiyası ilə bağlıdır. Yalnız faktları qeyd etsək, Türkiyə Dövlət Neft Şirkəti (TPAO) dörd iri müqavilədə fəal iştirak edir.

Bu müqavilələrə görə, Türkiyə tərəfi Azərbaycanın şelfinə təxminən 2 mlrd. dollar investisiya yatıracaqdır. Bu bütünlüklə həmin müqavilələrdə nəzərdə tutulan investisiyanın 8,5 %-ni təşkil edir. TPAO həm də Bakı-Ceyhan boru xəttinin sponsorlar qrupuna 5,02% payla (təxminən 120 mln. dollar) daxildir.

Bunlardan əlavə, müxtəlif türk şirkətləri Azərbaycanın quruda yerləşən yataqlarının istismarında və neft infrastrukturunun formalaşmasında və istismarında iştirak edirlər. Hazırda quru yataqlarında iki Azərbaycan-Türkiyə müştərək müəssisəsi (Anşapetrol, Azərpetrol); maye qaz istehsalı üzrə "Azturqaz", mühəndislik işi üzrə "AzFen" birgə müəssisəsi fəaliyyət göstərir.

Əlbəttə, iqtisadi əməkdaşlıq qarşılıqlı faydalı olmalıdır. Azərbaycanın neft sektoruna yönəldilən investisiya müqabilində qardaş Türkiyənin alacağı faydanı hesablamaq indi çətindir.

Türkiyənin sürətlə artan enerji ehtiyaclarının ödənilməsinin strateji əhəmiyyətini qeyd etməklə yanaşı, yalnız bir iqtisadi göstəricini xatırlamaq istəyirik.

Bakı-Ceyhan neft kəmərinin tikintisinə qoyulacaq məcmu investisiyanın 58%-nin (1,4 mlrd. dollar) Türkiyə ərazisində sərf olunacağını nəzərə alsaq, qardaş ölkədə böyük

həcmdə iş yerlərinin açılıcağını əminliklə söyləmək olar.

Türkiyə şirkətləri Azərbaycanın qeyri-neft sektorunda da ciddi fəaliyyət göstərirlər.

Tikinti. 1996-cı ildən indiyədək Türkiyə şirkətləri yalnız mənzil tikintisinə 20 mln. dollardan çox vəsait qoymuşlar. "İntəpə Offşor LTD", "Delta" və digər şirkətlər indiyədək Bakıdakı 100 min kv. metr həcmdən çox mərtəbəli ev inşa etmişlər və bu iş davam edir.

Hazırda "Turan Xəzinədar oğlu" şirkəti "Ələt-Qazıməmməd" avtomagistralının tikintisində (27,6 mln. dollar); "TML Barova" Şimal DRES-nin tikintisinə (22 mln. dollar) iştirak edirlər. Türkiyənin "Elektromakina Mühəndislik" və "STFA" firmaları enerji qurğularının tikintisində iştirak edirlər. "Goranboy-Ağcabədi-Bərdə" elektrik xəttinin və yarımstansiyaların tikintisi indi davam etdirilir.

Nəqliyyat. 1992-93-cü illərdə - Bakıdakı şəhərdaxili nəqliyyat çox böyük sıxıntıda olduğu vaxt "Star" adlı şirkət bütün şəhərin taksi parkını öz vəsaiti hesabına yeniləşdirdi və əslində Azərbaycanda yeni nəqliyyat biznesinin əsasını qoymuşdu.

Beynəlxalq və şəhərarası nəqliyyatın təşkilində də çoxlu türk firması fəaliyyət göstərir.

"Eksimbank" Bakı hava limanının tikintisinə 20 mln. dollar kredit ayırmış, "Burc-Enka" şirkəti isə hava limanında 47,5 mln. dollarlıq tikinti-quraşdırma işi görmüşdür.

Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri İstanbulda 20 Azərbaycan gəmisi təmir olunur.

Rabitə. Azərbaycanda rabitə xidmətinin dünya standartlarına qaldırılmasında Türkiyə şirkətləri çox fəallıq göstərmişlər. İlk birgə rabitə firması "Ultel" 1989-cu ildə "Netaş"-ın iştirakı ilə yaradılmışdır. "Teletaş", "Türksel", "Rumel-Telekom", "Arkinarholding", şirkətlərinin iştirakı ilə son illərdə Azərbaycanda "Azərsel-telekom", "Artel", "Azerin", "Aztel" və s. kimi mənfəətli müəssisələr yaranmışdır. Bütövlükdə Azərbaycanın telekommunikasiya bazarında Türk adamlarının yatırımı 70-80 mln. dollara qədərdir.

"TEA"-nın Azərbaycan hissəsinin Türkiyənin "Hesfibel" şirkəti 10 il ərzində 29 mln. dollar yatıracaqdır.

Azərbaycandakı bir çox sərmayə və təsislər türk biznesmenlərinə məxsusdur. Təkcə hava limanının tikintisində 60-80 milyon, mərkəzi klinikanın təmir və təchizində 40-80 milyon, Sanqaçal neft terminilinin tikintisinə 70-100 milyon dollar xərclənmiş, bu böyük layihələr Azərbaycan dövlətinin təminatı altında türk iş adamları tərəfindən həyata keçirilmişdir.

Bakı-Tbilisi-Ceyhan boru xəttinin Türkiyə hissəsini "Botaş" şirkəti həyata keçirir.

Prezident Heydər Əliyev 13 oktyabr 2002-ci il tarixdə Türkiyənin

"Samanyolu" telekanalına verdiyi müsahibədə göstərmişdir ki, Bakının hava limanını Türkiyənin "ENKA" və "Bürc" şirkətləri tikmişlər. Bakı-Tbilisi-Ceyhan proyektində Türkiyənin "Tekfen" şirkəti 700 milyon dollarlıq bir iş görür. Naxçıvan beynəlxalq aeroportunun tikintisinə də Türkiyənin "ENKA" şirkəti dəvət edilmişdir.

mulatları, çeşidli xidmət göstərilməsi, maddi və hüquqi məsləhətləşmə, maşınqayırma, dəftərxana ləvazimatları, meşə məmulatları, çay paketləmə, akumulyatorların istehsalı, metal işləmə kimi sahələrdə fəaliyyət göstərməkdədir. Başqa ölkələrin firmaları ilə müqayisədə türk firmaları həm sayına, həm də çeşidinə görə çoxluq təşkil edir.

Türk Şirkətlərinin Azərbaycandakı yatırımları (milyon ABŞ dolları ilə)

	1994	1995	1996	1997	1998	1999	2000	2001
Ümumi Yatırımları	137	375	621	1307	1472	1091	927	927.5
Qeyri-neft sektoruna edilən xarici sərmayə	-	14.9	103	331	460	210	118	79.3
Türk şirkətlərinin sərmayələri	-	6.8	45.3	129.6	160.3	67.8	31.6	11.8
Qeyri-neft sektoruna edilən xarici sərmayədə Türkiyənin payı (%)	-	45.6	44	39.2	34.8	32.2	26.8	14.9

İƏT çərçivəsində də ölkələrimiz iqtisadi sahədə əməkdaşlıq edir.

1999-cu ilin oktyabr ayının 1-də Bakıda Binə beynəlxalq hava limanının yeni kompleksinin təntənəli açılış mərasimi olmuş, ölkəmizin başçısı mərasimdə iştirak etmiş və çıxış etmişdir. Türkiyənin "ENKA" və "Bürc" şirkətləri bu kompleksin tikilməsində iştirak etmişlər. Açılışda Türkiyənin dövlət naziri Şuayip Üşenmez iştirak etmişdir.

1991-ci ildən etibarən Azərbaycana yatırım üçün gələn Türk firmaları, neft, inşaat, telekommunikasiya, bank işi, sığorta işi, rabitə, nəqliyyat, qida maddələrinin alışı və satışı, tekstil, mebel, dekorasiya, inşaat materiallarının satışı, un mə-

Türk iş adamları Azərbaycana investisiya qoyarkən yerli şərtlərin daha uyğun olması, ölkələrimiz arasında yaxınlıq, dil, din, adət-ənənə və mədəni birliyin olması, Azərbaycanın Avrasiya enerji koridoru və İpək yolunun üzərində yerləşməsi, dünyadakı geopolitik yeri və əhəmiyyətinin artmasını nəzərə alırlar.

Bank sahəsində beşi ortaq olmaq şərtilə altı Türk bankı mövcuddur. Bunlar Azər-Türkbank (ortaq), Cı-bank (ortaq), Koçbank, Atabank (ortaq), İş bankı Azərbayjan (ortaq) və Royal Bank (ortaq)-dır.

Sığorta işi sahəsində mövcud olan üç ortaq sığorta şirkəti 30-a yaxın sığorta növündə xidmət göstərir. Bunlar, Başak-İnam Sığorta,

Güney Anadolu Sığorta və CI Sığorta şirkətləridir.

2001-ci ilin sonu üçün Türkiyədə yatırım edən Azərbaycan firmalarının sayı 97-dir və onların təxminən 3,5 milyon dollarlıq (4.720.696,0 milyon TL.) sərmayələri var. Bunların 9-u istehsalat müəssisəsi, digərləri isə xidmət və ticarət müəssisələridir.

Türk sifarişçi firmaları da ölkəmizdə geniş fəaliyyət göstərirlər. 2001-ci ilin sonu üçün Türk sifarişçi-mühəndislik-inşaat firmalarının Azərbaycanda üzərinə götürdüyü 44 layihə mövcuddur ki, bu layihələrin də ümumi dəyəri 635 milyon dollara yaxındır. 01.01.2002-ci il tarixi üçün davam edən inşaat işlərinin layihə dəyəri təxminən 180 milyon dollara yaxındır. Adı çəkilən layihələrdə 30 %-i Türk, 70 %-i Azəri olmaqla 3000 nəfər işləyir.

Türk firmalarının həyata keçirdikləri layihələr arasında TRASECA "İpək Yolu" layihəsi çərçivəsində magistral yolların inşası, Elektrik stansiyalarının inşası və modernləşdirmə, iş mərkəzləri qurulması, yüksək keyfiyyətli mənzil inşası, Sanqaçal Terminalındakı Rezervuarın qurulması işi, Ordu evi Binasının inşaatı, "Güney Muğan" layihəsi, çoxmərtəbəli bina, hotel və iş mərkəzi inşası, tarixi və turistik komplekslərin xidməti və təmiri, hava limanı kompleksinin modernləşdirmə inşaatı, neft boru kəməri ilə əlaqəli istehsal və təmir işləri, Bakı Sahil Layihəsi, Sağlamlıq Mərkəzi inşası, Bakı su təmizləmə layihəsi ilə əlaqəli yealtı layihələr, reklam-dizayn v.s. kimi işlər yer tutur.

Xatırladırıq ki, iqtisadi əlaqələrimizin hüquqi bazası da artıq yaradılmışdır. İki ölkə arasında 138-dən çox ortaq müqavilə, protokol və saziş imzalanmışdır. Bunlardan ən mühümləri arasında Yatırımların Qarşılıklı Təşviqi və Qorunması Müqaviləsi (Azərbaycan Milli Məclisi tərəfindən 14.06.1994-cü il tarixli və 820 saylı Qərarı ilə, TBMM tərəfindən isə 25.07.1996-cı il tarixli və 4152 saylı Qanunla ratifikasiya edilərək 31.07.1996-cı il tarixli və 22713 saylı Rəsmi qəzetdə nəşr olunması ilə qüvvəyə minmişdir) ilə Gəlir Üzərində İkitərəfli Vergilərin Balanslaşdırılması Müqaviləsi (04.01.1997-ci il tarixində Azərbaycan Cumhuriyeti tərəfindən, 16.05.1997 tarixində Türkiyə Cumhuriyyəti tərəfindən ratifikasiya edilərək qüvvəyə minmişdir), səhiyyə, təhsil, turizm, gömrük, nəqliyyat, kiçik sənaye müəsisələrinin inkişaf etdirilməsi, iqtisadi işbirliyi, sosial müdafiə məsələləri ilə əlaqəli müqavilələri göstərmək olar.

Ötən 10 ilin təcrübəsi göstərir ki, Türkiyə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, onun dünyada sayılan ölkələr sırasına çıxmasında bütün sahələrdə önəmli rol oynamışdır. Lakin iqtisadi əməkdaşlıq sahəsində Azərbaycan-Türkiyə münasibətlərini yalnız ma-

liyyə mənfəəti ilə ölçmək düzgün olmazdı. Türkiyə Respublikası Azərbaycanın beynəlxalq iqtisadi təşkilatlarda və müqavilələrdə ən yaxın müttəfiqidir və bu yüksək qiymətləndirilir. Digər tərəfdən, türk kapitalı və türk iş adamları Azərbaycan iqtisadiyyatı üçün həm də çox yaxşı menecment məktəbidir.

Yuxarıda nümunə gətirilən sahələr infrastruktur sahələri olduğundan onların inkişafı bizim iqtisadiyyat üçün dolayı effektə malikdir. Sovet İttifaqı dağılandan sonra Azərbaycanda nəqliyyat, tikinti, rabitə, qida sənayesi, restoran, ticarət və turizm sənayesi pis vəziyyətə düşmüşdü. Çünki bu sahələrin əksəriyyəti dövlətin idarəçiliyində olduğundan büdcə vəsaitinə ciddi ehtiyac duyurdu.

Qısa müddətdə türk iş adamları həmin sahələri nəinki qaldırdılar, eyni zamanda yerli iş adamlarına nümunə oldular. İndi bu sahələrdə yerli iş türkiyəli iş adamları üçün güclü iqtisadi rəqiblərə çevrilmişlər, bu məqam son dərəcə əhəmiyyətlidir. Yəni türk adamları bizə sivil bazar münasibətlərini, bazar menecmentini öyrədirlər, iş adamları üçün istiqamətverici, moda daşıyıcı rolunu oynayırlar.

Yeri gəlmişkən, son illərdə ağrılı yerimizə çevrilmiş Bakının elektrik təchizatı sisteminin "Barmek-holdinq" firmasına uzunmüddətli icarəyə verilməsindən də məhz belə nəticə gözlənilir.

Azərbaycan-Türkiyə əlaqələrinin ötən illərdəki dinamikasına nəzər saldıqda razı qalmaq olar.

Lakin hələ də bir neçə səbəb vardır ki, onlara görə iki qardaş ölkə arasındakı iqtisadi əlaqələri qənaətbəxş hesab etmək olmaz.

Əvvəla, bu əlaqədar ölkəmizin mövcud potensialını qətiyyən tam əks etdirmir. Azərbaycan iqtisadiyyatının bir çox sahələrində, xüsusilə real sektorlarda, maşınqayırma, elektrotexnika, metallurgiya, kimya, yüngül sənaye, kənd təsərrüfatı və s. kimi vacib sahələrdə türk iş adamları, türk kapitalı çox zəif iştirak edir. Azərbaycanın ayrı-ayrı regionlarında onların iştirakı arzuolunan səviyyədə və yerli ehtiyatlara, imkanlara müvafiq deyildir.

İkincisi, iqtisadi əlaqələrimizdə proqramlıq, sistemlik zəifdir. Hər iki tərəfdən bizim dövlət orqanlarının təmsilçilərinin, iş adamları və alimlərdən ibarət iqtisadi koordinasiya qurumlarının, birgə ticarət-sənaye palatalarının fəaliyyətinin gücləndirilməsinə böyük ehtiyac var.

Bizim əlaqələrin xarakterinə və miqyasına görə, bu işin yalnız Dövlət kommisiyasına həvalə edilməsi kifayət deyil.

Üçüncü bir səbəb və ticarət-sənaye palatalarının mühüm vəzifələrindən biri bəzi iş adamlarına azad rəqabətli, sivil bazar qaydaları ilə işləməyi aşılamaq olmalıdır. Təcrübə göstərir ki, 1991-1996-ci illərdə Azərbaycanın daxili bazarında qıtlıq olan dövrdə burada böyük mənfəətlə

işləyən (bu mənfəət orta dünya səviyyəsindən xeyli yüksək olmuşdur) bəzi firmalar indi həmin mənfəəti götürmədikdə (çünki rəqabət yüksəlmişdir) narazi qalırlar. Azərbaycan iqtisadiyyatının "poliqon" və ya "ofsor" zonası dövrü artıq bitmişdir. Digər tərəfdən yeni dünya iqtisadi düzümü bunu tələb edir.

Bəzi ölkələr Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin inkişaf etdirilməsinə qısqanclıqla izləyirlər.

Türkiyənin son iyirmi ildə güclü iqtisadi inkişafını və Azərbaycanın dövlət müstəqilliyini gizli və aşkar xoşlamayanlar bizim əlaqələrə həmişə mane olmağa, onu gözdən salmağa çalışırlar. Təkcə "Bakı-Ceyhan" və "Bakı-Ərzurum" kəmərləri ətrafında dünya mətbuatında nə qədər düzgün olmayan mühakimələr, yalanlar yazıldığı hamımıza məlumdur. Bizə qonşu olan ölkələrin elmi araşdırma mərkəzlərində çoxlu tədqiqatlar aparılır. Onlar Azərbaycan-Türkiyə iş birliyinə ləkələr vurmağa çalışırlar. Buna baxmayaraq, bizim əməkdaşlığımız bütün sahələrdə və səviyyələrdə daha da artmalıdır, genişlənməlidir və dərinləşməlidir.

Bu gün Türk sərmayəli şirkətlər Azərbaycanın azad bazar iqtisadiyyatına uyğunlaşmasında birbaşa və dolayısı ilə əldə etdiklərilə, təcrübələriylə önəmli rol oynayırlar. Bu firmalarda 40.000-ə yaxın Azərbaycan vətəndaşı çalışmaqdadır.

Şübhəsiz ki, ticarət və iqtisadi əlaqələrin uzun müddətə sağlam və möhkəm inkişafında Azərbaycanda fəaliyyət göstərən Türk işadamlarının rolu böyükdür. Azərbaycan iqtisadiyyatına etdikləri yatırımlar, öhdəlikləri vergilər və gördükləri iş imkanları ilə yanaşı, işadamları Türkiyə ilə ticarət əlaqələrində də böyük rol oynayırlar.

Hansı statusa malik olmasından asılı olmayaraq, Azərbaycanda fəaliyyət göstərən Türk firmalarının Türkiyədən Azərbaycana gətirdikləri sərmayə miqdarının 1.5 milyard dollardan çox olması təxmin edilir.

1996, 1997 və 1998-ci illərdə ən çox idxal edən ölkə Türkiyə olduğu təqdirdə, 1999, 2000 və 2001-ci illərdə ikinci və üçüncü yeri tutmuşdur.

Digər tərəfdən, ölkələrimiz arasında imzalanan neft və təbii qaz boru xəttinin gerçəkləşdirilməsi barəsində artıq çox böyük yol qət edilmişdir. Bu kəmərlərin həyata keçirilməsi baş tutarsa əlaqələrimiz yeni bir təkan qazanacaq, ölkəmizə fayda vərən xarici ticarətin həcmi tənzimlənəcəkdir. Hər iki ölkə bu layihələrə böyük önəm verir.

Türkiyə ilə Azərbaycan arasında ortaq dil, tarix, mədəniyyət birliyinin olması iqtisadi əlaqələrimizin daha da inkişaf etməsində önəmli amildir. Azərbaycan Respublikasın müstəqillik qazanmasından sonra başlayan xarici ticarətimiz, yatırım edən şirkətlərimizin sayı və yatırım miqdarları hər il artmaqdadır. Ancaq, bugünkü xarici ticarət və yatırımların həcmi hər iki ölkənin

potensiyalından aşağıdır. Bu məqsədlə xarici ticarət həcmini qısa müddət ərzində 500 milyon dollara, gələcək bir-iki il ərzində də 1 milyard dollara qaldırmaq məqsədimiz olmalıdır.

Yeraltı və yerüstü zənginlikləri, keyfiyyətli və ucuz işgücünə malik olan və sərbəst bazar iqtisadiyyatına keçmə əzmində olan Azərbaycan 2000-ci illərdə çox parlaq bir gələcəyə sahib olacaqdır. Türkiyənin və Türk işadamlarının Azərbaycanda yenidənqurmada və onun iqtisadi inkişafında qarşılıqlı mənfəətə əsaslanan faydalı əməkdaşlıq imkanları hər gün artmaqdadır. Birinci Özəlləşdirmə Proqramının başa çatması, İkinci Özəlləşdirmə Proqramının başlaması böyük imkanlı Türk firmalarının Azərbaycana olan marağı günbəgün artırmaqdadır.

Azərbaycanın 1997-ci ilin əvvəlindən başlayaraq ixrac ediləcək məhsullara İxrac Vergisinin tətbiq edilməsini dayandırması, liberal iqtisadiyyata keçid üçün infrastruktur proqramlarını həyata keçirmək məqsədilə çoxlu sayda yeni nizamnamələr həyata keçirməsi, ölkənin əhəmiyyət verdiyi böyük layihələrin müəyyən edilərək illik və uzun müddətli proqramların müəyyən edilməsi, özəlləşdirmə və əcnəbilərin bu özəlləşdirmədə iştirakına dair qanuni nizamnamələrin tamamlanması ölkələrimiz arasındakı əməkdaşlığı önəmli dərəcədə artıracaq.

Azərbaycanın müstəqillik qazanmasından bu günə qədər olan müddətdə siyasi və mədəni sahədə baş verən əhəmiyyətli irəliləyişlərin (iki müstəqil ölkənin və insanlarının bir birinə nə qədər yaxın olduqlarının şahidiyik) ticarət və iqtisadi sahədə istənilən səviyyəyə qalxması istəyirik və bu məqsədüçün çalışırıq. Ölkələrimiz arasında əsas hədəf birlikdə inkişaf etməkdir. Məlum olduğu kimi, 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının Ankaradakı Böyük Elçilik binasının açılışında iştirak edən və Azərbaycan bayrağını öz əlləri ilə sancan ulu öndər Atatürk "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimiz" deyirdi. Biz də ulu öndərimizin yolunu davam etdirəcək və daha çox çalışacağıq. Bildiyimiz kimi coğrafi baxımdan çox əlverişli mövqelərdə yerləşən iki qardaş ölkənin bütün sahələrdə olduğu kimi, iqtisadi və ticarət sahələrin də güclü olması həm region, həm də dünya barışına böyük fayda verəcək.

Türkiyə qardaş Azərbaycana sahib olduğu təcrübə və imkanları təqdim edərək qarşıdakı on il ərzində daha hansı işlərin görülə biləcəyi haqqında mümkün çalışmalar həyata keçirir. Bu gün qeyri-neft sektorunda da Azərbaycana investisiya qoyma imkanları var. Xüsusilə, əkinçilik sahəsində böyük imkanlar mövcuddur. Bundan başqa, təhsil, səhiyyə, turizm, rabitə, nəqliyyat və gömrük sahəsində əlaqələrimiz inkişaf etməkdədir.

Ölkələrimiz arasında bir sıra

ikitərəfli ticarət müqavilələri bağlanmışdır. Onlardan Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi və ticari əlaqələri inkişaf etdirmək məqsədilə 01.11.1991-ci ildə imzalanan "Ticari və İqtisadi Əməkdaşlıq Sazişi"ni, 31.07.1996-cı il tarixdə qüvvəyə minən "İnvestisiyaların Qarşılıqlı Təşviqi və Qorunması haqqında Saziş"i, 01.01.1998-ci ildə qüvvəyə minən "İkiqat Vergi qoymanın ləğv edilməsinə dair Saziş"i göstərmək olar. Bundan başqa Naxçıvan Muxtar Respublikası ilə sərhəd ticarəti, Kiçik və Orta həcmli Sənaye Müəssisələrinin inkişaf etdirilməsi və texniki əməkdaşlıq, gömrük və qarşılıqlı yardım sahəsində və elmi, texniki, sosial, mədəni və iqtisadi sahələrdə əməkdaşlığa dair müxtəlif tarixlərdə protokol və sazişlər imzalanılmış və bu sahədəki boşluqlar doldurulmuşdur.

Türkiyə-Azərbaycan Birgə İqtisadi Komissiyasının ilk iclası 25-26 Fevral 1997-ci ildə baş tutmuşdur.

Bakıda 29-30 Mart 2001-ci ildə BİK-in ikinci mərhələ iclasında aparılmış görüşlərdə;

30-31 yanvar 2002-ci il tarixdə Bakıda Birgə İqtisadi Komissiyaların protokolu imzalanmışdır.

Türkiyə-Azərbaycan işbirliyi 03.11.1991-ci ildə bağlanılan niyyət protokolu əsasında işini aparır.

Azərbaycanda bugünə qədər altı dəfə (1996-97-98-99-2001-2002) Türk İxracı mallarının Yarmarkası təşkil edilmişdir.

Cədvəldən də göründüyü kimi 1994-1998 illər arasındakı müddətdə Azərbaycana ixrac 1997-ci il istisna olmaqla müntəzəm olaraq artmışdır. Ən yüksək artım 1998-ci ildə olmuş və 220.1 milyon dollara çatmışdır. Azərbaycandan edilən idxal isə 1992-ci ildən başlayaraq qeyri-müntəzəm olmuşdur. İdxaldakı ən yüksək artım 1998-ci ildə olmuş və 135.8 milyon dollar həcmində mal idxal edilmişdir.

Ticarət balansı baxımından araşdırsaq 1992-ci il istisna olmaqla, Azərbaycandan idxal ixracatdan az olmuş, ticarət balansı Türkiyənin lehinə olmuşdur. Ticarət fəallığı 1996-cı ildə (177.2 milyon dollara) və 1997-ci ildə (138.5 milyon dollara) ən yüksək səviyyəyə çatmışdır.

Türkiyə Azərbaycanın idxalatında 1996-1997-1998-ci illərdə birinci yeri tutmuşdur.

Ticarətdə 1999 və 2000-ci ildə Türkiyə ikinci yeri tutmuş, 2001-ci ildə isə 3-cü yeri tutmuşdu.

2001-ci ildə Azərbaycana Türkiyənin ixracatının on milyon dollardan çox olduğu məhsullar aşağıdakılardır: şəkər və şəkər məmulatları 10.9 milyon dollar, elektrik enerjisi 14.4 milyon dollar, maşınqayırma, mexaniki cihazlar və hissələr 16.8 milyon dollar, elektrik maşınqayırma cihazları və hissələri 41 milyon dollardır.

2001-ci ildə Türkiyənən ixracatının bir milyon dollardan çox olduğu məhsullar aşağıdakı kimidir:

· Təzə və ya dondurulmuş toyuq əti 3.5 milyon dollar artım 241%

· Kartof, ixracat 1.4 milyon dollar, azalma 13.4%

· Bitki və heyvani yağlar, ixracat 5.4 milyon dollar, artım 92%

· Şəkər və şəkər məmulatları, ixracat10.9 milyon dollar, azalma 3.4%

· Süd və undan hazırlanmış məmulatlar, ixracat 2.4 milyon dollar, artım 44.5%

· Təzələnən çeşidli qida məhsulları, ixracat 1.7 milyon dollar artım 18.7%

· Duz, kükürd, daş, əhəng və sement, ixracat 2.9 milyon dollar, artım 22.6%

· Elektrik enerjisi, ixracat 14.4 milyon dollar, artım 56.4%

· Boyaq maddələri, boyalar və laklar, ixracat 3 milyon dollar, artım 40%

· Sabun və məhsulları, ixracat 3 milyon dollar, artım 42.4%

· Müxtəlif kimyəvi maddələr, ixracat 1.7 milyon dollar, azalma 13.9%

· Kağız karton və kağız məmulatları, ixracat 4.3 milyon dollar, artım 64.9%

· Dəmir və poladdan əşya, ixracat 4.4 milyon dollar, artım 41%

· Maşınqayırma, mekaniki cihazlar və hissələri, ixracat 16.8 milyon dollar, artm 45.4%

· Elektrik maşınqayırma və cihazlar ilə ehtiyyat hissələri, ixracat 41 milyon dollar, artım 3.4%

· Motorlu nəqliyyat vasitələri və ehtiyyat hissələri, ixracat 3.2 milyon dollar, artım 192.6%

· Mebel, ixracat 2.5 milyon dollar, azalma 13.2%

Azərbaycana demək olar bütün mallar ixrac edilir. Bəzi kateqoriyalarda düşmə və qalxma olsa da, xüsusilə elektrik cihazları, maşınqayırma və ehtiyyat hissələrinin ixracında artım vardır.

Azərbaycanın 2001-ci ildə bu mallardan etdiyi idxalın 1/3-i Türki-

Ticarət əlaqələrimiz:

İllər	İxrac	İdxal	Balans	Həcmi
1992	87,1	125,6	(-) 38,5	212,7
1993	63,6	60,5	3,1	124,1
1994	76,2	16,6	59,6	92,8
1995	140,5	26,4	114,1	166,9
1996	216,2	39,0	177.2	255,2
1997	179,7	41,2	138,5	220,9
1998	220,1	135,8	84,3	355,9
1999	142,4	69,0	73,4	211,4
2000	128,4	104,9	23,5	233,3
2001	148,1	67,3	80,8	215,4
2002 7 ay	84	41,6	42,4	125,6

yədən gəlmişdir.

Elektrik enerjisində də ixracat hər il artmaqda davam edir.

Şəkər və şəkər məmulatları idxalında 2001-ci ildə az da olsa aşağı düşmə izlənsə də, sabit olduğunu demək mümkündür.

Azərbaycan ilə ticarətdə nəqliyyat önəmli bir vasitədir. Naxçıvan Muxtar Respublikası istisna olmaqla Azərbaycan ilə ortaq sərhədlərin olmaması nəqliyyat vasitələrinin İran və Gürcüstan ərazisindən keçməsini məcbur edir.

İranın tonnaj məhdudiyyəti tətbiq etməsi, Gürcüstanın yüksək yol vergiləri alması, bundan başqa, Azərbaycanda da bu vergilərin ödənməsi nəqliyyat məsrəflərini artırır.

2001-ci ildə Türkiyənin idxalının ən əsas maddələri - dizel yanacağı 48 milyon dollar, pambıq 4 milyon dollar, şəkər çuğunduru 2 milyon dollar, siqaret 1.9 milyon dollar, polietilen 1.9 milyon dollar, qoyun və inək dəriləri 1.3 milyon dollar, biyan kökü 1.3 milyon dollar, ehtiyat hissələri 1.1 milyon dollar olmuşdur.

Azərbaycanda 808 Türk sərmayəli firma fəaliyyət göstərməktədir. Bunlardan 378-i 100%-li Türk sərmayəli, 371-i Müştərək Müəssisə, 59-u isə Təmsilçilikdir.

Bu təşkilatların 22,8 %-i istehsal, 3,5%-i xidmət, 9,3%-i inşaat, 4,8%-i daşıma, 36,9%-i ticarət, 22,7%-i isə digər fəaliyyət sahələri ilə məşğul olur.

Azərbaycan sərmayəli 97 firma isə Türkiyədə fəaliyyət göstərməkdədir və sərmayələrinin ümumi dəyəri 4.7 milyon dollara yaxındır.

Türkiyədən Azərbaycana gələn sərmayənin 1.5 milyard dollardan çox olduğu təxmin edilir.

Azərbaycanda mövcud olan 2.415 xarici sərmayəli şirkətin 1/3-dən çoxu Türk işadamları (%100 Türk sərmayəli və ya müştərək) tərəfindən yaradılmışdır.

Türkiyə ilə Azərbaycan arasında əkinçilik, təhsil, səhiyyə, ətraf mühit, standartlaşdırma, statistika, rabitə, müdafiə və nəqliyyat kimi sahələrdə əlaqələrimiz artmaqda davam edir.

Qarşılıqlı və ticarət əlaqələrimizin inkişaf etdirilməsində bank işinin böyük əhəmiyyəti var. Azərbaycanda Əkinçilik Bankının ortaqlığı ilə qurulan Azər-Türk Bank bu baxımdan aparıcı olmuş və daha sonra qurulan Baybank, Royalbank, Koçbank, İş Bankı Azərbaycan və Cibank kimi Türk sərmayəli banklar işadamlarının fəaliyyətlərinə böyük kömək etmişdir.

Türk sərmayəli şirkətlərdə 40.000-ə yaxın insan işləyir. Azərbaycandakı qeyri-neft xarici sərmayə yatırımlarında Türkiyə birinci yeri tutur.

Malik olduğu neft ehtiyyatları ilə inkişaf etmiş Qərb ölkələrinin marağını çəkən Azərbaycanın bugünə qədər sözü gedən ehtiyyatları işlətmək məqsədilə yaratdığı iyirmi beynəlxalq konsorsiumun dördündə

TPAO pay sahibi olmuşdur (Azəri-Çırak-Günəşli sahəsində 6.75%, Şahdəniz sahəsində 9%, Kürdaşı Sahəsində 5% və Araz-Alov-Şərq Sahəsində 10% - Offshore). Bundan başqa, iki özəl şirkətin (PET Holding və Atilla Doğan İnş Ltd.) Azərbaycan dövlət neft şirkətilə (SOCAR-la) yaratdıqları Müştərək Müəssisələr (J.V.) quruda (Onshore) neft çıxarırlar (Mişovdağ və Hilli Babazanan sahələri).

Qeyd etdiyimiz kimi Türkiyənin bir çox böyük şirkətləri ölkəmizdə fəaliyyət göstərir. Onların işi bizim şirkətlər və iş adamları üçün örnək və nümunədir. Onlardan biri, bəlkədə birincisi TEKFEN HOLDİNQ-dir. Bu şirkətin Azərbaycanda gördüyü işlər barəsində ətraflı məlumat vermək əlaqələrimizin xeyrinə olar, konkret olaraq ölkəmizdə nələrin edildiyinin şahidi olardaq.

TEKFEN HOLDING A.Ş.

Bu gün Türkiyənin ən böyük konqlomeratlarından biri olan TEKFEN şirkətlər Qrupu 1956-cı ildə təsis edilmiş mühəndis-məsləhətləşmə şirkəti kimi fəaliyyətə başlamışdır. Bütün xidmətlərin təminində və məhsulların istehsalında, eləcə də, ümumi işlərin aparılmasında beynəlxalq keyfiyyət standartlarına davamlı əməl etməsi 50 ilə yaxın müddət ərzində TEKFEN Xoldinqinin ardıcıl inkişafını və stabilliyini təmin etmişdir.

TEKFEN Holding A.Ş.-nin himayəsi altında olan Qrup hazırda, milli və beynəlxalq aləmdə fəaliyyət gostərən çoxsaylı şirkətlərdən və törəmə şirkətlərdən ibarətdir. İdarəetmə məqsədləri ilə bu şirkətlər altı "Qrup" altında birləşir ki, bura "İnşaat şirkətləri Qrupu", "Aqrar-Sənaye Qrupu", "Daşınmaz əmlakın Genişləndirilməsi Qrupu", "Banklar Qrupu", "İnvestisiya və Xüsusi Xidmət şirkətləri Qrupu" və "Beynəlxalq investisiyalar və Ticarət şirkətləri Qrupu" daxildir.

Bu Qruplar müxtəlif layihələrdə, sənaye komplekslərinin, elektrik stansiyalarının və beynəlxalq boru xətti layihələrinin açar təhvili əsasında inşaatında fəaliyyət gostərir. Qrup mühəndislik və layihələndirmə xidmətlərinin göstərilməsi; ağır metal konstruksiyaların və sənaye təyinatlı çənlərin layihələndirilməsi və istehsalı imkanlarına malikdir. Bundan əlavə gübrələrin istehsalı və paylaşdırılmasından tutmuş toxumların hazırlanması və yetişdirilməsinə kimi kənd təsərrüfatının müxtəlif sahələrində, eləcə də, dərin-sulu limanların və azad ticarət zonalarının idarə olunmasında çalışır. Holdinq müxtəlif maliyyə sahələrində xidmət gostərməklə kifayətlənməyib, öz sifarişçilərinin xeyrinə geniş miqyaslı beynəlxalq layihələrin dəstəklənməsində də iştirak edir. Ticarət və yaşayış məntəqələrinin genişləndirilməsi, maliyyə və ticarət fəaliyyətlərinə qlobal şəkildə yardım göstərilməsi sa-

hələrində də fəaliyyət göstərir.

Tekfen Fondu təhsil, sağlamlıq, incəsənət, mədəniyyət və ekologiya sahəsində layihələrin həyata kecirilməsində də çox fəaldır. Burada təhsil proqramlarına xeyli vəsait ayrılır. Hər il Tekfen Fondu orta məktəb və universitet tələbələrinə təqaüd ayırır. Tikinti və təhsil layihələrinin sponsorudur.

İncəsənət və mədəniyyət sahəsində layihələrə dəstək verir.

Tekfen Fondu, Qara Dəniz regionu və onun ətrafında yerləşən 23 dövlətdən olan musiqiçiləri birləşdirən Qaradəniz Filarmonik Orkestrinə sponsorluq edir. Orkestr uğurla bir neca konsert vermişdir. Onlardan ikisi Azərbaycanda baş tutmuşdur. Konsertlərin birincisi 20 fevral 2001-ci il, ikincisi isə 2002-ci il yanvarın 14-də olmuş, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev burada iştirak etmişdir.

Keçən 45 il ərzində Türkiyə və Orta Şərqdə neft sənayesi ilə bağlı bir cox layihəni müvəffəqiyyətlə həyata kecirən TEKFEN, SSRİ-nin dağılmasından sonra fəaliyyətini Xəzər Regionunda müstəqilliyini elan edən Türk Cümhuriyyətlərinə yönəltmişdir. Bu Respublikalarda iş görərkən yerli şirkətlərlə ortaqlıq yaradılması və bunlardan istifadə edilməsi prinsip olaraq qəbul edilmiş və 1996-cı ildə Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə AZFEN, Gürcüstan Beynəlxalq Neft Şirkəti (GİOC) ilə GEOTEK adlı ortaq şirkətlər qurulmuşdur. 1996-cı ildən bəri Azərbaycan və Gürcüstanda öhdəçiliyə götürülən bütün layihələrdə ortaqların payının maksimum olaraq müəyyənləşdirilməsinə çox böyük diqqət göstərilmişdir.

Məlum olduğu kimi, "Əsrin Müqaviləsi" adlandırılan müqavilə Azərbaycan Respublikası ilə içlərində Türkiyə Petrolleri Anonim Ortaqlığının da yer aldığı 11 ortaq şirkətdən ibarət bir konsorsium arasında 1994-cü ildə imzalanmışdır.

"Əsrin Müqaviləsi", Xəzər dənizinin Azərbaycan sektorundakı Azəri - Çiraq - Günəşli neft yataqlarının (AÇG yataqları) ildə 50 milyon ton neft hasil edə bilmə imkanına qaldırılmasını əhatə edir.

Yuxarıda bəhs edilən 11 neft şirkətinin qurduğu konsorsiumda (Azərbycan Beynəlxalq Əməliyyat Şirkəti və yaxud ABƏŞ) ən böyük payçı olan İngiltərənin BP şirkəti Operator vəzifəsini icra edir.

ABƏŞ, AÇG yataqlarından əldə ediləcək maksimum hasilata, illər üçün nəzərdə tutulmuş bir sərmayə qoyuluşu proqramı ilə çatmaqdadır.

Proqram İlkin Neft Layihəsi və Yataqların Tammiqyaslı işlənməsi Layihəsi (FFD) olmaqla, iki mərhələdən ibarətdir. Yataqların Tammiqyasla işlənməsi Layihəsi Faza 1, Faza 2 və Faza 3 olmaqla, 3 Fazada həyata kecirilәcəkdir.

Məlum olduğu kimi, İlkin Neft Layihəsinin sonunda hasilat 7.5 - 10 milyon ton/il (movcud hasilat), Faza

1 başa çatdırıldıqdan sonra 22.5 milyon ton/il, yataqların tammiqyaslı işlənməsi layihələri (Faza 2 və Faza 3) başa çatdırıldıqdan sonra isə 50 milyon ton/il olaraq həyata kecirilәcəkdir.

Xəzər dənizində və onun ətrafında (quruda) hasil edilən neftin iqtisadi dəyərə malik olması dünya bazarlarına çıxarılmasından asılıdır. ABƏŞ boru xət-ləri ilə ixrac edəcəyi neftin ixracatə variantlar hasilat gücü ilə əlaqələndirmiş və İlkin neft layihəsi çərçivəsində edilən hasilat hazırda 11 milyon ton/il hasilat gücünə malik Bakı - Novorossiysk və Bakı - Supsa neft boru xətləri ilə Qara dəniz sahilinə çatdırılır. Göründüyü kimi, bu iki xəttin hasilat gücü Faza-1 sərmayə qoyuluşu proqramı tamamlandıqdan sonra əldə olunacaq 22.5 milyon ton/illik hasilatı daşımaq üçün kifayət deyil və əlavə olaraq ayrı bir xəttə ehtiyac duyulur. Əsrin Müqaviləsində İlkin neft layihəsi üçün qoyulan sərmayə ilə hasil ediləcək nefti daşıyacaq xətt Əsas İxrac Boru Xətti (MEP) adlandırılır. Bu xəttin çəkilməsi başa çatdıqda onun hasilat gücü 50 milyon ton/il olacaq və AÇG yataqlarından hasil ediləcək, bütün neft bu xəttə veriləcəkdir.

ABƏŞ ortaqlarının böyük hissəsinin iştirakı ilə qurulan Əsas İxrac Boru Xətti Şirkəti (MEPCO) xəttin keçəcəyi yeri, əsaslı Mühəndislik və Təfsilatla Mühəndislik ilə bağlı görülən işlər nəticəsində Bakı - Tbilisi - Ceyhan olaraq müəyyənləşdirmiş və layihə ilə bağlı işlər faktiki mərhələ olan inşaat mərhələsinə gəlmişdir.

TEKFEN və onun ortaqları Əsrin Müqaviləsində 6 il ərzində həyata kecirilən inşaat layihələrindən ən böyük paylardan birini almışdır.

Şirkət tərəfindən 1996-cı ildən bu günə qədər aparılan sərmayə qoyuluşu proqramlarından Səngəçal Terminalında Elektrik və Mexaniki işləri, Sənqəçal Terminalında neftin saxlanması üçün 4 ədəd çənin tikilməsi, Bakı - Supsa xam neft boru xəttinin Azərbaycan hissəsinin inşası, Bakı - Supsa xam neft boru xəttinin Gürcüstan hissəsinin inşası, Nasos və Təzyiq Azaltma Stansiyalarının qurulması, Supsa Terminalında Elektrik və Mexaniki işlərin görülməsi, Çıraq 1 Dəniz Platforması Su injeksiyası modulunun düzəldilməsi, montajı layihə və proqramlarını göstərmək olar. Burada işlər artıq başa çatdırılmışdır.

Faza 1 Sərmayə qoyuluşu Proqramı altında yerinə yeritirlməsi davam etdirilən və müqaviləsi imzalanan paketlərdə də TEKFEN müvəffəqiyyətlə iştirak edir.

O, quruda (onshore) Səngəçal Terminalında FFD (sahənin tammiqyaslı işlənməsi) tikililərinin ilkin inşaat işlərini, Sanqaçal Terminalında FFD Tikililərinin əsas inşaat işlərini, Bakı - Tbilisi - Ceyhan Boru Xəttinin Səngəçal Terminalındakı ilkin nasos qurğuları işlərini görməkdədir.

Dənizdə (offshore) isə Azəri

yatağına qoyulacaq Kompressor və Su injeksiyası Platformasının (CWP) üst tərəfinin tikilməsi işlərində iştirak edir.

TEKFEN "Əsrin Müqaviləsi"nin Türkiyə hissəsində Bakı - Tbilisi - Ceyhan xam neft boru xətti Layihəsində Ceyhan Boru Terminalının Quru və Dəniz işləri Paketləri üzərində çalışır.

Bu məşhur Türk şirkəti Əsrin Müqaviləsinə daxil olan neft təsisləri-nin tikintisinə əlavə olaraq, Xəzərin yenə də Azərbaycan sektorundakı Şahdəniz yatağında aparılan qaz kəşfiyyatı və Azərbaycan - Türkiyə hökumətləri arasında imzalanan qaz alınması və satılması razılaşmaları ilə ortaya çıxan Şahdəniz Qaz İxracı Layihəsi çərçivəsində Sanqaçalda inşa ediləcək Qaz İxracı Terminalı və Şahdəniz yatağına yerləşdiriləcək Zondaj və Hasilat Platforması işlərində də qoşulduğu podratçı konsorsium ilə birlikdə çalışacaqdır.

TEKFEN Azərbaycandakı digər layihələrdə -Bakıda Abşeron yarımadasında Qaradağ - Sumqayıt arasında Azəriqaz üçün tikilən Təbii Qaz Boru Xətti və Kompressor Stansiyası Layihəsində, STB-1 Barjının modernləşdirilməsi işlərində də çalışır. Xatırladırıq ki, STB-1 Barjı quruda inşa edilən DQ1 (Qazma və Yaşayış Platforması) və CWP (Kompressor və Su injeksiyası) Platformalarının Xəzər dənizindəki neft çıxartma nöqtələrinə daşınmasında istifadə ediləcəkdir.

Bütün bunlardan əlavə TEKFEN ABƏŞ/BP'yə AZFEN tərəfindən göstərilən texniki baxış və servis xidmətlərinin də birbaşa iştirakçısıdır.

Xatırladırıq ki, bu şirkət Qazaxıstanda daha əvvəl başa çatdırılan layihələrə əlavə olaraq, 2002-ci ilin iyun ayında Xəzər Boru Xətti Konsorsiumunun (CPC) Tengiz - Novorossiysk Boru Xətti Layihəsinin Qazaxıstan sektorunu da müvəffəqiyyətlə tamamlanmasında iştirak etmişdir.

Beləliklə, təkcə TEKFEN-in timsalında Azərbaycanda türk şirkətləri tərəfindən necə də böyük işlərin görülməsinin şahidi oluruq.

Şübhəsiz ki, ticarət və iqtisadi əlaqələrimizin uzun müddətə sağlam və sabit inkişafında Azərbaycanda fəaliyyət göstərən Türk işadamlarının əhəmiyyəti böyükdür. Azərbaycan iqtisadiyyatına etdikləri yatırımlar, ödədikləri vergilər və göstərdikləri iş imkanları ilə gözardı edilməyən fəaliyyətlərilə işadamları Türkiyə ilə ticarət əlaqələrində də böyük rol oynayırlar.

Azərbaycanın iqtisadi müstəqilliyinin güclənməsinə müsbət təsir göstərən və eyni zamanda Türkiyə ilə Azərbaycan arasında iqtisadi körpü vəzifəsini görən nəzərdə tutulan işadamlarımızın qarşısındakı əngəllərin qaldırılması, maliyyə məsələlərinin həll edilməsi və uzun müddətli yatırım qərarlarında təmin edilə biləcəkləri sığorta mexanizminin yaradılması istiqamətində layihələr hazırlanıb tezliklə həyata keçirildiyi təqdirdə, iqtisadi və ticari əlaqələrimiz daha sağlam təməllərə söykənəcək və inkişaf edən əlaqələr hər iki qardaş ölkə xalqının rifahına xidmət edərək regionun sabitliyinə müsbət təsir göstərəcək.

Azərbaycan Respublikasının "İstehlakçı hüquqlarının qorunması haqqında" qanununa əsasən müvafiq sertifikatı (Standart Sertifikatı) olmayan məhsulların satışı və istifadəsi qadağan edilmişdir.

Azərbaycana xarici ölkələrdən malların idxal edilməsi üçün milli sertifikat sənədlərinə uyğun olaraq, malların standart sertifikatı və sınaq protokollarının Azərdövlətstandarta təqdim olunması və bu malların milli sertifikalaşdırma sistemində testlərinin aparılması zəruridir.

Ancaq, idxal edilən mallarda MDB ölkələrinin standart qurumları ilə TSE tərəfindən verilən standart sertifikatları etibarlı qəbul edilir.

TSE ilə Azərdövlətstandard arasında aparılan razılaşmaya əsasən Türkiyədən TSE sənədi ilə gələn mallar digər ölkə mallarına görə üstünlüyə malik olur.

2001-ci ildə Türkiyənin Azərbaycandan idxalı 67.4 milyon dollar, ixracı isə 148.2 milyon dollar olmuşdur. Buna əsasən Türkiyənin xarici ticarətində Azərbaycanın payı 0.3%-dir. Azərbaycanın xarici ticarətində Türkiyənin payı isə 5.8%-dir. (İdxalında 10.4%, ixracında 2.9%)

Bu gün ölkələrimiz arasında mövcud siyasi əlaqələrimiz ən yüksək səviyyədədir. Ancaq, iqtisadi və ticari əlaqələrimiz, əfsuslar olsun ki, siyasi əlaqələrimizlə paralel şəkildə getmir. Qarşılıqlı ticari və iqtisadi əlaqələrimizin qarşısında duran əngəllərin aradan qaldırılmasına dair II KEK Protokolunun imzalanmasının yeni bir başlanğıc olacağını düşünmək, xüsusilə Bakı Ceyhan Neft, Bakı Ərzurum Gaz Boru kə-

Türkiyənin Azərbaycandan 2001-ci ildə idxal etdiyi əsas məhsullar

MƏHSULUN ADI	ABŞ DOLLARI
Yağlı toxum və meyvələr	3.240,300
Tütün məmulatları	1.933,500
Mineral yanacaqlar, mineral yağlar	48.561,800
Üzvi- kimyəvi maddələr	649,400
Plastiklər və plastik məhsullar	1.954,500
Xam dərilər, dərilər və kisəlilər	1.282,300
Ağac və taxta əşya	128,100
Pambıq	4.057,900
Dəmir və polad	317,800
Aluminium və aluminiumdan hazırlanan əşya	974,700
Nüvə reaktorları; qazanlar, maşınlar, mekaniki cihazlar və alətlər	1.468,600

Türkiyənin 2001-ci ildə Azərbaycana ixrac etdiği əsasi məhsullar.

MƏHSULUN ADI	ABŞ DOLLARI
Təzə və dondurulmuş toyuq əti	3.502,000
Süd və süd məhsulları	307.400
Tərəvəzlər və bəzi kök və yumrular	1.593,500
Meyvələr və sərt qabıqlı meyvələr	720.840
Dənli bitkilər	2.461,200
Dəyirman məmulatları	972,560
Şəkər və şəkər məmulatları	10.864,500
Kakao və kakao məhsulları	506,800
Dənli bitkilər, un, şirniyyat məmulatları	2.383,400
Konservləşdirilmiş tərəvəz və meyvələr	559,100
Təzə çeşidli qida məhsulları	1.709,700
Duz, kükürt, torpaq və daşlar, gips, əhəng və sement	2.867,120
Elektrik enerjisi, mineral yanacaqlar,	14.770,600
Üzvi-kimyəvi məhsullar	492,660
Əczaçılıq maddələri	834,800
Boyaq maddələr; preparat boyalar və laklar; məcunlar; mürəkkəblər	2.974,240
Uçucu yağlar və bezinotlər, parfumeriya, kosmetika və ya tualet maddələri	1.154,750
Sabunlar, səthi aktif üzvi maddələr, yuyunma maddələri	3.002,200
Müxtəlif kimyəvi maddələr	1.654,220
Plastiklər və plastik məmulatlar	2.721,830
Kauçuk və kauçuk əşya	702,920
Ağac və ağac əşya, odun kömürü	1.220,810
Kağız və kardon	4.292,040
Pambıq parça və saplar	641,710
Hörülməmiş geyim əşyası və aksesuarı	484,990
Toxumaq üçün əlverişli maddələrdən digər hazır əşya və dəstlər	406.000
Daş, gips, sement və bənzəri maddeler	219,680
Şüşə və şüşədən hazırlanan əşyalar	884,480
Dəmir və ya poladdan hazırlanan əşyalar	4.408,420
Aluminium və aluminiumdan hazırlanan əşyalar	1.302,810
Adi metallardan hazırlanan müxtəlif əşyalar	726,350
Maşınlar, qazanlar, mexaniki cihazlar və alətlər, onların ehtiyyat hissələri	16.785,780
Elektrikli maşın və cihazlar və onların ehtiyyat hissələri	41.017,410
Motorlu maşınlar, traxtorlar, velosipedlər və digər daşıma vasitələri	3.161,900
Optik alət və cihazlar, tibbi və ya cərrahi alət və cihazlar	929,150
Mebellər	2.495,200

mərlərinin həyata keçirilməsi barəsində artıq son razılığa gəlinməsi əlaqələrimizə yeni bir təkan verəcəkdir. Bu səbəbdən də əsas məqsədimiz, ilk mərhələdə xarici ticarət həcmimizi beş yüz milyon dollar səviyyəsinə çatdırmaq, qarşımızdakı bir-iki il ərzində isə bir milyard dollara çatdırmaq olmalıdır.

Azərbaycanın müstəqilliyini əldə etdiyi tarixdən 10 il keçmişdir. Bu müddət ərzində əlaqələrimizin inkişaf etdirilməsinə dair önəmli işlər görülmüşdür. Lakin biz bunları bu gün üçün yetərli hesab etmirik və etməməliyik. Eyni dili danışan, eyni qanı daşıyan və eyni mədəniyyəti paylaşan iki ölkə arasındakı əlaqələrin arzu edilən səviyyəyə qaldırılması üçün ictimai qurum və təşkilatların təmsilçiləri, elm adamları ilə özel sektor təmsilçilərindən ibarət bir komissyanın keçən bu on ilin təhlilini aparması, gələcək on il üçün isə konkret layihələrə əsaslanan uzun müddətli iqtisadi əməkdaşlıq proqramının (bu sahədə görülən işlər davam etdirilir) hazırlaması məqsədəuyğun olacaqdır.

Türkiyədən hər il yüzlərlə işadamı Azərbaycanı ziyaret edir, ticarət və investisiya imkanları axtarırlar. Bugün artıq iki ölkə arasında ticari və iqtisadi sahədə hüquqi baza mövcuddur. Vacib olan məsələ bunları həyata keçirməkdir. Artıq iş adamlarının qarşısındakı maneələr aradan qaldırılır, ədalətli rəqabət şansı verilir. Bütün bunlara görə daha çox iş adamlarının Azərbaycana investisiya qoyacağı, onunla ticarət edəcəyi gözlənilir. Bu gün biz bunun şahidi oluruq. Prezident Heydər Əliyevin 2002-ci ilin oktyabr ayında Türkiyəyə etdiyi ziyarət əsnasında, Türk işadamlarını Azərbaycana dəvət etməsinin nəticəsi olaraq, Sakib Sabançı kimi öndə gedən, məşhur iş adamları axın-axın Azərbaycana gəlməyə başladılar.

Digər tərəfdən, onun aprel ayında yerli, may ayında isə xarici iş adamları ilə Prezidentimizin keçirdiyi görüşlər, özəl sektorun qarşısındakı əngəllərin qaldırılmasına dair avqust və sentyabr aylarında verdiyi Fərmanlar türk iş adamları arasında böyük bir məmnunluq və coşqu ilə qarşılanmışdır.

Məlum olduğu kimi, 18.09.2002 tarixində iki dost və qardaş ölkəni, Azərbaycan ilə Türkiyəni bir-biri ilə polad bir kəmər ilə birləşdirəcək boru kəmərinin təməli, kəmərin keçəcəyi üç ölkənin Prezidentləri tərəfindən Bakının yaxınlığındakı Sangaçal terminalında qoyuldu. Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycan iqtisadi və siyasi baxımdan güclənəcək, daha çox xarici sərmayə cəlb edəcək, dünya iqtisadiyyatına inteqrasiya olunması prosesi sürətlənəcək, əhalinin rifah səviyyəsi yaxşılaşacaq.

Qarşımızdakı iki-üç il içində fəaliyyətə başlayacaq Bakı-Ceyhan Neft boru kəməri, Bakı-Ərzurum Qaz boru kəməri əlaqələrimizə müsbət təsir göstərəcək.

ƏSRİN LAYİHƏLƏRİ

Mən çox bəxtiyaram ki, bu müqaviləni (Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Kəməri ilə xam neftin nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında bağlanan saziş) türk millətinin, türk dünyasının ən böyük siyasi xadimlərindən, şəxsiyyətlərindən biri olan hörmətli Süleyman Dəmirəl imzalamışdır. Qars, Moskva müqavilələri tarixə daxil olduğu kimi bu da tarixə daxil olacaq. Bütün bizim gələcək nəsillər, ... bu sənədi də öz tarixində həmişə araşdıracaq və sənədi imzalayanlara, ...bütün türk qardaşlarına daim təşəkkürlərini bildirəcək.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

BAKI-SUPSA BORU XƏTTİ

BAKI - SUPSA BORU XƏTTİNİN AZƏRBAYCAN SEKTORU, GÜRCÜSTANDAKI NASOS STANSİYALARI, RADİO STANSİYALARI VƏ SUPSA TERMİNALININ TİKİNTİSİ TEKFEN - AZFEN TƏRƏFİNDƏN YERİNƏ YETİRİLMİŞDİR.

BAKI-TBİLİSİ-CEYHAN (BTC) BORU XƏTTİ

BORU XƏTTİNİN BAŞLANĞIC NÖQTƏSİ OLAN SƏNGƏÇAL TERMİNALININ İNŞAATI TEKFEN-AZFEN TƏRƏFİNDƏN, BİTMƏ NÖQTƏSİNDƏKİ CEYHAN TERMİNALININ İNŞAATI İSƏ TEKFEN TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLİR.



SƏNGƏÇAL TERMİNALI

SƏNGƏÇAL TERMİNALININ YUKSƏKDƏN GÖRÜNÜSÜ, FAZALARA VƏ LAYİHƏLƏRƏ GÖRƏ YERLƏŞMƏ PLANI. TEKFEN-AZFEN TƏRƏFİNDƏN HƏYATA KECİRİLİR



BAKI-ƏRZURUM BORU XƏTTİ

BORU XƏTTİNİN BAŞLANĞIC NÖQTƏSİ OLAN SƏNGƏÇAL TERMİNALININ İNŞAASI TEKFEN-AZFEN TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLİR.

MƏDƏNİ ƏLAQƏLƏR

Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir...

Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımi səviyyədə inkişaf etdirilsin...

Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var... Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bilindiyi kimi hal-hazırda Türkiyədə təxminən 3 milyon soydaşlarımız yaşayır. Ölkədə Azərbaycan icmasını təmsil edən təşkilat və dərnəylərdən ən nüfuzlusu Türkiyənin tanınmış ictimai xadimi İ.Doğramaçı tərəfindən yaradılmış "Türkiyə-Azərbaycan dostluq, əməkdaşlıq və həmrəylik Fondu"dur (1996-cı il). Azərbaycan Prezidenti Heydər Əliyevin və Türkiyə Prezidenti S.Dəmirəlin bu ictimai təşkilatın fəxri Sədrləri olmaları diqqətəlayiqdir. Bu təşkilatın tərkibində "Azərbaycan Evi" fəaliyyət göstərir. Burada əsasən mədəniyyət tədbirləri və bədii gecələr keçirilir.

Bu dərnəkdən başqa "İqdır Mədəniyyət Dərnəyi" (sədri T.Atasevər), "Qars-Ardahan-İqdır Dərnəyi" (sədri B.İşgür), "Türkiyə-Azərbaycan Dostluq Dərnəyi" (sədri M.Özdağ) və "İzmir Mədəniyyət Dərnəyi" (sədri Y.Bozer), "Qars kalkındırma kültür vakvı"(Sədr. A.Elçin) kimi ictimai təşkilatlar fəaliyyət göstərirlər. Bunlardan bəzilərinin mətbuat orqanları da var (İ.Doğramaçının fondu tərəfindən "Azərbaycan" adlı aylıq jurnal nəşr olunur).

Bundan başqa, Türkiyədə "Azərbaycan Türkiyə dostluq Klubu" (Sədr istefaya çıxmış general M.Özdaq) fəaliyyət göstərir. Klub Azərbaycanın indiki hökumətinin yeritdiyi siyasi kursu dəstəkləyir, lakin onun əsas məqsədi - Azərbaycan xalqı ilə dostluqdur.

Türkiyədəki Azərbaycan diasporu əsasən, iki mühacirət dalğasına əsaslanır. Onlardan birincisinə aid olanlar 1920-ci ildə Azərbaycan Demokratik Respublikası işğal olunduqdan sonra, Türkiyəyə köçüb getmiş insanlardır. İkincisi isə, ikinci dünya müharibəsi zamanı və müharibədən sonrakı dövrlərdə (Almaniyada əsir olduqları zaman), Stalinin həbs düşərgələrindəki represiyalardan qorxaraq başqa ölkələrdən Türkiyəyə köçən və ya Türkiyədə qalan insanlardır. Onlar mühacirətin böyük hissəsini təşkil etmişdilər.

Yaxın zamanlara, xüsusilə 1994-cü ilə qədər, Türkiyədə yerləşmiş Azərbaycan diasporu, siyasiləşmiş "Azərbaycan Mədəniyyət Dərnəyi" (1949-cu ilin fevralında yaradılmışdır) adı altında təşkilatlanmışdı. Onlar hələ Sovetlər Birliyi dönəmində, əsasən keçmiş müsavatçılardan təşkil olunmuşdular. Bu şəxslər öz imkanları daxilində respublikamızın suvereniteti və müstəqilliyi uğrunda siyasi təbliğat aparırdılar. Cəmiyyət, bir o qədər də yaxşı tanınmayan "Azərbaycan" (ayda 2 dəfə çıxırdı) adlı jurnal çap etdirirdi. Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, xüsusi ilə AXC hökumətinin idarəçiliyi dövründə, cəmiyyətin rəhbərliyi Elçibəy rejimində fəal iştirak edirdi. Cəmiyyət "Yeni Musavat" partiyası ilə sıx əlaqələr yaradırdı, çünki onu M.Ə.Rəsul-zadənin rəhbərliyi altında 1918-ci ildə yaradılan Musavat partiyasının varisi hesab edirdi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra, cəmiyyət hazırkı hakimiyyətə münasibətdə mənfi mövqedə olaraq, yenə də Moskvanın diktəsi ilə Azərbaycanın idarə olunmasını qeyd edirdi. Müsavatla bu təşkilatın sıx əlaqələrinin olmasını AXC hökumətinin tanınmış və Türkiyəyə getmiş keçmiş funksionerləri təsdiq edirdilər. Bu təşkilatın İzmir, Antaliya, Sivas və Sok şəhərlərində filialları var.

Lakin, cəmiyyətin üzvləri ilə yanaşı, Türkiyədə yaşayan Azərbaycanın ziyalı nümayəndələrinin böyük hissəsində zaman keçdikcə, Bakının həqiqi vəziyyəti haqqında xüsusi fikir yaranmışdır. Bunun nəticəsi olaraq, professor Y.Daşdelenin Sədirliyi altında "Türkiyədə Azərbaycan lobbisi" adlı bir təşkilat yaranmışdır. Lobbiyə 72 üzvdən ibarət komitə rəhbərlik edir. Bu təşkilatı Azərbaycan diasporu dəstəkləyir. Ancaq onu da qeyd etmək lazımdır ki, xalqlarımız bir-birinə o qədər yaxındırlar ki və məqsədləri o qədər birdir ki, nə bizim Türkiyədəki diasporumuza, nə də türklərin Azərbaycandakı diasporlarına bir ehtiyacları var. Qəlbdən gələn yaxınlıq və qardaşlıq bütün sahələrdiki əlaqələrimizi, o cümlədən mədəni-humanitar sahələrdəki əməkdaşlığımızı zəruri edir.

Bu baxımdan hər iki ölkə arasındakı mədəni - humanitar əlaqələr də daim inkişaf etməkdədir.

Bu sahədə ən çox Təhsil, Mədəniyyət, Xarici və Daxili İşlər nazirliklərinin əlaqəli orqanları, YÖQ (Yüksək Öyrətim Qurumu), TÜRKSOY, TRT (Türkiyə Radio Televiziya Qurumu), DİB (Diyanət İşləri Başkanlığı), BYEGM (Mətbuat, Nəşr İnformasiya Baş Müdürlüyü), AMDTYQ (Atatürk Mədəni, Dil və Tarix Yüksək Quru-

mu) kimi təşkilatların və TÜDEV (Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və İşbirliyi Vəqfi), TKAE (Türk Mədəniyyətinin Araşdırma İnstitutu), TDAV (Türk Dünyası Araşdırma Vəqfi) kimi özəl təşkilatlar fəaliyyət göstərirlər.

Türkiyə ilə Azərbaycan arasındakı tələbə mübadiləsi, Televiziya və Radio yayınları, əlifba birliyi kimi önəmli əlaqələrdən daha vaciblisi, hər iki ölkənin mədəni siyasətlərindəki hədəf birliyi və milli mədəniyyəti birgə inkişaf etdirmək məqsədidir. Belə ki, mədəniyyət ayrıca bir amil olmaqla yanaşı iqtisadi, siyasi, hərbi və buna oxşar digər siyasətləri müəyyən edən bir amildir.

Artıq mədəniyyət sahəsində ölkələrimiz arasında fəal iş gedir, bir çox alimlərimiz bu sahədə araşdırmalar aparmış və aparmaqdadırlar.

Bu araşdırmaların bir qismi mədəniyyət siyasəti ilə əlaqədardır. Bu sahədə Azərbaycan və Türkiyənin ali təhsil ocaqlarında, Universitetlərində görülməkdə olan diplom çalışmalarının sayı sürətlə artmaqdadır.

Şübhəsiz ki, Türkiyə ilə Azərbaycanın mədəni əlaqələri sadəcə qonşu iki ölkə olmaqla məhdudlaşmır. Bir millət iki dövlət reallığı Türkiyə-Azərbaycan münasibətlərində mədəni təmasların daha da intensivləşdirilməsini zəruri etməkdədir. Mədəni əlaqələrin intensivləşdirilməsinin zəruri edən başqa bir həqiqət isə mədəni qloballaşdırmadır. Qloballaşdırmanın gücü qarşısında dünyanın bir çox yerlərində bölgə mədəniyyətləri ortaq faydalarını gücləndirirlər. Soydaş və qohum mədəniyyətlərə gəlincə isə, onlar arasındakı həmrəyliyin əhəmiyyəti də artmaqdadır. Bu baxımdan, Qafqaz və türk xalqlarının mədəniyyətlərinin əsl ünsürlərindən biri olan Azərbaycan Türk Mədəniyyəti Orta Şərqin eyni mədəni genlərini daşıyan bir qisim ölkələrlə yanaşı, Türkiyə ilə birlikdə ortaq mədəni sahə yaratmışdır. Uzun tarixi prosesin nəticəsi olan bu mədəniyyət daim diqqət mərkəzindədir və elə əlaqələrimiz də həlledici rol oynamaqdadır.

Hər kəs bu həqiqəti dərk edir ki, regionda siyasi sərhədləri aşan bir mədəni coğrafiya mövcuddur.

Türkiyə ilə Azərbaycanın mədəni əlaqələrinin mərkəzində qardaşlığımız və strateji müttəfiqliyimiz durur.

Artıq alimlərimiz mədəni irsimizi öyrənmək üçün araşdırmalar aparırlar. Tez-tez hər iki ölkədə konqreslər, simpoziumlar, festivallar, sərgilər keçirilir, kitablar çap olunur. Mətbuatda görülən işlər barəsində geniş yazılar gedir. Azərbaycan və türk xalq mədəniyyətinə dair geniş verlişlər hazırlamaqdadır.

Bilindiyi kimi Azərbaycan TÜRKSOY-un yaradıcı üzvüdür. Bu təşkilatın məqsədi dili türkcə olan ölkələr arasında qarşılıqlı dostluq əlaqələri quraraq ortaq türk tarixi mirasını və bütün mədəni dəyərləri araşdıraraq, ortaya çıxarmaqdır.

Türkiyədə artıq türk dünyasına dair 10-12 kitab nəşr edilmişdir ki,

onlardan bəziləri Azərbaycanı da əhatə etməkdədir. Əldə edilən məlumatları və nəticələri yüksək mədəniyyət qurumları və geniş yayılmış təhsil vasitələri ilə təkrar xalqa çatdırmaq, siyasi sərhədləri aşa bilmək üçün milli mədəniyyətin tanınmasında televiziya vasitələrindən geniş istifadə etmək sahəsində də geniş iş aparılır.

Milli təhsil sahəsində də çalışmalar durmadan getməkdədir. Azərbaycanla Türkiyə arasında milli təhsil sahəsindəki ən önəmli çalışma "Böyük Öyrənci Layihəsi" dir. Təkcə 1998-ci il avqust ayından etibarən Azərbaycandan Türkiyəyə gələn ümumi tələbələrin sayı 2570-dir. Bu tələbələrdən 1101-i Türkiyədən təqaüd almışdır. İki qardaş ölkə arasında əldə edilən razılaşmanın nəticəsində Türkiyənin Azərbaycana göstərdiyi təhsil və öyrətim yardımı bu miqdardan daha artıqdır.

Azərbaycandan Türkiyəyə gələn tələbələrin 21,1%-i TÖMER öyrətimində, 8,3%-i ali diplom öyrətimində, 21,9%-i ali diplom proqramında, 67,7%-i diplom proqramında təhsil almaqdadır. Bunalardan 86,5%-i TÖMER-in dil öyrətimini Türkiyədə, 8,3%-i isə öz ölkələrində almaq istədiklərini bildirmişlər. Tələbələrin 38,5%-i təhsil aldıqları proqramdan məzun olduqdan sonra ölkəsinə dönməyi, 5,2%-i Türkiyədə qalmağı, 6,2%-i xaricdə təhsilini davam etdirməyi planlaşdırdıqlarını bildirmiş və 21,9%-i bu sualı cavabsız qoymuşdur.

Tələbələrin 50%-i Böyük Öyrənci Layihəsi haqqında müsbət, 16,7%-i mənfi münasibət bildirmiş, 32,2%-i sualı cavablamamış, 1,1%-i öz fikrini bildirməmişdir.

Tələbələrin 71,9%-i təqaüdlərin az olduğunu bildirmişdir. 1997-1998 təhsil ilində Türkiyə Azərbaycana 12-si tələbələrə aid olmaqla ümumi 210 ali təhsil təqaüdü ayırmış, Azərbaycan bu təqaüdlərdən 178-ni istifadə etmişdir.

Türkiyədə təhsil alan Azərbaycan tələbələri "Böyük gələcək" mədəni-maarifçilik (jurnalın redaktoru E.Zeynalovdur, və bu nəşriyyat "Azərbaycan-Türkiyə dostluq Klubu" tərəfindən maliyyələşdirilir, klubun Sədri istefaya çıxmış general M.Özdəkdir) və "Azərbaycanın səsi" (jurnalın redaktoru S.Verdizadədir, jurnal Azərbaycanla iqtisadi-ticarət əlaqələrinə malik olan "Gül-Bayram" ticarət kompaniyası tərəfindən maliyyələşdirilir, kompaniyanın Sədri Gül Bayramdır) adlı jurnal nəşr etdirirlər.

Türkiyə ilə Azərbaycan arasındakı milli təhsil sahəsində əməkdaşlıq durmadan artır. Lakin diplomlar arasındakı bərabərsizlik və məzunların təyinatı hələ də problem yaratmaqdadır.

Atatürk Mədəniyyət, Dil və Tarix Qurumu ilə əlaqədar olan Türk Tarix Qurumu öz işində Azərbaycana, Qafqaza xüsusi diqqət verir. XII Türk Tarix Konqresinin işində Azərbaycan alimləri də iştirak etmiş, bu konqresin işinə aid kitablarda ölkəmiz haqqında geniş məlumatlar get-

mişdir. Türk Dil Qurumunun Türk Dünyası ilə əlaqədar hazırladığı 37 kitabın hazırlanmasında Azərbaycan da iştirak etmişdir. Ayrıca TDQ və TİKA həmrəyliyi obyekti olan "Müqayisəli türk ləhcələri lüğəti və türk ləhcələrinin müqayisəli qrammatikalarını hazırlama lyihəsi"ndə Azərbaycanın elm adamları yaxından iştirak etmişlər və bu layihə Azərbaycan türkcəsini də əhatə edir.

Atatürk Mədəniyyət Mərkəzinin qurduğu Araşdırma Mərkəzləri arasında Naxçıvan Dövlət Universitetinin daxilində olan Naxçıvan Atatürk Araşdırma Mərkəzi də vardır.

Türkiyə Cümhuriyyətinin yaradıcısı olan böyük Atatürkün adına verilən «Beynəlxalq Atatürk sülh mükafatı»nın 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə verilməsi və 9 mart 2001-ci ildə Azərbaycanın Prezidenti cənab Heydər Əliyevin, Türk Dünyasının böyük öndərinin adını daşıyan Azərbaycan Atatürk Mərkəzinin açılması barədə fərman verməsi, bu mərkəzin fəxri başqanının özü olduğunu bildirməsi və lazımi çalışmaların qısa müddətdə tamamlanması tapşırığını verməsi əlaqələrimizin durmadan inkişafının canlı təcəssümüdür.

Əlbəttə, yuxarıda adları çəkilən təşkilatların fəaliyyətlərinin qısa müddət ərzində nəticə verməsi mümkün deyil. Bu qurumlar bir çox sahələrdə, o cümlədən dil (əlifba, lüğət və qrammatika), mədəniyyət (səhnə əsərləri, filmlər, ədəbiyyat və dastanlar), tarix (ortaq tarix perspektivi) sahələrində böyük addımlar atılmışdır. 10 illik müddət ərzində çox işlər görülmüşdür.

Türkiyənin Diyanət İşləri Nazirliyi ölkəmizdə 2001-ci ildə 4 ədəd məscid tikdirmiş, 2 məscid təmir etdirmiş, tez-tez dəyişən çoxlu sayda din xadimləri ölkədə xidmət göstərmişdir. Azərbaycanda 1992-1993 tədris ilində ilahiyyat fakültəsi açılmışdır. Fakültənin tələbələrinin sayı 2001-ci ildə 280 olmuş və ilk məzunlar 1996-1997-ci tədris ilində buraxılmışdır. Fakültənin əsasında Bakı Türk Litseyi açılmışdır. 2001-ci ilə qədər Türkiyə Azərbaycana həccə getmək üçün böyük miqdarda yerlər ayrılmış və 205.000 ədəd Qurani-Kərim və digər dini nəşrlər göndərmişdir. Türkiyənin maliyyələşdirdiyi və təşkil etdiyi Avrasiya İslam Şurası və digər simpoziumlara Azərbaycandan da məruzəçilər dəvət edilmişdir.

YÖK (Yüksək Öyrətim Qurulu) müxtəlif Universitetlərdə açdığı araşdırma mərkəzlərində «Milliyət davası siyasi bir mücadələ söhbəti olmadan öncə, şüurlu bir ideal məsələsidir. Şüurlu ideal demək, müsbət elmə, elmi üsullara söykənmiş bir hədəf və niyyət deməkdir», şəklində Atatürkün prinsipi əsas kimi götürülmüşdür.

Radio və Televiziya Yayın fəaliyyətləri, Avrasiya kanala ilə başlamışdır. Bu fəaliyyəti Türkiyənin rəsmi və özəl kanalları davam etdirilmiş, sonralar Azərbaycanın AzTV 1

kanalı da Türkiyədən verilişlər verməyə başladıqdan sonra mədəni qarşılıqlı əməkdaşlıq genişlənmişdir.

TÖMER (Türkcə Öyrətim Mərkəzi) Türkiyədə universitetlər və Türkiyə xaricində Böyükelçiliklər istiqamətində fəaliyyət göstərən bir təşkilat olub Azərbaycanda da çalışmaqdadır. Azərbaycanda latın əlifbasına keçildikdən sonra Azərbaycan-Türkiyə münasibətləri daha da genişlənmişdir.

TİKA (Türk Dövlətləri və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və İşbirliyi Vəqfi), bu təşkilat 2001-ci ildə özünün 9-cu qurultayını keçirmişdir. Təşkilatın komitələri arasında mədəniyyət, təhsil və rabitə komitələri də fəaliyyət göstərməkdədir və Azərbaycan daima ən yüksək səviyyədə bu təşkilatın toplantılarında iştirak etmişdir.

Qardaş Ədəbiyyatlar, Bilge, Bilig, Yesevi, Türk Dünyası kimi nəşriyyatlar Türkiyə ilə Azərbaycan arasında mədəni körpü qurmağa böyük yardım göstərirlər. Çağdaş Türkiyə və onun digər ölçüləri sadəcə din və dillə məhdudlaşmır. Hər iki ölkənin müxtəlif demokratik kütləvi təşkilatları, o cümlədən həmkarlar ittifaqları, ixtisas üzrə təşkilatlar, idman klubları və sair təşkilatlar mədəni inteqrasiyaya öz köməkliyini göstərir.

Mədəni əlaqələrimizə nəzər salarkən, ən başlıcası onu qeyd eləmək lazımdır ki, Türkiyə-Azərbaycan mədəni əlaqələri təkcə dövlətlərimiz arasında deyil, insanlarımız arasında da inkişaf etməkdə və genişlənməkdədir.Bu artıq qabağında heç kəsin dayana bilməyəcəyi bir axına çevrilmişdir.

Mədəni əlaqələrimizin inkişafında 1992-ci ilin iyun ayında İstanbul şəhərində 6 ölkənin mədəniyyət nazirləri tərəfindən bünövrəsi qoyulan Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası (TÜRKSOY) mühüm rol oynayır.

1992-ci ilin dekabrında Bakı şəhərində bu təşkilata TÜRKSOY adı verilmişdir.

TÜRKSOY-un Baş Direktorluğu 1993-cü ilin fevral ayından Ankarada fəaliyyət göstərir.

TÜRKSOY-un Baş Direktoru Azərbaycan Respublikasının Mədəniyyət naziri Polad Bülbüloğludur.

TÜRKSOY-un rəsmi dili Anadolu türkcəsidir.

1993-cü ilin 12 iyulda Almata şəhərində Azərbaycan, Qazaxıstan, Qırığıstan, Özbəkistan, Türkmənistan və Türkiyə tərəfindən TÜRKSOY-un yaranması haqqında Sazişi imzalanmışdır.

Türkiyə Respublikasının Parlamenti və Sazişə imza atan digər türkdilli dövlətlər TÜRKSOY-u rəsmi olaraq tanıdıqlarını elan etdilər.

Sonralar Tatarıstan, Başqırdıstan, Şimali Kipr Türk Respublikası, Tuva və Xakasiya Daimi Şuraya daxil olmuşdur.

Beləliklə, günü-gündən mədəni əlaqələrimiz də inkişaf etməkdə və genişlənməkdədir.

TARİXİ-SİYASİ XRONİKA

Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Dəfələrlə demişik və bu gün də qeyd edə bilərəm ki, hətta biz bir kökdən gələn xalqlarıq.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

1991

8 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Muxtar Respublikaya gəlmiş Türkiyənin Mərmərə Eyitim və Kültür Vəqfinin Azərbaycandakı təmsilçisi Hilmi Öneyi və "Zaman" qəzetinin Azərbaycan üzrə müxbiri Yılmaz Poladı qəbul etmişdir. Heydər Əliyev görüşdən sonra "Zaman" qəzetinə müsahibə vermişdir.

12 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvanı elektrik enerjisi ilə təchiz etmə sahəsində müqavilə öhdəliklərini yerinə yetirmək üçün Naxçıvan şəhərinə gəlmiş bir qrup türk mütəxəssisini - Anadolu Mühəndislik Aksioner Şirkətinin (Türkiyə) və Stanver Korporasiyasının (Panama və İsveçrə) nümayəndələri Mete Bəke, Bülban Hərsoy, Skandar Maləki, Okan Tapan və Seyyar Barancılı qəbul etmişdir.

Onlar Naxçıvanda hər biri 15 meqavatt gücündə Almaniyada istehsal edilmiş 7 dizel stansiyası quraşdırılacağından və Ağrı şəhərindən Sədərəyədək yüksək gərginlikli elektrik xətti çəkiləcəyindən söhbət açmışlar. Mütəxəssislər bildirmişlər ki, 1992-ci ilin may ayında dizel stansiyalarını qurub istifadəyə verəcəklər.

26 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının növbəti iclası olmuş, sessiyada Türkiyədən və İran İslam Respublikasından gəlmiş qonaqlar iştirak etmişlər. İclasa sədrlik edən Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev bütün millət vəkilləri adından qonaqları salamlamış və bildirmişdir ki, onların Ali Məclisin

sessiyasında iştirak etməsi Türkiyə və İranla əlaqələrimizin genişləndirilməsinə kömək edəcəkdir.

29 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Muxtar Respublikanın Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.

1 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvanda ilk türk litseyinin açılması və 1992-1993-cü tədris ilində 100 nəfər naxçıvanlı gəncin Türkiyəyə ali təhsil almaq üçün göndərilməsi barədə Naxçıvan Muxtar Respublikası Xalq Təhsili Nazirliyi və Türkiyənin "Zaman" qəzeti arasında müqaviləni imzalamışdır.

9 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Araz çayı üzərində salınmış müvəqqəti körpü vasitəsilə Türkiyənin Qızıl Ay Cəmiyyətinin xətti ilə Muxtar Respublikaya 126 ton ərzaq gətirmiş Qars vilayəti valisinin vəkili İsmet Bahadırların başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Heydər Əliyev Türkiyə nümayəndə heyəti ilə birlikdə gəlmiş müxbirlərin suallarına ətraflı cavablar və Türkiyə televiziyası üçün müsahibə vermişdir.

13 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvana gəlmiş Türkiyənin "Milliyət" və "Hürriyət" qəzetlərinin müxbirləri və digər xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

15 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin nəqliyyat nazirliyinin dəmiryol, liman və aeroport tikintisi üzrə departamentinin Baş direktoru Aytekin Akagünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

18 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin Konya şəhərindən ərzaq dolu ilk yardım karvanı ilə Naxçıvana gəlmiş Konya şəhər ziyalılarının nümayəndələrini qəbul etmişdir.

20 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Qars əski millət vəkili Sabri Aras, iş adamları Sönməz Karadaş və Zəfər Karadaşı qəbul etmişdir.

29 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin İqdır şəhə-

ri əhalisinin və valiliyinin göndərdikləri 19 yük maşınından ibarət ərzaq yardımını gətirmiş İqdır bələdiyyə rəisi Əli Ağrının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

16 dekabr - Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında tarixi qərar qəbul etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarında deyilirdi:

1. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.

2. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.

3. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.

4. Akad. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan EA Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, xalq təhsili nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününə həsr olunmuş elmi konfrans keçirsinlər.

5. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və onların ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

Bu qərarın dünya Azərbaycan türklərinə çatdırılması təmin edilsin.

1992

8 yanvar - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvana qardaş payı gətirmiş Türkiyənin "Firudin Dinkər Kifayət" tikinti, turizm, sənaye və ticarət şirkətinin sahibi Firudin Ayrımı və Türkiyənin "Milliyət" qəzetinin müxbirini qəbul etmişdir.

19 yanvar - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan - Türkiyə gömrükxanasının istifadəyə verilməsi məsələlərini müzakirə etmək məqsədilə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə Muxtar Respublikaya gəlmiş nümayəndə heyətini qəbul etmişdir.

30 yanvar - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin "Şahar Groub" daxili və xarici ticarət şirkəti idarə heyətinin sədri Zekai Savaşları qəbul etmişdir.

3 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev fevral ayının 1-də Türkiyədə baş vermiş qar uçqunu nəticəsində insan tələfatı ilə əlaqədar Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özala telefonla zəng etmiş, Naxçıvan parlamenti, Muxtar Respublika əhalisi adından Turqut Özal cənablarına, bütün türk xalqına, faciədə həlak olanların ailələrinə başsağlığı vermişdir. Elə həmin gün, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəl cənablarına rəsmi başsağlığı teleqramları göndərmişdir.

4 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə telefon söhbəti olmuşdur. Ali Məclisin Sədri Heydər Əliyev bir daha baş vermiş fəlakətlə əlaqədar qardaş türk xalqına başsağlığı vermiş, naxçıvanlıların mərhumların əzizlərinin kədərinə şərik olduğunu bildirmişdir.

6 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvana ərzaq yardımı gətirmiş Türkiyənin "Madsan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etmişdir.

5 mart - Araz çayı üzərindəki körpü vasitəsilə 97 nəfər Azərbaycan vətəndaşı Türkiyə Cümhuriyyətindən Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Bakı şəhərinin və Sabirabad rayonunun sakinlərindən ibarət olan bu dəstə fevral ayında Türkiyə Cümhuriyyətinə turist səfərinə yola düşmüşdü. Batumdakı gömrükxanadan Türkiyəyə keçən turistlərimiz Gürcüstan ərazisində talan və qarətlərə məruz qalmış, səfərdə böyük çətinliklərlə üzləşmişlər. Bu səbəbdən də yenidən Gürcüstanın ərazisi ilə vətənə qayıtmaq istəməmişlər.

Vəziyyətdən xəbər tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə telefonla əlaqə saxlamış, Azərbaycan vətəndaşlarının Sədərəklə Aralıq arasındakı körpüdən Naxçıvan Muxtar Respublikasına yola salınmasını xahiş etmişdir.

Ali Məclisin Sədri Heydər Əliyev qeyd etmişdir ki, Muxtar Respublika rəhbərliyi harada olursa-olsun çətinliyə düşmüş həmvətənlərinə bacardıqları köməyi göstərməyi özlərinə vətən və türkçülük borcu bilirlər. Heydər Əliyev demişdir: **"Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxandan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk ilam dünyasına bir qapıdır".**

22 mart - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin xüsusi dəvəti ilə Türkiyəyə rəmsi səfərə yola düşmüşdür.

Ankarada olarkən Heydər Əliyev Türkiyə Cümhuriyyətinin ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan Məmməd Əmin Rəsulzadənin qəbirlərinə əklillər qoymuşdur.

23 mart - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal və Baş naziri Süleyman Dəmirəl ilə təkbətək görüşmüşdür.

Heydər Əliyevlə Süleyman Dəmirəl arasında söhbət və danışıqlar zamanı Türkiyə tərəfindən Baş nazirin müavini Ərdal İnönü, Xarici İşlər naziri Hikmət Çətin, Milli Müdafiə naziri Nevzat Ayaz, Daxili İşlər naziri İsmət Sezgin, Kənd Təsərrüfatı naziri Nəcməddin Cevheri, dövlət nazirləri Cavit Çağlar, Əkrem Ceyhun, Ömər Barutçu, Türkiyə Böyük Millət Məclisinin deputatı Münif İslamoğlu iştirak etmişlər.

Həmin gün Heydər Əliyev Süleyman Dəmirəlin xüsusi təyyarəsi ilə Türkiyənin Mədəniyyət naziri Namiq Kamal Zeybək və "Madsan" şirkətinin başçısı İbrahim Aydının müşaiyəti ilə İstanbula yola düşmüşdür. İstanbul hava limanında Heydər Əliyevi şəhərin valisi Kozakçıoğlu, Azərbaycan-Türkiyə mədəniyyət cəmiyyətinin sədri Nihad Çətinqaya, Rusiyanın İstanbuldakı konsulu Vəhdət Sultanzadə qarşılamışlar. Sonra Heydər Əliyevin Azərbaycan diasporunun tanınmış üzvləri, jurnalistlər və KİV nümayəndələri ilə "Rəşad Paşa" mehmanxanasında görüşü olmuşdur.

24 mart - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, o cümlədən Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolunu imzalamışdır. Türkiyə tərəfindən Əməkdaşlıq Protokoluna Baş nazir Süleyman Dəmirəl imza atmışdır.

İmzalanma mərasimində Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl və Heydər Əliyev nitqlə çıxış etmişlər.

"Hörmətli Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə mənim Türkiyədə olmağım bütün naxçıvanlılar üçün böyük bir hədiyyədir, böyük bir mükafatdır. Və buna əsasən, bugün burada belə bir müqavilənin imzalanması, bir daha qeyd edirəm, Naxçıvanın həyatında tarixi bir hadisədir. Bunu biz tarixi sənəd kimi qiymətləndiririk."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Türkiyəyə səfər zamanı Heydər Əliyev həmçinin Qars, İqdır şəhərlərinin rəhbərləri ilə görüşüb danışıqlar aparmış, həmin şəhərlərin tarixi abidələri, görməli yerləri ilə tanış olmuşdur.

25 mart - Türkiyə dövlət və hökumət rəhbərlərinin xüsusi dəvəti ilə qardaş ölkədə səfərdə olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Süleyman Dəmirəlin şəxsi təyyarəsi ilə Naxçıvana qayıtmışdır.

4 aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinə rəsmi səfəri zamanı 24 mart 1992-ci il tarixdə imzalanan Ankara Əməkdaşlıq Protokolu haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarını imzalamışdır.

9 aprel - Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası və Türkiyə Cümhuriyyəti arasında imzalanmış Protokola əsasən telekommunikasiya sahəsində Muxtar Respublikanın zəruri ehtiyaclarını nəzərdə tutan xüsusi proqramın hazırlanması məqsədilə Naxçıvana gəlmiş Türkiyənin "Teletaş" şirkətinin xarici ölkələrdə ticarət şöbəsinin müdiri Mücit Emelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq Protokolu əsasında Naxçıvana gəlmiş Qars vilayətinin valisi Sıtkı Aslan və Türkiyə elektrik şirkətinin eksperti Tevfik Karasunu qəbul etmişdir.

27 aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış Əməkdaşlıq Protokoluna əsasən aprelin 21-dən 27-dək Naxçıvanda olmuş Türkiyə Kənd Təsərrüfatı nazirliyinin məsul işçiləri - nazirliyin Mexanizasiya İdarəsinin rəisi Kadir Demirci, Bitkicilik İdarəsinin rəisi Fahri Harmanşah və heyvandarlıq idarəsinin rəisi doktor Erol Demirteldən ibarət nümayəndə heyətini qəbul etmişdir.

2 may - Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyənin Baş naziri Süleyman Dəmirəl Bakıdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefonla zəng etmişdir. Cənab Süleyman Dəmirəl

möhtərəm Heydər Əliyevin dəvətinə əsasən Türkiyə ilə Azərbaycan arasındakı körpünün açılışı zamanı Naxçıvana gələcəyini bildirmişdir.

5 may - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev daha öncə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə telefon danışığı zamanı ABŞ-dan gətirilmiş 5 təyyarə ərzaq malları və tibbi ləvazimatın Qızıl ay Cəmiyyəti vasitəsi ilə Naxçıvan Muxtar Respublikası əhalisinə yardım kimi göndərilməsi barədə əldə olunmuş razılığa əsasən aprel ayının 20-dən may ayanın 4-dək həmin yardımın Naxçıvana gətirilməsi ilə məşğul olan Türkiyə Cümhuriyyəti Qızıl ay Cəmiyyətinin Naxçıvan üzrə yardım komitəsinin sədri Şafak Lotarı qəbul etmişdir.

18 may - Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikasının - Sədərək rayonunun ərazisinə hərbi təcavüzün başlanması ilə əlaqədar Türkiyənin Baş naziri Süleyman Dəmirəl Budapeştdən, Türkiyənin Xarici İşlər Naziri Hikmət Çətin Parisdən və Türkiyənin Baş nazirinin birinci müavini Ərdal İnönü isə Ankaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefon etmiş və son vəziyyət barədə məlumat almışlar.

- Həmin gün axşam Ankaraya qayıdan Türkiyənin Baş naziri Süleyman Dəmirəl saat 23.30-da Nazirlər Kabinetinin iclasını çağıraraq Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat qəbul etmişdir.

18 may - Naxçıvan Muxtar Respublikası Ali Məclisin Rəyasət Heyəti Türkiyə Cümhuriyyətinə nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdir. Qərarda deyilir:

1.Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il Ankara Əməkdaşlıq Protokolunun həyata keçirilməsi işlərini təşkil etmək üçün Türkiyə Cümhuriyyətinə aşağıdakı tərkibdə nümayəndə heyəti göndərilsin:

Q.Məmmədov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, nümayəndə heyətinin başçısı), Ş.Xanbabayev (Naxçıvan Muxtar Respublikası Dövlət Plan Komissiyasının sədri), R.İbadov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin xarici ölkələrlə əlaqələr şöbəsinin müdiri), N.İmanov (Naxçıvan Muxtar Respublikasının maliyyə naziri), V.Talıbov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Baş köməkçisi).

2. Nümayədə heyətinə tapşırılsın ki, Əməkdaşlıq Protokoluna müvafiq olaraq Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi, iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq başkanlıqları ilə birlikdə Türkiyənin aidiyyatı olan nazirliklərində, idarələrində, maliyyə orqanlarında konkret tədbirlər görsün. Protokolun birinci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarını ödəmək üçün ayrılmış 100 milyon Amerika dolları məbləğində kreditdən istifadə olunması ilə əlaqədar işləri təşkil etsin.

- Erməni silahlı qüvvələrinin Naxçıvana qarşı təcavüzə keçmələri ilə əlaqədar Amerikada xəstəxanada müalicə olunan Türkiyə Prezidenti Turqut Özal bəyanat verərək bölgəyə türk qoşunu göndərilməsi təklifi ilə çıxış etmişdir.

20 may - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il Ankara Əməkdaşlıq Protokolunun həyata keçirilməsi işlərini təşkil etmək üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclis Sədrinin müavini Q. Məmmədovun başçılığı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Plan Komissiyasının sədri Ş.Xanbabayev, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Rəyasət Heyətinin Xarici Ölkələrlə Əlaqələr şöbəsinin müdiri R.İbadov, Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri N.İmanov və Naxçıvan Muxtar Respublikasının Ali Məclis Sədrinin Baş köməkçisi V.Talıbovdan ibarət nümayəndə heyətinin Türkiyə Cümhuriyyətinə göndərilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin qərarını imzalamışdır.

20 may - Türkiyə nazirlər kabineti Ermənistanın Naxçıvana təcavüzü il əlaqədar bəyanat vermiş, "İşğalçılıq siyasətinin yeni Ermənistan dövlətinin özü üçün fəlakət gətirəcəyini" bildirmişdir.

21 may - Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev Londonun "Deyli teleqraf" qəzetinin Naxçıvandan olan müxbirinə demişdir: "Mər hərbi gərginliyin artırılmasının əleyhdarıyam, lakin Ermənistan yenə də bu cür hərəkət etsə, kömək üçün Türkiyəyə müraciət etməkdən başqa çarəm qalmayacaqdır".

Heydər Əliyev xatırlatmışdır ki, 1921-ci ildə Qarsda imzalanmış müqaviləyə əsasən Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır.

21 may - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə döyüş əməliyyatı rayonunda vəziyyətlə tanış olmaq üçün göndərilmiş Türkiyə Xarici İşlər Nazirliyinin böyük elçisi Ömər Ersunun başçılıq etdiyi nümayəndə heyətini qonaqlar döyüş əməliyyatı rayonunda vəziyyətlə tanış olduqdan sonra qəbul etmişdir.

24 may - Türkiyənin Baş naziri Süleyman Dəmirəl Moskvaya yola düşməzdən əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevlə telefon əlaqəsi saxlamış və Muxtar Respublikaya hər cür yardım göstərməyə hazır olduğunu bildirmişdir.

25 may - Moskvada rəsmi səfərdə olan Türkiyənin Baş naziri Süleyman Dəmirəl mətbuat konfransında Rusiya və Türkiyənin Dağlıq Qarabağa dair birgə bəyanat qəbul etdiyini açıqlamışdır.

28 may - Türkiyənin Baş naziri Süleyman Dəmirəl Sədərəkdə Naxçıvanla Türkiyə arasında tikilmiş "Ümid" Körpüsünün açılış mərasimində iştirak etmək üçün Naxçıvana qısamüddətli səfərə gəlmişdir. Körpünün açılış mərasimində Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev iştirak və çıxış etmişlər.

1 iyun - Türkiyə hökumətinin və şəxsən Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Muxtar Respublikanın nümayəndə heyəti iyunun 4-də İzmir şəhərində keçiriləcək III Beynəlxalq İqtisadi Konqresdə iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür.

Elə həmin gün Ankaraya gələn nümayəndə heyəti axşamüstü kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüşdür.

2 iyun - Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti dövlət nazirləri Cavit Çağlar, Əkrem Ceyhun, Xarici İşlər naziri Hikmət Çətin və bir sıra başqa nazirlərlə görüşmüşdür.

Baş nazir Süleyman Dəmirəl ilə nümayəndə heyəti arasında səmimilik şəraitində keçən rəsmi danışıqlar olmuşdur.

3 iyun - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada Türkiyənin Naxçıvan Muxtar Respublikasına verdiyi kreditdən istifadə edilməsi qaydası haqqında Türkiyə Xarici İşlər naziri Hikmət Çətinlə Protokol imzalanmışdır.

Səfər əsnasında Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal, Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini Ərdal İnönü, Xarici İşlər naziri Hikmət Çətin, həmçinin Türkiyənin digər liderləri ilə görüşərək Naxçıvandakı son vəziyyət barədə geniş, ətraflı söhbət aparmışdır.

İzmirdə Milli İqtisadi Konqresdə iştirak edən Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin bışçısı Heydər Əliyevin çıxışı çox

böyük rəğbətlə qarşılanmışdır.

5 iyun - Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İstanbulda, Ərzurumda, İqdırda və Türkiyənin bir sıra başqa şəhərlərində oradakı qəzet redaksiyalarında olduqdan, mətbuat konfransı keçirdikdən və Ərzurumda müalicə olunan naxçıvanlı yaralılara baş çəkdikdən sonra Naxçıvana qayıtmışdır.

9 iyul - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasındakı Sədərək - Dilucu körpüsünün rəsmi sərhəd keçid qapısı elan edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin qərarını imzalamışdır.

10-14 avqust - Türkiyə Cümhuriyyətinin Baş nazirinin dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Muxtar Respublika nümayəndə heyəti avqustun 10-da Türkiyəyə yola düşmüşdür.

Aralık bələdiyyə rəisi Yıldırım Turanın qarşıladığı nümayəndə heyətini aparan maşın karvanı Aralığın kaymakamı Hasan İpek və sakinlər tərəfindən hərarətlə qarşılanmışdır.

Nümayəndə heyəti İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmək üçün Aralıkdan İqdır şəhərinə yola düşmüşdür.

Naxçıvan nümayəndələrini şəhərin girəcəyində buraya yeni təyin olunmuş vali Ərdoğan İzgi və bələdiyyə sədri Əli Ağrı qarşılamışdır.

Şəhər sakinləri tərəfindən hərarətlə qarşılanan nümayəndə heyəti şəhərin mərkəzi meydanında keçirilən mərasimdə iştirak etmişdir.

Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini Ərdal İnönünün, dövlət nazirlərinin və millət vəkillərinin də iştirak etdiyi bayram mərasimində Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Heydər Əliyev çıxış etmişlər.

Cənab Heydər Əliyev İqdır vilayətinin yaradılması münasibətilə keçirilən təntənəli mitinqdə iştirak etdikdən sonra Qars və Ankara şəhərlərində olmuş, Ankarada Türkiyənin Baş naziri Süleyman Dəmirəl, dövlət nazirləri və digər nazirlər ilə səmərəli danışıqlar aparmışdır.

- Türkiyəyə səfərini başa çatdıran nümayəndə heyəti Naxçıvana qayıtmışdır.

16 sentyabr - Naxçıvan Muxtar Respublikasının Ali Məclisi mövcud sosial-iqtisadi vəziyyət, baş vermiş çətinliklərin aradan qaldırılması və qış mövsümünə hazırlıq tədbirləri

haqqında qərar qəbul etmişdir. Qərarda göstərilmişdir ki, Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış Əməkdaşlıq Protokoluna əsasən Türkiyə hökuməti Naxçıvana yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif markalı akkumlyator, 10 ton karbit göndərmişdir. Bunlar Muxtar Respublikanın kənd təsərrüfat ehtiyaclarını ödəmək üçün kolxozlara, sovxozlara və digər kənd təsərrüfatı müəssisələrinə satılmışdır. Göstərilən mal-materialların dövlət satış qiyməti ilə ümumi dəyəri 12,6 milyon manatdır. Satışda əldə edilən 9,5 milyon manatlıq vəsait Naxçıvan Muxtar Respublikasının inkişaf və müdafiə fonduna köçürülmüşdür.

Həmin müqavilənin icrası ilə əlaqədar Türkiyə hökuməti tərəfindən ayrılmış kredit hesabına Muxtar Respublika əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə də artıq başlanmışdır. 15 sentyabr 1992-ci ilə qədər 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü Muxtar Respublikaya daxil olmuş, rayonların əhalisinin sayı nəzərə alınmaqla, müvafiq qaydada bölünüb əhaliyə satışı təşkil edilmişdir.

Türkiyə Respublikasının "Qızıl Ay" və İran İslam Respublikasından "Hilal Əhmər" cəmiyyətlərindən bu ilin mart ayından Muxtar Respublikaya yardım olaraq 785 ton un, 56 ton yağ, 87 ton şəkər daxil olmuş və ərzaq komissiyası vasitəsi ilə qiymətləndirilmiş, əhaliyə satılmışdır.

18 sentyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisi Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin dəvətilə avqust ayının 10-dan 14-ə qədər Türkiyədə rəsmi səfərdə olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin Türkiyə Cümhuriyyətinə səfərinin yekunları barədə qərar qəbul etmişdir.

29 sentyabr - Bu gündən Azərbaycan Respublikası ilə qonşu dövlətlər- İran və Türkiyə arasında Naxçıvan Muxtar Respublikası ərazisindəki 215 km məsafədə dövlət sərhədi elan olunaraq Azərbaycanın 1-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunmağa başlanmışdır.

5 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda Türkiyədə təhsil almağa gedən tələbələrlə Muxtar Respublika Ali Məclisi, Nazirlər Kabineti rəhbərlərinin və Naxçıvan şəhər ictimaiyyəti nümayəndələrinin görüşü olmuşdur. Görüşə həsr edilmiş yığıncağı Muxtar Respublikanın Baş naziri Ş.Xanbabayev demişdir ki, Əməkdaşlıq protokoluna əsasən hər il 100 nəfər Naxçıvanlı gəncin Türkiyə universitetlərində təhsil alması nəzərdə tutulur. Türkiyənin Naxçıvana gəlmiş Yüksək Öyrətim Seçim Kurumunun səlahiyyətli nümayəndələri tərəfindən ilk dəfə test üsulu ilə seçim aparılmış və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul olunmuşdur. Bu görüş də onların yola salınmasına həsr edilmişdir.

Yığıncaqda Heydər Əliyev çıxış etmiş, tələbələri, onların valideynlərini, təhsil aldıqları məktəblərin müəllim kollektivlərini və Muxtar Respublika ictimaiyyətinin nümayəndələrini təbrik etmiş, gənclərə öz tövsiyyələrini çatdırmışdır..

O, Naxçıvan əhalisi adından, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti adından Türkiyə hökumətinə, Türkiyənin Prezidenti Turquq Özala, Baş nazir Süleyman Dəmirələ və bu işdə bizə yardım edən nazirliklərin hamısına dərin minnətdarlıq və təşəkkür bildirmişdir. .

7 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin "Zaman" qəzetinin dəvəti ilə Naxçıvandan keçməklə qonşu ölkəyə tanışlıq səfərinə gedən Azərbaycan jurnalistləri qrupunu qəbul etmişdir.

9 oktyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvanda Türkiyənin Ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşmüşdür.

13 noyabr - Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi keçirilmiş, yubiley tədbirlərində Bakıdan, Türkiyə və İran İslam Respublikasından nümayəndələr iştirak etmişlər.

Heydər Əliyev yığıncaqda çıxış edərək bildirmişdir ki, universitetin professor-müəllim heyəti bütün dünyada qazanılmış müsbət təcrübəyə inamla yiyələnməli və ondan səmərəli istifadə etməlidir. Bu baxımdan Türkiyə və İran dövlətlərinin Ali məktəbləri ilə əlaqələr bu işdə yardımçı olacaqdır.

18 oktyabr - Azərbaycan sərhəd qoşunlarının Naxçıvandakı birinci dəstəsinin yerləşdiyi şəhərcikdə andiçmə mərasimi olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə Respublikası Baş nazirinin müşaviri Əli Naci Tüncəl, şəhər ictimaiyyətinin nümayəndələri və gənc sərhədçilərin valideynləri bu mərasimdə iştirak etmişlər.

21 noyabr - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin İqdır və Aralık vilayətlərinin bələdiyyə idarələri tərəfindən sədərəklilər üçün göndərilmiş 11 maşın ərzaq yardımını müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

7 dekabr - Naxçıvan Muxtar

Respublikasının Ali Məclisi bölgədəki vəziyyətlə əlaqədar bəzi məsələlər haqqında qərar qəbul etmişdir.

Qərarda Naxçıvan Muxtar Respublikasında yaranmış ağır şərait nəzərə alınmış, çox az olan daxili imkanlarından maksimum istifadə edilməsinə, qonşu dövlətlərlə - Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün tezliklə lazımi tədbirlər həyata keçirilməsinə çağrılmışdır.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Cümhuriyyəti hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında bağlanmış Əməkdaşlıq Protokoluna əsasən iqtisadi, ticarət, mədəni əməkdaşlığın inkişaf etdirilməsi, Naxçıvan üçün həyati vacib bəzi məsələlərin həlli, Naxçıvan Muxtar Respublikasına iqtisadi yardım göstərilməsi məsələlərini irəli sürmüşdür. Burada göstərilmişdir ki, bu Əməkdaşlıq Protokoluna əsasən son vaxtlar Naxçıvana ərzaq və yanacaq malları daxil olur və bu da Muxtar Respublikanın tələbatını qismən ödəməyə imkan yaradır.

Bir ay ərzində Türkiyədən (İqdır şəhəri) Naxçıvana çəkilən elektrik xəttinin tikintisi başa çatacaq, Muxtar Respublikanın elektriklə təminatı xeyli yaxşılaşacaqdır.

1993

5 fevral - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında Türkiyə Cümhuriyyəti konsulluğunun fəaliyyətə başlaması münasibəti və Türkiyə Cümhuriyyətinin Naxçıvana yeni təyin olunmuş Baş konsulu Orhan Ertuğruloğlunu Muxtar Respublika rəhbərinə təqdim etmək məqsədi ilə Naxçıvana gəlmiş Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

5 fevral - Naxçıvanda Türkiyə Cümhuriyyətinin konsulluğu fəaliyyətə başlamışdır.

3 mart - Naxçıvan Muxtar Respublikası Ali məclisinin Sədri Heydər Əliyev Bakıda olarkən Türkiyənin Azərbaycandakı səfirliyində olmuş, bu ölkənin Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlu ilə görüşmüşdür.

Heydər Əliyev Bakıda olarkən ABŞ-ın fövqəladə və səlahiyyətli səfirləri ilə də görüşmüşdür.

8 mart - Naxçıvan Muxtar Respublikası Ali məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Orhan Ertuğruloğlunu onun xahişi ilə qəbul etmişdir.

15 aprel - Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchizatında yaranmış çətinliklərlə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Qızıl ay Cəmiyyətinin sədri Kemal Demirlə telefon apararaq Ankaradan ərzaq malları yüklənmiş 7 böyük yük avtomobilinin Naxçıvana yola düşməsini təmin etmişdir.

16 aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir.

Sədərək-Dilucu körpüsündə Aralık qəzasının kaymakamı Hasan İpek tərəfindən qarşılanan Heydər Əliyev sərhəd mühafizə dəstəsi rəhbərləri və gömrük işçiləri ilə görüşərək söhbət etmişdir.

- Heydər Əliyev buradan İqdır vilayətinə getmişdir. Möhtərəm qonağı İqdırın valisi Ərdoğan İzgi, bələdiyyə rəisi Əli Ağrı və digər rəsmi şəxslər qarşılamışlar.

- Həmin gün vertolyotla İqdıra gələn Türkiyə Cümhuriyyətinin dövlət naziri Orhan Kilercioğlu ilə Heydər Əliyevin görüşü olmuşdur.

Səmimi və işgüzar söhbətdən sonra Heydər Əliyev və Orhan Kilercioğlu İqdırın bələdiyyə idarəsinə gələrək şəhərin mərkəzi meydanında keçirilən böyük mitinqdə iştirak etmişlər.

Heydər Əliyev və Orhan Kilercioğlu son aylar Türkiyəyə gələn və İqdır vilayəti ərazisində yaşayan axıska türkləri ilə görüşərək onların sosial-məişət problemləri ilə maraqlanmışlar. Görüşdə İqdırın valisi Ərdoğan İzgi, dövlət naziri Orhan Kilercioğlu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev çıxış etmişlər.

- Günün ikinci yarısında Heydər Əliyevlə İqdırın valisi Ərdoğan İzgi arasında danışıqlar olmuşdur.

- Heydər Əliyev həmin gün Naxçıvan şəhərinə qayıtmışdır.

- Naxçıvanda ərzaq qıtlığı ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin kənd təsərrüfatı naziri Nəcməddin Cevheri ilə telefon əlaqəsi saxlamış və həmin nazirlik tərəfindən Naxçıvan Muxtar Respublikasına 2 min ton buğda göndərilməsi barədə razılıq əldə etmişdir.

19 aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Muxtar Respublika Ali Məclisinin və Nazirlər Kabinetinin rəhbər işçiləri Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın vəfatı ilə əlaqədar öz kədərlərini ifadə etmək və başsağlığı vermək üçün saat 12.00-da Türkiyənin Baş konsulluğunun binasına gəl-

mişlər. Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Orhan Ertuğruloğluna başsağlığı vermiş və matəm kitabına aşağıdakı sözləri yazmışdır:

"Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın vəfatı Naxçıvan Muxtar Respublikası əhalisinin böyük kədərinə səbəb olmuşdur. Beynəlxalq aləmdə böyük dövlət xadimi, İslam aləminin, Türk dünyasının görkəmli şəxsiyyəti, Azərbaycan xalqının böyük dostu olmuş Turqut Özalın əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Türkiyə Cümhuriyyətinin hökumətinə, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin."

19-25 aprel - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə birlikdə Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın Ankarada və İstanbulda keçirilən matəm mərasimlərində iştirak etmişdir.

Heydər Əliyev, Turqut Özalın ailəsini ziyarət etmiş, mərhum Prezidentin həyat yoldaşı Səmra Özala və ailə üzvlərinə ağır itki münasibətilə başsağlığı vermişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası adından Türkiyə Böyük Millət Məclisinin Sədri Hüsamettin Cindoruka və Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirələ başsağlığı vermişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın dəfn mərasimi başa çatdıqdan sonra Heydər Əliyev İstanbuldan Ankaraya qayıtmış, aprelin 23-də və 24-də Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və blokada ucbatından burada yaranmış problemlərin həlli ilə əlaqədar Türkiyə Hökuməti nazirləri ilə işgüzar görüşlər keçirmişdir.

- Heydər Əliyev aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 73-cü ildönümünə həsr olunmuş iclasında iştirak etmişdir.

- **Aprel ayının 24-də** Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl Heydər Əliyevlə görüşmüşdür.

- Səfər zamanı Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Kənd Təsərrüfatı Naziri Nəcməddin Cevheri və Qızıl ay Cəmiyyətinin sədri Kamal Dəmirlə də görüşərək Naxçıvan Muxtar Respublikasına yardım məsələlərini müzakirə etmişdir.

- **Aprel ayının 24-də** Heydər Əliyev Ankarada Türkiyənin Anavatan Partiyasının başçısı Məsud Yılmazla görüşmüşdür.

- Cənab Heydər Əliyev aprelin

25-də Naxçıvana qayıtmışdır.

16 may - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə Süleyman Dəmirələ təbrik məktubu göndərmişdir.

2 iyun - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin Qızıl ay Cəmiyyətinin xətti ilə Naxçıvanda humanitar yardım göstərilən təşkilatlarda olmuşdur.

15 iyun - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış edərək bildirmişdir ki, dünən elan olunan Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin təşəbbüsü nəticəsində imzalanmış sənəd bizim müharibə şəraitindən tədricən çıxmağımız üçün ilk addımdır. Yəqin ki, bu sahədə gələcəkdə daha da güclü tədbirlər görülməlidir ki, Azərbaycan Respublikası bütün ərazisinin sahibi olsun və bizim xalqımız müharibə şəraitindən çıxa bilsin.

... Xarici siyasət sahəsində... birinci növbədə bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cumhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir...

17 iyun - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

19 iyun - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

23 iyun - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu onun xahişi ilə qəbul etmişdir.

25 iyun - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

30 iyun - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyənin "Milliyət" qəzetinin xüsusi müxbiri Nur Baturu və "Show" televiziya kanalının xüsusi müxbiri Mehmet Ali Birandı qəbul etmişdir.

2 iyul - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev tarixi bəyanatla çıxış edərək ABŞ, Rusiya, Türkiyə dövlətlərinin, BMT, ATƏM və dünya ictimaiyyətinin diq-

qətini Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə intensiv hücumları ilə yaranmış vəziyyətə cəlb etmişdir.

2 iyul - Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən

Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanat vermiş və bildirmişdir ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm, və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan Respublikası insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir.

...İyunun 12-dən etibarən Ermənistan hərbi qüvvələri Ağdam və Ağdərə istiqamətlərində hücum edərək Ağdərə rayon mərkəzini və bir neçə kəndimizi ələ keçiriblər... ABŞ, Rusiya və Türkiyənin münaqişəyə dinc vasitələrlə son qoyulmasına dair təşəbbüsünün, BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin elan olunduğu və ümumiyyətlə, bu qanlı savaşın qarşısının alınmasına müəyyən ümidlər yarandığı bir vaxtda Ermənistanın bu təcavüzkar hərəkətləri vəziyyətin xeyli kəskinləşməsinə səbəb olmuşdur. Güman edirəm ki, beynəlxalq ictimaiyyət və bütün dövlətlər bu təcavüzü qətiyyətlə pisləməlidir. Azərbaycan dövləti adından bir daha bəyan etmək istəyirəm ki, ABŞ, Rusiya və Türkiyənin təşəbbüsü ilə ATƏM çərçivəsində göstərilən bütün cəhdlərin və qəbul olunmuş qərarların tərafdarıyıq...

5 iyul - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Respublikada yaranmış vəziyyətlə əlaqədar ABŞ, Rusiya və Türkiyənin Bakıdakı səfirlərini və BMT-nin Azərbaycandakı səlahiyyətli nümayəndəsini qəbul etmiş, bəyanat vermişdir:

"Məlum olduğu kimi, ATƏT-in Minsk konfransının sədri, cənab M.Raffaelli iyulun 5-də Azərbaycana gəlməli idi. Respublikanın rəhbərliyi cənab M.Raffaellini qarşılamağa hazırlaşaraq lazımi tədbirlər həyata keçirmiş və onun proqramını qəbul etmişdi. Çox böyük təəssüf və təəccüb hissilə qeyd edirəm ki, buraya dəvət olunmuş dövlətlərin səfirləri, yəni onların təmsil etdikləri dövlətlər lazımi tədbirlər görməyiblər. Bu sözləri deyərkən buna əsaslanıram ki, iyulun 2-dən sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzünü nəinki dayandırılmadı, hətta iyulun 3-4-dən daha da genişləndi...

Biz xahiş edirik ki, bu ağır vəziyyətdə hərə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin. Heç kəs, o cümlədən, burada iştirak edən

xarici ölkələrin nümayəndələri də şübhə etməməlidirlər ki, bunların hamısı Ermənistan silahlı qüvvələrinin təcavüzüdür və başqa cür qiymətləndirilə bilməz. Güman edirik ki, belə bir faciəli vəziyyətdə də böyük dövlətlər gərək öz qəti tədbirlərini görsünlər.

Bəyanatı bitirərək bir daha qeyd etmək istəyirik ki, biz cənab M.Raffaellinin təcili gəlməsini gözləyirik və Azərbaycan tərəfindən cənab Raffaellinin missiyasının həyata keçirilməsinə tam zəmanət veririk. Ancaq bu zəmanət ikitərəfli olmalıdır. Əgər, doğrudan da Ermənistan Respublikası və onun Dağlıq Qarabağda olan qüvvələri münaqişənin sülh yolu ilə həllini istəyirlərsə, onlar da buna zəmanət verməlidirlər. Üç böyük dövlət - Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə, Birləşmiş Millətlər Təşkilatı bu zəmanətin cənab M.Raffaelliyə verilməsi üçün Ermənistan Respublikasına lazımi təsir göstərməlidirlər. Biz cənab M.Raffaellinin tezliklə gəlib işə başlamasını gözləyirik."

5 iyul - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev İstanbulda çağrılan İqtisadi Əməkdaşlıq Təşkilatının II görüşünün iştirakçılarına təbrik məktubu göndərmişdir.

28 iyul - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyə Prezidentinin baş müşaviri Namıq Kamal Zeybəki qəbul etmişdir.

10 avqust - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev "Sobesednik"in müxbirinə müsahibə verərək Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələrin vəziyyət ağır olduqda kara gəldiyindən, Türkiyədən elektrik xətti çəkildiyindən danışmış, ərzaq üçün 10 milyon dollar kredit, cürbəcür humanitar yardımlar alındığını bildirmişdir.

12 avqust - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev yazıçı Aleksandr Proxanovla müsahibədə Türkiyə Prezidenti Dəmirəlin Naxçıvana 100 milyon dollar kredit təklif etdiyini göstərmişdir.

24 avqust - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev "Nezavisimaya qazeta"nın müxbirinə müsahibədə Azərğaycanın İrana və Türkiyəyə güclü meyl göstərməsinin, din birliyi amili, az qala milli birlik amili kimi qəbul edilməsinə qətiyyətlə etiraz etmiş, səthi etnoqrafik biliyin hər şeyi ətraflı şəkildə izah etdiyini göstərmişdir. Bildirmişdir ki, Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. İranda on milyonlarla azərbaycanlı yaşayır. Məgər bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirmirmi? Dün-

yada inteqrasiya əhval-ruhiyyəsinin hakim kəsildiyi bir vaxtda qonşularla normal dostluq münasibətlərimiz olmalıdır.

25 avqust - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti Xarici İşlər nazirinin müavini Özden Sanberki və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

30 avqust - Azərbaycan Respublikası Ali Soveti Sədri Heydər Əliyev avqustun 29-da keçirilmiş referendumda müşahidəçi kimi iştirak etmiş TBMM-in deputatı Rifat Yüzbaşıoğlunu qəbul etmişdir.

3 sentyabr - Azərbaycan Respublikası Ali Soveti Sədri Heydər Əliyev Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müqavilənin təsdiq edilməsi haqqında Milli Məclisin qərarını imzalamışdır.

4 sentyabr - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyə Parlamentinin Ana Vatan Partiyası fraksiyasının lideri Eyüp Aşık başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

8 sentyabr - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Moskvada rəsmi səfərdə olan Türkiyənin Baş naziri xanım Tansu Çillər ilə görüşmüşdür.

13 sentyabr - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Milli Məclisin növbəti iclasında Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillər ilə Moskvada apardığı danışıqlar haqqında məlumat vermişdir.

15 sentyabr - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri Hikmət Çətini və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir. Hikmət Çətinlə birlikdə yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

3 oktyabr - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev ümumxalq dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Möhtərəm Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar Türkiyə dövlət və hökumət rəhbərləri dövlət başçımızın ünvanına təbrik məktubları göndərmişlər:

Azərbaycan Respublikasının
Prezidenti Sayın Heydər Əliyevə !

Dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibəti ilə Zati-alilərinizi ürəkdən təbrik edirəm.

Azərbaycanın çox çətinliklə əldə etdiyi suverenliyini və müstəqilliyini, demokratikləşmə sahəsində

nail olduğu inkişafı rəhbərliyinizlə qoruyacağınıza və möhkəmləndirəcəyinizə əminəm.

Azərbaycan xalqının birlik və bərabərlik ruhu içində olması bu gün həmişəkindən daha böyük əhəmiyyət daşımaqdadır. Türk millətinin arzu və diləyi də budur.

Ölkələrimiz arasındakı sağlam dostluq və qardaşlıq əlaqələrinin təzə vəzifəniz dövründə daha da möhkəmlənəcəyinə inanıram.

Azərbaycanın erməni təcavüzünə və işğalına ən qısa müddətdə son verərək daimi və sağlam bir sülhə çatması ən böyük arzumuzdur. Türkiyə bu məqsədin həyata keçirilməsi üçün beynəlxalq miqyasda səy göstərilməsi işində qardaş Azərbaycan xalqının daim yanında olacaqdır.

Dost və qardaş Türk Milləti adından və öz adımdan yeni vəzifənizi bir daha təbrik edir, Sizə cansağlığı və uğurlar diləyirəm.

Süleyman Dəmirəl
Türkiyə Cümhuriyyətinin
Prezidenti

Azərbaycan Respublikasının
Prezidenti Cənab Heydər Əliyevə!

Azərbaycan Prezidentliyinə seçilməyinizlə əlaqədar olaraq səmimi təbriklərimi bildirirəm. Dost və qardaş Azərbaycanın rəhbərliyiniz altında birlik və bərabərlik içində daha da inkişaf edəcəyinə inamımı bildirirəm. Müvəffəqiyyətlərinizin davam etməsini arzulayıram.

Hüsaməddin Cindoruk
Türkiyə Böyük Millət
Məclisinin Sədri

Azərbaycan Respublikasının
Prezidenti Sayın Heydər Əliyevə!

Sayın Prezident!

Azərbaycan dövlətinin Prezidenti seçilməyinizlə əlaqədar Sizi şəxsən öz adımdan və hökumətin adından ürəkdən təbrik edirəm. Dost və qardaş Azərbaycanın demokratiya, sülh, birlik və bərabərlik içində inkişafını, siyasi fəaliyyətlərlə bərabər, iqtisadi sahədə də inkişafını türk xalqı ürəkdən arzulayır. Müstəqil və suveren Azərbaycandan umduğumuz bu müvəffəqiyyətin Zati-alilərinizin müdrik rəhbərliyi altında həyata keçə biləcəyinə inanıram. Bu sahədəki fəaliyyətlərinizdə daim yanınızda olacağıq.

Azərbaycanın beynəlxalq aləmdəki yerini möhkəmləndirə bilməsi üçün öncə sülhə qovuşmasının gərəkli olduğunu inam ilə bölgədə sülhün təmin olunması məqsədilə beynəlxalq səylərdə Türkiyənin fəal iştirakını davam etdirəcəyini bir daha təsdiq edirəm.

Ölkələrimiz arasında bütün sahələrdə mövcud olan münasibətlərin bu yeni vəzifəniz dövründə daha da inkişaf etdiriləcəyinə və nümunəvi qardaşlıq əlaqəsi nümayiş etdirəcəyi-

nizə inanıram.

Hökumətim adından və öz adımdan Prezidentlik vəzifənizi bir daha təbrik edir, cansağlığı, xoşbəxtlik arzulayıram.

Tansu Çillər
Türkiyə Cümhuriyyətinin Baş naziri

Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə!

Sayın Prezident!

Müstəqil və suveren Azərbaycan Respublikasına bu dəfə Prezident olaraq xidmətinizlə əlaqədar duyduğum sevinci bildirir, bu vəzifəni müvəffəqiyyətlə həyata keçirəcəyiniz inamı ilə Zati-alilərinizi ürəkdən təbrik edirəm.

Köklü tarixi, mədəni əlaqələrlə və hər sahədə etdiyimiz yaxın əməkdaşlığımızla möhkəmlənən əlaqələrimiz suveren, müstəqil və demokratiya ideyasına bağlı Azərbaycana bizi daha da yaxınlaşdırmaqdadır.

Türkiyə bu yaxınlıqdan aldığı qüvvətlə, beynəlxalq ictimaiyyətin Azərbaycanı tam dəstəkləməsini, seçki yolu ilə qazandığınız yeni vəzifəniz dövründə də yardım və dəstəyini qərarlı şəkildə davam etdirəcəkdir.

Dost və qardaş Azərbaycanın Ermənistanın işğalından qurtararaq, sabit, haqlı bir sülhə nail olması ən böyük arzumuzdur. Bu məqsədlə davam etdirilən beynəlxalq səylərdə Türkiyə fəal iştirak edəcəkdir.

Zati-alilərinizi bir daha təbrik edir, ürəkdən müvəffəqiyyət arzulayır və hörmətimi bildirirəm.

Hikmət Çətin
Türkiyə Cümhuriyyəti
Xarici İşlər naziri

4 oktyabr - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Prezident seçkilərində müşahidəçi kimi iştirak etmiş türkiyəli müşahidəçilər qrupunu qəbul etmişdir.

10 oktyabr - Respublika Sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.

23 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

26 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qurulmasının 70 illiyi münasibəti ilə keçirilən "Türkiyə Cümhuriyyəti-70" elmi-praktik konfransının iştirakçılarına təbrik məktubu göndərmişdir.

28 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Milli Bayramı - Respublika elan edilməsi

gününün 70 illiyi münasibəti ilə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl cənablarına, Baş nazir xanım Tansu Çillər və Türkiyə Böyük Millət Məclisinin sədri cənab Hüsaməddin Cindoruka təbrik məktubları göndərərək qardaş türk xalqına xoş arzularını bildirmişdir.

29 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qurulmasının 70 illiyi münasibətilə bu ölkənin səfirliyinin "Gülüstan" sarayında təşkil etdiyi mərasimdə çıxış etmişdir.

18 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin "Çağ" Öyrətim İşlətmələri şirkəti tərəfindən Azərbaycanda açılmış təhsil müəssisələrinə etimadını təsdiq edən məktubunu gətirmiş İstanbulda yerləşən şirkətin idarə heyətinin üzvü Nurəddin Vereni, Qafqaz Universitetinin rektoru prof. dr. Zəfər Ayvazı, şirkətin Azərbaycan üzrə nümayəndəsi Məmmədəli Babaşovu, "Zaman" qəzetinin Azərbaycandakı nümayəndəsi Halim Dağları və qəzetin xəbər şöbəsinin müdiri Nedim Yalçını qəbud etmişdir.

3 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin ictimai xadimi və iş adamı Turqut Özalın oğlu Ahmet Özalı qəbul etmişdir.

28 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Sumqayıtda Türkiyənin "Teletaş" firmasının və Sumqayıt rabitə qovşağı əməkdaşlarının birgə quraşdırdıqları yeni beynəlxalq avtomat telefon stansiyasının açılışında iştirak etmişdir.

1994

5 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin universitetlərinə tələbə qəbulu haqqında sərəncam imzalamışdır.

17 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti Yüksək Öyretim Kurulu (YÖK) nümayəndəsi Mehmet Altunayı qəbul etmişdir.

26 yanvar - Ankaranın Höcətəpə Universitetinin bir qrup professorunun təklifinə əsasən Universitetin Elmi Şurası Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ermənilər tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad olunması, Prezident seçildiyi tarixdən etibarən Türkiyə ilə strateji və hərbi əməkdaşlığın inkişafı, Azərbaycan Milli Ordu quruculuğu sahəsindəki böyük xidmətləri və digər dövlətlərə qarşı

yeritdiyi düşünülmüş siyasətinə görə görkəmli dövlət xadimi Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində fəxri doktor adı verilməsi barədə yekdillikle qərar qəbul etmişdir.

27 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin nümayəndələri A.Karaca, M. Kəngərli və M.Müştəki qəbul etmişdir.

2 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı müvəqqəti işlər vəkili Vural Atayla birlikdə həmin ölkənin Höcəttəpə Universitetinin professorları Tansun Yılmaz, Bahəddin Yediyıldız, Əbdülxalık Çay və Hüseyin Cevizoğlunu qəbul etmişdir.

3 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin müxtəlif kütləvi informasiya vasitələrini təmsil edən jurnalistlərinin bir qrupunu onların xahişi ilə qəbul etmişdir.

7 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrin bir qrupu ilə görüşmüş və nitqlə çıxış etmişdir:

"Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var. İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

7 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulda çağrılan beynəlxalq "Sülh və səbr" konfransının iştirakçılarına təbrik teleqramı göndərmiş, ümidvar olduğunu bildirmişdir ki, toplantı xalqlar arasında sülhün, dinc və mehriban qonşuluq münasibətlərinin bərqərar olmasında öz təsirli sözünü deyəcəkdir.

8 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti Prezidenti cənab Süleyman Dəmirəlin dəvətilə qardaş ölkəyə birinci rəsmi səfərə yola düşmüşdür.

Prezident Binə hava limanında jurnalistlərə səfərlə bağlı müsahibə vermişdir.

"Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqımızın arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var. Son illər Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr



BİLKENT ÜNİVERSİTESİ

daha da möhkəmlənmişdir."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müsahibəsindən)

-Türkiyə Cümhuriyyətinə rəsmi səfərə başlayan möhtərəm Prezident Ankarada Atatürkün məqbərəsinə əklil qoymuş, Məmməd Əmin Rəsulzadənin məzarını ziyarət etmişdir.

Ankaradakı "Anıtkabır" məqbərəsində Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət etdikdən sonra xatirə kitabına yazdığı ürək sözləri:

"Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının həddsiz məhəbbət və ehtiramını ifadə edirəm.

Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır".

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti

8 fevral - Prezident Heydər Əliyev Türkiyə Cümhuriyyəti Prezidentinin iqamətgahı olan "Çankaya" köşkündə rəsmi qarşılanma mərasimindən sonra mətbuat nümayəndələri üçün bəyanat vermişdir:

"Bizim ölkələrimiz - Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və doçtluğu əsrlərdən-əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)

- Türkiyə Prezidenti Süleyman Dəmirəllə təkbətək görüş keçirmişdir.

- Öz iqamətgahında Türkiyənin Baş naziri xanım Tansu Çilləri qəbul etmişdir.

- Ana Vatan Partiyasının sədri Məsud Yılmaz və Milliyətçi Hərəkət Partiyasının rəhbəri Alparslan Türkeşlə görüşmüşdür.

- Axşam "Çankaya" köşkündə Prezident Süleyman Dəmirəl Prezident Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

Ziyafətdə hər iki ölkənin Prezidenti nitqlə çıxış etmişdir.

"Bizim indiki görüşlərimiz son illərdə Azərbaycan ilə Türkiyə arasında yaranmış əlaqələrin davamıdır. Böyük iftixar hissi ilə, böyük məmnuniyyətlə demək olar ki, 70 il bir-birindən ayrı düşmüş xalqlarımız qısa müddətdə bir-birinə qovuş-

du, bir-birini qucaqladı və sanki bu 70 ildə ayrılıq heç olmamışdır."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- "Çankaya" köşkündə iki dövlət arasında münasibətlərə dair sənədlərin imzalanması mərasimində iştirak etmişdir.

İki ölkə arasında dostluq, qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlıq haqqında müqavilə imzalamışdır. Mərasimdə hər iki dövlət başçısı nitq söyləmişdir.

- Azərbaycan ilə Türkiyə arasında iqtisadiyyat, səhiyyə, maliyyə, təhsil, mədəniyyət və digər sahələrdə qarşılıqlı əməkdaşlıq haqqında 16 müqavilə imzalanmışdır.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Ankara-Palas" otelində xarici ölkələrin Türkiyədəki səfirləri və diplomatik korpusun üzvləri ilə görüşmüş və Ankarada yaşayan azərbaycanlıların böyük bir qrupunu qəbul etmişdir.

- Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İstanbula yola düşmüşdür.

- Öz iqamətgahında "Sülh və səbir" devizi altında İstanbulda keçirilmiş beynəlxalq dini konfransın bir qrup nümayəndəsini qəbul etmişdir.

10 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbul Ali məktəblərində təhsil alan azərbaycanlı gəncləri qəbul etmişdir.

- Türkiyənin iş adamlarının böyük bir qrupu ilə görüşmüşdür.

- Azərbaycan Prezidenti Heydər Əliyev "Netaş" firmasında olmuşdur.

- Öz iqamətgahında Türkiyənin ən zəngin adamlarından birini - Vehbi Koçu qəbul etmişdir.

- Əmlak Bankının Baş müdiri Aydın Ayaydını, Xarici İqtisadi Əlaqələr Şurasının sədri Nihat Gökyigiti qəbul etmişdir.

- İstanbulda yaşayan azərbaycanlıların bir qrupu ilə görüşmüş və nitqlə çıxış etmişdir:

"Türkiyə Cümhuriyyətinin və onun rəhbərlərinin son illərdə Azərbaycana göstərdikləri kömək çox böyükdür və biz bunu yüksək qiymətləndiririk".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Axşam İstanbul valisi Hayrı Kozakçıoğlu Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

11 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev

öz iqamətgahında Türkiyənin bir qrup iş adamını ayrı-ayrılıqda qəbul etmişdir.

- Türkiyə Baş nazirinin müavini, dövlət naziri Murad Karayalçın ilə görüşmüşdür.

- Ölkənin keçmiş Prezidenti Turqut Özalın məzarını ziyarət etmişdir.

- İstanbuldakı mətbuat mərkəzində KİV nümayəndələri üçün mətbuat konfransı keçirmiş və bəyanatla çıxış etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Vətənə yola düşmüşdür.

24 fevral - Böyük Britaniyanın Baş naziri Con Meycorun dəvətilə Londonda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin bu ölkədəki səfiri Candemir Önhonu qəbul etmişdir.

1 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "İnterplas" Beynəlxalq Xeyriyyə Təşkilatı Türkiyə bölməsinin həkimlər qrupunu qəbul etmişdir.

13 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti Prezidentinin Baş müşaviri Namıq Kamal Zeybəki qəbul etmişdir.

24 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Xarici İşlər naziri Hikmət Çətini qəbul etmişdir.

5 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təyyarəsi Brüsseldən qayıdarkən texniki mülahizələrə görə Ankarada yerə enmiş, onun Türkiyə rəhbərləri ilə qısa görüşü keçirilmişdir.

9 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvətilə bu ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- Səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab vermişdir.

- Rəsmi qarşılanma mərasimindən sonra hər iki Prezident jurnalistlər qarşısında bəyanat vermişdir.

- Türkiyə Prezidenti Süleyman Dəmirəllə təkbətək görüş keçmişdir.

- Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Doğan Güreşlə görüşmüşdür.

10 iyun - Türkiyənin Xarici İşlər naziri Hikmət Çətini qəbul etmişdir.

- İstanbuldakı "Şalə Yıldız" köş-

kündə Türkiyənin Baş naziri xanım Tansu Çillərlə görüşmüşdür.

- Türkiyədən Vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında jurnalistlər üçün brifinq vermiş və bəyanatla çıxış etmişdir.

2 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İranda rəsmi səfərdə olarkən Azərbaycan Respublikası Tehran, Ankara və Moskva ilə öz əlaqələrini hansı prinsiplər əsasında qurur və hansı meyarları əsas götürür sualına cavab verərək bildirmişdir: Bir daha təkrar edirəm ki, biz qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istəyirik. Deməli, İran da, Türkiyə də bizim üçün dost və qardaş ölkələrdir. Moskva, yəni Rusiya ilə əlaqələr barədə geniş məlumat verdim, ona görə də təkrar etməyə ehtiyac duymuram.

6 iyul - "Utro Rossii" qəzetənə müsahibədə iqtisadiyyatın türk inkişaf modelinə toxunaraq bildirmişdir:

-Bizim türk xalqı ilə də, Türkiyə Cümhuriyyətinin rəhbərliyi ilə də ənənəvi dost münasibətlərimiz var. Əlbəttə, çiçəklənməkdə olan dünyəvi dövlətin nümunəsi çox cəlbedicidir, lakin mənə elə gəlir ki, biz inkişafın türk modelini bütünlüklə təkrar edə bilmərik və etməməliyik də. Azərbaycan milli-tarixi təcrübəsi olan özgə ölkədir. Nə qədər çətin və birmənalı olsa da, Rusiyanın iqtisadi islahatlar təcrübəsinin daha çox gərəkli olacağı istisna deyil.

7 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Doğan Güreşi və onu müşayiət edən bir qrup Türkiyə hərbçisini qəbul etmişdir.

29 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "Ferko" inşaat, turizm, sənaye və ticarət şirkətinin Bakı Baş Tikinti İdarəsi ilə birlikdə tikdiyi diplomatik kompleksin özülünün qoyulması mərasimində iştirak və çıxış etmişdir.

9 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Energetika və Təbii Qaynaqlar naziri Veysəl Atasoyu qəbul etmişdir.

10 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev işgüzar səfərə gəlmiş Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri Mümtaz Soysalı qəbul etmişdir.

20 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xəzər şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilənin imzalanması mərasimində iştirak edən Türkiyənin dövlət naziri Nəcməddin Cevherini

qəbul etmişdir.

23 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-a gedərkən İstanbulda olmuş, Türkiyənin Xarici İşlər naziri Mümtaz Soysalla görüşmüşdür.

26 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Nyu-Yorka gəlmişdir.

- Prezident "Türk Evi"ndə Nyu-Yorkda yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşmüşdür.

29 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Sessiyanın işində iştirak edən Türkiyənin Xarici İşlər naziri Mümtaz Soysalla görüşmüşdür.

1 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-dan Vətənə qayıdarkən yolüstü İstanbulda olmuş, Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

3 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev KİV qarşısında çıxışında İstanbulda Türkiyə Prezidenti cənab Süleyman Dəmirəl ilə görüşündən, ətraflı söhbət zamanı ABŞ-dakı danışıqlar barədə ona məlumat verdiyindən, müəyyən məsələlər barədə fikir mübadiləsi etdiklərindən danışmış, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərinə toxunduqlarını, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun qarşısının alınması ilə bağlı məsələləri də müzakirə etdiklərini söyləmişdir.

5 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ümumrespublika həmrəylik mitinqindəki çıxışında göstərmişdir ki, Azərbaycanda baş verən hadisələrlə bağlı dünyanın böyük dövlətlərinin başçıları və dövlət orqanları bəyanatlar vermişlər. Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəl dərhal telefonla zəng edib, bizimlə həmrəy olduğunu bildirmişdir.

18 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türk dövlətləri başçılarının II Zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti türk dövlətləri başçılarının II Zirvə toplantısının təntənəli açılış mərasimində çıxış etmişdir.

19 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev toplantı iştirakçıları olan Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan Prezidentləri ilə birgə bəyannamə imzalamışlar.

- KİV nümayəndələri üçün keçi-

rilən mətbuat konfransında iştirak etmişdir.

- Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə təkbətək görüşlər keçirmişdir.

- Vətənə qayıtmışdır.

26 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistanın müstəqillik qazanmasının üçüncü il dönümü münasibətilə keçirilən şənliklərdə iştirak etmək üçün Prezident Saparmurad Niyazovun dəvətilə rəsmi səfər etdiyi Aşqabadda Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

27 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistan - İran - Türkiyə - Avropa qaz kəmərinin rəmzi açılış mərasimində çıxış edərək bu dövlətlərin rəhbərlərini və xalqlarını təbrik etmiş, Türkmənistan, İran və Türkiyə arasında əldə olunmuş müqaviləni çox böyük hadisə adlandırmışdır.

28 oktyabr - Türkiyə Cümhuriyyətinin Milli bayramı - Cümhuriyyət elan olunması günü münasibətilə Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəli və bütün dost Türkiyə xalqını Azərbaycan xalqı adından və öz adından səmimi-qəlbdən təbrik etmişdir.

29 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin istiqlaliyyət qazanmasının 71-ci ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyinin "Gülüstan" sarayında düzəltdiyi rəsmi qəbulda çıxış etmişdir.

29 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri Süleyman Dəmirəli anadan olmasının 70 illiyi münasibətilə təbrik etmişdir.

1 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə Türkiyədə keçirilən yubiley tədbirlərində iştirak etmək üçün Ankaraya yola düşmüşdür.

- Esenboğa hava limanında rəsmi qarşılanma mərasimindən sonra öz iqamətgahında xarici ölkələrin Türkiyə və Azərbaycandakı səfirləri ilə görüşmüşdür.

- Türkiyə Xarici İqtisadi Əməkdaşlıq Komitəsinin üzvləri ilə görüşmüşdür.

- Türkiyənin Xarici İşlər naziri Mümtaz Soysalı qəbul etmişdir.

- Ankara yaxınlığındakı Bilkənd

Universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında çıxış etmişdir:

"Azərbaycan Respublikası, Azərbaycan xalqı Türkiyə xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə dostluq və qardaşlıq əlaqələrini, Türkiyə Cümhuriyyətinin Azərbaycana göstərdiyi yardımı və köməyi yüksək qiymətləndirir və həyatının bu ağır dövründə, torpaqlarına erməni təcavüzü davam etdiyi bir zamanda Türkiyəni, türk xalqını, Türkiyə Cümhuriyyətini özünə böyük dayaq sayır."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Elə həmin gün cənab Heydər Əliyev Ankarada yaşayan azərbaycanlılarla görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

- Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

2 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş komandanı İsmayıl Hakkı Karadayını qəbul etmişdir.

- Türkiyənin dövlət naziri Nəcməddin Cevherini qəbul etmişdir.

- "Çankaya" köşkündə Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüş, onun doğum gününü təbrik etmişdir.

- Türkiyənin Baş naziri Tansu Çillərlə görüşmüşdür.

- Türkiyə Böyük Millət Məclisində Türkiyə Parlamentinin Sədri Hüsaməddin Cindoruk ilə görüşmüşdür.

- Türkiyə Böyük Millət Məclisində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anma mərasimində çıxış etmişdir.

3 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vətənə qayıtmışdır.

4 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə iştirak etmək üçün Budapeştə yola düşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti səfər zamanı Budapeştdə Türkiyənin Baş naziri xanım Tansu Çillərin verdiyi naharda iştirak etmişdir.

6 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev

Zirvə toplantısında çıxış etmişdir. Türkiyənin Baş naziri xanım Tansu Çillərlə görüşmüşdür.

12 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının (İKT) növbəti Zirvə toplantısında iştirak etmək üçün Mərakeşə yola düşmüşdür.

- Yolüstü Türkiyənin İstanbul şəhərində olmuş və "Atatürk" hava limanında jurnalistlərlə görüşmüşdür.

13 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Zirvə toplantısında iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

16 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vətənə qayıdarkən yolüstü İstanbulda olmuşdur.

27 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri Hüsaməddin Cindoruku və Parlamentin nümayəndə heyətini qəbul etmişdir.

1995

18 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan, Türkiyə, Rusiya, Qırğızıstan və Gürcüstan Həmkarlar İttifaqı təşkilatlarının əlaqələndirmə şurasının Bakıda keçirilmiş iclasının iştirakçılarını qəbul etmişdir.

28 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün getdiyi İsveçrənin Davos şəhərində forumun işində iştirak edən Türkiyənin Baş naziri xanım Tansu Çillərlə görüşmüşdür.

4 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Energetika və Təbii Qaynaqlar naziri Veysəl Atasoyun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

9 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

11 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin xətti ilə keçirilən Sosial İnkişaf məsələlərinə həsr olunmuş Zirvə toplantısında iştirak etmək üçün getdiyi Danimarkada Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür. Görüşdən sonra Azərbaycan Prezidenti Türkiyə jurnalistlərinin suallarına cavab vermişdir.

21 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

3 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Türk Petrolları Anonim Ortaqlığı" (TPAO) şirkətinin vitse-prezidenti Mustafa Murat başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

12 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycana rəsmi səfərə gələn Türkiyənin Baş naziri xanım Tansu Çilləri Binə hava limanında qarşılamışdır.

- Xanım Tansu Çillərlə Şəhidlər Xiyabanını ziyarət etmişdir. Azərbaycan Prezidenti xanım Tansu Çillərlə danışıqlar aparmışdır.

- "Gülüstan" sarayında Türkiyənin Baş naziri xanım Tansu Çillərlə birlikdə ölkələrimiz arasında neft sahəsində əməkdaşlığa dair sazişin imzalanması mərasimində iştirak və çıxış etmişdir:

"Məlumunuzdur ki, 1994-cü il sentyabrın 20-də burada "Gülüstan" sarayında "Əsrin Müqaviləsi" adlanan müqavilə imzalanmışdır. Həmin müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağından - "Azəri", "Çıraq", və "Günəşli" yataqlarından dünyanın bütün şirkətləri ilə müştərək istifadə olunması ilə əlaqədardır. Bu müqavilədə Türkiyənin şirkəti də iştirak edir. O vaxt həmin sənəd imzalanarkən Türkiyə şirkəti bu müqavilənin 1.75 faizinin sahibi olmuşdur. Yəni Türkiyə bu müqavilədə əvvəldən var. Sonradan isə Azərbaycan Respublikasının öhdəsində qalmış 20 faiz haqqında fikirləşdik. Türkiyənin bu barədə bizə müraciəti olmuşdur. Türkiyə Prezidenti, əziz dostumuz və qardaşımız hörmətli Süleyman Dəmirəl mənə məktub göndərmiş və xüsusi müraciət etmişdir. Baş nazir hörmətli Tansu xanım Çillərdən də mənə bu barədə müraciət olmuşdur. Bunları və Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrini nəzərə alaraq, onların daha da inkişaf etdirilməsini istəyərək, respublikamız həmin müqavilədə öz payından 5 faiz əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Azərbaycanda fəaliyyət göstərən və gələcəkdə də Azərbaycanla işgüzar əlaqələr qurmaq istəyən Türkiyə iş adamlarının bir qrupu ilə gö-

rüşmüşdür.

- Prezident Heydər Əliyev Xanım Tansu Çilləri vətənə yola salmışdır.

23 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

25 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Dövlət Opera və Balet Teatrında professor İhsan Doğramaçının 80 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak və çıxış etmişdir.

2 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür Orhunun etimadnaməsini qəbul etmişdir.

3 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti Xarici İşlər naziri Ərdal İnönünü qəbul etmişdir.

7 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Böyük Britaniya rəhbərliyinin dəvətilə faşizm üzərində qələbənin 50 illik yubileyinə həsr olunmuş şənliklərdə iştirak edərkən Londonda Türkiyə Cümhuriyyətinin Baş nazir xanım Tansu Çillər ilə görüşmüşdür.

23 may - Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev "Xəzərneftqaz-95" beynəlxalq sərgisinin işində iştirak edən Türkiyə Energetika və Təbii Qaynaqlar naziri Veysəl Atasoyu qəbul etmişdir.

11 iyun - Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Türkiyədə yaşayan soydaşımız - "Turanlılar" şirkətlər qrupunun prezidenti Əli Turanlını və onun oğlu, şirkətin nümayəndəsi Dağıstan Turanlını qəbul etmişdir.

30 iyun - Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Buxarestdə Qara Dəniz Hövzəsi ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edərkən Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

10 iyul - Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Azərbaycana rəsmi səfərə gələn Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çilləri Binə hava limanında qarşılamışdır.

- Azərbaycan Prezidenti və Türkiyənin Baş naziri xanım Tansu Çillər Şəhidlər xiyabanında olmuşlar.

- Azərbaycan-Türkiyə danışıqları başlanmışdır.

- Prezident "Gülüstan" sarayında Türkiyənin Baş nazirinin şərəfinə

ziyafət vermişdir. Ziyafətdə çıxış edən Azərbaycan Prezidenti demişdir:

"Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr son dövrdə daha yüksək səviyyəyə qalxmışdır. Bu gün dərin minnətdarlıq hissi ilə qeyd edə bilərik ki, Türkiyə tarixin bütün mərhələlərində Azərbaycana böyük diqqət göstərib, kömək edibdir".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

11 iyul - Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş naziri xanım Tansu Çillər BDU-da olmuşlar. Xanım Tansu Çillərə BDU-nun fəxri doktoru diplomu təqdim edilmişdir.

- Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş naziri Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanalarında yaşayan qaçqınlarla görüşmüşlər.

- "Azərtürkbank"ın açılışında olmuşlar.

- Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş naziri hökumət üzvlərinin iştirak etdikləri yığıncaqda Azərbaycan-Türkiyə danışıqlarının yekunları haqqında məlumat vermişlər.

- KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişlər.

- İş adamları ilə görüşmüşlər.

- ABƏŞ-in Rəhbər Komitəsinin üzvləri ilə görüşmüşlər.

- Respublika sarayında Azərbaycan ictimaiyyətinin nümayəndələri ilə görüşmüşlər. Görüşdə Azərbaycan Prezidenti nitqlə çıxış etmişdir:

"Türkiyə tarix boyu bizə kömək etmiş, arxa olmuşdur. Azərbaycan xalqı heç vaxt unutmayacaq, həyatımızın çətin dövründə Türkiyənin bizə göstərdiyi dəstəyə, mənəvi dayağa görə minnətdar olacaqdır".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

12 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Baş nazirini vətənə yola salarkən xanım Tansu Çillərlə birlikdə yolüstü Türkiyənin "Çağ" Öyrətim işlətmələri şirkətinin açdığı Qafqaz universitetində olmuş, şirkət rəhbərliyi və Universitet rektorundan fəaliyyətləri haqda məlumat almışlar.

7 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair danışıqlarda Türkiyənin nümayəndəsi Ka-

mal Ayhanı qəbul etmişdir.

27 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Manas" dastanının 1000 illik yubileyi şənliklərində və türkdilli dövlətlərin başçılarının III Zirvə toplantısında iştirak etmək üçün Bişkeka yola düşmüşdür.

28 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türkdilli dövlətlərin başçılarının III Zirvə toplantısında çıxış etmişdir.

- Zirvə toplantısının yekunlarına dair Bişkek bəyannaməsini imzalamışdır.

- KİV nümayəndələri üçün keçirilən mətbuat konfransında iştirak etmişdir.

30 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türk Xalqlarının III Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının iştirakçılarına təbrik məktubu göndərmişdir.

19 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür Orhunu qəbul etmişdir.

20 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak etmək üçün ABŞ-a yola düşərkən İstanbulun Atatürk hava limanında mətbuat konfransındakı bəyanatında bildirmişdir: İki boru xətti barədə qərar qəbul olundu - biri Gürcüstandan Qara dənizə, o birisi Rusiyadan Qara dənizə. Bu qərarı Türkiyə də çox bəyənibdir. Bu, Türkiyənin də maraqlarını təmin edir. Bu qərar Qərbdə də çox bəyənilibdir. Biz də bunu çox əhəmiyyətli qərar hesab edirik... **Boru xətti Ceyhana getməlidir. Bu, böyük boru xətti olacaqdır. İstanbul boğazından nəyi keçirəcəksiniz, nəyi keçirməyəcəksiniz - bu, sizin öz işinizdir. Ancaq bizim məqsədimiz boru xəttini Türkiyədən Ceyhana keçirməkdir. Sizin də istəyiniz budur. Mən sizin arzunuza görə bunu dedim.**

20 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da azərbaycanlı icmasının nümayəndələri ilə Türk evində görüş keçirtmiş, bildirmişdir ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi dünyanın hər bir ölkəsi ilə sərbəst əlaqələr qurur. **Biz Azərbaycanda müstəqil dövlət kimi yaşayaraq, eyni zamanda dünyada yaşayan bütün azərbaycanlılar, bütün türklər haqqında düşünürük. Hamımız bir millətik. Hamımız bir kökə məxsus xalqıq. Azərbaycanda yaşayanların, Azərbaycandan gəlib burada, Amerika, İranda, Türkiyədə, İngiltərədə və digər ölkələrdə yaşayanların hamısı birdir.**

Biz müstəqil Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün çalışırıq ki, dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələr yaradaq. Son iki ildə dünyanın böyük dövlətləri ilə, qonşu ölkələrlə və digər dövlətlərlə əlaqələrimizin inkişafı üçün bir çox addımlar atılıbdır. Mən bir çox ölkələrə səfərlər etmişəm. Azərbaycana müxtəlif ölkələrin dövlət və hökumət başçılarının səfərləri olubdur. Biz çox gərəkli sazişlər, müqavilələr imzalamışıq. Bunların həyata keçirilməsini istəyirik. Məqsədimiz Azərbaycanı açıq, sərbəst bir ölkəyə çevirməkdən ibarətdir. Azərbaycanın qapılarını dünyaya açmışıq. Respublikamız dünya investisiyaları üçün açıqdır. Azərbaycanda yeni həyat yaranır. Azərbaycanda sivilizasiyalı, hüquqi demokratik dövlət qururuq. Biz Azərbaycanı demokratiya yolu ilə aparmaq istəyirik, dünya demokratiyasına qovuşdurmaq istəyirik. Respublikamız iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatına, sahibkarlıq prinsiplərinə qovuşdurmaq məqsədi ilə hər bir ölkə ilə, hər bir şirkətlə, hər bir iqtisadi qurumla əlaqə qurmağa hazırıq və bu əlaqələri də qururuq. ...Biz ölkəmizin iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatı əsasında qururuq, ona görə də hər bir şirkətin Azərbaycana gəlməyə imkanı var.

İndi Azərbaycanda sakitlikdir. İnsanlar sərbəst yaşayırlar. Doğrudur, çətin yaşayırlar. İqtisadi vəziyyət ağırdır. Əhalinin bir qismi kasıblıq içərisindədir. Ancaq insanlar mənəvi cəhətdən rahat yaşayırlar, sabit şərait yaranıb. Ona görə də Azərbaycana gəlin. Azərbaycana rahat gəlməyə, qohum-əqrabalarınızla görüşməyə əvvəlki illərdən indi daha yaxşı şərait yaranıbdır.

Biz burada Türk evindəyik. Türkiyə dost və qardaş ölkəmizdir. Türkiyə bizim öz məmləkətimizdir. Yəni Azərbaycandan Türkiyəyə gələn hər bir adam özünü öz məmləkətində hiss edir. Türkiyədənə Azərbaycana gələnlər də özlərini öz məmləkətlərində hesab edirlər.

Nyu-Yorkdakı Türk evinə mən ikinci dəfədir ki, gəlirəm, doğma evimiz kimi gəlirəm. Ev sahiblərinin burada Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün göstərdikləri səylərə, gördükləri işlərə öz hörmət və ehtiramımı bildirmək istəyirəm. Biz dostluq, qardaşıq. Mən buraya gələrkən bu gün bir saat, saat yarım İstanbulda oldum. Orada bir neçə rəhbər şəxslərlə görüşdüm. İki gün bundan əvvəl hörmətli dostumuz Süleyman Dəmirəllə telefonla danışdım. Türkiyənin Prezidenti Süleyman Dəmirəl də sabah buraya gələcəkdir. Onunla da görüşlərimiz olacaq. **Yəni bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri tarixi köklər üzərində qurulub. Ancaq yeni dövrdə bu əlaqələr inkişaf edir, böyüyür və hər birimiz bu əlaqələrin inkişaf et-**

məsinə çalışmalıyıq. Azərbaycanın Prezidenti kimi bundan sonra da çalışacağam.

23 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin yaranmasının 50 illiyinə həsr olunmuş təntənələrdə iştirak etmək məqsədilə getdiyi Nyu-Yorkda Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

28 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin 72-ci il dönümü münasibətilə Bakıdakı Türkiyə səfirliyinin təşkil etdiyi rəsmi qəbulda iştirak etmiş və nitq söyləmişdir.

3 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətini qəbul etmişdir.

29 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev işgüzar səfər məqsədilə getdiyi Londonda Türkiyənin "Anadolu" agentliyinin və "Hürriyət" qəzetinin London müxbirləri Əli Koçaka və Hefsat Elevliyə müsahibə vermişdir.

5 dekabr - İzmir "9 Eylül" Universitetinin Elmi Şurası Azərbaycanın müstəqillik qazanması və ölkənin ən ağır dövründə üzərinə aldığı Prezident vəzifəsini müvəfəqiyyətlə yerinə yetirdiyinə, Azərbaycanda demokratiyanın bərqərar olması və inkişafı naminə yorulmadan çalışdığına, Azərbaycanın təhlükəsizliyini və milli mənafeyini beynəlxalq aləmdə uğurla təmin etdiyinə, həmçinin Türkiyə Cümhuriyyəti ilə iqtisadi, mədəni və sosial sahələrdə əməkdaşlığın həyata keçirilməsində misilsiz xidmətlər göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində fəxri doktor adının verilməsi barədə yekdillikle qərar qəbul etmişdir.

6 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Binə hava limanında Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Türkiyə Prezidenti Süleyman Dəmirəli qarşılamışdır.

- Süleyman Dəmirəllə birlikdə Şəhidlər Xiyabanını ziyarət etmişdir.

- İki ölkənin dövlət başçıları arasında təkbətək görüş olmuşdur.

- Azərbaycan-Türkiyə danışıqları Prezidentlərin başçılıq etdikləri nümayəndə heyətləri arasında davam etdirilmişdir.

- "Gülüstan" sarayında Türkiyə Prezidenti Süleyman Dəmirəlin və onun xanımının şərəfinə ziyafət vermişdir. Heydər Əliyev ziyafətdə nitqlə çıxış etmişdir:

"Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almış, türk xalqının köməyini hiss etmiş, türk xalqının Azərbaycan xalqı ilə həmrəyliyini daim duymuşdur. Bizim keçmişimiz, tarixi əlaqələrimiz çox zəngindir".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

8 dekabr - Cənab Süleyman Dəmirəllə birlikdə Türkiyənin "DHT-Konstruktion" şirkətinin inşa etdiyi Azərbaycan Beynəlxalq Bankının tikinti meydançasında olmuşdur.

- Türkiyə Prezidenti Süleyman Dəmirələ Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının fəxri doktoru adı verilməsi mərasimində iştirak etmişdir.

- Hər iki ölkənin dövlət başçısı birlikdə Azərbaycan Respublikası Milli Məclisində olmuş, çıxış etmişlər.

"İndiyə qədər olduğu kimi, bundan sonra da biz Azərbaycan üçün tarix boyu dost və qardaş olan Türkiyə ilə, türk xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə öz əlaqələrimizi inkişaf etdirəcəyik".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Prezidentlər BDU-nun tələbə yataqxanasında məskunlaşmış qaçqınlarla görüşmüş, Xətai rayonundakı uşaq evində olmuş, Bakıda fəaliyyət göstərən Türk Anadolu litseyini ziyarət etmiş, Azərbaycanın və Türkiyənin işgüzar dairələrinin nümayəndələri ilə görüşmüş, iki ölkənin KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişlər.

- Prezident Heydər Əliyev Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq haqqında sənədlərin imzalanması mərasimində iştirak etmiş, Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan ictimaiyyəti nümayəndələrinin Respublika sarayında keçirilən görüşündə iştirak və çıxış etmişdir:

"Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Karabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən, Azərbaycanda da Ənver Paşanı, Nuru Paşanı heç kəs, heç vaxt unutmur və unuda bilməz. Onların simasında o dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən türk qardaşlarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

9 dekabr - Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə birlikdə Türkiyənin "Bayholdinq" şirkətinin paytaxtda tikəcəyi ilk binanın özülünün qoyulması mərasimində, Azərbaycan Respublikası Rabitə Nazirliyinin "Aztelekom" istehsalat birliyində respublikada ilk beynəlxalq telefon stansiyasının, habelə yenidən qurulmuş şəhərlərarası rabitə stansiyasının birinci növbələrinin açılışında iştirak etmişdir.

- Ölkəmizin başçısı Azərbaycana rəsmi səfərini başa çatdıran Türkiyə Prezidentini vətənə yola salmışdır.

14 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Əmək və Sosial Təminat naziri Mustafa Kulu qəbul etmişdir.

1996

10 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Fransanın eks-prezidenti Fransua Mitteranın dəfn mərasimində iştirak etmək üçün Parisdə olarkən Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

8 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair danışıqlarda Türkiyə Prezidentinin xüsusi nümayəndəsi Kamal Ayhanı qəbul etmişdir.

6 mart - İstanbuldakı Fatih Universitetinin Elmi Şurası Azərbaycan və Türkiyə arasındakı siyasi, iqtisadi, mədəni əlaqələrin, təhsil sahəsində əməkdaşlığın inkişafı və Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi sahəsində göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə fəxri doktor adının verilməsi barədə yekdillikle 7 saylı qərarı qəbul etmişdir.

21 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasında Türkiyə Prezidentinin nümayəndəsi Kamal Ayhanı qəbul etmişdir.

3 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə İqtisadi Araşdırmalar vəqfinin prezidenti Orhan Dikmeni qəbul etmişdir.

14 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycana rəsmi səfərə gələn Türkiyənin Baş naziri Məsud Yılmazı qəbul etmişdir. Azərbaycanla Türkiyə arasında sənədlərin imzalanması mərasimində iştirak etmişdir.

- Mərasimdən sonra Türkiyə

Cümhuriyyətinin Baş naziri Məsud Yılmazın şərəfinə rəsmi ziyafət verilmişdir. Ziyafətdə Azərbaycan Prezidenti nitq söyləmişdir:

"Bizim dostluğumuzun, qardaşlığımızın böyük gələcəyi var. Biz Türkiyəni özümüzə dayaq hesab edirik. Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş nailiyyətləri özümüz üçün örnək hesab edirik".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

- Məsud Yılmazla birlikdə Respublika sarayında ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür. Görüşdə Heydər Əliyev nitqlə çıxış etmişdir:

"Biz daim bir-birimizə dayaq olmuşuq, yardım əli uzatmışıq. Keçmişdə də belə olubdur. İndi də belədir. XX əsrin əvvəlində Azərbaycanın həyatında faciəli hadisələr baş verdiyi zaman Türkiyədə olan qardaşlarımız bizim dadımıza yetişmişlər, harayımıza gəlmişlər, kömək əlini uzatmışlar".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

15 aprel - Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmaza BDU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində çıxış etmişdir.

- Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazla birlikdə diplomatik korpusun tikinti meydançasında, "Ramstore" supermarketinin açılışında olmuşdur.

- Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazla Sabunçu rayonundakı 6 saylı texniki peşə məktəbinin yataqxanasında yaşayan Füzuli, Cəbrayıl, Zəngilan qaçqınları ilə görüşmüşdür. Görüşdə çıxış edən Azərbaycan Prezidenti demişdir:

"Ermənistanın Azərbaycana silahlı təcavüzü başlanandan indiyə qədər biz Türkiyəni, Türkiyə xalqını, Türkiyə Cümhuriyyətinin rəhbərlərini, başçılarını öz yanımızda, özümüzlə bərabər görürük. Bu, bizim üçün böyük təskinlikdir, dayaqdır, eyni zamanda böyük yardım və köməkdir".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Azərbaycan Prezidenti Məsud Yılmazı vətənə yola salmışdır.

14 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İƏT-in IV Zirvə toplantısında iştirak etmək məqsədilə getdiyi Aşqabadda Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

30 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" konfransında geniş nitqlə çıxış etmişdir:

"Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsərlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqlarımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-birinə bənzərliyi, yaxud eyniliyi, milli duyğularımızın bir-biri ilə oxşar olması - hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx dostluq, qardaşlıq əlaqələri yaratmışdır".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

31 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" mövzusunda konfransda iştirak etmək üçün Bakıya gəlmiş Türkiyənin dövlət naziri Yaman Törünerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

11 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisi Sədrinin müavini Kamer Gençin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin İqdır şəhərinin bələdiyyə başçısı Əli Asker Ayrımı, Mələkli bələdiyyə başçısı, Feyzullah Türkeli, Ana Vatan Partiyası İqdır təşkilatının başçısı Müzəffər Qenceni qəbul etmişdir.

24 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmayıl Hakkı Karadayının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

25 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "Bayholdinq" şirkətinin və Böyük Britaniyanın "Balli qrup" şirkətlər qrupunun birgə nümayəndə heyətini qəbul etmişdir.

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi ilə Türkiyə Cümhuriyyəti Əmək və Sosial Müdafiə nazirliyi arasında Əməkdaşlıq Protokolu barəsində sərəncam vermişdir.

1 iyul - Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan cəmiyyətləri federasiyalarının nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çıxış etmiş, bildirmişdir ki, dünyanın hər bir ölkəsində,

hər bir şəhərində, quşəsində, kəndində yaşayan soydaşımız müstəqil dövlətimiz üçün, Azərbaycanın Prezidenti kimi mənim üçün əziz vətəndaşımız, soydaşımız, həmvətənimizdir.

Mən bunu sizə həm Azərbaycanın dövlət siyasəti kimi bildirirəm, həm də bunu deyərkən ona əsaslanıram ki, harada yaşamasından asılı olmayaraq hər bir soydaşımız özünü əəzrbaycanlı hesab edərək, ölkəmizi heç vaxt unutmamalıdır, öz Vətənini, torpağını, millətini, dilini unutmamalıdır. Ona görə də Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımıza bizim tərəfimizdən, bu prinsiplər əsasında doğma münasibət var.

...Biz Türkiyə ilə çox maraqlanırdıq ki, oradakı soydaşlarımız necə yaşayırlar. Bilirdik ki, Türkiyədə vaxtilə Azərbaycandan mühacirət etmiş soydaşlarımız da yaşayırlar.

Burada çıxış edən dostlarımız dünya ölkələrində 50 milyon azərbaycanlının yaşamasından söhbət açdılar. Bəli, belədir, bu mənə də məlumdur. Həmin rəqəm bəlkə bundan da çoxdur. Amma hər halda, əgər dünyada 40 milyon azərbaycanlı yaşayırsa, onlar azərbaycanlı adı daşıyırlarsa, onlarda azərbaycanlı qəlbi, qanı varsa, bu, hamımızın fəxridir. Mən demirəm ki, bu 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu heç də lazım deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər və ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız bundan da yaxşı həm yaşaya, həm işləyə, həm də Vətənimiz, xalqımız üçün çox işlər görə bilərlər.

...Dediniz ki, burada iki milyon türk var. Bir-birinizə dayaq olun, Mən du gün Almaniyada yaşayan iki milyon türkün hamısı ilə görüşmək istərdim. Mən onların hamısını özüm üçün doğma hesab edirəm. Onlar sizin üçün də doğma olmalıdır. Almaniyada 150 min azərbaycanlının yaşaması da yaxşı haldır. Çalışın azərbaycanlılığınızı bundan sonra daha da möhkəmləndirin.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

9 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənab Nəcməddin Ərbakanı Türkiyə Cümhuriyyətinin Baş naziri seçilməyi və qurduğu hökumətin Türkiyə Böyük Millət Məclsindən etimad alması münasibətilə təbrik etmişdir

13 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Diyanət İşləri naziri Nuru Yılmazı qəbul etmişdir.

12 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür

Orhunu dipomatik missiyasını başa vurması münasibətilə qəbul etmişdir.

16 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin görüşündə çıxış edərək bildirmişdir ki, ...Azərbaycan özünün bütün qonşuları ilə sülh şəraitində yaşamaq istəyir. Biz Gürcüstanla, İranla, Türkiyə, Rusiya ilə yaxşı, mehriban münasibətlər yaratmışıq.

28 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Milli Təhlükəsizlik Şurasının Sədri Sönməz Köksalı qəbul etmişdir.

5 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədəki Azərbaycan lobbisinin rəhbəri Yahya Taşdeləni qəbul etmişdir.

7 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çağ" Öyrətim İşlətmələri Şirkətinin Qubada fəaliyyət göstərən özəl türk litseyinin yeni binasının təməlinin qoyulması mərasimində iştirak etmək üçün gəlmiş Türkiyənin dövlət nazirləri Namıq Kamal Zeybəki və Əhməd Demircanı qəbul etmişdir.

22 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türkdilli ölkələrin dövlət başçılarının IV Zirvə toplantısında və Əmir Teymurun anadan olmasının 660-cı ildönümünü münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün Daşkəndə yola düşmüşdür.

- Türkdilli ölkələrin dövlət Başçılarının IV Zirvə Toplantısında çıxış etmişdir.

- Daşkənd bəyannaməsini imzalamışdır. Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

24 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruk Loğoğlunun etimadnaməsini qəbul etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatına daxil olan ölkələrinin dövlət və hökumət başçılarının növbəti - VIII görüşündə iştirak etmək üçün Moskvaya yola düşmüşdür.

25 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatına daxil olan ölkələrinin dövlət və hökumət başçılarının növbəti VIII görüşündə iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

30 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında səfərdə olarkən "Naxçıvan-Türk" bankında olmuşdur.

6 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türk Dünyası yazıçılarının III qurultayının açılışında çıxış etmişdir.

- Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti TÜRKSOY-un VIII toplantısının açılışında iştirak və çıxış etmişdir.

- Azərbaycan-Türkiyə iş birliyinin Bakıda keçirilən iclasında iştirak edən Türkiyə nümayəndə heyətini qəbul etmişdir.

10 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədəki Azərbaycan ismasının rəhbəri Yahya Taşdeləni qəbul etmişdir.

13 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Silahlı qüvvələrinin Baş Komandanı, ordu generalı Hikmet Köksalı qəbul etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin TGRT kanalının "Üz-üzə" proqramına müsahibə vermişdir.

23 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Ali Məhkəməsinin sədri Müfit Utkunu qəbul etmişdir.

1 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Zirvə görüşündə iştirak məqsədilə getdiyi Lissabon şəhərində Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür. Həmin axşam Türkiyə Prezidenti Süleyman Dəmirəl Lissabonda Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

18 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruk Loğoğlunu qəbul etmişdir.

1997

1 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Milli Təhsil naziri Mehmet Sağlamı qəbul etmişdir.

5 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Şahdəniz" neft yatağı üzrə müqavilə layihəsinin idarəetmə komitəsi üzvləri ilə görüşdə bildirmişdir:

... Bu müqaviləni həyata keçirən şirkətlər böyük və zəngin təcrübəyə malikdirlər. "Britiş petrolium", "Statoyl", "Elf Akiten", "LUKoyl", İranın OİEK, Türkiyənin "Türk petrolları" şirkətləri çox təcrübəli, yenə də deyirəm, böyük, zəngin təcrübəyə

malık olan şirkətlərdir. Onların bir yerdə, müştərək iş görməsi və işin bu qısa müddətdə lazımi səviyyədə təşkil olunması şübhəsiz ki, yaxşı qiymətə layiqdir. Təbiidir ki, bu konsorsiuma, yəni bu layihəyə daxil olan şirkətlər - buraya Azərbaycan Dövlət Neft Şirkəti də daxildir - bütün işləri bilavasitə Azərbaycan Dövlət Neft Şirkəti ilə birgə görürlər. Mən məmnunam ki, görülən işlərin əksəriyyəti Azərbaycan Dövlət Neft Şirkəti, respublikamızın sənaye müəssisələri, şirkətləri ilə müştərək şəkildə həyata keçirilir.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

19 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kalemlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakının Gənclər meydanında Qoşaqala qapıları önündə Novruz şənliyində çıxış etmiş və bəyan etmişdir:...Biz dünyadakı bütün ölkələrlə, xalqlarla qarşılıqlı surətdə faydalı, mehriban dostluq əlaqələri yaradırıq və yaratmaq istəyirik. Biz bölgəmizdə, Qafqazda sülhün bərqərar olmasını istəyirik. Biz bütün qonşularımızla - Rusiya, İran, Türkiyə, Gürcüstan və başqa qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Bundan sonra da sülh və əmin-amanlıq şəraiti yaratmağa çalışacağıq.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

27 mart- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Fransanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinə bildirmişdir: ...Bizim neft müqavilələrində Yaponiya da iştirak edir, Rusiya iştirak edir, İtaliyanın "Acip" şirkəti, Səudiyyə Ərəbistanının "Delta", Türkiyənin "Türk petrolları" şirkətləri iştirak edir. Görürsünüz, əməkdaşlığımız nə qədər böyük çərçivədədir. Bizim müqavilədə İran da iştirak edir.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

5 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirələ və qardaş Türkiyə xalqına Türkiyənin görkəmli siyasi xadimi Alparslan Türkeşin vəfatı münasibətilə dərin hüznlə başsağlığı vermiş, səbr diləmişdir.

5 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Milliyətçi Hərəkat partiyası sədrinin müavini Toğrul Türkeş cənablarına və qardaş Türkiyə xalqına Türkiyənin görkəmli siyasi xadimi Alparslan Türkeşin vəfatı münasibətilə dərin hüznlə başsağlığı vermiş, səbr diləmişdir.

9 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türk dövlət və topluluqlarının İstanbulda çağrılan V dostluq, qardaşlıq və işbirliyi beynəlxalq qurultayı iştirakçılarını təbrik etmişdir.

13 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tanınmış türk müğənnisi Ebru Gündeşin konsertində olmuşdur.

23 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayevin şərəfinə verilmiş rəsmi ziyafətdəki nitqində göstərmişdir ki, türk dövlətləri başçılarının görüşü böyük gələcəyə malikdir. Biz bu görüşlərə böyük əhəmiyyət veririk və ildən-ilə daha çox yəqin edirik ki, Bizi tarixi keçmişimiz, dilimiz, ənənələrimiz birləşdirir və bu zəmin dövlət müstəqilliyimizi, suverenliyimizi daha da möhkəmlətmək üçün, habelə ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq üçün yaxşı vasitədir.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

28 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin İstanbulda keçiriləcək biznes konfransında iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür.

29 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Mstislav Rastropoviç, onun xanımı Qalina Vişnevskaya və ailəsinin digər üzvləri ilə görüşdə bildirmişdir ki, dünən İstanbulda Türkiyə, Rumıniya, Gürcüstan, Ukrayna, Moldova, Ermənistan və Azərbaycan Prezidentlərinin biznes-konfrans zamanı görüşləri keçirildi. Orada mən bütün Prezidentlərlə görüşdüm və biz yenə də yekdil fikirdə olduq ki, Qafqazda, bütün regionda, bütün dünyada sülh, əmin-amanlıq və firavanlıq yaratmaq lazımdır.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

5 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə qardaş ölkəyə rəsmi səfərə yola düşmüşdür.

- Həmin gün Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfəri ilə əlaqədar "Çankaya" köşkündə qarşılanma mərasimi olmuşdur.

- Hər iki qardaş ölkənin Prezidentləri mətbuat üçün qısa bəyanatlar vermişlər.

"Türkiyə bizim dost, qardaş ölkəmizdir. Türkiyə ilə Azərbaycan

arasında dostluq. qardaşlıq əlaqələrinin ən dərin kökləri var. Bizim keçmiş əlaqələrimiz və son illərdə sürətlə inkişaf edən əlaqələrimiz indi Türkiyə-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldırıbdır. Azərbaycan bundan çox məmnunluq duyur. Azərbaycan xalqı, respublikamızın bütün vətəndaşları Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz qardaş ölkəsi kimi daim sevgi-məhəbbət hisslərini bildirirlər".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin banisi, Türk dünyasının görkəmli xadimi Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət etmiş, məzarının önünə əklil qoymuş və fəxri qonaqlar üçün xatirə kitabına ürək sözlərini yazmışdır:

"Bu müqəddəs yeri Türkiyə Cümhuriyyətinin banisi, Böyük Mustafa Kamal Atatürkün məzarını yenidən ziyarət edərkən, onun ruhu qarşısında baş əyirəm. Onun ölməz xatirəsinə, bəşər tarixindəki xidmətlərinə dərin hörmət və ehtiramımı bildirirəm. Azərbaycan xalqı Böyük Atatürkün xatirəsini qəlbində yaşadır, daim yaşadacaqdır. Allah rəhmət eləsin".

-Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmayıl Hakkı Karadayı ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Süleyman Dəmirəllə təkbətək görüşmüş, sonra Prezidentlərin rəhbərliyi ilə iki qardaş dövlətin nümayəndə heyətləri arasında danışıqlar başlanmışdır.

- İkitərəfli danışıqlar başa çatdıqdan sonra "Çankaya" köşkündə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

- Prezidentlər Heydər Əliyev və Süleyman Dəmirəl "Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında" bəyannaməni imzalamışlar.

- Sonra Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə hökuməti arasında sənədlər imzalanmışdır. Azərbaycan Xarici İşlər naziri Həsən Həsənov və Türkiyə Cümhuriyyəti Baş naziri xanım Tansu Çillər "Sərhəd məsələlərinin və anlaşılmazlıqlarının həlli haqqında saziş"ə, Azərbaycan Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin dövlət naziri Gürcan Dağdaş "Gəmiçilik sazişi"nə, Abid Şərifov və Türkiyənin Yollar naziri Ömər Barutçu "Hava daşımaları haqqında sazişə əlavə protokol"a

imza atmışlar. Azərbaycan Gənclər və İdman naziri Əbülfəz Qarayev və Türkiyənin dövlət naziri Bahəddin Şeker "Gənclik və idman sahəsində əməkdaşlığa dair əlavə protokol"u, nazirlər Əli Nağıyev və Necati Çelik Əmək və Əhalinin Sosial Təminat nazirlikləri arasında əməkdaşlıq sazişini imzalamışlar.

- Daha sonra "Kiçik və orta həcmli sənaye müəssisələrini inkişaf etdirmək istiqamətində əməkdaşlığın əlavə protokolu" və "Elektrik enerjisi sahəsində əməkdaşlığın prinsipi haqqında saziş" imzalanmışdır.

- Hər iki ölkənin dövlət başçıları mərasimdə bəyanatla çıxış etmişlər.

"Çankaya" köşkündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Türkiyə Cümhuriyyətinin ən yüksək dövlət mükafatı olan "Dövlət nişanı" təqdim edilmişdir.

Mərasimdə Türkiyə Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etmişlər:

"Biz qardaş Azərbaycan Respublikasının çox hörmətli Prezidenti, qardaşım Heydər Əliyevə Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində göstərdiyi xidmətlərə görə Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı"nı təqdim etmək məqsədilə buraya toplaşmışıq. Bu "Dövlət nişanı" dövlətlər arasında dostcasına əlaqələrin inkişaf etdirilməsinə və millətlərin bir-birinə yaxınlaşmasına nail olan dövlət başçılarına verilir. Bu gün bu nişanı qardaş ölkənin dövlət başçısına - Hörmətli Prezident Heydər Əliyevə təqdim etməkdən böyük şərəf duyuram".

(Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin çıxışından)

"Mən çox həyacanlıyam. Doğrusu, belə bir yüksək mükafatı heç də gözləmirdim. Çünki, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdirmək, genişləndirmək, günü-gündən irəliyə aparmaq bir azərbaycanlı, bir vətəndaş kimi mənim müqəddəs borcumdur".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Mərasimin sonunda Prezident Heydər Əliyev orada iştirak edən jurnalistlərin suallarına cavab vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankarada öz iqamətgahında Türkiyə Baş nazirinin müavini xanım Tansu Çillər ilə görüşmüşdür.

-Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankarada öz iqamətgahında Türkiyənin Baş naziri Nəcməddin Ərbakan ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iqamətgahları Ankarada yerləşən, Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin səfirləri ilə görüşmüş və nitqlə çıxış etmişdir.

- Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir. Rəsmi ziyafətdə dövlət başçıları nitq söyləmişlər.

"Sizi əmin edirəm ki, Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq olacaqdır. Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır. İndiyə qədər bu fikirlərlə yaşamış millət bundan sonra da həmin fikirlərlə yaşayacaqdır. Azərbaycanda yaşayan bütün azərbaycanlılar Türkiyədə yaşayan qardaşları ilə indiyə qədər bir olublar və bundan sonra da bir olacaqlar".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

- Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankarada öz iqamətgahında Türkiyənin Milliyətçi Hərəkat Partiyasının sədri əvəzi Tuğrul Türkeşi qəbul etmişdir.

6 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, Ankaranın mərkəzi küçələrindən birinə - 3-cü caddəyə Azərbaycan Prospekti adı verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

- Ankaranın bələdiyyə başçısı Melik Gökçek mərasimdə çıxış etmişdir. Sonra isə hər iki ölkənin Prezidentləri çıxış etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin yeni binasının təməlinin qoyulması münasibətilə keçirilən təntənəli məra-simdə iştirak etmiş və nitq söyləmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankarada Türkiyə Quru Qoşunları Məktəbinə gələrək Türkiyənin hərbi və mülki Ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə, Türkiyədəki Azərbaycan diasporunun nümayəndələri ilə görüş keçirmiş və nitq söyləmişdir. Görüşdə Türkiyə Polis Akademiyasının rəisi Hasan Yucasan Prezident Heydər Əliyevə plaket təqdim etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Bilkənd Universitetinin əziz qonağı olmuşdur.

Orada İhsan Doğramaçı Prezident Heydər Əliyevə Türkiyə-Azərbaycan dostluğu vəqfinin fəxri sədri seçilməsi barədə doplomu təqdim etmişdir.

- Sonra Toğrul Qəniyevin dirijorluq etdiyi Bilkənd Universiteti Akademik Orkestrinin konserti olmuşdur. Konsertdə Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Vivaldinin əsərləri səslənmişdir.

- Konsertdən sonra İhsan Doğramaçı Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və onu müşayiət edən şəxslər Türkiyə parlamentinə gəlmişlər.

- Sonra Respublikamızın başçısı Heydər Əliyev ilə TBMM-in Sədri Mustafa Kalemli və məclis üzvlərinin görüşü olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradakı iqamətgahında Türkiyənin Demokratik Sol Partiyasının sədri Büləd Ecevit ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradakı iqamətgahında TBMM-nin üzvü Hikmət Çətinlə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradakı iqamətgahında Türkiyənin tanınmış jurnalistləri ilə görüşmüşdür. Görüşdə "Cümhuriyyət", "Hürriyət", "Sabah", "Milliyət", "Turkish Daily News", "Zaman", "Günaydın", "Türkiyə", "Radikal" qəzetlərinin və digər mətbuat orqanlarının nümayəndələri iştirak etmişlər.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradakı iqamətgahında Türkiyənin "Samanyolu" televiziyasına müsahibə vermişdir:

"Mən bunu Məclisdə də dedim - son 3 ildə Türkiyə ilə Azərbaycan arasında ticarət 3 dəfə artıb. Ancaq mütləq rəqəmi götürəndə bu o qədər də böyük deyil. Mən hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi iş birliyinin daha böyük imkanları vardır. Bu imkanlardan istifadə etmək lazımdır".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradakı iqamətgahında Türkiyənin "NTV" televiziyasına müsahibə vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradan Türkiyə Dövlət Opera və Balet teatrında olmuşdur.

7 may - Azərbaycan Respublika-

sının Prezidenti Heydər Əliyev Ankaradan İzmirə yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev onu müşayiət edən şəxslərlə birlikdə ona fəxri doktor adı verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmək üçün hava limanından birbaşa İzmir "9 Eylul" Universitetinə gəlmişdir.

"9 Eylul" Universitetinin rektoru salondakıların gurultulu alqışları altında universitetin fəxri doktoru mantiyasını və medalını Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə nitq söyləmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olarkən İzmirdə yaşayan və burada təhsil alan soydaşlarımızla görüşmüşdür. Dəbdəbəli "Prenses" otelində keçirilən görüş münasibətilə azərbaycanlı rəssamların, tələbələrin, habelə digər türkdilli ölkələrin gənclərinin fəaliyyətindən bəhs edən sərgi təşkil edilmişdir. Respublikamızın rəhbəri sərgi ilə tanış olmuşdur.

- İzmir valisi Kutlu Aktaş Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və respublikamızın nümayəndə heyətinin üzvləri İzmirdə "Bakı" parkının açılış mərasimində iştirak etmişlər. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çıxış etmişdir.

- İzmirin mənzərəli guşəsində, Egey dənizi sahilində "Heydər Əliyev bulvarı"nın açılış mərasimi olmuşdur. Mərasimdə toplaşanlar Azərbaycan dövlətinin başçısını hərarətlə, alqışlarla qarşılamışlar. Prezident Heydər Əliyev bulvarın açılışını bildirən lenti kəsmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan nümayəndə heyətinin üzvləri ilə birlikdə həmin gün axşamüstü İstanbula gəlmişdir. Dövlət başçısını Türkiyənin dövlət naziri Namıq Kamal Zeybək müşayiət etmişdir.

- Atatürk adına hava limanında Prezident Heydər Əliyevi İstanbul valisi Rıdvan Yenişen və digər rəsmi şəxslər qarşılamışlar.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbula gəlişindən az sonra öz iqamətgahında, "Çırağan" otelində, mətbuat nümayəndələri ilə görüşmüşdür. Görüşün əvvəlində Azərbaycan Prezidenti Türkiyəyə rəsmi səfərinin gedişi barədə bəyanatla çıxış etmişdir. Prezident Heydər Əliyev jurnalistlərin suallarına cavab vermişdir.

- Həmin gün axşam İstanbul valisi Ridvan Yenişen Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

8 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ona fəxri doktor adı verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmək üçün ölkənin böyük təhsil ocaqlarından biri olan İstanbulun Fatih universitetinə gəlmişdir. Universitetin professor və müəllim heyəti, tələbələr dövlət başçısını hərarətlə, gül-çiçək dəstələri ilə qarşılamışlar. Mərasimdə Türkiyənin dövlət naziri Namıq Kamal Zeybək çıxış etmişdir.

- Sonra Fatih Universitetinin rektoru professor Ergün Yener salondakıların gurultulu alqışları altında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Fatih Universitetinin fəxri doktoru mantiyasını və diplomunu təqdim etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söyləmişdir:

"Universitet və onunla bağlı olan vəqf türk dünyasında türk xalqını, türk tarixini, milli ənənələrini, keçdiyi yolu təbliğ etməkdə və türk dilini, təhsilini, tədrisini qurmaqda, yaratmaqda türk cümhuriyyətlərində yeni-yeni tədris ocaqları - universitetlər, kolleclər, litseylər açmaqda çox böyük xidmətlər göstərir. Bu tək bir Universitet deyil, onun çox böyük qol-qanadı var. Yəni bu vəqfin çox böyük qol-qanadı var. Onun böyük qanadlarından biri bu Universitetdir. Mən fürsətdən istifadə edib bu vəqfin Türkiyənin, türk cümhuriyyətlərinin həyatında son illər gördüyü işlərə yüksək qiymət verirəm. Görülən bu işlər münasibətilə sizi təbrik edirəm.

Biz Azərbaycanda çox sevinirik, iftixar hissi keçiririk ki, Türkiyənin təhsil ocaqları gündən-günə genişlənir, güclənir və sayca artır. Türkiyənin yüksək təhsil ocaqları, universitetləri, Türkiyə Cümhuriyyəti türk dünyasının gələcəyi üçün yüksək ixtisaslı mütəxəssislər hazırlayırlar. Bizi sevindirən bir də odur ki, Türkiyənin siyasəti də, mədəniyyəti də, mənəviyyatı da, təhsili də, elmi də Türkiyə Cümhuriyyətinin banisi, qurucu böyük Mustafa Kamal Atatürkün qoyduğu yolla, onun vəsiyyətlərini yerinə yetirmək yolu ilə gedir. Mən bir daha sizə təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Bir daha bildirmək istəyirəm ki, Azərbaycanda Türkiyənin xüsusi yeri var. Sizin vəqfin və universitetin Azərbaycanda gördüyü işlər respublikamızın təhsil sistemində müəyyən müsbət dəyişikliklər meydana gətirir. Ona görə də mən bu işlərə həmişə dəstək vermişəm, bundan sonra da dəstək verəcəyəm".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

- Mərasimdə dövlət başçısı Heydər Əliyevə Türkiyənin "Çağ" Öyrətim İşlətmələri şirkəti adından hədiyyə, Azərbaycandakı Türkiyə məktəbləri adından gül dəstəsi təqdim edilmişdir.

Sonra "Çağ" Öyrətim İşlətmələri şirkətinin prezidenti Adem Öcal çıxış edərək böyük demokrat, xalqına ləyaqətlə xidmət edən, XX əsrin tanınmış, böyük dövlət adamı, qardaş Azərbaycan Respublikasının müdrik Prezidenti hörmətli Heydər Əliyevi Fatih universitetinin fəxri doktoru adı alması münasibətilə təbrik etmiş, ona yeni böyük uğurlar diləmişdir.

- Mərasimin sonunda Azərbaycan Prezidentinə plaket təqdim olunmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulda öz iqamətgahında - "Çırağan" otelində Türkiyənin "TRT", "TGRT", "Samanyolu", "NTV" televiziyaların rəhbərləri ilə görüşmüş və çıxış etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbuldakı "Suis" hotelində Türkiyənin iş adamları ilə görüşmüşdür. Görüşdə Türkiyə-Azərbaycan İş Şurasının sədri Əli Yücelin çıxışından sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söyləmişdir:

"Gəlin biz daha da yaxınlaşaq. Millətlərimiz bir-biri ilə nəinki yaxındır, birdir. Dilimiz, dinimiz, qanımız, canımız birdir. Gəlin iqtisadiyyatda da daha da yaxınlaşaq".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzində olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfərini başa çatdıraraq vətənə qayıdarkən İstanbulun Atatürk adına hava limanında mətbuat konfransı keçirmiş və qısa bəyanatla çıxış etmişdir.

- Elə həmin gün Prezident Heydər Əliyev Bakıya qayıtmışdır.

13 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İƏT-in növbədən kənar sammitində iştirak etmək üçün getdiyi Aşqabatda Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

22 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruk Loğoğlunu qəbul etmişdir.

27 may -Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev

Azərbaycanın Milli bayramı - Respublika günü münasibətilə təntənəli yığıncaqdakı nitqində demişdir: ...Türkiyəyə mənim son səfərim günlərində, Ankarada görüşlər zamanı prezident və hökumət başçıları kəskin və açıq bəyanatlar veriblər ki, Minsk qrupunun həmsədrləri Qarabağ məsələsinin həll olunmasına çalışmalıdırlar.

Məlumdur ki, Türkiyə Prezidenti Süleyman Dəmirəl bu məsələ ilə əlaqədar Amerika, Rusiya və Fransa Prezidentlərinə xüsusi məktublar göndəribdir.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

1 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazı onu Türkiyə Cühuriyyətinin Baş naziri seçilməsi münasibətilə təbrik etmişdir.

3 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türk Petrolları Anonim Şirkətinin Prezidenti Sıtkı Sancarı qəbul etmişdir.

8 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İspaniyanın paytaxtı Madrid şəhərində NATO-nun və Avroatlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iclasında iştirak edərkən Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşmüşdür.

28 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da olarkən "Uoll strit cornal" qəzetinin müxbirinə verdiyi müsahibədə boru xəttinin Türkiyədən keçəcəyini və Aralıq dənizi limanlarına çıxacağını bir daha bəyan etmişdir. Göstərmişdir ki, bu ideyanı cənab Bill Klinton da təsdiq etmişdir və bunu dəstəkləmişdir.

28 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə Amerika Birləşmiş Ştatlarında ilk rəsmi səfəri zamanı Nyu-Yorkda Türkiyənin Daxil İşlər naziri Murat Başeskioğlu ilə görüşmüşdür.

28 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da olarkən BMT-də akkreditə olunmuş xarici jurnalistlər üçün mətbuat konfransındakı bəyanatında bildirmişdir ki, **mən bu boru kəmərinin Türkiyə ərazisindən Ceyhana keçməsini istəyirəm və buna nail olmaq üçün çalışacağam.**

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

30 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da olarkən ölkənin tanınmış siyasi xadimləri, politoloqları və mətbuat nümayəndələri ilə görüşdə bir daha bəyan etmişdir ki, biz şəxsən böyük neft borusunun Gürcüstan -

Türkiyə - Aralıq dənizi - Ceyhan limanı marşrutu ilə çəkilməsini nəzərdə tuturuq.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

30 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da olarkən Corcstaun Universitetinin professor-müəllim heyəti, tələbələr, Amerika ictimaiyyətinin nümayəndələri, görkəmli siyasi və dövlət xadimləri, diplomatlarla görüşdə bəyan etmişdir:

Türkiyə Azərbaycanın yaxın dostudur və biz bu dostluq əlaqələrini daha da genişləndiririk və inkişaf etdiririk.

Mən cənab Bjezinskinin söylədiyi fikirlərin hamısından çox razıyam, o cümlədən Amerikanın Türkiyə barəsindəki siyasətinə dair onun fikirlərini yüz faiz dəstəkləyirəm. **Türkiyə bizim regionda həqiqətən çox mühüm rol oynayır və gələcəkdə də mühüm rol oynayacaqdır. Biz Türkiyə ilə bütün sahələrdə - iqtisadiyyat və başqa sahələrdə əməkdaşlıq edirik. Türkiyənin rəhbərləri ilə mənim şəxsi əlaqələrim çox yaxındır, mehribandır, Azərbaycan dilinin türk dilinə çox yaxın olması, ənənələrimizin bir-birinə bənzərliyi bizim bu əlaqələri gücləndirib inkişaf etdirir. Xəzər dənizinin neft yataqlarından hasil edilən neftin ixrac olunmasında Türkiyənin çox önəmli yeri var. Böyük neft borusunun məhz Türkiyədən keçməsi hər bir cəhətdən çox əhəmiyyətlidir. Bilirsiniz ki, Türkiyə bizim imzaladığımız neft müqavilələrində də iştirak edir, türk enerji şirkətlərinin bu müqavilələrdə müəyyən hissələri var və hesab edirəm ki, Türkiyə ilə Azərbaycanın əməkdaşlığı bundan sonra də güclənəcəkdir.**

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

31 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-ın Ticarət nazirliyində Amerika işgüzar dairələrinin nümayəndələri ilə görüşdə demişdir: **Bu böyük boru kəməri Azərbaycandan Türkiyəyə, Türkiyədən isə Aralıq dənizinin Ceyhan limanına getməlidir.**

Biz eyni zamanda Mərkəzi Asiyanın da neftinin Azərbaycandan Türkiyəyə və Qərbə çatdırılması üçün tədbirlər görürük.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

2 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da olarkən Amerikanın "Oylənd qaz" ("Neft və qaz") xəbərlər redaksiyasına verdiyi müsahibədə qeyd etmişdir: 1994-cü ilin sentyabrında biz dünyanın nüfuzlu neft şirkətlərinin böyük bir qrupu ilə tarixi əhəmiyyətli bir müqavilə imzalamışıq. Bu müqaviləyə "Əsrin müqaviləsi"

adı verilibdir. Doğrudan da bu, çox böyük bir müqavilədir.

Bu gün deyə bilərəm ki, həmin müqavilə artıq həyata keçirilir. Müqavilə üzrə birgə işlənən yataqlardan bu ilin sentyabr ayında neft hasil ediləcəkdir. Biz bu neftin dünya bazarına ixrac olunması üçün boru kəmərlərinin tikilməsi işinə başlamışıq. İlk neft kəməri tikilibdir. Digər boru kəməri də tikilir. Birinci boru kəməri Rusiyanın ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft kəməri isə Qərb istiqamətində - Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına gedəcəkdir. Böyük neft kəmərinin tikilməsi üçün də hazırlıq işləri görülübdür. Hesab edirik bu neft kəməri Türkiyənin ərazisindən keçib Aralıq dənizindəki Ceyhan limanına getməlidir.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

4 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da olarkən "Çikaqo Tribun" qəzetinin redaksiya heyəti ilə görüşdə demişdir:

Azərbaycan, Xəzər dənizi hövzəsi enerji ehtiyatları ilə çox zəngindir. Xəzər dənizinin şərq sahilində yerləşən Mərkəzi Asiya ölkələrində də böyük enerji ehtiyatları vardır. Azərbaycan artıq dünyanın böyük şirkətləri, xüsusən Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə bu qaz və neft yataqlarının birgə işlənməsinə başlayıbdır.

Bu günə qədər görülən işlər onu göstərir ki, bu ehtiyatlar bizim gözlədiyimizdən də çoxdur. Ona görə də bunları bir boru xətti ilə, bir neft kəməri ilə ixrac etmək mümkün deyil. Bunun üçün bir neçə neft kəməri olmalıdır. Bunun başqa səbəbi də var ki, əgər bir yerdən maneçilik olarsa, o biri istiqamətdən nefti ixrac etmək mümkün olsun.

Azərbaycanın Qərb şirkətləri konsorsiumu ilə apardığı müştərək iş nəticəsində əldə ediləcək ilkin neftin ixracı barədə bizim cənab Bill Klintonla hələ iki il bundan əvvəl danışıqlarımız, məsləhətləşmələrimiz olmuşdur və biz iki neft kəməri çəkilməsini qərara aldıq. Biz artıq bunları icra edirik. Bir neft kəməri Bakıdan, Azərbaycandan Rusiyanın Novorossiysk limanına çəkilibdir. Qarşıdakı sentyabr-oktyabr aylarında biz konsorsiumla birgə işlədiyimiz yataqlardan ilkin neft alacağıq.Həmin nefti bu kəmərlə ixrac edə biləcəyik. Buna bir az maneçilik vardır. Həmin kəmərin 100 kilometri Çeçenistan ərazisindən keçir. Çeçenistan ilə Rusiya arasında bu barədə razılıq əldə olunmamışdı. Ancaq mən iyul ayının əvvəlində Moskvada rəsmi səfərdə olarkən biz bu məsələni həll etdik.Çeçenistanın Prezidenti Aslan Məshədov Azərbaycana gəldi. O xahiş etdi ki, neft kəmərinin Çeçenistandan etibarlı və təhlükəsiz keçməsi üçün - Rusiya, Azərbaycan və Çeçenistan arasında müqavilə imza-

lansın. Mən bu məsələni Moskvada müzakirə etdim. Prezident Boris Yeltsin də buna razılıq verdi. Bundan bir neçə gün sonra Rusiyanın və Çeçenistanın nümayəndələri Bakıya gəldilər. Biz burada üçtərəfli müqavilə imzaladıq. Ona görə də mən belə hesab edirəm ki, biz nefti bu boru kəməri ilə ixrac edəcəyik.

Biz ikinci neft kəmərinin tikintisinə başlamışıq. O, gələn ilin sentyabr ayında hazır olacaqdır. Həmin kəmər Qərb istiqamətində - Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çəkilir. Burada da bir problem yoxdur.

Mən qeyd etdim ki, Azərbaycanda neft yataqları çox zəngindir və böyük neft hasilatı gözlənilir. Həmin iki boru kəməri bu neftin ixracını təmin edə bilməyəcəkdir. Ona görə də konsorsium bir neçə təklif hazırlayıbdır. Biz böyük neft kəmərinin tikilməsinə başlamalıyıq. Bu kəmərin marşrutları haqqında bir neçə təklif vardır. Bunların hamısı müzakirə ediləcəkdir. Ancaq şəxsən mən bu kəmərin marşrutunun Azərbaycandan, Gürcüstandan, Türkiyədən keçərək Aralıq dənizinin Ceyhan limanına çıxmasına üstünlük verirəm.

Hələlik bu da tam yetərli deyildir.

Qazaxıstanın "Tengiz" yatağında artıq xeyli neft istehsal olunur. Mən iyun ayında Almatıda rəsmi səfərdə olarkən Prezident Nazarbayevlə bir saziş imzaladıq. Biz Xəzərin dibi ilə boru kəməri çəkib "Tengiz" neftini Bakıya gətirmək, oradan isə dediyim bu neft kəmərləri ilə Qərbə ixrac etmək istəyirik.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

26 avqust - Polşaya rəsmi səfər zamanı birgə mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyev bildirmişdir:

Hazırda biz Azərbaycandan ilkin neftin Qara dənizə ixracı üçün iki boru kəməri çəkirik. Neft kəmərlərindən biri Rusiya ərazisindən keçib onun Novorossiysk limanına, digəri isə Gürcüstan ərazisi ilə Supsa limanına gedəcəkdir. Lakin Gürcüstan, Türkiyə əraziləri ilə Aralıq dənizinə, Ceyhan limanına gedəcək böyük neft kəməri çəkmək də planlaşdırılır.

Lakin bu da kifayət deyildir. Söhbət mərkəzi Asiyadan, - mən Qazaxıstan və Türkmənistanı nəzərdə tuturam, - başlayıb Xəzər dənizindən keçərək Azərbaycana, oradan da Qara dənizə doğru, ya da Türkiyə ərazisi ilə Aralıq dənizinə doğru boru kəmərləri yaradılmasından gedir.

Bununla eyni zamanda Avroasiya nəqliyyat dəhlizi yaradılmışdır və indi o, fəal işləyir və Mərkəzi Asiyadan Xəzər dənizi vasitəsilə Azərbaycana, Gürcüstana, Qara dəniz vasitəsilə Avropaya və oradan geriyə yük daşımalarını həyata keçirir. Bu iki yol - yüklərin nəql edilməsi və neft kəmərləri ilə neft və qazın nəql edilməsi Avropa üçün, o cümlədən Polşa

üçün böyük əhəmiyyətə malikdir.

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

1 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə-Yaponiya, Türkiyə-MDB, Yaponiya-Türkiyə, Türkiyə-Azərbaycan İşbirliklərinin sədrləri Şarik Tara, Nihat Gökyigit, Hisaşi Sukamomoto və Əli Yüceli qəbul etmişdir.

- Həmin gün Prezident Türkiyə-Yaponiya iş birliyinin sədri Şarik Taranı qəbul etmişdir.

8 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin dövlət naziri Ahat Andicanı və Xarici İşlər naziri İsmayıl Cemi qəbul etmişdir.

15 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin iş adamı, millət vəkili Cavit Çağların başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

16 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "NTV"yə müsahibə vermişdir.

25 sentyabr - İtaliya Respublikasının Prezidenti Oskar Luidji Skalfaronun dəvəti ilə bu ölkəyə rəsmi səfərə gedən Azərbaycan Prezidenti Heydər Əliyev Romada öz iqamətgahında Türkiyənin Anadolu Acansının Roma müxbiri Yasemən Taşkına müsahibə vermişdir.

11 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün getdiyi Strasburqun Avropa sarayında Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmaz ilə görüşmüşdür.

8 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrinin rəhbərlərinin Tehranda keçirilən VIII Zirvə görüşündə iştirak edərkən Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

27 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "Samanyolu" televiziyasının rəhbəri Naci Tosunu, texniki müdiri Nihat Özdəmiri, "Çağ" Öyrətim işlətmələri A.Ş.-nin Azərbaycan üzrə prezidenti Adem Öcalı, "Zaman" qəzetinin Azərbaycan təmsilçisi Ersin Demircini və "Samanyolu" televiziyasının Azərbaycan təmsilçisi Tahir Karanfili qəbul etmişdir.

1998

13 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- İstanbulda rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan və Türkiyə Prezidentləri hava limanındakı dövlət qonaq evinin konfrans salonuna gələrək jurnalistlər qarşısında qısa bəyanatla çıxış etmişlər.

"Mən qardaşım Süleyman Dəmirəlin sözlərini tam təsdiq edirəm və həqiqətən böyük Mustafa Kamal Atatürkün vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmiyyət daşıyır, Türkiyənin dərdi-qəmi Azərbaycanın dərdi-qəmidir, Azərbaycanın dərdi-qəmi Türkiyənin dərdi-qəmidir. Biz belə qardaşlıq, belə dostluq edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əbədi, daim olacaq, sarsılmaz olacaqdır."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)

- Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyənin "Nərgiz-TV" televiziyasının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı təqdim edilmişdir. Dövlət başçısı mərasimdə nitq söyləmişdir:

"Bizim dostluğumuza mane olan bütün qüvvələr bilsinlər ki, heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

14 fevral - Türkiyənin Xarici İqti-sadi Əlaqələr Qurumu (DEİG) İstanbulun "Ceylan İnterkontinental" otelində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə səhər yeməyi təşkil etmişdir.

"Ceylan İnterkontinental" otelinin konfrans salonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Türkiyənin Qars şəhər Bələdiyyəsinin, Türk Sənayeçiləri və İşadamları vəqfinin "1997-ci ilin insan haqları" və "İlin dövlət adamı" mükafatlarının təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir. Mərasimdə hər iki ölkənin Prezidenti nitqlə çıxış etmişdir.

"Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, türk xalqı uzatdı, türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni birbirinə bağlaya bilən bir körpünün tikilməsinə başladıq. Bu körpünü müştərək tikdik, amma bunun bütün zəhməti, xərci, məsrəfləri Türkiyənin üzərinə düşdü. Qısa bir müddətdə bu körpünü tikdik və 1992-ci il may ayının 28-də bu həsrət, ümid körpüsü təntənəli surətdə açıldı və biz hamımız orada çoxlu insanın toplaşdığı şəraitdə bunu bayram etdik. Bizim xalqımız öz qardaş-bacıları - Türkiyə torpağında yaşayan qardaş-bacıları ilə birbirinə qovuşdular."

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl qardaş ölkəyə işgüzar səfərinin yekunları barədə İstanbulda birgə mətbuat konfransı keçirmişlər.

24 mart - İzmirdəki Egey Universitetinin Elmi Şurası sülhsevər siyasət yeritdiyi, dost və qardaş Azərbaycanın müstəqilliyi yolunda, Türkiyə və Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi, elmi, iqtisadi, mədəni əməkdaşlığın genişləndirilməsi sahəsində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə fəxri doktor adının verilməsi barədə yekdillikle 5/2 saylı qərarı qəbul etmişdir.

26 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə dost ölkəyə işgüzar səfərə yola düşmüşdür.

- Türkiyənin Artvin şəhəri ərazisində Dərinər Su Bəndi su elektrik stansiyasının təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Türkiyənin Baş naziri Məsud Yılmaz və digər rəsmi şəxslər iştirak etmişlər.

- Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə dost ölkədə işgüzar səfərdə olan Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Süleyman Dəmirəl Trabzon şəhərində görüşərək bu üç dövlətin arasında dostluğun, mehriban qonşuluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı məsələləri müzakirə etmişlər.

Səmimilik və dostluq şəraitində keçən görüşün sonunda Türkiyə, Azərbaycan və Gürcüstan Prezidentləri birgə bəyanat qəbul etmişlər.

1 may - Ərzurumdakı Atatürk Universitetinin Elmi Şurası universitetin fəxri doktor adının verilməsi barədə əsasnaməyə uyğun olaraq universitet rektorluğunun təklifinə əsa-

sən Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında əldə etdiyi uğurlara, ölkəsində və Qafqazda sülhün bərqərar olması naminə göstərdiyi səylərə, Azərbaycan və Türkiyə respublikaları arasında dostluq və əməkdaşlığın inkişafında müstəsna xidmətlərinə görə müdrik dövlət xadimi, Türkiyənin böyük dostu, türk dünyasının tanınmış öndəri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində fəxri doktor adı verilməsi barədə yekdillikla qərar qəbul etmişdir.

13 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında Türkiyənin Fatih Universitetinin təsisçilərindən biri olan Əli Bayramı, "Çağ" Öyrətim işlətmələri A.Ş.-nin Azərbaycan təmsilçisi Adem Öcalı, Azərbaycan-Türkiyə Litseyləri Baş İdarəsinin rəisi Turan Öztoprakı və "Zaman" qəzetinin Baş redaktoru Ersin Demircini qəbul etmişdir.

- Heydər Əliyev yubiley münasibətilə Türkiyə Jurnalistlər və Yazarlar vəqfinin göndərdiyi səmimi təbrik məktubu və xatirə hədiyyəsi üçün qonaqlara minnətdarlığını bildirmişdir. Dr. Əli Bayramla 1991-ci ildə Araz çayı üzərində tikilmiş körpünün açılışı zamanı görüşünü, Türkiyənin Fatih universitetindəki görüşlərini və ona fəxri doktor adı verilməsini məmnuniyyətlə xatırlayan Azərbaycan Prezidenti o anları heç vaxt unutmayacağını ifadə etmişdir. Dövlət başçısı xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin olduğunu və bu dostluğun daim davam edəcəyinə inandığını söyləmişdir.

Azərbaycan Respublikasının Prezidentini 75 illik yubileyi münasibətilə səmimi təbrik edən "Çağ" Öyrətim işlətmələri A.Ş.-nin Azərbaycan təmsilçisi Adem Öcal son illərdə Azərbaycanın dünya birliyində layiqli yer tutduğunu və bunun da Heydər Əliyevin müstəsna xidmətləri nəticəsində gerçəkləşdiyini bildirmişdir.

5 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin IV Zirvə görüşündə iştirak edərkən Yaltada Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

9 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türkdilli ölkələrin dövlət başçılarının növbəti Zirvə görüşündə və Astana şəhərinin yeni paytaxt elan olunması münasibətilə keçiriləcək mərasimdə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfərə yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Astanada, Qazaxıstan Prezidentinin iqamətgahında türkdilli dövlətlərin V Zirvə görüşündə iştirak etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev səfər əsnasında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

11 oktyabr - Keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqının böyük dəstəyi və etimadı ilə Heydər Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

- Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar Türkiyə dövlət, hökumət və partiya rəhbərləri tərəfindən Heydər Əliyevin ünvanına göndərilmiş səmimi təbriklər:

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri Cənab Heydər Əliyevə!

Hörmətli Prezident,

Əziz qardaşım, 1998-ci ildə oktyabrın 11-də Azərbaycanda keçirilmiş seçkilərdə ikinci dəfə Prezident vəzifəsinə seçildiyinizi öyrənib çox məmnun oldum. Şəxsən öz adımdan və türk milləti adından Zati-alinizə ən dərin səmimiyyətlə müvəffəqiyyətlər dilədiyimi bildirirəm. Ölkənizi demokratiya və sərbəst bazar iqtisadiyyatı zəminində müasir dünyaya qovuşdurmaq məqsədi ilə indiyə qədər göstərdiyiniz böyük səylərin bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə tam inanıram.

Bu yeni mərhələdə qardaş Azərbaycanın demokratikləşmək və sərbəst bazar iqtisadiyyatının müasir qurumlarını və qaydalarını bərqərar etmək səylərinin Zati-alinizin səriştəli başçılığı ilə daha da güclənəcəyinə inanıram. **Türkiyə əbədi dostluq və qardaşlıq telləri ilə bağlı olduğu qardaş Azərbaycanla əlaqələrini müştərək tale anlayışı ilə daha da genişləndirmək, onun iqtisadi yüksəliş və demokratikləşmə səylərinə hər cür dəstək vermək əzmindədir.**

Fürsətdən istifadə edib, Zati-aliləri, əziz qardaşımı öz adımdan və türk milləti adından ən səmimi duyğularla təbrik edir, Sizə cansağlığı və uğurlar diləyir, Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına əbədi sülh, rifah və əmin-amanlıq arzulayıram.

Süleyman Dəmirəl
Türkiyə Cümhuriyyəti
Prezidenti

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri Cənab Heydər Əliyevə!

Hörmətli Prezident!

Prezident seçkilərində qardaş Azərbaycan xalqının böyük dəstəyi ilə yenidən seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Seçkilərin nəticəsi Azərbaycanda sizin səriştəli liderliyinizlə görü-

lən işlərin qardaş Azərbaycan xalqı tərəfindən də təqdir edildiyini və ürəkdən bəyənildiyini göstərir.

Qardaş Azərbaycan xalqının qarşıdakı dövrdə də demokratikləşmə və dirçəliş yolunda əzmlə irəliləməsini, ölkələrimiz arasında mövcud olan sıx dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrinin hər vasitə ilə inkişaf etdirilməsini ürəkdən istəyirəm.

Fürsətdən istifadə edib, Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını təbrik edir, səmimi ehtiramımı bildirirəm.

Büləәnd Ecevit
Türkiyə Cümhuriyyəti
Baş naziri

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri Cənab Heydər Əliyevə!

Əziz Prezident! 1998-ci il oktyabrın 11-də keçirilən Prezident seçkilərində Azərbaycan xalqının böyük əksəriyyətinin səsi ilə qalib gəldiyinizi eşidib məmnun oldum.

Azərbaycan xalqının Zati-alinizə böyük dəstək verməsi Sizin səriştəli başçılığınızla ölkənizdə sərbəst bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün aparılan islahatlara inamın bir göstəricisidir.

Əminəm ki, Türk və Azərbaycan xalqları arasında mövcud olan qardaşlıq, ölkələrimizin sıx əməkdaşlığı və dostluğu, qarşıdakı dövrdə də genişlənib davam edəcəkdir.

Fürsətdən istifadə edib Sizi və qardaş Azərbaycan xalqını təbrik edir, ehtiramımı bildirirəm.

İsmət Sezqin
Türkiyə Respublikasının Baş nazirinin müavini və Milli Müdafiə naziri

Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə!

Zati-aliləri,

Keçirilən seçkilər nəticəsində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmənizlə əlaqədar olaraq Sizi təbrik edirəm.

Türkiyə ilə qardaş Azərbaycanın dostluğunun və təşəkkül tapmış iqtisadi əlaqələrinin bu yeni mərhələdə də Sizin dövlət başçılığınızla inkişaf edəcəyinə inanır, Sizə uğarlar və cansağlığı diləyirəm.

Hörmətlə,

Hüsaməddin Cindoruk
Demokratik Türkiyə Partiyasının Baş katibi

26 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında türkiyəli qonaqları - İstanbuldakı Fatih Universiteti rəyasət heyətinin üzvləri - Əli Bayram və Ömər Bağcını, Azərbaycan-Türk litseyləri Baş idarəsinin rəisi Mehmed Mesud Atanı, habelə Bakıdakı Qafqaz Universitetinin rektoru prof.dr. Əhməd Çətin Canı və "Çağ" Öyrətim işlətmələri A.Ş.-nin Azərbaycan üzrə prezidenti Adem Öcalı qəbul etmişdir. Qonaqlar xalqın iradəsi ilə yenidən Prezident vəzifəsinə seçilməsi münasibəti ilə Heydər Əliyevi türk ziyalıları və rəhbərlik etdikləri qurumların çoxsaylı kollektivləri adından təbrik etmişlər.

Qonaqlar üzərində Heydər Əliyev cənablarının "Müstəqilliyimiz əbədidir!" sözləri həkk olunmuş Prezident Heydər Əliyevin və məktəb şagirdlərinin təsvir olunduqları tablonu və xatirə hədiyyəsini ölkə başçısına təqdim etmişlər.

1999

22 mart - Hataydakı Mustafa Kamal universitetinin Elmi Şurası Türkiyə Cümhuriyyətinə və onun qurucusu ulu öndər Atatürkə olan sevgisinə, Azərbaycan türk dövlətində dünyəvi və demokratik sistemin qurulması, ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin inkişafı və xalqlarımızın bir-birinə yaxınlaşması sahəsindəki böyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə sosial elmlər üzrə fəxri doktor adının verilməsi barədə yekdillikla qərar qəbul etmişdir.

6 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "TRT-1" televiziya kanalında bütün dünyaya yayımlanmış "Dünya düşüncələri Atatürkün gözü ilə" verlişində prof. dr. Özer Özankayaya müsahibə vermişdir.

14 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Kaspian-Amerikan Telekom" Azərbaycan-Amerika birgə müəssisəsinin açılış mərasimindən sonra Türkiyənin Anadolu Ajansı müxbirinin sualına cavab verərkən demişdir:

"Türkiyə və Azərbaycan gənclərinə arzum budur ki, öz cümhuriyyətlərini Mustafa Kamal Atatürk kimi qorusunlar, inkişaf etdirsinlər, daha da yüksəklərə qaldırsınlar".

15 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il Atatürk Beynəlxalq Sülh Mükafatına layiq görülməsi ilə əlaqədar Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin təbrik məktubunu və mükafatın təqdim edilməsi mərasimində iştirakı üçün dəvət almışdır.

16 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dünyanın ən nüfuzlu mükafatlarından olan Atatürk Beynəlxalq Sülh Mükafatına layiq görülməsi münasibəti ilə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin təbrik məktubuna cavab göndərmişdir.

- Azərbaycan Respublikasının

Prezidenti Heydər Əliyev Atatürk Mükafatı ilə onun fəaliyyətinə verilən yüksək qiymətə, şəxsinə, Azərbaycan xalqına göstərilən qayğı və diqqətə görə Türkiyə Cümhuriyyətinin Baş naziri, Atatürk Beynəlxalq Sülh Mükafatı Komitəsinin sədri Büləd Ecevitə təşəkkür məktubu göndərmişdir.

19 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-ın Klivlend şəhərindəki klinikada müalicəsini uğurla başa çatdırıb Türkiyəyə qayıdarkən Böyük Britaniyanın paytaxtında onun üçün ayrılmış iqamətgahda Türkiyə Cümhuriyyətinin Böyük Britanyadakı səfiri Özden Sanberki diplomatın xahişi ilə qəbul etmişdir.

20 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev əziz dostu və qardaşı, Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin şəxsi dəvəti ilə qardaş ölkəyə qısamüddətli istirahətə gəlmişdir.

- Ölkəmizin rəhbərini Ankaranın Esenboğa hava limanında Türkiyə Cümhuriyyəti Prezidenti cənab Süleyman Dəmirəl, ölkənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri mehribanlıqla qarşılamışlar.

- Rəsmi qarşılama mərasimindən sonra Prezidentlər hava limanından xüsusi vertolyotla "Çankaya" köşkünə gəlmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Prezident Süleyman Dəmirəl arasında səmimi söhbət olmuşdur.

22 may - Türkiyə Cümhuriyyətinin Baş naziri Büləd Ecevit Ankarada "Çankaya" köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

23 may - Türkiyənin Ana Vatan Partiyasının sədri, millət vəkili Məsud Yılmaz Ankarada "Çankaya" köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəlin "Çankaya" köşkündəki iqamətgaha gəlmişlər. Burada dövlət başçıları jurnalistlər qarşısında bəyanatla çıxış etmişlər.

- Sonra iki qardaş ölkənin dövlət başçısı arasında Azərbaycanın millət vəkili ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin də iştirak etdiyi görüş olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çankaya" köşkündəki iqamətgahında Türkiyənin "Nərgiz-TV" televiziyasının Ankaradakı təmsilçisi Murat Yetrinə müsahibə vermişdir.

24 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ulu öndər Mustafa Kamal Atatürkün Ankarada "Çankaya" köşkündəki evmuzeyində olmuşdur.

- Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyin Kıvrıkoğlu "Çankaya" köşkünə gələrək Azərbaycan Prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

25 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qısamüddətli istirahət üçün Ankaradan məşhur kurort şəhəri Antalyaya yola düşmüşdür.

-Azərbaycan Respublikasının Prezidentini Antalyanın valisi Hüsnü Tulu, bələdiyyə rəisi Bekir Kumbul və digər rəsmi şəxslər hörmət və ehtiramla qarşılamışlar.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hava limanındakı ali qonaqlar otağında televiziya və mətbuat işçiləri qarşısında bəyanatla çıxış etmişdir.

- Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Antalya valisi Hüsnü Tulu ilə görüşü olmuşdur.

26 may - Türkiyə Prezidenti Süleyman Dəmirəl və xanımı Nəzmiyə Dəmirəl Antalyada Azərbaycan Prezidenti Heydər Əliyevi ziyarət etmişlər.

- Ziyarət əsnasında ölkə Prezidentləri arasında görüş olmuşdur. Görüşdə Antalyanın valisi Hüsnü Tulu, Azərbaycanın millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev və digər rəsmi şəxslər iştirak etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Antalyada onun üçün ayrılmış iqamətgahda Türkiyənin "Ceylan-TV" televiziyasının müxbiri xanım Nagihan Akbulut a müsahibə vermişdir.

28 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Samanyolu" televiziyasının müxbirinə müsahibə vermişdir. Azərbaycan Prezidenti müsahibədə Azərbaycandakı türk təhsil müəssisələrinin fəaliyyətini səciyyələndirərək demişdir:

"Azərbaycanda türk məktəblərinin açılmasını mən hələ Naxçıvanda olarkən, hələ 1992-ci ilin əvvəllərində hiss etdim. Sizin adamlar Naxçıvana gəldilər, mənimlə görüşdülər. Naxçıvanda türk məktəbinin açılmasını icra etdilər, mən də bunu dəstəklədim və türk məktəbi açıldı.

1993-cü ildə mən Bakıya gələndən sonra Azərbaycanda türk məktəblərin açılması haqqında mənə ge-

niş məlumat verdilər. Mən bunu həmişə dəstəkləmişəm, buna həmişə yardım etmişəm, bu gün də edirəm, sabah da edəcəyəm.

Çünki bu məktəblər Azərbaycanın təhsil sistemində bir yenilik yaradır. Azərbaycanın təhsil sistemi keçmiş Sovetlər Birliyinin təhsil sistemidir. İndi biz o təhsil sistemində - həm orta məktəb təhsilində, həm Ali universitet təhsilində bir çox islahatlar həyata keçiririk və bundan sonra da keçirəcəyik. Ona görə də Türkiyənin məktəblərinin, kolleclərinin təcrübəsi Azərbaycan üçün lazımdır. Bu, birincisi.

İkincisi də, sizin bu məktəblərdə Azərbaycanın uşaqları, gəncləri təhsil alırlar, oxuyurlar. Bildiyimə görə, onların təhsil alması üçün çox gözəl şərait yaratmısınız. Onlara yaxşı təhsil verirsiniz. Bunun da nəticəsində onlar dünya olimpiyadalarında medallar alırlar, gözəl yerlər tuturlar. Mənə məlumat verdilər ki, sizin məktəbləri bitirənlər 99 faiz Azərbaycanın universitetlərinə qəbul olunurlar. Bu da böyük işdir, çox böyük işdir. Ona görə də mən sizə təşəkkürümü bildirirəm. Güman edirəm ki, siz Azərbaycanda bu işləri davam etdirəcəksiniz".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

1 iyun - Türkiyənin "Enka Holdinq" şirkətlər qrupunun prezidenti Şarik Tara Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

2 iyun - Türkiyənin Energetika və Təbii Qaynaqlar naziri Cümhur Ersümer Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

4 iyun - Türkiyənin tanınmış dövlət xadimi, keçmiş Xarici İşlər naziri Hikmət Çətin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

8 iyun - Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmək üçün vertolyotla Antalyaya gəlmişdir.

- Prezidentlər arasında görüş olmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirələ öz minnətdarlığını bildirmişdir. Prezidentlər dost və qardaş kimi görüşüb sağollaşmışlar.

- Həmin gün axşam Antalyada Heydər Əliyevin dincəldiyi "Simena" köşkündə onun şərəfinə böyük atəşfəşanlıq keçirilmişdir.

9 iyun - Dövlət başçısı Heydər Əliyev Türkiyənin "Ceylan-TV" televiziyası müxbirinin suallarına cavab vermişdir.

- Elə həmin gün xüsusi vertolyotla Antalya hava limanına gələn Azərbaycan Prezidenti Heydər Əliyev təntənəli yolasalma mərasimindən sonra sağlam və gümrah halda doğma vətənə qayıtmışdır.

10 sentyabr - "Baltik-Qara Dəniz Əməkdaşlığı: XXI əsrdə ayırıcı xətlər olmayan inteqrasiyalı Avropaya doğru" forumu çərçivəsində keçirilən sammitdə iştirak etmək üçün Yaltaya gəlmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Xarici İşlər Naziri İsmayıl Cem ilə təkbətək görüşü olmuşdur.

31 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- İstanbul şəhərinin Atatürk adına hava limanında rəsmi qarşılama mərasimindən sonra Azərbaycan Prezidenti hava limanının şərəf salonunda jurnalistlərin suallarına cavab vermişdir.

- Daha sonra dövlət başçısı Heydər Əliyev onun üçün ayrılmış iqamətgaha gəlmişdir.

1 noyabr - Türkiyəyə qısamüddətli işgüzar səfərə gəlmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyəti Prezidentinin rəsmi iqamətgahı "Çankaya" köşkündə qardaş ölkənin dövlət başçısı Süleyman Dəmirəl ilə təkbətək görüşü olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulun Atatürk adına hava limanının xüsusi terminalından Türkiyənin zəlzələdən zərər çəkmiş Kocaeli bölgəsinə yola düşmüşdür.

- Kocaelinin "Köşəköy" hava limanında Azərbaycan Prezidentini Türkiyə Prezidenti Süleyman Dəmirəl dostcasına, qardaşcasına qarşılamışdır.

- Hava limanının şərəf salonunda toplaşmış yerli və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələrini salamladıqdan sonra hər iki Prezident jurnalistlər qarşısında bəyanatla çıxış etmişlər.

- Sonra Azərbaycan və Türkiyənin dövlət başçıları Saraybağça qəsəbəsində yerləşən, yardımların mərkəzləşdiyi "İnterteks" Beynəlxalq Mərkəzinə gəlmişlər. Dövlət başçıları burada Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifovun rəhbərliyi ilə gətirilmiş 100 min dollar dəyərindəki yardımla tanış olmuşlar.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl burada toplaşanlar qarşısında çıxış etmişlər.

- Daha sonra Prezidentlər Heydər Əliyev və Süleyman Dəmirəl Saraybağçada Türkiyə Silahlı Qüvvələrinin Maddi-Texniki Yardım Mərkəzi tərəfindən inşa edilmiş "Mehmetcik" çadır şəhərciyinə gəlmişlər.

- Dövlət başçıları buraya toplaşan sakinləri salamladıqdan və onlarla səmimi görüşdən sonra çıxış etmişlər. Azərbaycan Prezidenti Heydər Əliyev bu ağır gündə qardaş Azərbaycan xalqının türkiyəli soydaşları ilə həmrəyliyini bu sözlərlə ifadə etmişdir:

"Mən bu gün buraya gələrək Türkiyə Azərbaycan dostluğunu, türk xalqı ilə Azərbaycan xalqı arasında olan əbədi, sarsılmaz dostluğu bir daha, bir daha dünyaya nümaiş etdirmək məqsədi daşıyıram".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Elə həmin gün Azərbaycan Prezidenti Türkiyə Prezidenti ilə birlikdə İzmirdə "Qalatasaray" idman klubunun rəhbəri Faruk Süren və iş adamı Efen Tümen tərəfindən inşa edilmiş yığma evlərin təhvil verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmiş və nitq söyləmişlər.

- Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl yeni dərs ilinin başlanmasına həsr edilmiş təntənəli mərasimdə iştirak etmək üçün Kocaeli universitetinə gəlmişlər. Universitetin professor-müəllim heyəti və tələbələri tərəfindən hərarətli alqışlarla qarşılanan Azərbaycan Prezidenti mərasimdə nitq söyləmişdir:

"Əziz dostlar, bu gün Türkiyə ilə Azərbaycan arasında böyük tarixə malik olan dostluq, qardaşlıq salnaməsinə qızıl hərflərlə daha bir yeni səhifə yazıldı. Bu gün biz bütün dünyaya bir daha nümayiş etdirdik ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bütün dünya xalqları içərisində dostluq və qardaşlıq üçün örnəkdir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, bu dostluğu özümüz üçün böyük dayaq kimi qəbul edirik. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu dostluğa, qardaşlığa əbədiyyətə qədər sadiq olacaqdır".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

- Elə həmin gün Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezi-denti Süleyman Dəmirəl İzmirin "Cengiz Topel" hava limanında dost ölkənin dövlət başçısının şəxsi

təyyarəsi ilə Ankaraya yola düşmüşlər. Ankarada hər iki Prezident hava limanından xüsusi vertolyotla "Çankaya" köşkünə gəlmişlər.

- Ankarada, Türkiyə Prezidentinin rəsmi iqamətgahı "Çankaya" köşkünün böyük salonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Beynəlxalq Atatürk Sülh Mükafatının təqdim olunmasına həsr edilmiş təntənəli mərasim keçirilmişdir.

- Mərasimdə Atatürk Kültür, Dil və Tarix Ali Qurumunun rəhbəri professor Reşat Genç Atatürk Beynəlxalq Sülh Mükafatı haqqında və Azərbaycan Respublikası Prezidentinin tərcümeyi-halı, mənalı həyat yolu haqqında məlumat vermişdir.

- Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl mərasimdə nitq söyləmişdir:

"Hörmətli Heydər Əliyev, şübhəsiz ki, XX əsrdə iz qoymuş şəxsiyyətlər arasında haqlı yerini uzun illər bundan öncə almış dövlət və siyasət adamıdır. Əsasən XX əsrin iki super gücündən biri olan Sovetlər Birliyinin tarixini yazarkən hörmətli Heydər Əliyevdən bəhs etmədən ötüşmək mümkün deyildir. Əziz qardaşım, hörmətli Heydər Əliyev Sovetlər Birliyinin içəridən dağılması ilə nəticələnəcək tarixi prosesin gedişatını böyük uzaqgörənliklə təsbit etmiş olan az sayda insanlardan öndə gedənidir.

Hörmətli Heydər Əliyev Sovetlər Birliyi dövründə Azərbaycanın çiçəklənən respublikaya çevrilməsi üçün uzun illər boyunca böyük fədakarlıqla çalışmış, ölkəsinin haqq və hüququnu qorumağa səylər göstərmişdir.

Möhtərəm Əliyev 1990-cı ilin yanvarında sovet tankları Bakıya yeriyəndə etirazını ilk bildirən insanların biri olmuş və Moskvanı tərk edərək ölkəsinə dönmüşdür. Ölkəsi yenidən müstəqillik qazandıqdan sonra hörmətli Əliyev Azərbaycanın müqəddaratında təsirli rol oynayan şəxsiyyətlərdən biri olmaq imkanı əldə etmişdir. Həqiqətən də, ölkəsinin son dərəcə çətin günlərində qarşısına çıxan tarixi məsuliyyətin üzərinə qoyduğu vəzifəni ləyaqətlə yerinə yetirmiş və Azərbaycanın sabitliyə qovuşmasını təmin etmişdir".

(Türkiyə Cümhuriyyəti Prezidenti Süleyman Dəmirəlin nitqindən)

- Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə geniş nitqlə çıxış etmişdir:

"Mustafa Kamal Atatürkün ən böyük xidməti odur ki, o, Türkiyə Cümhuriyyətini yaratmasıdır. Biz bəlkə bu gün bunu adi hadisə kimi qəbul edə bilərik, ancaq heç də yox. Bu, heç də adi hadisə deyildi. Türki-

yənin Osmanlı imperatorluğunun 700 illik fəaliyyəti şəraitində, onun təsiri altında yaşamış insanlarını cümhuriyyət qurmağa sövq etmək, cəlb etmək və bu cümhuriyyəti qurmaq, yaratmaq və yaşatmaq Mustafa Kamal Atatürkün çox böyük xidmətidir, demək olar ki, tarixi xidmətidir. Zaman, əsrlər keçəcək, türk xalqı, türkköklü, türkdilli xalqlar, türk dünyası bunu heç vaxt unutmayacaqdır".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin niqtindən)

- Prezident Süleyman Dəmirəl mərasimə toplaşanların gurultulu alqışlara altında Beynəlxalq Atatürk Sülh Mükafatını, onun nişanını və diplomunu Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etmişdir.

Mərasimdə Xarici İşlər naziri Vilayət Quliyev, Azərbaycan ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev və digər rəsmi şəxslər iştirak etmişlər.

Mükafatın təqdim edilməsi mərasimindən sonra Türkiyə Prezidenti Süleyman Dəmirəl Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çankaya" köşkünün "Mavi salonu"nda Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəli anadan olmasının 75 illiyi münasibəti ilə təbrik etmişdir.

- Həmin gün axşam Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ailə üzvləri ilə birlikdə Türkiyə Prezidentinin anadan olmasının 75 illiyi münasibətilə keçirilən ziyafətdə iştirak etmişlər.

2 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə qısamüddətli işgüzar səfərdə olarkən böyük öndər Mustafa Kamal Atatürkün məqbərə kompleksini-Anıtqəbiri ziyarət etmişdir. Prezident məqbərə önünə əklil qoymuş, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.

Prezident məqbərə kompleksinin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır:

"Mustafa Kamal Atatürk bəşər tarixinin XX əsrin ən böyük şəxsiyyətlərindəndir: İstiqlal savaşına başçılıq edərək qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmışdır. Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yaşayır. Atatürkün

dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir. Bu gün mən böyük öndər Mustafa Kemal Atatürkün qəbrini böyük qürur hissi ilə ziyarət edirəm. Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq olacağam. Əminəm ki, Atatürkün Türkiyəsi əbədiyyətə qədər uğurla yaşayacaqdır.

Bir daha Allahdan rəhmət diləyirəm".

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

- Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün məzarını ziyarət etmiş, onun muzeyi ilə yaxından tanış olmuş, ilk xarici ölkənin dövlət başçısı kimi, Atatürkün məzarının yanına Azərbaycandan gətirilmiş torpaq qoymuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə qısamüddətli işgüzar səfəri zamanı "Çankaya" köşkyndə onun üçün ayrılmış iqamətgahda Türkiyənin Baş naziri Büləndd Ecevitlə təkbətək görüş keçirmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Atatürk Beynəlxalq Sülh Mükafatı Komissiyasının sədri, Atatürk Kültür, Dil və Tarix Ali Qurumunun rəhbəri professor Reşat Genç ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və oğlu İlham Əliyev Ankarada Gülxanə Hərbi Tibb Akademiyasını ziyarət etmiş, Akademiyanın xüsusi cərrahiyyə şöbəsinin ayrı-ayrı palatalarında müalicə olunan zabit və əsgərlərə baş çəkərək onların hər birinə hədiyyə və pul mükafatı təqdim etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti mətbuat nümayəndələri qarşısında bəyanatla çıxış etdikdən sonra Akademiyanın rəhbər heyəti ilə görüşmüşdür.

- Türkiyə Prezidenti Süleyman Dəmirəl "Çankaya" sarayında Heydər Əliyevə onun dost, qardaş ölkəyə səfərini əks etdirən fotoalbom təqdim etmişdir.

- Həmin gün axşam hər iki Prezident "Çankaya" köşkündə Ankaranın Esenboğa hava limanına gəlmişlər.

- Dövlət başçıları hava limanının şərəf salonunda mətbuat nümayəndələri qarşısında bəyanatla çıxış etmişlər.

- Azərbaycan Prezidenti onun

vətənə yola salınması mərasimində iştirak edən rəsmi şəxslər və təyyarənin pilləkəni yanında Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə dostcasına görüşüb ayrıldıqdan sonra Bakıya qayıtmışdır.

- Vətənə qayıtmış dövlət başçısı Binə hava limanında onu qarşılamağa gəlmiş jurnalistlərin suallarına cavab vermişdir.

17 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in üzvü olan ölkələrinin dövlət və hökumət başçılarının növbəti Zirvə görüşündə iştirak etmək üçün Türkiyənin İstanbul şəhərinə yola düşmüşdür.

- İstanbul şəhərinin Atatürk hava limanında Türkiyənin dövlət və hökumət nümayəndələri tərəfindən qarşılanan Azərbaycan Prezidenti hava limanından onun üçün ayrılmış rəsmi iqamətgaha yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev səfər zamanı İstanbulda, Türkiyə Xarici İşlər Nazirliyinin bölgə nümayəndələrinin binasında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının V Zirvə görüşündə iştirak etmiş və geniş nitq söyləmişdir.

18 noyabr - İqtisadiyyat və İdarəetmə fakültəsi dekanlığının təklifinə əsasən, Süleyman Dəmirəl adına universitetin Elmi Şurası dövlətin müxtəlif vəzifələrində çalışan, təcrübə qazanan, Azərbaycan və Türkiyə respublikaları arasında dostluq və qardaşlığın qurulmasına töhfələr verən, Qafqazda və bütün dünyada sülhün bərqərar edilməsi istiqamətində fəaliyyət göstərən Azərbaycan Respublikasının Prezdinti Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində fəxri doktor adının verilməsi barədə yekdillikle qərar qəbul etmişdir.

18 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulun məşhur "Çırağan" sarayındakı konfrans mərkəzində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti Zirvə görüşünün təntənəli açılış mərasimində iştirak etmiş və nitqlə çıxış etmişdir.

- İstanbulun "Çırağan" sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neftini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul Bəyannaməsi"nin, Transxəzər

qaz kəməri barəsində Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası Bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycanın qazının Türkiyə Cümhuriyyətinə və digər beynəlxalq bazarlara satışını dəstkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında "Qarşılıqlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi olmuşdur.

- İmzalanma mərasimində Azərbaycan Prezidenti nitq söyləmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Süleyman Dəmirəlin Zirvə görüşü iştirakçılarının şərəfinə verdiyi ziyafətdə iştirak etmişdir.

19 noyabr - ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

27 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- Ali qonağı Ankaranın Esenboğa hava limanında təyyarənin pilləkəni önündə Türkiyə Prezidenti Süleyman Dəmirəl, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Rauf Denktaş və digər rəsmi şəxslər qarşılamışlar.

- Rəsmi qarşılanma mərasimindən sonra dövlət başçıları xüsusi vertolyotla hava limanından Türkiyə Prezidentinin iqamətgahına - "Çankaya" köşkünə gəlmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çankaya" köşkündə Türkiyə dövlətinin başçısı Süleyman Dəmirəl ilə görüşmüşdür.

- Elə həmin gün Azərbaycan Prezidenti "Çankaya" köşkünün konfrans salonunda Erroziyaya Qarşı Mübarizə, Yaşıllaşdırma və Ətraf Mühitin Mühafizəsi vəqfinin (TEMA) təşəbbüsü ilə keçirilən "Erroziyaya Qarşı Mübarizə Həftəsi"nin açılışı mərasimində iştirak etmiş və çıxış etmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz iqamətgahında - "Çamlı" köşkdə Bilkənd Universitetinin banisi və fəxri rektoru, dünya şöhrətli alim, Prezidentlər Heydər Əliyevin və Süleyman Dəmirəlin fəxri sədrləri olduqları Azərbaycan-Türkiyə Dostluq və Əməkdaşlıq Fondunun başçısı, professor İhsan Doğramaçını qəbul etmişdir.

28 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl qardaş ölkənin dövlət başçısının şəxsi təyyarəsi ilə qədim Sparta şəhərinə gəlmişlər.

- Elə həmin gün dövlət başçıları Spartanın mərkəzində yerləşən Şövkət Dəmirəl adına Kardioloji mərkəzin açılış mərasimində iştirak etmişlər.

Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev nitq söyləmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl Spartada "Ülkü" orta məktəbinin təntənəli açılışı mərasimində iştirak etmişlər.

- Azərbaycan və Türkiyənin dövlət başçıları Spartada Süleyman Dəmirəl adına "Mədəniyyət və Konqres Mərkə-zi"nin açılışı münasibətilə keçirilən təntənəli mərasimdə də iştirak etmişlər.

- Sonra Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəl "Mədəniyyət və Konqres Mərkəzi"nin əzəmətli toplantı salonunda verilən naharda iştirak etmişlər.

- Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin dövlət başçıları Spartada Süleyman Dəmirəl adına Universitetə gələrək universitetin araşdırma və tədqiqat xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Spartada Süleyman Dəmirəl adına Universitetin mədəniyyət mərkəzində ona bu Ali təhsil ocağının fəxri doktoru adının verilməsi münasibətilə keçirilmiş təntənəli mərasimdə iştirak etmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Sparta şəhərinin Süleyman Dəmirəl adına hava limanından vətənə yola düşmüşdür.

2000

9 yanvar - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- Dövlət başçısı yola düşməzdən əvvəl Bina hava limanında səfərlə bağlı jurnalistlərin suallarına cavab vermişdir.

- Ankaranın Esenboğa hava limanında rəsmi qarşılama mərasimindən sonra Prezident Süleyman Dəmirəl və Prezident Heydər Əliyev hava limanının şərəf salonunda Azərbaycanın, Türkiyənin və Ankarada akkreditə olunmuş xarici ölkələrin jurnalistləri qarşısında qısa bəyanatla çıxış etmişlər.

"Türkiyə birinci bizim dostumuzdur, bizim üçün ən yaxın ölkədir. Ermənistan-Azərbaycan münaqişəsində Türkiyə həmişə Azərbaycanın haqq işini dəstəkləyibdir, müdafiə edibdir. Bütün beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə hökuməti, Türkiyənin Cümhur başqanı həmişə Ermənistanı Azərbaycana təcavüz etmiş bir dövlət kimi qiymətləndiribdir, bildiribdir və eyni zamanda Türkiyə ATƏT-in Minsk qrupunun üzvüdür".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)

- Azərbaycan Respublikasının Prezidenti "Çankaya" köşkündə qardaş ölkənin dövlət başçısı Süleyman Dəmirəl ilə görüşmüşdür.

- Elə həmin gün axşam Türkiyə Cümhuriyyətinin Baş naziri Büləd Ecevitlə görüşmüşdür.

10 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çankaya"köşkündə Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyin Kıvrıkoğlu ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çankaya" köşkündə Türkiyə Cümhuriyyətinin Baş nazirinin müavini Dövlət Baxçalı ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə qısamüddətli işgüzar səfəri zamanı Ankarada Gülxanə Tibb Akademiyasında 1999-cu ilin aprelində ABŞ-ın Klivlend şəhərindəki klinikada ürəyində aparılmış cərrahiyyə əməliyyatından sonrakı reabilitasiya dövrünün başa çatması ilə əlaqədar plana uyğun sürətdə müayinədən keçmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinə qısamüddətli işgüzar səfərini başa çatdıraraq vətənə yola düşmək üçün Ankaranın Esenboğa hava limanına gəlmişdir.

- Ali qonağı yola salmaq üçün hava limanına gəlmiş Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti şərəf salonunda Azərbaycanın, Türkiyənin və xarici ölkələrin Ankarada akkreditə olunmuş jurnalistləri qarşısında bəyanatla çıxış etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmin axşam Bakıya qayıtmışdır.

29 yanvar - İsveçrənin Davos şəhərində keçirilən növbəti Ümum-

dünya İqtisadi Forumunda iştirak etmək üçün bu ölkəyə gəlmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Davosda Türkiyə Cümhuriyyətinin Baş naziri Büləncl Ecevit və Türkiyənin Xarici İşlər Naziri İsmayıl Cem ilə görüşmüşdür.

27 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri zamanı Vaşinqtonda öz iqamətgahında Türkiyənin bu ölkədəki səfiri Baki İlkinlə görüşmüşdür.

9 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə səfirliyi üçün ayrılan sahəyə baxış keçirmişdir.

11 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Samanyolu" telekanalının Qafqaz və Orta Asiya üzrə səlahiyyətli nümayəndəsi Naci Tosunu və bu TV-nin Azərbaycan təmsilçisi Tahir Karanfili, "Çağ" Öyrətim işlətmələri MMM-in prezidenti Adem Öcalı qəbul etmişdir.

5 may - Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl Prezident vəzifəsinə seçildiyi yeddi illik müddətin 2000-ci ilin mayın 16-da başa çatması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə səmərəli və məhsuldar əməkdaşlıq üçün təşəkkür məktubu göndərmişdir:

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri Heydər Əliyevə!

Hörmətli Prezident!
Əziz qardaşım!

Türkiyə Böyük Millət Məclisi tərəfindən 1993-cü il mayın 16-da Türkiyənin Prezidenti vəzifəsinə seçildiyim yeddi illik müddət 2000-ci il mayın 16-da bitir.

Sizinlə, əziz qardaşımla qurduğumuz yaxın dostluq və qardaşlıq əlaqələrini, Baş nazir və Prezident sifəti ilə gözəl ölkəniz qardaş Azərbaycana səfərlərimdən aldığım unudulmaz hərarətli xatirələri ən xoş təəssüratla yad edəcəyəm. Biz tarixin yeni dönəmində birlikdə fəaliyyət göstərdik. SSRİ-nin öz-özünə dağıldığı bir zamanda Adriatik dənizindən Çin səddinə qədər uzanan geniş bir coğrafi ərazidə böyük Türk Dünyası möhtəşəm bir varlıq kimi yaranmış, Avrasiya məkanı yeni bir siyasi gerçəkliyə çevrilmiş, Avropa ideologiyalarının təsirindən qurtaraq, yüsətli bir iqtisadi və siyasi inteqrasiya ilə inkişafa başlamış, demokratiya, insan hüquqlarına hörmət, hüququn aliliyi və sərbəst bazar iqtisadiyyatı beynəlxalq birliyin ortaq dəyərlərinə çevrilmiş, Avrasiya yeni bir siyasi gerçəklik kimi meydana çıxmış, Avropa və Asiya İpək yolu boyunca yenidən bir-biri ilə əlaqələri möhkəmləndirməyə imkan tapmış, Balkanlarda və Yaxın Şərqdə sülhün bərqərar

olacağına ümidlər daha da artmış, iqtisadiyyatda qloballaşma, hüquqda beynəlxalq normalara uyğunlaşma dünyanın simasını hər cəhətdən əsaslı şəkildə dəyişdirməyə başlamış, dünya problemlərinin həlli üçün beynəlxalq səylərə yollar tapılmasının vacibliyi dərk edilməyə başlanmışdır. Tarixin bu dönəmində əməkdaşlığımızın bölgəmizdə və bütün dünyada sabitlik və firavanlıq yaradılmasına kömək edəcəyinə inanıram.

Əziz qardaşım!

Qardaş Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, iqtisadiyyatını inkişaf etdirmək istiqamətində göstərilən səylərin uğurlu olması və ölkənizin öz qüvvəsi ilə dünya sisteminə qoşulması yolunda qət edilən böyük məsafələr onun gələcək parlaq günlərinin müjdəçisidir. Biz qardaş xalqlarımızn rifahı və əmin-amanlığı üçün birlikdə böyük işlər gördük. Bizim birlikdə başladığımız Bakı-Ceyhan boru xətti layihəsi kimi böyük layihələrin həyata keçirilməsinin gedişini mən bundan sonra da həmişə izləyəcəyəm. Türkiyə ölkənizin xoş günlərində də, pis günlərində də hər zaman sizə arxa olacaq, öz dəstəyini sizdən əsirgəməyəcəkdir. Son on il ərzində biz türk dünyasının üzvləri kimi birbirimizə yenidən qovuşduq və ortaq mədəniyyətimizin, incəsənətimizin sərvətlərinə birlikdə sahib çıxdıq. Bu səylərimizi mütləq davam etdirməli, taleyimizin bağlarını daha da gücləndirməliyik. Qardaş ölkələrimiz arasında həmrəyliyin və əməkdaşlığın hər sahədə inkişaf etməsi naminə davam etdiriləcək əlaqələrimizin əbədiliyinə inanıram.

Fürsətdən istifadə edərək, Sizin simanızda bütün qardaş Azərbaycan xalqına səmimi məhəbbətimi və salamlarımı yetirmək istəyirəm. İstəyirəm biləsiniz ki, ölkənizin və xalqınızın rifahı və əmin-amanlığı naminə səylərimi bundan sonra da davam etdirəcək və hər zaman Sizinlə olacağam.

Böyük Atatürkün ifadəsi ilə desək, Azərbaycanın sevinci daim bizim sevincimiz, dərdi daim bizim dərdimiz olacaqdır. Türkiyə Azərbaycanın dirçəlmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq səylərində hər zaman onu dəstəkləyəcəkdir.

Aramızdakı dostluq, qardaşlıq və yaxınlığı hər zaman qoruyub saxlamaq əzmində olduğumu bildirərək, Zati-aliləri əziz qardaşımın cansağlığı və səadəti, qardaş Azərbaycan xalqının əbədi rifahı və əmin-amanlığı üçün ən xoş arzularımı yetirirəm.

Süleyman Dəmirəl
Türkiyə Cümhuriyyətinin Prezidenti

6 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməsi ilə əlaqədar Əhməd Necdət Sezərə təbrik məktubu göndərmişdir:

Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Cənab Əhməd Necdət Sezərə!

Hörmətli cənab Prezident!

Türkiyə Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. **Xalqlarımız arasında dərin tarixi kökləri olan dostluq və qardaşlıq münasibətlərinin Türkiyə-Azərbaycan əlaqələrinin sarsılmazlığının və dönməzliyinin mühüm şərti hesab edirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.**

Sizə möhkəm can sağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

13 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti Prezident kimi fəaliyyətinin başa çatması ilə əlaqədar cənab Süleyman Dəmirəlin mayın 5-də ona göndərdiyi məktubuna cavab yazmışdır:

Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Cənab Süleyman Dəmirələ!

Hörmətli cənab Prezident!
Əziz dostum və qardaşım!

Mayın 5-də mənə yazdığınız məktuba görə Sizə təşəkkür edir, dərin minnətdarlığımı bildirirəm. Qafqaz regionunda çoxtərəfli əməkdaşlıq forumunun yaradılması ilə əlaqədar Sizin təşəbbüsünüzə dünyanın bir çox dövlət başçılarının müsbət cavab verməsi barədə məlumatlar məni məmnun etdi.

Hesab edirəm ki, belə bir forumun yaradılması Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynaya bilər. Eyni zamanda Sizinlə tam razıyam ki, regionda real, səmərəli və uzun müddətli əməkdaşlığa nail olmaq üçün ilk növbədə cənub Qafqazdakı hərbi münaqişələri, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmaq, bölgədə daim sülhü təmin etmək lazımdır.

Bu baxımdan Türkiyənin Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olması üçün göstərdiyi davamlı səyləri yüksək qiymətləndirirəm.

Dünyanın aparıcı dövlətlərinin və Türkiyənin Balkanlarda uğurlu əməkdaşlığına istinad edərək beynəlxalq ictimaiyyətin diqqətini Cənubi Qafqazın təhlükəsizlik problemlərinə yönəltmək istiqamətindəki səyləriniz

xüsusilə təqdirə layiqdir.

Cənubi Qafqazın üç ölkəsi ilə yanaşı, Türkiyənin, Amerika Birləşmiş Ştatlarının, Fransanın, Rusiyanın, İngiltərənin, Almaniyanın, Avropa Birliyinin marağı olan digər dövlətlərinin, habelə nüfuzlu beynəlxalq maliyyə qurumlarının səylərini birləşdirərək regionun birlikdə dirçəlişinə və inkişafına nail olmaq, bərpa və quruculuq işləri aparmaq üçün dünya dövlətlərinin başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə müraciətlərinizi alqışlayıram.

Bir daha bəyan edirəm ki, biz bölgəmizdə və beləliklə də, bütün Avroatlantika məkanında sülhün və əmin-amanlığın bərqərar olması üçün konstruktiv əməkdaşlığa hazırıq.

Əziz qardaşım Süleyman Dəmirəl, bir neçə gündən sonra Siz Türkiyə Cümhuriyyətinin Prezidenti kimi fəaliyyətinizi başa vuracaqsınız.

Hər şeydən öncə, qardaş Türkiyə dövlətinə rəhbərlik etdiyiniz dövrdə Azərbaycana və Azərbaycan xalqına göstərdiyiniz daimi diqqətə və qayğıya görə xalqımız adından Sizə dərindən təşəkkür edirəm.

Türkiyə Cümhuriyyətinin Prezidenti vəzifəsini çiyninizdə daşıdığınız ötən illərdə Türkiyənin dünyada hörmətini qaldırmaq, türk xalqının rifahını yüksəltmək, Türkiyənin iqtisadiyyatını inkişaf etdirmək, həm də Türkiyəni daha əzəmətli, qüdrətli və çiçəklənən dövlət etmək üçün Siz çox böyük işlər görmüsünüz.

Siz bir daha nümayiş etdirdiniz ki, böyük Mustafa Kamal Atatürkün sədaqətli və etibarlı davamçısısınız.

Bütün başqa keyfiyyətlərinizlə yanaşı, Siz böyük dövlət xadimi, böyük siyasət adamı, həm də çox etibarlı, sədaqətli dostsunuz.

Müstəqilliyini əldə etdiyi vaxtdan bəri Siz daim Azərbaycan xalqının yanında olmusunuz, onun haqq işini yorulmadan müdafiə etmiş, xalqımıza qarşı törədilən ədalətsizliyə, soyqırıma, etnik təmizləməyə qarşı öz etiraz səsinizi ucaltmısınız.

Mən Türkiyə-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi və inkişaf etdirilməsində Sizin xidmətlərinizi yüksək qiymətləndirirəm. Sizinlə birgə fəaliyyətimiz nəticəsində Azərbaycan Türkiyə, iki qardaş ölkə, xalq və dövlət arasında qarşılıqlı və faydalı münasibətlər, hərtərəfli əməkdaşlıq ən yüksək səviyyəyə çatmış və Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı dönməz, əbədi və sarsılmaz olmuşdur.

Xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaqdır. Azərbaycana hər gəlişiniz zamını Sizi öz oğlu kimi təkrar-təkrar bağrına basmağa şad olacaqdır. Mən isə şəxsən Sizinlə dostluğumuzdan qürur duyuram və bu dostluğa daimi sadiq qalacağam.

Əziz qardaşım, bir daha şəxsiyyətinizə dərin hörmət və ehtiramımı birdirir, Sizə və ailənizə cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiy-

yətlər, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq, firavan və xoşbəxt həyat arzulayıram.

Dərin Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

31 may - Əskişəhərdəki Osman Gazi Universitetinin Elmi Şurası Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, inkişafı, Türkiyə-Azərbaycan əlaqələrinin gücləndirilməsi sahəsində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq münasibətlər üzrə fəxri doktor adının verilməsi barədə yekdillikle qərar qəbul etmişdir.

13 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Yazıçılar Birliyi və Türkiyə Jurnalistlər və Yazarlar vəqfinin "Gülüstan" sarayında birgə təşkil etdiyi "Dialoq - Avrasiya" jurnalının təqdimat mərasimində iştirak etmiş və geniş nitqlə çıxış etmişdir.

11 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Binə hava limanında Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezəri qarşılamışdır.

İki ölkənin dövlət başçıları arasında təkbətək görüş olmuşdur.

- Prezident Sarayında hər iki ölkə Prezidentinin başçılıq etdikləri nümayəndə heyətləri arasında Azərbaycan-Türkiyə danışıqları davam etdirilmişdir.

- Ali qonağı və onu müşayiət edən şəxsləri səmimiyyətlə salamlayan Prezident Heydər Əliyev demişdir:

"Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq və geniş əməkdaşlıq əlaqələri dərin köklərə malikdir. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr sürətlə inkişaf edibdir. Əlaqələrimiz o qədər yaxındır ki, biz bir-birimizi ayrı bir dövlət xalq kimi hiss etmirik. Belə bir zamanda, dönəmdə Türkiyənin yeni seçilmiş onuncu Prezidenti hörmətli Əhməd Necdət Sezərin ilk xarici ölkəyə səfərinin Azərbaycana olması bizim üçün çox əzizdir, hörmətlidir və biz, Azərbaycan xalqı bunu yüksək qiymətləndiririk".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)

- Türkiyə Prezidenti Əhməd Necdət Sezər səmimi sözlərə və qonaqpərvərliyə görə Heydər Əliyevə minnətdarlığını bildirərək demişdir:

"Bunu da bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri Türkiyədə dövlət başçısının dəyişməsi ilə hər hansı bir dəyişikliyə məruz qalacaq əlaqələr deyildir. Bunlar öz kökünü tarixdən, qardaşlıqdan, qan birliyindən alan əlaqələrdir. Buna görə də bu əlaqələr həmişə olduğu kimi, yenə də ahəngdar şəkildə davam edəcəkdir. Bunu bilməyinizi xahiş edirəm".

(Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin nitqindən)

- Danışıqlardan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezər birgə bəyanat imzalamışlar.

- Azərbaycan və Türkiyə Prezidentlərinin yerli və xarici jurnalistlər üçün birgə mətbuat konfransı keçirilmişdir.

- Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Azərbaycanın Respublikasının Baş naziri Artur Rasi-zadə ilə görüşmüşdür.

- Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Konstitusiya Məhkəməsinin Sədri Xanlar Hacıyevlə görüşmüşdür.

- Elə həmin gün axşam "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adından Türkiyə Prezidenti Əhməd Necdət Sezərin şərəfinə rəsmi qəbul təşkil edilmişdir. Qəbulda ölkə Prezidentləri nitq söyləmişlər.

"Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almış, türk xalqının köməyini hiss etmiş, türk xalqının Azərbaycan xalqı ilə həmrəyliyini daim duymuşdur. Bizim keçmişimiz, tarixi əlaqələrimiz çox zəngindir".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

12 iyul - Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər onun üçün ayrılmış iqamətgahda Bakıda fəaliyyət göstərən türk iş adamları və türk icmasının nümayəndələri ilə görüşmüşdür.

- Heydər Əliyev və Əhməd Necdət Sezər Şəhidlər Xiyabanını ziyarət etmişlər.

- Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Milli Məclisində olmuş və deputatlar qarşısında çıxış etmişdir:

"1918-ci ildə olduğu kimi, Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini elan edərkən onun yanında bu dəfə Türkiyə Cümhuriyyəti var idi. Müstəqil Azərbaycanı tanıyan ilk dövlət Türkiyə Cümhuriyyətidir. Türkiyənin Azərbaycanı tanımaq barəsindəki qərarı

bütün dünya dövlətləri üçün nümunə olmuşdur. Azərbaycana doğru uzanan ilk əl Türkiyənin əli olmuşdur. Dünya dövlətlərinin diqqətinin bu bölgəyə yönəldilməsində ilk addımı Türkiyə atmışdır. Bu yanaşma bundan sonra da eyni şəkildə davam edəcəkdir.

Azərbaycan hər dəfə əlini uzatdıqda bir qardaş əlinin onu tutacağını bilməlidir. Bu son dərəcə qüvvətli həmrəylik duyğusu iki xalq arasındakı dərin sevgi və yaxınlıqdan, iki ölkə arasındakı strateji əməkdaşlıq və ortaq mənafeyə əsaslanan köklü münasibətdən qaynaqlanır".

(Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin nitqindən)

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Bakı Şəhərinin Nərimanov rayonu ərazisində məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşmüş, onlar qarşısında çıxış etmişlər. Görüşdən sonra dövlət başçıları Qızıl Ay Cəmiyyətinin gətirdiyi yardımı qaçqın və məcburi köçkünlərə paylamışlar.

- Azərbaycana rəsmi ziyarətini başa çatdıran Türkiyə Prezidenti vətənə yola düşmüşdür.

7 sentyabr - Sentyabrın 6-8-də Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının himayəsi altında keçirilmiş minilliyin Zirvə görüşündə iştirak etmək məqsədilə Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gəlmiş Azərbaycan Prezidenti Heydər Əliyev Zirvə görüşündə iştirak edən Türkiyə Prezidenti Əhməd Necdət Sezərlə görüşmüşdür.

8 sentyabr - Qarsdakı Qafkaz Universitetinin Elmi Şurası uzun illər yüksək dövlət vəzifələrində çalışdığı zaman xalqının rifahı və ölkəsinin inkişafı naminə göstərdiyi səylərə, Sovetlər Birliyinin süqutundan sonra Azərbaycanın dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətlərə görə Türkiyə-Azərbaycan əlaqələrinin könüllü memarı, müdrik dövlət xadimi Heydər Əliyevə ümumi türk tarixi üzrə fəxri doktor adının verilməsi barədə yekdillikle qərar qəbul etmişdir.

19 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməsi ilə əlaqədar cənab Ömər İzgiyə təbrik məktubu göndərmişdir:

Türkiyə BMM-nin Sədri
Zati-aliləri Cənab Ömər İzgiyə!

Hörmətli Cənab Sədr.

Türkiyə BMM-nin sədri seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Azərbaycan ilə Türkiyə arasında dərin tarixi köklə-

ri olan dostluq və qardaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2001

16 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında TÜRKSOY təşkilatının toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul etmişdir.

24 yanvar - Fransa Prezidenti Jak Şirakın dəvətilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Parisdə, onun üçün ayrılmış iqamətgahda, Türkiyəli jurnalistlərin - "TRT", "TGRT" televiziyalarının və "Sabah" qəzeti müxbirlərinin suallarına cavab vermişdir.

12 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Kadri Ecvet Tezcanı qəbul etmişdir. Səfir Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi münasibətilə Azərbaycan Prezidentini təbrik etmişdir. Türkiyə Prezidenti və hökuməti adından uydurma "erməni soyqırımı" barəsindəki mövqeyinə görə dövlət başçısına təşəkkür etmişdir. Səfir həmçinin Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri ilə əlaqədar dəvətini çatdırmışdır.

27 fevral - Ankara Universiteti Elmi Şurası beynəlxalq münasibətlərinin təlatümlü və gərgin bir dönəmində, son dərəcə müdriklik tələb edən vəzifəsində türk dostu kimi hər zaman Türkiyəni dəstəkləyən və hər vasitə ilə Türkiyənin beynəlxalq aləmdəki önəmini ifadə edən, daim "Bir millət, iki dövlət" olaraq gördüyü Türkiyə və Azərbaycan arasındakı dostluğun inkişafı, iki ölkə arasındakı qardaşlığın strateji müttəfiqliyə çevrilməsi sahəsindəki xidmətlərinə, böyük dövlət adamı keyfiyyətinə və təcrübəsinə malik olduğuna, Azərbaycanda və dünyanın ən qarışıq bölgələrindən biri olan Qafqazda sabitliyin bərqərar olması nəticəsində ölkəsinin və bölgənin Avropa ilə inteqrasiyası sahəsində əldə etdiyi uğurlara görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində

fəxri doktor adı verilməsi barədə qərar yekdillikle qəbul etmişdir.

9 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanda Atatürk Mərkəzinin yaradılması ilə əlaqədar sərəncam vermişdir.

12 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə dost ölkəyə rəsmi səfərə yola düşmüşdür.

- Ankaranın Esenboğa hava limanında Heydər Əliyevi qardaş ölkənin dövlət naziri Əbdülxaliq Çay, Türkiyə Böyük Millət Məclisinin deputatları və başqa rəsmi şəxslər qarşılamışlar.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin banisi, Türk dünyasının görkəmli xadimi Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət etmiş, məzarın önünə əklil qoymuşdur.

- Sonra "Çankaya" köşkünə gələn Azərbaycan Respublikasının Prezidentini Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər böyük hörmət və ehtiramla qarşılamışdır.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezərlə təkbətək görüşdükdən sonra nümayəndə heyətlərinin görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə dair sənədlər imzalanmışdır.

- Həmin gün dövlət başçısı üçün ayrılmış iqamətgahda - "Çamlı" köşkdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Türkiyənin Baş naziri Büləncd Ecevit arasında təkbətək görüş olmuşdur.

- Axşam isə "Çankaya" köşkündə Türkiyə Prezidenti Əhməd Necdət Sezərin adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

13 martda - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çamlı" köşkdə Türk Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyin Kıvrıkoğlu ilə görüşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz iqamətgahdında Türkiyə Baş nazirinin müavini, dövlət naziri, Milliyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı ilə görüşmüşdür.

- Həmin gün "Çamlı" köşkdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Baş

nazirinin müavini, ANAP sədri Məsud Yılmaz arasında görüş olmuşdur.

- Daha sonra Azərbaycan Respublikasının Prezidenti "Çamlı" köşkdə Türkiyə Xarici İşlər naziri İsmayıl Cem ilə görüşmüşdür.

- Günortadan sonra ali qonaq TBMM-ə gəlmişdir. TBMM-in Sədri Ömər İzgi Azərbaycan rəhbərini Parlament binası önündə qarşılamışdır. Sonra onların arasında təkbətək görüş olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev TBMM üzvləri qarşısında geniş nitq söyləmişdir:

"Ötən illər bizim ölkələrimiz, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri artmaqda davam edir. Biz artıq Türkiyə-Azərbaycan strateji tərəfdaşlıq əlaqələri səviyyəsinə gəlib çatmışıq. Bu, dövlətlərarası əlaqələrdir. Ancaq xalqlarımız arasındakı əlaqələrin tarixi də çox böyükdür və onun qiyməti də bundan artıqdır. Çünki biz eyni köklərə mənsub olan xalqlarıq. Eyni milli-mənəvi dəyərlərə, eyni dilə, eyni dinə mənsub olan xalqlarıq. Biz hamımız bir kökdən gəlirik. Ona görə də bizim hamımızın fikri, zəkası bu köklərlə bağlıdır. Biz Azərbaycanda xalqlarımızın mənsub olduqları bu kökləri, milli-mənəvi dəyərləri yüksək qiymətləndiririk və bu dəyərlərə, bu tarixə daim sadiq olduğumuzu mən bir daha bəyan edirəm".

(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)

- Həmin gün Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl "Çamlı" köşkə gələrək Heydər Əliyevlə görüşmüşdür.

14 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankarada "Etimesqut" hərbi təyyarə meydanına gəlmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər buradan xüsusi təyyarə ilə İstanbula yola düşmüşlər.

- İstanbuldakı Atatürk hava limanının hərbi terminalında Prezidentləri şəhər valisi və digər rəsmi şəxslər qarşılamışlar.

- Sonra Prezidentlər Türkiyə dövləti başçısının İstanbudakı iqamətgahına gələrək burada birgə nahar etmişlər. Daha sonra hər iki ölkənin Prezidentləri Türkiyə Cümhuriyyətinin Hərbi Akademiya Komandalarının birgə konfransında iştirak etmiş və nitq söyləmişlər. Həmin gün axşam Prezidentlər xüsusi təyyarə ilə Ankaraya qayıtmışlar.

15 mart - Azərbaycan Respubli-

kasının Prezidenti Heydər Əliyev onun üçün ayrılmış iqamətgahda - "Çamlı" köşkdə, "CNN-Türk" televiziya kanalının Baş direktoru Taha Akyola müsahibə vermişdir.

Həmin gün dövlət başçımız "Çamlı" köşkdə TRT kanalı Xəbərlər Departamentinin müdiri Haluk Koça, "NTV" televiziyası kanalının əməkdaşları İrfan Sapmaz və Didən Tuncaya, daha sonra "Samanyolu" kanalı müxbiri Melih Meriçə müsahibə vermişdir.

16 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərlə birlikdə qonağa fəxri doktor adı veirlməsi münasibətilə təşkil edilən mərasimdə iştirak etmək məqsədilə Ankara universitetinə gəlmişdir. Universitetin rektoru prof.Nüsrət Aras, Ankara valisi Yahya Gur və bu tanınmış təhsil ocağının professor-müəllim heyəti tərəfindən hərarətlə qarşılanan Prezidentlər universitetin rektoru, professor Nüsret Arasla görüşmüşlər.

- Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Ankara universitetinin fəxri doktoru adı verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir. Mərasimdə Türkiyə dövlət naziri Əbdülxaliq Çay, təhsil naziri Metin Bostançıoğlu, millət vəkilləri, universitetin professor-müəllim heyəti və KİV nümayəndələri iştirak etmişlər.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söyləmişdir. Prezident Heydər Əliyev azərbaycanlı rəssamın Bakının mənzərəsi təsvir olunmuş tablosunu Ankara Universitetinə bağışlamış və Universitet binası önündə xatirə ağacı əkmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çamlı" köşkdə TBMM deputatları Əli Güner, Aslan Haydar və Osman Gezegerle görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmin gün "Sabah" qəzetinin siyasi şərhçisi Füsun Mutluya müsahibə vermişdir.

17 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qardaş ölkəyə rəsmi səfərini başa vuraraq Ankara Esenboğa hava limanına gəlmişdir.

Ali qonaq Türkiyənin dövlət naziri Əbdülxaliq Çay, Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl, millət vəkilləri və digər rəsmi şəxslər tərəfindən Vətənə yola salınmışdır.

30 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyənin dövlət naziri Əbdülxaliq Çayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

9 aprel - Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vaşinqtonda Türkiyənin ABŞ-dakı səfiri Bakı İlkin ilə görüşmüşdür.

19 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər arasında telefon danışığı olmuşdur.

23 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türkdilli dövlət başçılarının İstanbulda keçiriləcək VII Zirvə görüşündə iştirak etmək üçün Türkiyə Cümhuriyyətinə işgüzar səfərə yola düşmüşdür.

- İstanbul Atatürk hava limanında dövlət başçısını Türkiyə Cümhuriyyətinin dövlət naziri Əbdülxaliq Çay və digər rəsmi şəxslər qarşılamışlar.

- Hava limanından Prezident onun üçün ayrılmış iqamətgaha yola düşmüşdür. Dövlətimizin başçısını burada Zirvə görüşünün əlaqələndiricisi Umud Apaydın qarşılamışdır.

- Prezident onun üçün ayrılmış iqamətgahda Türkiyə Xarici İşlər naziri İsmayıl Cemi qəbul etmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulda onun üçün ayrılmış iqamətgahda - "Çırağan" sarayında Türkiyə Baş nazirinin müavini Dövlət Baxçalı ilə görüşmüşdür.

24 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərlə Çırağan sarayında görüşmüşdür.

25 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qardaş ölkəyə işgüzar səfərini başa vurduqdan sonra İstanbulun Atatürk hava limanından Vətənə qayıtmışdır.

30 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Maddi-Texniki Təminat rəisi, korpus generalı Hurşit Tolonu qəbul etmişdir.

1 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyənin Jandarm Qüvvələrinin baş komandanı, ordu generalı Aytaç Yalmanı qəbul etmişdir.

8 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il fevralın 28-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Cümhuriyyəti arasında təmənnasız hərbi yardım və Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Cümhuriyyəti

Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımı protokollarının təsdiqi haqqında sərəncam vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikasının vergilər nazirliyi ilə Türkiyə Cümhuriyyətinin maliyyə nazirliyi, Azərbaycan Respublikasının maliyyə nazirliyi ilə Türkiyə Cümhuriyyətinin maliyyə nazirliyi, Azərbaycan Respublikasının ədliyyə nazirliyi ilə Türkiyə Cümhuriyyətinin ədliyyə nazirliyi və Azərbaycan Respublikasının mədəniyyət nazirliyi ilə Türkiyə Cümhuriyyətinin mədəniyyət nazirliyi arasında imzalanmış əməkdaşlıq protokollarının təsdiqi haqqında sərəncam vermişdir.

13 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyə xarici işlər nazirinin müavini, səfir Yigit Alpoğlanı qəbul etmişdir.

14 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyənin "Mərmərə Grupu" Strateji və Sosial Araşdırmalar vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında tanınmış alim Bilkənd universitetinin idarə heyətinin sədri prof. İhsan Doğramacını və Bilkend universitetinin rektoru Əli Doğramacını qəbul etmişdir.

5 iyul - Azərbaycan Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyənin dövlət naziri Əbdülxaliq Çayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyin Kıvrıkoğlu arasında təkbətək görüş keçirilmişdir.

25 avqust - Prezident Sarayında Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hüseyin Kıvrıkoğluna Türkiyə ilə Azərbaycan arasında dostluq və strateji əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində böyük xidmətlərinə görə "Azərbaycan Bayrağı" ordeni təqdim olunması münasibətilə mərasim keçirilmişdir.

30 avqust - Ankarada yerləşən "İpək Yolu" vəqfi idarə heyətinin yekdil rəyinə əsasən 2001-ci il 18 iyun tarixli fərmanı ilə avqust ayının 1-dən etibarən Azərbaycanda latın əlifbasına keçilməsi, mətbuatın, təhsilin, rəsmi yazışmaların, çıxışların Azərbaycan dilində olması, Azərbaycanın latın əlifbası ilə dünyaya açılması, İpək Yolunda əlifba ilə dil birliyinin təmin edilməsi, türkdilli dövlətlər arasında "türkçə dil körpüsü"nün qurulması, "dildə, fikirdə, işdə birlik" şuarının həyata keçirilməsi, "Bir millət, iki dövlət" kəlamı ilə Türkiyə və Azərbaycanın sıx yaxınlaşdırılması, əlifba və dil birliyindən çıxış edərək, "türk birliyinin" təmin edilməsi sahəsində böyük fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə "2001-ci ilin Dövlət Adamı mükafatı" verilməsi qərara alınmışdır.

6 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyənin "Doğan Holdinq" qrupunun rəhbəri Aydın Doğanı, onun müavini Tufan Karbaşı, qrupun idarə heyətinin üzvü Tayan Bikdeli, "Hürriyət" qəzetinin Baş redaktoru Ərtoğrud Özkökü, "Milliyət" qəzetinin Baş redaktoru Mehmet Yılmazı, "Petrol Ofisi" anonim şirkətinin Baş direktoru Ərtoğrud Tunceri, "Türk Bank" idarə heyətinin üzvü Tayfur Bayaziti qəbul etmişdir.

10 sentyabr - Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərə 60 illik yubileyi ilə əlaqədar təbrik göndərmişdir.

11 sentyabr - 20 sentyabr "Neftçilər günü" münasibəti ilə "Petrol Holdinq"in idarə heyətinin sədri prof.dr. Güntekin Köksal Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

16 sentyabr - 1993-cü ildən fəaliyyət göstərən Ankara İş Qadınları Cəmiyyəti iki qardaş ölkə arasında dildə də birliyi təmin etmək məqsədi ilə böyük bir addım ataraq 2001-ci ilin avqustun 1-dən etibarən latın əlifbasına keçilməsi ilə əlaqədar verdiyi tarixi qərara görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi "2001-ci ilin müdrik dövlət adamı" seçmişdir.

17 sentyabr - 20 sentyabr "Neftçilər günü" münasibəti ilə Türkiyənin dövlət naziri prof. dr Əbdülxaliq Çay Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

20 sentyabr - "Neftçilər günü" münasibəti ilə "Türkiyə Petrolları" AŞ-nin prezidenti M.Əli Türkoğlu Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

- Türkiyənin "Doğan Holdinq" qrupunun rəhbəri Aydın Doğan Prezident Heydər Əliyevə Azərbaycanda olduğu müddətdə onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyinə görə təşəkkür məktubu göndərmişdir.

27 sentyabr - Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər ad günü münasibətilə göndərdiyi təbrik məktubu və etdiyi telefon

zənginə görə Heydər Əliyevə təşəkkür məktubu göndərmişdir.

10 oktyabr - Türk Dünyası Yazıçılar və Sənətçilər vəqfinin (TÜRKSAN) İdarə Heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il üçün "Türk Dünyasının Xüsusi Mükafatı"na layiq görülməsi barədə yekdillikla qərar qəbul etmişdir.

17 oktyabr - Türkiyə Cümhuriyyətinin Baş naziri Büləd Ecevit, Azərbaycanın milli müstəqilliyinin 10-cu ildönümü münasibətilə Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

18 oktyabr - Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Azərbaycanın Milli Müstəqilliyinin 10-cu ildönümü müasibətilə Heydər Əliyevə təbrik məktubu göndərmişdir:

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri Cənab Heydər Əliyevə!

Cənab Prezident!
Əziz dostum!

Qardaş Azərbaycanın milli müstəqilliyinin onuncu ildönümünü şəxsən öz adımadan və türk milləti adından ən səmimi arzularla təbrik edirəm.

Azərbaycan on illik qısa bir müddət ərzində bölgədə baş verən bütün çətinliklərə sinə gərərək, tarixi təcrübəsi, mükəmməl insan potensialı və yeritdiyi qəti siyasət sayəsində müstəqilliyini və respublika quruluşunu inkişaf etdirmiş, beynəlxalq ictimaiyyətin sayılan bir üzvü kimi layiq olduğu yeri tutmuşdur. Bu müvəffəqiyyətin qazanılmasında Uca Şəxsiyyətinizin dərin təcrübəsi və müdrik rəhbərliyi, şübhəsiz, böyük rol oynamışdır.

Azərbaycan müstəqilliyini yenidən əldə etdikdən sonra ölkələrimiz arasında qurulan əlaqələrin sürətlə inkişaf edərək, hər sahədə yüksək səviyyəyə çatması əməkdaşlığımızın və həmrəyliyimizin təminatıdır. Bütün dünyada nümunə olan əlaqələrimizin bu möhkəm təməllər əsasında dərinləşərək daha da inkişaf edəcəyinə əminəm.

Türk milləti Qafqazda azadlıq abidəsi kimi yüksələn qardaş Azərbaycanın Uca Şəxsiyyətinizin rəhbərliyi altında daha neçə onillikləri əmin-amanlıq şəraitində bayram etməsini ürəkdən arzu edir.

Dəyərli qardaşım!

Fürsətdən istifadə edərək, Uca Şəxsiyyətinizin sağlamlığı və xoşbəxtliyi, qardaş Azərbaycan xalqının rifahı və əmin-amanlığı naminə ən xoş arzularımı çatdırıram.

Əhməd Necdət Sezər
Türkiyə Cümhuriyyətinin Prezidenti

21 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Sarayında Türkiyənin Xarici İşlər naziri İsmayıl Cemin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

23 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərə Türkiyə Cümhuriyyətinin Milli bayramı - Respublika elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir:

Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Cənab Əhməd Necdət Sezərə!

Hörmətli Cənab Prezident!
Əziz dostum, qardaşım!

Qardaş Türkiyə Respublikasının milli bayramı - Respublika elan edilməsi günü münasibətilə Sizi və dost Türkiyə xalqını ürəkdən təbrik edirəm.

Biz tarixi-milli kökləri eyni olan, zəngin mənəvi dəyərlərə malik xalqlarımızın dostluğunu, əməkdaşlığını hər şeydən uca tuturuq. Bir millətin iki dövləti olaraq ölkələrimizin daim bir-birinə göstərdiyi qarşılıqlı dəstəyi, inam və etimadı yüksək qiymətləndiririk.

Böyük Atatürkün yolu ilə irəliləyən Türkiyə Cümhuriyyətinin uğurları bizi həmişə sevindirir. Bu gün qardaş Türkiyənin dünya birliyində layiqli yer tutması, beynəlxalq aləmdə qazandığı nüfuz və hörmət qəlbimizi iftixar hissi ilə bürüyür.

Dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi, demokratiyanın bərqərar olunması sahəsində ölkənizin son dövrlərdə qazandığı nailiyyətlərdə Sizin rolunuz böyükdür.

Əziz qardaşım!

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyəyə əmin-amanlıq və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

24 oktyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev TBMM Sədri Ömər İzgiyə Türkiyə Cümhuriyyətinin milli bayramı - Respublika elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

7 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətini idarə etmək hüququnun Türkiyənin "Barmek Holdinq A.Ş." şirkətinə verilməsinə dair müqavilənin təsdiq edilməsi haqqında fərmanı imzalamışdır.

11 noyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Əhməd Ünal

Çeviközün etimadnaməsini qəbul etmişdir.

27 noyabr - Türkiyə Sənayeçilər və İşadamları vəqfi Xəzər Dənizinin zəngin ehtiyatlarının türk dünyasına açılmasında, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, "Şahdəniz" yatağından çıxarılacaq təbii qazın Türkiyəyə nəqli üçün Bakı-Ərzurum boru kəmərinin reallaşmasında, habelə "Bir millət, iki dövlət" olan Türkiyə ilə Azərbaycanın əməkdaşlığının inkişafında misilsiz xidmətlərinə görə Azərbaycan Prezidenti Heydər Əliyevi "İlin Dövlət Adamı" seçmişdir.

2002

14 yanvar - Türkiyə Prezidenti Ə.N.Sezər Azərbaycan Prezidenti Heydər Əliyevə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

14 yanvar - Türkiyənin Azərbaycandakı Səfirliyi Avropa otelində iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar qəbul keçirmişdir. Qəbulda Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etmişdir.

15 yanvar - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Ə.N.Sezərə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar təbrik məktubu göndərmişdir.

31 yanvar - Azərbaycan Prezidenti HEYDƏRQəliyev Nyu-Yorkda Türkiyənin Xarici İşlər naziri İ.Cemlə görüşmüşdür. Görüş zamanı Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin perspektivləri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yolunda ATƏT-in Minsk Qrupunun fəaliyyəti müzakirə olunmuşdur.

6-10 fevral - Türkiyə Böyük Millət Məclisinin Sədri Ö.İzgi Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Milli Məclisin Sədri M.Ələsgərov, Baş nazir A.Rasi-zadə, Xarici İşlər naziri V.Quliyev ilə görüşmüş, BDU-nun fəxri doktoru adına layiq görülmüşdür.

29-30 aprel - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə və Gürcüstan Prezidentlərinin Trabzonda keçirilmiş Zirvə görüşündə iştirak etmişdir. Görüş zamanı Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq, qanunsuz narkotik və psixotrop maddələrin qaçaqmalçılığı, qeyri-qanuni yollarla əldə olunmuş vəsaitin yuyulması, silah və insan alveri və digər mühüm cinayətlərlə mübarizə haqqında Müqavilə" imzalanmışdır.

6-8 may - Türkiyə Baş nazirinin

müavini D.Baxçəlinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Prezident Heydər Əliyev, MM-nin sədri M.Ələsgərov, Baş nazir A.Rasi-zadə qonağı qəbul etmişlər. D.Baxçalı Xarici İşlər naziri V.Quliyev ilə görüşmüşdur. D.Baxçalını dövlət naziri R.Doğru, Müdafiə naziri S.Çakmakoğlu, Səhiyyə naziri O.Durmuş müşayiət etmişlər.

14 may - Azərbaycanın müdafiə naziri S.Əbiyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının müdafiənin planlaşdırılması və mənbələrin istiqamətləndirilməsi idarəsinin rəisi briqada generalı J.Dumanlını qəbul etmiş, "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə" və "Azərbaycan Respublikası müdafiə nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol" imzalanmışdır.

28 may - Türkiyə Prezidenti Ə.N.Sezər Respublika Günü münasibətilə Azərbayan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

28 may - Türkiyənin Xarici İşlər naziri İ.Cem Respublika Günü münasibəti ilə Azərbaycanın Xarici İşlər naziri V.Quliyevə təbrik məktubu göndərmişdir.

24-27 iyun - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olmuş, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Zirvə görüşündə iştirak etmişdir. Görüş zamanı Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşmüşdür. 25 iyunda Azərbaycan Prezidenti "Üç Dənizin Əfsanəsi" konfransının açılışında iştirak etmişdir. 26 iyunda Azərbaycan Prezidenti Ankarada Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun sədri professor İ.Doğramaçının heykəlinin açılış mərasimində iştirak etmişdir. Həmin gün Prezident Heydər Əliyev Azərbaycan Mədəniyyət Mərkəzinin və Bakı küçəsinin, Türkiyənin Prezidenti Ə.N.Sezər ilə Azərbaycan səfirliyinin yeni binasının açılışında iştirak etmişdir.

26 iyun - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Ə.N.Sezər ilə görüşmüşdür. Görüşdə bölgədə vəziyyət, Ermənistan-Azərbayjan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və bir sıra digər məsələlər müzakirə edilmişdir.

27 iyun - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Kıvrıkoğlu ilə görüşmüş, ona Azərbaycanın "Şöhrət" ordenini təqdim etmişdir.

Həmin gün Türkiyənin nüfuzlu

ijtimai təşkilatları və fondları tərəfindən Azərbaycan Prezidentinə yüksək mükafatların təqdim olunmasına həsr olunmuş mərasim keçirilmişdir. Heydər Əliyev Beynəlxalq İ.Doğramaçı Fondunun qızıl medalına, Türkiyə Sənayeçiləri və İş Adamları Fondunun (TÜSİAV) "Üstün Xidmət və Müvəffəqiyyət" mükafatına, Ankara İşgüzar Qadınlar Cəmiyyətinin (ANİKOD) "İlin dövlət adamı" mükafatına, Türk Dünyası Yazıçılar və Sənətçilər Fondunun (TÜRKSAV) "Türk Dünyasının xüsusi mükafatına" layiq görülmüşdür.

27 iyun - Azərbaycan Prezidenti iqamətgahında Türkiyə Baş nazirinin müavinləri D.Baxçalı, M.Yılmazı və Türkiyənin keçmiş Prezidenti S.Dəmirəli qəbul etmişdir.

27-28 iyun - Bakıda "Cənubi Qafqazda regional əməkdaşlığın problemləri" mövzusunda keçirilən seminarda Türkiyə tərəfindən XİN-in səfiri T.Moralı və Silahlı Qüvvələri Baş Qərargahının ikitərəfli əlaqələr üzrə mütəxəssisi kapitan Ə.İsipek iştirak etmişlər.

11 iyul - Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general Özkök Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı onu Prezident Heydər Əliyev qəbul etmişdir.

22 iyul - Türkiyənin dini işlər naziri M.N.Yılmaz Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı onu Prezident Heydər Əliyev qəbul etmişdir.

25 iyul - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezərə Türkiyənin şimal-şərq vilayətlərində baş vermiş sel daşqını nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar başsağlığı məktubu göndərmişdir.

5 avqust - Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşasında iştirak edəcək "Aksoy Holdinq" şirkətinin başçısı E.Aksoy Azərbaycanda səfərdə olmuş-dur. E.Aksoyu Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

14-18 avqust - Gənclər, İdman və Turizm naziri Ə.Qarayevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyədə işgüzar səfərdə olmuşdur.

17-19 avqust - Türkiyənin dövlət naziri R.Doğru Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Azərbaycana hədiyyə etdiyi 15 ədəd kənd təsərrüfatı maşınlarını təqdim etmiş, Baş nazirin müavini A.Şərifov ilə görüşmüşdür. R.Doğrunu Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

27-29 avqust - Türkiyinən Dənizçilik Naziri R.Mirzəoğlu Azərbaycanda səfərdə olmuş, Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi ilə görüşmüşdür. Qonağı Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmişdir.

9-11 sentyabr - Türk Sənayeçi və İş Adamları Fondunun (TÜSİAV) sədri V.Sarıtoprağın rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Heyəti Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etmiş, qəbul zamanı Prezidentə TÜSİAV-ın fəxri sədrliyinə layiq görüldüyü haqqında xatirə lövhəsi təqdim edilmişdir.

15 sentyabr - BMT Baş Assambleyasının 57-ci iclası zaman Azərbaycan Xarici İşlər Naziri V.Quliyevin Türkiyə Xarici İşlər Naziri Ş.S.Gürəl ilə görüşü olmuşdur.

17-18 sentyabr - Türkiyə Prezidenti Əhməd Necdət Sezər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlatma mərasimində iştirak etmək üçün Azərbaycanda işgüzar səfərdə olmuşdur. 17 sentyabrda Əhməd Nejdət Sezərin Azərbaycan Prezidenti Heydər Əliyevlə təkbətək görüşü olmuşdur.

25 sentyabr - Azərbaycan Müdafiə Naziri S. Əbiyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Maddi-texniki Təchizat məsələlərinə məsul general S. Kayanın başçılığı ilə nümayəndə heyətini qəbul etmişdir. Türkiyə ilə Azərbaycan arasında texniki təchizat və ona aid məsələlərə dair Protokol imzalanmışdır.

25 sentyabr - Azərbaycan Milli Məclisində keçirilmiş QDİƏT Parlament Məclisinin Mədəniyyət, Təhsil və Sosial Komitəsinin növbəti 19-cu iclasında Türkiyədən Uşaq və Gənclər Festivalının Təşkilat Komitəsinin sədri S.Tanık iştirak etmişdir.

25-28 sentyabr - İqtisadi İnkişaf naziri F.Əliyev Mərmərə Strateji Araşdırmalar Fondunun keçirdiyi 5-ci Avrasiya İqtisadi Forumunda iştirak etmək üçün Türkiyəyə getmişdir.

13-16 oktyabr - Azərbaycan Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının VII Zirvə görüşündə iştirak etmək üçün Türkiyədə işgüzar səfərdə olmuşdur.

Səfər zamanı 14 oktyabrda Prezident Heydər Əliyev Türkiyənin Prezidenti Əhməd Necdət Sezərlə, 15 oktyabrda İstanbulun "Çırağan" sarayında Türkiyənin iş adamları ilə görüşmüş, nitq söyləmiş, Türkiyənin və bu ölkədə akkreditə olunmuş xarici ölkələrin KİV nümayəndələrilə mətbuat konfransı keçirmişdir. Səfər zamanı Heydər Əliyevi Xarici İşlər naziri V.Quliyev müşayiət etmişdir.

13-16 oktyabr - Antalyada türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının konfransı keçirilmişdir. Konfransda Azərbaycan Milli Təhlükəsizlik naziri Namiq Abbasovun

rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Konfransda "Əfqanıstanda vəziyyət və terror təhlükəsinin yayılma istiqamətləri" mövzusunda müzakirələr aparılmış, xüsusi xidmət orqanları arasında əməkdaşlığın və qarşılıqlı fəaliyyətin genişləndirilməsi yolları araşdırılmışdır.

18 oktyabr - Müstəqillik günü münasibətilə Türkiyə Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

19 oktyabr - Ankaranın "Dövlət rəsm və heykəl muzeyi"nin binasında TÜRKSAV-ın (Türk Dünyası Yazıçıları və İncəsənət Xadimləri vəqfi) "2001-ci il türk dünyasına xidmət" mükafatlarının təqdimetmə mərasimi keçirilmişdir. Mədəniyyət naziri P. Bülbüloğluna vəqfin 2001-ci ilinin yüksək mükafatı təqdim olunmuşdur.

23 oktyabr - Türkiyə Prezidenti Əhməd Necdət Sezər Xəzər dənizində "Merkuri-2" gəmi-bərəsində baş vermiş qəza nəticəsində insan tələfatı ilə əlaqədar Heydər Əliyevə başsağlığı məktubu göndərmişdir.

26 oktyabrda - Azərbaycan Prezidenti Heydər Əlyiev Türkiyənin Milli bayramı - Respublikanın elan edilməsi günü münasibətilə Türkiyə Prezidenti Əhməd Necdət Sezərə, Baş nazir B. Ecevitə, TBMM-nin sədri Ö. İzgiyə təbrik məktubları göndərmişdir.

5 noyabr - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədəki Parlament seçkiləri nəticəsində qələbə qazanmış və yeni hökuməti təkbaşına formalaşdırajaq Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan ilə telefon söhbəti aparmış və onu təbrik etmişdir.

5 noyabr - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədəki Parlament seçkiləri nəticəsində TBMM-də təmsil olunacaq digər partiyanın - Cumhuriyət Xalq Partiyasının sədri D.Baykal ilə telefon söhbəti aparmış və onu təbrik etmişdir.

18 noyabr - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin yeni təyin olunmuş Baş naziri A.Gülə təbrik məktubunu göndərmişdir.

20 noyabr - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Parlamentinin yeni Sədri B.Arınça təbrik məktubunu göndərmişdir.

4 dekabr - Türkiyənin Baş naziri A.Gül Azərbaycan Prezidenti Heydər Əliyevə və Baş nazir A.Rasizadəyə Ramazan Bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

4 dekabr - Türkiyənin Xarici İşlər Naziri Y.Yakış Azərbaycan Xarici İşlər Naziri V.Quliyevə Ramazan

Bayramı münasibətilə təbrik məktubunu göndərmişdir.

6 dekabr - Türkiyənin ölkəmizdəki səfiri Ə.Ü.Çeviköz və səfirliyin bir neçə əməkdaşı Ağcabədi və Bərdə rayonlarındakı "Qızıl ay" çadır şəhərciklərində olmuş, Ramazan Bayramı münasibətilə gətirdikləri humanitar yardımı qaçqın və məcburi köçkün ailələrinə paylamışlar.

6 dekabr - BMT-nin 57-ci Baş Assambleyasının iclası zamanı müzakirə ediləcək "BMT-ATƏT arasında əməkdaşlıq haqqında" Qətnamə layihəsinə Azərbaycan tərəfinin düzəlişinin dəstəklənməsi ilə əlaqədar Xarici İşlər Naziri V.Quliyev Türkiyənin Xarici İşlər Naziri Y.Yakışa məktub göndərmişdir.

20 dekabr - BMT-nin 57-ci Baş Assambleyasının iclası zamanı "BMT-ATƏT arasında əməkdaşlıq haqqında" Qətnamə layihəsinə Azərbaycanın təklif etdiyi düzəlişi Türkiyə dəstəkləmişdir.

25 dekabr - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin səfiri Əhməd Ünal Çeviközü qəbul etmiş, görüşdə Türkiyənin Avropa İttifaqı ilə münasibətləri, Kipr məsələsi və ikitərəfli münasibətlərin digər aktual məsələləri müzakirə edilmişdir.

26 dekabr - Türkiyənin Xarici İşlər Naziri Y.Yakış Azərbaycan Prezidenti Heydər Əliyevə və Xarici İşlər Naziri V.Quliyevə Yeni İl münasibətilə təbrik məktubu göndərmişdir.

2003

7 yanvar - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat rəisi, korpus generalı Hüseyn Göksunu qəbul etmişdir.

7 - 8 yanvar - Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan böyük bir nümayəndə heyətinin başında Bakıya gəlmişdir. Yanvarın 7-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.

11 yanvar - Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin səfiri Ə.Ü.Çeviközü qəbul etmişdir.

14 yanvar - Azərbaycandakı Atatürk Mərkəzi ölkəmizlə Türkiyə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi münasibətilə Milli Elmlər Akademiyası Rəyasət Heyətinin elmi-praktik konfrans keçirmişdir.

14 yanvar - Türkiyənin Bakıdakı səfirliyi Azərbaycan və Türkiyə

arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi münasibətilə "Avropa mehmanxanasında mərasim keçirmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmiş və nitq söyləmişdir.

5 - 6 fevral - TÜRKSOY-un Bakıda növbəti toplantısı keçirilmiş, iştirakçılar Prezident Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

TARİXİ SƏNƏDLƏR

Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür...

Türk ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, odasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Qarabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən Azərbaycanda da Ənvər Paşanı, Nuru Paşanı heç kəs, heç vaxt unutmur və unuda bilməz.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

ДОГОВОР О ДРУЖБЕ МЕЖДУ ИМПЕРАТОРСКИМ ОТТОМАНСКИМ ПРАВИТЕЛЬСТВОМ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ

Батуми 4 июня 1918 г.

Императорское Оттоманское правительство, с одной стороны, и правительство Азербайджанской Республики, объявившей себя независимой, с другой стороны, взаимно согласившись установить дружественные и добрососедские отношения между своими странами на почве политической, правовой, экономической и интеллектуальной, назначили своими представителями:

Для Оттоманской империи (имена и фамилии): министр юстиции, председатель Сената Халил бей и главнокомандующий кавказских фронтов Оттоманской империи Фариг Вехиб-паша. Для Азербайджанской Республики: министр иностранных дел Мамед Гасан Гаджинский и председатель Национального Совета Мамед Эмин Расулзаде, каковые по рассмотрении и обмене полномочиями, найденными в надлежащей форме, условились о нижеследующем:

Статья 1. Между Императорским Оттоманским правительством и правительством Азербайджанской Республики будет постоянный мир и прочная дружба.

Статья 2. Пограничная линия ни-

жеследующего направления отделяет Оттоманскую империю от Республики Азербайджана, Грузии и Армянской Республики:

Граница начинается в том пункте, где р. Чодок впадает в Черное море и сливается со старой границей 1877 г. до Шавнабада и проходя по линии вершин, достигает гор Холхама и Менискари: отсюда поворачивает к югу, проходит по вершине горы Пир-сагат и в 2 км. к югу, от Абастумана, поворачивая к северо-востоку, достигает вершины горы Кархун; направляясь отсюда сначала на 5 км. к северо-востоку, затем к юго-востоку, она доходит до Куркель, переходит через р. Куру в 2 км. к югу от Ацхур и, проходя по линии вершин гор Кая-Баши, Ортатави, Каракая, достигает Табицкурского озера, непосредственно на юг от Молитеского монастыря. Она переходит это озеро таким образом, что часть озера, находившаяся на юге по прямой линии, непосредственно проходящей с юга Молитского монастыря к пункту, расположенному на противоположном берегу, на расстоянии полутора километров на юго-восток северной оконечности озера, таким образом, что часть эта остается на оттоманской территории; затем она доходит до горы Тавкатели, спускается к югу и проходит по вершинам горной цепи Девекиран до горы Агрикар. Граница далее следует по вершинам гор Башкран и Нуррахман, отсюда поворачивает на юг и, следуя все время по вершинам гор в 5 км. западнее Аг-Булага, пересекает Александрополь* - Тифлисскую дорогу. Отсюда опять по вершинам гор идет до Хан-Вали и далее прямой линией до вершин Ала-геза, идя далее опять прямой линией пересекает Эчмиадзин-Сардарабское шоссе в 7 км. западнее Эчмиадзина и огибая Эчмиадзин в 7 км. и приблизительно на расстоянии 6 км. к северу от Александрополь-Джульфинской дороги параллельно ей доходит до дороги, идущей от Баш-Гярпи на железную дорогу, пересекая ее на расстоянии 16 км. от Баш-Гярпи. Затем граница поворачивает к юго-востоку и на 1 км. западнее Ашаги-Карабагляра проходит через Шаганлу, Карахач, Ашага Чанахчи доходит до Альпин-чая и по этой реке до местности Арпа. Отсюда граница идет на восток по р. Арпа-чай, доходит до местности Каялу, потом по Ганд-чаю до вершин Агдабан. Отсюда по вершине Кара-Турпа, Арачиг, Га-ранлыгдаг идет по долине реки Релиан-чай и следуя по течению этой реки пересекает старую русско-персидскую границу в местности Алиджа к югу от Азо.

Статья 3. Протоколы, заключенные между Азербайджанской Республикой и правительствами республик Грузинской и Армянской касательно определения их границ,** будут сообщены Императорскому Оттоманскому правительству и эти протоколы составляют часть настоящего договора.

* Гюмри

* Не публикуются (См.: ГААР, ф. 970, оп.1, д. 18, 121-122, 126).

Статья 4. Императорское Оттоманское правительство обязуется оказывать помощь вооруженной силой правительству Азербайджанской Республики, буде таковая потребуется для обеспечения порядка и безопасности в стране.

Статья 5. Правительство Азербайджанской Республики обязуется деятельно противодействовать формированию и вооружению банд в границах ее территории, а также разоружать и разгонять все банды, которые бы там укрылись.

Статья 6. Договаривающиеся стороны обязываются оказать друг другу возможные облегчения в отношении железнодорожных перевозок путем установления и применения пониженных тарифов. В частности, в отношении перевозки материалов, необходимых для постройки, эксплуатации и содержания железных дорог и всех других общественных работ, будет применен особо пониженный тариф.

Обмен подвижного состава, между железными дорогами договаривающихся сторон будет производиться по международным принципам, установленным на сей предмет.

Договаривающиеся стороны немедленно приступят к переговорам, в целях установления подробностей вышеуказанных постановлений.

Статья 7. Ввиду отсутствия каких-либо трактатов, конвенций, соглашений, актов или других международных договоров между Оттоманской империей и Азербайджанской Республикой обе договаривающиеся стороны соглашаются заключить консульскую конвенцию, торговый договор и другие акты, кои они признали бы необходимыми для регламентирования их правовых и экономических отношений.

Консульская конвенция будет заключена в течение 2 лет по обмене ратификациями настоящего договора. В течение этого переходного времени обоюдные генеральные консулы, консулы и вице-консулы будут пользоваться в отношении их привилегий и деятельности условиями наиболее благоприятствуемой нации на основе общего международного права на началах взаимства.

Переговоры о заключении торгового договора на основе общего международного права начнутся немедленно по заключении всеобщего мира между Турцией, с одной стороны, и государствами, находящимися с ней в войне, с другой. До этого времени, и во всяком случае до 31 декабря 1919 г., с той и другой стороны будет применяться режим, установленный 1 приложением к настоящему договору,* от него можно отказаться 30 июня 1919 г., после чего действие его будет продолжаться еще в течение 6 месяцев.

Сообщение по сухопутным путям начнется со времени ратификации настоящего договора.

Статья 8. Жители и сельские общества на территории одной из договаривающихся сторон, имеющие право собственности и владения недвижимостями по ту сторону границы, смогут пользоваться ими, эксплуатировать их или сдавать их в аренду, управлять ими или продавать, лично или через поверенных.

Никто не может быть лишен своих прав собственности на указанные недви-

жимости за исключением случая их отчуждения в целях общественной пользы и непременно с возмещением стоимости.

Никакие препятствия не будут чинимы переходу через границу и торговле пограничных местностей.

Подробности вышеприведенных постановлений регламентированы во II приложении к настоящему договору.

Статья 9. Впредь до вступления Азербайджанской Республики во всеобщий почтово-телеграфный союз, почтовые и телеграфные сношения между Оттоманской империей и Азербайджанской Республикой будут восстановлены по обмене ратификациями настоящего договора в согласии с постановлениями почтовых и телеграфных конвенций, соглашений и регламентов международного союза.

Статья 10. Постановления коллективных и дополнительных договоров к миру, заключенному в Брест-Литовске между Оттоманской империей и ее союзниками и Россией, будут действительными между договаривающимися сторонами, поскольку они не противоречат настоящему договору.

Статья 11. Настоящий договор будет ратифицирован и ратификации обменены в Константинополе в месячный срок, самое позднее, буде окажется возможными. Он вступит в силу в день сего обмена. Во свидетельство чего полномочные подписали настоящий договор.

Учинен в 2 экземплярах в Батуме.
ГААР, ф 894, оп. 2, д. 88, л 1-3. Пер. с тур. яз., современный подлиннику.

* В деле не обнаружено
17
2.-1115

Приложение II

ОСОБЫЕ ЛЬГОТЫ, ПРИМЕНЯЕМЫЕ К ТОРГОВЛЕ ПРИГРАНИЧНЫХ МЕСТНОСТЕЙ

В целях предоставления пограничной зоне, простирающейся на 10 км по обе стороны границы, облегчения, требуемого нуждами повседневной торговли, договаривающиеся стороны условились о нижеследующем:

1. Взаимно будут освобождены от всякого платежа таможенных пошлин, а равно других налогов, каких-либо сборов при ввозе и вывозе, при переходе из одной страны в другую, за исключением железнодорожных перевозок:

а) все зерновые продукты и мука стоимостью до 500 пиастров (руб.*) при каждой перевозке;

б) вещи пассажиров, лодочников, возчиков и рабочих, как-то белье, одежда, вещи для путешествия, орудия и инструменты, предназначенные для их личного употребления;

в) повозки, действительно служащие для перевозки лиц и товаров, тележки, корзины и подобные же средства передвижения, вьючные и упряжные животные;

г) домашняя обстановка, предметы хозяйства, мебель и инструменты, ввозимые уроженцами одной из договаривающихся сторон, поселяющимися на территории другой стороны. Будет также избавлено от платежа пошлин приданое

невест и молодоженов, уроженцев одной стороны, кои заключают брак в пределах другой;

е)** мешки и оболочки, послужившие жителям пограничных округов при доставке в соседнюю страну их земледельческих продуктов, например, зерна и др. продуктов земледелия и скотоводства, извести, напитков или других жидкостей, либо иных каких-либо предметов приграничной торговли, и кои возвращаются той же дорогой по их опорожнении, и наконец,

* В документе стоимость в рублях не проставлена, по-видимому, по курсу на 1 июня 1918г. - 100 руб.

** Так в документе: по-видимому, ошибка в нумерации пунктов.

ж) скот, водимый из одной страны в другую для прокорма и пастьбы в течение зимы и лета, а равно продукты, получаемые от этого скота; во всяком случае расходы по досмотру такого скота будут подлежать уплате по истечении шестимесячного срока.

2. Для пользования вышеозначенными льготами ввозимые товары, подлежащие таможенной пошлине, должны быть сопровождаемы удостоверениями, выдаваемыми властями, засвидетельствованными вывозной таможней и обозначающими, что эти товары действительно происходят из приграничной полосы.

Означенные удостоверения не могут подлежать на территории другой договаривающейся стороны какому-либо гербовому или иному сбору.

3. Жители пограничных местностей могут свободно путешествовать по территории другой договаривающейся стороны, буде они снабжены переходным свидетельством, выданным в должной форме общинной властью. Эти переходные свидетельства будут действительны в течение 2 недель.

ГАПОДАР, ф. 277, он. 2, д.17, л.8. Пер. с тур. яз., современный подлиннику.

ДОПОЛНИТЕЛЬНЫЙ ДОГОВОР К ДОГОВОРУ О ДРУЖБЕ МЕЖДУ ТУРЦИЕЙ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ

Батуми 4 июня 1918 г.

Императорское Оттоманское правительство и правительство Азербайджанской Республики, одушевленные желанием разрешить некоторые вопросы, вызванные всеобщей войной, касающиеся их непосредственно, решили заключить временный дополнительный договор и для этой цели назначили своими уполномоченными:*

* Далее в тексте пропуск.

Статья 1. Правительство Азербайджанской Республики обязывается немедленно удалить со своей территории офицеров и гражданских чиновников стран, находящихся в войне против Оттоманской империи или ее союзников, а равно офицеров и чиновников стран, союзных воюющим сторонам.

Кроме сего, в продолжении всеобщей войны правительство Азербайджанской Республики не примет на свою службу никого из офицеров или подданных вышеуказанных воюющих стран или их союзников.

Статья 2. а) Верховное командование Императорской Оттоманской армии имеет право в продолжении состояния мобилизации производить по железнодорожной сети Азербайджаснкой Республики военные перевозки всякого рода (перевозки войск, пополнение, военных предметов и материалов и проч).

б) В этих целях Верховное командование Оттоманской армии назначит железнодорожную военную комиссию: эта комиссия совместно с комисссией, назначенной Азербайджанской Республикой, приготовит и установит основания и детали военных перевозок, указанных в предыдущем пункте, приняв в соображение максимум провозоспособности железных дорог республики. Эти перевозки будут исполняться средствами и составом администрации железных дорог республики по указаниям шефа оттоманской комиссии, согласно распоряжениям, даваемым командованием Оттоманской армии.

в) Оттоманский офицер в сопровождении достаточного количества субалтернов* будет находиться на главных станциях, кои будут обозначены с общего согласия железнодорожных комиссий обеих сторон, для обеспечения продовольствия и отдыха войск и для надзора за исполнением перевозки в назначенном направлении и согласно данных инструкций. Этот офицер не будет вмешиваться в обязанности, лежащие на начальнике станции, где он обстоит**. Покупки провизии для оттоманских транспортов, производимые этим офицером, провизии, необходимой для прокормления войск во время пробега по соответствующему сектору, будут облегчаться в пределах возможности правительством Азербайджанской Республики.

* Субалтерн (офицер, нем.) - младший офицер.

** Так в документе, имеется в ввиду "состоит".

г) Комиссии, указанные в пунктах "а" и "б", начнут свои работы в Елизаветполе по истечении недели после заключения настоящего договора. Азербайджанское правительство соберет и приготовит все сведения относительно состояния дорог, неподвижного и подвижного составов, чтобы возможно было вычислить незамедлительно максимум провозоспособности дорог.

д) Азербайджанское правительство обязуется содержать в должном состоянии дороги, подвижный и неподвижный составы, исправлять быстро все повреждения и разрушения, кои могут быть причинены случайно или по покушению.

е) Азербайджанское правительство обязуется охранять линии своими военными силами для предупреждения возможных нападений и разрушений. Если по какой-либо причине азербайджанское правительство не сможет своими силами охранять линии, то для означенной цели по соглашению с азербайджанским правительством будут назначены турецкие войска.

ж) Оттоманская армия по мере возможности, поскольку будет допустимо условиями перевозки войск, постарается не стеснять эксплуатации азербайджанских железных дорог азербайджанским правительством.

Статья 3. Правительство Азербайджанской Республики обязывается предоставлять в распоряжение Императорского Оттоманского правительства, в случае его просьбы и в видах использования в военных целях, все оборудования и сооружения, находящиеся в Бакинском порту, а равно все суда, пароходы и другие средства передвижения, ему принадлежащие, кои находятся на Каспийском море.

Статья 4. Императорское Оттоманское правительство может распространить на войска своих союзников права, принадлежащие ему по ст. 2 и 3.

Статья 5. Императорское Оттоманское правительство имеет право использовать в своих военных целях все вообще дороги Азербайджанской Республики.

Статья 6. Этот договор в продолжении одного месяца, если возможно и раньше, будет ратифицирован и ратификации обменены в Константинополе.

ГАПРПОДАР, ф. 277, он. 2, д.17, л.6-7. Пер. с тур. яз., современный подлиннику.

СОГЛАШЕНИЕ МЕЖДУ ТУРЦИЕЙ, АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И РЕСПУБЛИКОЙ ГРУЗИИ ОБ ЭКСПЛУАТАЦИИ БАКУ-БАТУМСКОГО НЕФТЕПРОВОДА

Батуми 4 июня 1918 г.

ПОСТАНОВЛЕНИЕ О КЕРОСИНОПРОВОДЕ, СУЩЕСТВУЮЩЕМ МЕЖДУ БАКУ И БАТУМОМ

Для обеспечения постоянного действия керосинопровода между Баку и Батумом нижеподписавшиеся полномочные представители Оттоманской империи, Азербайджанской Республики и Грузинской Республики, с надлежащими на то полномочиями, пришли к нижеследующему соглашению.

Керосинопроводы между Баку и Батумом сохраняют их настоящее положение. Договаривающиеся стороны взаимно берут на себя обязательство поддерживать в прекрасном виде керосинопроводы, находящиеся на их соответствующих территориях, для обеспечения постоянного действия керосинопровода.

За снабжение керосином будет взиматься надлежащая такса, которая будет распределена между правительствами соглашающихся сторон, пропорционально длине керосинопроводов, находящихся на их территориях.

Подробности этих постановлений будут определены Комиссией из членов, назначенных вышеупомянутыми правительствами.

Н. Рамишвили,
Халил,
Г. Гвазава,
Вехиб,
И. Одишелидзе,
М. Гаджинский,
И. Рцхиладзе,
М. Э. Расулзаде

Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919. С.364.

СОГЛАШЕНИЕ МЕЖДУ ТУРЦИЕЙ, АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ, РЕСПУБЛИКОЙ АРМЕНИИ И РЕСПУБЛИКОЙ ГРУЗИИ О РАСПРЕДЕЛЕНИИ ПОДВИЖНОГО СОСТАВА ЗАКАВКАЗСКИХ Ж Д.

Батуми 4 июня 1918 г.

ПОСТАНОВЛЕНИЕ О РАСПРЕДЕЛЕНИИ ПОДВИЖНОГО СОСТАВА ЖЕЛЕЗНЫХ ДОРОГ ЗАКАВКАЗЬЯ

Для решения вопроса о распределении подвижного состава железных дорог Закавказья нижеподписавшиеся полномочные представители Оттоманской Империи, Армянской Республики, Азербайджанской Республики и Грузинской Республики с надлежащими на то полномочиями, пришли к следующему соглашению.

Наличность подвижного состава железных дорог, бывшего собственностью русского государства, будет распределена между четырьмя договаривающимися сторонами пропорционально длине железнодорожных линий, находящихся на их соответствующих территориях.

Н. Рамишвили,
М. Пападжанов,
Г. Гвазава,
М. Таджикский,
И. Одишелидзе,
М. Э. Расулзаде,
И. Рцхиладзе,
Халил,
А. Хатисов,
Вехиб,
Р. И. Качазнуни

Документы и материалы по внешней политике Закавказья и Грузии, С. 365.

ДОГОВОР МЕЖДУ ПРАВИТЕЛЬСТВОМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ГЛАВНЫМ УПРАВЛЕНИЕМ ВОЕННЫМИ Ж.Д. И ПОРТАМИ ТУРЦИИ О ПЕРЕДАЧЕ В РАСПОРЯЖЕНИЕ ПОСЛЕДНЕГО Ж.Д. АЗЕРБАЙДЖАНА

Елизаветполь 14 июля 1918 г.

1) Оттоманское главное управление военными железными дорогами и портами на нижеследующих условиях принимает дороги Азербайджана, сроком на 5 лет.

2)Азербайджанское правительство предоставляет в распоряжение Оттоманского главного управления военными железными дорогами весь подвижный и неподвижный состав, имущество и все материалы железных дорог республики.

3) Железные дороги будут управляться организуемыми Оттоманским главным управлением, учреждениями и служащими на его средства.

4) 75% годового дохода по вычету расходов, вносятся азербайджанскому правительству.

5) Настоящий договор входит в силу со дня подписания такового оттоманским правительством и извещения о том азербайджанского правительства.

6) Прием и сдача подвижного состава и прочих материалов производятся смешанной комиссией постепенно.

7) По прибытии турецких служащих в Елизаветполь, они организуют сказанную выше комиссию, о чем доводят до сведения азербайджанского правительства, а последнее сообразно условиям выбирает также комиссию, каковые комиссии приступают к приему и сдаче.

Настоящий договор в 2-х экземплярах заключается в г. Гяндже, 14 июля 1918 г. и подписывается, с одной стороны, управляющим Оттоманским главным управлением военными железными дорогами Исмаил-Хаккипашой и министрами правительства Азербайджана - путей сообщения - Мелик-Аслановым и иностранных дел Гаджинским.

ГААР, ф.894, оп.Ю, д.41л.2. Перевод с тур. яз., современный подлиннику.

ДОГОВОР МЕЖДУ РОССИЕЙ И ТУРЦИЕЙ

16 марта 1921 г.

Правительство Российской Социалистической Федеративной Советской Республики и Правительство Великого Национального Собрания Турции, разделяя принципы братства наций и права народов на самоопределение, отмечая существующую между ними солидарность в борьбе против империализма, равно как и тот факт, что всякие трудности, созданные для одного из двух народов, ухудшают положение другого, и всецело воодушевляемые желанием установить между ними постоянные сердечные взаимоотношения и неразрывную искреннюю дружбу, основанную на взаимных интересах обеих сторон, решили заключить договор о дружбе и братстве и назначили для сего своими уполномоченными:

Правительство Российской Социалистической Федеративной Советской Республики:

Георгия Чичерина, Народного Комиссара по Иностранным Делам и члена Всероссийского Центрального Исполнительного Комитета, и Джелал-Эддина Коркмасова, члена Всероссийского Центрального Исполнительного Комитета, и

Правительство Великого Национального Собрания Турции:

Юсуф Кемаль-бея, Народного Комиссара по Народному Хозяйству Великого Национального Собрания Турции, депутата Кастамопи в том же Собрании, доктора Риза Нур-бея, Народного Комиссара по Просвещению Великого Национального Собрания Турции, депутата Синопа в том же Собрании и Али Фуад-пашу, Чрезвычайного и Полномочного Посла Великого Национального Собрания Турции, члена от Ангоры в Великом Национальном Собрании, каковые, после обмена полномочиями, найденными в надлежащей и законной форме, согласились о нижеследующем:

Статья I

Каждая из Договаривающихся сторон соглашается в принципе не признавать никаких мирных договоров или иных международных актов, к принятию которых понуждалась бы силою другая из Договаривающихся сторон. Правительство Российской Социалистической Федеративной Советской Республики соглашается не признавать никаких международных актов, касающихся Турции и не признанных Национальным Правительством Турции, представленным ныне ее Великим Национальным Собранием.

Под понятием Турции в настоящем договоре подразумеваются территории, включенные в Национальный Турецкий Пакт от 28 января 1920 (1336) года, выработанный и провозглашенный Оттоманской Палатой Депутатов в Константинополе и сообщенный прессе и всем государствам.

Северо-восточная граница Турции определяется: линией, которая, начинаясь у деревни Сарп, расположенной на Черном море, проходит через гору Хедисмта, линией водораздела горы Шавшет- горы Канны-даг, она следует затем по северной административной границе Ардэганского и Карсского санджаков - по тальвегу рек Арпа-чай и Аракс до устья Нижнего Карасу (подробное описание границы и вопросы к ней относящиеся определены в приложении I (А) п I (В) и на прилагаемой карте, подписанной обеими Договаривающимися сторонами).

Статья II

Турция соглашается уступить Грузии сюзеренитет над портом и городом Батумом и территорией, лежащей к северу от границы, указанной в статье первой нынешнего Договора, и составлявшей часть Батумского округа, при условии, что

1) население местностей, указанных в настоящей статье, будет пользоваться широкой местной автономией в административном отношении, обеспечивающей каждой общине ее культурные и религиозные права, и население будет иметь возможность установить земельный закон, соответствующий его пожеланиям.

2) Турции будет обеспечен свободный транзит всяких товаров, отправляемых в Турцию или из нее, через Батумский порт, беспошлинно, без учннения каких-либо задержек и без обложения их какими бы то ни было сборами, с предоставлением Турции права пользоваться Батумским портом без взимания за то специальных сборов.

Статья III

Обе Договаривающиеся стороны согласны, что Нахичеванская область в границах, указанных в приложении I (С) настоящего Договора, образует автономную территорию под протекторатом Азербайджана, при условии, что Азербайджан НР уступит сего протектората третьему государству.

В образующей треугольник зоне Нахичеванской территории, заключенной на востоке между тальвегом Аракса, а на западе линией, проходящей через горы Дагна (3829) -Вслн-даг (4121) - Багарзик (6587) - гора Кемурлю-даг (6930), линия границы указанной территории, начинающаяся от горы Кемурлю-даг (6930;, переходящая через гору Серам Булак (8071)-станцию Арарат и оканчивающаяся у скрещения Карасу с Араксом, будет исправлена комиссией, состоящей из делегатов Турции, Азербайджана и Армении.

Статья IV

Обе Договаривающиеся стороны, констатируя соприкосновение между национальным и освободительным движением народов Востока и борьбой трудящихся России за новый социальный строй, безоговорочно признают за этими народами право на свободу и независимость, а равным образом их право на избрание формы правления, согласной их желаниям.

Статья V

Дабы обеспечить открытие проливов и свободу прохождения торговых судов для всех народов, обе Договаривающиеся сторо-ны соглашаются передать окончательную выработку международного статуса Черного моря и проливов будущей Конференции из делегатов прибрежных государств, при условии, что вынесенные ею решения не нанесут ущерба полному суверенитету Турции, равно как и безопасности Турции и ее столице Константинополю.

Статья VI

Обе Договаривающиеся стороны признают, что все договоры, до сего времени заключенные между обеими странами, не соответствуют обоюдным интересам. Они соглашаются поэтому признать эти договоры отмененными и не имеющими силы.

Правительство Российской Социалистической Федеративной Советской Республики заявляет, в частности, что оно считает Турцию свободной от всяких к нему денежных или иных обязательств, основанных на международных актах, ранее заключенных между Турцией и царским правительством.

Статья VII

Правительство Российской Социалистической Федеративной Советской Республики, признавая режим капитуляции несовместимым с свободным национальным развитием всякой страны, равно как и с полным осуществлением ее суверенных прав, считает потерявшими силу и отмененными всякого рода действия и права, имеющие какое-либо отношение к этому режиму.

Статья VIII

Обе Договаривающиеся стороны обязуются не допускать образования или пребывания на своей территории организаций или групп, претендующих на роль правительства другой страны, или части ее территории, равно как и пребывания групп, имеющих целью борьбу против другой страны. Россия и Турция принимают на себя такое же обязательство и в отношении Советских Республик Кавказа, при условии взаимности.

Считается установленным, что под турецкой территорией, упомянутой в настоящей статье, подразумевается территория, находящаяся под непосредственным военным и гражданским управлением Правительства Великого Национального Собрания Турции.

Статья IX

Для обеспечения непрерывности сношений между обеими странами, Договаривающиеся стороны обязуются принять по взаимному согласию все необходимые меры в целях сохранения и развития возможно скорее железнодорожных, телеграфных и иных средств сообщения, равно как и обеспечения свободного передвижения людей и товаров между обеими странами, без каких-либо задержек.

Однако признается, что в отношении передвижения, въезда и выезда как путешественников, так и товаров, будут полностью применяться установленные в каждой стране на этот счет правила.

Статья X

На граждан обеих Договаривающихся сторон, находящихся на террито-

рии другой стороны, будут распространяться все права и обязанности, вытекающие из законов страны, в коей они находятся, за исключением обязанностей по национальной обороне, от коих они будут освобождены.

Вопросы, касающиеся семейного права, права наследственного и дееспособности граждан обеих сторон, также составляют исключение из* постановлений настоящей статьи. Они будут разрешены особым соглашением.

Статья XI

Обе Договаривающиеся стороны согласны применить принцип наибольшего благоприятствования к гражданам каждой из Договаривающихся сторон, пребывающим на территории другой стороны.

Настоящая статья не применяется к правам граждан союзных России Советских Республик, равно как и к правам граждан мусульманских государств, союзных Турции.

Статья XII

Всякий житель территорий, составлявших до 1918 года. часть России, каковые Правительство Российской Социалистической Федеративной Советской Республики признает находящимися ныне под суверенитетом Турции на основании настоящего Договора, имеет право свободно покинуть Турцию и взять с собой свои вещи и свое имущество или их стоимость. Подобное же право распространяется на жителей территории Батума, сюверенитет на каковую Турция настоящим Договором уступает Грузии.

Статья XIII

Россия обязуется репатриировать в Турцию за свой счет до северо-восточной границы Турции, в продолжение 3-месячного для Европейской России и Кавказа и 6-месячного срока для Азиатской России, считая со дня подписания настоящего Договора, всех военнопленных и гражданских пленных турок, находящихся в России.

Турция принимает на себя то же обязательство в отношении русских военнопленных и гражданских пленных, которые еще находятся в Турции.

Подробности этой репатриации будут установлены особой конвенцией, которая должна быть выработана немедленно по подписании настоящего Договора.

Статья XIV

Обе Договаривающиеся стороны согласны в ближайшем времени заключить консульскую конвенцию, равно как и соглашения, регулирующие все экономические, финансовые и другие вопросы, необходимые для установления между обеими странами дружественных отношений, указанных во вступлении к настоящему Договору.

Статья XV

Россия обязуется предпринять в отношении Закавказских Республик шаги, необходимые для обязательного признания этими Республиками в договорах, которые будут заключены ими с Турцией, статей настоящего Договора, непосредственно их касающихся.

Статья XVI

Настоящий Договор подлежит ратификации. Обмен ратификационными грамотами состоится в Карсе в возможно ближайший срок.

Настоящий Договор вступит в силу с моменту обмена ратификационными грамотами, за исключением ст. XIII.

В удостоверение изложенного вышеупомянутые уполномоченные подписали настоящий Договор и скрепили его своими печатями.

Составлено в 2-х экземплярах в Москве шестнадцатого марта тысячу девятьсот двадцать первого года (тысяча триста тридцать седьмого).

Георгий Чичерин,
Юсуф Кемаль,
Джелал Коркмасов,
Д-р Риза Нур,
Али Фуад

ПРИЛОЖЕНИЕ I (А)

Северо-восточная граница Турции установлена нижеследующим образом (согласно карте русского Генерального Штаба масштабом 1/210000 - 5 верст в дюйме):

Деревня Сарп на Черном море- гора Кара Шальвар (5014)-пересекает Чорох к северу от деревни В. Мара-дидн - проходит севернее деревни Сабаур- гора Хедисмта (7052) - гора Квакибе - деревня Кавтарети - линия водораздела горы Медзибна-гора Гераткесун (6468)– следуя по линии водораздела горы Корда (7910) -выходит по западной части хребта Шавшетского к прежней административной границе бывшего Артвинского округа - проходя по линии водораздела горы Шавшетской, выходит на гору Сары-чаи (Кара Исал) (8478)-перевал Квиральский - оттуда выходит на прежнюю административную границу бывшего Ардаганского округа у горы Канны-даг -оттуда, направляясь к северу, доходит до горы Тлил (Грманы) (8357) -следуя прежней границы Ардагана, выходит к северо-востоку от деревни Бадела, к реке Посхов-чай и следует по этой реке к югу до пункта севернее деревни Чанчах -там оставляет эту реку и, идя по водоразделу, выходит на гору Айрилян-баши

(8512) -проходит по горам Келлетапа (8463) и Харман-тапа (9709)-достигает горы Касрис-сери (9681)-отсюда следует по реке Карзамет-чай до реки Куры - оттуда идет

по тальвегу реки Куры к пункту к востоку от деревни Картанакев, где отходит от Куры, проходя по линии водораздела горы Кара-оглы (7259) -оттуда, разделяя на две части озеро Хазапип, выходит к высоте 7580 и оттуда к горе Гек-даг (9152) -Учь-Тапаляр (9783) -Таякала (9716) -вершина 9065, где покидает прежнюю границу Ардаганского округа и проходит по горам Бол. Ах-Баба (9973)-8828 (8827) -7602 - проходя на восток от деревни Ибиш, доходит до высоты 7518 и затем к горе Кизил-даш (7439) (7490)-деревня Новый Кизил-даш (Кизил-даш)-проходя к западу от Кара-Мамед, выходит на реку Джамушбу-чай (расположенную к востоку от деревень Делавер, Б. Кмлы и Тихнис) -через деревни Вартанлы и Баш-Шурагель, следуя по упомянутой реке, выходит к реке

Арпа-чай к северу от Калали - оттуда, следуя все время по тальвегу Арпа-чай, выходит к р. Араке - следует по тальвегу Аракса до впадения в него Нижнего Карасу.

(NB. Разумеется, граница следует по линиям водоразделов вышеуказанных высот).

Георгий Чичерин,
Юсуф Кемаль,
Джслал Коркмасов,
Д-р Риза Нур,
Али Фуад

ПРИЛОЖЕНИЕ I (B)

Принимая во внимание, что пограничной линией, как это указано в Приложении I (A), являются тальвеги рек Арпа-чай и Аракса, Правительство Великого Национального Собрания обязуется отодвинуть линию блокгаузов на расстояние восьми верст от железной дороги Алсксандрополь - Эривань в настоящем ее начертании в районе Арпачай на расстояние четырех верст от вышеупомянутой железнодорожной линии в районе Аракса. Линии, ограничивающие вышеупомянутые районы, указаны ниже для зоны Арпа-чай в пунктах А и Б параграфа I и для зоны Аракса в параграфе II.

I. Зона Арпа-чай

А) К юго-востоку от Вартанлы - к востоку от Узун-Килиса - через гору Бозяр (5096)-5082-5047 - к востоку от Кармир-ванк - Учь-тапа (5578)-к востоку от Араз-оглы к востоку от Ани - достигает Арпа-чай к западу от Еникей.

Б) Отходит от Арпа-чай к востоку от высоты 5019 - идет прямо к высоте о481-в 4'/2 верстах к востоку от Кызылкула- в двух верстах к востоку от Боджалы - затем река Дигор-чай - следует вдоль этой реки до деревни Дуз-Кечут и идет прямо к северу от развалин Карабаг и выходит на Арпа-чай.

II. Зона Аракса

Прямая линия между Хараба Алиджан и деревней Сулейман (Диза).

В зонах, ограниченных с одной стороны линией железной дороги Александрополь - Эривань и - с другой, линиями, расположенными в расстоянии восьми и четырех верст от вышеуказанной железнодорожной линии, Правительство Великого Национального Собрания обязуется не возводить каких бы то ни было фортификационных укреплений (эти линии расстояния находятся вне вышеуказанных зон) и не содержать в них регулярных войск. Однако оно сохраняет право иметь в вышеуказанных зонах войска, необходимые для поддержания порядка, безопасности и для административных надобностей.

Георгий Чичерин,
Юсуф Кемаль,
Джелал Коркмасов,
Д-р Риза Нур,
Али Фуад

ПРИЛОЖЕНИЕ I (C) Территория Нахичевани

Станция Арарат-.гора Сарай-Булаг (8071) - Кемурлю-даг (6839), (6930) - 3080 - Саят-даг (7868) - деревня Курт-кулаг (Кюрт-кулаг) - Гамесур-даг (8160) - высота 8022 - Кюки-даг (10282) и

восточная администратривная граница прежнего Нахичеванского уезда.

Георгий Чичерин,
Юсуф Кемаль,
Джелал Коркмасов,
Д-р Риза Нур,
Али Фуад

Печат, по арх. Опубл. в "Собрании узаконений...У № 73, 12 декабря Г92! г., стр. 731-733.

Договор ратифицирован ВЦИК 20 июля 1921 г., Великим Национальным Собранием Турции - 31 июля 1921 г. Обмен ратификационными грамотами состоялся 22 сентября 1921 г. е г. Карсе.

ДОГОВОР О ДРУЖБЕ МЕЖДУ АРМЯНСКОЙ ССР, АЗЕРБАЙДЖАНСКОЙ ССР И ГРУЗИНСКОЙ ССР, С ОДНОЙ СТОРОНЫ, И ТУРЦИЕЙ-С ДРУГОЙ, ЗАКЛЮЧЕННЫЙ ПРИ УЧАСТИИ РСФСР В КАРСЕ

13 октября 1921 г.

Правительства Социалистической Советской Республики Армении, Азербайджанской Социалистической Советской Республики и Социалистической Советской Республики Грузии, с одной стороны, и Правительство Великого Национального Собрания Турции - с другой, разделяя принципы братства наций и право народов на самоопределение, воодушевляемые желанием установить между ними постоянные сердечные взаимоотношения и непрерывную искреннюю дружбу, основанную на взаимных интересах обеих сторон, решили приступить к переговорам при участии Российской Социалистической Федеративной Советской Республики в целях заключения Договора о дружбе и назначили для сего своими уполномоченными:

Правительство Социалистической Советской Республики Армении: Асканаза Мравяна, Народного Комиссара по Иностранным Делам, Погоса Макинзяна, Народного Комиссара по Внутренним Делам;

Правительство Азербайджанской Социалистической Советской Республики: Бехбуда Шахтахтинского, Народного Комиссара Государственного Контроля;

Правительство Социалистической Советской Республики Грузии: Шалву Элиава, Народного Комиссара по Военным и Морским Делам, Александра Сванидзе, Народного Комиссара по Иностранным Делам и Народного Комиссара Финансов;

Правительство Великого Национального Собрания Турции:

Кязима Карабекир-пашу, депутата Великого Национального Собрания от Адрианополя, Командующего Восточным фронтом, Вели-бея, депутата Великого Национального Собрания от Бурдура, Мухтар-бея, бывшего помощника Статс-секретаря общественных работ, Мемдуха Шевкет-бея, Полномочного Представителя Турции в Азербайджане;

Правительство Российской Социалистической Федеративной Советской Республики: Якова Ганецкого, Полномочного Представителя в Латвии, каковые после обмена полномочиями, найденными в надлежащей и законной форме, согласились о нижеследующем:

Статья 1

Правительство Великого Национального Собрания Турции и Правительства Социалистических Советских Республик Армении, Азербайджана и Грузии считают отмененными и не имеющими силы договоры, заключенные между государствами*, ранее осуществлявшими свои суверенные права на территории, входящей ныне в состав территории Договаривающихся сторон, и касающиеся вышеупомянутых территорий, а равно и договоры, заключенные с третьими державами и касающиеся Закавказских Республик.

Считается установленным, что настоящая статья не применяется к Турецко-Русскому договору, заключенному в Москве 16 марта 1921 (1337) года**.

Статья 2

Договаривающиеся стороны соглашаются не признавать никаких мирных договоров или иных международных актов, к принятию которых понуждалась бы силою одна из них.

* В подлиннике -entre les gouvernements (между правительствами),

** См. т. III, док. № 342.

В силу этого Правительства Социалистических Советских Республик Армении, Азербайджана и Грузии соглашаются не признавать никаких международных актов, касающихся Турции и не признанных Национальным Правительством Турции, представленной ныне ее Великим Национальным Собранием.

(Под понятием Турция в настоящем Договоре подразумеваются территории, включенные в Национальный Турецкий Пакт от 28 января 1920 (1336) года, выработанный и провозглашенный Оттоманской Палатой Депутатов в Константинополе и сообщенный прессе и всем государствам.)

Со своей стороны, Правительство Великого Национального Собрания Турции соглашается не признавать никаких международных актов, касающихся Армении, Азербайджана и Грузии и не признанных соответствующими Правительствами этих стран, представленными ныне Советами Армении, Азербайджана и Грузии.

Статья 3

Правительства Социалистических Советских Республик Армении, Азербайджана и Грузии, признавая режим капитуляций несовместимым с свободным национальным развитием всякой страны, равно как и с полным осуществлением ее суверенных прав, считают потерявшими силу и отмененными всякого рода функции и права, имеющие какое-либо отношение к этому режиму.

Статья 4

Северо-восточная граница Турции (согласно карте русского Генерального штаба масштабом 1/210000 - 5 верст в дюйме) определяется линией, которая начинается у деревни Сарп, расположенной на Черном море,, проходит через гору Хедис-мта, линию водораздела горы Шавшет - гору Канны-даг; она следует затем по старым северным административным границам Ардаганского и Карсского санджаков по тальвегу рек Арпа-чай и Аракса до устья Нижнего Кара-су. (Подробное описание границ и вопросы, к ней относящиеся, определены в приложениях I и II и на прилагае-

мой карте, подписанной обеими Договаривающимися сторонами. В случае расхождения между текстом Договора и картой, решающее значение придается тексту.)

Подробное определение и проведение государственной границы в натуре, равно как и установка пограничных знаков производится Смешанной пограничной комиссией с одинаковым числом членов от Договаривающихся сторон и с участием представителя РСФСР.

Приложение IV; карта.

Статья 5

Правительство Турции и Правительства Советских Армении и Азербайджана согласны, что Нахичеванская область в границах, указанных в приложении III настоящего Договора, образует автономную территорию под покровительством Азербайджана.

Статья 6

Турция соглашается уступить Грузии сюверенитет над городом и портом Батум и территорией, лежащей к северу от границы, указанной в ст. 4 настоящего Договора и составляющей часть Батумского округа, при условии, что:

1) население местностей, указанных в настоящей статье, будет пользоваться широкой местной автономией в административном отношении, обеспечивающей каждой общине ее культурные и религиозные права, и население будет иметь возможность установить в указанных местностях земельный закон, соответствующий его пожеланиям;

2) Турции будет обеспечен свободный транзит всяких товаров, отправляемых в Турцию или из нее, через Батумский порт, беспошлинно, без учинения каких-либо задержек и без обложения их какими бы то ни было сборами, с предоставлением Турции права пользоваться Батумским портом без взимания за то специальных сборов.

Для проведения в жизнь этой статьи будет немедленно после подписания настоящего Договора образована Комиссия из представителей заинтересованных сторон.

Статья 7

Правительство Социалистической Советской Республики Грузии и Правительство Великого Национального Собрания Турции соглашаются облегчить жителям пограничной зоны переход границы, при условии соблюдения таможенных, полицейских и санитарных правил, которые будут установлены по этому поводу Смешанной комиссией.

Статья 8

Правительство Социалистической Советской Республики Грузии и Правительство Великого Национального Собрания Турции, принимая во внимание необходимость для жителей пограничных местностей обеих стран пользоваться летними и зимними пастбищами, находящимися по другую сторону границы, согласились предоставить этим жителям право перехода через границу с их стадами и пользования обычными пастбищами.

Таможенные правила, равно как и полицейские, санитарные и другие мероприятия для перехода через границу

будут установлены Смешанной комиссией.

Статья 9

Дабы обеспечить открытие проливов и свободу прохождения через них торговых судов всех народов, Турция и Грузия соглашаются передать окончательную выработку международного статуса Черного моря и проливов будущей конференции из делегатов прибрежных государств, при условии, что вынесенные ею решения не нанесут ущерба полному суверенитету Турции, равно как и безопасности Турции и ее столицы Константинополя.

Статья 10

Договаривающиеся стороны обязуются не допускать образования или пребывания на своей территории организаций или групп, претендующих на роль правительства другой страны или части ее территории, равно как и пребывания групп, имеющих целью борьбу против другой страны.

Считается установленным, что под турецкой территорией, упомянутой в настоящей статье, подразумевается территория, находящаяся под непосредственным военным и гражданским управлением Правительства Великого Национального Собрания Турции.

Статья 11

На граждан обеих Договаривающихся сторон, находящихся на территории другой стороны, будут распространяться все права и обязанности, вытекающие из законов страны, в коей они находятся, за исключением обязанностей по национальной обороне, от коих они будут освобождены.

Вопросы, касающиеся семейного права, права наследственного и дееспособности граждан обеих сторон, также составляют исключение из постановлений настоящей статьи. Они будут разрешены особым соглашением.

Статья 12

Договаривающиеся стороны согласны применить принцип наибольшего благоприятствования к гражданам каждой из Договаривающихся сторон, пребывающим на территории другой стороны.

Настоящая статья не применяется к правам, предоставленным взаимно Советскими Республиками на своей территории гражданам союзных Советских Республик, равно как и к правам, предоставленным Турцией гражданам мусульманских государств, союзных Турции,

Статья 13

Всякий житель территорий, составлявших до 1918г. часть России и признанных находящимися ныне под суверенитетом Турции, имеет право, если пожелает, выйти из турецкого гражданства, свободно покинуть Турцию и взять с собой свои вещи, свое имущество или их стоимость.

Равным образом, все жители территории, сюверенитет над которой был Турцией уступлен Грузии*, имеют право, если пожелают, выйти из грузинского гражданства, свободно покинуть территорию Грузии и взять с собой свои вещи, свое имущество или их стоимость.

* Имеется в виду Батумский округ.

Жители, упоминаемые в вышеуказанной статье, будут пользоваться месячной отсрочкой от воинской повинности с момента, с которого они в должной форме заявят о своем желании оставить упомянутые территории.

Статья 14

Договаривающиеся стороны обязуются заключить в течение 6-ти месяцев со дня подписания настоящего Договора специальные соглашения, касающиеся беженцев войн 1918-1920 гг.

Статья 15

Каждая из Договаривающихся сторон обязуется объявить немедленно после подписания настоящего Договора полную амнистию гражданам другой стороны за преступления и проступки, вытекающие из военных действий на Кавказском фронте.

Статья 16

Договаривающиеся стороны согласны в течение 2-х месяцев со дня подписания настоящего Договора возвратить бывших военнопленных и гражданских пленных, находящихся на территории одной из Договаривающихся сторон.

Статья 17

Для обеспечения непрерывности сношений между их странами Договаривающиеся стороны обязуются принять, по взаимному согласованию, все необходимые меры в целях сохранения и развития возможно скорее железнодорожных, телеграфных и иных средств сообщения, равно как и обеспечения свободного передвижения людей и товаров без всяких задержек.

Однако признается, что в отношении передвижения, въезда и выезда как путешественников, так и товаров, будут полностью применяться установленные в каждой из стран Договаривающихся сторон на этот счет правила.

Статья 18

В целях установления торговых сношений и регулирования всех экономических и финансовых или других вопросов, необходимых для укрепления дружественных отношений между Договаривающимися странами, немедленно после подписания настоящего Договора будет образована в Тифлисе Комиссия из представителей заинтересованных стран.

Статья 19

Договаривающиеся стороны обязуются заключить в течение 3-х месяцев со дня подписания настоящего Договора консульские конвенции.

Статья 20

Настоящий Договор, заключенный между Правительствами Армении, Азербайджана, Грузии и Турции, подлежит ратификации.

Обмен ратификационными грамотами состоится в Эривани в возможно ближайший срок.

Настоящий Договор вступит в силу с момента обмена ратификационными грамотами, за исключением статей 6, 14, 15, 16, 18 и 19, которые вступят в силу немедленно после подписания Договора.

В удостоверение изложенного вышеупомянутые уполномоченные подписали настоящий Договор и скрепили

его своими печатями.

Составлено в пяти экземплярах в Карсе 13 октября 1921 (1337) года.

А. Мравян,
Кязам Карабекир,
П. Макинзян,
Вели,
Б. Шахтахтинский,
Мухтар,
Ш. Элаава,
Мемдух Шевкет,
А. Сванидзе,
Ганецкий

ПРИЛОЖЕНИЕ 1

Северо-восточная граница Турции установлена нижеследующим образом (согласно карте русского Генерального штаба, масштабом 1/210000 - 5 верст в дюйме):

Деревня Сарп на Черном море - гора Кара Шальвар (5014) -по водоразделу рек по направлению к Р. Ц. * к северу от деревни В. Марадиди - пересекает Чорох к северу" от деревни В. Марадиди и проходит севернее деревни Са-баур - гора Хедис-мта (7052) - гора Ква-кибе - деревня Кавтарети - линия водораздела гор Медзыбна - гора Герат-кесун (6468) - следуя по линии водораздела горы Корда (7910), выходит по западной части хребта Шавшетского к прежней административной границе бывшего Артвинского округа - проходя по линии водораздела горы Шавшетской, выходит на гору Сары-чаи (Кара-исал) (8478) -перевал Квиральский - оттуда выходит на прежнюю административную границу бывшего Ардаганского округа у горы Канны-даг - оттуда, направляясь к северу, доходит до горы Тлил (Грманы) (8357) -следуя по той же границе Ардаганского округа, выходит, к северо-востоку от деревни Бадела, к реке Посхов-чай и следует по этой же реке к югу до горы у деревни Чанчах - там оставляет эту реку - идя по линии водораздела, выходит на гору Айрилян-баши .(8512)-проходит по горам: Келле-тапа (8463), Харман-тапа о (9709) -достигает горы Касрис-сери (9681) -отсюда следует по реке Кар-замет-чай до реки Куры - отсюда идет по тальвегу реки Куры до пункта, что к востоку от деревни Картанакев, где отходит от Куры, проходя по линии водораздела горы Кара-оглы (7259) -оттуда, разделяя на две части озеро Хазапин, выходит к высоте 7580 (7560), а оттуда к горе Гек-даг (9152) -Учь-Тапаляр (9783), где кончается граница с Грузией и начинается 'граница с Арменией: Таякала (9716) - вершина 9065, где покидает прежнюю границу Ардаганского округа и проходит по горам Бол. Ах-Баба (9973 или 9963 - "8828 или 8827-7602)-отсюда по прямой линии к вершине 7518 - проходя на восток от деревни Ибиш, затем к горе Ки-зил-даш (7439, или 7440, или 7490)-деревня Новый Кизил-даш, отсюда, следуя по реке, которая протекает через Новый Кизил-даш до ее изгиба, расположенного к северо-западу от Кара-Мамеда - следует по линии водораздела и выходит на реку Джамушбу-чай **, расположенную к востоку от деревень: Далавер, Б. Кмлы и Тихнис - через деревни Вартанлы и Баш-Шурагель - следуя по упомянутой

реке, выходит к реке

* Разрушенная церковь.

** Наименование Джамушбу-чай не указано на карте издания 1899 г. (Прим. док.)

Арпа-чай к северу от Кялала, или Калали, - оттуда, следуя все время по тальвегу Арпа-чай, выходит к Араксу, следуя по тальвегу Аракса до деревни Урмия, где кончается граница с Арменией и начинается граница с Азербайджаном - следует затем по тальвегу Аракса до впадения в него Нижнего Кара-су, где кончается граница с Азербайджаном.

N. B. Разумеется, что граница следует по линиям водоразделов вышеуказанных высот.

А. Мравян,
Кязим Карабекир,
П. Макинзян,
Вели,
Б. Шахтахтинский,
Мухтар,
Ш. Элиава,
Мемдух Шевкет,
А. Сванидзе,
Ганецкий

ПРИЛОЖЕНИЕ II

Принимая во внимание, что пограничная линия следует по тальвегам рек Арпа-чай и Аракса, как это указано в приложении I, Правительство Великого Национального Собрания Турции обязуется отодвинуть лишь линию блокгаузов на расстояние 8 верст от железной дороги Александрополь - Эривань в настоящем ее начертании в районе Арпачай и на расстояние 4 верст от вышеупомянутой железнодорожной линии в районе Аракса.

Линии, ограничивающие вышеупомянутые районы, указаны ниже: для зоны Арпа-чай - пункты А и Б, § 1, и для зоны Аракса - в § 2.

I. Зона Арпа-чай

А) К юго-востоку от Вартанлы - к востоку от Узун-Ки-лиса, через гору Бозяр (5096) - 5082-5047 -к востоку от Кармир-ванк - Учь-тапа (6578 или 5578) - к востоку от Араз-оглы, к востоку от Ани - достигает Арпа-чай к западу от Еникей.

Б) Отходит снова от Арпа-чай к востоку от высоты 5019- идет прямо к высоте 5481 - в четырех с половиной верстах к востоку от Кызыл-кула -в двух верстах к востоку от Бод-жалы -затем река Дигор-чай - следует вдоль этой реки до деревни Дуз-Кечут, идет прямо к северу от развалин Кара-баг и выходит на Арпа-чай.

II. Зона Аракса

Прямая линия между Хараба-Алиджан и деревней Сулейман-Диза,

В зонах, ограниченных с одной стороны линией железной дороги Александрополь - Эривань и с другой - линиями, расположенными на расстоянии 8 и 4 верст от вышеуказанной железнодорожной линии, Правительство Великого Национального Собрания Турции обязуется не возводить каких бы то ни было фортификационных укреплений (эти линии расстояния находятся вне указанных зон) и не содержать в

них регулярных войск; однако оно сохраняет право иметь в указанных зонах войска, необходимые для поддержания порядка, безопасности и для административных надобностей.

А. Мравян,
Кязим Карабекир,
П. Макинзян,
Вели,
Б. Шахтахтинский,
Мухтар,
Ш. Элаава,
Мемдух Шевкет,
А. Сванидзе,
Ганецкий
ПРИЛОЖЕНИЕ III

Территория Нахичевани

Деревня Урмия - отсюда по прямой линии - станция Араздаян (оставляя ее за Социалистической Советской Республикой Армении)-затем по прямой линии к горе Даш-бурун западной (3142) - линия водораздела горы Даш-бурун восточной (4108)-проходит через реку Джаанам-дараси к югу надписи "Роди." (Булак) (юж.)-следует по линии водоразделов горы Багарсых (6607 или 6587) и-отсюда следует по административной границе прежнего Эриванского округа и уезда Шаруро-Даралагез через высоту 6629 к горе Кемурлго-даг (6839 или 6930) и отсюда к высотам 3080 - Саят-даг (7868) -деревня Курт-Кулаг (Кьгорт-Кулаг) - гора Гамесур-даг (8160)-высота 8022 - Кюки-даг (10282) и восточная административная граница прежнего Нахичеван-ского округа.

А. Мравян,
Кязим Карабекир,
П. Макинзян,
Вели,
Б. Шахтахтинский,
Мухтар,
Ш. Элаава,
Мемдух Шевкет,
А. Сванидзе,
Ганецкий

Печат. по арх. Опубл. в "Сборнике действующих договоров..., вып. HI. M"*

1922, стр. 49-57.

Обмен ратификационными грамотами проюведен в г. Ереване II

Октября 1922 г.

RUSİYA-TÜRKİYƏ SƏRHƏDİNİN XƏRİTƏSİ

(16 mart 1921-ci il müqaviləsi əsasında)



AZƏRBAYCANA BAĞLI NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA ƏMƏKDAŞLIQ PROTOKOLU

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1992-ci il martın 22-dən 24-dək Türkiyəni ziyarət etmişdir.

Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxın qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı əməkdaşlıq protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri göz önünə alınaraq hər sahədə daha yaxşı əməkdaşlıq təşkil edilməsi məqsədi ilə aşağıdakı xüsuslarda razılığa gəlinmişdir.

1. Türkiyə Cümhuriyyəti hökuməti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı, sənaye, qida və istehlak malları, nəqliyyat, telekommunikasiya, tikinti və turizm kimi sahələrdəki zəruri ehtiyaclarını təmin etmək üçün bütünlükdə 100 milyon dollarlıq bir kredit təsis edəcək.

2. Naxçıvan Muxtar Respublikası bu kreditin həyata keçirilməsi üçün ehtiyac zərurətlərinə görə hazırlayacağı və kredit hissələrinin istifadə edilmə proqramını təsbit edən layihələrini Türkiyə tərəfinə təqdim əsasında lazım olan maliyyə məsələlərinin həlli iki tərəfin texniki məsul şəxsləri ilə müəyyən ediləcək.

3. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı enerji xətləri ən qısa vaxtda yaradılacaq, Naxçıvan Muxtar Respublikası Türkiyənin elektrik sisteminə daxil ediləcək.

4. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu və avtomaşın yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və körpü tikintisi ən qısa vaxtda bitiriləcək.

5. TRT İdarəsinin televiziya verilişlərinin Naxçıvan Muxtar Respublikasında rahatca seyr edilə biləcək vəziyyətə gətirilməsi üçün Türkiyə tərəfi lazımi tədbirləri sürətlə həyata keçirəcəkdir. Ayrıca Naxçıvan tərəfindən tələb edildikdə TRT İdarəsi xüsusi proqramlar verəcək.

6. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikası ilə avtomaşın və dəmir yollarına əlavə olaraq hava xəttini ən qısa vaxtda həyata keçirəcək.

7. Telekommunikasiya sahəsində Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının təmin edilməsi, telefon, faks, teleks kimi xəbər sistemlərinin ən qısa vaxtda işlək vəziyyətə gətirilməsi üçün iki tərəfin səlahiyyətli şəxsləri tərəfindən sürət-

lə tətbiq edilə biləcək bir proqram hazırlayacaqlar.

8. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahələrində ehtiyac olan toxum, avadanlıq və digər vasitələri və lazım olan mütəxəssislərin əkin mövsümünə çatdırıla biləcək şəkildə sürətlə təmini üçün üzərinə düşən işləri və hazırlıqları qısa müddətə həyata keçirəcək.

9. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında bank işi sahəsində geniş əməkdaşlıq əla-qələri yaradılması imkanları sürətlə araşdırılacaq və Türkiyə Cümhuriyyəti Ziraat Bankının Naxçıvanda bir şöbəsinin açılmasının ilkin hazırlıq işlərinə başlanacaq.

10. Turizm sahəsində Naxçıvan Muxtar Respublikasının imkanlarının dəyərləndirilməsi üçün təsis edilən kredit çərçivəsində mehmanxana inşası daxil olmaqla gərəkli köмək və texniki köмək Türkiyə Cümhuriyyəti hökuməti tərəfindən yerinə yetiriləcək.

11. Naxçıvan Muxtar Respublikasındakı mədəni həyatın inkişafına köмək etmək üçün Türkiyə Cümhuriyyəti, mətbəə təmini də daxil olmaqla mətbuat avadanlıqlarının ehtiyaca görə təminini həyata keçirəcək.

12. Naxçıvan Muxtar Respublika-sından 100 tələbənin təhsili Türkiyə Cümhuriyyəti tərəfindən təmin ediləcək.

13. Bütün əməkdaşlıq layihələrinin koordinasiya və icra edilməsinə Türkiyə Cümhuriyyəti Xarici İşlər Bakanlığı ilə iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq idarəsi sədrliyi məsul olacaq.

Bu protokla 24 mart 1992-ci il tarixdə Ankarada türkcə, iki nüsxədə imza edilmişdir.

Türkiyə Cümhuriyyəti adından
Baş nazir
SÜLEYMAN DƏMİRƏL

Naxçıvan Muxtar Respublikası
adından Ali Məclisin Sədri
HEYDƏR ƏLİYEV

AZƏRBAYCANA BAĞLI NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA ƏMƏKDAŞLIQ PROTOKOLUNUN TÜRKCƏ SURƏTİ

AZERBAYCAN'A BAĞLI NAHÇIVAN ÖZERK CUMHURIYETI İLE
TÜRKIYE CUMHURIYETI ARASINDA
İŞBIRLİĞI PROTOKOLÜ

Azerbaycan'a bağlı Nahçıvan Özerk Cumhuriyeti Ali Meclis Başkanı Haydar Aliyev, 22-24 Mart 1992 tarihleri arasında Türkiye'yi ziyaret etmiştir.

Bu ziyaret sırasında yapılan görüşmeler sonucunda, Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti arasında mevcut Dostluk, İşbirliği ve İyi Komşuluk Anlaşması, iki ülke Dışişleri Bakanlıkları Arasındaki İşbirliği Protokolü ve Türkiye ile Nahçıvan Özerk Cumhuriyeti arasındaki tarihi ve kültürel kardeşlik bağları gözönüne alınarak her alanda daha yakın bir işbirliği tesisi maksadıyla aşağıdaki hususlarda mutabık kalınmıştır.

1. Türkiye Cumhuriyeti Hükümeti Nahçıvan Özerk Cumhuriyeti'nin tarım, sanayi, gıda ve tüketim malları, ulaşım, telekomünikasyon, inşaat ve turizm gibi alanlardaki acil ihtiyaçlarını karşılamak üzere toplam 100 milyon dolarlık bir kredi tahsis edecektir.

2. Nahçıvan Özerk Cumhuriyeti bu kredinin işlerlik kazanabilmesi için, ihtiyaç önceliklerine göre hazırlayacağı ve kredi dilimlerinin zaman içindeki kullanım takvimini de belirleyen projeleri Türk tarafına tevdi edecek ve bu projeler temelinde gerekli finans düzenlemeleri iki tarafın teknik sorumlularınca belirlenecektir.

3. Türkiye Cumhuriyeti ile Nahçıvan Özerk Cumhuriyeti arasındaki enerji nakil hatları en kısa zamanda tesis edilerek, Nahçıvan Özerk Cumhuriyeti Türkiye'deki enterkonnekte elektrik sistemine bağlanacaktır.

4. Türkiye Cumhuriyeti ile Nahçıvan Özerk Cumhuriyeti arasında doğrudan demiryolu ve karayolu bağlantısı temin kurulması için yürütülmekte olan çalışmalar hızlandırılarak ve köprü inşaatı en kısa zamanda ikmal edilecektir.

5. TRT Televizyon yayınlarının Nahçıvan Özerk Cumhuriyeti'nde rahatça seyredilebilecek hale gelmesi için Türk tarafı gerekli tedbirleri süratle alacaktır. Ayrıca talep üzerine TRT paket programlar sunacaktır.

6. Türkiye Cumhuriyeti, Nahçıvan Özerk Cumhuriyeti ile karayolu ve demiryolu ulaşımına ilaveten hava hattını en kısa süre içinde tesis edecektir.

7. Telekomünikasyon alanında Nahçıvan Özerk Cumhuriyeti'nin acil ihtiyaçlarının karşılanması, telefon, faks, teleks gibi haberleşme sistemlerinin en kısa sürede çalışabilir hale gelmesi için iki taraf teknik yetkilileri süratle uygulamaya konulabilecek bir program hazırlayacaklardır.

8. Türkiye Cumhuriyeti Nahçıvan Özerk Cumhuriyeti'nin tarım alanında ihtiyaç duyduğu tohum, araç-gereç gibi malzemenin ve gerekli uzmanların ekim mevsimine yetiştirilecek şekilde süratle temini için kendisine düşen çalışma ve hazırlıkları kısa sürede gerçekleştirecektir.

9. Türkiye Cumhuriyeti ile Nahçıvan Özerk Cumhuriyeti arasında bankacılık alanında da geniş işbirliği tesisi imkânları süratle araştırılacak ve TC Ziraat Bankası'nın Nahçıvan'da bir şube açmasının fizibilite çalışmalarına başlanacaktır.

10. Turizm alanında Nahçıvan Özerk Cumhuriyeti'nin imkânlarının değerlendirilmesi için tahsis edilen kredi çerçevesinde otel inşaası dahil gerekli katkı ve teknik yardımlar Türkiye Cumhuriyeti Hükümetince sağlanacaktır.

11. Nahçıvan Özerk Cumhuriyeti'ndeki kültürel hayatın gelişmesine katkıda bulunmak üzere Türkiye Cumhuriyeti matbaa tamiri de dahil olmak üzere daktilo ve benzeri basım-yayın malzemelerinin ihtiyaca göre karşılanması için üzerine düşeni yapacaktır.

12. Nahçıvan Özerk Cumhuriyeti'nden 100 öğrencinin eğitimi, Türkiye Cumhuriyetince karşılanacaktır.

13. Tüm işbirliği projelerinin eşgüdüm ve yürütülmesinden T.C Dışişleri Bakanlığı ve yeni kurulmuş bulunan Ekonomik, Kültürel, Eğitim ve Teknik İşbirliği Başkanlığı sorumlu olacaktır.

İşbu Protokol 24 Mart 1992 tarihinde Ankara'da Türkçe ve iki nüsha olarak imzalanmıştır.

NAHÇIVAN ÖZERK CUMHURIYETI ADINA

Heydar Aliyev
Ali Meclis Başkanı

TÜRKIYE CUMHURIYETI HÜKÜMETI ADINA

Süleyman Demirel
Başbakan

Faksimilə surəti

РАЗЪЯСНЕНИЕ МЕМОРАНДУМУ

Нахчыван Мухтар Республикасы Али Мәчлисинин Сədри,hörmətli hejdər Əliyevin rəhbərliji ilə Нахчыван hej"əti və Türkiyə Respublikasının Xarici İşlər Nazири,hörmətli Ilkmət Çetinin rəhbərliji ilə Türkiyə hej"əti iki tərəfli ticarətin malijjələşdirilməsi, Нахчыванда иварə хидмətlərinin jaradılması və jenə Нахчыванда türk və ja müştərək sahibkarlıq tipli investisijaların inkişafı ilə bağlı aşağıdakı məsələlər barədə razılıq əldə etmişlər:

I. Texniki hej"ətlər iki ölkə arasındakı ticarətin həcminin artırılması məqsədilə Türkiyə Xarıcət Kredit Bankı A.ş. (bundan sonra Türk Eksimbank olaraq jedilәjəkdir) tərəfindən Нахчыван hökuməti tərəfindən müəjjən ediləjək bir banka (bundan sonra "Bank" jedilәjəkdir) kredit verilməsinin əhəmijjəti barəsində razılıq əldə etmişlər. Bundan sonra bu kredit Türkiyədən Нахчыванa kəndiriləjək malları əhatə edəjəkdir. İxrac olunacaq bütün malların: sənaje mallarının 80 faizinin, kənd təsərrüfatı məhsullarının 100 faizinin türk malı olması şərtləri nəzərə alınacaqdır. Нахчыванın igtisadijjatının zəruri idxalat ehtijajlarını nəzərə alaraq "Bank" bu kredit çərçivəsində idxalat əməlijjatlarını jerinə jetirməji və üzərinə götürür. Нахчыван Mухтар Respublikasının hökuməti bu kreditin istifadə olunmasında meydana çıxacaq "Bank" mükəlləfijjətlərinə qarantija verəjəkdir.

Kreditin şərtləri ixrac ediləjək məhsulların və malların növünə, müqavilə şərtlərinə, milli və beynəlxalq maliyyə bazarlarındakı faizlərə uyğun müəjjən ediləjəkdir.

2. Hej"ətlər iki ölkə arasındakı igtisadi əlagələrin inkişaf etdirilməsi məgsədi ilə Türk ıcarə firmaları tərəfindən hazırlanda jerli və ja yvvnəv ölkə firmaları ilə mvştərək əsasda həjata kecirilələcək ıcarə xidmətlərinə dajaq olmaq yvvn Türkijə Eksim-bankı tərəfindən xvsvsi malijjələşməsinin asanlıgla tə"min edilməsinin mənfəəti barəsində də razılıq əldə etmişlər.

3. Tərəflər 1992-ci ilin mart ajının 24-də imzalanan protokolun I-ci maddəsinə vjgun olaraq 100 milјon ABŞ dollarы məbləgində verilən kredit çərçivəsində, Türkijə Eksimbankı ilə "Bank" arasında kecirilələcək mvzakirələrdə kəstərilən kreditin ərzaq və toxuculuq mallarının idxalatı yvvn ajrılacaq 25 milјon ABŞ dollarы limitinin 10 milјon ABŞ dollarы məbləgində olan hissəsinin Nəxçıvanın zəruri ehtijaclarının ədəkək yvvn istifadə edilməsi məsələsində də razılıq əldə etmişlər.

4. Tərəflər jухarıda kəstərilən mvzakirələrin "Razılıq Memorandumunda" mvəjjən olunan hvdud daxilində ən gısa zamanda başa çatması barəsində öz fikirlərini bildirmişlər.

Bu Razılıq Memorandumu türk dilində 2 nvsxədə hazırlanmış və hej"ətlər tərəfindən 2 ijun 1992-ci il tarixdə Ankarada imzalanmışdır.

NAXÇIVAN MUXTAR RESPUBLIKASI
Adından

Heydər Əliyev
Məclisin Sədri

TÜRK RESPUBLIKASI
Adından

Süleyman Demirel
Xarici İşlər Naziri

AZƏRBAYCANA BAĞLI NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA TÜRKİYƏNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA VERDİYİ KREDİTDƏN İSTİFADƏ EDİLMƏSİ QAYDASI HAQQINDA PROTOKOLUN TÜRKCƏ SURƏTİ

MUTABAKAT MUHTIRASI

Nahçivan Özerk Cumhuriyeti Meclis Baskanı Sayın Haydar Aliev'in baskanlıgındaki Nahçivan heyeti ile Türkiye Cumhuriyeti Dışişleri Bakanı Sayın Hikmet Çetin'in baskanlıgındaki Türk Heyeti, ikili ticaretin finansmanı, Nahçivan'da müteahhitlik hizmetlerinin tesvik edilmesi ve yine Nahçivan'da Türk ve/veya ortak girişim seklindeki yatırımların gelistirilmesi için asagıda belirtilen konularda görüş birligine varmışlardır.

1- Teknik heyetler, iki ülke arasındaki ticaret hacminin artırılması amacıyla, Türkiye İhracat Kredi Bankası A.Ş. (bundan böyle Türk Eximbank olarak anılacaktır) tarafından Nahçivan Hükümeti'nce belirlenecek bir bankaya (bundan böyle "Banka" olarak anılacaktır) bir çerçeve kredisi kullandırılmasının yararlı olacagı hususunda mutabık kalmışlardır. Bu kredi Türkiye'den Nahçivan'a bundan böyle yapılacak sevkiyatları kapsayacaktır. İhraç edilecek bütün malların Türk menşeili olması; ayrıca, mamul malların yüzde 50, tarımsal ürünlerin ise yüzde 100 Türk girdisi ihtiva etmesi sartları aranacaktır. "Banka", bu kredi çerçevesindeki ithalat işlemlerini Nahçivan ekonomisinin acil ithalat ihtiyaçlarını dikkate alarak üstlenecektir. Nahçivan Özerk Cumhuriyeti Hükümeti, bu kredi kullanımı çerçevesinde ortaya çıkacak "Banka" yükümlülüklerine garantör olacaktır.

Kredinin sartları, ihraç edilecek ürün ve malların cinsine, sözlesme büyüklüklerine, ulusal ve uluslararası mali piyasalarda yerlesik kurallara göre belirlenecektir.

2- Heyetler, iki ülke arasındaki ekonomik ilişkilerin gelistirilmesi amacıyla Türk müteahhitlik firmalarınca Nahçivan'da mahalli ve/veya üçüncü ülke firmalarıyla ortaklık seklinde gerçeklestirilecek müteahhitlik hizmetlerinin desteklenmesi için Türk Eximbank tarafından özel bir finansman kolaylıgı saglanmasının yararları konusunda da mutabık kalmışlardır.

3- Taraflar 24 Mart 1992 tarihinde imzalanan Protokol'ün 1 nci maddesine atıfta bulunarak, 100 milyon ABD Dolarlık kredi çerçevesinde kalmak kaydıyla, Türk Eximbank ile "Banka" arasında yapılacak müzakerelerle, sözkonusu kredinin gıda ve tekstil malları ithalatı için tahsis edilecek 25 milyon ABD Dolarlık limitin, 10 milyon ABD Dolarlık bölümünün Nahçivan'ın acil ihtiyaçları için kullandırılması hususunda mutabık kalmışlardır.

4- Taraflar, yukarıda anılan konularda görüşmelerin bu Muhtıra'da belirlenen çerçeve içinde en kısa zamanda sonuçlandırılması konusunda mutabakatlarını beyan ederler.

Bu Mutabakat Muhtırası, Türkçe iki kopya olarak hazırlanmış ve taraflarca 2 Haziran 1992 tarihinde Ankara'da imzalanmıştır.

Nahçivan Özerk Cumhuriyeti Adına

Haydar ALİEV
Meclis Başkanı

Türkiye Cumhuriyeti Adına

Hikmet ÇETİN
Dışişleri Bakanı

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış sənədlərin siyahısı

İndiyə qədər atdığımız addımlar və bundan sonra görəcəyimiz işlər də Türkiyə - Azərbaycan dostluğunu daha da gücləndirəcək, yüksəklərə qaldıracaqdır...

Türkiyə bizim üçün dayaqdır, arxadır. Mən inanıram ki, Türkiyə bundan sonra da böyük öndər Atatürkün yolu ilə gedərək böyük nailiyyətlər əldə edəcək. Əmin ola bilərsiniz ki, Azərbaycan daim Türkiyənin yanında olacaqdır.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

1992

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Türkiyə Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Bakı, 28 fevral 1992-ci il. İmzalandığı andan qüvvədədir.

2. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında viza-sız gediş-gəliş haqqında məktub mübadiləsi haqqında Saziş. Bakı, 28 fevral 1992-ci il. (mübadilə olunduğu andan qüvvədədir)

3. Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Əməkdaşlıq Protokolu. Ankara, 24 mart 1992-ci il. Protokolu Türkiyə Cümhuriyyəti adından Baş nazir Süleyman Dəmirəl, Naxçıvan Muxtar Respublikası adından Ali Məclisin Sədri Heydər Əliyev imzalamışlar.

4. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təlim, tədris, ixtisas texniki və elmi əməkdaşlıq Müqaviləsi. Ankara, 3 may 1992-ci il.

5. Azərbaycan-Türkiyə Birgə Bəyanatı. 3 may 1992-ci il.

6. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında hava daşımaları haqqında Saziş. Ankara, 5 may 1992-ci il. Türkiyətərəfi sənədi təsdiq etmişdir.

7. Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi arasında Protokol. Ankara, 3 iyun 1992-ci il. Prtokolu Türkiyə Cümhuriyyəti adından Türkiyə Respublikası Xarici İşlər naziri Hikmət Çətin, Naxçıvan Muxtar Respublikası adından Ali Məclisin Sədri Heydər Əliyev imzalamışlar.

8. Azərbaycan Resbublikası Xarici İşlər Nazirliyi və Türkiyə Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq və məsləhtləşmələr haqqında Protokol. 11 avqust 1992-ci il. İmzalandığı andan qüvvədədir.

9. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında mülki, ticarət və cinayət işləri üzrə hüquqi yardım haqqında Müqavilə. Ankara, 2 noyabr 1992-ci il. Qüvvəyə minmişdir.

10. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Türkiyə Respublikası Nazirlər Kabineti yanında Dövlət Statistika İnstitutu arasında əməkdaşlıq Proqramı. Ankara 2 noyabr 1992-ci il. İmzalandığı andan qüvvədədir.

11. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında kiçik və orta həcmli sənaye müəssisələrini inkişaf etdirmək sahəsində texniki əməkdaşlıq haqqında Saziş. Ankara 2 noyabr 1992-ci il. İmzalandığı andan qüvvədədir.

12. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş. Ankara şəhəri 2 noyabr 1992-ci il. İmzalandığı andan qüvvədədir.

13. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və həmrəylik haqqında Müqavilə. Ankara, 2 noyabr 1992-ci il. Azərbaycan tərəfindən təsdiq olunmuşdur.

14. Azərbaycan Respublikası Elmlər Akademiyası və Türkiyə Respublikası Elmi və Texniki Tədqiqat Qurumu (Tubitak) arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş. Ankara, 2 noyabr 1992-ci il.

15. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş.Ankara 2 noyabr 1992-ci il. İmzalandığı andan qüvvədədir.

16. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş.Ankara 2 noyabr 1992-ci il.

17. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında avtomobil daşımaları haqqında Saziş.Ankara 2 noyabr 1992-ci il.

18. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında mütəxəssis kadrların hazırlığı haqqında Protokol. Ankara 2 noyabr 1992-ci il. İmzalandığı andan qüvvədədir.

19. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında kredit Sazişi. Ankara 2 noyabr 1992-ci il. İmzalandığı andan güvvədədir.

20. Çoxpartiyalı demokratiya, sülh, müstəqillik şəraitində rifah və qanun aliliyi naminə əməkdaşlıq Deklarasiyası.

21. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Komitəsi və Türkiyə Respublikası Radio və Televiziya Komitəsi arasında əməkdaşlıq Protokolu. 2 noyabr 1992-ci il. İmzalandığı andan qüvvədədir.

22. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Türkiyə Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Protokol. Ankara, 2 noybar 1992-ci il. İmzalandığı andan qüvvədədir.

23. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında investisiyaların təşviqi və qorunması haqqında Saziş. Ankara, 2 noyabr 1992-ci il. Sənəd qüvvəyə minmişdir.

24. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında konsulluq Konvensiyası. Ankara, 2 noyabr 1992-ci il.

1993

25.Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təbiəti mühafizə sahəsində əməkdaşlıq haqqında Saziş. Ankara 4 mart 1993-cü il. İmzalandığı andan qüvvədədir.

1994

26. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında elmi, texniki, sosial, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında Saziş. Ankara, 9 fevral 1994-cü il.

27. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında texniki əməkdaşlıq haqqında Protokol. Ankara, 9 fevral 1994-cü il. İmza-

landığı andan qüvvədədir.

28. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə. Ankara, 9 fevral 1994-cü il. Qüvvəyə minmişdir.

29. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol. Ankara, 9 fevral 1994-cü il. Azərbaycan Respublikası Milli Məclisinin 14 iyun 1994-cü il tarixli, 821 saylı Qərarı ilə təsdiq olunub. Qüvvəyə minmişdir.

30. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sərhəd məsələlərinin tənzimlənməsi ilə əlaqədər işçi qruplarının yaradılması haqqında Protokol. Ankara, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

31. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardıma dair Protokol. Ankara, 9 fevral 1994-cü il. Azərbaycan tərəfindən təstiq olunub.

32. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında gömrük sənəd və işarələrinin qarşılıqlı tanınmasına dair Protokol. Ankara, 9 fevral 1994-cü il. Qüvvəyə minmişdir.

33. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında idman sahəsində əməkdaşlıq haqqında Protokol. Ankara, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

34. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında kənd təsərrüfatı sahəsində elmi, texniki və iqtisadi əməkdaşlıq haqqında Protokol.

Ankara, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

35. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol. Ankara, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

36. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol. Ankara, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

37. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş. Ankara, 9 fevral 1994-cü il. Qüvvəyə minmişdir.

38. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış mülki, ticarət və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında Müqavilənin Ratifikasiya fərmanlarının dəyişdirilməsi barədə Protokol. Ankara, 9 fevral 1994-cü il.

39. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında gəlirlərin ikiqat vergiyə cəlb edilməsinin qarşısının alınması haqqında Saziş. Ankara, 9 fevral 1994-cü il. Qüvvəyə minmişdir.

40. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında siyasi məsləhətləşmələr barədə Sazış. Ankara şəhəri, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

41. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında tibbi məsələlər və səhiyyə sahəsində əməkdaşlıq haqqında Protokol. Ankara şəhəri, 9 fevral 1994-cü il. İmzalandığı gündən qüvvəyə minib.

42. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq haqqında Saziş. Ankara şəhəri, 4 oktyabr 1994-cü il. Qüvvəyə minmişdir.

1995

43. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Konsulluq Konvensiyasının ratifikasiya fərmanlarının dəyişdirilməsi haqqında Protokol. Bakı, 3 may 1995-ci il. İmzalandığı gündən qüvvəyə minişdir.

44. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq haqqında Memorandum. Bakı şəhəri, 8 dekabr 1995-ci il. İmzalandığı gündən qüvvəyə minib.

45. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Televiziya yayımları haqqında əməkdaşlıq Müqaviləsi (Razılaşma Notası). Bakı şəhəri, 8 dekabr 1995-ci il. İmzalandığı gündən qüvvəyə minib.

46. Birgə Bəyanat. Bakı şəhəri, 8 dekabr 1995-ci il. İmzalandığı gündən qüvvəyə minib.

1996

47. Azərbaycan-Türkiyə Birgə Bəyanatı. Bakı şəhəri, 14 aprel 1996-cı il. (Türkiyə Respublikasının Baş Naziri Məsud Yılmazın Bakıya rəsmi səfərinin nəticələri barədə). İmzalandığı gündən qüvvəyə minib.

48. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında Saziş. Ankara, 10 iyun 1996-cı il. Sənəd qüvvədədir.

49. Azərbaycan Respublikası

Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Silahlı Qüvvələrə yardım heyəti üzvlərinin fəaliyyət və əməkdaşlığı əsaslarına aid Protokol. Bakı şəhəri, 30 oktyabr 1996-cı il. Azərbaycan tərəfindən təsdiq olunub.

50. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Silahlı Qüvvələrinin tibb heyətinin təliminə aid əməkdaşlıq haqqında Protokol. Bakı şəhəri, 30 oktyabr 1996-cı il. Azərbaycan tərəfindən təsdiq olunub.

1997

51. Azərbaycan Respublikası və Türkiyə Respublikası Hökuməti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə. Ankara, 5 may 1997-ci il. İmzalandığı andan qüvvədədir.

52. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sərhəd məsələləri və anlaşılmazlıqlarının həlli haqqında Saziş. Ankara, 5 may 1997-ci il. 3 iyun 2000-ci ildən qüvvədədir.

53. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan-Türkiyə sərhəd xəttinin hər iki tərəfində 10 kilometrlik ərazidə həyata keçirilən mülki və hərbi hava vasitələrinin usuşlarını tənzimləyən Protokol və onun Əlavəsi. Ankara, 5 may 1997-ci il. 3 iyun 2000-ci ildən qüvvədədir.

54. Azərbaycan Respublikası Əmək və Sosial Müdafiə Nazirliyi və Türkiyə Respublikası Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. 5 may 1997-ci il. Qüvvəyə minmişdir.

55. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əlavə Protokol. Ankara, 5 may 1997-ci il. İmzalandığı gündən qüvvəyə minib.

56. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında kiçik və orta həcmli sənaye müəssisələrinin inkişafına yönəlmiş əməkdaşlıq haqqında Əlavə Protokol. Ankara, 5 may 1997-ci il. İmzalandığı gündən qüvvəyə minib.

57. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında dəniz gəmiçiliyi haqqında Saziş. Ankara, 5 may 1997-ci il. 21 dekabr 2000-ci il tarixindən qüvvəyə minmişdir.

58. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında hava daşımaları

haqqında Sazişə əlavə Protokol. Ankara, 5 may 1997-ci il. İmzalandığı andan qüvvədədir.

59. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında elektroenergetika sahəsində əməkdaşlıq prinsipləri barədə Saziş. Ankara, 5 may 1997-ci il. Qüvvəyə minmişdir.

60. Azərbaycan Respublikası və Türkiyə Respublikası Xarici İşlər Nazirlikləri arasında əməkdaşlığa və siyasi məsləhətləşmələrə dair Saziş. Bakı 8 sentyabr 1997-ci il. İmzalandığı andan qüvvədədir.

61. Birgə Bəyanat (İsmayıl Cemin səfərinin nəticələri ilə əlaqədar 8 sentyabr 1997-ci il).

62. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol. 31 oktyabr 1997-ci il. Qüvvəyə minmişdir.

1998

63. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş. Ankara, 17 iyun 1998-ci il. 9 avqust 2001-ci il tarixindən qüvvəyə minmişdir.

1999

64. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Ankara və Bakıda diplomatik nümayəndəlik binalarının inşası məqsədilə qarşılıqlı ərazi ayrılması haqqında Protokol . Bakı şəhəri, 25 iyun 1999-cu il. 3 may 2000-ci il tarixindən qüvvəyə minmişdir.

65. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı tərəfindən pul yardımı göstərilməsi haqqında Protokol. 24 iyun 1999-cu il. Qüvvəyə minmişdir.

66. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Silahlı Qüvvələrinə əvəzi ödənilmədən hərbi yardım göstərilməsi haqqında Müqavilə. Bakı şəhəri, 24 iyul 1999-cu il. 28 fevral 2000-ci il tarixindən qüvvəyə minmişdir.

67. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Kosovo Türk Taburu Görev Küvveti tərkibində Kosovoya gedəcək Azərbaycan tağımının fəaliyyətinə dair Saziş. Bakı şəhəri

28 iyul 1999-cu il. 26 noyabr 1999-cu il tarixindən qüvvəyə minmişdir.

2000

68. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Azərbaycan Respublikası Müdafiə Nazirliyi qoşun növləri ixtisas məktəbinin təşkili və təliminə dair Protokol. Bakı 5 aprel 2000-ci il.

69. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Müdafiə Nazirliyi arasında topoqrafiya sahəsində əməkdaşlığa dair Protokol. Bakı 9 may 2000-ci il.

70. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə. Bakı, 16 may 2000-ci il.

71. Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımı haqqında Protokol. Bakı, 16 may 2000-ci il.

72. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təhcizatın həyata keçirilməsi haqqında Protokol. 1 iyul 2000-ci il.

73. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri Komandanlığı arasında TcG AB-34 (P-134) hücum katerinin Azərbaycan Respublikasına verilməsi haqqında Protokol. 17 iyun 2000-ci il. İmzalandığı gündən qüvvədədir.

74. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər tərəfidən 2000-ci il iyulun 11-də Bakı şəhərində imzalanmış Birgə Bəyanat.

2001

75. Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkiyə Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Ankara, 12 mart 2001-ci il. Azərbaycan tərəfindən təsdiq olunmuşdur.

76. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Ankara, 12 mart 2001-ci il. 20 iyul 2001-ci ildən qüvvədədir.

77. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Ankara, 12 mart 2001-ci il.

78. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol. Ankara, 12 mart 2001-ci il. İmzalandığı andan qüvvədədir.

79. Gəncə (Azərbaycan) şəhəri və Qars (Türkiyə) arasında qardaşlaşmış şəhər və vilayət münasibətlərinin yaradılması haqqında Protokol. Ankara, 12 mart 2001-ci il. İmzalandığı andan qüvvədədir.

80. Şəki (Azərbaycan) və Qiresun (Türkiyə) arasında qardaşlaşmış rayon və şəhər münasibətlərinin yaradılması haqqında Protokol. Ankara, 12 mart 2001-ci il. İmzalandığı andan qüvvədədir.

81. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Birgə Bəyanat. Ankara şəhəri, 12 mart 2001-ci il.

82. Xarici Televiziya və Radio Kanallarının Türk Telekom Kabelli Televiziya şəbəkəsindən translyasiyası haqqında Saziş. Ankara, 12 mart 2001-ci il. İmzalandığı andan qüvvədədir.

2002

83. Azərbaycan-Türkiyə müştərək iqtisadi komissiyasının ikinci iclasının Protokolu. Bakı, 31 yanvar 2002-ci il. İmzalandığı gündən qüvvədədir.

84. Azərbaycan təbii qazının Türkiyə Cümhuriyyətinə tədarük edilməsinə dair Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında Saziş.

MÜNDƏRİCAT

Azerbaycan Cümhurbaşkanı, Haydar Aliyev (Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin ön sözü).....7

Ön söz (Mübariz Qurbanlı) 11

Ön söz (Türkiyənin Azərbaycandakı Səfiri Əhməd Ünal Çeviköz)15

Azərbaycanı dünyaya tanıdan lider (Bataçar Baysal) 19

Türkiyə Cümhuriyyəti 21

Türkiyə tarixindən səhifələr.....23

Parlamentlərarası əlaqələr 36

Türkiyə Cümhuriyyətinin Prezidentləri 39

Mustafa Kamal Atatürk 40

Əhməd Necdət Sezər 45

Rəcəb Tayyib Ərdoğan.....46

Büləпd Arinc 47

Abdullah Gül 48

Ədalət və İnkişaf Partiyası (qısa arayış).....49

Türkiyə Cümhuriyyətinin xarici siyasətinin əsas istiqamətləri ..50

Türkiyə - Rusiya münasibətləri 53

Türkiyə - Ermənistan münasibətləri 57

Azərbaycan - Türkiyə əlaqələri tarixindən 61

Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyə.....80

Çıxışlar, müsahibələr və görüşlər 287

Türkiyə ilə münasibətlərin qurulmasının Naxçıvan mərhələsi 287

İqtisadi əlaqələr.....369

Əsrin layihələri 388

Mədəni əlaqələr 392

Tarixi-siyasi xronika 398

Tarixi sənədlər.....497

Договор о дружбе между Императорским Оттоманским правительством и Азербайджанской Республикой 497

Дополнительный договор к договору о дружбе между Турцией и Азербайджанской Республикой.....502

Соглашение между Турцией, Азербайджанской Республикой и Республикой Грузии об эксплуатации Баку-Батумского нефтепровода 504

Соглашение между Турцией, Азербайджанской Республикой, Республикой Армении и Республикой Грузии о распределении подвижного состава закавказских ж .д. 505

Договор между правительством Азербайджанской Республики и Главным управлением военными ж.д. и портами Турции о передаче в распоряжение последнего ж.д. Азербайджана 506

Договор между Россией и Турцией 507

Договор о дружбе между Армянской ССР, Азербайджанской ССР и Грузинской ССР, с одной стороны, и Турцией-с другой, заключенный при участии РСФСР в Карсе 514

Rusiya - Türkiyə sərhədinin xəritəsi (16 mart 1921-ci il müqaviləsi əsasında).....522

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu.....523

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolunun türkcə surəti 525

Razılaşma memorandumu.....527

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi arasında Türkiyənin Naxçıvan Muxtar Respublikasına verdiyi kreditdən istifadə edilməsi qaydası haqqında protokolunun (razılaşma memorandumunun) türkcə surəti 529

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış sənədlərin siyahısı.....531

Kitabda "AzərTAC"-ın , "Qayıdış. 1990-1993", "Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev" I cild və N.Cəfərovun "Heydər Əliyev" kitablarındakı materiallardan istifadə olunmuşdur.

"Şərq Araşdırmalar Mərkəzi"nin nəşri
№ 6

"HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ"
Türkiyə
(şəkilli)

Naşiri Hikmət HÜSEYNOV
Nəşriyyatın direktoru Eldar ƏLİYEV
Mətbəənin direktoru Səhraf MUSTAFAYEV
Fotoqraf Rafiq BAĞIROV
Rəssamı Firuzə SULTANZADƏ
Texniki redaktor Fərid KƏRİMOV
Redaktor Barat TALIBOV

Yığılmağa verilib 15.10.2004. Çapa imzalanıb 03.01.2005.
Formatı 70x100 1/16. Ş.ç. v. 34. Sifariş № 201.
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi
Bakı, M.Müşfiq küç., 2a